AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QARABAĞ:

# FOLKLOR DA BİR TARİXDİR

## III KİTAB

**(Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri)**

BAKI – 2012

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**“Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması” adlı layihə əsasında çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ:** **fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**

**TƏRTİB EDƏN:** **fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**REDAKTOR:** **fil.ü.f.d. Mətanət ABBASOVA**

**NƏŞRİNƏ MƏSUL:** **fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Qarabağ: folklor da bir tarixdir, III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri)**. Bakı, “Elm və təhsil”, 2012.

İSBN – 9-789952-810875

A $\frac{4603000000}{N-098-2012}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2012



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## TƏRTİBÇİDƏN

Bu kitab AMEA Folklor İnstitutunun "Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması" adlı layihə çərçivəsində oxuculara təqdim etdiyi üçüncü kitabdır. İlk kitabda olduğu kimi, bu cildə də, əsasən, işğal olunmuş ərazilərdən (Ağdam, Cəbrayıl, Zəngilan, Laçın, Şuşa, Füzuli və Kəlbəcər rayonlarından) toplanmış folklor nümunələri daxil edilmişdir.

Qeydə alınmış folklor örnəkləri bir daha göstərir ki, doğma torpaqlardan didərgin düşmək yalnız insanların məişətində deyil, həm də bu bölgənin folklorunda, şivəsində müəyyən dəyişmələrə səbəb olmuşdur. Məsələn, Şəkidə məskunlaşmış Cəbrayıl rayon sakini Alı İbadovun söylədiyi mətnlərdə Şəki üçün xarakterik *o-u* əvəzlənməsinə, söz sonlarında şəkilçilərin qalınlaşmasına (məsələn, *görüşax, getmağ, neyliyax*), Saatlı rayonunda məskunlaşmış Laçın rayon sakinindən qeydə alınmış mətnlərdə Saatlı şivəsinə aid səs dəyişmələrinə, söz və ifadələrə (məsələn, *nəşə (niyə), mıyi (bunu)* və s.) rast gəlmək olur. Doğrudur, Qarabağ sakinlərinin kompakt yaşadığı ərazilərdə (məsələn, qaçqın şəhərciklərində) bu hal o qədər də müşahidə olunmur, amma onların pərakəndə, dağınıq halda yaşadığı bölgələrdə yerli sakinlərin təsiri özünü açıq-aşkar göstərir. Məskunlaşdıqları mühitin təsiri ilə nəinki bu insanların şivəsi, eyni zamanda onların repertuarı da dəyişməyə məruz qalmışdır. Məsələn, Cəbrayıl rayon sakinindən Nadir şahın Şəkiyə hücumu ilə bağlı rəvayət qeydə alınmışdır. Təbii ki, Cəbrayıl üçün xarakterik olmayan bu rəvayəti həmin söyləyici Şəkidə məskunlaşdıqdan sonra eşitmişdir.

Bu kimi faktlardan çıxış edərək deyə bilərik ki, bir neçə ildən sonra mühitin təsiri ilə köçkünlərin repertuarı, dialekt və şivəsində daha ciddi dəyişikliklərin olacağı qaçılmazdır. Nə qədər ki bu insanların repertuarı, dialekt və şivəsi ciddi dəyişikliyə uğramayıb, onlardan Qarabağ folklorunu toplayıb sistemləşdirmək lazımdır.

Topluya daxil edilmiş materialların böyük əksəriyyəti 2012-ci ildə Ağdam, Füzuli, Tərtər, Cəlilabad rayonlarına, eləcə də Bakı şəhərində, İmişli, Saatlı rayonlarında məcburi köçkünlərin yaşadıqları qaçqın düşərgələrinə folklor ezamiyyələri zamanı toplanmışdır. Əvvəlki toplularda olduğu kimi, bu topluda da mətnləri söyləyicinin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dil və üslubuna toxunmadan, şifahi nitqin sintaksisini gözləməklə oxuculara təqdim edirik. Onu da qeyd edək ki, çap olunmuş mətnlər, əslində, qeydə alınmış nümunələrin bir hissəsini təşkil edir. Biz qeydə alınmış nümunələr arasından seçib daha keyfiyyətli və sanballı olanları toplulara daxil etmişik, çap olunmayan nümunələr isə Folklor İnstitutunun arxivinə təhvil verilmişdir.

Layihə əsasında işıq üzü görən bu toplularda 125 mifoloji mətn, 346 əfsanə və rəvayət, 180-dən artıq nağıl, 170 lətifə, 400-dən artıq atalar sözü, 1000-ə yaxın bayatı, həmçinin laylalar, oxşamalar, düzgülər və uşaq folkloruna aid digər nümunələr çap olunub oxuculara təqdim edilmişdir. Toplama işi nəticəsində indiyə qədər Azərbaycanda qeydə alınmamış 20-yə yaxın nağıl süjeti aşkar edilmişdir. Hacı Qaraman, Hacı Qasım Çələbi, Alı Çələbi, Seyid Nigari, Seyid Həsən ağa, Seyid Füqəra, Seyid Məhəmməd ağa və b. şəxsiyyətlər haqqında, eləcə də Qarabağdakı müxtəlif yer adları barədə onlarla rəvayət və əfsanə də ilk dəfə işıq üzü görən nümunələrdir. Toplama işi nəticəsində Molla Lətif, Soltan bəy, Hacı Şirin, Bic Qənbər kimi yeni-yeni personajlar aşkar edilmişdir. Bu layihə çərçivəsində Bəhlul Danəndə haqqında 24, Abdal Qasım haqqında 18, Kəlniyyət haqqında 1 mətn tədqiqatçılara təqdim olunur ki, bir çox digər nümunələr kimi bu mətnlərin də bir qismi yeni süjetlərdir. Yeni mətnlər Bəhlul Danəndə, Kəlniyyət, Abdal Qasım haqqında təsəvvürümüzü dolğunlaşdırmaqla yanaşı, həmin personajların daha ətraflı öyrənilməsinə yaxından kömək edir.

Qarabağ kimi geniş bir ərazinin folklorunu qısa müddətdə toplamaq və bölgəyə daxil olan bütün rayonları bu baxımdan əhatə etmək qeyri-mümkündür. Toplulara diqqət yetirsək, aydın olar ki, Ağdam, Cəbrayıl, Ağcabədi, Bərdə, Qubadlı, Zəngilan rayonları bu kitablarda daha geniş materialla, digər rayonlar isə ya az sayda materialla təmsil olunmuş, ya da ümumiyyətlə, həmin rayonlara ezamiyyələr təşkil edib toplama işi aparmaq hələ ki mümkün olmamışdır. Bu, bir daha göstərir ki, Qarabağ folklorunun toplanması bir ilin işi deyildir. Heç şübhəsiz, bu iş davamlı olmalı, Qarabağın bütün rayonlarına və məcburi köçkünlərin məskunlaşdığı bütün məntəqələrə ardıcıl ezamiyyələr təşkil etməklə bütövlükdə bölgəni əhatə edə biləsi yeni-yeni toplular ortaya qoyulmalıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# I
# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1. İNSANIN YARANMASI

Allah bəndəni yaratmağ isdiyirmiş. Onun özünün neçə dənə mələyi varmış. O mələklərdən hangisini göndərifsə yerdən torpağ gətir, torpağ qışqırıf. Heş biri gətirə bilmiyif. Yenəndə torpağ elə vahimə çıxardıf ki, məni götürmə. Axırda bu mələklərin heş biri yarıtmır, Allah Azreyili çağırır. Deyir ki, get torpaxdan bir az götür gəl.

Deyir:

– Qurban olum, axı bir belə mələklər gedib torpaxdan götürə bilmiyif. Torpax vahimə çıxardır ki, mənnən götürməyin, yaralamayın məni.

Torpax da özü bir cannıdı. Axırı Allah-tala əmr eliyir ki, mən saa deyirəm, get götür gəl. Azreyil yenir torpağın üsdünə. Torpax vahiməsini qaldırır, çığırır, bağırır:

– Yox, maa toxunma, məni yaralama.

Deyir:

– Ə, sənnən aparıramsa, saa qayıdacağ.

Onçun görürsən, deyir, insan torpaxdan yaranıf, torpağa da qismət olacağ. Get indi yüz illik, min illik qəbri aç, gör orda bir şey qalıb? Torpağ oluf, çıxıf gedif. Onnan sora torpax rahatçılıx tapıf. Deyif ki, əgər maa qayıdacaxsa, olar.

## 2. QARAÇUXA

### I mətn

Bir tanış var idi. Bir günnəri gəldi maa dedi ki, ay Musa, səə bir söz deyim. Dedim ki, deginən. Dedi:

– Filankəsin qoyununa oğurruğa gedirəm. Ayə, bu kopoğlu yatmır. Nə vaxt gedirəmsə, qoyunun qırağında palto çiynində dik duruf.

Dedim:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, lap beş gejə dursun. Nə qədər oyax qalajax ki, kəlləsini qoyuf yatajax da.

Çox getdi gəldi. Dedi ki, qoyunun hansı kəlləsinə fırranıram, orda duruf. Bax, beləjə söykənif ağaja, duruf orda, palto da çiynində. Dedim ki, bilirsən nə var? – Dağ yerində qoyun duz yeyəndi. Qoyuna duz verməsən dağ yerində qoyun qalmaz. Belə daş duz olur. Onu deşirdih, ipi bağlıyıf dağdan yumbalıyırdıx, gedif düşürdü qoyunun içinə. O baş-bu baş çəkirdih, qoyun onun dalınca gəlirdi, götürüf gedirdih. – Dedim:

– Duzu apar, qoyunu allat çıxart.

Üş-dörd günnən sora soruşdum ki, noldu? Dedi ki, qoyun duza gələn kimi gəlif qoyunu qaytarır geri, imkan vermir. Bir ay heylə çalışdı. Dedi:

– Ə, bu yatmır.

Bunu bir ay izdədim. Bu yazıx səhər tezdən ağacı götürüf gedir qoyuna, axşam gəlir, səhəri dik açır. Belə şey olmaz. Bunu evdə anama sual verdim. Dedim ki, ana, insan neçə gün yatmaz?

Dedi:

– Uzağı bir gün, iki gün. Saa noluf ki, kim nə deyir?

Dedim ki, filankəs yatmır ey. Gündüz qoyunu otarır, gejə dik durur qoyunun qırağında.

Dedi:

– Bala, o özü döyül, onun qaraçuxası qoyunun qırağında durur, varını gözdüyür. O vara yaxın getmək günahdı. O kişinin halal malıdı.

Dedim:

– Nətər halal malıdı?

Dedi:

– Oğurrux olsa, o kişinin malının içində bir dənə haram olsa, qaraçuxası dik durmaz. O kişinin halal malı olduğuna görə qaraçuxası dik duruf böyründə. Ona əl uzatmax özü günahdı.

**II mətn**

Hər evin bir qaraçuxası olar. Ya atada olur, ya anada olur, ya nənədə olur, ya qardaşda, ya bacıda. Onun kimdə olduğunu heş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vaxt müəyyənnəşdirmək olmur. Əgər o evdə qaraçuxa məhv olsa, demək oranı kin-küdurət basar, azar-bezar olar, urzu gödələr. Bax, onda deyəllər filankəsin qaraçuxası yatdı. Hamıda ola bilməz, birinin üsdündə gəzir o qaraçuxa. Aylədə yeddi-səkgiz adam olsun, onun birinin üsdündədi o qaraçuxa. O idarə eliyir. Görürsən, deyillər filankəs yaman tezdənnən durur, saat beşdə-altıda durur. Onu qaraçuxa durğuzur ey.

## 3. FATMA ANANIN HANASI

Fatma ana hana qurub, hana toxuyurmuş. Hana toxuyan vaxtı yağış yağıfdı. Yağış yağanda, axı hana qalıb orda – yağışın qabağında. Elə deyiblər ki, aya, Fatma ananın hanası qaldı yağışın qabağında, Fatma ananın hanası qaldı yağışın qabağında. O da üç rəngmiş: yaşılmış, qırmızıymış, bir də ağ imiş. – Elə bizim bayrağımızın da bir suyumu ona oxşuyur e. – Elə o vaxdan göy qurşağına Fatma ananın hanası deyillər.

## 4. QURD DONUNA GİRƏN QADIN

### I mətn

Bir arvadın üç balası və bir əri varıymış. Bı durur günüzdən xəmir qatır. Bunun xəmiri çoxlu gəlir. Hə... Axşam düşür, bının vaxdı olmur xəmiri bişirməyə. Xəmir qalır. Gecə bı arvad durur, aydınnığa* suya girir. Suya girəndə Allah tərəfinnən bının boğazına canavar xəltəsi keçir. Bı gedir qoşulur canavarrara. Əri ha gözdüyür, ha gözdüyür, bı gəlib çıxmır. Bının adı da Zəhra olur. Çıxır deyir:

– Ay Zəhra, xəmir pırt-pırt.

Əri deyir ki, ay Allah, görəsən bı haana getdi? Birdən bı görür ki, uzaxda bir xeyləğ canavar ulaşır. Görür ki, arvadı da gedib qoşulub canavarrara, gedir meşiyə. Deyir:

– Ay Allah, sənə qurban olum, belə möcüzəmi olar? Bının nə günahı var idi ki, bı günə qaldı.

---

* aydınnığ – ay işığında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bı minvalla Zəhra iki il qoşulur bu canavarrara. Allahdan rüxsət gələndə bıllar gedir ilxıdan bir heyvanı seçir, ya qoyun olsun, ya at olsun, ya mal olsun, onu yeyillər. Nəysə, Allah bulara icazə verəndə yeyillər, icazə vermiyəndə ağız-ağıza verib yatışıllar. Bu qadın o qədər tük gətirir ki, canavarrardan betər olur. Dişdəri də yekə-yekə uzanır.

Bir gün olur, bunun meylinə düşür ki, gedim balalarımı görüm, gəlim. Gəlir balasını görməh əvəzinə balasının birini götürür aparır, yeyir. O qədər bının avcının içi şirin imiş ki, bu daddıxca ağzının suyu tökülürmüş, dişdəri şakqıldayırmış. Gözünün yaşını tökə-tökə bı, balasını yeyir. Allahın əmridi, neynəsin? Hə... Bir ay keçənnən sora bı, genə gəlir balasının birini də götürür, yeyir. Duyux düşüllər, görüllər ki, bı, uşaxların elə öz anasıdı, gəlib balalarını aparıb yeyir.

İki ildən sora bı genə adam cildində gəlir, qayıdır insannarın içinə. Allaha qurban olum, Allah bının günahınnan keçir, bını adam cildinə salır, gətirir həyata. Bı gələnnən sora özü öz diliynən nağıl eliyir ki, bizə Allah-tala bax, belə buyurur ki, bı işdəri görün, biz də gedib eliyirdih. Filankəs deyəndə ki, malımı, qoyunumu qurt-quş yedi ha, bını qurt-quş yemirdi. Biz qalırdıx ac, Allaha üz tuturdux, Allah onu bizə bəxş edirdi, biz onu yeyirdih. Ona görə də, qurban olum Allaha, Allahın işinə heş kim qarışa bilməz.

**II mətn**

Bizim kəntdə arvad vardı, adı Qızyetər idi. Deyirdilər ki, qurt donuna girən Qızyetər. Deməli, guya qurt gəlir, donunu atır bunun çiyninə, bu olur canavar şəklində. Anam deyirdi, şəxsən mən gözümnən görmüşəm ki, canavar kimi uluyur. İsdədilər ki, onu tilsimdən çıxardallar. Çıxardammadılar, gülləynən vurdular, öldürdülər.

Qurdun kürsə gedən vaxdı idi. Bu gəlif, qurd bunu çəkif, donunu atıf arvadın üsdünə. Arvad olufdu canavar. Bularnan barabar gedif gəzif gəlirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 5. OVUN İNSANA DÖNMƏSİ

Bizim kəndimizin bir ağır seyidi varmış. Bir gün olur bının av meylinə düşür. Deyir bir çıxım ava. Bir dənə də oğlan düşür bının dalınca. Deyir:

– Seyid, mən də sənnən gedim.

Deyir:

– Yox, ola bilməz, sən gəlməginən.

Gedir çıxır bir təpənin başına. Nə çarə eliyir, bı oğlan qayıtmır. Deyir ki, sən məni qaytarırsan, mən qayıtmıyacam. Mən də sənnən gedəcəm. Deyir ki, yox, mən tək getməliyəm. Bu belə deyəndə, bı oğlan bir az daldalanır, yolunu dəyişir, başqa yolnan gedir.

Qurban olum, bı seyid çıxır bir təpədə durur. Bı təpədə durannan sora görür ki, bir dənə qəşəh, yekə bir əlih gəldi durdu bunun qabağında. Tüfəyi sazdıyıb bına tuşduyanda bı əlih çevrilib olur bir gəlin. Möcüzədi də bı, qurban olum Allaha. Bir də isdiyir tüfəyi çəksin düzəltsin, bı olur əlih. Üş dəfə bı tüfəyi nişan alanda bı əlih gah olur bir gəlin, gah olur əlih. Bı oğlan da – bunun dalınca gələn oğlan keçir bunnan irəli. Qurban olum Allaha, qismətdən artıx yemək olmaz. Görür ki, tüfəh səsi gəldi. Bı seyid bı əlihnən o qədər əlləşir ki, bı gah gəlin olur, gah əlih, tay bezir. Tüfəh səsi eşidəndə gedir səs gələn tərəfə. Deyir:

– Gedim görüm bı nə səs idi.

Gedir görür haman bının dalınca gələn oğlandı. Bir dənə qəşəh əlih vırıb, soyur. Deyir:

– Bəs sən hardan gəldin?

Deyir:

– Bəs sən məni qovdun, buyankı yolnan getdim.

Deyir:

– Səhərdənnən mən qalmışam o təpədə. Bir əlih görmüşəm, olub gəlin, olub əlih. Qalmışam əlində. Demə, elə qismət səninki imiş. Mən niyə belə elədim? Mən səyf elədim sənə dedim ki, gəlmə. Elə qismət sənin imiş. Sən ki şikarı vurdun, gedək bını bölək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 6. İTƏ DÖNMÜŞ İNSANLAR

Kəntdən bir nəfər sürgün olunmuşmuş, Aybasannıdan idi. Axı o vaxdı sürgün eliyirdilər. Ordan indi qayıdıf gəlirmişdər. Gəliflər, gəliflər, görüflər bir dev qoyun otarır. Deyif:

– Gəlin, gəlin.

Bırasınnan bir təhnə çıxardıf, qolunun altınnan çörəh çıxardıf doğruyuf. Qoyunu sağıf, bıllara verif, yedizdirif. Qayıdır bılları aparır əvə. Aparır əvə, ojağı qalıyır. Yerin altında böyüh əvi varmış, onun qapısına dəyirman daşı qoyurmuş. Bını devdən başqa heş kəs qaldıra bilmirmiş. Ojağı qalıyır, bınnarın bir babatın çəkir şişə. Qoyur ojağa, yeyir, yatır. Bı ikisi qalır. Deyillər:

– Biz nətər eliyəh ki, dəyirman daşını götürəh.

Şişi qoyıllar ojağa. Bircə də gözü olur e, alnında. Qoyıllar ojağa, duruf adama bir qoyın soyullar ki, bürünəh. Bı, qıçının arasınnan qoyunu bir-bir çıxardanda qaçarıx. Hə, o şişi götürüllər, basıllar bının gözünə. Yatmışımış, çığırır, çığırır, durur. Dəyirman daşını götürür, qıçının birini o qapının arasına qoyur, birini bı qapının arasına qoyur, bırdan bir-bir qoyunu çıxardır çölə. Bıllar dərinin içində çıxıf qaçıllar. Nağıl yox, elə düzü oymış e… Dedihlərini deyirəm. Gəlillər, gəlillər bir mahala çıxıllar. Deyillər ki, bizi qonax saxlıyarsız?

Deyillər:

– Hə.

Bir talvarrarı varmış. Deyillər:

– Gejələr biz it oluf darışırıx bir-birimizin canına. Çıxın oturun o talvarda, hamma nərdivanı da çəkin qoyun yanıza.

Deyir, heylə çıxıf oturuflar talvarda, nərdivanı da çəkif qoyuflar yannarına. Səhərəcən bıllar it oluf darışıf bir-birinin canına, səhər olanda oluflar adam. Qayıdıf ordan düşüf gəliflər Arazın qırağına. Görüflər ki, iki dooz – çöl doozu Arazın bılar olan tərəfində otduyullar. Gözdüyüllər, gözdüyüllər, elə bılar suya girəndə hərəsi birinin üsdünə atılır, o dooz da öldürərdi e, olları. Doozdar oları çaydan keçirdir. Suyun qırağına çatan kimi düşüllər. Bı doozdar qa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çır. Biri Aybasannıdanımış. Gəlif o nağıl eliyirmiş. Bax, belə başımıza işdər gəldi o vaxdı. Gəlif heylə çıxmışımış əvlərinə.

## 7. ŞEYTAN

### I mətn

Deyillər ki, Allah-tala özü vahimədən, nə bilim filan-bəsmənnən uzağ olmaxçün çəkilif qəlbiyə çıxanda şeytan əl atıf tutuf ətəyinnən. Deyif:

– Mən yaranannan saa qulluğ eliyirəm. Neyçün maa bir şey tapşırmırsan?

Deyif ki, axı sənə nə tapşırım, nə verim? Deyif ki, mən sənnən bir şey xayiş eliyirəm. Deyif:

– Nədi?

Deyir:

– İnsannarın qəlbini.

Deyif:

– İnsannarın qəlbini də saa verirəm, Allahın nəhlətini də.

Şeytanı da Allah yaradıf ey, amma Allah ona axırda heylə bir cəza verif. Şeytan insanın qəlbinə girəndə nə istəsə eliyə bilər. Deyif ki, insanın qəlbini də verirəm saa, Allahın nəhlətini də saa verirəm. Şeytan insanın qəlbinə girəndə desə ki, Allah saa nəhlət eləsin, o saatı hər şey soyuyar, çıxar gedər. O adamın əlinnən xəta çıxmaz.

### II mətn

Bir gün bir kişi yola düşüb səfərə gedirmiş. Görür ki, bir dənə qaratikanın başında bir şeytan elə ağlıyır, elə çığırır ki, qalıb göydən asılı, qaratikanın başında. Deyir:

– A şeytan, niyə ağlıyırsan?

Deyir:

– Atam-anam məni gəzir, hər kəs məni burdan yendirsə, atam-anam onu dünya malıynan qani edəcək.

Dünya malı şirin olur. Bu kişi gedir bu şeytanı qaratikanın başınnan bir zulumnan yendirir. Yendirəndə şeytan buna deyir ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mən səə dünya malı dedim, amma sən dünya malına axınmaginən*. Mən səə nə desəm ona qulax verginən, gör nə deyirəm. Mənim atam-anam məni görəndə çox sevinəcək. Sənə dünyanı, xəzinəni baxşış verəcək. Sən onu götürməginən.

Kişi deyir:

– Vaxtaş ki heylədi, bəs mən onda neyniyim?

Şeytan deyir:

– Atama deginən ki, dünyanın malı, o xəzinə mənə lazım deyil, sən mənim özümkünə dəyməginən.

Deyir:

– Yaxşı.

Bular gedir, evə yaxınnaşanda bu şeytanın ata-anası durullar ayağa, deyillər:

– Ay Allah, sənə min şükür, balamız sağdı.

Bunun ata-anası deyir:

– Ay kişi, gəl sənə xəzinə, baxşış verək.

Kişi deyir:

– Sənin dünya malın mənə lazım deyil. Oları qoy dursun, mənim öz xəzinəmə dəyməginən.

Şeytan deyir:

– A kişi, sən nə gözü-könlü tox adamsan. Bəs axı sən mənim balamı qaratikanın başınnan xilas etmisən. Bəs mən sənin qulluğunda neyniyim?

Kişi deyir ki, bu dünyanın hamısı sənindi. Alan da sənsən, verən də sənsən, tikən də sənsən, sökən də sənsən, paydan çıxan da sənsən. Vaxtaş ki belədi, məə sənin heş nəyin lazım deyil. Təki sən mənim balama dəyməginən. Mənim balam mənə, sənin balan sənə qismət olsun.

Ona görə belə bir misal var atalar arasında: Şeytan bala paylıyır. Atalar deyir: “Balası lazım deyil, bizim balamıza dəyməsin”.

---

* axınmaginən – meyl etmə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 8. HAL HAQQINDA

### I mətn

Kənt yerrərində belə bir adət var ki, öz şəxsi mal-qaralarını aparıllar, yaylım deyillər, yaylıma. O kişi də götürüp aparmışmış yaylıma. Malları ötürür, özü daxil olur zəmiyə ki, sünbüllərdən bir az dərsin. Sütül vaxdı yeməli olur. Sütülü yesinnər, ya uşaxları yesin, ya özü yesin. Daddı olur sütül. Bu vaxt görür kü, bir çılpax qadın üzü o tərəfə oturup, döşdərini, necə deyəllər, sığallıyır. Bunnan irəli keşmiş babaların böyründə sancağı olarmış. Çıxardır onun yaxasına taxan kimi bu tərpənə bilmir. Deyir:

– Allah saa insaf versin, məni sən niyə yolumnan elədin, indi uşaxlarım ağlıyacax.

Artıx çevrilir olur adi bizim kimi bir insan. Demiyəsən, bu mələyimiş. Gedir görür bu məlahdi, haldı. Sora heyvannarını da götürür, onu da götürür gəlir. Camahat eşidir belə-filan…

– Ə, bu nə hak-hesabdı?

Deyir:

– Ay camahat, gəlin. Bəs Allah tərəfinnən qayıb olan bir dənə halı tutmuşam.

Bu hala nə deyillər onu tərs eliyir. Get odunu gəti, suyu gətirir, suyu gəti, odunu gətirir. Tərsinə iş görən bir halıdı. Ancağ iş görən idi. Deyim iş görmürdü, yox, iş görən idi. Bunu işdədillər bir ay, iki ay. Camahat axırda xayiş eliyir ki, Allaha acıx gedər, bunu burax getsin.

Deyir:

– Yox, elə hazır mənim üçün işçi qüvvəsidi.

Bunu buraxmır. Sora günnərin bir günü bunnar çəkilip, tay görür bu örgəşip bura, harasa gedillər, bağa, ya haramı, evdə böyühlərdən qalmıyıp. Uşağa deyir ki, bala, bala, bunu aç, gətir bu tərəfdən bağla. Uşağı alladır. Bilir ki, uşağı allatmağ olar da. Uşax da tez deyir:

– Hə, hal xala, olar, yaxşı.

Yaxınnaşır, elə bu zadı çıxardan kimi hal yox olur. Kişi gəlir, arvat gəlir, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, bunu kim belə elədi?

Uşax dedi:

– Bəs bunu mən elədim, bilmədim, belə elədim.

Beləliknən, hal aradan çıxır. Deyilənə görə, gedir qarğış eliyir. O adamın, onu tutup gətirən kişinin var ha, onun evində yeddi il ağır yoxsulluğ olur, pis hadisələr baş verir, arvadı irəhmətə gedir, oğlu vaxtsız irəhmətə gedir. Varı-zadı hamısı əlinnən çıxır onun qarğışına görə. O mələyimiş, onnarın qarğışı yaman bərk olur. Onnan sora hamıya yayılır ki, həqiqətən də, belə varlıxlar var həyatda.

**II mətn**

Bir qadın olur, uşax dünyaya gətirir. Qapıdan çıxanda bu gəlinin, elə bil, hal ciyərini çəkip götürüp gedir. Hay düşüp kü, gəlin öldü. Uşax qutarannan sora gəlin öldü. Mənim babam tüfəyi götürür, gedir suyun üsdünə. Deyir, indi hal harda olsa, gələcəh suyun üsdünə. Gözdüyür, görür hal budu, gəlir, bu gəlinin içini-içalatını çıxardıp, alıp qucağına aparır ki, suya çəhsin, yesin. Suya çəhməmiş tüfəyi tutur. Deyir ki, çəhmə suya, hardan gətirmisən apar qoy ora. – Bu gəlini götürüllər ölü yerinə, bunu kəfənnəsinnər da, ölüpdü. – Deyir:

– Apar, daxil elə yerinə.

Daxil eliyir yerinə. Bir sahatdan sora bu gəlin ayılır. Gəlip deyir ki, baba, sən neylədin?

Deyir:

– Mən bildim bunu hal çəkib, aparır suya çəhməyə. Bu suya çəhsə, gəlin dirilmiyəcəh, öləceydi. Onun qabağını kəsdim mən, qəytərdi gətdi daxil elədi yerinə, o gəlin durdu, ayıldı.

Məclis dağıldı. Dedilər ki, sən sınanmış bir ocaxsan, saa heş kəs toxuna bilməz. Sənə inandıx. Bu gəlini qaytardın dünyaya.

**III mətn**

Babam keçənin üsdünü qırlıyıf, sarıyıf atın belinə. Hal atı minəndə onu tutuf. Özü də qadınmış. Dağdan gəlif arana, aranda qalıf. Bir də dübarə dağa gedəndə Qannı göl deyirih biz – rəhmət-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dih dədəm söhbət eliyirdi, mən də onda bozbala* gədəyəm, – orda nənəm xəmir yoğururmuş, su çatmır. Gəldi nənəmə dedi ki, gedif göldən su gətirim. Su gətirməyə gedəndə, dədəmin Şirin addı əmisi oluf, buna deyif ki, bu iynəni burdan çıxart, barmağıma tikan batıf onu çıxardım. İynə çıxannan sora özünü atıf suya. Nəkqədər o xəmiri yoğurdular, xəmir qutarmadı. Axırı, deyir, nənəm getdi gölün qırağına. Adını da Firəngiz qoymuşdular. Dedi:

– Firəngiz, biz nağayrax xəmir qutarsın, xəmir qutarmır axı.

Sudan səs gəlir ki, get onnan bir kündə gətir, at bu suya. Bir kündə gətirif atıflar, onnan sora xəmirin dalı kəsilif. Gülgəz nənəmə deyif ki, mən sizə başqa qarğış eləmirəm. Yeddi nəsil evizdən zibil kəm olmasın. Biz hələ dördüncüyük. Onnandı ki, zibilimiz əysik olmur. Lap evdə heş kim olmasın, gedif görürdüh ki, genə ev zibillidi.

### IV mətn

Şofer Valehnən rayonnan gəlirdih. Daş Veysəllidə kəhrizdər vardı. O kəhrizin üsdündə ikisi oturmuşdu. Valehə dedim ki, əyə, saxla, gedif onnarı tutax. Maşın saxlamaxnan özdərini buraxdılar suya. Getdih ki, su ləpələnirdi.

Hal nənəsi iri şeydi, canlı arvad kimi. Dodax qəlin, alt dodağı sallanır. Barmaxdan yoğundu dodağı. Tükü-başı hamısı pırpız. Sol döşünü sağ çiyninə atmışdı, sağ döşünü sol çiyninə. Hardasa döşünün uzunnuğu bu boyda idi (qurşağa qədər – top.). Mən onu gördüm. Çılpax idilər.

### V mətn

Rəhmətdih qardaşım mənnən böyük idi, onnan gedirdik çayın qırağıynan. Gedəndə gördüm kanalda bir qadındı. Mənim gözümə göründü. Qardaşıma dedim. Dedi ki, orda heş-zad yoxdu. Gördüm belə ağ qadındı, döşdəri bax bura düşüf (qurşağa qədər – top.). Suyun içində oturufdu. Döşdərini suya salıf atır çiyninə. Bu mənim gözümə görüküf. Qardaşıma dedim, dedi orda heş-zad yoxdu. Nə danışırsan?

---

* bozbala – 12-13 yaşında uşaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### VI mətn

Hal anası bir qərivə arvatdı. Pıttaşıx saşdarı, sallax döşdəri, yekə seyrək dişdəri var. Hirsdənəndə hər döşünü bir çiyninə atır.

### VII mətn

Mən uşaxdım. Yadımdadı, qonşumuzda arvatdar zahı yatan-da, gəlif mənim anamın paltarın aparıf onun başının altına qoyurdu-lar ki, sizin nəslız onnan (haldan – top.) tovbalıdı. Guya bizim babalarımızdan birinin yoldaşı zahı yatmışmış. Kişi özü evdəymiş. Kişi görüf ki, bir dənə hal gəlif bajadan sallanıf, belə baxır. Döşdəri sallanıf, çiyninnən geriyə atırmış. Kişi duruf gizdincənə içəridən çıxır. Asmalıx deyirdilər, onun üsdünə iynə sancırdılar ki, əl atanda götürsünnər. İçinə də sap, düymə yığırdılar. Nejə ki, indi mücrülərə yığıllar, heylə. Onu da bəzəhli toxuyurdular rəhbərəh ipdən. Babam gedir iynəni bırdan çəkir, yorğan iynəsini, gizdincə hərrənir gedir bacanın üsdündə onun paltarına sancır, tay qaça bilmir. Bını götü-rür aparır qonşuya, üş-dörd gün saxlıyır. Deyir, ağlıyırmış ki, uşağı-m var, yəqin acınnan öldü, məni boşdayın gedim. Deyir, sora iynə-ləri bınnan çəkillər, bir dənəsini çəhmillər. Deyir ki, yox ey, üsdümdə nəsə var, gedə bilmirəm. Axırıncı iynəni çəkəndə yox olur. O da yadımdadı ki, kimsə zahı yatanda gəlif anamın qoftasını, tumanını aparırdılar ki, sizin nəsliniz cinnən, şeytannan tobalıdı.

### VIII mətn

Mənim böyüh bajım danışırdı ki, hal dayımın yoldaşının üs-dünə gəlif. Onun da uşağı olajaxmış, hamiləymiş. Deyillər, o vaxtı hal hamilə qadınnarın üsdünə gəlirmiş. Babamın adı Süleyman oluf. Səs eşidif. O vaxt da camaat miçətkənin içində yatırmış axı. Babam o vaxt halı tutmuşdu. Halı saxlıyırdı, işdədirmişdər. Sora onun orda uşağı oluf. Deyif:

– Gedirəm bulağa su gətirməyə, əliizi vurmuyun, uşağın üzünü aşmax olmaz.

Babam dayımgilə-zada tapşırıf ki, əl vurmuyun. Dayımgil də uşax imişdər də, olara da maraxlı oluf da, görələr uşax necədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir, gərəh qırx gün üzünü aşmıyasan. Dayımgil üzünü açıf, uşax ölüfdü. Anasına ayan oluf. Qaçıf gəlif evə. Deyif ki, Süleyman kişi, maa halallıx ver, mən gedim. Məəm uşağım öldü, burda mən qala bilmərəm. Babam halallıx verif. Deyif ki, ancax söz ver ki, yeddi arxadönənaa dəyif dolaşmıyajam.

Deyif:

– Gedirəm, yeddi arxadönənaa dəyif dolaşmıyajam. Amma səni görüm yeddi arxadönəninin küncünnən-bucağınnan zibil əysih olmasın.

Həqqi də, tezdənnən mən əyax üsdəyəm. Ha yığıf-yığışdırıram xeyri yoxdu, tör-töküntü olur.

**IX mətn**

Bir arvad tək çıxır dağın başına, bir damka tikif orda olurmuş. Ayləsi də varmış, tək yaşıyırmış. Bu zahı yatır. Daa şəriyətdi, deməliyik. O vaxdı pəncərə nə gəzir, baja vardı. Bajadan hal gəlir. Arvat qorxax arvad dəəlmiş. Deyir: “Hərrən gəl qapıdan, mən qapını açajam”. Qapını açır, bı halı tutur. Tez üsdünə iynə sancır, sancax sancır. Nəysə, bir müdət bını saxlıyır. Deyirmiş, “tez gəlginən” gej gəlirmiş, “gej gəlginən” deyəndə tez gəlirmiş. Belə-belə bını bir müddət işdədir. Deyir ki, mənnən nə diliyirsən, dilə. Bı arvadın da nə bilim, ağlına heylə gəlir, dilinə gəlir, deyir ki, zibil. Zarafatyana deyir da, bilmir bı neyniyə bilər. Bu elə bil yeddi arxadönəninə qədər gedir. Bir müddət bını işdədəndə deyir ki, get su gətir. Gedir bir kadına deyir ki, bı sancağı aşginan, nolar. Açanda yoxa çəkilir.

Bu qadın çox qoçax oluf. Bir gün damın pəncərəsinnən ayı isdiyif girə içəri. O vaxdı ojax qalıyırmışdar da. Bu közü yalın əliynən götürər, ayını qavalıya-qavalıya aparar gəzdən keçirər. İndi o gəzin adını Mapəri gəzi* qoyufdular, dağın lap kəlləsindədi.

**X mətn**

Deyillər ki, zahıya toxunuflar yuxuda, ağlı başınnan çıxıf, dəli kimi olur. Mənim anam söhbət eliyip yanımda. Deyir ki, nənəmin

* Kəlbəcər rayonunda yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

babası dəyirmançı oluf, nənəm dağlı qızı oluf. Görüf ki, başında teşt bir arvat, alaşa* arvat teşdəkini suya verir dəyirmanda. İrəllər dəyirman suynan işdiyirdi. Elə mənim kimi hazırmış, iynəni sancır arvadın üsdünə ki, qoy yerə teşdi. Gəlinin ciyarını çıxarıf bir belə suya vermişmiş. İynəni sancır. Deyir ki, bunu hardan gətirmisən? Deyir, ode, filan yerdən. Hal nənəmin babasına deyir ki, durmuşam bırda, get, bir qara qoyun kəssinnər, qanını tutsunnar, bı suya verdiyim yeri onun qanına bılaşdırıf qoyajam yerinə, axsırıf ayılajax. Amma hər sözü deyif kutaranda bir dəfə məliyəjəh.

Deyif:

– Əşi, məliyir, balasının üsdə mələsin.

Nənəm deyir, həmən gəlin söhbət eliyif, eliyif, hər sözün arasında bir dəfə də qoyun kimi məliyirdi.

Onu tutuf üş gün də saxlıyıf nənəmin babası. Deyir ki, mənim də balam var, mənim də evim var, qoy gedim dana, a qardaş, əlimi küləə basım, unaa basım? Külə bassa, kül kutaran dəyil, una bassa un bərəkətdi olur. Yanı ojağın külünə basım, yoxsa ununa basım əlimi. Unu deyər dana ki, un bərəkətdi olsun. Gəlinin də ciyərini qara qoyunun qanına çəkənnən sora dirilif. Qoyun qanı olduğuna görə məliyipbiş.

## XI mətn

Mənim nənə babamdı Hajı Niyazqulu, getmişmişdər dağa. Dağda bının bir atı varmış. Hər gün suyun içində gəlirmiş. – "Əə, bı nolajax?" Gedir xeylağ ağ alıf gətirir, qır-sakqız alır, atın belinə doluyur. Axşam tərəfi görür ki, atın üsdündə bıdı, bir qadın gəlir. Haldı, əmcəhli arvatdı. Tez deyir ki, iynəni gətir bıra. İynəni gətirillər bına. Taxır mının yaxasına. Bını bir ilə qədər saxlıyır. Haçan ki, deyəndə «get, tez gəl» gej gəlirmiş, «get, gej gəl» deyəndə tez gəlirmiş. Uşaxlara-zada yalvarırmış ki, bı iynəni çəkin, alın. Bı da tafşırıfmış heş kəs dəyməsin.

Vaxt gəlir bını buraxır. İynəni çəkir, deyir:

– Bala, get daa.

---

* alaşa – yekəpər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Daa and içir ki, yeddi arxadönənızacan sizin nəslıza dəymiyəjəm. Yəni bizim nəslimiz sizin nəslıza dəymiyəjək. Gedir.

Gejə qoyun sürüsü (o vaxtlar Mərcannı qoyunnan məşğuluydu daa), qapıdan gedir. Nəkqədər axtarıllar, heç harda tapbıllar. Gejənin bir vaxdı həmən kadın gəlir, çağırır:

– Baba, baba.

Deyir:

– Can bala, nə deyirsən?

Deyir:

– Baba, qoyun filan yerdədi. Qoyunu otarajayıx, arxayın səhərdənnən gəlif filan yerdən qoyunu götürüf gətirərsən, arxayın ol.

Səhərdənnən eləmillər tənbəllik, gedillər. Gedəndə indi aralıdan bı hal bılları görür, amma bılar görmür. Daa görühmür. Deyir:

– Baba, gəldin?

Deyir:

– Hə.

Deyir:

– Onda malaa yəə dur. Qoyunu qoyur bılların yanında, çıxır, gedir.

Bax, o da həylə olur.

## 9. CİN HAQQINDA

### I mətn

Həqiqətən, bu olmuş işdi. Kişinin bir dənə pişiyi olur. Beqəviliyət sözdü, amma danışajam. Kişi təhcə yaşıyırmış. Kişi yatır, gejənin yarısı görür pişih buz təki gəldi içəri, girdi yerinə, yatdı. Bir gün belə, beş gün belə, axırı bu kişi deyir ki, bu pişiyi güdəjəm, görüm hara gedir.

Kişi yalannan durur girir yerinə, özünü oyax saxlıyır. Görür pişih yavaşca qapını aşdı, çıxdı. Kişi durur pişiyin dalınca gedir, gedir. Bu yol sənin, bu küçə mənim, o küçə sənin, axırda pişih gəlir çıxır dəriyə. Kişi daldan baxır ki, vallah, bu dərədə bir zıpbıltı var, çal oynasın, vur çatdasındı. Aralıdan kişi qulağ asır. Eşidir ki, deyillər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Dümbəhçi çalan, niyə gej gəldin?

Deyir:

– Vallah, mənim də yiyəm varıdı, yatmırdı. Güjnən yatırdıf çıxmışam.

Gətirif bir şey verillər bunun əlinə. Başdıyır çalmağa. Çalıllar, oynuyullar, çalıllar, oynuyullar. Tay bunnar dağılan kimi, kişi tərpənir. Gəlir yerinə girir, yatır. Görür pişih də bunnan sora girdi yerinə, buz təkidi, yatdı. Kişi də axı bunun əməlini görüf. Kişi həmişə çörəh yeyəndə bunun çörəyini surfanın qırağına qoyurdu. Bu səfər bunun yeməyini götdü qoydu yerə. Bu pişih yeməyə baxır, kişiyə baxır (həmən olmuş işdi bu), nətər tullanır kişinin başına, kişinin üzünü belə laylıyır qoyur yerə. Kişinin üzünü cırır, qapıdan çıxır.

Atam deyir, biçinçimiz varıdı İranda, biçinçiyə çörəh aparırdım, gördüm kişinin üzü bax belə-belədi. Dedim ki, əmi, sən Allah, nə oluf oraa? Deyir, kişi söhbət elədi ki, pişih məni qoyuf bu günə. Elə onnan çıxdı, deyir, getdi.

**II mətn**

Yavər bibinin yoldaşı İbrahim də seyidiydi, Mir Abdullanın oğluydu. Göyrəbasda iki dəyirman olup: biri aşağı dəyirman, biri yuxarı. Mir Abdulla gəlip Mürşüdün dəyirmanına. Nööbəsi gəlip, taxıl yühlüyürmüş gecə. Axşamnan xeyli keçəndə bir də baxıp görüp ki, bıdrana, nağareynən, zurneynən gəlillər: – “Ay nöyüt alan, ay nöyüt alan!” Tökülüllər dəyirmanın qabağına. Bı kişi də əgər durup qol götürüp oyneseydi, onda taleyi pozulurdu. Kişi isdiyir dura qol çala oynuya (aqam* söypət eliyirdi e, rəhmətdih). Baxır görür ki, bı qarmaqarışıxlıx bı dediyinnən deyil. Deməh bırdan atı minip Göyrəbasa qışqıra-qışqıra, ağlıya-ağlıya gəlmişdi. Rəhmətdih aqam orda srazı başa düşüp ki, bınnar cinnərdi. Ora elə bir yerdi ki, hesab elə cin yığıncağına bənzər bir yerdi e. Kahalardı, qayaların arasındadı. Kişi ordan qaşmışdı. Bir də camahat tökülüp gedip, görüplər ki, ə, nə toy çalan, nə oynuyan, heş bir şey yoxdu.

---

* aqam – ağam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## III mətn

Allahverdi kişi həmən bağdan cini tutub gətirib. Cini tutmağ üçün ya gərək sancağ sancasan üsdünə, ya gərək iynə sancasan. Bu heylə eliyib, gətirib əvində işdədib. Bir-iki il işdədib. Bu yalvarır ki, məni burax. İynəni çəkəndə deyib ki, maa bir xeyr-dua. Deyib ki, zibilin çox olsun. İndi o tayfanın – həmin Allahverdinin tayfasının qapısında çox zibil olardı. Süpürərdilər, yığardılar, elə hey zibil olardı. Deyirdilər, bu nədi? Deyirdi ki, cin qarğıyıbdı. Deyibdi ki, zibilin çox olsun.

## IV mətn

Gecəyarısı bir kişi kələsərin* yanınnan ötürmüş. Görür qarannıxdı, amma uzaxdan çalıf-oynamax səsi gəlir. Kələsərin başıynan gedir. Görür xeyli adam toplaşıf. Heş birinin üz-gözünü yadında saxlıya bilmir. Qazannar qaynıyır, süfrüyə yeməhlər paylanır. Kişi də onnarnan oturur. Qavağına yeməh gətirillər. "Bismillah" – deyif yeməyə başlamax isdiyəndə səs-küy batır, hər kəs itir. Baxır ki, qavağına çoxlu mal təzəyi yığıflar. Sən demə, kişi cin yığıncağına düşüf.

## V mətn

Nənəm mana bulama verifdi ki, apar qonşüyə. Getmişəm, ağzıbəri gəlmişəm. Gələndə o qonşüynən bizim aramızda bir dərə var. Gələndə bu dərəyə qulax asdım ki, qəşəh bir çalğı var. Öz-özümə yenirəm ki, gedəm. Helə gedirəm, gedirəm, baxıram, yoxdu. Dərəən qavşağına girdigim yerdə dedim: "Bismillah, bəs bu hardadı, mənim gözüm görmür?" Çalğı kəsildi, getdi.

## VI mətn

Nənəmgilin kəndində Cahan addı, Ağapəri addı bir arvat vardı. Cahanın malı azmış, Ağapərinin malı çoxumuş. Deyifdi ki, ay Ağapəri, nola, bircə səfər o cini mana görkaz. Deyifdi ki, bir gün malın içinə gələndə görkazcəm. Malın içində sağın sağanda baydəkəni verir əlinə. İndi suhnuy deyirıx, onda baydəkə deyirmişdər. Baydəkəni verif əlinə, deyif ki, get denən Ağapəri xala, nənəm deyir ki, maa bir baydəkə süt versin.

---

* kələsər – üzümlük, üzüm bağı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağapəri də deyif:

– Aaz, niyə qoymursuz inəyi sağam, altınnan qalxam? A bala, qoy inəyi sağım, altınnan qalxım da.

Helə deyəndə bu yoxa çıxır. Gedir əvdən həmən Ağapəri sağdığı sütdən bir baydəkə götürüf gedir. Arvat malı sağıf irahatdıyanda çağırır ki, ay Ağapəri, ay Ağapəri, burya gəl. Deyir:

– Aaz, özünü öldürürdün ki, o cini bircə səfər mana görkaz görüm. Göndardım, filankəsin paltarı da əynindəydi, niyə ona biraz süt vermədin? Bax, bu baydəkədəki süt sənin südündü.

Deyir:

– Ay qız, mən vermədim ki mənim sütüm ola. Mən aparıf əvdə qazana töküf gəlirəm.

Deyifdi ki, yox, sənin südündü. Südü də görkazıfdı. Deyifdi ki, bir də sana görkazmənəm. Üz görkazeydin, bir də sana görkazeydim.

### VII mətn

Mən iki dəfə onnarın dəsdəsinə tüşmüşəm. Bir dəfə o Damcı bılax deyirih e, onun ətrafında traxtirist işdiyirdim, cavan vaxlarımıydı, iyirmi altı-iyirmi yeddi yaşım varıydı. İşdən çıxıf gedən vaxdıydı. Əllərim bılaşığıydı. Gəldim ki, bılaxda yuunum, susamışam, bılaxdan su içim, gedim. Gəldim, gördüm ki, bırda böyüh bir dəsdə oturuplar, çay, yeməh, işməh, çalğıçılar, qarmon, qaval. Bı həməşə olup, adamlardı da. Toran qarışan vaxdıydı. İki dənə qız durup suyun gözündə. Bı qızın biri dedi ki, su içəssən? Dedim ki, hə. Ta gördüm ki, bunnarın ayna durmaxları yoxdu ki, mən yuyunam, elə su içim, gedim. O isdəkannar ki var e, bir əz belə dar, o isdəkannardan doldurup iki ovcunda belə uzatdı mənə. Mən indi bı isdəkanı alıp içəndə hər yeri bılamıyım deyə iki barmağımnan isdədim ki, tutam isdəkanı, içəm. Belə iki barmağımnan tutanda bı qız əlini çəhdi, mən çatdırıp tuta bilmədim, isdəkan əlimnən tüşdü daşın üsdünə. Dedim "pismillah". "Pismillah" – deyəndə gördüm ki, bırda heş kim yoxdu, isdəkan tüşüf, iki bölünüf, yer də hələ islaxdı. Sora yuyundum, getdim.

Sora bir din xadimi dedi ki, yaxşı ki, suyu işməmisən, yoxsa səni sağaltmax mümkün olmazdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 10. GOREŞƏN

Kəntdə bir kişi gecəyarısı qəvirsannığın yanınnan keçirmiş. Atnan gedirmiş. Deyir, gejə vaxdı bir də gördüm qara uzun bir kölgə atımın tərkinə yaxınnaşdı. Yığıldı, yığıldı, tofa ilana döndü. Başdıyır onu qollarıynan sıxıf boğmağa. Heş nə eləmirmiş, dişdəmiyif, eləjə boğurmuş. Kişi bir təhər onu özünnən aralıyır, atı çapır. Camaat deyir ki, bı goreşəndi – cin nəslinnəndi. Gölgə kimi isdənilən formuya düşür. Adamı gejə vaxdı boğur.

## 11. SUYUN MƏLƏKLƏRİ

Bir dənə gəlin həməşə üzünü yuyurmuş, yuyannan sora suya tüpürürmüş. Qədimi sözdü dayna. Bir cüt məleykə sudan başını qaldırıf deyif:

– Allah saa nəhlət eləsin. Dünyanı gözəlləşdirən mənəm, hər şeyi təmiz eliyən mənəm, mənim üzümə niyə tüpürdün?

Bunu bir qoja arvat maa danışıf, onu söhbət eliyəndə uşağıdım. O deyirdi ki, bax, mənim neçə yaşım varsa, üzümü yuyanda hələ mən o suya tüfürməmişəm. Məleykə sudan çıxıf onu heylə qarqıyıf, deyif ki, üzün qara olsun. O, elə heylə gedifdi, üzü pis oluf, gedif.

## 12. ÜLKƏR ULDUZU

### I mətn

Novruz bayramında – yaz gələndə o ulduz batır, əyilir. Belə bir söz var. Deyir ki, o dövürdə heyvan qıtdığı olan vaxtda, bı örüşzad qutarır, qoyunnarın ajdığı başdıyan vaxtda bir tərəkəmə bir imkannı tərəkəmədən örüş isdiyir qoyun otarmağa. Bı da vermir, onun qabağına ağır şərt qoyur. Bına da evdə razı olmullar. Kişi də varı qırılmasın deyə, məcburiyyət qarşısındadı, durub qızına bu fikri deyir. Deyir ki, mən o qonşıdan örüş isdiyirəm qoyun ottasın. O da deyir ki, qızı mənə ver, mən də örüşi verim.

Qız deyir ki, ata, olmaz da bı iş. Qız durub qapıdan çıxanda, kişi də bının arxasıncan ağacını atır – çomağını atır. Gejə qarannıxda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tay çomağı da tapmıllar. Qız gejə durub göyə baxır, görür Ülkər sallanıb. Deyir ki:

Ülkər yana sallandı,
Doğdu yana sallandı.
Dur bir gör, ay ata,
Daha yaza nə qaldı?

Yəni yaz çatıf da, bir-iki gün qalıf. Yatıllar, səhər duruf görüllər ki, ot bitif. Amma ağac da tapılmır.

**II mətn**

Günnər uzanan vaxtı Ülkər bı tərəfdən – günçıxannan doğur. Gün gödələn vaxtı bu tərəfdən (günbatandan – top.) doğur. Ona Tərəzilər də deyillər, Ülkər də deyillər. Altı ulduzdu, ikisi birdi, ikisi birdi, ikisi də birdi. Ülkərin də mənası budu.

**III mətn**

Ülkər ulduzu yeddi ulduzdu. Dekabrın on beşində batır. Dekabrın on beşi batanda dağ keçiləri qarışır o biri keçilərə. Təkə onda qarışır keçiyə. Hamısının bırnı göydə ancaq o ulduzu güdür. O da bircə gün görükmür, o da düşür dekabrın on beşinə. O ulduz batmasa, olar keçilərə qarışmaz.

## 13. ÇOBAN ULDUZU

Günəşin arxasınnan çıxan ulduza çoban ulduzu deyəllər. O ulduz çıxanda çoban qoyunu örüşün başınnan qaytarar arxaca.

## 14. SAĞMAL ULDUZU

Gün batmamışdan bir ulduz doğur e, bına bizdə Sağmal ulduzu deyillər. Yəni, o ulduz batana qədər sağmal qoyun gərək örüşdə ottasın, gəlməsin evə. Bının adı belədi. Amma o ulduz işığ yananda batır. Dan ulduzunnan bir az qabax batır. Sağmal deyillər ki, yəni qoyun gərək həmişə ottasın, gəlməsin evə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 15. YEDDİLƏR

Yeddilər yeddi ulduzdu. Oların yeddisi də, deməli, həmişə topa çalıllar, zəyif olur oların işığı. Amma oların içində bir dənə qüvvəli işığı gələn ulduz var. Bu qüvvəli bir dənə ulduz Tərəzilərdən gedəndi. Deməli, arada münaqişə olub, keçmiş kişilər deyərmiş, bir dənə ulduzu bılar burdan guya girov götürüblər. Biyənkinin* içində də bir dənə zəyifi görürsən var, qalanı işıxlıdı. Guya olar da onu götürüflər.

## 16. KARVANQIRAN ULDUZU

### I mətn

Karvanqıran da Dan ulduzuna oxşuyur, amma onnan bir az əvvəl çıxır. O vaxdı hansısa xoca karvanını götürüf gedir. Deyir ki, işıxlananda dağı keçim oyza. Dağ da keçilməz oluf. Bu ulduz çıxanda deyiflər Dan ulduzu çıxdı, gedək. Dəbəriflər gediflər, hava işıxlanmır. Uje karvanın qabağı girif. Orda karvan qəzaya uğruyuf, aşıf. Karvanqıran ulduz görükənnən dörd saat sora hava işıxlanır. Amma Dan ulduz çıxannan iki saat sora hava işıxlanır. Bular da deyillər ki, iki saata bu məsafəni gedərih, dağa çatanda hava işıxlanar da. Gediflər, işıxlanmır, karvanı veriflər bada. Ona görə onun adı qalıf Karvanqıran.

### II mətn

Karvanqıran ulduzu lap axşamnan çıxır. Elə işıxlı olur ki, elə bilirsən ki, ta səhər açılır. Bunnan irəli maşın-filan olmazmış. Tacirlər-filannar karvannan gedərmiş alverə, arabeynan, atnan, ulağnan. Axşamnan deellər ki, sərvaxt yatın, durax gedək karvana. Tezdənnən durub biri görür ki, ayə, Dan ulduzu doğub. Dan ulduzu da onun qədər işıxlı ulduzdu, səhər açılanda doğur.

– Ayə, durun!

Hay-küy. Qışın günü, qar burdan – dizdən, şaxta qırx dərəcə, maroz. Bular durub gedillər, səhər açılmır, gedillər, səhər açılmır.

---

* Biyənkinin – bu tərəfdəkilərin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Donullar qırılıllar yolda, biri də sağ qalmır. Onnan o ulduzun adın qoyullar Karvanqıran. Yəni, bular allandı o ulduza getdilər, soyuxdan batdılar, qırıldılar.

## 17. KARVANQIRAN AĞACI

Keçmişdə karvan gedirmiş. Axşam olanda yolda düşüllər, gedillər həmən ağacdan qırıf gətirillər ki, bir ojax qalasınnar, yandırsınnar, qızışsınnar. Sital deyilən bir ağaj var. Səhərətən nə təhər eliyillərsə, bı ağacı yandıra bilmillər, karvan soyuxdan qırılır.

## 18. QUYRUQ DONDU

### I mətn

Quyruxdoğdu deyil, quyrux dondudu əslində. Avqust ayının beşinnən sora qoyunu kəsirsən, asılqanda durur, baxıf görürsən ki, quyrux donufdu. Buna quyrux dondu deyillər.

Əslində belədi. Novruz bayramınnan on gün sora qoyun qırxımına başdıyıllar. Bı, baxır ilin gəlişinə, onnan sora qoyunun gümrahlığına, havanın isdi-soyuxluğuna. Ola bilər hava ilə əlaqəli lap iyirimi gün sora da qırxıma başlıya bilələr. Amma qoyun gümrahdısa, bayramdan on gün sora, aprel ayının əvvəlinnən onun qırxımına başdıyırdılar. O vaxt aprel ayı demirdilər də, elə bayramdan on-on beş gün sora deyirdilər.

Bir yay girəndə quzunu qırxallar, bir də Quyrux doğannan sora. Yaz qırxımına "yapağı" deyillər, quzu yunu elə quzu yunudu. Quyrux doğannan sora qırxılan yuna "güzəm" deyirdilər.

Yaz yarı olanda elat dağda olardı. Quyrux doğannan sora yavaş-yavaş gələrdilər arana.

### II mətn

Yay üç ay olur, onun qırx beşinci gününə Quyrux doğdu deyillər. Quyrux doğdu döör, quyrux dondudu. Deməli, el, hamı gedir dağa. Fəsil dəyişir, elə xəbər verillər ki, əə, day yayın qırx beşidi, qışa doğru gedir. Köş dağdan enir, gedir, məsələn, Salyana. Buna



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyillər Quyrux dondu. Quyrux dondudan sora qış özünü gösdərir. Adicə dəvə – Allahın heyvanıdı, həmən Quyrux donan günəcən yönü dağa sarı yatır, Quyrux donan günnən sora isə, dəvə arana sarı yatır. Ta aranın vaxtıdı, gedək arana.

## 19. YAZIN QIRXBEŞİ

Hər fəslin, hər ayın özünün tarixi var, özünün müəyyən hərəkətdəri var. Məsələn, yaz üç ay olur, onun yarısına yazın qırx beşi deyillər. Yazın  qırx beşinnən sora bir o qədər də qar olmur, çavğun olmur. Yazın qırx beşinəcən amma qış üsdə gedir, çavğun da gözlənilir, qar da olur. Deyillər, daa yazın qırx beşidi, köş köşsün getsin dağa, day büyünnən sora nə qar olmıyajax, nə çavğun. Yazın adı belədi. Payızınki də onun kimi.

## 20. ZƏMZƏM SUYU

Bir nəfər hankısa başına döndüyümün aylәsi hamilə imiş. Azarrıyan vaxdında deyifdi ki, aparım səni, filan yerdə işıx gəlir oraya. Aparıf bir dərədə qoyuf, gedif kəntdən adam gətirməyə. Bu gəlincə gəlin azad oluf. Baxıf, baxıf, deyif: “Ey ilahi pərvərdigara, mən nəynən əlimi yuya bilərəm?” Başına döndüyüm Həzrəti Cəbrayıldan nida yenifdi ki, indi sana su göndərəjəm. Uşax davannarıynan belə eliyifdi, uşağın hər davanının altınnan bir bulax qaynıyıf. Gəlin əlini-ayağını yuyuf təmizdiyyənən sora deyif:

– Ey ilahi, şükür saa.

Allahda səda gəlif:

– Ey bəndəm, o üş gün İsmayıl qurbanıdı, üş gün Zəmzəm suyu. Kimin qavına bir damcı düşər, düşər.

## 21. MİLÇƏK SÜFRƏYƏ NİYƏ TEZ GƏLİR?

Bunu maa qaynanam danışıf. Görürsən, stola yeməh qoymamış birinci milçəh gəlir qonur. Deyillər, vaxtiynən heyvannara od



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gətirməh tapşırılıf. Padşah deyif ki, kim bizim ölkəyə od gətirə bilər? Hörümçəh deyif ki, mən gedif gətirərəm. Deyiflər, kim odu gətirsə, ona gözəl ənam veriləcəh. Hörümçəh gedif tapıf gətirir. Gələndə quyunun başında bunu yuxu tutuf, yatıf. Milçəh bunu götürüf aparıf verif. Padşah deyif:

– Nə isdiyirsən?

Deyif:

– İsdiyirəm süfrəni insannar düzəndə birinci mən dadım da.

Deyif:

– Hə, yaxşı, sənə verirəm də onu.

Hörümçəh gəlif görüf ki, milçəh ənamı alıf oturuf. Deyif:

– Heç eybi yoxdu, sənin payını verərəm.

İndi bilmirəm fikir vermisiz, verməmisiz, hörümçəyin qurduğu tora mütləx milçək düşməlidi. Milçəyi tutuf saxlıyır.

## 22. BALIĞIN QARNI NİYƏ QARADIR?

Peyğəmbər deyif hər küşdə evladını götsün, çıxsın gəlsin meydana. Hərə birini alıf dalına, gedifdi. Qarnı yanmamış qurbağa da bir cıkqılı balasını büküfdü bağa-bağa yarpağına, alıf dalına gedif. Deyif:

– Hamı balasını qoydu yerə, bəs sən niyə qoymursan?

Deyif:

– Utanıram.

Qurbağa balasını dalınnan yerə salanda peyğəmbər deyif:

– Allah-talanın ən gözəl bəndəsi sənsən. Suyu verdim sana.

İlana deyif:

– Torpağı verdim sana, amma ildə bircə dəfə dil çal torpağa.

Balığa deyif:

– Dəryada olduğuna baxma, dəryadan saa su qismət dəyil. Göydən yağış yağanda ağzıı tutarsan, bir damcı düşər.

Görürsən, deyillər, qarnın balıx qarnı kimi yansın. Dəryada olduğuna baxma, balığın qarnı qapqara yanıfdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 23. KİMİN ZƏHƏRİ GÜCLÜDÜR?

Bir gün bal arısıynan ilanın mübahisəsi düşür. Bal arısı ilana deyir ki, mənim zəhərim sənin zəhərinnən güjdüdü. İlan deyir ki, yox, mənim vurduxlarım ölür. Arı deyir ki, sənin vurduğun mənim vurduğum qədər ölməz, sənin zəhmin ağırdı. Bunnar mərcə girillər. Bal arısı deyir ki, sən vurassan adamı, gizdənəssən, mən onun gözünə görükəcəm. Sora mən çalacam həmən adamı, mən gizdənəcəm, sən onun gözünə görükəssən.

Gəlillər, bir kişi yatıb. Bal arısı deyir ki, sən vur gizdən. İlan bunu çalır, gizdənir. Kişi oyanıb qalxır, əənə-bəənə baxır. Deyir, bu nə idi məni sancdı. Baxır görür ki, bal arısıdı, cız-cız eliyə-eliyə o yana-bu yana gedir. Deyir:

– Əşi, arıdı da.

Yıxılır yatır. Bu səfər bal arısı çalır, ilan onun gözünə görsənir. İlan evdən qıvrıla-qıvrıla qaçır gedir. Kişi ilanı görən kimi bağrı çatdıyır ölür. Bal arısı deyir ki, bax, görürsən, sən də çaldın o kişini, mən də çaldım. Mən gözünə görükdüm ölmədi, sən gözünə görükən kimi öldü. Deməli, sənin zəhmin ağırdı.

## 24. HEYVANLARIN PADŞAHI

Şir baxır görür ki, bütün heyvannar marıxta yatır, xəlvətçə hücum edif bir-birini yeyillər. Şir deyir ki, maa yaraşmaz belə şeylər. Gərəh mən kişi kimi eliyim. Gedif Allaha şikayət edif ki, bütün heyvannar gizdənif bir-birinə hücum edillər. Mən belə etmək isdəmirəm. İsdiyirəm ki, hər şey açıx olsun. Mənim ajdığımı bütün heyvannar bilməlidi. Kimi isdəsəm tutuf yeyəjəm. Allah deyir ki, get, səni qoydum heyvannarın paççahı. Saa elə bir güj verəjəm ki, nərə çəkəndə bütün heyvannar biləjəklər. Ona görə də şir heyvan tutmax isdiyəndə əvvəlcə nərə çəkif heyvannarı qandırır ki, qaçın, ajam, yoxsa tutuf sizi yeyəjəm. Ona görə də şir heyvannarın paççahıdı. Başqaları isə xəlvətçə cumullar. Amma şir yox. Çünki o şirdi. Nərildiyif sora cumur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 25. ƏN ŞİRİN QADIN

Rəvayətə görə, Allah dünyanı yaradanda əvvəlcə dağı, daşı, suyu, otu, torpağı yaradıf, soram da yüz kişi yaradıf. Bu kişilərin hərəsinə bir sənət verif deyir ki, indi gedin yaşıyın. Kişilərin hərəsi bir işnən məşğulmuşdar. Amma gejələr darıxırmışdar. Onnar yığışıf gedillər Allahın yanına. Deyillər ki, ay Allah, saa qurvan olax, sən bizi yaradıf hərəmizə bir iş verifsən, amma işdən sora bilmirik nağayrax. Allah munnarı eşidif ollara yüz kadın yollayır. Yüz qaşıx da bal verif yola salır ki, bu balı qadınnara verərsiz. Kişilər hər kadına bir qaşıx bal verillər. Amma birinə çatmır. Ollar gedillər Allahın yanına ki, bəs yüz qaşıx əvəzinə doxsan doqquzunu verifsiz. Allah deyir ki, yox əşi, belə şey olmaz, mən sizə yüz dənəsini vermişdim. Hə, nə isə. Allah olara daha bir qaşıx bal verif deyir ki, munu da aparın verin, qoy o bal yemiyən yesin. Amma mən burdan gördüm ki, kadınnardan biri iki qaşıx bal yeyif. O hamıdan şirindi, amma yerini sizə gösdərmiyəjəm. Axtarıf özünüz tapın. Kim onu tapsa, xoşbaxt olajax. O vaxdan bəri bütün kişilər xoşbaxt olmax üçün o şirin kadını (iki qaşıx bal yeyəni – top.) axtarmaxtadılar.

## 26. SÖYÜD NİYƏ UTANIR?

Söyüt ağajı həmişə arxın qırağında bitirmiş. Ona görə də ayrı ağaşdar onun paxıllığını çəkillər. Deyillər, nəyə görə o bizdən çox su işməlidi. Deyillər ki, ay söyüt, sən də gəl biznən baravar arxdan qıraxda bit. Söyüt də deyir ki, yox, bura xoşuma gəlir. Suda hər gün şəklimi görürəm. Onda başqa ağaşdar söyüdə qarğış edif deyillər ki, səni görüm meyvəyə həsrət qalasan. Söyüd də bu sözdərə-zada heş fikir vermir. Arxın qırağındaca gejə-gündüz sudan doyunca içif o biri ağaşdara yanıx-qıjıx verir.

Vaxt gəlif keçir, söyüt yekəlif qollu-qanatdı, qəşəh bir ağaş olur. Arxdakı şəklini görüf xoşlanır, nə qəşəyəm deyir. Payız gəlir. O biri ağaşdarda meyvələr saralır, qızarır, amma onun heş bir meyvəsi-zadı olmur. Bu vaxt o biri ağaşdar ona gülüf deyillər ki, çoxlu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

su işməhnən döyül ey, görürsən, nə qədər su işsən də, xeyri yox, heş bir kalın da yoxdu. Gördün, bizim qarğışımız səni nətəhər tutdu. Onda söyüd o biri ağaşdarın ona gülməyinnən utanıf başını aşağı salıf sudan soruşur ku, bəs niyə mənim meyvəm yoxdu? Ona görə söyüt başını yuxarı qaldırmır ki, söyüt sudan cavaf gözdüyür.

## 27. ÇİNAR NİYƏ UCADI?

Qədim zamanlarda göyün üzünü qara bulutdar tutufmuş. Hər tərəf qarannıx, zülmət kimi imiş. Bir gün belə, beş gün belə. Bulutdar göyün üzünnən dağılışıf getmək bilmir. Bütün ağaşdar bir yerə toflaşıf məsləhətdəşillər ki, belə olmaz. Belə getsə onda bizim meyvəmiz-zadımız olmaz, adamlar ajınnan öləllər. Sora onnar çinara deyillər ki, ay çinar, sən arxın lap yanındasan. O sudan doyunca içif tez yekəl, o qara bulutdarı bir az arala, qoy üsdümüzə gün düşsün. Çinar yoldaşdarının sözünü yerə salmır. Onnarın sözünə qulax asıf o ki var sudan içif-içif yekəlir. Bir də baxıf görür ki, qanatdarı bulutdarı deşif çıxıf. O qanatdarıynan bulutdarı aralıyır, gün ağaşdara düşür. Çinar geri qayıdır, gəlif görür ki, boy, bütün ağaşdarın meyvələri qızarıf, saralıf, amma onun heş meyvəsi-zadı da yoxdu. Çinarın qanı qaralır. Munu başqa ağaşdar görüf çinara ürəh-dirəh verillər ki, biz səən əvəzinnən də meyvə verəjəyik, amma sən elə o hündürdə dur, qoyma bulutdar günü tutsun. Deyilənnərə görə, çinarlar tez su içif yekəlillər ki, qara bulutdar göy üzünü tutmasın.

## 28. QIZLARIN ÖZÜNÜ ÖLDÜRMƏSİNİN QARŞISI NECƏ ALINIR?

Bir rəvayət var ki, günnərin bir günü dəb düşür ki, bikara qızdar özdərini öldürüllər. Nəkqədər çalışıllar, neyniyillər, qızdar başdıyır özdərini öldürməyə. Gedillər, paccaha məlumat verillər ki, paccah, taxtın tarac olsun, gələcəh nəslin məhv olur. Pəyiyə salırıx, özünü öldürür, kilitdi əvə salırıx, özünü öldürür, neynirih özünü öldürür. Neyniyək? Bu paccah fikirrəşir ki, yaxşı, mən nə çara qılım?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu qızdarı türmüyə saldırajam, türmədə özdərini öldürəjəhlər, ölüm cəzası verəjəm, yenə həmən həməndi, nə eliyim? Çox fikirrəşənnən sora əmir verir, ölkənin hər yerinə çapar göndərir ki, hər hansı bir qız özünü ya asıb öldürsə, ya xəncərnən öldürsə, ya nə cür öldürsə, olların meydini lüt surətdə arabıya qoyub bütün ölkəni gəzdirəjəm, qoy hamı ona tüpürsün. Qızdar fikirrəşir, tez o ona deyir, bı bına deyir ki, aaz, lüt surətdə deyir e, aaz yox, ta mən eləmiyəjəm, ta mən eləmiyəjəm. O deyir, bı deyir... Deməli abır, ismət, həya ölümün qarşısını alır. O günnən, o dəyqədən qızdar özdərini öldürmüllər.

## 29. TOYUQ NİYƏ UÇA BİLMİR?

Qədim zamannarda indiki toyux dediyimiz ev quşu o biri quşdar kimiydi. Yəni o biri quşdar təki qanatdarı uzun idi. Göyün yeddinci qatına uça bilirdi, qışda isdi ölkələrə uçar, yayda isə yenidən öz yurd-yuvalarına gələrdilər. Bu minvalla illər keçərdi.

Günnərin bir günüydü. Yayın ömrü qurtarmışdı, üzü payızaydı. Hamı qışa tədarük görürdü. Quşdar da dəsdə-dəsdə isdi ölkələrə uçurdular. Toyux da başqa quşdar təki irazılaşıb isdi diyara uçmağı qərara almışdı. Nə isə... Bunnar uçmazdan qabax bir yerə yığışıb dərtdəşillər. Ordan-burdan danışa-danışa söhbət dolanır gəlir savahkı səfərrərinin üsdünə. Durna deyir:

– Hə, dosdar, sabah Allah qoysa, uçurux isdi diyarrara.

Başqa quşdar durnanın dediyini təsdiqləsə də, toyux cırnadı:

– O nə deməkdi? Allah qoysa da uçacağıx, qoymasa da!

Elə bu an hava tutulub açıldı, qızarıb-bozardı. Quşdar baxıb görüllər ki, çəpərin başına qonmuş toyuğun qanatdarı gödəlif. Toyux da quşdarın ona məətdəl-məətdəl baxdığını gorup özünə baxdı. Qanatdarının xeyli gödəldiyini görüp əsəbləşdi. Tezcə bu qanatdarnan nətər uçacağını sınaxdan keçirtmək üçün çəpərin başındaca qanatdarını çalmağa başlayır. Nə illah eliyirsə, çəpərin başınnan hündürə uça bilmir ki, bilmir. Elə ordanca yerə çırpılır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sən demə, toyuğun lovğalığı, dediyi sözdər Allaha xoş getmiyif və onu bu cür cəzalandırıp. Elə o zamannan da toyux nəinki diyar-diyar uça bilir, heç çəpərdən hündürə belə uça bilmir.

Bu hal-qəziyyə toyuxlara çox təsir eliyir. Onnan da bu ağılsız toyuğun səhvini düzəltmək və bir daha belə imtahannara çəkilməmək, cəzalandırılmamaq üçün, hər qurtum su içəndə başdarını tanrıya tutub irazılıx eliyillər.

## PEYĞƏMBƏRLƏR VƏ DİNİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

### 30. ADƏMİN OĞLANLARI

Adəm, deyilənnərə görə, dokquz yüz doxsan il yaşıyıp. Onun da oğlannarınnan biri onun sözünə baxmıyıpdı. Allah-taladan Adəmə vəhy gəlip ki, o bacının birini alginən sora olan qardaşa, onun da bacısını al o birsinə. Deməh, birinin bacısı göyçəhiymiş. Deyip ki, gərəh mən öz bacımı özüm alam. Bının üsdündə mübahisə düşür, qardaşdardan biri o birini öldürür. Atasının sözünə baxmır, deyir ki, mən öz bacımnan evlənəjəm. – Bı, binövrədən qalan şeylərdi, bala. Atanı eşitməməh, kadınnarın paxıllığı, bıllar hamısı köhnədən süzülə-süzülə gəlipdi. Allah-talanın isdəyi, nuru Adəmə gəlipdi, Adəmnən də insannara paylanıpdı. – Bı, qardaşını öldürür, alır çiyninə. Qardaş isdəyi o qədər güjdü olupdu ki, üş gün dalbadal çiyninnən yerə qoymur. Çiynində gəzdirir, ağlıyır. Peşman olur daa ki, mən niyə öldürdüm qardaşımı qızdan ötəri. Axır ki, fayda vermir. Gəlir oturur daşın üsdündə, bı da bının çiynində. Allah-tala mööcüzə yaradır, iki qarqa dalaşa-dalaşa gəlir. Göydə başdıyır bir-birini vırmağa, bir-birini şül-küt eliyir, biri birini salır yerə. Ölür daa. Bına gösdərir daa. Deyir yanı görsün daa. Qarqa başdıyır ağlamağa. Ağlıyır, ayağıynan yeri eşir. O insannarı basırmax məsələsi də elə o vaxdan qalıp. Qarqanı da görənnən sora deyir:

– Kül mənim başıma, qarqa öz qardaşını basırır, mən çiynimdə gəzdirirəm, iylənip.

Qəbir qazmax, insannarı basırmax da həmin vaxdan qalıp.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 31. NUHUN TUFANI

Allah-taladan Nuh peyğənbərə sada qəlir ki, ya Nuh, saa bir bala gələjək, sən elə bir şey elə ki, kafırrar saa inansın. Hə, bı da gətirir bir gəmi düzəltdirir, nə bilim, uzunnuğu nə qədər. Deyir ki, saa kim iman gətirir, olları yığarsan gəmiyə, elə bil ki, o bala sizə toxunmıya. İndi bı da gətirir bı gəmini düzəltdirir. Bala, bı kafırrar, bı Allah nəhlət eləmişdər gəlir bı gəmini, qırağ olsun, əəx yeri qayırır. Nuh peyğənbər gedir Allah-talaynan kəlmələşir ki, saa qurban olum, başıma bir iş gəlib. Deyir ki, onu özdərinə təmizdətdirəjəm, sən tələsmə. İndi, bala, Allah-taladan bılların canına bir geyişmə darışır, mına nə cür maalicə eliyillər, xeyri olmur. İndi biri suruçur, yıxılır, qırağ olsun üzümüzdən, qılçası bılaşır zibilə. Səhərdən gedir görür ki, ora yaxşı olub. Gətirir mınnan hər yerinə sürtür, yaxşı olur. O deyir ki, sən neynədin, yaxşı oldun, bı deyir, nətər elədin, yaxşı oldun? Deyir ki, bəs belə-belə. İndi, qırağ olsun, gətirif bıllar hamısını canına yaxır. Çatmıyan da qaşıyır, yuyur, soyur. Ta mını elə təmizdiyillər ki, nə cür.

Hə, mının da üç oğlu varıymış. Mının biri ona iman gətirmirmiş. Allah-taladan mına sada gəlir ki, tufan qopajax, sən isdədiyin adamları yığassan gəmiyə, birdən çıxassan. Bir qəri – qoja arvat – mının da inəyi varmış, bı da gündə bir qab süt gətirirmiş. Deyərmiş, başaa dönüm, sən Allah, gedəndə məni qoyuf getmə. Hə, nəysə, gedəndə hamını yığıf, bı qarı yadınnan çıxıf. İndi hamısı yığılıllar gəmiyə. Bir qadın təndirdə çörək bişirirmiş. Bı təndirdən su pakqıldıyır çıxır. Allah-tala deyir:

– Ya yer, suyu bırax, ya göy, suyu bırax.

Altı ay bı su gəlir dolur, bı şəhəri batırır. Bı qarı nənənin Allah-tala inəyini də, özünü də salamat saxlıyır.

Hə, [Nuh] indi gedir hər heyvannan bir dişi, bir erkək, insannardan da kim mına iman gətirir, hamısını yığır, götürür gedir. Yolun yarısında – ortasında görür ki, su alır oğlunun birini. Qəmlənir. Allah-tala deyir ki, qəmlənmə, o, kafırrardandı. O sənin oğlun olsa da, heç ona ürəyin yanmasın. Qalıllar bırda, dağın başında. Ağrı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dağı deyillər, Naxçıvan tərəfdə, həmən o dağın başına çıxır, bırda altı ay qalıllar. Özü də heyvannarın hamısına tafşırıllar ki, bir-biriza yaxın getməyin da, balalıyar artar, gəmi tutmaz.

Hə, indi qırağ olsun, görüllər ki, it bir-birinə şey olub. Pişik gedir peyğənbərə deyir ki, – indi onçun deyillər ki, itinən pişik ləjdi[*], – itnən it görüşür. Bı da deyir ki, olmaz həylə şey, tafşırmışam. İndi onçün deyillər ki, it həylə birrəşikli qalır. Pişik də Allah-talaya üz tutur ki, bı nətər olur, bıllar Allahın buyruğunnan çıxsın, mını peyğənbər götürsün. Onçun itnən pişik ləjdi.

İndi bı qara qarqanı göndərir ki, gedin görün su azalıfsa, qayıdax gedək yerimizə. Qara qarqa gəlir, baş qarışır leşə-zada, getmir. Bı peyğənbər mına deyir ki, səni elə həməşə şərə ürcah eliyəjəm, onçun qara qarqa həmişə şər xəbər verir. İndi göyərçinnən kəhliyi göndərir. Rəhmətdih anam deyirdi ki, Allah ölənnəri rəhmətdih eləsin, bala, o kəhliyin, göyərçinin əəği[**] onçun qıfqırmızıdı. O suyun zərbinnən onun əyəxləri həylə qıfqırmızıdı. Hə, indi bıllar gəlir deyir ki, peyğənbər, su azalıfdı. Su azalır, altı aydan sora bılar qayıdır gəlir yerinə.

İndi Allah-tala hər şeyə qadirdi. Bı qarı nənə genə bir cam süd götürüb gəlir ki, başaa dönüm, birdən məni qoyuf gedərsən. Sən Allah, amanın günüdü, məni qoyuf getmə. Deyir ki, qarı nənə, vallah, sən heş yadıma düşmədin. Gör Allahın necə xoşbəxt bəndəsisən ki, səni bu tufannan Allah saxlıyıf. Heş bir şeydən başa düşmürdün?

Deyir:

– Yox, vallah. İnəh birdən üsdü yaş gəlirdi, heş başa düşmürdüm.

Deyir:

– Hə, qarı nənə, arxayın ol ee, hər şey savıluf gedif. Heylə Allah-tala səni saxlıyıf bırda. Gör necə xoşbəxt bəndəsən ki, səni saxlıyıf bırda.

Hə, onnan sora qayıdıf gedillər. Nuhun da tıfanı həylə olur.

---

[*] Ləj – yola getməyən, arası olmayan

[**] Əəği – ayağı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 32. QARA DAŞIN İÇİNDƏKİ QURT

Bir xırda şeyi də sən Allahdan gizdiyə bilməzsən. Davud peyğumbərə Allah-tala deyir ki, ya Davud, niyə insannardan kanara çəkildin? Deyir ki, kərim Allah, kanara çəkildim ki, məəm dualarımı eşidəsən. Səə dua eliyirəm, onu eşidəsən deyə, təhləndim, qırağa çıxdım. Deyir ki, yen dəriyə. – Peyğumbərə deyir ha. – Dərədə bir qara daş var. O qara daşı qır, onun içində qurt var, ona bax, sora mənnən danış. Peyğumbər yenir dəriyə. Görür ki, qara daş ordadı. Qara daşı götürür, bir üzünü qırır. Qıranda içinnən qurt çıxır. Deyir:

– Ya peyğumbər, əyər dərədəki qara daşın içindəki qurdu mən görürəmsə, səni bir milyon əhalinin arasında olsan da, genə görəjəm.

Bunu gizdəməh mümkün döyül, genə görükür.

## 33. PEYĞƏMBƏR VƏ ÇOBAN

Bir çoban qoyun otarırdı. Peyğumbər də Turu-Sənaya Allahnan danışmağa gedirdi. [Çoban peyğumbərə] dedi ki, otur bir loxma çörəh yəəh də, nahar eliyəh. Bu mınnan oturdu. Oturanda çoban dedi:

– Sən kimsən?

Dedi:

– Mən peyğumbərəm, tanrıynan danışmağa gedirəm, kəlmə kəsməyə gedirəm.

Peyğumbərlər, seyitdər Allahın yerdəki elçisidi. Sən də deyirsən, "ya Allah", mən də deyirəm, "ya Allah". Sənin yüz "ya Allahı"nı eşitməz, amma məəmkin birincidən eşidər.

Çoban deyir ki, yaxşı, ya peyğumbər, mən sənin xətrinə dəysəm, məni Allahın qəzabı havaxt tutar?

Deyir:

– Qırx ildən sora.

Çoban deyir:

– Əə, məəm əlli-atmış yaşım var, mən qırx il yaşıyajam ki?

[Çoban] peyğumbərə sataşır, təhqir eliyir. Çomağını götürür, hey, hey eliyir, qoyunu səsdiyə-səsdiyə arxı hopbananda yıxılır, qılçası qırılır. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ya peyğumbər, bəs sən Allahın elçisisən, yerdə insannarın peyğumbərisən, biz sizə inam gətirmişih, sən niyə yalan danışdın?

Deyir:

– Yox, əzizim, bu mənimki döyül, qırx il bunnan qabax bir abidin qəlbinə toxunmusan, hardasa onu təhqir eləmisən, bu, onunkudu, qılçın qırılıf.

Deyif:

– Vay, evi yıxılan canım, abidinki belədirsə, peyğumbəri təhqir etdiyimə görə məəm belim qırılar ki.

Sürünüf mıın yanına, deyib:

– Ya peyğumbər, sənnən üzür isdiyirəm, səni sınamağ üçün bı sözü deyirdim, görüm nə cavap verəjən.

Peyğumbər ona öz yardımını eliyir, sora yoluna davam eliyir. Bı çoban başa tüşür ki, bir ağbirçəyin, bir ağsakqalın qəlbinə toxunanda Allah həmin şəxsi cəzasız qoymur. Onnan sora o başdıyır yaşlılara hörmət eləməyə.

## 34. QOYUN, QARNINIZ DOYMASIN

### I mətn

Çoban qoyunnarı aparıf otarıf gətirirmiş. Süleyman peyğəmbər axşam gəlirmiş, dilini bilirmiş da, soruşurmuş buyün çoban sizə nətər baxdı.

Deyif:

– Elə ağzımız ota çatanda bizi yığdı gətdi.

Çobana deyir. Çoban da deyir ki, and olsun Allaha, səhərdən axşamacan bu dağdan o dağa, o dağdan o dağa otarmışam. – Otuz il qoyun qırağında olmuşam, qoyunun qarnını doyurammamışam. – [Süleyman peyğəmbər] deyir ki, yağın çobandı, qoyuna baxmır. Çobana deyir:

– Sən paltarıı ver maa, mən paltarımı verim saa. Buyün özüm aparıf otarajam.

Qoyunu qatır qabağına bu yoncadan o yoncaya, o yoncadan o buğdaya, bu buğdadan o arpaya, o dağa, bu dağa. Vaxt gələndə gətirir. Paltarını dəyişif gedir qoyunun qavağına. Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Buyün çoban sizə nətər baxıf?

Deyif:

– Gündə bunnan yaxşı baxırdı. Elə ağzımız çatan vaxdı yığdı gətdi.

Deyir:

– Səni görüm ayağın gəzsin, qarnın doyuf gözün doymasın, sənin dalınca gedən də yorulmasın.

**II mətn**

Deyilənə görə, Musa peyğəmbərin nəysə bir günahı oluf. O günahına görə Allah-tala deyif ki, yeddi gün qoyun otarassan. Yeddi gün, yeddi gejə qoyunu otarıf, gətirif qəhələ yığmax isdiyəndə peyinnihdə çıxan əvəlihdi, alax-ulaxdı, qoyun yapışıf buna. Deyif:

– Səni yeddi gün, yeddi gejə mən qoymamışam yatasan, otarmışam. Ə, tit, – deyəndə qoyun qayıdır ki, pah, ağzımız indi ota çatmışdı, indi də bizi yığdılar içəri.

Onda Musa peyğəmbər ona qarğış eliyif. Deyif:

– Qoyun, sənin qarnın doymasın, dalınca gedən yorulmasın.

Həqqi də heylədi. Qırx kilometirdən qoyunu gətirirdih heç yorulmurdux, amma bir damcı yolu gedəndə yoruluruх.

## 35. SÜLEYMAN VƏ BİLQEYİS

Süleyman peyğənbər cannıların, quşdarın peyğənbəriymiş. Elə bil ki, onlar öfdəsindəymiş. Cinnilərdə Bilqeyis addı bir arvat varmış. Hə, indi bı isdiyir Bilqeyisi ala özünə. Quşdar, cinnilər deyir ki, onun canı mal kimi tüklüdü. Onnan sohra, ağılsızdı, nəə alırsan bı arvadı.

Hə, indi bı gedir hənki quşdara kağız verir ki, mını apar qoy Bilqeyisin taxtın altına, quşdar getmir. Vındıtvut – bı şanapipik deyir ki, mən gedərəm. Kağızı alır dimdiyinə, aparır. Qapını qulluxçular açanda arvat yatmışımış. Qapını açır, gedir kağızı qoyur qadının yasdığının altına, qayıdır gəlir. Gəlir deyir ki, ya peyğənbər, apardım verdim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir də o cinnilərə deyir ki, gedin onun taxtının qılçalarını dəyişdirin. Onu elə həylə taxdının üsdündə götürün gəlin. İndi mının ağlını yoxluyur ki, görüm nətərdi. Gətirir əvinin də birinin içini şüşə eliyir, altınnan da su boşduyur. Deyir ki, indi mının ağlın yoxluyajam. Cinnilər mının qılçalarını dəyişdirir, elə həylə taxdını götürür gəlir. Bı heç uyanmır. Gətirir əvə qoyur. Arvat durur əənəbəənə baxır, deyir ki, bı ev mənim dəyil. Bı taxt mənimdi, amba qılçaları mənim dəyil.

İndi kişi – Süleyman peyğənbər deyir ki, bıllar maa həylə kələk gəlirmişdər. İndi mının qılçasına-zadına da baxmağ isdiyir. Bı şüşəli yerdən gedəndə tumanını qaldırır, çərmiyir. Elə bilir sudu. Onnan sohra həylə görür kü, ağlı da özündədi, hər şeyi yaxşıdı. Mını elə yalannan deyirmişdər.

Hə, şanapipiyin həylə zadın eşitmişəm.

*Söyləyici bu mətni anasından eşidib.*

## 36. SÜLEYMAN PEYĞƏMBƏRİN ÖLÜMÜ

Deyilənnərə gora, Suleyman peyqəmbər lap çox yaşıyıpdı. Sarayında da çəliyə səfkəhli ölüp. Üç gün dalbadal həylə ölü vəziyətində – çəliyə səfkəhli qalıpdı. İndi onçun deyillər ki, qarışqanı ayaxlamıyın. Okqədər hökümlü hökümdarıymış ki, bütün inni-cinninin dilini bilirmiş daa. Ona görə də bına yaxın getmirmişdər daa. Getmiyəndə qarışqa deyipdi ki, mən onu yıxaram, onnan sora siz gəlip onu aparıp dəfn edərsiz. Dəfn olunmalıdı axı. Qarışqa gedir bının çəliyini oyur, oyur, yeyir. Çəlih nazilir, səfkəndiyi yerdə yıxılır. Yıxılannan sora hay düşür ki, bəs Süleyman peyqəmbər yıxıldı. Gedəh götürəh, gələh dəfn eliyəh. Onnan sora onu aparıp dəfn eliyillər.

## 37. SÜLEYMAN PEYĞƏMBƏRİN ÜZÜYÜ

Deyillər ki, Süleyman peyğəmbərin barmağında üzüh varıymış. O üzüyü onun barmağınnan çıxardıp öz barmağına geyən adam dünya durduhca yaşamalıymış.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyillər Bulki adında bir oğlanın atası tacir olur, dünyasını dəyişir. Cümələri, qırxı-zadı verənnən sora anasınnan icaza alır ki, ana, mən atamın xəzinəsini yoxlamalıyam, görüm atamın nə var-dööləti var. Bı durur gedir. Xəzinəyə girəndə baxır görür ki, bir küşdə bir dənə gözəl mücrü var. Deməh, bütün var-döölətin hamısınnan o seçilir. Mücrünü götürüp açanda baxır görür ki, içində bir kitap var, Məhəmmət peyğəmbərin adı yazılıp. İçərisində də onun adına olan şeylərdi. Bı, kitabı götürüp gəlir evə. Anasına deyir ki, mən atamın meyidini çıxardıp yandırmalıyam. Anası düşür bının ayağına yalvarmağa. Deyir ki, olacağı yoxdu. Anası deyir:

– Səbəbi nədi?

Deyir:

– Çünkü atam bı kitabı kilitdiyip, onun içərsində olan əhvalatdan camahata heş nə çatdırmıyıp.

Orda anasına deyir ki, ras ki yol vermədin mənə, baş götürüb tərki-cahan olup getməliyəm, vətənnən getməliyəm. Mən Məhəmmət peyğəmbərin iziynən o vaxda qədər getməliyəm ki, onun yaşadığı yeri tapbalıyam.

Gəlir bir dağın başına. Baxır görür ki, bir cavan oğlan oturup ağlıyır. Salamlaşıllar. Deyir ki, bırda niyə oturmusan, nə əhvalatdı? Deyir ki, hal-qəziyə belə. Süleyman peyğəmbərin eşqiynən getməh isdiyirəm. Deyir ki, niyə?

Deyir:

– Eşitmişəm onun barmağında bir üzüh var. O üzüyü kim barmağınnan çıxardıp öz barmağına taxsa, o, dünya durduxca yaşıyacax.

Bıllar gedillər. Az gəlillər, çox gəlillər. Guya nə qədər dəryalar, çaylar keçip gəlip onu görməlidirlər. Gəlib Süleyman peyğəmbərin qəbrinə çatanda üzüyü çıxartmax isdiyillər. Bılların gözünə həqqi görükür. Onun altınnan bir ilan çıxır, başını qaldırır, deyir:

– Afan, çəkil, sizi elə üfürərəm ki, külə dönüp göyə sovrularsız.

Bıllar inanmıllar. Bir dəfə, iki dəfə, üçüncüdə bı əl atıp barmağınnan üzüyü tərpədəndə ilan bını yandırır. Onnan da Afan orda pərt olur. Bulki axırı tapbır, qayıdıp gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 38. SÜLEYMAN VƏ KİRPİ

Rəvayətnən, Xızır peyqəmbər həyatda yaşıyır. Xızır peyqəmbər dirilik suyunu içifdi. Hələ onu misal çəkiblər ki, Süleyman peyqəmbərə də deyiblər, sən də bu suyu iç, sən də əbədi sağ qal. Ama Süleyman peyqəmbər bunu qəbul eləmiyib. Süleyman peyqəmbər bütün cannılara, bütün yaranmışlara, hamıya məsləhət, məşvərət eliyibmiş. Məsləhət eləmədiyi bircə kirpi qalmış imiş. Hə, kirpini çağırmağ üçün ata deyib ki, get kirpini çağır, ona sözüm var. At gedir kirpiyə deyir. Kirpi deyir ki, getmirəm. Süleyman peyqəmbər olsa da, mən ona lazımam, o gəlsin mənim yanıma. Gəlib deyəndə Süleyman peyqəmbər itə deyir ki, get kirpiyə denən, gəlsin mənim yanıma. İt gedən kimi, kirpi gəlir. Kirpi deyir ki, ya Süleyman, səni eşidirəm, nə buyurursan? Deyir ki, səni mən bir ağıllı heyvan bilirdim, saa məsləhətim varıdı, tay indi sən nadan heyvan olduğuva görə, ta saa məsləhət eləmiyəjəm. Deyir ki, yox, nəyə görə maa nadan deyirsən? Deyir ki, ona görə ki, insannan sonra ikinci surat atın suratıdı, at namusdu, at qeyrətdi, at qəhrəmannıxdı, at muratdı. Bəs sən atın sözünü saymırsan, bütün dinlərdə it murdar sayılır, itin sözünə baxırsan. Deyir ki, ya Süleyman, atın başqa xüsusiyyətləri var, itin başqa xüsusiyyətləri var. Deyir, atın xüsusiyyəti odu ki, istiyər ki, sahibini yerə vursun, qaşsın. Hara bağlansa, onu qırsın qaşsın. Ama it sahibinin evini, həyətini heş vaxtı sahibsiz qoymur. İndi sən məsləhətini de. Deyir ki, maa deyillər ki, dirilik suyunu iç. İçim, ya içmiyim? Deyir ki, ya Süleyman, əgər dirilik suyunu işsən, həyatda sağ qalarsan, ama sənin balaların, sənin yaxınnarın, sənin doğmaların sənin gözünün qavağınnan ölüb bu dünyadan gedər. Əgər olların ayrılığına dözə bilərsənsə, bu suyu iç, yox olların ayrılığına dözə bilməzsənsə, o suyu işmə, nə vaxt vaxtın tamam olar, bu dünyadan köçərsən. Hə, Süleyman peyqəmbər ona görə o suyu işmiyifdi. Deyif ki, Allahın yanında vaxtım nə vaxt tamam olar, ruhumu Allah-tala mənnən alar, o vaxt da bu dünyadan gedərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 39. İBRAHİM PEYĞƏMBƏR

Ummuyətnən, kadınnarda paxıllıx Həcərin vaxtınnan, İbrahim peyqəmbərin vaxtınnan varmış. Həcər kənizimiş. Sara əmisi qızıydı. Saranın yetmiş iki yaşı olur. İbrahim peyqəmbərin də çox olur da yaşı. Bı (Sara – top.) məcbur eliyir ki, Həcəri alginən. Sora İbrahim peyqəmbər üz tutur ki, əmqızı, sən nətər razı olursan ki, mən sənin kənizıı alım daa? Deyir ki, yox ee, mən uşax isdiyirəm, mən də uşax səvməh isdiyirəm. Taa əlacı kəsilir, Həcəri alır. Bınnan bir oğlu olur, onun da İsmayıl olur adı. İbrahim peyqəmbər orda and içir ki, Allaha qurban verəjəm. Sora qoşdar gəlir onun əvəzinnən ki, bəs insanı kəsməh olmaz, ancax qoçu kəsməh olar, heyvanı kəsməh olar.

Sara bını o qədər isdəhnən sevir ki, İsmayılı. Atıp-tutur, atıp-tutur, sora anasına verir. Anası gedir arxada – o biri evdə başdıyır basır bağrına öpür, onnan sora yanıxlı başdıyır sevməyə, atıp-tutmağa. Bırda bının (Saranın – top.) qəlbi dolanır. İbrahimi çağırıp deyir ki, bılları – ana-bala apar elə yerə qoy ki, mənim gözüm görməsin. Nə qədər yalvar-yapış eliyir, görür bı əl çəhmir daa. Bılları götürüp gətirir indiki ziyarətgah var ee, yeddi dəfə gedip-gəlillər haa, Zəm-zəm suyu olan yerə. Həcər deyir:

– İbrahim, gedirsən, bəs bizi kimə tapşırırsan?

İbrahim deyir ki, sizi ancax Allaha tapşırıram, mən getməliyəm. Xulasə, bılları qoyur orda. Aparılan yeməh də tükənir, su da tükənir. Həcər başdıyır qaçır ağzı yuxarı, üsdən aşağı. Gedir-gəlir, gedir-gəlir, əlinə bir şey gəlmiyəndə, gəlir uşağa yaxınnaşır. Baxır görür ki, şırıltı gəlir. Orda Həcərə vəh gəlir. Vəh gələndə şırıltını eşidir. Deyir ki, getginən uşağı da çimizdir, onnan verginən, zulaldı, onnan sora yaxşı olassıız. Həcər sevincəh gəlir görür ki, İsmayılın ayağının altınnan bulax çıxıp başdıyır şırhaşır getməyə. O sudan da içir, uşağı da çimizdirir, eliyir. Bıllar bırda yaşıyıllar. İsmayıl böyüyür.

İbrahim gedir-gəlir, bıllardan hal-əhval tutur. Sora bir dəfə İbrahim peyqəmbər bının arxasıncan gedir. O vaxdı qureyşdər yaşı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yan yerə gedip çıxır. Bilir ki, bı evlənipdi. Soruşur kin, bala, İsmayılın evini tanımırsıız? Gösdərillər ki, fılan yerdədi. Bı gedir tapır, görür ki, bir kadın oturup içərdə. Bı salam verir. Çarıxlı olur daa. O vaxları heyləymiş. Deyir ki, İsmayılın evi bıradı? Deyir ki, hə, bıradı. Taa bı qalxıp ayağa bına yer gösdərsin qoca üçün, taa bına təəzim eləsin ki, gəlginən otur, çörəh yeginən, belə şeylər olmur bırda. O da baxır bı qıza, deyir ki, kimsıız? Deyir ki, mən İsmayılın yoldaşıyam. Deyir ki, bəs İsmayıl nə vax gələr evə? Deyir ki, bəs ruzu dalınca gedip. Deyir ki, nətər dolanırsıız? Deyipdi ki, çox pis dolanırıx, ac qalırıx, urzumuz olmur, eləmir. Ummuyətnən, acı danışır daa bınnan. «Şükür Allaha» deməh əvəzinə, belə şeyləri naşükürrühnən danışır. Deyir ki, qızım, mən gedirəm, İsmayıl gələndə deyərsən ki, belə bir qoca gəlmişdi, dedi ki, qapının astanasını dəyişdirsin. Çıxır gedir.

İsmayıl navaxdan sora gəlir. Gələnnən sora deyir ki, belə bir qoca gəlmişdi. Deyəndə deyir ki, o, mənim atamıydı.

Deyir:

– Dedi ki, mən gedirəm, qapının astanasın dəyişdirsin!

İsmayıl oturup sarığının torpağını töhməmiş, yoldaşına deyir:

– Dur ayağa, gedəh qazının yanına.

Deyir:

– Niyə gedəh?

Deyir:

– Bəs atam maa tapşırıpdı ki, səni boşuyum. Böyünnəri mən səni boşamalıyam.

Götürüp aparır qazının yanına, bını boşuyur. Bir müddət sora təh qalır. Neçə aylar, illər təh qalannan sora təzdən İbrahim peyqəmbər bir də gedir. Soruşanda deyillər ki, İsmayıl peyqəmbər bir də evlənip. Gedən kimi kadın tez qalxır ayağa:

– Baba, gəl içəri, gəl içəri.

Bının çarığını da çıxardır, su gətirir, ayaxlarını da yuyur. Deyir ki, yol gələn adama oxşuyursuuz, gəlin, oturun. Gətirir bına çörəh qoyur. Gözəl qullux eliyir, həm də ki, bının qabağında səcdə durur tanımıya-tanımıya. Baxır ki, gözəl insandı, İsmayıla dayax dura bilən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir kadındı. Onnan sora deyir ki, qızım, mən gedirəm, İsmayıl gələndə denən ki, qapının astanasınnan muğayat olsun, yaxşı saxlasın.

İsmayıl qayıdıp gələnnən sora bılları danışır. Boyunu-buxununu deyənnən sora o da bilir ki, atasıdı. Deyir ki, o, mənim atamdı. O maa tapşırıp ki, səni yaxşı saxlıyım.

İbrahim peyqəmbərin yoldaşı Sara özü də peyqəmbər qızıydı, peyqəmbəriydi daa. Yuxu görür. Görür ki, bının oğlu olupdu. Yuxudan ayılannan sora üz tutur Allaha, deyir:

– Necə olur ki, yetmiş iki yaşım olsun, yoldaşımın doxsan yaşı olsun, mənim uşağım olsun, neynəsin?

Ona toxdaxlıx verillər ki, o hamısı Allahın əlindədi, neçə yaşın olur, olsun. Gətirir bına bir oğul verir, adını da qoyullar İsax. Ona da peyqəmbərrih verir. İsaxdan da Yaqup peyqəmbər əmələ gəlir.

## 40. İSMAYIL PEYĞƏMBƏR

Qurban kəsmə elə bil ki İbrahimxəlil peyğənbərin dövrünnən qalıfdı. Onun elə bil züryəti yoxumuş. Allah-talıya üz tutur, deyir:

– Ya Allah, sən maa bir övlat ver.

Mının da arvadının adı Həcərmiş. Allah-tala deyir ki, Həcərdən saa bir züryət verəjəm. Kişi gəlir arvada deyir ki, bı arvadın da atmış yaşı varmış, Allah-tala sənnən maa züryət verəjək. Arvat əl atır üzünə, deyir ki, mənim innən belə züryətim olar? Deyir ki, hə, Allah-tala verəjək, olajax.

İndi gəlir həmən bı İsmayıl olur. Yekəlir, irilir, yeddi-səkgiz yaşına çatır. İbrahimxəlil peyğənbər hər gejə yuxuda görür ki, buna deyillər "ya peyğənbər, isdəhlii qurban kəsmədin". Bı gəlir nə qədər qoyunu, malı varmış kəsir, dəvəsi varmış kəsir. Bu yuxunu yüz dəfə görür. Deyir ki, ya peyğənbər, isdəhlii maa qurban kəsmədin. Bı da fikirrəşir, deyir ki, İsmayıldan başqa mənim isdəhlim kimdi? Arvada deyir ki, arvat, İsmayılın paltarını dəyişdir, başına xına qoy, əlinə xına qoy, birəz də bizə çörəh, mını götürüf gedəjəm ov vırmağa. Bı da deyir ki, əşi, gedirsən get dana, mını nəə özünnan aparırsan. Deyir ki, yox, mını da aparajam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hə... İndi durur dəsmala çörəh bağlıyır, gedir. Yolda şeytan, Allah nəhlət eləmiş, gəlir İsmayılın anasına deyir ki, ay başaa kül, nəə oturmusan? İsmayılı atası aparıf qurban kəsməyə. Bı da deyir: “Allah saa nəhlət eləsin, heç ata da oğlunu qurban kəsər?” Əl çəkmir. Arvat götürür cəhrənin başını atır, – ona görə nəhlət deyillər şeytana, – şeytanın gözünü tökür.

İndi yolnan gedillər. Bir düzəngahlıxda, bir yerdə durur. Uşağa deyir ki, bala, mən Allah-taladan diləy elədim, Allah-tala səni verdi mana. İndi səni gətirmişəm Allahın yanında qurban kəsməyə, nə deyirsən? Bı deyir ki, hə... Uşaxdı dayna. Allah qooluna zad gətirir, deyir ki, hə, ata, sən məni Allah yolunda qurban kəsənnən soora mən heş zad demirəm. İndi gedillər. Uşax deyir ki, ata mənim əl-əəğimi bağla, üzümə də bir şey at. Birdən çabalıyıf səni incidərəm, Allaha ağır gedər. Pıçax da götürmüşümüş. Pıçağı götürür, uşağın əl-əəğini bağlıyır, yönü qibləyə yıxır, pıçağı boğazına sürtür, nə qədər eliyir pıçax kəsmir. Pıçağı vırır bir daşa, daş iki bölünür. Görür kü, Allah-taladan sada gəlir: “Allahu əkbər, Allahu əkbər”. İbrahimxəlil deyir: “La ilaha illallah və Allahu əkbər”. Bı üzü örtülü, əl-əəği bağlı uşax da – İsmayıl da deyir ki, “Allahı əkbər, vəlillahi ilhəmd”. Bıllar dayanır, dayananda görüllər ki, Allah-tala Həzrəti Cəbrayıla deyir ki, get cənnətdən bir qoçı apar, mən onu sınıyırdım. Bir qoç apar onun əvəzinə, İsmayılın əvəzinə qurbanı kəssin. Bir dizi qara, gözü qara qoç gətirir İsmayılın əvəzinə, mını kəsir. İsmayılı da durquzur. Bıllar deyir:

– Həmd olsun ya rəbbim, ya rəsul Allah, bizi bı zaddan qurtardın.

Birəz də ətinnən kabab eliyillər, yeyillər, qalanını da bağlıyır torbıya, götürür gəlir. Arvat deyir:

– Şeytan deyir İbrahimxəlil peyğəmbər oğlu İsmayılı qurban kəsir. Helədi?

İbrahimxəlil peyğəmbər deyir:

– Arvat, şeytan sənə necə demişdi, elə həyliydi. Hamba mən bı yuxunu yüz dəfə görmüşdüm. İndi də dedim İsmayıldan başqa mənim isdəhlim kimdi? Elə apardım mını kəsməyə. Onçun gəlif şeytan həylə səni alladıfdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hə, indi bala, hər şey Allahın əlindədi. O, uşağını kəssə, ildə gərəh hərə öz oğlunun birini kəseydi. Allah-tala elə bil ki irazı olmuyufdu. Mının əvəzinə qoş gəlif, kəsif. İsmayıl qurbanı onnan qalıf. Elə bil ki ildə hərə bir qoyun kəsir İsmayılın adına.

## 41. İSA PEYĞƏMBƏR

İsa peyğəmbər sağdı da hələ. Mehdi Sahib-Zaman zuhr olanda onda o da gələjəh, ikisi bir yerdə elə bil ki qırx il padşahlıq eliyəjəklər. İsa peyğəmbər də həylə ölüləri həm də dirildirmiş. Elə bil ki kimsə öləndə gedif çağırırmış, dirildirmiş, danışdırırmış. Hə...

## 42. MƏHƏMMƏD PEYĞƏMBƏRİN ÖLÜMÜ

Bir gün bı, əsabalarını yığıf başına. Çağırıf deyif ki, mən dünyamı dəyişəjəm, məəm bir-iki töfsiyəm var, gəlin sizə nağıl eliyim. Dediyi vaxda çamaat yığılıf gələndə görüllər ki, Məhəmməd peyğəmbər bağda ağaş divi təpir. Deyir:

– Ya peyğəmbərimiz, axı siz dediz mən ölürəm, sizə mənim töfsiyəm var.

Deyir:

– Hə, düz deyirsiz, bala, indi yaxşı eliyif gəlmisiz. Mən bı işi görürəm ki, gedif oğurrux eləmiyəsiz, əv çapmıyasız, adam öldürmüyəsiz, qan töhmüyəsiz, zəhmatıznan işdiyif dolanasız. Haram mal yemiyasız. Ona görə bu işi mən sizə tövsiyə eliyirəm.

Deyir ki, mən rəhmətə gedəjəm, məni ağ dəvənin üsdünə qoyarsız, ağ dəvə harda yatsa, orda məni dəfn edərsiz.

Üş günnən sora Məhəmməd peyğəmbər əleyhsalam dünyasını dəyişir. Bını qoyullar ağ dəvənin üsdünə, tafırını bıraxıllar, camaat düşür bı ağ dəvənin dalına. Gəlir, həmən, Məkkə, Məkkə deyirih ha, orda yönü qivliyə yatır. Orda, o Məkkədə Məhəmməd peyğəmbəri dəfn eliyillər. İndi o Məkkiyə gedənnər gedir hamısı orda onun qavrını ziyarat eliyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 43. PEYĞƏMBƏRİN MERACA GETMƏSİ

Məhəmməd peyğəmbərin Cənabi Əli qardaşı oğlu olur, həm də yeznəsi oluf. Cənab Əli sirr imiş, hər şeyi bilirmiş. Məhəmməd peyğəmbər göyün yeddinci mərtəbəsinə tura gedir. Əlidən gizdin gedir, ona demir. Deyir, o getdiyi yerdə bına bir sırfa açılır, yeməh gəlir, bir dənə də alma gəlir. – Heydər babam danışıf yanımda. – Sıfra açılıf yeməh gələndə Məhəmməd peyğəmbər deyif:

– Mən bı almanı təh yeyə bilmərəm, maa yoldaş ver.

Baxır ki, pərdə var. Bı pərdənin arasınnan bir nəfər əlini uzadıf bınnan çörəh yeyif, Məhəmməd peyğəmbərnən. Bı yeyir, o da yeyir. Bı almanı kəsir, yarsını bu əl götürür, yarsını da özü götürür. Amma yemir, saxlıyır özündə.

Məhəmməd peyğəmbər qayıdıf gələndə Əli gedir bunnan görüşməyə. Deyir: "Əmi, mehracın mübarəh olsun!"

Deyir:

– Əli, mən axı saa deməmişdim. Sən hardan bildin ki, mən mehraca getmişəm?

Deyir:

– İndi gördüklərinən bir az söhbət elə.

Deyir:

– Mən getdim belə sırfa salındı, nemətdər gəldi. Mən yoldaş tələb elədim, təh yeyə bilmədim. Ordan bir əl gəldi, tühlü əl, mənnən yeməh yedi.

Yeməh vaxtı, düyü qülfallahdı da, yediyi düyüdən bir dənə əlinin üsdünə düşür, qalır tükün arasında. Deyir:

– O əli tanımazdın ki, nədi, nətərdi?

Deyir ki, ançax bir dənə düyü düşdü onun əlinin üsdündəki tüklərin arasına. Əlini belə gösdərir, deyir: "Bu əli deyirsən?"

Baxır ki, həmən düyü o əlin üsdündədi. Sora deyir:

– Almanın yarsını verdim ona.

Əli almanı çıxardır, deyir:

– Bu almadı?

Məhəmməd peyğəmbər də çıxardır, birrəşdirir ki, həmən almadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 44. PEYĞƏMBƏR VƏ QIZI

Bir arvad var idi. Gəldi gördü mən çilə aşı dəmliyirəm. Dedi ki, baxıram təmizkar, hər şeyin yerini bilənsən da. Bunnan da bağlı bir misal çəkdi. Dedi ki, peyğəmbər bir gün qızıynan gəzməyə çıxır. Qız susuyur. Atası bir qapını döyür. Görür bir qız çıxdı. Deyir:

– Maa bir isdəkan su ver, qızım susduyufdu.

Bu da götürüf verir. İsdəkan çirkli olduğu üçün qız işmir, tökür yerə. Peyğəmbərimiz deyir:

– Çox sağ ol qızım, səni görüm evdə oturuf ər çörəyi yeyəsən.

Bir az gəlillər. Qız genə deyir ki, ata, susamışam. Genə atası bir qapını döyür, gətirif bir isdəkan su verillər. Yaxşı isdəkanmış. Qız içir, deyir "çox sağ ol". Peyğəmbərimiz də deyir:

– Çox sağ ol, səni görüm özün qazanıf, özün yeyəsən.

Nəysə, gəlillər bəri. Görür bir cavan oğlan gəlir qavaxdan. O qədər sütüldü, heş bir günahı yoxdu da. Peyğəmbərimiz baxır, deyir ki, canı yanmışın nə ölməli canı var ey. Birəz qabağa gedillər. Görür bir qoca kişi hasaynan gəlir yıxıla-dura, gücnən yeriyə-yeriyə. Deyir ki, baxtavərin nə qədər ömrü var ey. Bir də çönür arxaya, görür qızı gəlmir. Deyir:

– Qızım, niyə gəlmirsən?

Deyir:

– Sən peyğəmbərsən, bəs hakkı nahakka verirsən də. Bına adi camaat nə deyər?

Deyir:

– Gəl otur, qızım, mən saa izah eliyim niyə görə belə deyirəm. O suyunu işmədiyin qız pinti qızdı, hara getsə qayıdıf gələcəh o evə. Yoldaşı gedif çöllərdə işdiyəcəh, gələcəh, baxmıyacax təmizdi, çirklidi, qoyuf qavağına bir tikə yeyəcək ki, yatsın, tezdənnən işə gedəcəh axı. Küncü-bucağı eşələmiyəcəh görüm təmizdi, çirklidi. Amma o təmiz qız hara getsə özünün başını saxlıyacax da, bədbəxt olmuyacax. O qocanın da o qədər günahı var ki, sən təsəvvür elə, dəyir yerə, qalxır bir də yeriyir. Onu nə cəhənnəm qəbul eliyəcəh, nə cənnət. Amma o cavanın heş bir günahı yoxdu. Gedən kimi düşəcəh cənnətə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 45. PEYĞƏMBƏRİN İTİ VƏ TÜTƏYİ

Canavar deyir ki, mən bir gecədə yeddi para kənd gəzirəm. Bu yeddi para kəntdə ilahinin buna verdiyi qisməti gəzir. Canavar deyir ki, mən bu dağın başınnan o birsi dağın başında qara şumun içində qara qoyunu seçirəm. Niyə? İlahinin ona verdiyi qismətdi. Ona görə yaşdı adamlar deyir ki, canavarın ağzına söymək olmaz. Çünki canavarın ağzı Qurannan bağlanır.

Deyillər, canavar peyğəmbərin iti oluf, ilan balığı da onun tütdəyi oluf. Nətər olufsa, heyvanı əldən çıxıf. Canavara deyif ki, çıx get özün öz başını saxla. Tütəyi də atıf suya, deyif ki, sən də maa lazım deyilsən. O da ilan balığı oluf, canavar da canavar. İndi ilan balığını tutanda cığıldıyır tütdək səsi çıxardır.

## 46. MƏHƏMMƏD PEYĞƏMBƏR VƏ ƏZRAYIL

Bizim Axund Hacı Ağacan da bir söz söylüyürdü. O deyirdi ki, o vaxtı peyqəmbərimiz ölüm ayağında məlayikədən (Əzrayıldan – top.) soruşdu ku, mənim vaxtım tamamdı. Ya Əzrayıl, mənnən sora, mənim ümmətimin canını nejə alajaxsan sən? Dəəndə, dedi ki, ya peyqəmbər, sənin ümmətinin əlini, əyağını bağlıyaram, onnan sora onun başını kəsərəm, onun canını belə alaram. Ama o saymadı. – Görükür o da (Hacı Ağacan – top. ) bilmirmiş, çünki o vaxtı ruhanı təhsili yoxudu. İmişlidə, molla Bülbüldən dərs almışdı o. – Hə, deyir ki, dokquz dənə vasıta saydı, heş birini peyqəmbər qəbul eləmədi. Deyir, axırda dedi ki, ya rəsul Allah, sənin ümmətinin canını mən belə alaram. Can vermə məqamında onun gözünün qavağına cənnətdən bir alma göndərərəm, əlin atıb o almanı ki, götürmək isdiyəndə, onun əli almıya çatmaz, elə canını orda alaram mən.

## 47. HƏZRƏT ƏLİ VƏ YEZİD

Yezidnən imamların davası düşəndə bı imamlarımızın hamısı qətl olur. Göydən vəhy gəlir Əliyə. Əli Allahın pəhləvanıdı, şiridi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əli düşür bı Yezidin qoşununu qırmağa. Qıranda Allah-tala Cabreyildən vəhy göndərir. Cabreyil buyruxçudu. Göndərir ki, get, Əliyə denən ki, hamını qırıf qutarmasın, yer üzündə adam qalmaz. Gəlir Cabreyil Allah-talanın sözünü bına çatdırır. Deyir:

– Yox, and içmişəm Əbəlfəzin qələm olan qollarına, atımın üzəngisinə qan çıxıncan bı Yezidin qoşununu qırajam.

Orda Cabreyil genə gedir Allah-talıya deyir ki, bəs Əli belə deyir. Allah-tala orda bir al yağış tökür. Yağış başdıyır, sel-su qalxır, qannı su qalxır Əlinin atının üzəngisinəcən. Orda əl saxlıyır. Əl saxlıyannan sora bırda belə qərara gəlillər ki, Yezidnən Əli təhbətəh görüşsün. Bıllar çıxır meydana. Yezid deyir:

– Qavaxjan sən qaldırırsan qılınjı vurmağa, yoxsa mən?

Əli deyir:

– Allah saa nəhlət eləsin, biz fürsəti qavaxça duşmana verrih. Sən qaldır vır.

Qaldırır qılınjı, Əlinin başına vıranda Əli qalxanı qaldırır, qılış sürüşür düşür. Əliyə heş nə olmur, bir ziyanı dəymir. İndi Əli qılınjın qaldırıf vıranda Yezid dimməz duruf. Deyir:

– Nə hiss elədin?

Deyir:

– Bax, barmağımın başı göynədi, bir də dilimin ucu. Qaldır qılıncı vır da bir də.

Deyir:

– Allah saa nəhlət eləsin, atı tərpət.

Tərpədəndə atı, yarı şakka olur: yarı şakkası bir tərəfə düşür, yarı şakkası bir tərəfə. Yezid orda cəhənnəmə vasil olur.

## 48. ƏN ŞƏRAFƏTLİ İNSAN

O vaxtı Əmirəlmöminə bir yəhudu sual verir ki, Adəm peyqəmbər şərafətlidi, yoxsa sən şərafətlisən? Deyir ki, mən şərafətliyəm. Deyir ki, nəyə görə?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ona görə ki, Adəm peyqəmbərə Allah-tala buğdadan yeməyi qadağan, nəh buyurmuşdu. O, onnan yedi, ama mənim yediyim hələ arpa çörəyidi. Mən hələ dilimə buğda çörəyi vurmamışam.

Deyir ki, ya Əli, bəs baban Nuh peyqəmbər şərafətlidi, yoxsa sən? Deyir ki, mən Nuhdan şərafətdiyəm. Deyir ki, nəyə görə?

Deyir:

– Ona görə ki, onun övladının biri atasına iman gətirmədi, ama mənim oğlum Hüseyn hələ dünya yaranmamışdan qabağ insannar Allah yanında ruh şəklində yaradılan vaxt Hüseynin ruhu, Hüseynin nuru Kərbəla yolunda, Allah yolunda, İslam yolunda, din yolunda, peyqəmbər yolunda, haqq yolunda şərafətə çatmağı qəbul eləmişdi.

Deyir ki, bəs ya Əli, sən şərafətdi olarsan, yoxsa İsa peyqəmbər? Deyir ki, mən onnan da şərafətdiyəm. Deyir ki, nəyə görə?

Deyir:

– Ona görə ki, İsa peyqəmbəri anası xurma ağacının divində dünyaya gətiribdi, amma mənim anam məni Kəbə evində dünyaya gətiribdi. Kəbə evi İbrahimxəlil peyqəmbərin vaxtınnan da əvvəl oluf, Nuh peyqəmbərin tufanınnan da qavağ olufdu. Adəm peyqəmbərin lap zamanında olufdu Kəbə evi.

Hə... Deyir ki, mənim anam Kəbə evinin yanıynan gedən vaxtı ilahi bir qüvvəynən Kəbə evinin divarı aralanır, mənim anam içəri daxil olur. İçəri daxil olanda həmən divar bir də öz yerini alır. Mənim anam Əsəd qızı Fatimə məni orda dünyaya gətirifdi. Üş günnən sora Kəbə evi aralanıf, mənim anam məni çölə gətirəndə əmim oğlu peyqəmbər anamın qucağınnan məni alıf, mən gözümü açanda ilk dəfə peyqəmbəri görmüşəm, əmim oğlunu görmüşəm. Ona görə mən İsa peyqəmbərdən şərafətdiyəm.

Deyir ki, bəs ya Əli, sən şərafətdisən, yoxsa əmin oğlu peyqəmbər? Deyir ki, o sözü mən deyə bilmərəm, o sözü peyqəmbərdən soruşun, dəəndə, peyqəmbər deyir ki, mən elmin xəzinəsiyəm, Əmirəlmöminin o elm xəzinəsinə açardı. Məni öyrənməh istiyən gərəh əvvəlcə Həzrət Əli əleyhüssəlamı öyrənsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 49. FATMA NƏNƏ

Başına döndüyüm Fatma ana deyifdi ki,

Aşıx yaza nə qaldı,
Xalın yaza nə qaldı.
Ülkər yana sallandı,
Canım çıx, gör yaza nə qaldı?

Fatma nənə də qüvvəli evliya imiş. Biz indi su qıjısı deyirih ey, kəhrizdərdə bitir. Görürsən onun ağ-ağ saplaxları olur. El dağa gedəndə Fatma ananı mindiriflər dəvəyə. Biri deyif ki, ayə, nə su qıjısı ola, onnan yeyərsən.

Deyif:

– El dağdan gələndə yeyərsən.

Da bağışda, üzr isdiyirəm, Fatma nənə qoltuğunun altının tükünü qoparıf atır, külək aparıf atır suyun içinə. Gələndə görüflər su doludu su qıjısıynan. Bax, həmən o su qıjısı onun qoltuğunun tükünnən əmələ gəlif.

## 50. VEYSƏL QƏRANİ

Veysəl Qara Məhəmməd peyğənbərin dosduymış. Bir gün qəzəvət vaxdıymış. Gəlir Məhəmmət peğənbərin, canım qurban ona, yanına. Gəlir görür ki, isdolun üsdə bir diş var. Arvadınnan soruşur ki, bı diş nə dişdi? Deyir ki, bəs peyğənbərin dişidi, qəzəvət vaxdı düşüf. Deyir ki, mən bı dişdərimin hamısını çıxardıf qoyajam bu dişin yanına. İndi otuz iki diş bu kişinin – bı Veysəl Qaranın, bir diş də peyğənbərin dişi. Görür peyğənbər gej gəlir, çıxır gedir. Peyğənbər gəlir, deyir ki, bı əvdən dosd iyi gəlir, kim gəlmişdi? Deyir ki, bəs Veysəl Qara gəlmişdi. Deyir ki, bəs bı dişdər kimindi? Deyir ki, Veysəl Qaranın dişidi. Sənin bir dişaa görə o dişdərinin hamısını çəkib tökdü yerə. İndi Allah-tala bına deyir ki, sən əllaru çək o dişə. Onun hamısı təsbeh olur. Bı təsbeh var ha, bax, ona əllərini çəkir, olur təsbeh. Gətirir mını düzür sapa, onu elə bil ki, zikir eliyirsən. Otuz iki diş Veysəl Qaranın, bir diş də, canım qurban ona, peyğənbərin. Onu otuz iki dəfə, elə bil ki, "Sübhan Allah"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyirsən, otuz üç dəfə "Əlhəmdülillah" deyirsən, genə otuz üç dəfə "Allahı Əkbər" deyirsən.

Həməşə Veysəl Qara camahatın dəvəsini yığarmış, otararmış, hakqını almazmış. Deyir:

Səhərdən durardı, dəvə güdərdi,
Hakqın almazdı, beylə gedərdi.
Yəmən ellərində Veysəl Qaranı,
Şirin dillərində oxur Quranı.

Yasdığı daş idi, döşəyi puşdu,
Hakqı həbibinin sevgili dosdu.
Yəmən ellərində Veysəl Qaranı,
Şirin dillərində oxur Quranı.

Bir həbəsi vardı dəvə tükünnən,
Allahı çıxartmaz qəlbinnən, fikrinnən.
Yəmən ellərində Veysəl Qaranı
Şirin dillərində oxur Quranı.

## 51. BİSMİLLAHSIZ AÇILAN SÜFRƏ

Biri imamlarnan dosdaşır. Biri-birini qonax çağırır. İmam Hüseyn bir çolpa kəsir. Bir çolpaynan bular doyullar. Həmin şəxs sora İmam Hüseyni qonax çağırır, bir dəvə kəsir. Dəvənin yarısını yeyillər, doymullar. Deyir:

– Ay dost, nətər olur sənin çolpannan sən də doyursan, mən də doyuram, bütün sırfa doyur, yola düşür. Mən dəvənin yarı şakqasını yeyirəm, nə özüm doyuram, nə qonax?

Deyir ki, sənə Allah nəhlət eləsin, sırfa açılanda nə bismillah demirsən, nə sırfa yığılanda "əlhəmdülillah, Allah sən yetir demirsən". Amma mən, "bismillah, ya Allah" deyif başdıyıf yeyirəm, doyuram. Sırfa yığışılanda da "ələhəmdülillah, Allah sən özün yetir" deyirəm.

Kafır deyir ki, mən bunu demirəm. Deyir:

– Ona gora da sən doymazsan. Nə rizqin olmaz, nə bərkətin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# PİRLƏR VƏ OCAQLAR HAQQINDA

## 52. HACI QARAMAN

### I mətn

Allahın məsəli əla Məhəmmədin və ali Məhəmməd. Ya Allah, sən hamımızın işin oand*, cəmi şərlərdən uzağ elə, isdiyənnərnən hamılıxca bir yerdə şaddığ elə, mehribançılığ elə. Hajı Qaraman babıya, elə bil ki, o vədə deyiflər ki, harda çəliyin dursa, orda bina salassan, əv tikəssən. Həə... İndi Hajı Qaraman baba da cəleyvatanmış dana. Hajı Əhməd addı bir kişi varmış, varrı kişiymiş, gəlir mının yanına. Kişi görür ki, bı yad adamdı. Deyir:

– Bala, elə bil  qərib adamsan, gəl qonağ ol.

Gejə qalır bıllarda. Görür kü, bir qız uşağıdı, elə yerdə yatılıdı. İndi bı qızın anasınnan soruşur ki, ana, o uşax niyə yatılıdı. Deyir ki, bala, xəsdədi qılçalarınnan, yeriyə bilmir. Deyir ki, bir istəkan su gətir, oxuyum, ver ona, işsin.

Həmişə onu gejə anası çıxardırmış çölə. Hə, indi ana gəlir görür kü, qız özü çöldən gəlir. Deyir ki, bala, sən nətər oldu ki, çıxdın çölə. Deyir ki, o, suyu içənnən sora elə bil ki, şəfa gəldi. Hajı Əhməd deyir ki, gəl bırda ol, bı qız da sənin şifannan yaxşı olub, qızı verəjəm saa. Qızın da adı Yetərmiş. Hə, qızı alır, gedir. Orda indi dam tikdirir özünə. Damı tikdirəndə gəlin görür ki, gündə bı damın bir tərəfinnən nəysə göyərir, bitir. Bı bını daşıyır, tökür çölə. Yoldaşı əvə gələndə deyir ki, axı mən belə bir möcüzə görmüşəm. Bu nədisə bitir, ha tökürəm çölə, genə də bitir. Deyir ki, onu tökmə çölə, qoy görəh nə bitir. Bırda yekə bir ardıc ağacı bitir. İndi bı kişi damı sökür, ayrı yerdən tikir. Sora bı varranır, özünə pəyə tikir, onnan sora məçid tikir, hər şərayitini düzəldir. Üç oğlu olur; İbrahim Çələbi, Məhəmməd Çələbi, Mustafa Çələbi. Bircə dənə də qızı olur. Mının da adı Mərziyə. Yekəlillər, əmələ gəlillər, əvlənillər. İndi bı arvat deyir ki, a kişi, maa sən mehir verməmisən axı. Deyir ki, gedəh, – elə bil ki, Hajı Qaraman babanın damınnan bir az əynə, – orda saa bir mehir yeri

---

* Oand – avand



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gösdərəjəm. Gedir, balaca bir çala varmış bırda, "bismillahi-rəhmanı-rəhim" eliyir, əlini uzadır ora. Bıra olur dərin bir quyu. Deyir:

– Bax, bı quyunun suyu qiyamatacan sənin mehrindi. Bu quyu qiyamatacan qurumuyajax.

Hə, indi Allahdandı da, mının qisməti olub. Hə, indi, qiyamatacan bu su qurumur, elə həylə balaca quyudu. Onnan sora Allah-tala maralları bına urza verir, süd verir. Qızı deyir ki, ata, beyjə gördüm, qərif yerdən – Arazın qırağınnan bizə qonax gəlif. Papurus çəkdilər, iyi burnuma gəldi. Gözdüyüllər, görüllər ki, iki kişidi, bir də bir qadın, bir də bir uşax. Bı xəsdələnif, bını gətiriflər bıra. Deyir, indi bıllara gətirif qatıx qoyullar, üzüm qoyullar, bir də yemiş qoyullar. Deyillər ki, hələ biz belə bir şey görməmişik. İndi kişi ora-bıra baxır – bı qonax gələn, deyir ki, bax bının bırda sağılanı yox, bı südü hardan alır. Kişi gedir görür ki, arvat duruf bir əz məlhəm bişirir qoyur bir şəlpənin* arasına, sərnici də götürür. Vedrə yox idi, qabaxcan sərnicidi. Sərinci də götürür dərə yuxarı, – ora elə bil ki, dağ yeri kimiymiş, meşəliymiş, – gedir. Dərə yuxarı arvat gedir, gedir, of-of eliyir, marallar gəlir tökülür. Bu məlhəmi də maralın birinin buynuzu çıxmışımış, mına qoyur, sarıyır. Onnan sohra durur sərnici doldurur, sağır, balalarını bir tərəfə ötürür, nənələrini də bir tərəfə. Üsdünə də dua oxuyur, qayıdır gəlir. Deyir ki, hə, bu maral südüymüş, qatığıymış, onçun bu həylə ləzzətdidi. Hə, onnan sohra həylə, maralın biri küsür, bu kişinin gözü dəyir dayna, çıxır gedir.

Hə, sora da ona bir kişi şəkk gətirir. Hajı Qaraman babanın böyrünnən keçəndə atdan yıxılır, boynı sınır, elə bırda da ölür. Onu Hajı Qaramandan birəz aralıda basdırıllar. Ora ziyarətə gedən hərə ona bir daş atırdı. Bax, elə həmin o daşın tınqıllığı** nə boydaydı, nə fasonda. Atırdı, bına nəhlət oxuyurdı ki, sən şəkk gətirmisən.

İndi Allah, bala, duasınnan ayırmasın. Bala, o həqqidən də, möcüzəliymiş. Hə, indi biz Məhəmməd Çələbinin övlatdarınnanıx, elə bil oğlannarın böyüyü Məhəmməd Çələbiymiş, biz də onun törəməsiyik.

---

* şəlpə – əski
** tınqıl – topa, yığın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Maral buynuz tökən ojax deyərdilər ora. Şıx Hacı Qaraman baba dünyasını dəyişənnən sora marallar gedif orda buynuzdarını vuruf bir-birinə, qırıf töküflər şivən kimi, yas saxlıyan kimi.

O sifdə gəlif çıxıf bizim kəndin yaxınına, Sirih kəndinə. Orda Sirihnən Tatarın arasında bir yerə düşüf. Onun möcüz çəliyi varmış. Orda Yetər nənə oluf. Onun gözdəri tutuluf. Anası-atası gedif kök alağı eliyirmiş, onu da evdə qoymurmuşdar da, qız uşağı imiş. Onu da aparırmışdar özdəriynən. Qurban olduğum gedif çıxıf ora. Deyif:

– Niyə o uşağa da demirsiniz kömək eliyə?

Deyif:

– Gözdəri görmür.

Deyif:

– Olar, bir gejə mən sizdə qalım?

Deyillər:

– Niyə olmur?

Möcüz çəliyi varmış, verif qıza, gedif bularnan söhbət eliyif. Tezdən də duruf. Buna sütdü aş bişiriflər. Hajı Qaraman çəliyi alanda belə çəkif gözdərinə, qız ayana, bu yana baxır. İsdiyir anasına deyə, qonaxdan utanır. Bunnan irəli də qızdar ayrı olurdu da. Deyə bilmiyif ki, mənim səsim çıxa yad qonağın yanında. Gedir çalğını götürüf başdıyır qapını süpürməyə. Onnan da həyat yoldaşı olur. İndi Yetər nənəynən onun məzarı birdi.

**III mətn**

Şıxlar kəndində Ağdonnu şıx var. Bir vəşi maralı tutur, əlinə də ilanı alır şallax yerinə. Deyir: “Hajı Qaraman qoy məhətdəl qalsın ki, mən elə kəramətin yiyəsiyən ki, vəşi maral minif gedirəm”.

Bunun da yarımçıx hörgüsü var imiş. Hörgünü minif gəlif onun qabağına. Deyif: “Xoş gəlmisən”. Deyif ki, hə, sən mənnən böyüh ojaxmısan. Maral da vəşi də olsa yeriyəndi, amma hörgünün yeriməyi möcüzədi.

Ağdonnu şıx gedif ona təzim eliyir ki, sən bütün ojaxlara padşah göndərilmisən Diyarbəkirdən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**IV mətn**

Bir dəfə Hajı Qaramanın özünə İran zonasınnan qırx atdı gəlir. Hajı Qaraman hayat yoldaşına deyif ki (çul, örkən olurdu da qabax, siz yağın ki görməmisiz), ata çul, örkən gətir. Gətirif bir çul-örkən. Deyif:

– Başına dönüm, axı bu qırx atdı, bir at dəyil a?

Deyif:

– Sənin işin yoxdu, sən göt çulla.

Köhnə dağarcığın divinnən də bir tas arpa gətirif. Deyif:

– Axı bu bir atın normasıdı?

Deyif:

– Sənin işin yoxdu.

Götürdühcə gəlif yerinə, götürdühcə gəlif yerinə. Qırx atın qırxına həmin çul-örkən, həmin arpa bəs edif. Belə-belə onun möcüzələri oluf.

**V mətn**

Alı Mamedov gəlif, o vaxdı bilmirəm komitet imiş. Üç milis göndərif, biri də Mütəllim addı ki, gedin Hajı Qaramanı dağıdın. Gəlif ora düsəri vuran vaxt – elə düsərin yeri bilinir, – düsərin ağzı keçif daşa, elə orda da qalıf. Kişinin gözdəri tutuluf. O birisinin də atının yəhəri aşmışmış, düzəldəndə at ayaxlıyıf onu. Elə heylə qayıdıf gediflər. Deyiflər ki, bəs belə-belə. Onda Alı Mamedov deyif ki, tay toxunmalı dəyil, toxunmuyun ona.

Bir nəfər deyif ki, mən onu təkcə dağıdaram. Elə birinci əlini daşa atanda qara ilan barmağınnan vuruf onun.

**VI mətn**

Biri taxıl əkirmiş. Quraxlıx oluf, taxıl bitmiyif. Bu da keçirmiş. Deyif:

– Ay baba, bəs nağarajağıx, bu il bizim balalarımız qırılajax.

Orda o iki rükət namaz qılıf, Allaha yalvarıf, dua eliyif. İki dəyqə keşməmiş leysan gəlif taxılı bərpa eliyifdi. Yağış çəkilənnən sora taxıl bitif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 53. HACI QASIM ÇƏLƏBİ

### I mətn

Üş nəfər atdı gəlif Çələbini sınamaxdan ötrü. Hajı Qaramannan yuxarı dam varıdı, o dama. Oturuflar burda. Bir xəsdə gəlif, Arazboyunnan idi, səyf eləmirəmsə, Alıkeyhalıdan gedif. Görür ki, samanı basıf bardonlara, farmaş fason yühlüyüf ata, bir xəsdəni də yıxıflar üsdünə. Gətirif deyif ki, bəs ay Çələbi, başına dönüm, bu mənim həyat yoldaşımdı, üzr isdiyirəm. Yeddi uşağım var. Bu xəsdələnif, mən ölüm, bu arvad ölməsin. Mən yetim saxlıyan dəyiləm. Deyif ki, gəl bəri, heş nə sən öl, nə arvad ölsün. Heş biriniz ölməyin. Köməh eliyif düşürüflər yerə. O Çələbiyə xidmət eliyən adamlar oluf. Nə bilim, onun odununu yaran, atını bağlıyan, tavlasını kürüyən, öz qohumlarınnan ey. Kömək eliyənnər düşürüf xəsdəni. Çələbi babam öz yoldaşı Gülpəri nənəyə deyif ki, nimçəyə un qoy, gətir. Bir az un qoyuf gətirif. O unu barmağıynan qarışdırıf belə, deyif:

– Apar bu unu xəmir elə, çörəh çapartma fason yay, bu arvadın ağrıyan üzünü o xəmirin üsdünə yıx, uzat, qoy yatsın.

Kişini də keçirif dama. Orda arvada pilov bişirdif. Yeyiflər, söhbət eliyiflər. Girif çıxdıxca həyat yoldaşınnan soruşurmuş ki, xəsda nağarır. Deyir ki, Çələbi, xəsdə yatıf çox möhkəm. Duruf özü gəlif. Görüf ki, xəsdənin yarası deşilif. Çələbi gedif kişiyə deyif ki, arın-arxayın çörəyini ye, xəsdənin canı qutardı. Xəsdə içəridən yamannamışdı*. O deşilif, arvadın da canı qutarıf, sənin də.

Həmin mamentdə üç atdı gəlir oraya. Deyir:

– Çələbi, bizə gərəh maral südü verəsən.

Deyif ki, oturun, oturun, düzələr. Günorta vaxdı görür ki, marallar töküldü gəldi. Quzular bu tərəfdən töküldü, anaları bu tərəfdən töküldü. Yığılır oraya. Orda gedif onu sağıllar, eliyillər, sora balaları gedir onu əmir. Özdəri ayrılır: anaları belə, balaları belə. Maralın orda qəhəl yeri vardı.

---

* yamannamışdı – xərçəng xəstəliyi kimi bir xəstəlik, qara yara



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II mətn

Qasım Çələbi yayda Çay Tumasda olanda onun qızı Xəcər Çələbi ağlıyıf. Deyif ki, nədi, nə isdiyir o, niyə ağlıyır?

Deyiflər:

– Ay Çələbi, qurbanın olum, qar isdiyir. Yayın günündə qarı hardan alax buna verəx?

Fuğannıda onun xidmətçisi İrza oluf, o vaxt mürid deyirdilər. Çələbi girif içəri, deyif:

– İrza hay, hardasan? Gəl balama qar gətir.

İrza da Salvartı dağındadı. İsdi vaxdı qoyun sağdığı yerdə qoyunun kopasınnan çıxır, qazanı tulluyur, deyir ki, məni Çələbi çağırır, mən gedirəm, qoyunuza yiyə durun. Qardaşı deyir:

– Ə, dəlisən, cinnisən, saa noldu?

Deyir:

– Əşi, sənə deyirəm qoyununa yiyə dur.

Gedif atını tutur, gətirir yəhərriyir. Gedir orda qardan sərnicə doldurur. Qarda da qurd var. Dolduruf ordan, alıf atın qujağına gəlif. Əcəbə arvad var idi, and içirdi ki, Qasım Çələbinin goru hakqı, həmən qardan yedim. İrza gəldi atdan düşdü gejə. Çələbi dedi ki, balamı durğuzun, qar gəldi, qardan yesin. Deyir sərnici qoydux ortalığa, hərə belə-belə qardan götürdü, yedih.

## III mətn

Üş nəfər gəlif İran taydan. Gediflər Hajı Qaramanın evladı Alı Çələbini imtahan eləməhdən ötəri. Olar deyif ki, səhər-səhər o bizə gərəh maral südüynən şirin çay verə, sora bizə yemiş verə, qarpız verə, bizə bir möcüzə gösdərə. Olar gəlif – Hajı Qaramanın damı vardı, xəsdələnənnər orda gedif qalırdı, şəfa tapırdılar, – orda onu imtahan eliyən vaxtı biri deyif ki, bizə möcüzə gösdər. O deyif ki, durun gedəh aşağıda mən sizə möcüzə gösdərim. Gəlifər Hajı Qaraman qavırstannığına. Qar imiş, qış imiş. Deyif:

– Qışda mana yemiş tağı görsət, üsdündə yemiş olsun.

Bu da deyif ki, qavırstannıxnan ağzı oyana gedin. Gedəndə görüf ki... Qabaxlar belə şey yox idi da, qavrın üsdünü götürməh, daş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qoymax. Üsdünü torpaxlıyırdılar, gedirdi. Görüf kü, qarın içinnən yemişin tağı çıxıfdı ağzı belə, üsdündə də çiçək, burnu belə yemiş, keçib o biri qavırın üsdünə. Onu gözüynən görənnən sora gəlif deyif:

– Mən uje sənə inanıram. Sən yaxşı övliyasan, sənin möcuzatını gördüm mən.

**IV mətn**

Bir dəfə Əmralı gəlir dağdan. Deyir:

– Çələbi, başına dönüm, mənim qoyunuma gənə darışıf, əncamı yoxdu, qoyun qırılır.

Çələbi alaçıx çubuğunnan bir az qopardıf ağardıf belə-belə, üsdünə nə yazdısa, deyif ki, vedrəni doldur suynan, bu ağacı qoy içinə. Qoyunu yığ tapana, qavağını kəssinnər. Çıxdıxca süpürgeynən götür, çilə qoyunun üsdünə.

Çiliyir, çıxır çöldə çırpınır. Onun özü rəsmən nağıl elədi, qulağımnan eşitdim. Deyir, qoyun çırpındı. O Allahın adı hakqı, süpügeynən arxacı süpürdüh, arxaca od vurduh, gənə yandı. Qoyunun birinin də üsdündə gənə qalmadı.

**V mətn**

Köç gəlif çayda düşüf Sarı yatağın qabağında. Gejə yatıflar. Dan üzü duruf görüflər dəvə yoxdu. Dəvənin biri itif. Axtarıflar, çox axtarıflar. Bir xeyli gəzənnən sora kişi dəvəni tapmır, addıyır gedir Çələbinin yanına. Deyir:

– Ay Çələbi, başına dönüm, axı dəvəni tapmadım.

Deyir:

– A kişi, çox gəzmə.

Havısdıdan Səfər kişi də qoşuluf ona. Deyir ki, get deynən ki, Səfər, dəvəni hara etmisən, ver. Səfər də atı minif on səkgiz gündü bunnan çiyin-çiyinə dəvəni axtarır. Çələbi də deyir:

– Get Səfərə deynən dəvəni ver.

Bu da deyir:

– Ay Çələbi, başına dönüm, Səfər gündə mənnən gəzir dəvəni.

Deyir:

– Gəzdiyinə baxma, deynən dəvəni versin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tapılmır. Gedillər ikisi də Çələbinin yanına. Deyir:

– Səfər, dəvəni gejə gətirdin atdatdın, getdi Xumarrı kəndinə. Dəvə Xumarrıdadı*. Kişinin dəvəsini gətir ver. Niyə incidirsən, bir qələtdi eləmisən.

Gəlir orda yıxılır, deyir:

– Əşi, bağışda, sənə qurban olum.

Dəvəni qaytarır, gətirir verir özünə.

**VI mətn**

Hajı Qasım Çələbi gedir Ənvər paşanın yuxusuna girir. [Ənvər paşa] deyir:

– Ya rəsul Allah, onu maa gösdər.

Gedir işinə-gücünə. Gəlir görür qapıda bir balaca, alçarax kişi var. Deyir:

– Sən kimsən?

Deyir:

– Sən çağırdığın Hajı Qasım Çələbi.

Deyir:

– Mən əhd eləmişəm, sənin başında yığıncax eliyəjəm, qurban kəsəjəm. Mən səni çox isdiyirəm, yuxumda görmüşəm səni. Gördüyümə əhd eləmişəm mal qurbanı kəsəjəm.

Deyir:

– Yox, yox, mən dayana bilmərəm.

Salır içəri, qapını kilitdiyir, gedir. Bunun da əlində heş nə çətin deyilmiş da. Qapını özü açıf çıxıf gedir. Gəlir görür yoxdu.

Amma Hajı Qasım Çələbi görür bunun toplarını boşaltdılar, içinə torpax yığdılar. Tumas dağınnan çağırır:

– Ənvər paşa hey, Ənvər paşa.

Yuxuda hey verir. Deyir:

– Dur topları təmizdə.

Bir də ordan qırx atdı olur, düşür yola. Qadan ürəyimə, gəlillər ki, Hajı Qasım Çələbini görələr. Gəlif görüllər ki, bir balaca evdə olur. Deyillər:

---

* İran tərəfdə yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu qırx atdı qonax harda qalajax?

Olara da süddü aş bişirir. Balaca qabda bişirir. Süddü aşdan nə qədər qoyur, görür qazan gənə doludu. Bular möcüzəynən qayıdır.

**VII mətn**

Bir qazı varmış. İmam ehsanı veriləndə bu olmur, onsuz qurbanı kəsif imam ehsanı verirmişdər. O da gəlif vuruf tökürmüş ki, niyə mənsiz eləmisiz. Bu da gedif çatır yuxarıya. Deyilənə görə onda irayon Qala imiş. Bunu çağırıllar ora ki, gəl cavaf ver, nədən onu tökmüsən, nə ixdiyarnan. Bu da qəşəh paltar geyir, boylu-buxunnu adamdı. Nəysə, bu Şıx Hajı Qasım Çələbinin arvadının qohumuymuş. Nəysə, ürəyi durmur, bu da gedir, köhnə paltarnan gedir. Yolda deyir ki, sən hara gəlirsən?

Deyir:

– Mən də gedirəm da.

Deyir:

– Məni xoddan saldırassan? Libasına bax.

Deyir:

– Yaxşı, sən gedən yolnan getmərəm.

Yovşannıxnan gedir. Gedir bunnan qavax çatır. [Qazı] deyir:

– Mənim başımı alçax eləməhdən, əynindəki libasdan utanmırsan?

Dinmir. Deyillər ki, sənsən qazı.

Deyir:

– Bəli.

Deyir:

– İmamın on iki qazanını tökən sənsən?

Dinmir. Deyir:

– Cavab ver.

Dinmir. Deyir:

– Yaxşı, neyniyəh qazısan. Qazısan, manqalı doldurajeyih köznən. Aparıf tökürsən gəvənin üsdünə. Namaz qılırsan. Nə alnın yanmır, tərrəmir, nə gəvədən bir tük ütülmür. Onda biləjeyih qazısan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunu uçurtma tutur, əsir yarpax kimi. Qurban olduğum Hajı Qasım Çələbi yeriyir irəli, deyir:

– İcazə verin mən qılım onun yerinə.

Deyir:

– Əşi, qazı odu, o qılmalıdı.

Deyir:

– Xayiş eliyirəm.

Bu da yarpax kim ağarıf, söykənif ora. Gətirif tökür, qılır. Qalxır deyir ki, indi yığışdıra bilərsiniz. Deyillər:

– Qurban olasan buna. Get sən buna tabe ol.

### VIII mətn

Hajı Qasım Çələbi gedirmiş, deyirmiş burda filan şey var, orda filan şey var. Onun əsabələrinnən biri deyif ki, baba, deynən bu qızıldan biz də çıxardax yeyəh dana.

Deyif:

– Bala, yeyə bilməzsiniz. Qismət elədi. O sizə qismət döyül axı.

Salman addı biri oluf Xələflidən. Deyif ki, yox ey, sən de, mən çıxardacam.

Deyif:

– Get o qaratikannığı qaz.

Gedif qazıf, görüf bir sal daş var. Belə eliyif, görüf bir dənə küp. Üç kilolux küp olar, içi doludu qızılnan. Əlini belə uzadanda qızıl hamısı oluf qara ilan, qalxıf bunun əlinə. Əlini çəkif qızıl oluf, uzadıf ilan oluf. Deyif:

– Üsdünü ört, o sənin qismətin döyül. Kimə qismətdisə, o aparajax.

## 54. ALI ÇƏLƏBİ

### I mətn

Aşağıda Göyərçin Veysəlli varıdı. Ora bir bəy gəlif düşüf. Varrı-hallı bir bəy imiş. Adı səyf eləmirəmsə, Mamud bəy idi. Payızdığa gəlif da. Dağdan köçüf gəlif orda oğluna toy eliyif. Oğluna kənarda bir mohurru tikif, alaçıx deyirih biz. Alaçıxda oğlannan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlin yatır, bular da bir evdə. O vaxdı belə deyildi. O vaxdı gəlin qaynanaynan, qaynataynan danışmırdı, görükmürdü. İsmət varıdı, haya varıdı. Qaynənəsi görür gəlin çox bekafdı, deyif:

– Bala, nədi, niyə bekafsan?

Deyif ki, vallah-billah, Allahdan gizdi deyil, sənnən də gizdiyim. Tumanımı gejə yatan vaxdı yanımızdan götürüflər.

İrannan alınan qırmızı mahud tuman, bahalı parçadan imiş, o yoxdu. Bir gün, iki gün, üçüncü günü bəy gəlif evə girəndə arvada deyir ki, bu evdə nəysə bir məyusdux var aylə içində.

Arvad deyir:

– Əşi, heş bir şey yoxdu.

Ora-bura. Arvadı çağırır hədəliyir. Arvat deyifdi ki, a kişi, vallah, Allahdan gizdin deyil, sənnən gizdiyəm. Gəlinin tumanını yanınnan götürüflər. Bu da bəy adamdı da, sığışdırmıyıf özünə. Çağırıf gəlini yanına. Gəlinə deyif ki, birəm birriyimə, xançalı təpənnən qoyajam ayağınnan çıxsın. Sənin müştərin o vaxtı kim olufsa, bunu mana de. O da and-aman eliyir ki, mənim heş bir müşdərim olmuyuf, hessadım olmuyuf. Bəy deyif ki, sənə üş gün möhlət verirəm. Üş günətən sağ bir söz deyirsən maa. Ya hə, ya yox. Onnan da qutarajax. Ya sənin həyatın qutarajax, ya mən düşmanımı tapajam.

Bu zaman da Qasım Çələbinin oğlu Şıx Alı Çəlləbi Dağ Tumasda yatmışmış bir damda. Gəlin nə cür dizdərini atıf yerə, üzünü tutur:

– Ya xudaya, sən bu işin üsdünü aş, məndə nə günah var. Mənim tərəfimnən bu tərəf davaya düşməsin, ədavət olmasın.

Bu gəlinin sədası yuxuda Alı Çələbini tutur. Qalxır ordan durur, piyada gəlir. Bu faktdı ey, olmuş işdi. Qara qaya deyirih, gəlif ordan keçəndə Molla Dəsgiralı varıdı, Xanalı, Mustafa, onların ataları olur, yataxda olur. Dağdan gəlir. Baxır belə, deyir:

– Balam, bu gələn Alı Çələbidi, bu piyada gəlir. Niyə, nə oluf?

Yeriyir qabağına. Deyir:

– Əşi, at gətirim, ulax gətirim, niyə piyadasan?

Deyir:

– Yox, tələsiyirəm, bir az avdıx varsa, gətir içim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Buna bir banka ayran qayırıllar, içir. Deyir ki, mənnən gedirsənsə gəl gedəh. Bu kişi də bunu tək buraxmır, düşür yanına. Gəlir uje dar çağıymış. Gəlir görür həmən bəy Tofçax düzündə üş-dörd nəfərnən duruf bir təpəçədə. Bəy də bekafdı. Bəy deyir ki, balam, bu gələn Alı Çələbiyə oxşuyur. Axı, bunun mənnən o qədər arası yoxdu, mən də bunu o qədər tanımıram. Bu niyə piyada gəlir? Gəlhagəl, gəlir salamlaşır. Deyif ki, Çələbi, hara gedirsən? Gözdə, at gətirdim, ulax gətirdim.

Deyir:

– Yox, bura Fuğannıya gedəjəm, İrza kişigilə. Elə-belə yolum düşdü bura.

Ora-bura, bəy bunu möhkəm təhlif eliyir. Gedəh quzu kəsim, qoyun kəsim. Deyir:

– Yox, hessad lazım dəyil.

Bəyə deyir ki, ras heylədi, məni döndərirsən, malının içində bir boz düyə var, onu gətir, onun ciyarınnan bir belə (əlinin yarısı boyda – top.) ojağa salım, ojaxda kabab eliyim, yeyim gedim. Bəy də həqiqi mənada bu inəyin xətrini çox isdiyirmiş. Gətirir malı. İndi bəy özünü sındırmıyajax axı. Malı kəsillər. Kəsəndə Çələbi çəliyinnən belə gösdərir, deyir:

– Qarnını cır, ciyəri çıxsın, sora soyarsan.

Elə belə bıçağı çəkəndə paltar çıxır o yannan. Gəlinin tumanını inək yemişmiş. Deyir ki, onu çək, gəlsin. Çəkir çıxardır. Belə haçalıyır çəliyin burnuynan o yana, bu yana. Bəyə deyir ki, vallah, mən nə sənin malının kababını yeyən deyiləm, nə də bu yerə ayağım düşən dəyildi. Sənin gəlinin nətər hakkı-huy çəkdisə, onun sadası məni tutdu, mən durdum gəldim. Gəldim ki, nə sən özünə nahak yerə düşman qazanma, nə gəlinini öldürmə. Sənin gəlininin heş bir müşdərisi yoxdu. Gəlinin tumanını yeyən sənin öz inəyin oluf.

Burda bəy yıxılır Çələbinin ayağına:

– Başına dönüm, qadan alım, sənnən mənim indiyə qədər dosduğum bir idisə, indi on beş oldu.

Belə-belə mocuzları oluf onun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### II mətn

Nənəm nağıllıyanda eşitmişəm, Alı Çələbi öləndə dedi ki, mənim meyidimin üsdündə dava düşəjəh. Məni sarıyarsınız dəvəyə, afsarını verərsiniz Dolannarda Ağabəy var, Ağabəyə. Həmən bu erməni-müsurman hak-hesabında Ağabəy evinnən bir dənə şey götürmüyüf, tək ikicə dənə taxtanı alıf qujağına. Deyiflər ki, bu nə taxtadı?

Deyif:

– Alı Çələbi bu taxtanın üsdündə yatıfdı. Mən bunnarı özümə müqəddəs pir kimi saxlıyıram.

Deyif ki, özümüzkülərin əlinə versəniz, o deyəjəh mən aparım, bu deyəjəh mən aparım, bir-birini qırajaxlar. Verin o adamın əlinə. O adam çönüf axırda müsəlman da ola bilər.

### III mətn

Çələbiləri sürgün eliyirmişdər, qaçırmışdar hərəsi bir tərəfə. Alı Çələbi gəlif bizim evin alt tərəfində bir dam var, söykənif o dama, deyif:

– Hə, Qazaxıstan nə qəşəh qalmalı yerdi.

Həvəzə Çələbi deyif:

– Qardaş, qalmalı yerdi, gedərih.

Qardaşı heylə deyif, bajısı da heylə. Bilifdi ki, bular orda qalajax da, vətəndə qalmeyjax.

## 55. YASİN ÇƏLƏBİ

### I mətn

Yasin Çələbinin uşağı olmurmuş. Hajı İsrəfil varmış. Hajı Qasım Çələbi deyir ki, Hajı İsrəfil, bunun dərmanı Şıx atadadı. Şıx ata da Hovuslu kəndi deyillər, ordadı. Hovusdu kəndinin qabağında qəlbi dağdı. Şıx atanın qəbri onun başındadı. Gedif onun üsdündə dua eliyəndə devlər tərəfinnən bir alma gəlir. Onu verir atasına, anasına. O almanı yeyillər, onnan sora Suqra olur. Onun mamaları deyirmiş ki, Allah sən saxla. Göyərçin qapıya töküləndə qorxurux Suqra qanadlana olarnan uça, əlimizdən çıxa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Cavan vaxdı, on yeddi-on səkgiz yaşında Hajı Qasım Çələbi [Yasin Çələbini] çağırıf yanına, deyif:

– Yasin bala, Daşkənd də pis yer dəyil, pis torpax dəyil. Daşkənd də yaxşı torpaxdı, yaxşı yerdi.

Yasin Çələbinin qavrı Daşkəndə düşməli imiş. Ona görə o erkənnən ona təsəlli verif. Yasin Çələbi də gedif Daşkəntdə rəhmətə gedif.

## 56. HƏVƏZƏ ÇƏLƏBİ

Həvəzə Çələbi evladsız adammış. Qubatdı rayonunun Dundar kəndinnən oxucu varmış, ona ərə getmiş imiş. Həfəzə Çələbini tutanda Quranı gizdiyif. Qaratikanın altında Quranı gizdədif, qaçıf yenif çaya. Qarağaşda bir qadın vardı, Quranın yerini deyif o gələnnənərə. Deyif ki, Həvəzə Quranı tikanın altında gizdədif. Quranı çıxardıf yandırıflar. Həvəzə Çələbiyə deyiflər ki, bəs başına dönüm, Quranın yerini filankəs dedi. Quranı çıxartdılar götdülər. O da orda deyif ki, onu görüm, öləndə harsın surətdə ölsün. Niyə Quranın yerini deyif?

Həmən arvad xəsdələnir. Oğulları qızıllı* adammış. Arvadı götürüf aparıllar Bakıda Semaşka balinsiyasına. Semaşkada arvad rəhmətə gedir. Rəhmətə yox ey, nəhlətə gedir. Uşaxları gedir onu gətirillər. Gətirif yuyanda görüflər ki, bu, anaları dəyil, bir harsındı. Harsın da haralı olar? Hələkürün qabağında Cilan kəndi var, ordan olar. Bular deyir ki, bu bizim anamız deyil. Ataları gəlif deyir ki, o vaxt ananız belə bir iş gördü, Həvəzə Çələbi belə bir söz dedi. Həmin sözdü. Səs salmıyın, elə belə də basdırın. Elə heylə də basdırıflar, çıxıf gedif. Həvəzənin özü də Murmanskda dustaxlıxda rəhmətə gedif, orda dəfn eliyiflər.

---

* qızıllı – varlı-hallı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 57. SEYİD HƏMZƏ NİGARİ

### I mətn

Şeyx əfəndi varmış, ona Həmzə deyərmişdər. Hajı Qasım Çələbi onun aşığı oluf. O gedif Həkəri çayının suyunu belə atıf-tutuf öpürmüş. Deyiflər:

– Niyə heylə eliyirsən?

Deyir:

– Bu suya bir Qara Qasım gələjəh, qarışqalı daşdarı o tərpədəjəh.

Axuntdar, mollalar bilmiyif də düşman kimdi, Yezit kimdi, Maviyə kimdi. O açıf üsdünü, qalanı qorxuf. Onun da uşaxları Alı Çələbi oluf, Yasin Çələbi oluf. İdris, Osman cavan ölüf.

### II mətn

Seyid Nigari Türkiyənin Tarput vilayətinə gedir, orda evlənir. On beş, on altı yaşdı uşağı varmış. Xəbər gəlir ki, sənin Qarabağdakı sevgilin Nigar ölübdü. Arvadı buna xəbər verir. Seyid Nigari arvadına deyir ki, sən niyə bu xəbəri mənə birdən-birə verdin. Sənin də əzizin ölər, bilərsən ki, əzizinin xəbərini verməк nətər olur. Deyir, üsdünnən on beş, iyirmi dəyqə keçir, xəbər gəlir ki, onun on altı yaşdı oğlu orda ölüf.

## 58. LƏLƏ HAQQINDA

### I mətn

Bizim elə öz rayonumuzda oluf. Lələ dağı* deyillər. Deyir həmən o Lələ neçə yüz il yaşıyıfdı, özü də tək yaşıyıf. Bosdan əkif-becərirmiş. Heş kəsə əliynən heş nə vermiyif. Gəlif isdiyənə deyif ki, get, yığ apar, get, yığ apar. Bir dəfə əlində çürük yemiş varmış. İsdiyirmiş özü yesin. Görüb ki, yolnan bir adam gedir. Deyif:

– Ala, bunu verim saa, ye.

Öləndə deyillər ki, bir o yemiş onun cinazəsində görüküb. Becərdiyinin heş birini özü yemiyif ey. Verirmiş millət yesin, amma heş birini əliynən vermiyif. Bircə o çürük yemişi əliynən verif, o da ofsanata keçif.

---

* Lələ dağı – Cocuq Mərcanlı kəndinin yuxarısında yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### II mətn

Deyir, həmən o Lələyə deyiflər ki, niyə ev tikmirsən özəə?

Deyif:

– Axırı ölüm deyil, öləcəm. İsdəmirəm.

Allah-tala onun ömrünü uzadır, altı yüz ilə qədər ona ömür verif. Gənə də ev tikmiyif. Deyif:

– Axırı ölümdü.

### III mətn

Bir vilayətdən bir aylə uşağı-zadı olmazmış. Elə bil gedəcəhmişdər haca. Gəlif bunnarın (Lələnin – top.) evində qalanda qadın soruşur ki, uşağın-zadın. Deyir ki, uşağım olmur. Bu, ərinnən xəlvət gətirir bunun qucağına balaca daş qoyur. Daşı qoyullar, yürüyüllər. Yürüyüllər, yürüyüllər, səhər duranda görüllər uşağ ağlıyır. Həmən daş uşağ oluf bax, həmən Lələnin evində. Ordan da haca getmillər, ər-arvad uşağı götürüf qayıdır geri.

## 59. MİR SƏDİ AĞA

### I mətn

Kəndimizdə Mirsədağa adında ağır bir seyit, ojax vardı, Qubatdının Mirrər kəndində. Ora ağzı əyri gedən düz gəlirdi. Hamı o qədər inanırdı ki, kimin nə ziyaratı vardı, ora gedirdi. Vaxt gəlir, sovet dövründə, bı represiya dövründə kişini tutullar. Zəngilan rayonunda Akara stansiyası varıydı, ordan gedirdi qatarrar. Gətirillər qatara mindirəndə Mirsədağanı, qatar getmir. Hamı təəccüp eliyir. Düzəldə bilmillər. Axırda, qurban olduğum özü deyir ki, indi gedəjeh qatar. Bı sözü deyənnən sora qatar tərpənir. O kişiyə hamıda inam vardı dana. Hamı şahit oldu ki, qatar getmədi.

### II mətn

Mirsədağanın vaxt gəlir oğlu olur. Kişi bilir ki, onun başına gətirilən oyunnardan oğlunun da başına gətirəjehlər. Oğluna deyir ki, get oxu, həkim ol. Əlində diplomun olsun, heş kəsin şəkki-şüphəsi olmasın dana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlu gəlir, oxuyur, olur həkim. Xəsdələrə dava-dərman, nə verirdi bilmirəm, ancax özünün elə əliynən insannar şəfa tapırdılar.

Vaxt gəlir [Mirsədağanın oğlu] Mirməhəmmət həkim gəlir Bakıya. Bakıdan qayıdanda Fizuli rayonunda qəzıya uğruyur. Yer-göy hamı qan ağlıyırdı. Gətirillər onu Qubatdıya. İndi dəfn eləməh vaxdı gəlir. Hələ dəfn eləməmişdən də deyir o qəzaya uğradığı yerdə bütün yerdə-göydə olan quşdar hamı qanat saxlamışımış. Gətirillər Qubatdının Mirrər kəndinə – öz kəntdərində dəfn eləməyə. Kəndimizin də ortasınnan çay axırdı. Ant içirdilər, dəfn olunan dəyqada quşdar, dərələrdə – dağlarda olan heyvannar hamısı yığılıp gəlmişdi. Elə ki, dəfn qutarıp, hamısı dağılıp gedipdi.

### III mətn

Qurban olduğum Mirsədağagilin evində bir qohum qızı varıymış. Onun həyətində olurdu daa. Görür ki, bir dənə ilan gəlir, ağzı da açıx. Şəklə (Qızın adı Şəkildir – top.) deyip ki, get, bala, o ilanın boğazında sümüh var, onu çıxart. O da qorxup. Deyip ki, qorxma, get! Gedip çıxarıpdı sümüyü. İlan heş nə eləmiyipdi. Səssizcənə düzəlip yola, çıxıp gedipdi. Onnan sora Allah-tala tərəfinnən ona vergi verilipdi. Mədədən sümüh, nə bilim, gözdən qılçıx çıxartmax. Belə şeylər…

## 60. TUMAS ATA

### I mətn

Hajı Rəhimə[*] hərrənməsən o Tumas ataya çıxanda ziyaratın qəbul olunmur. Gərəh ora hərrənif çıxardın. Birinin züryəti yoxdu. Deyillər ki, Tumas ataya qurban apar, amma Hajı Rəhimə hərrən apar. Allah-tala ona övlad nəsib eliyirdi. Taxıl əkirdilər, yağış yağmırdı. Onda deyirdilər ki, adama bir maatdan yığax, mal qurbanı aparax Tumas atada kəsəh. Tumas ata da elə bil dik divara çıxırdın. Orda aparıf heyvan kəsirdilər, heyvan soyulunca o adamlar evə suyu tökülə-tökülə gəlirdi. Heylə müqəddəs pirlərimiz var.

---

[*] Hajı Rəhim Tumas atanın babası olub.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Olar üş qardaş oluf. Biri Tumas atadı, biri Günəş atadı, biri Çəpiy atadı. Günəş atanın da evladı oluf, Tumas atanın da, amma Çəpiy atanın olmuyuf. Çəpiy ata Qubatdı rayonu tərəfdə olufdu. And içəndə deyirdilər ki, sonsuz Çəpiy ata hakqı. Olar Hajı Qaramanın evlatdarı oluf. Günəş ata da Qubatdı tərəfdə olufdu.

**II mətn**

Kafır qavalıyıf bunu (Tumas atanı – top.), aparıf çıxardıf dağın döşünə. Gedif girif ardış koluna. Kəklih qakqıldıyıf deyif ki, filan yerdədi. Gedif girif ayrı yerə, genə deyif filan yerdədi. Gedif, orda beş dəyqədən sora qayba çəkiləjəymiş. Deyif:

– Ardış, göyün getməsin, kəklih, balan artmasın, qız, cehizin bitməsin.

İndi qıza dokquz maşın cehiz verəsən, genə nəyisə bitmir. Ardıcın da ömrü boyu göyünün getdiyini görmüsən? Kəkliyin də ki, dünyada balası artmıyıf.

## 61. DƏRVİŞ PİRİM

Dərviş Pirim Tumasdan aşağıda Hajı Qasım Çələbinin evlat-darının evinə gedən yoldadı. O pir idi, yolun qırağında idi. Başına döndüyüm Hajı Qasım Çələbini harasa qonax aparırmışdar. Deyifdi ki, atdarın başını saxla, elə burda dəsdəmaz alıf namaz qılajam. O namaz qılınan yeri müqəddəs pir qayırdılar. Qaratikan koludu, hasara alıflar. Ziyarata gedənnər də hasarın başına hərrənillər.

Dərviş Pirimin hökmünü mən görmüşəm. Yoldaşım şofer idi. Təkər düzəldəndə barmağının burasına çəkiş dəydi, onnan barmağı yaman günə qaldı. Durdux bunu götdük, getdih Xəcər nənənin yanına ki, bəs belə-belə. Getdih bu Dərviş Pirimə hərrənəndə (orda da yasdı daş var, elə bil kirkirə daşıdı), inanırsan, ilan quyruğu üsdə bax belə dik durdu. İmkan vermədi nə o tərəfə keçəh, nə bu tərəfə keçəh. Nəysə, bir az durdux, durdux. Yoldaşım dedi ki, Süleyman peyğəmbərin duası saa qənim olsun, icaza ver, biz hərrənəh. İlan kirimişcə getdi daşın altına girdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hərrəndik getdik. Elə maşınnan düşüf darvazadan içəri girəndə Xəcər nənə dedi:

– Ay Məhəmməd, adına qurban olum, niyə barmağını tutmadın o ilanın qabağına, tüpüreydi. Həmən ilan o ojağın yiyəsidi. Gərəh qoyeydin barmağına tüpürərdi.

## 62. DÜLDÜL PİRİ*

İmamın ağzını gavır diriyif qayaya, deyif:

– Mana tabe ol, saa su verim.

Elə orda xançalı çəkif qayaya, deyif:

– Mana su azdığı deyil ey, ay kafır.

Xançalını vurduğu yerdən su çıxır. Sora orda bir kadınnan bir kişi, üzr isdiyirəm, natəmiz olullar, gedif həmən suda çimillər, su quruyur. Hay gəlir qalxoz sədrinə. Qalxoz sədri deyif:

– Niyə quruyuf?

Bir ağsakqal olur Baxış kişi, deyif:

– Filankəsnən filankəs gedif o suda çimif, ona görə quruyuf.

Deyif:

– Gedin o suya qurban kəsin bilmirəm, Allahın yanına, əstəfrillah, çıxın bilimirəm, ordan su çıxsın.

Olar gedif orda qurban kəsif. Deyif:

– Ya peyğəmbər, qələt eləmişih.

Onnan sora su çıxıf.

## 63. AŞIQ QƏBRİ

Aşıx qəbri deyirdilər. Deyirdiər, o, Yaxşıynan sevgi imişlər. Bunnar bir-birinə qovuşa bilmiyif. Deyif:

Mən aşıx, sinə oyun
Sindirin, sinə qoyun
Yaxşını qibləsinə
Aşığı tərsinə qoyun.

---

* Veysəlli ilə Xudaverdi kəndinin arasında yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O, Qubatdı rayonundadı. Onun dörd bir tərəfində daşdan dəvə, at, hər bir şey vardı. Boğazında zobu olan o ojağın üsdünə gedirdi. Üş çərşənbə günü ora gedif o torpaxdan boğazına çəkəndə zobu gedirdi. Həkəri çayının o tərəfində Aşığın qəbridi, bu tərəfində Yaxşının. Bir dənə kümbəz varıdı Sarı aşığın böyründə. İstədih onu hərrənəh, bir dənə ağsakqal kişi dedi ki, ora hərrənmə, o nəhlətdəmədi. Deyirdih:

– Niyə nəhlətdəmədi?

Deyirdi:

– Yaxşıynan Aşığı o qoymuyuf bir-birinə qovuşa.

Deyirdilər niyyətin qəbul olmaxdan ötrü gedif minərsən dəvəyə, ya minərsən ata. Elə adam olurdu nə qədər cəhd eliyirdi, o daşın belinə qalxa bilmirdi.

## 64. İMAMZADƏ PİRİ

### I mətn

Biz o ili İmamzadada qəbrin üsdünü götürəndə[*] and olsun Allahın adına, o səs elə bil indiki kimi qulağımdadı. Gördüm ə, qulağıma belə bir maraxlı səs gəlir, insan səsi deyil, heyvan səsidi, çox maraxlıdı. Bı rəhmətdih Ramizə qayıtdım dedim ki, ə, vallah, bırdan elə bir maraxlı səs gəlir ki, məçit tərəfdən. Maa çox maraxlıdı. Dedi ki, sən Allah, fikrin dağınıxdı, həylə eləmə, işin də yarımçıxdı. Bir az aradan keçənnən sora gördüh, elə məçidin yanınnan bir cüt əlih gəldi, bizim altımızdan almaza-saymaza keçip getdilər bı kahıya sarı (İmamzadəni ziyarət etməyə – top.). Sora onu mən Tələtə sual verdim. Dedim o əlihlər… Dedi ki, ay Miri, səni sağ olasan, ollar neçə ildi bıra ziyarətə gəlillər, ozü də tüfəyə gəlmillər. Deyir, bax, bı qayanın divində də neçə dəfə çıxıp qabağa, isdiyiplər ollara tüfəh atsınnar, ollar gözə görünmüyüplər. Sora biz qutardıx işi, qayıdıp Göyrəbasa gələndə gördux bizim o Göyrəbasa gələn yolun üsdündəcə özdəriçün otduyullar. Bax, İmamzadada bı işdəri iki dəfə mən görmüşəm.

---

[*] Söyləyicinin oğlu İmamzadə qəbirstanlığında dəfn olunub.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir də Göyrəbasda bı muharibənin* pis vaxdıydı. And olsun Allaha, o getdiyim ocaxlar hakqı, tüfəh elə bil küşdəydi, iki dəfə, üş dəfə əl atdım tüfəyi götürməyə, tüfəh əlimə gəlmədi. Dedim Allah, bı nə möcüzədi? Durdum çıxdım. Çıxdım gəldim Heydərin evinin yanınnan. Onda Göyrəbasda yaşayış azıdı daa. Bı Səltənətin evinin böyrünnən keşməh isdiyəndə gördüm Mir Ağa dədəmin kalafasınnan bəri bir dənə düyə əlih gəlir. Elə gözəldi, elə gözəldi, inanırsan ki, göz muncuğu kimi. Səltənətin evinin qırağında belə bir dağdağan ağacı varıydı. Gəlif o dağdağanın qabağında durdu, belə baxdı, baxdı mənə. Dedim ya rəbbim, şükür sənin kərəmaa, bı da möcüzədi, yəqin bı ziyarətdən gəlir. Əlih döndü, yendi, elə belə saymazyana getdi. Göyrəbasa gələndə Tələtgilə dedim. Tələt atdandı, oğlu atdandı ki, onu bizə niyə demədin? Dedim ə, Allah sizə lənət eləsin, mən onu gözümnən görmüşəm ki, o ziyarata gəlip. Bax, Mir Ağa dədəmin kalafasında da o möcüzəni görmüşəm.

**II mətn**

Ora ziyarata hər yerdən gəlirdilər. Özü də o ilan məsələsi yalan deyil, həqiqətdi. Natəmiz adamlar, ziyarət qəbul eləmiyən adamlar elə ki gəlirdilər, ordan keçəndə qapının başınnan ilan sallanırdı, onu qaytarırdı geri. İmamzadıya girən qapı varıydı e, gördüh o girəcəhdə, evin künç hissəsində ilan belə qıvrılıp, dolanıp, başını qoyup üsdünə. Qıpqırmızı ilanıdı. Yeddi qardaş deyirdilər e. Hamı baxırdı o ilana. Baxırdı, keçirdi. Bax, belə baxırdı adamların gözünün içinə, dilini belə tərpədirdi. Sora kimsə dedi ki, o ilan Cılfırda** kimisə çalıp, ziyan verip. Sora gəlip ocağa öz günahını yumağ üçün. Belə rəvayətdəri danışırdılar.

**III mətn**

Bizim bir bibimiz nəvəsi var – Surayanın qızı. Rəhmətdih aqamın dünyasını dəyişməyini bına Qafanda orta məhtəpdə onuncu

---

* Qarabağ müharibəsinin
** Cılfır – Qubadlının kəndi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sinifdə oxuyanda qəfildən deyiplər. O, çox havalanmışdı. Gözümnən gördüm. Üzdən irax, öz başını yolurdu, belə dağıdırdı, paltarını cırırdı. Yatırtmax olmurdu, yendirməh olmurdu. Bını götürdülər gəldilər Göyrəbasa, aparax İmamzadıya ziyarətə. Erkən apardım dədəmi, Suraya bibimi, bir də o qızı qoydum orda – Seyit Həşim Ağa tihdiyi evdə qoydum, gəldim. Dedim axşam toran çalanda ziyarət eliyərsiz. Axşam hardansa qarannıx düşəndə İmana dedim ki, dur ayağa, adama bir at tapax, gedəh İmamzadıya. Adama bir yaxşı at tutdux, yəhərredih, mindih, getdih. Hardasa saat on ikiydi, birə işdiyir, getdih gördüh dədəm bı evdə, bı qızın əyağını sarıyıplar. Dedim:

– Dədə, niyə ziyarət eləməmisiz?

Dedi ki, bala, qorxdux, eliyəmmədih. Durdum tutdum bı qızın qollarınnan. Ayaxlarını atmırdı e, sürüyə-sürüyə gətirdim məçidə. İndi üş dəfə mən bını fırratdım İmamzadıya, gəldim saldım içəri. İçərdə də bını bir çətinnihnən o üç qəbrin başına fırratdığ. İkisini getdi, üçüncüyə gələndə qəbirrərin əyağında tarap uzanıp yuxuya keşdi. Yuxuya keçənnən sora bının ziyarəti qəbul olunmuş sayılırdı. Dedim ki, yatım qalım. Mən qorxmuram heş nədən. Rəhmətdih Suraya bibim dedi ki, bala, saa qurban olum, mən özum əhd eləmişəm ki, onnan orda yatım. Sora gəldilər içəri, dədəm də gəldi, Suraya bibim də. Olları qoyduğ o uşağın yanında. Biz atdandıx gəldih Göyrəbasa. Səhər bir də gördüh ki, bıdırana üsdən aşağı deyə-gülə üçü də gəlillər. Qız ayıldı, oldu anadangəlmə. Sora aylə qurdu.

## 65. MƏMMƏDLİ OCAĞI

Məmmətdi ocağı var, köhnə Məmmətdidə. Onu da eşitmişəm ki, çox ağır ocaxdı, inanılmış ocaxdı ha. Göyrəbasda Navrıs kişi olup. Ollar sora köçmüşdülər Gorusun Ağbılağına. O kişini Seyit yerinin başında ilan vırır. Elə bil otu biçir, yorulur. Dədəm and içirdi ki, o, belə uzanır, huşa gedir. Duranda insanda belə gərnəşmə olur da. Belə eliyəndə qolu düşür ilanın üsdünə. Düşəndə ilan bını çalır. Durur, qolunu möhkəm boğur, atı minir, ordan kəsə gedir Məmmətdi ocağına. Şahnisə arvat varıydı. Ocağa o baxırdı. Mücörrüyün o eliyirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay Navrıs, xeyir ola?

Deyir ki, Allah lənət eləmiş məni çaldı. Orda bir az tüpürcəhdən, torpaxdan sürtürdülər, sağalırdı gedirdi. Üsdünnən bir on-on beş dəyqə keşmişdi, ilan gəlir. Həmən ilan gəlir ocağa. Arvat qayıdır ki, Allah saa lənət eləsin, sən gecihdin, ölüm səninkidi. Bax, belə bir xətt çəkirdi, o ilanın o xətdən çıxmağa ixdiyarı yoxuydu. Ta ölüp orda məf olunca. Allahın sirridi. Bı Məmmətdi ocağının möcüzəsiydi.

## 66. SEYİD MƏHƏMMƏD BULAĞI

Seyit Məhəmmət bulağına böyuh inam varıydı. Orda iki adamın başına gələn hak-hesabı mən gözümnən görmüşəm. Şeyda varıydı, Camal kişinin qızıydı, Kamılın da bacısıydı. O gedir bılaxdan sənəyi doldurup gətirməyə, natəmiz gedir. Orda vırılmışdı. Vırılmax beleydi ki, havalanırdı da, başına hava gəlirdi. Gətdilər onu yıxdılar o bizim evin böyrünə. Dam evləri varıydı. Dam evində üsdündə ağlaşma qururdular. Rəhmətdih aqam gəlip baxdı, bircə dəfə əlini çəhdi, onnan da Şeyda qutardı. Orda aqam ona demişdi ki, Allah saa lənət eləsin, ora natəmiz getmisən.

Bir də Ədalət həylə oldu. O da, üzünnən irax yerə, o zibildən içiriplər, göndəriplər ki, ged ordan su gətir. O da həylə olmuşdu, havalanmışdı. Seyit Məhəmmət bılağı ağır bılaxdı. Həmən qırmızı ilannardan orda da varıdı. O ilannar adi ilan deyildi. Bıllar yeddi qardaşdılar. Mənim həyətimdə də varıydı, ama mən onnara heş vax dəyməmişdim. Çünkü o, əgər neçə ildi bırda yaşıyıp ziyannıx eləmirsə, mən ona niyə dəyməliyəm?

## 67. ŞIX HƏSƏN

### I mətn

Anamın babası arvadına deyir ki, yeznən deyir şıxam. Şıxdısa, gəlsin bu kömbədən bir qismət o yesin. Çilə ayıdı, qar-boran vaxdı, özü də gejə. Bu durur arvada deyir ki, dur başmaxlarımı gətir. Genə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

maa əziyyət verdilər. O özü gəlmir ki, onu gətirən gətirir. And içirdilər, hələ kömbə ojaxdan çıxmıyıf, görüllər qapı döyüldü. Deyif:

– Uy, üsdünə od tökülməsin, Həsən kişi gəldi.

Duruf qapını açıllar, gəlir.

– Salam-məlöykü.

– Əlöykət-salam.

Döşəh qoyullar, oturur, böyrünə mütəkkə qoyullar, söykənir. Kömbəni ojaxdan çıxardıllar, gətirillər sırfaya. Bir qismət kəsir qoyur ağzına, itəliyir o tərəfə. Deyir:

– Ay aman, ay dad, bəs sən niyə yemədin?

Deyir:

– Demədiniz ki, gəlsin bir qismət götürsün. Mən də bir qismət götürdüm, da bəs elədi.

Nə mümkün eliyillər qalmır, qayıdır gedir.

**II mətn**

İki cavan oğlanmışdar onnar. Kəlbəcərdə Mişni kəndi var. Orda o vaxdı subay malı qışda çölə ota göndərirmişdər. Boğaz malları damda saxlıyırmışdar, subay malı qoruxda otarırmışdar. Naxırçı aparıf otarıf qaytarırmış. İki dənə cavan oğlan subay mal otarırmış. Görüllər göydən bir dənə yaşıl alov burula-burula gəlir. Gəlir düşür bu cavan oğlanın birinin üsdünə. Düşəndə bu, özünnən gedir. Bu söhbət qaynatamın vaxdında oluf. Çox da uzax döylü. Bu özünnən gedəndə yoldaşı başına-gözünə döyür ki, bu niyə öldü. Bu nə idi gəldi düşdü, bunu öldürdü. Qayıdır kəndə gedir. Deyir:

– Göydən yaşıl alov gəldi, düşdü üsdünə, indi ölüfdü. Gəlin onu götürün.

Ağsakqalar gəlif baxıllar ki, ölmüyüf, özünnən gedifdi, sağdı. Ağaşdan nasılka düzəldillər. Döşəh, yorğan-zad qoyullar, bunu qoyullar nasılkanın üsdünə. O matəm ağacı mənim yadımdadı. Kəlbəcərdə uşağ idik, gedib divində oynuyardıx. Divində mərsiyə deyərdilər məhərrəmlihdə. Sınaxlı bir ağac idi. Gətirif bura qoyullar. Bunu gözdüyüllər. Bilirlər ki, sağdı da. İndi azmı çəkir, çoxmu çəkir, bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ayılır. Ayılanda duruf qaçır. Qaçanda deyillər ki, bu dəli oluf. İsdiyillər ki, bunu tutsunnar. Bir nəfər ağsakqal olur, deyir:

– Dəymiyin, işiniz yoxdu onnan. Qoyun görəh hara gedir.

Gedir qəbirstannıxda uzanır bir qəbirin içində. Bunu qıraxdan gözdüyüllər. Bir xeylaxdan sora baxıllar ki, qışın çiləsində qar, buz burdan, əlində bənövşə dəsdəsi duruf gəlir. Onda ona vergi verilir, hər şeyi də bilirmiş.

**III mətn**

Şıx Həsənin evinin damı idi. Onun üsdündə iki-üş nəfər oturmuşdu. Bir kotançı sancılanır. Sancılananı biri dalına alır gətirir evə. Özü gələ bilmir. Bunnar da üş nəfər oturmuşmuş. Şıx Həsən gülür. Güləndə yanında oturannar deyir ki, Həsən kişi, niyə güldün?

Deyir:

– Heç, elə-belə.

Deyillər:

– Yox ey, burda üş nəfərih, bizə gülürsən?

Deyir:

– Yox ey, sizə gülmürəm. Ölü dirini dalına alıf aparır, ona gülürəm.

Aradan üş gün keçir, həmən sancılanan dirilir, onu dalına alıf aparan ölür.

**IV mətn**

Bir gün [Şıx Həsən] arvadına deyir ki, yazı yazan gəlifdi. Tez böyüh qazanı gətir maa. Arvad gedir, gej gəlir. [Yazı yazan] kürəyinə yazıf gedir. Qazanı gətirəndə deyir:

– Lazım döyül, qaytar apar. Gej gətirdin, yazdı kürəyimə.

Əgər o qazana yazsaymış onun bütün nəsli-kökü şıx olajeymiş.

**V mətn**

Onun sınanmış bir əhvalatını danışım. Bir nəfət buna inanmır. Belə oturuf danışıllar. Deyir ki, əşi, ola bilməz. Bular da təndirə çörək yapırmışdar. Deyir ki, əgər onda şıxlıx varsa, bu çörək bişəndə gəlsin birinci çörəyin başınnan kəssin. Qaranlığ imiş ha. Çörək bi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şir. Onnar da dağın başında olurmuşdar. Nə qədər yoldu. O vaxdı da telefon yoxdu axı, kimsə kiməsə desin. Arada da nə qədər yol vardı. Birinci çörəyi təzəcə götürüf yerə qoyanda qapını açıf girir içəri. Həmin adam məətdəl qalır. Kəsir çörəyi, qoyur. Çıxmax isdiyəndə bu adam deyir ki, otur biznən çörək ye də. Deyir:

– Sən demədin axı çörək yesin. Dedin çörəyin birincisini kəssin. Mən onu yeyə bilmərəm, o mənə haram ola.

Bu əhvalatı görənnər  çox oluf.

**VI mətn**

Şıx Həsən, Şıx Hüseyn mənim nənəmin dayıları oluflar. İki qardaş oluflar. Canım qurvan onun ojağına, çox sınaxlı imişdər. Ata nənəm yatmışdı. Birdən durdu ayağa. Mən də birinci uşağa hamiləyəm. Bu arvad yuxudan durdu:

– A bala, hanı o uşax, nejoldu o uşax? Bir oğan uşağı vardı buralarda.

Dedim:

– Arvadın başı xaraf oluf, niyə belə deyir? Burda uşağ var?

Dedi ki, Şıx Həsən dayım belə ağzının lığavınnan çəkdi uşağın üzünə. Nəysə, bir aydan sora mənim bir oğlum oldu. Gördük ki, bunun üzündə iki dənə para ay şəkli var. Biri beləsinədi, biri beləsinə. Həmin oğlum indi də durur.

Apardım ojağa hərrədim. Bir kadının da uşağı olmurdu. Deyir mana gətirdi qoz verdi. Dedim ki, ay dayı, sən allah, filankəsin də uşağı olmur da. Ona da ver, aparım verim. Onun neçə illər boyu uşağı olmurdu. Ona da verdi, dedi: "Apar verginən". Elə bil ki, bu [qadın da] uşağı aparıf qəvrin üsdünə hərriyəsiymiş. Mən də yemək qayırdım, halva çaldım. Qaynımın uşaxları vardı, onnan barabar arvad apardı onun qəvrinin üsdündə yan-yörəyə payladı.

**VII mətn**

Qardaşın biri rəhmətə gedir. O biri qardaş gedir qışın qarında onun qəvrinin üsdünnən bənövşə yığıf gətirirmiş. Qonum-qonşu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyirmiş ki, sən onu hardan yığmısan bu qışda? Deyir ki, qardaşım verdi. O hara gedirmişsə, ona deyirmişdər sənin kürəyində şıxlıx var.

**VIII mətn**

Bizim kəntdə bir nəfər oluf, adı yadımdan çıxıf. Hər gün çıxırmış ki, Şıx Həsənin qəvri üsdündə işıx yanır. Bir ay, iki ay, üç ay, axırı bu kişi dözmür, arvadına deyir. Arvadına deyənnən sora o işıx yoxa çıxır.

## 68. KƏBLƏ İSMAYIL

Kəlbə İsmayıl adında nənəmin bir bibisi oğlu vardı. Onun bir də ağ atı vardı Vejnəvirdə. Bizim kətdən oyana Vejnəvird kəndi vardı. Bı durur bir yük bığdanı, – bir yük deyəndə tayı əlli kilo, – yüz kilo bığdanı yühlüyür ata, alır yedəyinə. Bizdərdə həylə su yoxudu, bılaxlarıdı. Bu gəlir Malakeşinə dəyirmana. Dəyirmançıya deyir ki, ay əmi, salam-məleyküm.

Deyir:

– Əlöykət-salam.

Deyir:

– Bu gecə mənim taxılımı üyüdərsən dəyirmanda?

Deyir:

– Bəli, bala, düşür. Bu gecə sənin taxılını üyüdüm, səhər tezdən çıx get.

Gedir atı düşürür. Üsdəki dən bitir, bının dənini başdıyır. Bı kişi deyir ki, taxılın çıxannan sora get suyu sav, gəl otu içəridə, mən də gələcəm. Bı kişi gedir əvə. O vaxt da çörəh-zad tapılmırdı. Qonşusuna deyir ki, filan yerdən bir kişi gəlif, bir yüh bığda gətirif. Gedax, o kişini öldürax, taxılını götürəh. İkisi gəlillər, qapını açıllar, deyillər:

– İsmayıl, azalıf işıxlanmağa, getməh isdiyirsən?

Bı kişini çəkillər çölə. Həmən dəyirmanın da böyrü böyüh çaydı. Bı kişini aparıllar çayın qırağına. Bı kişinin başını kəsillər, qumu eşillər çayın qırağında, basırıllar quma. Atını da gətirif bıraxıllar altdan-yuxarı kəndə. Qurban olum Allaha. “Allahın məsəli əla Məhəmməd və ali Məhəmməd”. Allah-taladan bir zat gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişinin boynunu bitişdirir, ordan çıxardır. Kişi çıxır, baxır görür ə, boynu qannıdı, amma nəysə həmən boynu dəyil dana.

Xulasey, gəlir axtarır, atını tapır. Atını minir gəlir düz kəndə. Taxıl yoxdu da, taxılı aparıf yeyiflər. O vaxdan kişiyə vergi verildi. O kişini mən görmüşdüm ey. O kişi çörəh yemirdi. Onun bir belə kisəsi vardı. Kisədə kişmiş yekəliyində dənələr vardı. Onnan birini götürüf qoyurdı ağzına, sümürürdü, sümürürdü, sümürürdü, çərəkəsini öynədirdi. O deyirdi ki, bı hökumət çox gözəl hökumətdi, bir dövr gələcəh, bir başı xallı kişi gələcəh, bı ölkəni eliyəcəh alt-üsd. Bu da kim ola, kim ola Qarbaçov. Bı kişi bı sözü deyir, yoxa çıxır. Yerə-göyə zincir saldılar, kişini tapa bilmədilər. Kişi itdi, qeybinnən yox oldu. Kişini bırdan götürüllər qurban olduxlarım, düz aparıllar Məkkiyə. Aparıf kişini qoyullar Məkkiyə. Kişi başdıyır orda bağban işdəməyə. Orda ancax xurma ağaşdarı olur da. Xurma ağaşdarını suvarır, gül becərir. Bırdan Məkkəyə gedən adamın biri görür ki, bı bağban həmən Kəlbə İsmayıldı. Əyə, bı bırda nə qəyirir. Yaxınnaşır ki, gedə bınnan danışa, kişi bir sirr olur, itir. Xülasey, həmən adam qayıdır gəlir kəndə, hay salır ki, bəs mən İsmayılı Məkkədə gördüm. Yaxınnaşdım ki, danışam, yox oldu, itdi, tapa bilmədim.

Bı rəvayəti bibimiz Şahnisədən eşitmişih.

## 69. KƏBLƏ FƏRZALI

Babam Kərbəlayı oluf. Onun bir kirvəsi varmış, o da Kərbalıymış. Babam bir gün arvadına deyir:

– Fatı.

Qocamın adı Fatıdı, nənəmin. Deyif:

– Nədi Fərzalı?

Deyif:

– Gedəjəm bir Kəblə Bəşirnən söhbət eliyim, gələjəm axşam.

Qocam da yığıf, yığışdırıf, bu Kəblə Fərzalı babam gedif Kəblə Bəşirgilə. Qədimidən o oğlunu qoyuf bının qucağına, bı da oğlunu qoyuf onun qucağına. Mənim babamın dörd oğlu varmış, onun da dörd-beşdimi bilmirəm. Kirvədilər, qədimi kişidilər. Mənim babamın qədimisi Ağdamnandı. Babam gəlif görüf bıra gözəl yerdi, dəvlət-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

didi, qocamı da bəyənif, elə bırda qalıf. Onnan da sürüsü, malı, dev-ləti aşıf-daşıf. Sora Kərbəlaya gedif bizim kətdən – Xannı kəndin-nən. Duruf gedif. Kəblə Bəşir deyif ki, Kəblə Fərzalı gəlif, dubara gətirin kəsin. Bınnan irəli qoyunnarın içinə bir dubara qoyardılar ki, sənin kimi bir dost gələndə dubara kəsilsin. Day qoç, erkəh, qoyun bılar qədimi ətdi. Dubara böyün qoyun doğuf ha, quyruğu olurdu bu boydana, onu kəsirdilər. Adam yolluyuf, gedif çobanın yanına. Ço-ban gətirif bir dubara varmış, verif bına ki, get. Bı dubaranın da anası xəsdələnif ölüf, onu keçi əmizdirif. Mənim babam Kəlbə Fərzalı gedif, bını gətirif kəsiflər, şiş kavav eliyiflər, yeyiflər, içiflər, danı-şıflar, sööbət eliyiflər. Mənim babam duruf gəlmağa. Deyif:

– Kəblə Bəşir, uşaxları yolla atımı gətirsin, mən gedim. Fatı mənnən indi niyarandı.

Duruf bu gələndə deyif ki, Kəblə Bəşir, mənim qarnım söz qavı dəyil. Mən getdim, day demə ki, Kəblə Bəşir mana dübara kəsdi. Deynən bir çəpiş kəsdi. Səni iyid ölsən, kişi. Deynən, bir çəpiş kəsdi. Babam atdanır gedir. Deyir, tay sözümü dedim. Kəblə Bəşir adam yolluyur ki, gedin çobana deyin gəlsin bıra, görüm Kəblə niyə belə dedi. Ona fikir ver e, nənən qurban, ona fikir ver ki, babam nə çoxbilmiş imiş. Kəblə Bəşir deyir:

– Çoban, mən saa demişdim çəpiş yolla? Sən niyə çəpiş yolla-mısan?

Deyir:

– Kərbəlayı, a sənin başına dolanım, sənin dubaran oydı, onu da yolladım. Sizin qızıl qulaxlı qoyunun balasıydı. Anası öldü, o qoyuna tutdux, bu keçiyə tutdux, dübaralıx elədih qoşdux heyvana. İndi bircə karrı o dübaraydı, onu da yolladıx sizə.

Deyir, Kəblə Bəşir iki əlini qaldırıf çırpır başına:

– Vay evi yıxılan mənəm, oğlu ölən mənəm, gör, ətin dadın-nan bilif ki, heyvan keçi südü əmif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# 70. ƏLİ BULAĞI VƏ NARLIQ MEŞƏSİ*

## I mətn

Ağdam rayonunun Gülaplı kəndi var. İsdiyip cənab Əli orda namaz qıla, görüp kü, su yoxdu. İsdiyir atını bağlıya, görür atını bağlamağa yer yoxdu. Görüp orda nəysə uşax özünə ojax qayırıp, nar ağacı var, kösöy var. Götürür kösöyü soxup yerə, atını bağlıyıp ona. Bu səfər görüp su yoxdu dəsdəmaz almağa, çəkir qılıncı dağa belə, ordan su pakqıldıyıp əyinnən bəri. Görüp dağ uçajax da, bərk kəsipbiş, əlini belə yapışdırır kı, dayan. Əlii xəmirə yapışdırarsan e, bax, heylə yapışıp dağa, dağ dayanıp. Əlinin yeri bax heylə qalıp. Həmən ordan bulax çıxır, Əli bulağı deyillər. Başdıyıp dəsdəmaz alıp, qayıdıp namaz qılıp. Atı da o kösöyə bağlamışmış, həmən kösöv bitip, olup nar ağacı – narrıx. Həmən onüçün deyillər Əli bulağı, Əli bulağı. Axı ora Cənab Əli nar əkip.

İndi uşağı olmuyannar niyyət eliyip ora yüyrüh asıllar, ocaxdı da. Əgər yüyrüh tərpənsə, deməh, uşağın olacax.

## II mətn

Bizdə Əli bılağı varıydı. And olsun Allaha ki, o bulax müqəddəs bir bulağıydı. Yanı daşın üsdündə nar ağacı pitmişdi, nar ağacının bir tərəfi qızılgül gətirirdi, bir tərəfi nar gətirirdi. Piridi, ziyaratgahıdı. Yanı bını bizim kəndin camahatı, qıraxdan gedənnər də görmüşdü kü, nar qızılgül gətirir, sora meyviyə çevrilirdi. Bütün bulaxlar, günbatannan çıxır, gündoğana doğru axır. Amma o nadir bulaxdı ki, gündoğannan günbatana doğru axırdı. Özü də sırf daşın içinnən çıxırdı, elə də guruydu ki, elə bil arteziyanın suyu gəlir, bax, heylə. Orda bir qaya var, üsdündə pəncə var, Əli pəncəsi deyillər. Rəvayət eliyillər ki, qaya gəlirmiş, Əli əlini verif dəə onun qavağına. Soralar da, bax, onun üsdünə erməni xaç çəhmişdi. O xaç çəkən ermənin külfəttinnən bir nəfər də qalmadı, hammısı qırıldı. Ona görə də ermənilərin o dağa inamları varıydı. Onnar pütün ayləlihcə bir gejənin içində qırıldı. Pərpətöyünnən zəhərrənmişdilər.

---

* Ağdam rayonunda yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**III mətn**

Bizdə Əli bılağı vardı. Deməli, Həzrət Əli o vaxdı bir dənə quru kösöyü sancır yerə, atını bağlıyır ora. Çox bərh susdamışımış. Qılıncını belə çəkir dağa Əli, qurban olduğum, bı daş belə paralanır. Belə hesav elə, bı öyün bir hissəsi paralanıf gedif tüşmüşdü ora, tüşəndə əlini belə qavağına vermişdi, əli elə bilginən ki, xamıra batan kimi daşa batmışdı. Görür ki, dağ gedir, əlini belə verir qavağına, əli xamıra batan kimi batmışdı. Həmən bulax o iki daşın arasınnan çıxmışdı. Əlinin birini yerə qoymuşdu, bir də dizini, ordan su işmişdi. Dizinin də, əlinin də daşa izi düşmüşdü. Orda erməni sora əlinin üsdə xaş çəhmişdi. Dedilər, o ermənının kökü nətər kəsilifsə, bir quyrux buluyanı da qalmıyıf. Bax, o quru kösöy də göyərmişdi. Həmən bılağın üsdündə bir dənə nar kolu çıxmışdı. Bax, o nar kolu üç hissiyə bölünmüşdü. Onun biri qızılgül açırdı, ikisi nar gülü açırdı. İki zuğu nar gülü açırdı, bir zuğu qızılgül. Köhdən çıxan narıydı. Üş dənə zuğuydu. İndi birinin uşağı olmurdu, aparıb həmən narda yüyrüh asırdı. İçinə daş qoyurdu, əyəm o yüyrüh yüyründü, bilginən onun züryəti olajax, yüyrünmədi, olmıyajax. Qəbir-zad, hes zad yoxuydu. Atını bağladığı kösöy göyərmişdi. İndi ona görə çox adam deyir ki, quru kösöyü göyərdən Allah, sən bu nəziri qəbul elə. İndi kimin ki qurbanı qəbuludu, gətiriv orda kəsirdi, kavaplıyırdı, paylıyırdı.

## 71. SOFU RÜSTƏM PİRİ

Bizim kəndin* şərqində, günçıxanında ojax dağdağan vardı, dörd-beş dənə dağdağan ağacı var. Onun xırda-xırda meyvəsi olur. Bir övliya Arazın o tayınnan gəlip orda ölüp, orda dəfn olunup. Bu ərazi qədimlərdə məşhur meşəlih oluf. Orda parçalar, yaylıxlar asırdılar ağaşdan. Meşədən donuz, vəhşi qaban gəlir, tüşür bunun ayaxlarına, yatır. Camaat qışqırır, qonşu kəntdərdən gələnnər qışqırır ki, donuz gəlib bizi parçalıyıv eliyər. Həmən o Rüsdəm oğlu kimdisə o deyir ki, dəymiyin, donuz maa biyət elədi, zəngişallılar maa inanmadı. Xam donuz maa inandı, gəldi mənim əyaxlarıma döşəndi. İn-

* Zəngişallı kəndi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

di ora qalır, ağaşdar durur, onnan sora qəvir də durur, başdaşı qırılıf, amma genə həmən daş orda durur. Vaxdilə o pirə gedirmişdər. Amma indi orda hər şey olduğu kimi durur, amma başdaşı qırılıp.

### 72. EŞQ ABDAL PİRİ

Üçoğlan kəndinin lap bəriki hissəsi Səfərli kəndidi. Səfərli kəndinin qəbirsannığında müqəddəs bir pir var. Eşq qızın adıdı, Abdal oğlanın adıdı. Bir-birinə olan isdək-məhəbbət ona gətirir çıxardır ki, atası qızı verməh isdəmir oğlana. Qız da oğlana qoşulub qaçır. Onnarın dalınca atdılar çapa-çapa gəlillər. Ta görüllər ki, elə vəziyyətdi ki, hara getsələr tutulacaxlar, öldürüləcəhlər. Deyillər ki, ya rəbbim, bizi ya daş elə, ya bir qəbir elə, ya bir nəsə, qoşa eyni yerdə dünyamızı dəyişəh. Həmən orda bir qoşa qəbir var. Üsdündə bir köhnə formada palçıxdan suvanmış, məsələn, çubuxlarnan hörüflər, möhürə deyillər ona, palçığın içinə saman qatıb qarışdırıllar, o çubuxları hörüllər, hörənnən sora onu içəridən suvuyullar. Üsdü də o formada, elə bil qəbir ətrafında məqbərə formasındadı. Kimin qəlbində nə niyyəti varsa, hasil olması üçün ora gedillər. Qəbirsannıxda ağac çoxdu. Dili tutulan gəlir, bırda dili açılır.

### 73. DAMCI BULAQ

Kəndimizdə Damcı bulax varıydı. Deməh olar ki, ojax kimiydi, onun üsdünə arax aparanda işməyə, o bulax quruyurdu. Nööbəti ilə kimi qurumuş qalırdı, nööbəti il genə başdıyırdı gəlməyə. Bir də aparsan, bir də quruyajıydı. Elə suydu ki, bir dəyqə əlii belə saxlıyəmməzdin, kəsirdi o sahad.

### 74. GƏLDİM QAYASI*

Deyillər, qayadan hər axşam səs gəlir. Deyir ki, gəldim, gəldim, gəldim. Bir gəlin inək sağırmış. Bir gün deyir ki, əşi, gəldin, gəl da, cəhənnəmə gəl. O dəyqə həmin qaya uçur, gəlini inəkli-

* Laçın rayonundadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zadlı basır öldürür. Minkəndə sarı gedəndə həmin ocaq görünür. Köhnə dam kimi kümbəz idi. Dərənin içində, çala kimi yerdə yerləşirdi. Ordan keçəndə deyirdilər ki, ora ocaxdı, pirdi. Bəs belə bir hadisə oluf.

## 75. QAYB OCAĞI*

Qeybinnən yaranmış ojağ oluf. Göbəyinnən bir dənə ərik ağacı çıxıf. Hər gedən bir haftafa su aparır, o ağacı suluyur. Qayb ojağında metr yarım boyunda sal daşı vardı, "dalax daşı" deyirdilər ona.

Novruz bayramında at çaparmışdar. Bir dənə oğlan atı minir mərcnən ki, sənin atın mənim atımı keşsə, yəhərri-zadı düşüf verəjəm sənə. Həmən cavan uşağ gəlif bunu keçif gedir. Çıxardır naqanı, o daşa bir güllə çaxır. Güllə dəyir, daş ortadan carğanaxlıyır. O daşa güllə atdığına görə, onun bir tərəfi quruyuf qaldı. Öldü həmən adam.

*Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşmış Füzuli rayon sakinindən qeydə alınıb.*

## 76. ƏLI BULAĞI**

Əli bulağı vardı. Çox hündür bir dağın başınnan çıxırdı. Onun böyründə də bir daş varıdı, yekə daş idi. İnsanın beş dənə barmağı batmışdı o daşa. Bunu mən yaşda kimnən soruşsan sənə deyər. Şıxlı dağı vardı. Guya Həzrət Əli gəlif çıxıf ora, deyilənə görə, qoşun susuzduxdan batırmış. Deyif ki, bu daşı atıram, bu daş hara düşsə, su ordan çıxajax. Gedif ordan su için. Daş da gəlif düşüf ora, ordan da su çıxıf.

Qaya vardı, görürdün ki, bu qayaynan yoxuşa at çıxıf. Atın ayaxlarının rəddi düşmüşdü.

---

* Füzuli rayonunun Qacar kəndindədir.
** Laçın rayonundadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əli bulağına ziyarata gedərdilər. Yolun qırağında idi. Gedif orda qurban kəsirdih, yeməyi bişirirdih, kim yolnan gəlirdisə, dəvət eliyirdih, gəlif orda bir tikə çörəyini yeyif gedirdi. Həzrət Əlinin yolunda verirdih o ehsanı. Kimsə ora heyvan aparanda deyirdi ya Allah, sən maa kömək elə bu qazannar hazır olanda kimsə gəlif çıxsın. Elə bil qazan hazır olan kimi adam gəlif çıxırdı. Ora arax içən adamı qoymurdux. Adam vardı, arax içirdi, gedif o bulaxdan su içməzdi. O bulağın bir ovuc suyu olardı. Amma bir dənə gomuş ağzını diriyirdi ora, qutara bilmirdi. Belə sirrəri vardı.

## 77. XOÇAZ QAYASI

Xoçaz qayası vardı. Guya yolnan gedən adam gəlif bir qoyun otaranın yanına. Deyif ki, qardaş, atalarda məsəl var, ajdın çobana sarı get, yoruldun karvana sarı. – Karvanın imkanı olajax, at-eşşəyi olajax, səni üsdünə qoyuf aparajax. Çoban çörəyi də olmasa, qoyunnan-keçidən birini sağıf verəjəh. Ona görə deyiflər ki, ajdın çobana sarı, yoruldun karvana sarı get. – Deyif ki, ajdığım var. Deyif ki, vallah, qardaş, üsdümdə çörəyim yoxdu, bu qoyunun yiyəsi də elə biəzab adamdı ki, burdan bir quruşqa saa qoyun südü sağıf versəm, məni gedəndə öldürəjək. Mən nökər adamam.

Bu, guya üzünü çevirif qivləyə, deyif:

– Allahdan arz eliyirəm, sizin qoyun daşa dönsün burda.

Mən gözümnən gördüm. Hardasa xeylax qoyundu daşdan, qoçdu, quzudu – hamısı məlumdu. Çoban, mal, at, it – hamısı daş oluf. Qarıqışdaxnan Xoçazın arasında yerləşir.

## 78. MAYMAAN ÇİNARI

Bizdə çinar vardı, Maymaan çinarı deyirdilər. On-on beş adam girsin koğuşuna, bax, o yekəliyində çinar idi. Uşağı xəstə olan, sora ağrısı olan gedirdi. Divində bulax vardı, suyunnan, palçığınnan-zaddan uşağın orasına-burasına sürtürdülər, ağrısı keçirdi. Parça bağlıyırdılar, gövdəsinə mismar vururdular. Ora mismar çalmağa sora biz qoymadıx, imkan vermədih. Kimisi, nə bilim, şal aparıb bağlıyırdı. Bi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zim öz uşağımız xəsdələnmişdi, təzə paltar alıb gətirmişdih Rusiyyətdən, onu heç əyninə geyindirmədih, apardıx onun üsdünə qoydux ki, uşağ sağalsın. Bax, heylə inac gətirirdilər. Camaat fasalidən, kökədən, şirniyyatdan, konfetdən aparıf üsdünə qoyurdu, gələn-gedən aparırdı. Ağacın başına kimisi üş dəfə, kimisi yeddi dəfə belə hərrənərdi.

Deyillər guya Nuhun gəmisi gəlib həmin çinara bağlanıb.

## 79. İMAMZADƏ

Bir imamzadamız var, qədimi imamzadadı. Onun üsdünü həməşə camaat yığılıf düzəldirdi, külək atırdı yerə. Əvvəllər imamzadanın yanında (kəndimiz orda məskunnaşıf), tez–tez fəlakətdər olurmuş. Camaatın yuxusuna tez-tez girirmişdər ki, xayiş eliyirih, bırdan çıxın, bırda imamzada olur. Camaat çıxmıyıf. Axırı bir gün sel gəlif oranı basıf – həmin o imamzadanın ətrafını, hamısını götürüf gedifdi. Onnan sora camaat bilif ki, ora ziyaratgahdı, orda yaşayış olmaz. Gediflər onnan sora bir-iki kilometr dağın döş hissəsinə.

## 80. HACI ARAB ZIYARƏTGAHI

Cəbrayıl rayonunun “Kavdar” kəndində Hacı Arab ziyarətgahı deyilən ojağ varıydı. O elə bil ki çay daşlarınnan – belə yumuru, yastı daşlardan dayirəvi düzülmüşdü. Çox uzaxlara gedir onun tarixi. Oranı ziyarətgah kimi qəbul eliyirdilər, hamı, bütün rayon gəlirdi ora ziyarətə. Kimin istəyi, arzusu varıydı, çərşənbə günnəri gəlif orda piltə yandırardı, onların arzusu, istəhləri qəbul olardı. Hasarın içində orda iki xanım dəfn olunupdu. Olar həcə ziyarətə gediplər. Biri on iki aya gəlipdi, o birisi on dört aya. Gəlif kəndə çatan kimi rəhmətə gediflər. Oları həmin yerdə dəfn ediplər. Onun yanında bir dalax daşı var idi. Yağış yağanda, nəmişdih olanda həmin daşın yuxarısınnan – baş hissəsində aypara kimi yeri varıydı, ordan qan kimi su çıxırdı. Elə bilirdin ki, qan çıxıf. Mədəsi ağrıyan, hamilə kadınnar özlərini həmin daşa yaxınnaşdırıp mədələrini sürtürdülər. Deyilənə görə, bı çox xeyir eliyirdi, nəysə orda bir ilahi qüvvə varıydı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şəfa tapmax üçün insannar düz üç çərşənbə dalbadal buraya ziyarətə gəlir. Burda Yahya babanın, Səkinə Çələbinin, Mirhüseyn babanın da məzarları vardı.

## 81. SEYİD MƏMMƏD AĞA

Seyid Əhməd ağanın oğlu Seyid Məmməd ağa rəhmətə gedəndə bir dənə ağ göyərçin kişinin ağzınnan nəfəs çıxanda daxil oluf evə, qonuf karnizin başına. Yeddi gün karnizin başında o da millət kimi yas tutuf. Yeddi günnən sora təziyə çəkiləndə o da uçuf, qapıdan çıxıf gedif. Qırxı günü yenə gəlif. Həmən karnizin üsdündə orda duruf millətnən, məclisi yola salıf ordan çıxıf. Bular hamısı göz qavağında olan şeydi. Özü də bu iki-üç ilin söhbətidi. Hamı da dedi ki, dəymiyin. Bu möcüzələr görünüf.

## 82. SEYİD ƏZİZƏ AĞA

### I mətn

Bu kənddə, indi rəhmətə gedibdi, Qədim Oğlayev varıydı. O, danışırdı kı, öküz arabası işlədirdim, öküz arabası batdı. Deyir, o vaxtı traxtor yox idi, bircə dənə kəntdə universal varıydı. Deyir, getdim bu universalın sahibinə dedim ki, mənim arabam batıbdı, gəl bunu çıxart. Araba deyir, nətəər batıbsa, universal bunu nə qədər çəhdi, deyir, gördüm arabanı qırıxlıyır. Hə, bu universal çəkənə dedim:

– Ə, saxla, ə, saxla, arabanı qırıxlıyajax.

Deyir, universalçı çıxdı getdi. Deyir, bir də baxdım ki, Seyid Əzizə ağa yun əyirə-əyirə, ip əyirə-əyirə, quzu qavağında gəlir. Deyir, gəldi çatdı. Dedi:

– Dədə, balama qurban, – həmişə də helə deyərmiş, – nə olubdu, niyə araban burda qalıb?

Dedim:

– Ağa, arabam batıbdı, nə qədər də universalnan çəkdik, çıxmadı.

Deyir, dedi ki, balama qurban, mən əlimi tutajam arabanın cağınnan, “Allah, Məhəmməd, ya Əli” deyəjəm, amma sən öküzü vurma,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"xo" denən. Ölən günə qədər danışardı ki, göydə Allah, yerdə Seyid Əzizə ağaya inanmışam. Deyir, əlini tutdu arabanın cağınnan, dedi:

– Allah, Məhəmməd, ya Əli, bala, "xo" denən.

Deyir, o, universal çıxarda bilmiyən arabanı çıxardı qoydu qırağa.

**II mətn**

Bir Cavanşir var imiş. O deyirmiş ki, mən Seyid Əzizə ağaya o qədər inanmışdım ki, onun kəraməti, onun səxavətləri, onun böyüklüyü, onun gözütoxluğu... Heç kəsə əl açmazdı, heç kəsdən heç nə istəməzdi. Deyir o qədər onun kəramətlərini görmüşdüm, qapı-qapı gəzib nəzir-niyaz yığan seytdərnən qarşılaşanda deyirdim ki, bizim seyidimiz var, biz, nəzirimizi aparıb onun evində veririk. Deyir ki, fermada işləyəndə, südü aparıb zavoda təhvil verirdik. Bir gün Seyid İvrahım ağa dedi ki, Cavanşir, nənəm yaman naxoşduyub.

Dedim:

– Hardadı?

Dedi:

– Bərdədə xəstəxanada yatır.

Hə, dedim ki, ağa, onda südü verək, ordan da gedək nənəni ziyarət eliyək. Hə, deyir, getdik, südü verdik, süd zavodunda yaxşı pendir olurmuş o vaxtı. Deyir, ordan pendir götdük, isti çörəh aldığ pekarnıdan, bazardan da mer-meyvə aldım, getdik ağanın yanına. Getdik, görüşdük. Dedi:

– Balama qurban olum, Cavanşir, mənim vaxtım çatıbdı, mənim ölməyimə az qalıbdı.

Özü də aşura yaxınnaşırmış. Deyib ki, mən aşura günü öləjəm, ama İrvahım məni xəstəxanadan çıxarmır, burda öləjəm. Məni çıxardın aparın, evdə ölüm.

Hə, deyir ki, hardasa iki gün, üş gün çəkdi, ağanı çıxardılar gətirdilər, nənəm aşura günü rəhmətə getdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### III mətn

Bax, bir Arif var, deyir, balaca uşağıdım. Nənəm maa dedi ki, gedək Seyid Əzizə ağagilə. Seyid Əzizə ağa onda yer damında olurdu. Evin yanında deyir, baxdım ki, bir incil ağacı var. Deyir, nənəm mənim əlimnən tutub incil ağacının divinə keçəndə, baxdım ki, incilin divində ikimi, üçmü ilan yatıf. Deyir, mən belə qorxuf çəkiləndə ağa qayıtdı ki, bala, qorxma, ollar adam çalmazlar. Nənəm də qayıtdı ki, Allah nələt eləsin, hardasa ziyannığ eliyiflər, ona görə gəlib burda yatıblar.

Gejə oğru gəlifdi ki, kişinin atını aparsın. Gəlib toluya giribdi ki, atın buxoyunun üstündə ilanın yarısı bu üzdədi, ilanın yarısı o üzdədi, ordan qayıdıf gedifdi.

Deyir ki, Seyid Əzizə ağa o vaxtı qışda bura gələrdi, yayda gedərdilər Laçına. Hə, deyir ağa burda yoxuydu. Gəlillər ki, nənəmin də bağını qıralar, hələ gəlməmiş imişlər bura. Gəlif qapıdan baxıllar, ki, qapı helə ilandı. Elə ordan da qayıdıb gediblər, heç tay bağını qırmıyıblar.

## 83. SEYİD XƏLİL OCAĞI

Seyid Xəlilin özünün gözdəri korudu. İkisi də korudu. Ojağına maral gəlirdi, ilan gəlirdi. Onun ojağına gedəndə dalın-dalın çıxırdıx qapıdan. Çönüb çıxmırdıx. Üzümüz evə sarı çıxırdıx. Şuşanın özündeydi.

# YER ADLARI, KƏND VƏ QALALAR HAQQINDA

## 84. QIZ QALASI*

### I mətn

İki xan varımış İranda. Birinin yeddi oğlu bir qızı varımış, birinin beş oğlu varımış. Beş oğlu olan o biri xanın qızını götürüf gejə miniflər pəliyə, Arazdan addıyıflar bı taya. Bı tayda da bizim biçənəyimiz var. Bırda həbelə qala var, o da İrannan üz-üzədi. Ora elə bil

* Zəngilan rayonunun Əmirxanlı kəndində yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zastavdı. Bu zastavın yanınnan keçiflər, gəliflər. Bacı, nəynən gətiriflər, nəynən tikiflərsə, burda bir qala tikiflər, bax bı əvdən yekə. Bı qalanı tikiflər, dünyada nə varmış gətiriflər. Pir Xənəzir deyirih, ağır pirdi. Bı Xənəzirdən kankan gəlif su çəkməyə. Meşənin içiynən durumba gətiriflər, bizim biçənəyin yanınnan çıxardıflar. Qızı qoyuflar ora, orda toyux hini tikiflər, toyuğacan gətiriflər. Bının, nənən qurban, əvinin üsdünü-zadını qəyiriflər, düzəldiflər. Bırdan suyu buraxanda tökülmür ordan yenişə. Zadın altınnan yer qoyuflar. Bırdan qabını-qaşığını yuyuf, işığını-zadını çəkiflər.

Bu yeddi oğlu olan gedif görüf ki, bıy, qız nə qayırır, qız yoxdu. – "Ə, qız hanı?" – "Yoxdu". Yeddi oğlu olan axtarıf, axtarıf, bilif ki, bırdadı. Biz qarabağlıyıx, olar qaradağlıdılar. Deyiflər, Qarabağda bir qala tikilif. Gejə duruflar, yığışıflar, yeddi qardaş gəliflər. Çağırıflar, qızın adını çağırıflar, nə qədər eliyif, qız dinmiyif. Gediflər Gəncədə bir qoca erməni tapıflar. Deyiflər orda belə bir qala var, onun nə suyu var, nə yeri var, nə yurdu var. Qız da dillənmir, amma qız o qaladadı. Onnan sora erməni deyif ki, gedin bir qatırı yeddi gün bağlıyın, qavağına arpa tökün, saman tökün, su vermiyin ha. Nəbada-nəbada su verəsiz. Suyu gösdərmiyin qatıra. Elə içəridə yemini tökün, yesin, suyu gösdərmiyin. Bı qatırı aparın əlizda. Bu qatır ayağını hayana çalsa, su ordadı. Gör erməni nə qədər bilirmiş e.

Heylə də eliyillər. Bı qalıya çıxmax üçün səki kimi yer var. Qala da qaladır ey, hər tərəfi gül, bülbül. Gəlir qatır əyağını vırır. Buranı eşillər, durunbanı tapıllar. Bı durunbanı açıllar, suyu kəsillər. Qatır suyu içir, içir, içir, dəyir yerə. Susuzdu axı neçə gündü. Özü də erməni tapşırıf ki, qatıra çox su vermiyin ha, yıxılar ölər, dəyər ürəyinə. Çünki, yeddi gün yeyif, susuzdu. Qatırı dartıf çıxardıflar. Deyillər, cəhənnəmə, qızı tapax. Gedillər. Nə qədir lom gətirillər, qıfıl gətirillər, nə gətirillər, bının yerini tapbıllar. Bınnan bir belə qopardammıllar ki, qızı çıxardalar ordan. Qayıdıf minəllər pəliyə, gedif lom gətirəllər, gupun gətirəllər. Beş gün orda çalışalar, bir belə dələməzdər. Genə gedəllər bı ermənənin yanına. Erməni deyər ki, gedin iti mis qayırın. Onu lumnan, gupunnan vırın, ordan deşiləjəh. Gəlif heylə eliyillər, deşillər. Bir belə yerdən görüllər ki, qız orda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oturuf, hər şeyi də yığıflar yanına. Qıza tikiflər ha o qalanı, qoyuflar içinə. Onu bir belə deşiflər, üjdən genəldiflər, üjdən genəldiflər, qızı dartıf bırdan çıxardıflar gejə. Ayının-üyünün yühlüyüflər qatırrara, Arazın qırağında miniflər pəliyə, addadıflar o üzə.

*Söyləyici bu mətni atasından eşidib.*

**II mətn**

İranda bir Tağı xan olur. Onun yeddi oğlu, bir qızı oluf. Bı qızı Tağı xan qorqanır, saray tihdirir. Bının qırx qulluxçusu, qarabaşı olur. Gecənin bir gecəsində bir oğlan gəlir, qıza müşdəri çıxır. Qız deyir ki, mənim qardaşdarım səni öldürəcəh, bı şəhərdən gəl qaçax. Bu, dəsdəsini yığır – neçə yük qızıl, əşyalarını yığışdırır, gecə çıxıllar. Bının da bir dünyagörmüş vəziri olur, Allahverdi xan adında. Az gəlillər, çox gəlillər, bizim o Əmirxannı kəndinin üsdündə qala var, böyüh dağdı e... O dağa çıxanda Fizuli, Horadiz, Qaradonnu görünərdi. Əlqərəz, gəlif çıxıllar o dağın ətəyinə. Bı dağ da dəmyə bir yerdi, suyu-zadı yoxdu. Deyir:

– Vəzir, axı bırda mənim qoşunum dayana bilməz, susuz yerdi.

Deyir:

– Eybi yoxdu.

Altdan yuxarı gedillər. Biz Soltan Heydər deyirik, pirdi. Orda bir dənə daşdı qeybinnən, bu tikili yekəliyində, kürə gözü boyda yer deşihdi. O pirə təmizdənif, qusul verif gedirdin. Gərəh sən ordan əyilif iməhliyə-iməhliyə çıxardın. Əgər ürəyin düzdü, təmiz, düz adamsansa, o daş yol verirdi, çıxırdın. Bir əngəlin vardısa, bijdiyin vardısa, o daş gəlif birləşirdi, saa yol vermirdi, qayıdırdın geri. Soltan Heydər belə pirdi.

Vəzir nökərrərdən götürüf gəlif çıxır ora. Deyir ki, bırdan həmən qalıya su cəhməh lazımdı. Xülasey, qızıl bol, pul bol. Buraxır pıldan, durba alıllar. Gəlif o Soltan Heydərin suyunnan həmən o Qız qalasına su çəkillər. Oranı götürür bütöv saraya, hesab elə göydən uçan quş ora qona bilmir. Bılar bir müddət qalıllar orda, qalada.

Səhər hay düşür. Görüllər qızın qulluxçusu, dəsdəsi, heç bir şeyi yoxdu. Əyə, belə şey ola bilməz. Yerə-göyə səs salıllar. Gəlif



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxıllar həmin qalıya, qızı tapıllar. İndi bının qoşunu güj gələ bilmir, qalanı ala bilmir. Xanın da bir vəziri varıymış, o da bilihliymiş. Deyir ki, qatırı bırda bağla, üş gün qatıra su vermə. Qatır harda əyağını döydü yerə, həmən yerdə yerin altıynan su gedir. Qatırı gətirif üş gün susuz saxlıyıllar. Qatır gəlif əyağın döyür yerə. Eşillər, görüllər baa, durbadan su gəlif gedir həmən qalıya. Bı suyu bırdan kəsillər. Kəsəndə qoşunu qalır susuz. Onnan sora tabe olullar, qızı götürüf gedillər. İndi həmən dağın adı qalıf – Qız qalası.

## 85. QOÇ NAVIR*

Böyük göldü, bizim kəndin böyründə idi. Qoç navır deyillər. Guya iki dənə qoç sudan çıxıf gəlif qoşuluf birinin qoyununa. Avaz kişinin qoyununa qoşuluf, Avaz kişinin qoyunun uju-bujağı olmuyuf.

Avaz kişinin də uşağı olmuyuf. Niyə olmuyuf? Deyillər dilənçi gəlif qapısına ki, Allahın payınnan maa bir az çörəh ver, aparım uşağımı saxlıyım. Avaz kişinin də otuz-qırx çobanı varmış. Deyif:

– Onu tutun, gətirin bura.

Avaz onda cavan oğlan imiş. Xrom sapoğun içinnən şallağını çıxardıf, deyif:

– Tutun.

Qırx dənə şallax vurduruf. Dilənçi deyif:

– Vur, mən gedirəm. Allaha üz çevirif deyirəm sənin qucağına uşax sidiyi dəyməsin.

Eşitdiyim sözdü da. Ona görə Avaz kişinin uşağı olmuyuf. Sora gedif başqa arvad alıf. Arvad uşağa qalır. Beş dənə öküz qurban kəsif. Vaxt tamam olur, aparıllar, balinsiyada uşax olanda eybəcər ət kimi nəysə oluf. Biri deyif ki, sənin qapına gələn dilənçi Allahın bəndəsi idi, gəlmişdi, verəydin olanınnan bir belə aparardı yeyəydi. Sən onu tutuf döyəndə bilmirdin Allah səni bu günə qoyajax? Bizdə məsəl kimi imkannı adamlara deyərdilər ki, Avaz kişinin gününə baxın, camaata yazığınız gəlsin.

---

* Laçın rayonunun Sadınlı kəndindədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 86. ƏMİRVARLI[*]

Teymur əyalətdəri gəzirmiş ki, görüm harda varrı var, nətər dolanıllar, vergi verə biləjəh, bilmiyəjəhlər. Gəzif gəlif çıxıflar bizim kəndə. Bizim kənt də Arazın qırağında oluf, yulğunnuxda oluf. Əvəl adı Xıdırlı oluf. Gedif deyiflər ki, ya əmir, bəs bir dənə kənd var Qarabağ zonasında, çox varrıdı. – Ulu babalarımız mal-heyvan saxlıyanmış. Tərəkəmə imiş də. – Gəlif kəndə baxıf, onnan da öz adını verif kəndə. Deyif ki, bu kənd mənim adıma olsun – Əmirvarrı. Kəndin adı ordan gəlif.

## 87. DƏVƏ KƏSƏN MƏMMƏDLİ

Həmin kəntdən bir nəfər bir gecədə yeddi dəvə kəsif, gətirif paylıyıf camaata. Onnan oların adı qalıf dəvə kəsən. O belə oluf ki, iki əmioğlu gediflər oğurruğa. Gediflər yeddi-səkgiz at gətiriflər. At o birisinin töyləsində idi. Dayım söhbət eliyəndə eşitmişəm. Onda da töyləni yerdən qazıllarmış da. O biri əmioğlu da gedir yer qazır. Əmisi oğlu deyif:

– Nağarırsan, ə, orda?

Deyif ki, yer qayırıram da, o atın birini gətirim bağlıyım bura, mən də minim.

Deyif:

– At görəndə dirsəyii görərsən.

Deyif:

– Yaxşı.

Bu da əsəbinnən duruf gedif Zəngilanın Xannığınnan yeddi dənə dəvə oğurruyuf. Yeddisini də gejəynən kəsif doğruyuf, tezdən də paylıyıf. Onnan da kəndin ləqəbi olur "Dəvə kəsən Məmmədli".

---

[*] Cəbrayıl rayonundadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 88. İLAN QAYASI*

Mən onu (qayanı – top.) gözümnən görmüşəm. Guya qız çimirmiş. Çoxlu qoyun varmış orda. Baxırsan ki, dağın təpəsində iki metr uzunnuxda ilan sürünə-sürünə gəlir. Elə qıza ağız atanda qız deyir ki, Allah, bizi daş elə. İri-iri daşdardı, qoyun yekəlikdə daşdardı. Qoyunnar da, qız da, ilan da oluf daş.

## 89. DEVLƏR SARAYI

Bizim kəntdə Devlər sarayı varıdı. Yarıya qədər gedirdilər, yarıdan ayana getmək olmurdu. Üzdən irağ, pişiyi buraxırdılar o devlər sarayına, girirdi, o başdan çıxanda görürdülər quyruğu yoxdu. Deyirdilər filankəs devlər sarayını yarısına qədər gedifdi. O saray Hajı Qaramannan yuxarıda Sirih tərəfdə dərədə idi.

## 90. OĞLAN-QIZ DƏRƏSİ

Qubatdı rayonunda oğlan-qız dərəsi varıydı. Deyilənnərə göra, bir oğlannan bir qız bir-birini sevirmiş. Heş birinin də ata-anası bılların evlənməhlərinə razı deyilmişdər. Gün o gün olur ki, bıllar başdıyıllar qaşmağa. Qaçıllar, qoşun düşür bılların dalınca. Qaçıllar, qaçıllar, gəlillər, indi harda ki, "Oğlan-qız" dərəsi var ee, ordan keçəndə adamlar tamam yaxınnaşırdılar. Əl atıllar ki, tutsunnar. Onda oğlannan qız deyir ki, Allah, sən bizi daşa döndər. Elə ordaca daşa dönüllər. Oğlanın boyu hündür, qızın da boyu alçax olduğunnan daşın biri hündür, biri alçaxdı. O vaxdan da adı qalır "Oğlan-qız dərəsi".

## 91. XAN KƏHRİZİ

Bizim kətdə çox kəhrizdər, bulaxlar var. Məsəl üçün, bizim kətdə vardı Nırça bılağı deyirdilər. Təpə kəhrizi, Namazalı kəhrizi, Sakkızdı kəhrizi, İrzalar kəhrizi, Qurtdu bulax, Xan kəhrizi. Rəhmətdik Xan Şuşinski gəlir kəndə, gəzir kəndi, görür qəşəh bulaxlar

---

* Laçın rayonundadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

var bizim kətdə. Hamısınnan su içə-içə gəlir çıxır bizim evin yanında bir kəhriz varıdı, oon yanına. Onnan da su içir. Görür qəşəh suyu var, buz kimi, dişi kəsən su. Hə, xoşuna gəlir. Öz adını verir o kəhrizə – “Xan kəhrizi”.

Füzuli rayonunun Horadiz kəndində bı kəhriz adnan deyilərdi. Bütün kənt camaatı bilirdi ki, bı kəhriz – “Xan kəhrizi” Xan Şuşinskinin adıynan bağlıdı.

## 92. QABARTDI ÇAYI

Pənah xan Şuşada oturuf suyu həməşə Tərtərdən içirmiş. Orda üş çay vardı. Onnarın suyu dağlardan gəlirdi. Birinci Qarqar, sora Xaçın, sora Tərtər. Pənah xan Qarqardan içmiyif. Deyif:

– Qarqardan keş, Xaçına tüpür, Tərtərdən iç!

Hər gün bir atdı Pənah xana Tərtərdən su aparırmış. Bir günnəri o nökər gejikir, gedə bilmir. Ağdamın Boyəhmətdi kəndi var. Onun böyrünnən bir çay keçir. Deyir:

– Ə, xandı da, nə biləjəh hardan götürmüşəm.

O çay da balaja bir çaydı, kəndin böyrünnən axır. Dönür ordan bardağları doldurur, o axar sudan aparır verir xana. Xan bəyaxdan bir boşqap yeyirdi, indi iki boşqap yeyir. Çağırır nökəri ki, gəl bura. Nökər deyir: “Sən öl, başa düşüf, məni öldürəjəhlər də”.

Deyir:

– Qorxma, düzünü de. O su maa çox xeyir elədi, bir qab artırdı. O suyu hardan almısan?

Deyir:

– Vallah, xan sağ olsun, at yoruldu, axsadı. Ağdamın böyründə Boyəhmətdi kəndi var, suyu dağlardan gəlir, balaja bir çaydı, ordan götdüm gəldim.

Deyir:

– Həməşə maa suyu ordan gəti.

İndi o çayın adını xan qoyuf o zaman, Qabarttı çayı deyillər. Qabarttı qab artırır da, bir qab yeməyi artırıfdı. İndi də bu saat biz o çaya hamımız Qabartdı çayı deyirik, qab artıran çaydı da!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 93. MURADBƏYLİ KƏNDİ

Savet vaxtı raykoma inistruktur götürürdülər bir məllimnən-zatdan, sora onu direktor yolluyurdular. O zaman da xan nökərrə-rini yolluyuf kəndin adını da ona verirmiş. Məsələn, Ağdamda var Muradbəyli, Eyvazxanbəyli, Tağıbəyli – bular hamısı Pənah xanın nökərrəri oluf.

Bir günnəri Pənah xan qatırlarına baxmağa çıxır. Yeraltı tovlalar olurmuş, qışda qatırrar orda bağlanırmış. Bu Murad da çox çəpih oğlanımış, pəhləvan kimi oğlanımış. Bu, mehtər yoldaşdarını yığıp məyallax vırırmış, eliyirmiş. Pənah xan girəndə görür Murad məyallax vurur. Deyir:

– Ə Murad, nağarırsan?

Murad cavab verir ki, heç, elə-belə yerə uzanıram ki, yerdə toz-torpax varsa, mənim üstümə qonsun, qatırlara toz dəyməsin.

Pənah xan deyir:

– Pah, deyirəm axı, hər qatırçıdan Murad olmaz!

Murada deyif ki, Ağdamın böyründəki o kəndi verirəm saa, get. Adını da qoyuram Muradbəyli.

## 94. EYVAZXANBƏYLİ KƏNDİ

Eyvaz Pənah xanın nökəri olufdu. Özü də qoçax, güllə atan olufdu. Gediflər o Mərzili düzünə. Bir ceyrana atıf. Pənah xan deyif ki, hardan vırdın onu.

Deyif:

– Dal qılçasınnan vurmuşam.

Tutuf görüllər ki, düzdü, oxnan vuruf, gennən gələndə yıxılıf. Pənah xanın da qızınınmı, ya bayısınınmı Eyvaza gözü düşmüşü-müş. O zaman xan qızını rəiyyətə vermirmişdər də, kəntçiyə-zada vermirmişdər. O qız Eyvaza xəlvətcə deyir ki, mən səni sevirəm, amma verməzdər məni saa. Bı yaxınnarda söhbətinə düşmüşəm, saa bəylik adı verəjəhlər. Verəndə deynən maa elə torpax ver ki, onun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

suyunun dəhnəsi olmasın. Dəhnə bilirsən nəyə deyillər? Çay gedir, çayın qabağını kəsirsən belə, ona dəhnə deyillər.

Pəhan xan Eyvazın bu qoçaqlığını görüb deyir:

– Eyvaz, Şuşuya gedif çıxanda yadıma sal, saa bir söz deyəjəm.

Bu da xanın yadına salır. Deyir:

– Xan sağ olsun, orda maa bir söz dedin.

Deyir:

– Hə, ta sənin nökər işdəməyin bəsdi. Saa bəylih adı verirəm.

Bir az naz-zad eliyir. Deyir:

– Yox ey, qərar qətidi.

Deyir:

– Xan sağ olsun, onda maa elə torpağı ver ki, onun suyunun dəhnəsi olmasın.

Deyir:

– Əhsən, saa verdim Eyvazxan bəy adını. Həmi xanlıx, həmi bəylik verdim, get, Şahbılağın qabağı olsun sənin.

Şahbılağın dəhnəsi-zadı yoxdu, elə dağın altınnan axır. İki dəyirman üstədi, suyu bax belə bol sudu. Hə, indi o kətdə biz yaşadıx otuz il, kəndin adı Eyvazxanbəylidi.

## 95. SARICALI KƏNDİ

Qarabağ xanı Pənahəli xanın üç oğlu olup. Onun ortancılının adı Əli olup. Əli sarıbəniz oğlan olup. O qədər sarıymış ki, ona Sarıca Əli deyərmişdər. Bu Əli evlənir, oğul-uşax sahibi olur. Onun uşaxları, nəvə-nəticələri də oğul-uşax sahibi olullar. O zamannar Pənahəli xan hər oğluna, onun törəmələrinə bir obanı, bir oymağı verərmiş. Bu Əliyə də indiki Tərtər ərazisinnən bir oymağı veripmiş, həmin bu Əli də burda yurd salıp, qohum-qəbiləsini də başına yığıp.

Qırax yerdən də biri bura gedəndə, ona “hara gedirsən” deyəndə “Sarıca Əlinin oymağına” deyə cavab verərmiş. Belə-belə biri buranı Sarıca Əlinin obası, biri Sarıca Alının oymağı addandırıp. Soralar “oba”, “oymax” sözdəri təxirə tüşüp. Camahat bura sadəcə Sarıca Alı, Sarıcalı deyip. Tərtərin Sarıcalı kəndinin adı belə yaranıp.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 96. ABDAL KƏNDİ

Avdal camahatının soykökü gedir qızılbaşdara çıxır. Avdallar Göyçədə də var, Üçoğlanın yanında da bir Eşq Avdal adında pir var. Toozda, Gürcüstanda Avdal kəndi var. Gürcüstandakı Avdal kəndinin tarixi belədir.

İbrahimxəlil xanın vaxdında Çapar Məmməd olub. Gedif İbrahim xana çatdırıllar ki, Avdalda Çapar Məmmədin bir atı var, xana layiq atdı. Daha doğrusu, deyillər guya xanın qızının gözü düşüf o ata. Deyif ki, o atı onnan al, mənə ver. Kimsə əlaltıları gedif satıf ki, bı gözəl bir atdı, sənə layıx. Xan deyif ki, çağırın gəlsin. Çapar Məmmədi çağıranda fikirrəşir ki, məni havayı yerə çağırmıyıp bı. Durup başqa bir atnan gedir. – Olların özünün ağsakqalının ağzınnan eşitdiyim sözdərdi ey, Gürcüstandadı ollar. – Hə, gedif xannan görüşəndə xan deyif ki, bəs sənin atın var, onu gətirməlisən. Bu da qayıdır gəlir. Atı minir, gəlir bir gejə də, bıde, Qərvənt kəndi var, o Qərvətdə qalır. Sora səəri günü də qadınını, uşağını, hamısını qoyur orda, gedir Gürcüstana. Qoridən keçənnən sorasına Avvasdumana doğru gedir. Orda elə bir yer seçir ki, eynilə bizim kəndin oxşarı, yanı iki dağın arasıdı, aradan çay gedir. Orda məskunnaşır. Yavaş-yavaş da orda nəsil artır, deməli, indi hal-hazırda o kənd Avdal kəndi kimi tanınır.

# TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

## 97. İSGƏNDƏR

### I mətn

Qulam baba danışardı kı, o vaxt İsgəndərə də təklif eliyiblər ki, sən də dirilik suyunu iç, sən də həmişə sağ qal. Deyir ki, o da gedir dirilik suyuna çatır, tapır, elə oucun dolduruf işmək istiyəndə bir səda gəlir qeybdən. Deyir ki, ey İsgəndər, o suyu işmə, işsən mənim kimi peşman olarsan sən. Deyir, suyu tökür yerə. Dünya malı, dünyada yaşamağ buna o qədər həvəsli gəlir, bir də oucunu doldurur ki, suyu işsin, bir də səs gəlir. Üçüncü dəfə səda gələndə baxır ki, bir ip yumağı kimi yumbalana, yumbalana gəlir. Gəlir,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlir İsgəndərin surətinə çatanda, deyir ki, mən Xızır peyqəmbərəm. Əgər o suyu işsən, mənim kimi bu hala düşəjəhsən, mən indi kimə lazımam, mən indi nəyə lazımam, mən indi heş nəyəm. O suyu işsən, sən də mənim kimi olajaxsan. O suyu işmə, vaxtın gələndə, özün bu dünyadan köç eliyərsən.

**II mətn**

İsgəndər münəccimə baxdırır, deyillər ki, sənin filan yaşda qazannığın* var. Bı da deyir ki, gedif dirilik suyu tapajam, içəjəm, mən yaxşı olajam. Özü də mına deyif ki, sən poladın içində öləssən. Bı da qalır məhətdəl. Deyir ki, mən nətər olar ki, poladın içində öləm.

İndi mının qoşunu varmış dayna. Qoşununu da götürür, gedir. Neçə yüz səhra keçillər. Gedir ki, dirilik suyu tapa. Dirilik suyu axtarmağnan dəyil ha, gərək Allahdan qismət ola. Gedillər, axtarıllar. Yayın günüymüş dana, isdiymiş. Elə bil ki, vaxt gəlir dayna. Vaxt gələndə, indi kölgəlik yox, bir şey yox, gətirillər tüfəhlərini hamısını baş-başa söyküyüllər, mını uzadıllar bıra. Deyir ki, həə, elə münəccim düz deyirmiş, poladın içində öləssən, mənim vaxtım gəlif çatıf, elə bı tüfəhlər polatdı, məni də uzadıflar bıra. İndi bı vəsiyyət eliyir ki, anama deyin bir belə varım, döölətim can qutarsaydı, elə bı varnan, döölətnən canımı qutarardım. Bir belə mollaların, oxucuların sayasına canımı qutarsam, genə qutarardım. Anama deyin ki, mənim ehsanımı dərdi olana versin, dərdi olmıyana verməsin.

Hə... İndi gəlir. Anası çıxır görür İsgəndərin qoşunu gəlir, amma nəysə məyus gəlir. Deyir nəysə bırda bir iş var. Gəlir görür ki, İsgəndər canını tapşırıf. Oğlunun vəsiyətini anıya deyillər. Anası da indi ehsan vermək isdiyir, deyir:

– Bala, gedin təhlif eliyin. Deyin ki, dərdi olan gəlsin, dərdi olmıyan gəlməsin.

İndi bı da xəbər eliyir. Biri deyir qardəşim ölüf, biri deyir bajım ölüf, biri deyir atam ölüf, biri deyir anan ölüf. Dərdi olmıyan yoxdu, dərdsiz yoxdu. Hə... İndi arvat deyir ki, bala, elə onu maa

---

* qazannığ – qəza



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İsgəndər təsginnihdən ötrü deyif. Mını aparıf kəfn-dəfn eliyillər. İsa peyğəmbərin dövrüymüş. Deyif ki, başaa dönüm, gedək görüm İsgəndərin vəziyyəti nətərdi. Gedillər indi qəbirsannığa. Çağırır on dəfə, İsgəndər hay verir. Deyir ki, siznən dəyiləm ee. Bı ananın oğlunnanam, İsgəndər padşahnanam. Anası deyir ki, hə, bala, bı da maa bir təsginnihdi ee. Bı da maa bir təsəllidi ki, bir İsgəndər dəyil ha, o qədər İsgəndərrər bırda yatıf ki. Onnan sohra anası həylə qayıdıf qəlir.

İndi bala həylə-həylə işdər çoxdu.

## 98. NADİR ŞAH

Nadir şahın Şəki səfəri var. Nadir şah gəlir buraya. Bu, Quru dərədən yuxarı Kotan düzü var, görməmisan? Həmən Kotan düzündə çadırrarı qurdurur. Özü də Kotan düzünnən yoxuşə yekə, qəşəh bir xırman var, səfalı yerdi. İki-üş dəfə getmişəm helə unnan ötrü. Otururam, çox səfalı yerdi. Deyirsan bəs, səhnədi də dərə yuxarı gedəndə. Özü də çadırını orda tikir. Bir altı ay burda müharibə eliyəsidi, qalasıdı. Buralarda çox müharibə eliyifdi Nadir şah. Özü də qüvvəli şahdı.

Bu, yeriyir Şəkiin üsdünə. Şəkililər də "Gələsən-görəsən" qalası var, ora sığınıflar. Nadir şah adam göndərir Çələbi xanın üsdünə ki, gəlsin, görüşax. Bu da Göynüyün ağsakqallarını yığır. Deyir ki, neyniyim, gedim, getmiyim? O vaxt da hamı bir-birinnən məslahat alırmış. Bu məslahat alanda bütün ağsakqallar deyillər ki, a kişi, sən həmi məşədisən, həmi xansan. O da bir cavan oğlandı, sərkərdədi, elə bil ki, sən onun ayağına getməli dəyilsən, o gəlsin buraya. Götürür ordan məytuf yazır ki, gələrsən, görərsən. Bax, hindi "Gələsən, görəsən" var e, o ad həmən vaxdan qalıf. Nadir şah fikirrəşir ki, gessin, getməsin. Qışın elə vaxdıdı ki, çavğın dünyanı dağıdır. Göydən də elə qar yağır ki, qar çıxır insanın dizinnən yuxarı. Yeddi gün deməli, tovluya getmağa Nadir şahın çobannarı yol tapmır. Qoyun, mal-döölət hamısı ajınnan qırılır. Hamısı ajınnan qırılanda daldan arvat görür kü, uje çörəh də qurtarır, uşaxlar ajınnan batır. Ordan bir adam göndərir. Adam gəlir, Nadir şahı tapır, bilirmiş də hardadı. Orda şaha deyir ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bəs şah sağ olsun, dalda qırğındı, bütün mal-döölət, hamı qırılıf, heş nə yoxdu. Nadir şah da hələ burda altı ay da qalasıdı ki, müharibə eləsin, bu torpaxların hamısını alsın, Azərbaycana versin. Bu səfər Nadir şah qalır ərəsətdə. Deyir:

– Ə, nolufdu? Nətəri? Düzünü danış.

Deyir:

– Şahım,

Bir qar yağıf qaşdən-qavaxdan,
Çörəh də qutarıf təhnə-tavaxdan.
Öküzdərin gönünü aldıx davaxdan,
Camışdər savaxa idrar olufdu.

Deyir:

– Malın hamısı qırılıf?

Deyir:

– Hə.

Sifdə də şərt kəsillər ki, yalan desan, boynunu vurdurejəm gedən kimi. Nə olufsa, düzünü de. Bu da düzünü deyir. Deyir:

– De görüm, bəs qoyun sürüləri nejə oldu?

Deyir:

– Qoy deyim.

Gündə biz kəsirih onun, on beşin,
Alırıx dərisin, atırıx leşin.
Allah iras salıf qərivin işin,
Yüz leşə bir köpəh sərgər olufdu.

Deyir:

– Hamısı qırılıf?

Deyir:

– Hə, qırılıf.

Deyilənə görə də, bunun bir yaxşı atı varmış, bütün döölətdən üsdün bilirmiş, Daraxyetir addı. Deyir:

– Ə, mənim atım durur, ölüf?

Deyir:

– Qoy onu da deyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Odu ki, deyirsən, atımdı qatır,
Gördüm kohlannar hamısı yan-yana yatır.
Kimisi şilədi, kimisi qotur,
Daraxyetir damda mındar olufdu.

Bu səfər də bu, belə deyəndə şah genə də vəzir-vəkilini – hamısını yığır yanına ki, neyliyax? Hərə bir söz deyir. Genə özü deyir ki, mal-döölətdi, qırılıf gedəndə bir dosdumnan yüz qoyun alajam, bir dosdumnan yüz inəh alajam, bir dosdumnan yüz mal alajam, hamısını düzəldəjəm. Amma bircə dənə nökərim ajınnan öl-sə, ömürboyu nəslimə töhmətdi. Ona görə getməliyəm. Ordan əmir verir, yühlənillər, ordan qayıdır geri.

### 99. PƏNAH XAN

Rəvayət edilir ki, Qarabağın* bünövrəsini Pənah xan qoyub. Pənah xan İran tərəfindən gəlmədi. O, düşmanların əlindən qaçıb bu tərəflərə pənah gətirib. O, ilk olaraq Ağcabədi rayonunun Bulax kəndinə köç edibdir. Onun duşmanları çox olubdu. Görüb yox, duşmannarnan baş eliyə bilmir, təzdən köç edibdi Ağdamın Şahbu-lax kəndinə. Ağdamın Şahbulax kəndində çoxlu imarətlər tihdirib. Görüb yox, burda da əmələ gəlmir, duşmannarı əl çəkmir. Adamla-rına əmr verir ki, gedin elə bir yer tapın dörd tərəfi sıldırım qaya-lıqlı olsun, duşman girə bilməsin.

Bu zaman adamları Pənah xana Şuşanı tapıblar. Şuşaya da, o zaman Qala deyirmişlər. Pənah xan həm Şuşada, həm də Ağdamda çoxlu tikililər tikdirir. O, zaman Şuşa qalasına iki yol varıymış, biri İsa bulağı tərəfindən, biri də Ağdam tərəfindən. O, zaman Pənah xan Ağdamda ağ daşlardan evlər tikdirir. Başqa yerlərdən gələnlər bu ağ damlarda gecələyirdilər. Ağdamın adı beləcə yaranıb.

---

* Qarabağ xanlığının



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QARABAĞIN TANINMIŞ ADAMLARI HAQQINDA

## 100. SOLTAN BƏY ANDRANİKİN DƏSTƏSİNİ NECƏ MÜHASİRƏYƏ SALIR?*

### I mətn

Andranik savatdı afiserrəri yığır. Laçını Allah-tala təbii qala yaradıf. Həkəri çayında körpü var, Nikolay vaxdında tikilif. Qoşun gəlif orda saxlıyır. Söz gəlif çatır Sultan bəyə. Deyir ki, məni üç gün gözdə. Üş gün gözudüyür orda. Onnar da hazır gedir də, hamısı təlim keşmiş afisserrərdi. Sultan bəy gedir atasına deyir. Deyir:

– Ay bala, onnar gedəjəh Qarabağdan, ayannan bəri qıra-qıra gələjəh. – O vaxdı bizdə tüfəh nə gəzirdi? – Onnarın tüfəyini-sursatını hamısını algınan, deynən siz tüfəyli-toplu gələndə millət qorxar.

Qardaşı Xosrov bəy Şuşanın quburnatı imiş. Buna məlumat verir. Əlli-atmış nəfər döyüşçü ordan gəlir. Orda Andranikin qoşununun arxasını kəsir, iki çayın arasında onnarı qırıllar. Orda yol versəymiş gedif nə bilim Gəncədən, Yevlaxdan bəri qıra-qıra gələjəymiş. Andranik özü qaçır, amma onun iki afisserini – biri Nejdek olur, biri Mirzəyan onnarı vurullar. Oranın adı Qannı dərə qalır.

### II mətn

Xosrov bəy Şüşənin bəyi idi, Soltan bəyin qardaşı idi. Erməni Soltan bəyə deyif ki, icazə ver, keçif Şüşeyi qırım. Deyif ki, keç, amba belə keç. Həkəri çayının üsdündə dərə vardı. Ermənilər deyirdi ki, üş yüz il keçə, o çayın üsdünnən keçəndə erməninin iyi bizə gəlir. Ora elə yerdi bircə dənə yolu var, ikinci yolu yoxdu. Soltan bəy deyir:

– Sizi silahnan boşdasam camaat hamı şübhələnər. Gəlin belə bir şey eliyəh. Silahları qavaxdan keçirim getsin, qoşunuzu daldan keçirim, gedin.

Orda Ağalarnan Ağammədi çağırır. Deyir:

---

* Bu rəvayətin bir variantı da Laçın rayon sakini Abdullayev Cabbar Əziz oğlundan qeydə alınıb. Bax: Folklor İnstitutunun arxivi, İnv. 1302



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gəlin bura.

Deyir ki, belə-belə. Deyir:

– Gözəl kələk qurmusan, qoy gəlsin.

Deməli, gətirif camaatı yerrəşdirir Zabuğun qəyəsinə. Silah keçif Şüşəyə sarı. Ermənini Xınzirəhdən bəri boşduyur. Gəlir Laçının çayına yerrəşəndə dalı daldan, qabağı qabaxdan kəsir, elə qoşunun topasını qırıllar. Ermən deyir:

– Kosasaqqal kopoğlu gör bizi nə kələknən qırdı.

Oların silahı da bizə qalır.

## 101. PAQARAT ERMƏNİSİ

Gorusda Paqarat ermən oluf. Müsurmanın qanını çörək kimi yeyirmiş. Bizim kənd Gorusnan ermənin içində oluf. Soltan bəy bir gün çağırıf camaatı deyif ki, Paqaratın Laçın rayonunda kim əlini-başını maa gətirif versə, nə desə verərəm.

Camaat da el, obadı. Hamı bir-birini tanıyır. Məsələn, bu kişidən soruşsam, Hajıqasımlıda Paqaratı kim tuta bilər? Deyəjək ki, onu filankəs tuta bilər. Günüz toplaşıllar, deyillər ki, hə, çağırax gəlsin. Çağırıllar. Cağazürdə Ağamməd vardı. Çox qeyrətdi bir kişi idi. Bunu çağırdı gətirdi. Dedi:

– Ağamməd, eşitmişəm ki, Paqaratın başını, əlini gedif gətirə bilərsən.

Deyif:

– Gedif gətirərəm, amba iki nəfər maa adam lazımdı. Denən görüm adamları sən mana verəssən, yoxsa mən götürəcəm.

Deyif ki, özün götür. Soltan bəy çox bij adam oluf. Ağamməd deyif ki, Hajılar kəndində Ağalar kişi olur, onu çağırın gətirin. Ağalar da balaca bir adamdı. Onu çağırıf gətirillər. Deyif ki, nağarax. Deyif ki, Paqaratın başı nədi ki, bir saatdıx şeydi. Üş dənə yoldaş olmalıdı, dördüncüsü olmaz, dördüncüsü satqınımız olar. Bir də mənim babamı çağırıllar. Bullar üçü gedif çıxır Gorusun kəndinə. Gedif kəntdə gejə gizdəniflər. O vaxdı da ev tikirdilər, üsdünnən də baja qoyurdular. Üsdünə də nə qalınnıxda kül tökürdülər ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

içəri yağış buraxmasın. Gedif çıxıllar evin üsdünə. Ağamməd deyir ki, siz məni sallıyın bajadan, mən girim içəri. Bunu sallıyıllar ipnən, girif. Deyif ki, ipi tərpədəndə məni çəkin da, səs-sorax olmasın. Kişi deyir girdim içəri, gördüm bir nər yatıf. Elə bunu burda öldürür, başını da kəsir. Başını xurcuna yerləşdirə bilmillər. Əli bu boyda olur (iki əl boyda – top.). Gətirillər Soltan bəyin yanına. Soltan bəy də kosa sakqal, göy göz kişi imiş. Soltan bəyin yanına gətirəndə deyir ki, Ağamməd, Cağazür zonasının filan sovetdiyini verdim saa. Camaata başçılıx elə, qoyma aj qala.

## 102. ABDAL QASIM ƏMİSİ OĞLUNUN QİSASINI ALIR

Rəvayətə görə, Avdal Qasım çox qoçax adam oluf. Ermənimüsülman davasında ermənilər onun əmisi oğlunu öldürüllər. Sora gətirif bir axarrı-baxarrı yerdə yekə bir ağaca sarıyıllar. Meyidi ağaca bağlıyıllar ki, Avdal camahatına görk olsun, adamlar qorxsunnar. Sora da Avdal Qasıma sifariş göndərillər ki, əyər kişisənsə, iyidsənsə, gəlif meyidi apar. Avdal Qasım deyir ki, eybi yox, baxıf görəllər aparıram, ya yox.

Avdal Qasım gedif yekə bir iti öldürüf, dərisini çıxardıf özünə yekə bir kürk eliyir. Gejə onu əyninə geyif yavaşcadan sürünə-sürünə ermənilərə yaxınlaşır. Baxıf görür ku, ermənilər kefdədi, yeyifiçillər. Bir az gözdüyür, erməniləri yuxu aparır. Qarolçuya yaxınnaşıf çomağını onun çənəsinin altına qoyuf tüfəngi götürür. Gəlif meyidi açıf, ermənilərdən uzax bir yerə qoyuf təzdən bir də gəlir ermənilərin yanına. Avdal Qasım gəlif ermənilərin hamısını öldürüf, silahlarını da özüylə götürüf aparır. Deyilənlərə görə, bunnan sora ermənilər Avdal Qasımın qorxusunnan Avdala yaxınlaşa bilməyif.

## 103. ABDAL QASIMIN QOÇAQLIĞI

Kəndin axsakqalları danışırdı ki, Ağcabədi ərazisində iki kəntdə bir-birinə tüşmən olan adamlar olup. İndi o tüşmanınnan ehdiyat eliyif heç hara çıxa bilmiyən bir adam – imkannı adamdı, gö-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

türüp belə bir şayə yayıp ki, məəm o tüşmanımı kim öldürsə, ona qırx inəh verəjəm. Bını da gəlip Qasıma deyillər ki, bəs fılankəs belə bir söz deyir də. Qırx dənə inəh bir dənə ferma eliyir də, get onu öldür. Deyir:

– Ə, mən ömründə dünya malına tamah salıf adam öldürməmişəm. O əyər mərt gəlif desəydi ki, tüşmanımın qorxusunnan çölə çıxa bilmirəm, mən gedif oları ya barışdırardım, ya onu öldürərdim.

Hindi gəlif bına çatdırıllar ki, bəs Qasım belə deyir. Bı Qasıma götürüf bir məhtuf yazıp yolluyur ki, Qasım, bəs belə-belə, mən neçə ildi evdən çölə çıxa bilmirəm, sən bizi barışdırasan, ya onu öldürəsən ki, mən nəfəs alım. Qasım da durur, hazırraşıf evdən çölə çıxanda onun da qardaşı Calal halı olur ki, bına belə bir məhtuf gəlif. Bizdə molla Mansur varıymış, durur gedir onun yanına. Deyir:

– Mansur, bı dəli qızışıf gedir, bı öldürülməli olsaydı, bı adam özü öldürərdi də. Bı gedir, bunu qoyma.

Bı da çağırır deyir ki, Qasım, hara gedirsən? Deyir ki, bəs fılan yerdən məə belə bir məhtuf gəlif.

Deyir:

– Qasım, bilirsən indi sən hara gedirsən? O tanınmış adamdı, yəqin o məşhur qoçudu ki, onu öldürə bilmir də. Sən gedirsən, səni öldürə biləllər axı.

Deyir ki, o maa pənah gətirifdi, ölüm olsa, gənə gedəjəm.

Nəysə, qarşısını ala bilmillər, bı gedir. Qasım deyir onu harda görə bilərəm da. Bilmirəm axı o kimdi, nədi. İndi onun ərazisini mənə gösdər ki, mən onnan harda görüşə bilərəm, qalanı məəm boynuma. Orda da bir bağ varımış. Deyir ki, o səhər-səhər süp namazında gəlir bı bağın içinnən keçir, gedir harda onun dəyirmanı var, o dəyirmana baş çəkir, gəlir. Ancax orda görə, öldürə bilərsən, ayrı yerdə mümkün dööl. Orda da dəsdəsiynən olur, böyründə teloxranitelləri. Qasım gəlir bı bağa, bının yolunu mına gösdərillər. Fırranır, bir böyüh ağac olur, mını bələtdiyir Qasım. Usda adamıydı, gejə gəlir çıxır bı ağaca ki, süp namazında bı gəlip bırdan keçəjəh, onda bını vırmax lazımdı. İndi bı da təhcə dööl, yeddi-səkgiz nəfərin içində olajax, bını seşməh də lazımdı axı bı kimdi. Qasım elə bir yer seçir özünə ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

orda bını güllə tutmasın. Qasım sora özü deyirmiş ki, düzdü, onu öldürdüm, amma heyfim gəldi, adam heylə kəlləli adamı öldürməzdi. Deyir, ağaca yaxınnaşanda deyir ki, ə uşaxlar, bı ağaşdan şüphələnmişəm, bı ağaca hərəəz bir darax patron güllə atın, sora gedəh bın altınnan keçəh. Bıllar da hərəsi beşatılannan şartaşart döşüyüf, Qasım da elə yerdə duruf ki, munu güllə tutmuyuf. Gəlif o ağajın altınnan keçəndə həmən adama atır, təhcə ona atır, o birilərinə güllə atmır. Bıllar qaçır. Kəndə xəbər aparmax lazımdı ki, bəs fılankəsi vırdılar. Bı da arxayın düşür, bının başını kəsir, salır xurcuna, gəlir. Bıllar evdə hələ yatıflar. Bəyə deyir ki, mən gedirəm, arxeyin nəfəs ala bilərsən, onu öldürdüm. Bəy gülür. Deyir ki, ə Qasım, onu belə hasatdıxnan öldürməh mümkün olsaydı, özüm öldürərdim də. Görəsən kimi öldürüp? Uşağı çağırır ki, ə bala, gəl, axşamnan bir qarpız qoymuşam xurcuna, gəti onu kəsəh. Xurcunu da gətirəndə baş düşür yerə. Baxır bı həmən adamdı. Deyir:

– Qasım, sözüm sözdü, saa qırx inəh verəjəm.

Deyir:

– Məəm heyvan saxlamağa halım yoxdu, piyada gəlmişəm, varsa, məə bir at ver, minim gedim.

Atı alır, minir, hələ getməmiş bu tərəfin adamları durur silahlanır. Bax, o kətdən – Rənşbərlərdən olan adam söhpət elədi ki, mən onda əli tutan cahılıydım, mən də silah götürdüm ki, bə fılankəsi öldürüplər, gedəh qısas almağa. O kəndin ağsakqalı varıydı. Onda indiki kimi dööldü, hamı ağsakqalı eşidirdi. Dedi ki, a bala, belə getməyin, ehdiyatsız gedirsiz.

Deyir:

– Nətər ehdiyatsız, hamı silahlanıfdı.

Dedi:

– Yox, onu Qasım öldürüp, onu hər adam öldürə bilməzdi.

İndi siz Qasımı öldürməhdən ötrü gedirsiz, amma Qasım sizi öldürəjəh. Siz çoxlu cənazə götürün, arava götürün ki, sağ qalannarıız barı meyidiizi gətirsin.

Deyir:

– Bəs neyniyəh?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, mən qavağa tüşüm gedim, meyidizi gətirim. İndi, Qasım silahlanıf. Gəlif oturuf bırda ki, meyidi gəlif aparajaxlar. Baxır ki, ağ bayrax qaldırıf gəlillər. Deməh isdiyir ki, Qasım, icazə ver, meydimizi aparax. Başı da gətirir qoyur, deyir ki, götürün aparın, amma bir artıx səs-küy olsa, meyit çoxalajax bırda. Yanı artıx hərəkət olsa, sizi qırajam arada. Sakitcə meyidiizi götürün gedin. Götürüp aparıp basdırıllar. Beləcə tüşmannığı aradan götürür. Yanı Qasım, təhjə ermənilərə qarşı döyüldü, harda haxsızdıx, ədalətsizdih varıydısa, harda zorakeşdih varıydısa, ordaydı.

## 104. ERMƏNİ-MÜSƏLMAN MÜHARİBƏSİNDƏ ABDAL QASIMIN FƏALİYYƏTİ

1905, 1918-ci ildəki erməni-müsəlman müharbəsi vaxdı Qasımın həddinnən artıx böyüh faaliyətdəri oluf. Erməni dilini çox mükəmməl bilirmiş. Bizim döyüşçülərə deyirmiş ki, gedin, filan yerdə dərədə pusquda dayanın, erməniləri mən ordan gətirəjəm. Duruf gedif erməniləri gejəykən ermənicə çağırırmış ki, müsəlmannar filan yerdən üsdüvüzə hüjum eləməh isdiyillər, gəlin, arxalarına keçəh, oları qırax. Guya ermənidi. Dururmuşdar, deməli, döyüşçülər hərrənirmişdər, həmən onun əks tərəfində də bizimkilər pusquda dayanıbmışdar. Gəlif orda, deyir, pusquya düşürmüşdər ermənilər. Çox böyüh faaliyyətdəri oluf.

## 105. QASIMIN ATICILIĞI

Qasımın həmi sərrast atıcılığı varmış, həmi lazım gələndə hiylə işdətməyi bacarırmış. Deməh olar onda hər süfət varıymış. Yaşdı adamlardan biri danışır ki, kəntdə oğurrux olur, bizim kəndimizdən səkgiz dənə öküz oğurranır. Bala Hüseyin deyirmiş-dər, o da hədyanıymış, ama sərrast atıcıymış. Gəlir deyir ki, Qasım, kəntdə oğurrux oluf, xəbərin var? Deyir ki, yox.

Deyir:

– Səkgiz oküz aparıflar, heş xavarın olmuyuf?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, kolannılar aparıf.

Bir neçə adam, o cümlədən Bala Hüseyin də, Qasım da bıllarnan gedir. Hər kəndin bir tanınmış adamı var da, bı kəndin də sayılıf seçilən adamı Maşaxacca oğlu olur. Bu başa tüşür ki, Qasım gəlif öküzdəri apara. Hayatında böyüh bir ağacın altında guya bıllara çörəh verir. Qasım ehmalca bı gələnnərə, yanındakılərə deyir ki, silahıızı gen qoyun, bıllar bizi qırmax isdiyir, bı çörəh verməh döyül, silahıızı yanıızdan kənar eləmiyin. Oturullar. İndi bılları yoxlamax lazımdı axı. Bir quş gəlir qonur ağaca. Biri atmaca atır ki, o quşu kim vırar? Öz camahatdarınnan, kolannılardan biri deyir ki, ə, onu ancax Maşaxacca oğlu vıra bilər. Başqa biri deyir ki, ə yox, Qasımı çox atıcı deyillər, qoy onu Qasım vırsın. Deyəndə, bala Hüseyin Qasım kimi atıcıya etibar eləmir ki, atar, o yana gedər. Qalxır, hər halda Qasımın bir əz hörmətini qaldırır da. Deyir ki, ə, quş nədi, Qasım quşa güllə ata. Qasım gərəh güllə atanda analar “oğul vay” deyə, bajılar “qardaş vay” deyə. Həm belə deyir, həm də deyir ki, Qasım, quşu nətəər vırım?

Deyir:

– Hüseyin, elə vır ki, baş bədənnən qopuf tüşsün yerə.

Deməli, quş boğazınnan atılmalıdı. Hərriyir quşu vırır, baş tüşür yerə. Patronu çıxardanda Qasım qalxır ayağa, deyir ki, əvvəla, igid anasının adıynan tanınmaz, Maşaxacca oğlu. İkinci, sizin çörəyiizi yeməh də haramdı, öküzdəri gətirin gedəh. Öküzün yeddisini gətirillər, deyillər ki, biri kəsilif.

Deyir:

– Maşaxacca oğlu, adın dünyada çıxdıva baxma, səni aparıf öküz yerinə qoşaram. Öküz bıra səkgiz gəlif, səkgiz də gedəjəyh.

Qasımın hər yerdə hər sözü dediyi var. Yanı başqasının kəndində belə eliyəsən, bu, hasat şey döyül.

## 106. QASIM NECƏ OLUR OĞURLUQ EDİR?

Qasım elə-belə oğul olmuyufdu, Qasımın ilk oğurruğu hakqında nənəm söhbət eliyirdi. Deyir, ona sual verdilər ki, nətəər oldu ki, sən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oğru oldun? Deyir ki, uşaxlar aj oturmuşdular. O, orda ağlaşdı ajınnan, bı bırda ağlaşdı. Fikirrəşdim ki, ə, mən nətər kişiyəm ki, məəm uşaxlarım ajınnan ağlasın. Durdum, deyir, əyağa, getdim dəyirmanın yanınnan keçəndə fikirrəşdim ki, gedip dəyirmançını hədəliyəjəm, nağayrajam, mıın unun götürüf aparajam. Gəldim, deyir, dəyirmanın qavağınnan keçəndə gördüm dəyirmanın qapısı bağlıdı. Dəyirmanın donuzduğu deyillər, bir müsübətnən ordan keşdim içəri. Qasımın ağzınnan çıxan söhbətdi, nənəm söhbət eliyirdi. Deyir, bir müsübətnən keşdim içəri, baxdım, gördüm ki, bir xeylax taxıl var bırda hələ üyünməmiş. Çünkü dəyirmançının işi oluf, hara gedifsə taxıllar qalıf burda. Yəələri də var e taxılın. Bırdan, deyir, bir mişox taxılı götürdüm, çıxartdım dəyirmannan, aldım çiynimə, gedirəm, deyir. Bir nəfər çıxıf qavağıma. Deyir ki, ay Qasım, dəyirmannan bəs niyə üyünməmiş aparırsan taxılı? Deyir ki, bı dəyirman işdəmir, aparıram o biri dəyirmana. Apardım, deyir, o biri dəyirmanda da üyütdüm, gətdim töhdüm uşaxların qavağına ki, qoy aj qalmasınnar. Mən deyir, nağarmalıydım. Gördüm zəhmətsiz bəhrədi, başdadım, deyir, oğurruğnan məşğul olmağa.

## 107. QARA QASIM

Bizdə, indi onu çox adam Avdal Qasımın adıynan səsdəndirir, ama başqa bir Qasım olur, ona Qara Qasım deyirmişdər. Vəba xəsdəliyi olur bizim kətdə. Məəm bir babalığım varıydı, Allahyar adında. Bax, o söhbət eliyirdi ki, elə olurdu, heş kim gedib yumurdu meyitdəri. Qorxurdu ki, xəsdəlih çatajax ona da. Hamı, deyir, ağzını-gözünü sarıyıf gedirdi, bir gündə yeddi-səkgiz adam ölürdü kəntdə. Dərmanın olmuyan vaxdına, tibbin inkişaf eləmiyən vaxdına tüşüp daa. O Allahyar söhbət elədi ki, o kişi, Allah irəhmət eləsin, deyirdi, ağzımı, gözümü də sarıyırdım, bir gündə səkgiz meyid gedib yuyurdum. Deyirdi, o qorxannar öldü, amma maa bir şey olmadı. Qasıma deyillər ki, sən get dur qəvirsannığın yanında, biz burdan çağırajıyıx ki, a Qasım, qəvirsannıxda yer var? Onda sən denən “yox”, bəlkə Allahın irəhmi gələ, tay öldürmüyə. Bıllar Allahı aldatmax isdiyirmişdər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizdən də bir on kilometir yuxarıda Haroy kəndi varıydı. Çağırıllar, ay Qasım, ay Qasım, meyid gətiririh, qəvirsannıxda yer var?

Deyir:

– A köpəhuşağı, Haroya qədər yer döyül? Nə qədər isdəsəz gətirin də.

Deyir, elə həmən günnən də o vəba xəsdəliyi dayanıp, daa olmuyupdu.

## 108. SARI AŞIQ

Sarı Aşıx Güləbürtdə olufdu. Elat gəlif Laçınnan keçif İstisuya gedirdi, yayda qalırdı orda, qışda da gəlirdi rayonnara – Bərdəyə, Ağcabədiyə. Onda bir dənə dul arvad olur. Hər gələndə dul arvad onnarı çağırır evinə, covannara çörəh verir, sırfa açır, yeməh bişirir.

Bir gün covannarın biri bu arvada deyir ki, biz gedirih, gələn il gələndə elə olsun ki, sən qapıda bir beşik asasan. O qapıda bir beşih olsa, sənin evinə dönüf sənin çörəyi yeyəjeyih. Əyər o qapıda beşih olmasa, biz sənin qapına dönmüyəjeyih, incimə bizdən. Arvad qalır. Covannar çıxıf gedillər, sürüsünü də götürüf gedillər.

Ay ötür, il dolanır, bir gün bıllar dağ-aran gedillər. Gəlillər o arvadın evinin altınnan keçif gedəndə – yol onun evinin altınnanmış, – arvad deyir:

– Ay Allah, mən neynim, nətəri eliyim da, bəs mən dul arvad, uşağım olmadı.

Arvat fikirrəşir, fikirrəşir, deyir:

– İlahi, qoy mənim qonağım mənnən küskün getməsin.

Gedir tez qapıda bir beşih asır. Beşiyin də içinə gətirir bir sarı kərpiş qoyur. Rəvayətə görə, tez bının üsdünü örtür, deyir:

– Onnar nə biləjəhdi. Gəlif çörəh yeyif gedəjəh. Onnar maa deyif qapıda beşih olsun.

Arvad fikirrəşir ki, yəqin bınnar deməz da içindəki uşağı gəti bıra. Beşiyi asır, daşı qoyur içinə, üsdün örtür. Gəlir yeməyini pişirir, sırfasını açır. Çobannar görür ki, qapıda bir dənə beşih var. Deyillər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Allah, saa şükür, bının uşağı olufdu, gedəh bının çörəyini yeyəh da.

Gəlif oturullar bınnar, şad-şalayın yeyillər, içillər, danışıllar, gülüllər. Yeganə majal bınnar qayıdır ki, ay xanım, get uşağı gətir, bir uşağı da görəh. Arvat titriyə-titriyə Allaha yalvarır ki, ay Allah, sən bir möcüzə gösdər, mənim üzüm bı qonağın yanında yerə düşməsin. Axı, arvat bilir ki, orda daşdı, uşax yoxdu. Gəlir bının üsdünə, örtüyü qaldırır, əl atır ki, daşı götürüf gətirif bınnara gösdərsin. Arvad örtüyü daşın üsdünnən götürəndə baxır ki, bırda bir dənə sarı oğlan uşağı var. Bir az keyiyir, duruxur. Cobannar bir də çağırır:

– Ay xanım, nə oldu, di gəl, bəs biz yol gedəjeyih, gejə düşür.

Arvad əsə-əsə götürür uşağı qucağına, ürəyindəkini ürəyində çəkir, gətirir. Deyillər ki, ay xanım, bəs bı uşağın adını qoymısanmı? Deyir ki, yox, hələ adını fikirrəşməmişəm. Gözdədim ki, siz qonaxlarım gələsiz bıra, məsləhətdəşif qoyax. Arvad özünü itirmir. Çobannarın biri qayıdır ki, xanım, gəlsana bının adını elə Sarı qoyax. Xanım deyir ki, hə, yaxşı, qoyağın. Elə onnan da bının adı olur Sarı. Soradan o, böyüyür aşıx olur, aşıx olanda da "aşıx" ləqəvi gəlir üsdünə, olur Sarı Aşıx.

## 109. AŞIQ VALEH

### I mətn

Aşıx Valehin usdadı Səməd addı bir aşıx olufdu. Aşıx Valeh ona deyif ki, ay usdad, nə vaxt aşıx olajam da, arxeyin gedip deyişə bilərəm. Deyip, nə vaxt əlimin dalıynan saa bir şillə vursam, onda bil ki, usdasan.

Bu vaxt da yas oluf. Səməd yasa gedif ora. İndi bırda da qavaxlar bir qız isdəmişimiş. İndi mın da bırda görüf, bir əz ürəyi quvar eliyif. Qayıdıf kəndə gələndə, indi Valeh mının yanındadı axı, topalaşıllar mının başına ki, ay aşıx, bir az denən da qulax asax. Bı da yerinə tüşür, deyir ki,

Əziziyəm Yasəmən,
Ətirridi yasəmən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gülaplıda şivən ola,
Gündə gedəm yasa mən.

Yanı gündə gedəm o qızı görəm. Aşıx Valeh də Gülaflıdandı axı, bının belə deməyi mına toxunur. Deyir ki,

Mən aşığam ya süzmə,
Ya qatıxdı, ya süzmə.
Valehi yaradan Allah,
Sən Avdaldan yas üzmə.

Bu da bına toxunduğu üçündü də, ustadın üzünə ağ olur, mına bir şillə vurur. Bı da fikirrəşir ki, təmiz aşıxdı. Durur, gedir, hardasa bağlanır. Səməd durur gəlir ki, a bala, bəs saa kim deyifdi ki, duruf gələsən, axı sən tam aşıx döyülsən. Deyir ki, bəs sən dedin nə vaxt saa bir şillə vursam, sən aşıxlıx eliyə bilərsən. Deyir, mən əlimin dalıynan dedim, indi əlimin qavağıynan vurmuşam axı mən saa. Sən ustadının üzünə ağ olduğuna görə vurmuşam.

**II mətn**

Aşıx Valeh Zərnigarın dalınca Dəmir qapı Dərbəndə gedəndə yolda qabağına bir kişi çıxır, deyir:

– Ay aşıx, mən at itirmişəm, bəlkə görəsən?

Aşıx Valeh deyir:

Aşıx əmər hey,
Beldə gümüş kəmər hey.
Göydə maydanı gördüm,
Yerdə qulun əmər hey.

Yəni yolun qırağında zəmi var imiş. Maydan girib zəmini ütürmüş. Yolda da quru yerdə durub qulun onu əmirmiş.

## 110. AŞIQ ƏLƏSGƏR

Aşıx Ələsgər balaca uşağ olur, atasıynan bazara çıxır. Bazarda gəzillər, çox hərrənillər. Hərrənəndə görür ki, bir cavan oğlan, o da hərrənir, bir kuruk vurur. O da varrıymış. Deyir ki, bir dənə nökər lazımdı mana. Onnan-bunnan sorağ eliyir. Ələsgər atasına deyir ki, ata, mana icaza ver, mən gedim ona nökər olum.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ay oğul, sənnən nökər olmaz, oturginən, bizi bəlaya salma.

Deyir:

– Yox, sən onu çağır, deginan, məni apar ver ona.

Nəysə, Ələsgər bu kişiyə əl eliyir, kişi gəlir buna sarı. Deyir ki, mənim bax, bu oğlum sana nökər olsun.

Deyir:

– Çox yaxşı, elə belə bir cavan uşax gəzirəm, arvat buyursun oryə, buryə.

Ələsgəri də götürür, gedillər buların əvinə. Bu da varrı adamdı da. Arvat balqonda gəzinirmiş oyana, buyana. Qapıya çatanda deyir ki, arvat, gətirmişəm dediyin adamı. Ağlın nə kəsir, xoşuna gəlir, gəlmir? Bu səfər arvat baxır, baxır, dinməzcə baxır. Deyir:

– Hardan gətirmisən, qaytar yerinə.

– Ay arvat, Allaha bax. Məni göndərdin ki, get bir nökər tap, gətir. Mən də gətirmişəm. Uşaxdı, isdiyir buyur, isdiyirsən, neylirsən elə.

Deyir:

– Ə, görmürsən, onun qarnını bir çuval un doyurmaz. – Ələsgər də çox gobud adam oluf, çox yekə, iri, cannı adam oluf. – Elə qazandığımı verəjəm ho yeyə də. Sən get mana xırda, bavat uşax tap.

Deyir ki, yox, helə tapdığım budu. Nəysə, Ələsgər kor-peşman atasıynan qayıdır əvə. Ələsgər qayıdır əvə, üş gün yuxudan ayılmır. Yatır, çox fikirri olur. Ələsgər savatsız alimdi, bir gün də məytəvə getmiyif. Həmən yuxuda Ələsgərə vergi verilif. Ələsgər durannan sora, bavasının – atası aşıx olmuyuf, bavası oluf, – bavasının sazını götürür, heş bir hava-zad çalmadan, birinci dəfədə bir hava çalır. Qəşəh saz çalır. "Ələsgəri" havası var hindi. Sən bilməzsən. Ələsgəri havası həmən onnan qalıfdı.

Bir yaxşı hava çalır, onnan sora başdıyır aşıxlıx eləmağa. O qədərnə orya, burya çağırıllar, ta adı bütün aləmə yayılır. Habı Şəkinin özündə İbrahim xan onu gətirtdirir oğlunun toyuna. Toya gələndə deyir ki şəyirdinə: "Gəti burda özümüzə bir cüt çəhmə tihdirax". Qavaxlar bizim Qarabağ zonasının camahatı burya gələrdi çəhmə tihdirmağa, papax tihdirmağa. Belə şeylər hamısı Şəkidə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olufdu, yaxşı ustalar vardı burda. Bular xannan soruşuflar ki, bizə bir yaxşı usda. Bir uşax da qoşur bulara. Bax, filan ustadan yaxşısı yoxdu, gedin özünuza çəhmə tihdirın. Bu da gəlir, Ələsgər də gəlir, yoldaşiynən gəlillər ustanın yanına. Deyillər ki, ay usta, bizə çəhmə tik. Usta da bulara yaxşı xromnardan, filannan görsədir. Görkəzəndə Ələsgər də bilən adamdı. Görür ki, bu xromun heş qiyməti yoxdu. Bunnan tihsə, daha yaxşı olar. Deyir:

– Laf yaxşı, tihginan. Havax gəlax?

Deyir:

– Savax yox, bürsüyün gəlin aparın.

Bular üş gün, dört gün toyda olullar. Bu, toydan qutaranda gəlillər ki, ay usta, çəhmələri ver. Usta gətirir çəhmələri verir. Görür ki, ə, bəs həmən xromnan bunda heş nə yoxdu. Ayrı şeydən tikifdi da. Sifdə gösdərif buları şirələndirif, sora ayrı şeydən tikifdi. Deyir:

– Ay qardaş, bu həmən xromnan dəyil, ayrı şeydəndi.

Çox danışıx gedir. Çox danışıx gedəndə şəyirdinə deyir ki, ə, ho sazı maa ver, buna bir-iki söz deyəjəm. Deyir:

– Əşi, bizi burda xatıyə salma. Qoy çıxax gedax. Sən, bilirəm, bunu biyavır eliyəjəhsan.

Deyir:

– Yox, canın üçün, elə diyijəm, nə o inciyicaxdı, nə sən.

Deyir:

Danışdıx, barışdıx, biz mərhəmətlə,
Ə, aralığa incihlih salma, hayıfsan.
Sən tacir olmazsan bir manat ilə,
Namısı-qeyrəti satma, hayıfsan.

Bu, elə bilir ki, bular uşax-muşaxdı. Görür iş ho yerdə döyül. Deyir:

– Filan örgətdi, filan-filan.

Deyir:

İnanma pisin, nakəsin sirrinə,
Ə, yalan söz kişini salar dərinə,
Köhnə dağarcığı tumac yerinə,
Aşıx Ələsgərə satma, hayıfsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onda bu bilir ki, bu Aşıx Ələsgərdi. Ta yalvarır, düşür əlinə-ayağına ki, amanın günüdü, məni dasdana salma. Bu deyir ki, canın üçün, heş yerdə deməərəm, bir xeyirdə deyəjəm, bir şərdə, arxeyin ol. Hə... Onnan sora Ələsgər bunun çəhməsini-zadını götürmür. Deyir:

Mövlam məni nəzərinnən salmıyıf,
Qojalmamışam, hələ ağlım azalmıyıf,
Ə, bu fani dünya Süleymana qalmıyıf,
Sözün dalını çox uzatma, hayıfsan.

Da, görür ki, iş-işdən keçifdi. Deyir:

– Yaxşı.

Ələsgər də bunnan aralanıf gəlir.

Bir gün ermənilər Ələsgərgil olan kəndə hüjum çəkir. Ermənilər oranı tam dağıdır. Göyçəni ermənilər dağıdan vaxdı bu Ələsgər ki, qavaxcə getdi nökərçiliğa, qəbul eləmədi, həmən arvadın da uşağın, ərini ermənilər qırır. Arvat bir uşaxnan qaçır Kəlbəcərə. Ələsgər də gəlir Kəlbəcərə. Ələsgərə Kəlbəcərdə hörmət eliyillər. Ağsakqal olduğuna görə, el aşığı olduğuna görə dəyirmançı qoyüllər ki, dəyirman o vaxtı gəlirliymiş də, dolansın. Ələsgər dəyirmanda oturuf çox fikir eliyir gejə-gündüz. Qapıda fikirri oturmuşdu. Görür kü, bir qadın gəlir dəyirmana, yanında bir uşax, dalında da dağarı. O vaxdı da dağarıymış da, meşox, kisə-misə yoxumuş. Dağarda dən gəlir dəyirmana. Dəyirmana gələndə Ələsgər bu arvatı tanıyır. Həmən arvatdı ha. O ki Ələsgəri nökərçılığa qəbul eləmədi, bu, həmən arvatdı. Bu, dəyirmana gələndə danışır ki, əşi, belədi – bu bilmir ki, Ələsgər də qaşğındı, Ələsgər amma bilir arvat filankəsdi, – bura pis yerdi, belədi. Buranı pisdiyir. Gələnnən qırılırıx, şərayitimiz yoxdu. Ələsgər çox fikirrəşir, deyir buna söz deməsəm, mümkün dəyil. Deyir:

Ələsgər, xoşdu bu qadına söz deməh,
Aaz, dağılıfdı arxan, ölüb köməyin.
Yoxdu indi ağ otağın, ipəh döşəyin,
O sən görən şöhrət-şan bu dünyada tapılmaz.

Belə deyənnən sora arvat məəttəl qalır. Ə, qoja kişi maa şeyir dedi. Bu səfər Ələsgər başına gələni muna danışır, bu başına gələni Ələsgərə danışır. Orda arvat bu səfər başına döyür kü, hə, filan vaxt mən səhv



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

eləmişəm. Arvadın o vaxt cavan vaxdıydı. Nəysə, burdan hər kəs dağılıf gedir. Söhbət burya kimi. Dalı çoxdu, danışsam səhərə çəkər.

## 111. AŞIQ ABBAS

### I mətn

[Aşıx Abbas] çox belə dərrakəli aşıx olur. Çox məclislərə gedir, çox yerlərə gedir və ilaxır. Çox da elə bir insaflı adam olur. Bı gedirmiş, çalırmış, oxuyurmuş, gəlirmiş.

Günnərin bir günündə bının bir dostı sifariş eliyir ki, Aşıx Abbas gəlsin bırıya, toy eliyirəm. Bı durur sazını götürür gedir. Nəysə bırda nə təhər olursa bınnar yönnəşmir. Bı dostuynan özü yönnəşmir qiymətdə. Bı qayıdır gəlir, bir müddət aradan keçənnən sora... Bı Aşıx Abbasın bir-iki malı olur. Bı mal çox korrux çəkirmiş ajınnan. Daa bının heş bir yerə getməyə üzü yoxmuş ki, gedə birinnən ot gətirə, birinnən saman gətirə, birinnən bir şey gətirə, bı malları yaza çıxarda. Bı fikirrəşir, sən öl, duruf gedəjəm həmən dostumun qapısına, nə olajax, olajax.

Gedir bının qapısına. Bı, Aşıx Abbası yaxşı qəbul eliyif. Hə... Bına yaxşı çay, yaxşı çörəh. Bı da sazıynan getmişmiş. Deyir:

– Aşıx, nədi, xeyirdimi?

Sazı götürür, orda iki kəlmə söz deyir. Onu deyə biləjəm sizə. [Aşıx Abbas] deyir:

Aşığam zamana çalar,
Xalın zamana çalar,
Min tümənə çalmıyan canım,
Bi cüyə samana çalar.

O vaxt bir cüyə alırdıq. Kisə yerinə, meşox yerinə cüyə alıb işdədirdilər. Onu da yunnan toxuyırdılar, içinə arpadan, buğdadan, taxıldan, samandan yığırdılar.

Bırda qandırır ki, mən bir cüyə samana gəlmişəm.

### II mətn

[Qarabağ keçmişdə] böyük bir mahal olub. Aşıxlar gəzirmiş də bı mahalı. Həmən bir devran gəlir bı Aşıx Abbas gəzəndə ulağnan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedir. [Görür] ki, bı kəndin birində böyük bir toy var. Çöldə də böyük qar yığnağı varmış. Ulağı bağlıyıllar bı qara – bı qarın topasına. Bı Aşıx Abbas girir, bir az çalır, bir az oxuyur, deyir ki:

Əziziyəm Qarabağlı,
Şəki, Şirvan, Qarabağlı,
Aşıx kef hayında,
Eşşək çöldə qara bağlı.

## 112. QAÇAQ NƏBİ

### I mətn

Nəbi bırdan adam yolluyur İrana ki, get ordan çörəh gəti, ordunun çörəyi qutarıf. Mən də gedim Əmirxannı kəndinə, görüm kim var. Bibimgil də təzəcə köçüf gəlifdilər. Hələ biz köçməmişih. Bibimin adı Şanisə idi. Birinci bılar köçüf gəlif, hələ adam yoxdu. Nəbi özüynən bir də bir atdı götürür, gəlir bibimgilə. Atını saxlıyır, deyir:

– Ay əv yiyəsi, ay əv yiyəsi.

Bibim çıxır qavağına. Bibim də kişi kimi uzun arvatdı. Bibim çıxır:

– Salam-məleyküm.

Dünyagörmüş adam idi. Kəlbə Fərzalının qızıdı. Bının salamını verir. Nəbi deyir:

– Ay bajı, burda kişi yoxdu, zənan çıxır bizim qabağımıza?

Deyir:

– Başına dönüm, kişi olsa çıxar dayna. Bırda kişi yoxdu, köşdədi.

Hamımız köşdəyih, heyvan yanındayıx. Bı da gəlniynən evdə imiş. Gülsəfa addı gəlni var, həmilədi. Köçün qavağı gəlif, dalısı gələcəh hələ. Deyif:

– Ana, sana bir söz desəh, olar?

Deyif:

– De, başına dönüm, sən də mənim oğlumun biri.

Deyir:

– Adam yollamışıx, gedif İrana. Ordunun çörəyi qutarıf, bizə çörəh verə bilərsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– Niyə verəmmirəm? Nə desən verərəm.

Deyif:

– Məni tanıyırsan?

Deyif:

– Yox, bala, mən səni harda görmüşəm?

Deyif:

– Mən Nəbiyəm. Qaçax Nəbi mənəm. Gəlmişəm sizin qapınıza. Sən ki, çıxdın mənim qavağıma, sən kişisən, arvat dəyilsən.

Arvat gəlinə deyif:

– Aaz, çörəh irahla.

Duruf lavaşdarı suluyuf. Bizim yerrərdə də iki cürə yavannıx bişirirdilər. Həmi kökə, həmi də lavaş. Bunu bişitdirir, sulatdırır. Qırx büküm qatdıyır, penir yığıf, yağ yığıf xurcuna. Nəbinin yanında gələnə də deyif:

– Bala, çörəh ye, çay da hazırdı.

Bibim özü də qəlyan çəkərdi kişi kimi. Nəbi düşüf bı qəlyana baxıf, əvə-zada baxıf, deyif:

– Bir çay ver, içim.

Çay verif, çörəh verif, yeyif-içif. Duruf atdanıflar. Deyif:

– Sənnən kim gəlif nə soruşsa, məni demə.

Deyif:

– Adın nədi?

Deyif:

– Şanisə.

Deyif:

– Getdih, gələcəyih.

Gedif görüf ordu həmənki yerdə, heş bının o taydan adamı gəlmiyif. Çörəyə gedən gəlmiyif. Bı Paşa bəy Nəbiynən düşməndı. Paşa bəy gəlir, kəndin düzənniyində qoşununu yerrəşdirir. Ordan da baxanda görürdün da kimin evinə kim girdi. Paşa bəy yanına iki adam götürür, gəlir düz bibimgilə. Deyir:

– Nəbi hanı?

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nəbi kimdi, mən Nəbini tanımıram. Sən kimsən ki, qardaş, Nəbini mənnən soruşursan? Mən Nəbi tanımıram.

Bı da deyif ki, yox, tanıyırsan, Nəbi sizdədi. Deyif:

– Ay bala, bı əvim, bı eşiyim. Mənim köçüm hələ indi gəlif tökülüf bıra. Mən Nəbi görmüşəm?

Paşa bəy duruf bibimin əvini axtarıf, o küncünü, bı küncünü. Dam əvini gəzif, Nəbi nağayrır bırda. Nəbi odey, ordusunun yanında. Dağın kifilindədi*. Nəbi elə yerdədi ki, dədəm də gəlsə tapbaz. Paşa bəy orda qalır, qalır. Nəbinin çörəyə göndərdiyi adamları gəlir. Nəbiyə xəvər gətirillər ki, Paşa bəy gəlif, bizi axdarır. Bı Nəbi orduya deyir ki, biriniz də tərpənmiyin. Qoyun görəh bı Paşa bəy hardadı. O, İrannan addıyır gəlir gənə bibimgilə. Bibim Nəbiyə deyif ki, bala, bir kişi gəldi, səni soruşdu, mən də dandım.

Deyif:

– Hardadı?

Yerini deyif ki, düzün dalında gizdəniflər. Nəbi gəlir aşağıdan düşür, baxır, quşqulayır** genə gəlir bibimgilə. Bibim yorğan-döşəyi tökür, döşəhləri döşüyür, yorğannarı qoyır yerə, Nəbini uzadır mərfəşə. Gətirir yorğannardan beş-altısını qoyur üsdünə, gətirir ipini çəkir, amma nəfəs alması üçün yer qoyur.

Bala, bunu bu novnan beş gün saxlıyıllar. Bı köş gələndə Nəbinin adamının biri gəlir xəvər verir, bibim də Nəbiyə daklad eliyir. Bı Paşa bəy ordan çıxır, düz gəlir Arazın qırağına, Qırx otağın qavağına. Ordan Paşa bəy öz ordusunu götürür addıyır o üzə. İndi İranda Nəbini axtarıllar. Nəbi addamıyıf amma, bı taydadı. İndi Paşa bəy Nəbini axtarır ki, öldürsün. İki gün də orda qalır. Paşa bəy İranı alıf ağzına axtarır. Nəbi də durur ordunu yığır, o da addıyır İrana. Orda bir iki kəlmə oxıyır:

> Paşa bəy o tayda bir hiylə qurdu,
> Nəbinin dəsdəsi üzünə durdu.
> Paşa bəy Nəbini qonaxlıxda vırdı.

---

* kifil – mağara
** quşqulayır – nişanlayır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sana da deyillər, ay Qaçax Nəbi,
Hacarı özünnən ay qoçax Nəbi.

Bir-iki kəlmə qəzəldən oxıyır. İrana gedillər. Sora Nəbi qayıdır genə gəlir bı taya. Ordını yığır, çörəyini-zadını götürür, gəlir bıra. Paşa bəyə orda deyillər ki, Nəbi İran mahalında yoxdu.

Nəbi bibimin çərçəvini* alır, sarı başmağını alır, tumanını alır, geyinir. Beşaçılanını atdan bağlıyır belinə, ağzını örtür arvat kimi. Nəbi ha... Məfrəşdən çıxıf. Səhəngi alıf çiyninə gəlir suya. Bırda səhəngi söyküyür ora. Dərənin altı yoldı dana. Şal başında, tuman əynində, buraynan gedir düz Qırx otağın qabağına, Arazın qırağına. Bılar da dürbinnən baxır da. Orda gedir soyınır, yığır, bağlıyır belinə, addıyır gedir. Ordu hama bırdadı. Orduya da heş demir ki, mən getdim. Gedir bir top qanavuz, genə çərçəv, ayakqabı, qanfet-şakalad yığır, axşam genə Qırx otağın yanınnan adıyır bu üzə. Gəlir, qapını döyür, girir içəri:

– Nənə, bax, bıları da mən saa pay almışam. Sən Kəblə Fərzalının qızısan. Özünün də sürün çoxdu. – Onun ərinin də kalan sürüsü oluf. – Mənim qoşunuma, mana sənin o duzun, çörəyin qənim olsun, əyər mən Kəblə Fərzəlinin sürüsünnən bir çəpiş aparsam. Ala, bını da saa pay gətirmişəm. Sən məni ölümnən qutarıfsan.

Qayıdıf gedif.

Bir gün hay düşmüşdü ki, bizim sürünü qaçaxlar addadıllar İrana ki, aparıf satsınnar. İlxı ey, beş yüz-altı yüz at, qatır. Durur bibim şalı bağlıyır belinə, gedir. Çağırır:

– Ay Gəray xan, ay Gəray xan.

O taydan hey verir. Deyif:

– Sən kimsən, ay bacı?

Deyif:

– Mən Kəlbə Fərzalının qızıyam, Şanisəyəm.

Deyif:

– Nəyə gəlmisən?

Yalannan deyif:

---

* çərçəv – çarşab



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məəm bir atım qarışıf bı ilxıya, gəlif bıra. Bı qaçaxlar qoymır ki, atımı tutam aparam.

Ordan Gəray xan çağırır deyir ki, bı Kəlbə Fərzalının qızıdı, qoy bir atı tutsun, aparsın. Bı at da ələ duznan gələrmiş. Bını deyənnən sora bibim pıxılıyıf, at gəlif. Əl atıf atın yalmanınnan tutuf. Bulların yanında hoppunur minir bı çılpax atın belinə. Ata "pıxı" deyir. At durar? Vəhşi atdı. İlxı da bı atın dalınca. Bibimi güllələyillər. O taydan ilxını aparan qaçaxlar, bu taydan da bu üzdəkilər. Atın yalmanınnan tutur, bu yannan güllə atanda düşür atın o üzünə, o taydan güllə atanda keçir atın bı üzünə. İlxını gətirir xəzəl yığdığımız yerə, Madu kumasına. Ötürür meşiyə, gəlir evə. Deyillər ki, hardaydın?

Deyir:

– İlxını qaytarırdım.

Dədəsi deyir:

– Yanasan Şanisə, nətəri qaytardın?

Əhvalatı danışır. Da köçün arxası da gəlir. Paşa bəy də gedir öz vilayətinə, bı Nəbi də çıxır gedir öz vilayətinə.

**II mətn**

Bizim kəntdə çox olufdu Qaçax Nəvi. Deyir, Paşa bəy bunu qavır. Hərrənir ki, bu gedə, qaça qutara. Bu da yaralıymış. Korcə bulaxda bir əvə girir. Əvə girəndə bunu bunnar görür də, bu qavannar görür. Ev yiyəsi deyir:

– Ə, gir pəyiyə, pəyəən külfəsinnən çıx, gir peyinnığa – Nəviyə deyir. Həmən onu mana özü danışıf. Dəyirmana gedəndə özü danışıf. Deyif gir peyinnığa. Bu, iməhliyir, girir pəyiyə. Pəyədən də külfədən çıxır, girir peyinin altına. Gəlillər, bu kişiin əvini alıllar. Paşa bəy aparır bu kişini döydürür, neyliyir, boynuna almır. Deyir:

– A kişi, camaat gəldi, gəzdi, bəlkə öz uşağımmış, qaçıf qorxusunnan əvimə girif. Vallah, mən görməmişəm. Əvə girif, bəlkəm əvdən qaçıf, görməmişəm mən.

Burdan bunu danır. Danır qutarır, həmən gəlir avışqanın ağzınnan yarma peyinə yer açır. Nəvini bassırır horda. Nəviyə hordan deməli, çörəy, su verir. Nəvi deməli, beş gün qalır horda. Beş gün də bu, əvi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qüdqüdə saxlıyır. Beş gün qalır horda, beş günnən sora Nəvi kişiyə deyifdi ki, mənim yaram açılıfdı, su gedir, irin, çirk gedir. Yara irin, çirk eləmişimiş. O peyin onu çəkir. Deyifdi ki, gör çəm eliyə bilərsənmi, məni çıxardasan, paltarım sudu. Deməli, onu gejə çıxardır. Yarasını açır ki, ta irin, çirk gedif, yara sağalır. Çıxardır, suya salır, ayrı paltar verir, geyindirir, yola salır. Sora Nəvi atınan, Həcərnən keçir Arazı. Arazı keçir İrana sarı. Elə Nəvi o gedən gedir. Qayıdıf gəlmir. Bax, belə sözdər çoxdu, ağlıma gələ, danışam. İntası, huşumnan çıxıf hamsı.

## MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR

### 113. ALI QAZAN GƏZDİRƏN KİMİ NƏ GƏZDİRİRSƏN?

Soltan bəy gəlir Sarıbaba dağında, beşinci ildə*, Göybulağın üsdündə qəşəng bir çadır tikdirir. Qoşunu yığır ora – bizim kəndin qabağına. Orda başdıyır qonşuya çorək bişirtdirməyə, çay qoydurmağa. Bını yoxlıyır görür hər şey var, amma bişmiş bişirməyə bir dənə belə böyük qazan lazımdı. Sifarış eliyillər bizim kəndə ki, ordan bizə bir qazan tapıb göndərin. Hə, bizdə də belə bir qazan tapılır. Elə bir qazan tapılır ki, məsələn, iki adam qabax-qabağa bının içində oturarmuş. – "Əə, bını kim aparajax, kim nə eliyəjəx, nə təhər eliyəjəx?" Deyillər, vallah, bircə Alının bı qazana güjü çatar. Alı da elə kişiymiş ki... Qoy orasını deyim. Bınnan əzələ çörəyi bişirərdilər saja. Saj da bax belə yekə dəmir olırdı, onun üsdə bişirirdilər, xamralar bişirirdilər bı boyda. Ha eliyif çörəh bişirincə Alı mının yeddisini yeyirmiş. Belə kişi olub. Deyirmiş ki, ay Sayad, – arvadının adı Sayadmış, – saj düşmədi, bir arxeyin çörək yeyək? Hələ yeddisini yeyənnən sora. Qoy, bir Alının təəssüratın danışım.

Bir də ki, beşinci ildə, erməni-müsürman davası düşür. Alı deyir ki, gedim Qaladərəsinnən… Bizdən o yana Sarıbabanın – həmən dediyimiz dağın o biri üzündə bir böyük erməni kənti vardı. Hamı gedir ordan qarat* gətirməyə. Alı da qoşılır bılara, piyada gedir. Gedir

---

* beşinci ildə – 1905-ci il nəzərdə tutulur.
* qarat – qarət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

orda kimi nə götürür, kimi nə götürmür, kimi onu götürür, kimi bunu götürür. Alı da gətirir dört dənə boyunduruğ qoyur üst-üstə, kəndirnən, ciyəynən bağlıyır, dalına alıf gələndə, bıların bir yeznəsi vardı, adı da Məhəmməd idi. Allah irəhmət eləsin, bı Məhəmməd, gətirir mına bir dənə on altı kilolux verir. On altı kilolux, bir dənə pıttıx deyillər. Bir pıt on altı kilodu. Deyir ki, Alı, ordan gedəndə, sən Allah, mını çağır ver Sədətə. Məhəmmədin də arvadının adı Sədət olur. Bizim xalamız olub. Bı da gəlir bizim kətdən aşağı keçəndə çağırır:

– Ay Sədət, ay Sədət.

Bılar da hay verir. Deyir ki, bir az aşağı yen, Məhəmməd bir dənə girvənkə göndərif, onu apar.

Deməli, on altı kiloyı dörd yüz qramlıx hesab eliyirmiş, bu adam. O qədər güjdüymüş.

Hə, nə isə. Bınnan əlaqədar qazanı şələliyillər Alıya. Deyillər:

– Alı, mını apararsan verərsən Soltan bəyə, içində yemək bişirə.

Bı da bı qazanı şəlliyir dalına, düşür yola axşamnan. Duman basır, qəlbi dağ. Dağ da nə? Dəniz səviyyəsindən iki min kilometr yüksəkdə. Bı da axşamnan gedir azır. Səhərəcən qazan dalında bu dərə mənim, o dağ mənim, bı gəzir. Səhər ertə yolı tapır, gedir çıxır Soltan bəyin alaçığına. Bı səfər qazanı düşürür, qoyur yerə, otırır. Mının qarnını doyurullar. Duruf yola düşəndə deer:

– Bəy, o qazan Məşədi Kərimindi, atasının gorunu belə-belə eliyim, sənin də. O qazan itsə, səninkini sənə verəjəm.

İndi bizdə nəyisə çox gəzdirən kimi deyillər:

– Ə, Alı qazan gəzdirən kimi nə gəzdirirsən?

## 114. ŞEŞƏ BUYNUZLAR BİZİ YEYƏCƏK

Bı Yağlıvətdə camaatın doğlanışığı mal-qara, qoyun-quzudan çıxardı. Nə bilim, süd-qatıx, ağartıynan məşğul olardılar. Bir vaxdarı bı kəntdə oğurrux baş alıf gedir. Kətdə o vaxlar gəlmələr də çoxıydı. Camaat onnardan şübhələnirdi. Bir gün belə, beş gün belə... Birinin qoyunu itir, birinin quzusu, birinin camışı. Bı oğrular – gəlmələr gejeynən xalxın camışını oğurruyuf satıf-safardılar. Gündüzdər kənt yolunda gamış görəndə qışqırıf qaçardılar:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay camaat, qoymıyın, şeşə bıynızdılar bizi yəəjəh.

İlaf soralar camaat bını bilir. O vaxdan elə gəlmələrin bı hərəkətinə görə Yağlıvətdilərə “gündüz gamışdan qorxuf, gejə oğurruyannar” deyərlər.

## 115. ÖLMÜŞ İTƏ BİR TƏPİK

Ağıldan seyrək bir adam varmış. Onu uşax vaxtı it qorxuduf. Nə desə, danışsa, adamlar fikir verməzmişdər. Bir dəfə o yolda ölmüş bir itə ras gəlir. Başdıyır onnan hayıfını almağa. O ki var iti təpihliyir. Sora da başdıyır qaşmağa. Camahat munu görüf deyir:

– Ay bala, niyə qaçırsan?

O da deyir ki, bəs yolda yatan iti təpihləmişəm, indi gəlif məni dişdiyəjək. Adamlar deyillər ki, ay bala, qorxma, o it çoxdan ölüf. Nəkqədər təpihləsən də ayılan döyül, amma o inanmır. Elə hey deyir ki, yox, duruf məni dişdiyəjək.

Munnan sora bir qorxax adam görəndə “sən də ölmüş itə bir təpih vuruf qorxannardansan” deyillər.

## 116. GÖYZƏLLİ ADAM

Bayalı kişinin dəhşət gözü varmış. Kimin qarşısına çıxıf nəyə baxsa, mütləq bir bədbəxt hadisə baş verərmiş. Bir günnəri Hüseyn kişi qarpızı doldurur öküz arabasına, sahədən gətirir kəndə. Kəndə gələndə həmən o gözündə olan Bayalı kişi gəlir. Götürür o qarpızın birini verir o Bayalı kişiyə. Deyir:

– Ala ye, oz bosdanımnandı.

Bayalı kişi alır qarpızı, yeyir. Oğlunu çağırır ki, ölüm, get o mənə qarpız verən Həsən kişiyə bı on manatı ver, denən mənə beş kilo ət versin. Gözündə o qədər varımış ki, yüz fayız bilifdi ki, öküz qapıya çatmıyajax. Gör mındakı gözün gücünə bax. On maat pul verir ki, get Həsən kişidən ət al, gətir maa. Uşax gedir, deyir ki, Həsən əmi, atam dedi ki, maa bir beş kilo ət versin.

Deyir:

– Bala, get ata denən ki, öküzün boyunduruğu dağdağannandı. Arxayın olsun, heş nə olmuyajax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözə bax ki, camaata da dermiş ki, Həsən ət kəsif. Oğlumu göndərmişəm getsin maa ət alsın.

## 117. GƏLİNİN ARZUSU

Rəhmətdih dədəm deyirdi bir kətdə bir qoja kişi su suvarırmış. Onda sapox-zad yox imiş. Çarıxdan-zaddan geyif, sarıyıf ayağına. Soyuğlu payız günündə, qoja kişidi, yeri arat eliyirmiş, taxıl zəmisini. Görür ki, el yoluynan dəbdəbəli bir toy karvanı gəlir. Faytonnardı, neçə faytondu, bəziyiflər, atı da bəziyiflər, faytonu da bəziyiflər. Qoja baba təri ağzının suyuna qarışa-qarışa çıxıf lapatqanı vuruf yolun ortasına, duruf. Karvan gəlif buna çatanda karvanın qabağında duran deyif:

– Hamınız bu babanın, ağsakqalın xalatını gətirin.

Əlini qaldırıf deyif:

– Mənə heş bir şey lazım dəyil.

– A baba, niyə?

Deyif:

– Xeyir, maa heş-zat lazım dəyil. İcazə verin gəlinizdən bir söz soruşum.

Deyiflər, atamızsan, ağsakqalımızsan, birini yox, beşini soruş. Gəlin pərdəni – örpəyi qaldırır, deyir:

– Baba, eşidirəm.

Deyir:

– A qızım, bu vırhavırnan, bu dəbdəbəynən ki, gedirsən, de görüm dünyada sənin ahı-zarın nədə qaldı? Arzun, diləyin nədə qalıp?

Deyir:

– Baba, altı mismarda, bir nərdivanda, bir çəkişdə.

İndi bunu kim başa düşər? Heş kim. Deyir ki, çox sağ ol, qızım, uğur olsun. Baba lapatqasını qoyuf çiyninə, çəkilif. Karvana deyif:

– Get.

Bir də təklif eliyiflər, deyif:

– Heş-zad isdəmirəm.

İndi heş kəs də başa düşmüyüf ki, bu nə deməhdi. Ay doluf, il dolanıf, nə bilim aradan çox keçif, az keçif nəymişsə, qoca bir axşam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

darvazasını açıx qoyuf qıraxda yerdən oturuf ki, – evdi, həyət evi, yolqırağı, – heyvan gəlsin girsin içəri. Baba görüf ki, bir adam cındırın içində ora-bura devikə-devikə gəlir. Gələndə birdən bu qız kişini görür. Kişi də qıraxda oturuf. Qız kişini görəndə gəlir yanına, deyir:

– Baba, axşamın xeyir.

– Hər vaxtın xeyir, bala

– Baba, qərib adamam, bu gejəliyə məni qonax saxlarsanmı? Yeriniz olar mən qalmağa?

Deyir:

– Niyə olmur, a qızım, Allaha da qurban olum, qonağına da. Gedəh, biz harda, sən orda, gözüm üsdə.

Götürüf gəlif içəri. Baba tanımır, qız bunu tanıyıf, gəlin bunu tanıyıf. Oturuflar, loxmadan-tikədən, ordan-burdan danışıflar, eliyiflər. Axırda gəlin deyif:

– Baba, sən məni tanımadın axı.

Deyif:

– Bala, mən səni nə tanıyım, nə bilim, Allah bəndəsisən dayna.

Deyif:

– Allahın düzdü bəndəsiyəm, sən filan vaxtı mənnən bir şey soruşdun. Sən maa dedin ki, bala, bu təmtərağnan ki gedirsən, de görüm nədə arzun, diləyin qaldı. Mən də saa dedim altı mismar, bir çəkiş, bir nərdivanda.

Deyif:

– Çox sağ ol bala, yüz yaşıyasan. De görüm o nə deməhdi?

Deyif:

– Yanı onu deyirdim ki, fələyin çarxını göydə bərkidim mismarnan, fələyin çarxı hərrənip məni bu günə salmasın. Onçün deyirdim ki, fələyin çarxını o altı mismarnan, çəkişnən göyə mısmarlıyım, hərrənməsin, hərrənif məni bu günə salmasın.

## 118. ALA İNƏK

İndi mən bir rəvayət danışım. Bizim yerdə bi kişi olur. Bunun (arvadını göstərir – top.) nənəsinin bavası olur. Məhəmmədiydi onun adı. Urus onun malını-qarasını yığıf aparır o vaxdı. Bunu qu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lağa salır. Bu da kalan varrıymış. Qoyunu çox, arısı çox, malı çox, döyləti çox, da həddinnən artığıymış. Bu da bir qız verir bir ayrı kəndə. Qızına mal da verir, öz qapısının malınnan.

Bir gün urus bunun malını yığıf aparır, bir dənə mal qoymüllər qala. Bir dənə ala inəh olur. Ala inəh həmin maldan ayrılır düz meşiyə. Nə qədər güllə atıllar, neynillər, o inəyə heş biri ilişmir. İnəh çıxır gedir meşiyə.

Bir gün bu kişi azarrıyır. Daa əvə gəlmir, çıxır gedir yaməşdərdə oturur, meşədə oturur. Aparıllar çay-çörəh verillər, nə qədər yalvarıllar, əvə gəlmir. Deyir:

– Bir əvdə qatıx yox, bal yox, nəyə gəlim o əvə?

Arısını-zadını, hamısını dağıtmışimişdər. Çox da varrı kişiymiş. Kişi çox ağır xəsdələnəndə gətirillər əvə. Əvə gətirəndə kişi vəsiyyət eliyir ki, mən ölejəm, – da bunun üsdündə kəsməyə malı yox, danası yox, heş bir şeyi yox, – gedərsınız o kəntdəki qızıma verdiyim cehiz malı gətirif mana ehsan verərsınız.

Nəysə, bu, belə deyir. Bu, ağır xəsdələnir. Özü də deyir ki, filan quyuda filan qədir mal var, filan qədir də taxıl var, onu çıxardın ehsanıma. O vaxdı quyu qazıf quyuda saxlıyırmışdar haylə şeyləri. Hə... Ehsan verın, mana ordan da mal gətirin. Özü bilirmiş də. Axşam deyirmiş mən savax öləjəm. Çox nurru kişiymiş, özü də hajıymış. Belə-belə vəsiyət eliyir. Səhər durullar ki, tezdən kişi can verir. Can verəndə olar adam yığıllar ki, getsin, – kənt də bizdən xeylax aralıdı, – getsinnər ordan malı gətirsinnər. Əvdən çölə çıxıllar ki, meşiyə qaşmışdı ee, urus vura bilməmişdi, hămən ala inəh meşədən hərrənif gəlif yatıf qapıda. Hamı – o ona muşdulux, bu buna: “Kişinin öz inəyi gəldi, kişinin öz inəyi gəldi”, – deyənnən sora, da oraya gedən olmur. Həmin inəyi kəsillər. Həmən inəh ona qismət imiş. Ho meşədən qayıtdı gəldi. Beş-altı ay çəkif ee. İnəyi heş meşədə görən də olmuyufdu. Onnan sora inəh özü gəlif qapıda yatmışdı. İnəyi kəsif ona ehsan vermişdilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 119. PƏHLİVANLAR HAQQINDA

### I mətn

Babam Dünyamalıynan Naxçıvana duza gedir. Görür dizi aynalı bir pəhlivan birini yıxdı yerə. – "Ə maa qənim" – deyə-deyə belə gərnəşir. Rəhmətdih Dünyamalı kişi olur. Bu da bizim kəntdə səsdən gur adam oluf. Deyir:

– A Qasım, gir onun döşünə, mən qıya çəkəcəm, sən yıxassan.

Deyif:

– Ə, sən nə danışırsan, mənim orda nə işim var. Məni şil-küt eliyər.

Deyir:

– Sən gir, qorxma. Mən elə bir nərə çəkəcəm ki, pəhlivan qayıdıf maa baxajax. Maa baxanda pəhlivanı göt, qoy yerə.

Deyir babam çuxasının ətəyini keçirdi ipinə, dedi:

– Ə, sənə qənim mən.

Babam da cannı adam oluf. Pəhlivan belə baxdı, belə baxdı. Birdən onu gördü ki, Dünyamalı qışqırdı:

– Ay nənəm qurban, Qasım, qoyma.

Pəhlivan belə baxanda babam pəhlivanı götdü basdı yerə, otdu sinəsi üsdə. Bütün naxçıvannılar dedi ki, buna yaxşı xələt. O qədər arpa, bığda, kişmiş, parça-marça yüklədilər dəvələrə, çıxdılar gəldilər. Da duza yer qalmadı.

### II mətn

İrannan bir pəhlivan gəlif dizi aynalı. O vaxdı yıxılmıyan, məğlub olmuyan pəhlivan dizinə güzgü bağlıyırmış. Əgər onun dizində ayna varsa, demək, heş kim onu yıxmıyıf. Burda yığılıflar kənt camaatı, məclis quruflar. Əli bəy varmış bizdə. Deyif ki, ay Məhəmmət, bunnan bir güləş də.

Deyir:

– Qoy görüm də, hələ bir baxım, görüm bu nağarır, neyniyir.

Onu atıf, bunu atıf. Pəhlivan gəlif oturuf bunun yanında. Da deyiflər ki, bunnan döyüşəssən. Xan da bu pəhlivanı göndərif ki, Əli, ya bunun döşünə adam çıxart, ya da bir at yükü qızıl göndər. Əli də deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Evin yıxılmasın, bu kəntdən bir at yükü qızıl getsə bu kənt nəynən dolanajax. Məhəmmət, gör nağarırsan dana.

Məclisdə belə oturanda deyif:

– Yedız-işdız, indi durun güləşin.

Bu da görür həmən pəhlivan alıf bunun sümüyünü əlinə, belə-belə eliyir, əlləşir ki, sındırsın dana. Ağsakqallar söhbət eliyəndə eşitmişəm. Deyir, Məhəmmət əlini belə atıf (əlini güləşəcəyi pəhlivanın qıçı üstünə qoyur – top.) deyir "ya Allah". O biri pəhlivanın qıçı şırtadan qırılıf. Deyiflər:

– Pəhlivan, dur güləş.

Deyif:

– Ə, maa da Məhəmmət lazım döyül ey, sınıxçı lazımdı. Gedin sınıxçı gətirin.

O, heylə güjdü adam oluf. Ayını diri-diri tutuf. Taxıl zəmisində ayı toxumu yeyir də. Gedif tutuf qulağınnan gətirif kəndə. Deyif:

– Bu kimin qatırıdı, aparıf bağlasın da qapısına.

Deyiflər:

– Evin yıxılsın, qatır döyül ey, ayıdı.

**III mətn**

Bizə yaxın dağ kəntdərində bir dəyirmançı oluf, çox güjdü adam oluf. Ordubatdan biri deyif ki, sən öl, gedirəm Məhəmmədi yıxajam. Bu da dəyirman işdədirmiş. İki xurcun arpa gətirir. Bunnan dalaşmağa bir səbəb olsun. Deyif:

– Ala mənim bu dənimi üyüt.

Dəyirmançı əlini qoyuf dəyirman daşının üsdünə, dəyirman dayanıf. Deyif:

– Nə dedin, tıkqıltı qoymur ey eşidəm?

Deyif:

– Heş nə demirəm ey. Deyirəm görüm mənim dənimi havaxt üyüdəssən?

Deyir:

– Nooba gözdə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# II
# MƏRASİMLƏR, OVSUNLAR

## 1. TASQURMA

### I mətn

İşə gedəndə aramızda bir qız vardı. Cahıl vaxdı, kalxoz işinə gedirıx, ot çalırıx. Yanımızda bir on dənə qızdı, yığılıf oturmuşux. Bu qız da corav gətirif başdədi toxumağa. O, coravı başdəmağıynan corav oldu bi belə (əli ilə göstərir – top.). Qızın adı Sədiqadı.

– Aaz, Sədiqa, gijsən, xaysən, nəsən?

Dedi:

– A bacı, belə coravı əlimnən alıf toxuyüllər, vermillər mana.

– Aaz, səy danışma, ay bala.

Hamının qutu qurudu kü, bunun belə eləmaana. Bu, nə tez coravı toxudu. Bir belə qarış oldu. Bu, ikinci səfər coravı söhdü, bir də qayıtdı. Helə başdədi, gənə də bir qarış oldu. Bir də söhdü, yığdı çağın üsdünə, sarıdı. Vurdu qoltuğuna, dedi:

– Mən gedirəm əvə.

– Aaz, biznən ot çalırsan, əvə harıyə gedisan?

Dedi:

– Aaz, məni aparan var. Mən gedirəm. Mənim yoldaşdərim var, mən gedirəm.

Getdi əvə. Helə axşəm biz əvə qayıdəndə dedilər ki, bəs Sədıqa dəli olufdu, Sədıqa dəlidi. O dedi, aaz, boy, büyün belə-belə olmuşdu. Bu dedi, belə-belə oldu. Onun da xalasının əri Qara Molla deyirdilər, o, tas qurur. Çox tas qurufdu. Helə qızı gejə atınan apardılar Qara Mollanın yanına. Xalasının əridi, ayrı kəntdədi. Götürdülər, qızı apardılar. Kişi baxıfdı ki, qızın huşü başında yoxdu.

Kişi səhər ertə – gejdən tası qurur. İndi nətəri qurullar, neynillər, onu bilmərəm mən. Tası qurur, gəlir cin düşür tasa. Əl atır, tutur. Əl atır tutur, iynəni sancır üsdünə. Deyir ki, bəs niyə belə eləmisən? Deyifdi ki, bilmirəm, gəldi haramnadımı mənim balalarımı, üsdündəmi oturdu? Cin yalvarıf yapışıfdı ki, körpə balam var, məni boşdə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– Səni haryə boşduyürəm? Sən bu boydə bir əvin qızını dəli eliyif salmısan çöllərə.

Deyif:

– Bir də dəymərəm, məni boşdə.

Aradan bir gün keçənnən sora hamı gəlifdi:

– Ay Qara Molla, bax, bu, baldızın qızıdı, bəs bu kimin qızıdı?

Deyif:

– Siz bilməzsınız, bu da xəsdədi, ayrı kəntdən gəlif.

O formu o qızı orda bir ay saxladı, həmən cini bir ay saxladı. Bir aydan sora, onun oğlu varmış, deyir ki, bu yaxamdakı iynələri çəh. İynələri çəkəndə paltarı soyünür qoyür, çıxır. İrəli ortabaca dam varıdı. Belə otax yüzdə bir olardı. Mənim nənə babam varıydı, Məşədi Mehbalı, bircə onda heylə otax varıdı. Qalan heş kəsdə o cür otax yoxuydu. Damdı, üsdən də baja varıdı, bax bu yekəlığında (söyləyici əli ilə havada dairə cızır – top.). Çıxır, ho bajədən qıçələrini sallıyır, kişini çağırır. Kişinin adı İsmayıldı, Qara Molla deyirdilər.

– Ay baba, ay baba, gəl əvə.

Gəlir əvə. Baxır ki, heş kəs yoxdu, bajədən qıçə sallanıfdı.

– Aaz, aaz, dəlisən, nəsən? Hordan niyə qıçəni sallamısan?

Deyifdi ki, iynəni oğluna çəhdirdim, oğlunu döymə. Xamır yoğurmüşəm. Xamır gej qutarcaxdı, xamırın başinnən kəssin, atsın təhniyə. Xamır onda qutarajaxdı. Paltarını çıxartdı, tulluyur bajədən içəri.

– Ala, bu da sənın paltarın, bir də sənın iyin dəyənına dəymiyəjəm. Gedif nə qohum-öyladım var, deyəjəm tas qurur, tasa gəlif düşürux. Getmə onun səmtinə.

O da bax haylə olufdu.

### II mətn

İki mis kasaya su qoyur yarısınnan. Bir boşqapda, ya da nəlbəkidə un qoyur, birinə duz qoyur, belə düzəldir qoyur. Həmən o badnosun da qırağına yazır, ad qoyur. Dəlinin başına yaylığı salıp deyir: "Deynən ki, məni niyə belə eləmisən?" İndi o dəli bına sual



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verir ki, məni niyə belə eləmisən? Bu vax dədəm oxuyur ku, gərəh olar yığıla da. Məntərə oxuyur, deyir:

Məntərə – ovsun
Ərkəca-ərkəca, samə səriyyə,
Ey keytibi, keyte.
Ey mindari, şami savayya,
Yığışın gəlin bura, kimin oğlu,
Kimin qızı, yığışın gəlin bura.

O məntərəni oxuyanda cinnərin hamısı gəlir yığılır ora. Deyir ki, adını de, görüm adın nədi? O da deyir ki, ya adım Xatoşdu, ya Öyladı, nə bilim nədi – bu cinnərin adıdı ha. Gənə oxuyur dədəm. Sən filan vaxdı filan dəlini vurmusan. Niyə vururdun, nə səbəbə vururdun? Deyir ki, ya mənim uşağımı vurmuşdu, ya su töhmüşdü – qaynar su, uşağımın əyağı yanmışdı. Nəysə, hə, belə. İndi ona deyir ki, deynən gəlsin and işsin. Məntərin hökmüynən gəl and iş. Eləsi olurdu – mən gözümnən görürdüm ey, lap ona sora baxırdığ e, una, duza – eləsi olurdu bax, bax, beləjə əlinin mayasını basırdı. Baxırdın kı, bu əlinin mayasını basıf and içif ki, mən tay saa dəymiyəjəm, eləsi olurdu ayıb olmasın, şıllax atırdı, un, duz dağılırdı. Yəni and işmirəm də mən.

Gətirirdi qarğıdan düdüh qayırtdırırdı. Görmüşəm də, qarğı düdüh, məntərə oxuyurdu. Məntərə oxuyurdu ku, gəl gir bu düdüyə. O, dəliyə deyirdi ki, deynən gəl gir bu düdüyə. Nə qədər adamı heylə qutarıp mənim atam. Hə, deyirdi ki, gəl gir düdüyə.

Bir də məntərə oxuyurdu. Oxuyurdu, girirdi. Tez xamır qayırtdırırdı. Ağzını qayırtdırırdı o düdüyün. Sora o düdüyü bir nəfərə verirdi. Polad adında bir oğlan varıydı. Vermişdi ona, aparmışdı. Qavırsannıxda yeri qazıp basdırıp qayıdıp gəlirdi.

## 2. KÖRPƏ UŞAĞIN QIRXININ TÖKÜLMƏSİ

Körpə qırxı çıxdıxdan sora sakitdəşər, çox çığırmaz. Körpənin qırxıncı gününü doğulduğu günnən hesaplıyıllar. Onunla əlaqədar el arasında qırx məclisi keçirirdillər. Uşağı, əvvəlcən çimizdirirsən. Uje uşax çimif kutarana yaxın paklıx qusulu verirsan da. Qusulu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verənnən sora qırx dənə buğda sayırsan, atırsan suya. Sora o suyu uşağın başınnan tökürsən. Oğlan uşağının qırxını tökəndə buğda, qız uşağının qırxını tökəndə arpa atırsan, çünkü qız uşağı oğlan uşağınnan artımlı olur. Axı qız tez yekəlir. Qanuna baxsan, qızın qırxı otuz günə çıxmalıdı, oğlanınkı qırx günə. Qız uşağı oğlannan tez yekələn olur. Arpa tez cücərir deyin qız uşağının qırxını arpaynan töküllər, oğlanınkını buğdaynan.

Uşağın qırxını töküp rahatladıxdan sora zahı qadın da mütləq yuyunuf paklıx qusulu almalıdı.

## 3. GÖBƏYİN DÜŞÜRÜLMƏSİ

Uşağın göbəyi deyilənə görə üş, beş və yeddi gün ərzində düşməlidi. Əgər göbəh düşmürsə, onda xəmirdən belə yumru kökə kimi düzəldif uşağın göbəyinə qoyuf bağlıyıllar. Xəmir göbəyi çürüdər, çox keşməz göbəh oyuluf düşər. Əgər göbəh yerinnən düşərsə, əlii göbəyin üsdünə qoyanda görürsən ki, saat kimi vırır, ürəh kimi döyünür. Ürəh nəbziynən eynidi. O yerinnən qaçanda ip bağlardılar belinnən – qurşaxdan, bir də çiyninnən bağlıyırmışdar. Ağacı taxırmışdılar, ipin ortasınnan belə sıxırmışdılar, bururmuşdar yığırmışdılar, göbəh gəlirdi yerinə. Əgər göbəh vırmırsa, özü də o çox ağrı verir, insan halsız olur, qarın ağrısına çox gedirsən, qılçaların tayqəti olmur. Əli vırırsan, görürsən ortasınnan vırmırsa, sağda, solda, aşağıda, yuxarıda vırırsa, deməh yerinnən oynuyuf. Sora dəhrənin sapı deyirsən, belə yumuru taxta olur, onnan belə qoyursan, yumruluyursan, burursan, burursan, görürsən ki, gəldi düşdü yerinə. İpişkanın karofkasını bir yaylığa bağlıyırsan qoyursan ora, sora gətirip möhkəm sarıyırsan. On-on beş dəyqa tərpənmirsən. Sora o mamet yumurta soyutması pişirirsən verirsən, yeyir ki, onun yerini uje getsin tutsun da.

## 4. UŞAĞIN DİL AÇMASI

Uşax gej dil açanda ona sərçə əti verəllər, sərçə tez-tez cikkildədiyi üçün, bir də göyərçin yumurtası verillər. Sora bizdə bir quş varıydı, ona “dıra-dıra” quşu deyirdilər. Elə gözəl quşuydu, üsdündə hər rəng tükləri varıydı. Deməh, həmən o “dıra-dıra”nın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ətinnən verirdilər. Məsələn, deyirdilər filankəsin uşağı danışmır də, ona "dıra-dıra" əti verirdilər. O quşu vırırdılar, ətini gətirip kabap kimi edip uşağa verirdilər, həm də onun yumurtasını. Az müddət içində uşax dil açardı, dil boğaza qoymazdı. Gec dil açan uşağa bildirçin yumurtası da verirdillər.

## 5. GEC YERİYƏN UŞAĞIN ÇİLƏSİNİN KƏSİLMƏSİ

### I mətn

Bax, uşax gej yeriyəndə mənim anam o işi eliyirdi, qəşəh də bilirdi. Kətdə hamı gətirirdi uşağın çiləsini ona kəsdirirdi. Onu da çərşənbə günü eliyirdi. Çərşənbə günü aparırdı böyurtkan kolunun yanına. Böyurkan bu koldan addıyır o kola axı. Kolların arasınnan keçirdirdi, sora nəysə bir neçə şey oxuyurdu, çiləsini kəsirdi. Çilə kəsilənnən bir neçə gün sora körpə ayax açıf yeriyərdi.

### II mətn

Uşağın hansısa yerimirdi. Qaynənəm dedi ki, bala, onun ayağının baş barmaxlarını biri-birinə bağla, qoy xəlvirə. Yanına da pul qoy. Heylə elədim, onnan uşax çilədən çıxdı.

Uşağ yerimirdi. Ayaxlarını da ayaxlarının üsdə aşırdıf bax, belə oturardı. Hə, dedi, böörünə də pul qoy, ya bir ovuş kanfet qoy. Kim birinci qavağına çıxsa, o kanfetnən pulu ver ona, qaçı da qoy yanına. De ki, ala, qaçıynan o uşağın barmağının arasındakı ipi kəs. O uşax yeriyəjəh, bala.

Elədim, Allaha and olsun, heş üş gün keşmədi, yeridi. İki yaşı vardı, yerimirdi, kürəyimnən düşmürdü yerə. Kimsə çıxdı qavağıma. Dedim ki, a bala, ala bax bu kanfeti də, bu pulu da. Götür qaçiynən bu ipi kəs. Kəsdi, aldım qucağıma uşağı, aldım əlimə xəlbiri də, gəldim. Üş-dört gün keşmədi yeridi. Bax, onu da özüm görmüşəm, eləmişəm.

### III mətn

Uşax görürsən anadan olanda ayağa dura bilmir. Deyillər ki, çiləlidi. Qoyullar xəlbirə, yeddi qapıya gəzdirillər. Yeddi qapı gəzdirənnən sora çiləsi gedir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### IV mətn

Ciləni nar ağacının altında kəsillər. Dədəsinin üzünü görmüyən adam kəsməlidi.

## 6. HƏMZATLI QADIN

### I mətn

Bax, bizdə həmzat deyilən şey var. Mənim dədəmin əmisi arvadı varıydı, olarda həmzat deyilən bir şey varıydı. Bax, pişih balalıyırdı da. Pişih balalıyırdı, o pişiyin gedirdi qəfil üsdünə, o pişiyin balalarının hamısı qırılırdı. Kəntdə hamı uşağını onnan qoruyurdu ku, həmzatı var. Gözdə-qulaxda olurdular kı, birdən qəfildən bilməz gələr uşağın üsdünə. Qapıya gələndə də deyirdin: "Aaz, uşax var, gəlmə". Həmzat ağırrıxdı. Bizim ot tayamız varıydı, o tayanın altında, üzüzdən irağ, it balalamışdı da. Deməli, o itin balasının üstünə övladı olub ölən bir gəlin – hamı deyirdi onun həmzatı var – həmin o gəlin getdi balalamış itin üstünə. Bilmədən getmişdi da. Onun ağırrığı tökülmüşdü o itin üstünə. Onnan sora o üş dəfə uşağa qaldı. Üş uşağı da sağ qaldı.

Həmzatdı qadın dualı olur. Onun duası var, molla yazır. Atırsan suya, çimirsən, atırsan suya, içirsən. Belə şeylər var, yəni üstündə ağırlıx daşıyır. O həmzatdı qadın yeni doğmuş ananın və ya yeni doğulmuş uşağın, həmçinin balalamış itin, pişiyin üstünə çıxsaydı, o zamannar onnar mütləq zərəl çəkərdilər. Bu, sınaxdan çıxmış inanışdı.

### II mətn

Bəzən eşitmişəm ki, cavan qızdar gedillər ərə, uşağları olur ölür, olur ölür. Deyillər həmən adamlarda güjdü həmzad olur. Müəyyən adamlar bu həmzadı götürür. Həmən adamlar ya təzə doğan pişiyin, ya da itin üsdünnən keşsə, onun həmzadı tökülür onun üsdünə. Gələcəkdə bir də uşağı olsa, heş vaxt o uşağı ölmür, qalır. Heylə adamlar olufdu, gedifdi pişiyin üsdə, həmən vax pişiyin balası ölüfdü. Çünki o həmzad tökülüf onun üsdünə. Həmzatdı adam qırxlı gəlinin üsdünnən keşsə, o uşax ölər. Ya xəsdə olmalıdı, ya da ölməlidi. Çünki onun həmzadı tökülür onun üsdünə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## III mətn

Kəntdə bir adət vardı, təzə uşağ olanda qırx gün heç kəs onun üsdünə getməzdi. Qonşu gedəndə uşağı çıxardıf aparardılar bir aralı yerə, onnan sora o gələn qonax keçərdi evə. Sora uşağı gətirərdilər qonağın üsdünə. Çünki gedənin ağırrığı tökülmür, hərrənif gələn ağırrığını tökür.

## IV mətn

Uşax anadan olanda arvadı hal aparır. Min nəhlət şeytana. Ona tez sancax taxıllar. Sancax taxıllar üsdünə, kadının da, uşağın da. Uşax dilibaş olur, dilinin üsdündə belə-belə zad olur, tikan kimi şeylər. Tez həmən uşaxdan qan alıllar, uşax ayılır. Qadın heysiz olanda deyillər, qadını hal aparıp, uzax qulaxlarıızdan. O sahatdarı ona dua yazdırıllar, molluya baxdırıllar, iynə vırdırıllar. Qırx gün uşağın üsdünə tüfəh gətirmillər, açılan şey gətirmillər, uşağın üsdünə çiy ət gətirmillər. Ət gətirəndə sivədəmə* şilə kimi səpir, gərəh çölə çıxardıf gətirəsən. Yas yerinnən gələndə uşağın üsdə gəlmirsən. O ölünün qırxı basır uşağı. Elə bil, qaynanan gedif ölü yerinə, evdə də bir on günnüh təzə gəlin var, o gəlini çıxartmalısan çölə, onnan sora o ölü yerinnən gələn girməlidi içəri. Ölünün qırxı basanda uşağı olmur gəlinin. Gərəh gəlini çıxardasan çölə, qaynənə gələ içəri, onnan sora gəlini gətirələr üsdünə. Tüfəh gətirəndə deyillər uşax pis olur, sərsəm olur, havalanır, çığırır, ağlıyır.

Uşağın onu** olur, həmin gün ana ilə körpəni çimizdirib, qüsul verirlər. Elə bil çimizdirirsən, "nəfəs-nifas qusulu verirəm, vacib qurbətən illallah" deyif suyu başınnan tökürsən, sora bı çiyninnən (sağ çiyin – top.), sora bı çiyninnən (sol çiyin – top.). Gəlin təmiz olannan sora uşağı çimizdirirsən. Çimizdirənnən sora uşağı verillər gəlinə, deyillər əmizdir, ta əmizdirə bilərsən. Qırxında da qavaxca gəlini çimizdirillər, sora uşağı. Uşax qırxlı anasını əmə bilməz. Onda pis olur, qırxlı olur. Uşağın onunu tökəndə belə boğazınnan tuturux, çənəsini çəkirih ki, boğazı uzansın, qısa qalmasın.

---

* sivədəmə – başdan-ayağa

** onu – doğumunun onuncu günü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 7. QORXUNU GÖTÜRMƏK

### I mətn

Bir də görürsən uşağ yuxuda səhsənir, qorxuf oyanır. Gətirillər uşağı yatızdırıllar. Yatızdırannan sora bir əliynən ləyəni tutur, bir əliynən də suyu tökür. Bir adam da, – onun sözdəri var, – onu deyə-deyə qayçıynan suyu kəsir ki, bu nədən qorxufdusa uşağın üsdən kəsirəm. Onu hər adam eliyə bilmir. Onu qavaxkı qoca adamlar yaxşı eliyir. Onnan da uşağın qorxuluğu götürülür.

### II mətn

Uşağın qorxuluğunu çıxarmax üçün uşax yatanda başının üsdə bir kasa su qoyullar. Sora yeddi ojax kösövünü o suya salıllar. Uşax diksinif oyanar, qorxuluğu çıxar.

Ya da uşağın qorxuluğunu götürməh üçün başı üsdündə şüşə sındırıf sora ojax kösövünü alnının ortasına, biləhlərinə, dizinin gözdərinə, kürəhlərinə çəkəllər.

### III mətn

Uşax qorxanda çox vaxt uşağı yatızdırardılar, qızım. Sora uşağın yatdığı yasdığın yanına bir kasa da su qoyurdular. Bu kasadakı suyun içinə yeddi közü ojaxdan götürüf, o vaxt ojax qalıyırdılar – peşdən kömürü götürüf bir-bir atırdılar, cızıldıyırdı. Uşax qəflətən səhsənif oyanırdı. Beləlihnən uşağın qorxuluğunu götürərdilər. Uşax bir də qorxmazdı.

### IV mətn

Qorxuluğu götürmək üçün kəfşənnən mal gələndə onun ayağına su çiliyirdilər. Uşağı onun üsdünnən keçirirdilər.

### V mətn

Gecə pis, qorxulu yuxu görəndə bir baş soğanı götürüf dizdiyif uzaxa tulluyuf deyillər: "Ajılığı atıram"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 8. BOĞAZ AĞRISI

Uşaxların boğazı ağrıyanda, nənəm uşağın boğazını ovardı, deyərdi:

Dağlara, daşdara,
Qoyunnara, qoşdara.

Bunu bir neçə dəfə deyif uşağın boğazın ovardı. Qəflətən qorxuzardı. Bunnan da uşağın xəstəliyi gedərdi.

## 9. QURDAĞZI BAĞLAMA

### I mətn

Qurdun ağzını bağlamax üçün oxuyardılar:

Hasarın hasar olsun,
Hasarın günbasar olsun.
Əli hasarını çəksin,
Peyğəmbər möhürünü vursun.
Ona gələn qurd-quşun,
Allah da yolunu kəssin.

### II mətn

Qurd ağzını bağlamax üçün dədə-babadan pıçax götürərdilər, ovsun oxuyardılar:

Ayı gördüm ağladım,
Dəsdinə gül bağladım.
Həzrət Əlinin bıçağıynan,
Fatma nənənin gursağıynan,
Qurdun ağzını bağladım.

Deyif həmən pıçağı yumuf qəlbi bir yerə qoyardılar. O gejə o mala-heyvana qurd-quş dəyməzdi.

### III mətn

Ağzı bağlanmış canavar suyun üsdünnən keşsə, ağzı açılajax, keçməsə yox.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 10. TÜFƏNGİN ÇİLƏYƏ DÜŞMƏSİ

Tüfəngi yerə qoyuf üsdünən keçəndə tüfəng tilsimə düşür. Onu tilsimdən çıxartmax üçün quşdan-zaddan vuruf qanını tüfəngin üsdünə çəkərlər ki, tilsimdən çıxsın.

## 11. DUMANI QOVMA

Dumanı qovmax üçün oxuyardılar:

Duman, qaç-qaç,
Duman qaç-qaç.
Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Səni tutuf asaram,
Ağzına daş basaram.
Duman, qaç-qaç.
Binədən keç-keç.

## 12. YAĞIŞ YAĞDIRMAQ

### I mətn

Quraxlıx zamanında şəhid olannarın, öz malı üsdündə şəhid olannarın baş daşının başından sındırırdılar, ya torpağınnan götürürdülər, gətirib atırdılar axar suya. Onu atannan bir müddət sohra yağış başdıyırdı, nə başdıyırdı. Yağırdı nə bilim, iki gün, üş gün, beş gün yağırdı.

### II mətn

Yağış yağmıyanda gedirdilər Hacı Qaramanda böyük bir mal, cöngə kəsirdilər, orda paylıyırdılar. Onnan sohra yağış yağırdı.

### III mətn

Çox yağış yağanda, gurultulu olanda, onnan sohra dolu-zad olanda Quranı çıxardırdıx çölə, əvin başına hərriyirdik, “Ayətəl kürsü” var, onu oxuyursan, Allah-tala savışdırır, elə bil ki, yavaşıyır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### IV mətn

Mən uşağıdım. Məhlədə də bir neçə nəfərin quyusu olardı. Bu quyunun yanına bir uzunqulax gətdilər. Kadınlar, uşaxlar quyudan suyu çəhdilər, töhdülər vannıya, çəhdilər, töhdülər vannıya. Yekə teşdər olurdu da əvvəllər. Sora bu uzunqulağı başdan-əyağa çimizdirdilər. Bunun mənası oydu ki, yağış yağsın. Həqiqətən də, mənim yadıma düşür ki, o vax əllinci illərdi də, həmən gün yağış yağdı. Uzunqulağı çimizdirənnən sora yağış yağdı.

## 13. YAĞIŞI KƏSDİRMƏK

Ananın ilk uşağı duzu qoyur çörəyin üsdünə, qoyur yağışın qavağına. Deyir:

– Ay Allah, sən bu yağışımızı kəs. Bizə ziyan gətirir də. Çox yağanda ziyan olur bizə.

Hə, o da kəsir.

## 14. GÜNƏŞİ ÇAĞIRMAQ

### I mətn

Günü çağırmax üçün Qodu düzəldərdilər. Taxdadan adam düzəldirdilər. Başına bir dəsmal atıf uşağın əlinə verirdilər. Uşax əlində Qodu evləri gəzərdi. Uşağın əlinə yumurta, konfet, meyvə verərdilər. Uşax da oxuyurdu:

Qodu-qodunu gördünüzmü?
Qoduya salam verdinizmi?
Qodu gedənnən bəri
Heş gün üzü gördünüzmü?

Uşax oxuya-oxuya gəzər, pay tutardı ki, gün açılsın, gün çıxsın.

### II mətn

Günü, günəşi çağırmağ üçün onda hansı uşax anasının ilkiydisə, onun əlinə ojaxdan kösöv, od götürüf verərdilər. Gün axarınnan hardan axırdısa, kösövü günün qavağına tutuf oxuyardı:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağ gün mən səni yandırdım,
Sən də məni yandır.

Bınnan başqa da yağış yağdırmax, gün çıxarmax üçün qurvan kəsərdilər, niyaz paylıyardılar. Niyaz yağlı, süddü çörəhdi. Sajda bişirərdilər. Qıfqırmızı, sajqırağı eliyərdilər. Bına "niyaz" deyirdilər. Bişirdi, dörd bölünürdü, hər ötənə bir pay tutulurdu.

## 15. BƏDNƏZƏR HAQQINDA

### I mətn

Göz o vax dəyir ki, uşağı alıf qucağına harasa gedirsən, gəlirsən, görürsən ki, bu uşağ qavaxkı uşağ dəyil da. Nə yerdə yatır, nə göydə durur. Elə çatdıyır, ağlıyır-ağlıyır. Bilirsən ki, bu uşağa göz dəyif. Göz elə şeydi ki, bu atadan-anadan da keçir. Ananın gözü kənar adamın gözünnən güjdü dəyir uşağa. Onu kəsməh üçün də götürürsən sarımsağın iki-üç quru qabığını, soğanın iki-üç quru qabığını, üzərriyi, duzu, onu yığırsan əlinə, uşağın başına hərriyirsən. Deyirsən:

– Sana qonşudan gəlifsə, qohumnan gəlifsə, mənnən gəlifsə, gözdərini bı ojaxda yandırram, – deyif ojağa atırsan, yanır, çıtaçırt yanır. Əlini onun tüsdüsünə çəkirsən. Onu əlinnən uşağın alnına, boynunun dalına sürtüsən, uşağ sakitdəşif yatır. Üzərriyi yandırıf yekə adamlar boynunun dalına vuranda baş ağrısını kəsir.

### II mətn

Gözü, nəfəsi olan adama gərəh birinci salamı sən verəsən, yoxsa nəzəri almış olarsan. Bizim kəntdə bir kişi vardı. Yaman nəzərriydi. Bulağa suya getmişdim, mən ona salam verincə o maa dedi: "Salam bala, nətərsən?" Uje mən gejikdim. Bərəkət haqqı, gəldim darvazanın ağzında arx vardı, səhəngnən bir yerdə yıxıldım.

Nəzəri kəsməh üçün üzərrik yandırıllar. Üzərriyi dağdan-dərədən yığardıx. Heş vaxdı yandan-yörədən üzərrik yığmazdıx. Yığanda divinə gərəh konfet, qəpih-quruş qoyasan. Deyillər, dağdağandı, üzərihdi, gərəh xoruz səsi eşitmiyə. Baba-nənəmizdən eşitmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**III mətn**

Nəzəri qaytarmax üçün duznan üzərriyi nəzər dəyən adamın başına fırrıyıf yandırıllar və bu sözdəri deyillər:

Üzərriksən, hazarsan,
Hazar dərdə davasan.
Səni yandırıram ki,
Qada-bala qovasan.
Üzərriyim çatdasın,
Yaman gözdər partdasın.
Üzərrik yana-yana,
Tökülüfdü hər yana.
Qohum ola, yad ola,
Nəzəri burda yana.

**IV mətn**

Üzərriyi qıranda dibinə çörəh qoymalısan. Qəntdən, on köpüydən, bir şey qoy, qır. Qoymamış qırma. Üzərrih qan təzyiqinə, ürəh bulanmaya təsir eliyir. Qrip olanda da, yandırıf evin dörtbir tərəfinə hərriyirsən ki, mikroplar yansın.

**V mətn**

Bədnəzəri ləğv eləmək üçün bayquşun döş tüküynən üzərriyi yandırallar, tutallar həmin adama, yaxşı olar

**VI mətn**

Uşağa nəzər dəyif-dəymədiyini bilmək üçün uşağın ətrafına dairəvi pambıx düzəllər, beşih də ortada qalar. Əgər pambığın hamısı yanırsa, deməh nəzəri var. Yox, əgər pambığın hamısı yanmadısa, nəzər dəymiyif.

**VII mətn**

Üzərriyi yandırıf oxuyardılar:

Üzərrih dənə-dənə,
Çəkilsin çəni çənə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qohum olsun, yad olsun
Nəzəri bırda yansın.

Tüsdünü verirdilər, nəzəri kəsərdilər.

Uşağa göz dəyməsin deyə, kömür, pişik tükü, it tükü götürüf, üzərriyin dənəsini də göy parçaya büküb uşağın çiyninnən asırdılar.

**VIII mətn**

Göz dəyəndə kösövnən uşağın alnını ovurdular, əlini, qolunu, onnan sora ora-burasını qaralıyırdılar ki, uşağa göz dəyməsin, o göz qayıtsın.

**IX mətn**

Gözdəyməsin deyə üzərrik yandırıllar. O da belə üzərrik yox ha. Üzərrik hər yerdə olur. Ama gərək qəvirsannıxdan götürülə. Məsələn, sarı torpaxlarda, dikin başında da üzərrik pitir. O üzərriyi ordan qır gətir, yandırgınan, onun xeyri yoxdu, o saa təsir eləməz. Ama qəvirsannıxdan gələn üzərrik ona duz qatırsan, duznan baravar yandırıf fırrıyırsan başa. Qəvirsannıxdan əyər yığırsansa, yığanda onun kökünə, qırdığın yerinə nəzir qoyursan. Pulmu, nəsə bir şirinnik qoyursan, sora onu yığırsan. Onun saa xeyri olsun.

## 16. RUH TUTMA

**I mətn**

Ruf tutma beləydi ki, məsələn, cavan gəlinin üsdünə hüzr yerinnən çıxan adam gəlsəydi, onun rufu tökülürdü üsdünə. O adamın uşağı olmurdu, ya da düşürdü, uşağı qalmırdı. Onu da suynan kəsillər. Elə bil ki, çölə iki quruşkada su qoyullar. Qoyan adam bilir ki, məsələn, bı ölü rufunun suyudu, bı da pişikdən-itdən gələn rufdu. Adam göndərirdilər, gedif o suyu götürüf gəlirdi. Əgər onu ölü rufu tutufdusa, ölü rufunun suyunu gətirirdi, ya bir pişih gəlifdisə, onun rufu tökülüfdüsə, onda o biri suyu gətirərdi. Həmən ruflu adamın başına qara şal atırdılar. Bir ləyəni altdan tuturdular. Onun sözdəri var, deyə-deyə o suyu kəsirdilər. Onnan sora həmən adam uşağa qalır, uşağı olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### II mətn

Ruf tutmax belədir ki, uzun dəmirdi. Dəmirin başı toppuz kimi olurdu. Dəmirin baş tərəfinə ip bağlıyırdılar. O ipi əlində fırradırdı, kənarına da kömür qoyurdu, çörəh qoyurdu, dəmir qoyurdu. Sora da o əliyi fırrada-fırrada açırdı. Açanda dəmir o tərəf-bu tərəfə yellənirdi. Nə bilim, ürəyində bir-bir o ojaxda ölən kim varsa – atasının, anasının, babasının, nənəsinin addarını deyirdi, hansına tərəf gedirdisə, deerdi səni filankəsin rufu tutuf. Sora yeməhlərin addarını deyirdi – dolma, pulov, filan şey. Deerdi səni babaan rufu tutuf, cümə axşamı pulov bişirərsən. Plovu bişirirdilər, onnan da uşağın xəsdəliyi  gedirdi. Ruf tutan adamın axşam tərəfi görürdün halı dəyişirdi, ürəyi bulanırdı, yuxusu pozulurdu, heysiz olurdu. O dəyqə deyirdilər ki, munu kiminsə rufu tutuf. Onun rufunu götürənnən sora düzəlirdi, yaxşı olurdu.

## 17. YAS ADƏTLƏRİ

### I mətn

Ölü öləndə həmmişə evin küncünə baxır. Bilmirəm fikir vermisiz, verməmisiz. Onnarın gözünə mələklər görünür bilmirəm, Əzrayil görünür bilmirəm. Ölən adam həmmişə evin küncünə baxır. Dünyagörüşdü adamlar bilir ki, uje bı adam gedir. Tez yerə gəvə sərillər, döşəh qoyullar, döşəyin üsdünə klonka qoyullar, plastina sərillər, o xəsdəni götürüf qoyullar üsdünə. Üsdünü örtüllər, ağzının qavağına güzgü qoyullar. Səhəri ölünü yumağa aparanda onda ölünün yerinə daş qoyursan. Üş günnən sora o daşı götürüf atırsan. Atırsan ki, bir də bıra ölü düşməsin. Meyid evdən çıxanda ona bir nəlbəki halva çalırsan. O iy ölüynən çıxmalıdı. Halva imam ehsanıdı, ölüyə qalan elə halvadı.

### II mətn

Ölünü yola salanda oğul, qız, qohum onnan qucaxlaşıf yola saldıxlarınnan onnar ruflu olullar. Ruhlu olan adamlar gərəh üç günnən yeddi günə kimi çimsinnər. Onun sözdəri var. Deyirsən: “Bismillahi-rəhmani-rəhim. Mən ölü ruhu tökürəm”. Üş dəfə sağ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çiyinnən, üş dəfə sol çiyinnən, üş dəfə başın üsdən durursan suyun altda, su axır, o sözdəri deyirsən, ölünün ruhu sənnən axıf gedir. O adam çimsə də, o sözdəri deməsə heç vax onnan getmir. Sora o adamın sümüyü ağırraşır, ağır olursan, başın ağrıyır, belin ağrıyır. Deyirsən: "ay Allah, belim sındı". Çünki o ruh onun bədənində qalıf. O, ölən adama da pisdi ki, o, rahat yatmır. Gərəh onu tez eliyəsən. Ölü ölən gejəsi şərayitin oldu eliyəsən, yox, olmadı üç gününə kimi eləməlisən. Üş gününə kimi eləmədin, yeddi gününə kimi eləməlisən. Uje yeddi günnən keşdi, o keçir insanın sümüyünə. Sora o adama heylə fəsatdar törədir, baş ağrısı zad...

**III mətn**

Bir də mən anam rəhmətə gedəndə görmüşəm. Ölən adama ürəyin çox yanırsa, dünyagörüşdü adamlar o qəbirin üsdünnən az miqdarda, elə bil bir çimdih kimi torpax götürür, o əziz adamının kürəyinə torpax atıllar. Torpağı atannan sora elə bil həmən adamın yanğısı azalır. Birəz özündə səbir tapır, ya məsələn deyir ki, filankəsin ölüsü mənimkinnən cavan ölüf, ya mənimkinnən pis ölüf də. Onu heylə-heylə fikirrəşirsən, öza bir təskinlih tapırsan.

**IV mətn**

Anam rəhmətə gedəndə, evimizin bööründə bir balaca çadırdan ona yas yeri düzəltdik. Üç gün orda lampa yandırdıllar. Gecə də, günüz də o lampanı yandırıllar. Azca vam xodda qoyullar, gecə də, günüz də orda yanır. Üş günnən sora onu söndürüllər. Ölünün gözü o evdə qalmasın deyə yandırıllar. Üçüncü günün axşamı həm o yas yeri dağıdılır, həm də o lampa götürülür. O işığ atılmır, işığı atmazdar.

**V mətn**

Meyidi aparanda köhnə çarıx, at nalı, mismar, həylə şeyləri yığıb asırdılar atın boynuna ki, at qəbirsannığa gedəndə bağrı çatdamasın.

**VI mətn**

Yasın üçüncü günü hüzür sahibləri qəbir üsdən gəlirdilər, ona yaxabağlama deyirdilər, yəni yaxanı aşmısan, sinəni cırmısan, özü-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nə müəyyən işgəncələr vermisən. – O da düz dööl. – Yas sahibinin yaxasını seyid, molla düyməliyirdi və yaxut da, deyirdi ki, yaxanı bağla, ta bəsdi. İndi onu eliyən yoxdu.

**VII mətn**

Yasın üçüncü gününnən sora kişilər sakqalın təmizdəməlidi, kadınnar yuyunmalıdı, ölüyə əlini vırsa, küsullanmalıdı. İrax olsun, mən ölüyə əlimi vurdumsa, əlimi vurannan sora ölü küsulu verməliyəm ki, ölənin ruhu dağınık yerdə qalmasın, cəm olsun o qəbirə.

**VIII mətn**

Adına günü evdə lap çay da qoyanda, xörəyə duz da atanda, deyirsən ki, bu ojaxdan gedən ölülərin ruhuna pişirirəm. Duz atanda kadın da təmiz olmalıdı, küsul verməlidi.

## 18. TOY ADƏTLƏRİ

**I mətn**

Üş günnüh deyilən bir şey var idi. İndi gedif prokat götürüllər, onda hamı gəlinə ağdan gəlinnih tihdirirdi, onun örpəyi də olurdu. O örpəyi saxlıyırdılar. Gəlin köçəndə onun örpəyini bir oğlan uşağı qəfil başınnan götürürdü, aparıf bir bar verən ağacın üsdündə onu saxlıyırdı. Gərəh qaynanamı, qaynatamı, ya gəlinin yoldaşımı aparıf o uşağa xələt vereydi ki, örpəyi o uşağdan aleydi.

**II mətn**

Keçmişdə gəlini at belində üzü örtülü gətirərdilər. Elə ki, gəlini düşürdub bəy evinə gətirərdilər, qız-gəlin onun başına yığışardı. Yaşlı qadınlar ona "xoş gəldin" eliyərdilər. O gəlinə deyilən "xoş gəldin" indi də bizim İrəvannı kəndində yaşayır. İndi də gəlini bəy evinə gətirəndə bu sözdəri deyillər:

Gəlin deyər yoxdu atam,
Qoyunu quzuya qatam.
Qaynatandı sənin atan,
Gəlin, xoş gəldin, xoş gəldin,
Bəyə tuş gəldin, tuş gəldin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlin deyər yoxdu anam,
Toxunmuyup, qalıb hanam.
Qaynanadır sənə ana,
Gəlin, xoş gəldin, xoş gəldin
Bizim ellərə tuş gəldin,
Bəyə tuş gəldin, tuş gəldin.

Gəlin deyər yoxdu bacım,
Şirin ağzım olar acı.
Baldızdarın sənə bacı,
Gəlin, gəldin, xoş gəldin,
Bizim ellərə tuş gəldin,
Bəyə tuş gəldin, tuş gəldin.

Gəlin deyər yoxdu qardaşım,
Onunçun ağrıyar başım.
Qaynın olsun sənin qardaşın,
Gəlin, xoş gəldin, xoş gəldin,
Bizim ellərə tuş gəldin
Bəyə tuş gəldin, tuş gəldin

Qızılgülü dəstə tutub dərəllər,
Gəlin, sənin ayağına sərəllər.
Darıxma bu gecə bəyi sənə verəllər,
Gəlin, xoş gəldin, xoş gəldin,
Bizim ellərə tuş gəldin,
Bəyə tuş gəldin, tuş gəldin.

## 19. AXIR ÇƏRŞƏNBƏ

### I mətn

Axır çərşənbədə ağacın dibinə yumurta qoyullar, qara karandaş qoyullar, ya kömür qoyullar, bir də qırmızı qoyullar. Əsas da gül ağacının dibində qoyurdular. Səhər-səhər gedif baxırdın ki, görəh yumurtanın üsdünə qırmızı çəkilif, ya qara. Əgər qırmızı çəkilifsə, bu yaxşıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səmənini də bayramdan on üş gün sora aparıf niyət edib axar suya atmalısan. İndi deyirsən qardaşım əsgərlikdədi, salamat gəlsin, ya filan işim filan olsun, – hərənin bir niyəti var da, – deyib suya atırsan. Bizdə su yoxuydu, gülün dibinə, təmiz ağacın dibinə qoyurdux. Mundar yerə atmazdar, təmiz yerə qoymalısan.

**II mətn**

İlin axır çərşəmbəsi bir-birinin üsdünə su tökərdilər. Su aydınnıxdı, gələn ili aydınnığa çıxsın deyə. Ev sahibləri, bütün qonşu bir-birini isdadırdı. Gələnə qapını açırdılar, suyu tökürdülər başına. Su aydınnıxdı, təmizdihdi. Həm bütün nə xəsdəliyin varsa, dərdin-qəmin varsa bu ildə qalsın, gələn ilə su kimi şəffaf, təmiz çıxasan. Bu mənada qapını açırdılar, torbasına ayın-oyun qoymamış birinci suyu tökürdülər təpəsinə.

**III mətn**

Təhdə* yumurtanı qoyurdular böyürtkənin altına, boyatı çağırırdılar:

Boz at gəlir yenişdən,
Tərki dolu yemişdən.
Allah saa qismət eləsin,
O gələn yemişdən.

Həmən təh gejəsində arvatdar boyatı çağırırdı, üzüh salırdılar suya, deyirdilər:

Otumuşam Bakıda,
Ürəyim səksəkidə.
Maa bir gül dərdi,
Qızılgül nəlbəkidə.

**IV mətn**

Çərşənbə qourğasınnan, sajda birinci qourulan qourqadan götürüf bir balda bağlıyıf saxleyırsan. Yağış yağanda, dolu gələndə o buğdadan götürüf bir çimdik atırdın qabağına. O, deməli ilin ruzusudu, bərəkətidi. Onu atırdıx qavağna ki, yağış onnan souşajax, bəla souşajax.

---

* Təh – axır çərşənbə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### V mətn

Bərdə rayonunun Seyid Yusifli kəndində axır çərşənbədə vaxtilə belə bir adət olub. Axır çərşənbəyə üç gün qalmış hər evdən bir nəfər seçilər və hər gün on evi gəzərdilər. Bununla əlaqədar gedəcəkləri evlərə bir gün qabaqcadan xəbər verər, ev sahibləri də hazırlıqlarını görərdilər. Hər evdə təxminən on beş-iyirmi kiloqram düyü dəmlənirdi. Üç gün bu şəkildə evləri gəzir, hər evdə bişirilən bayram aşından dadardılar. Həmin məclislərdə hamı bir-biriynən hal-əhval tutar, bir-birinin süfrəsində oturub çörəyini kəsərdi. Sonralar nəsə xoşagəlməz bir hadisə olub, ondan sonra o adət də yığışdırılıb.

## 20. İLAN TUTAN SEYİDLƏR

### I mətn

Qumlaxda Sofu Usuf vardı, Allah rəhmət eləsin. O duradı çağırardı, ilan çıxıf gələrdi yanına. Sinəsini də açırdı, ilan gəlif girdi onun qoynuna. Onun barmaxlarının başının hamısı belə idi. Oğlannarının da uşağı olmadı. Çünki ona ilan qarğış eləmişdi. Cavan vaxdı iki sevgilini bir-birinnən ayırıf. Rəhmətdihlər bir-biriynən söhbət eliyəndə eşitdim. Onda mənim olardı on bir yaşım. Çağırıflar ki, baba, gəl bizim evdə ilan var. Bu da gedif görüfdü ki, biri ağ ilandı, biri qara ilan, sarılıf bir-birinə. Burda bunun qəzəbi tutur ilana. İlanı tutuf bir-birinnən ayırıf. Birini atıf yan təpəyə, birini də, – o eşşəhnən gəlif gedirdi, – aparıf Qumlaxda atıf gəyənə. Onnan sora ilan ona qarğış eliyif. Özü də bilirdi. Özü deyirdi ki, onda ilan maa qarğış elədi ki, bizi niyə ayırdın.

Gəlirdi qapıda dururdu, çağırırdı, ilan gəlirdi. Yappa papağı vardı quzu dərisinnən. Qoyurdu yerə, duasını oxuyuf ilanı çağırırdı. İlan girirdi papağa, qıvrılırdı, götürüf atırdı qoynuna. Heylə mən gözümnən şahidi olmuşam.

### II mətn

Gözümnən görmüşəm, ovsunçu gəlip, onda mən Gülşən kimiydim (yanındakı qonşu uşağı göstərir – top.), gəlip iysiliyip (söyləyici nəfəsini içəri çəkən kimi edir – top.) deyip: "Burda ilan var – evdə".



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nənəm deyip ki, gir. Paltarını-zadını soyundu. Ayıb olmasın, nənəmin yekə bir şalı varıdı, büründü, yəni bədənində heszad yoxdu dana. Getdi girdi içəri. Çağırdı:

Şahmarsan, gəl,
Yelmarsan, gəl.
Gəl, Süleyman peyğəmbərin
Möhürünə gəl.

Gördüm kişi belə doluxsundu. Taxçada buğda varıdı, dolu. Girdi pəyiyə, çağırdı. Nəğədə çağırannan sora ilan şapbıltıynan düşdü buğdanın üsdünə. Götdü belə puf elədi, götdü əlinə, qayıtdı kı, yumurtanın üsdündeymiş e, onüçün gej gəldi, yumurtduyurmuş. Dedi:

– Bax, burdan (buğdanın ilan düşən yerindən – top.) maa hax ver.

Birdən ilan zəhərini-zadını töküb eliyər daa. Nənəm də gəldi ləənnən xeylax götdü, buna buğda verdi. Həə, onnan sora geyindi, ilanı da torbuya saldı, götdü getdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# III
# İNAMLAR

## 1. CİN DƏYİŞƏYİ

Görürsən birinin uşağı var. Deyillər uşağı yiyəsiz qoyma, cin dəyişər. Mən, genə bağışdayın, üzr isdiyirəm, bu uşax olannan sora durdum, anam tək idi da, özüm nağarırdımsa, qayıtdım gəldim girdim içəri. Dedim:

– Ay nənə, bu qız niyə belədi?

Dedi:

– Nədi ki?

Gəldih baxdıx, gördüh ki, uşax həmən uşax dəyil. Bax, and olsun Allahın adına, ölənnərimizin goru hakqı, burun varıdı noxutdan balaca, gözdər varıdı adicə sərçə gözü, ağız pis, sifət pis. Nə qədər eliyirdim, uşağa səmt dura bilmirdim. Bir ay o uşağ heylə oldu.

Bir aydan sora zapravşik Məhəmməd nəvəsinə sünnət edirdi. Nənəm dedi ki, bala, Suqragil gələjəh ora. Nənəm getdi dedi ki, ay Suqra, bəs belə-belə da, Məhəmmədin qızı belə oluf.

Deyif:

– Yiyəsiz qoymusunuzmu?

Deyif:

– Hə.

Deyif:

– Cin dəyişif. Yaxşı olajax. Bir havrdan olajax həmən uşax.

Ağlıyırdı, yasdığı qoyurdum ağzının üsdə ki, gəlim görüm ölüf. Görürdüm yox, ölmüyüf. İki saatda dörd putulka südü əmirdi, genə səsini kəsmirdi. Axşam çağı idi. Gördüm ağlıyır. Nənəm deyir:

– Bala, Allaha ağır gedər, get genə putulkanı doldur, qoy ağzına.

Getdim, gəldim dedim:

– Nənə, gəl içəri.

Baxdıx ki, uşax elə bil atkritkadı. İndi həmən qızım balalarımın hamısınnan qəşəhdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 2. PİŞİKLƏ BAĞLI İNAMLAR

### I mətn

Bizim elatda bir qadın vardı. Bınnarın yeddi ildi uşağları olmurdu. Qadın işdə oluf. Bir pişik girif bınnarın evində doğuf. Yoldaşı evdə oluf. Pişiyin balalarını yığıf karofkaya, gətirif. Kişi yazıx-yazıx qayıtdı ki, bizim fərəsətimiz yoxdu uşağımız ola, gəlif evimizdə balalıyıf. Dedim, yox, heylə demə. Gör gələn il bı vaxta qədər sənin uşağın olajax, olmuyajax. Heç iki ay çəhmədi gəlin işə gedəndə yolda yıxıldı. Həkim dedi ki, uşağı var. İndi bir qızı oluf.

### II mətn

Pişih elə bir heyvandı ki, gərəh evə özü girə. Bizim bir qonşu oluf, çox ağır xəsdə oluf. Onun yoldaşı o qonşuya girirdi ağlıyırdı, bu qonşuya girirdi ağlıyırdı, harda olsa ağlıyırdı ki, kişi öləjəh, dul qalajam. Bir gejə görüllər ki, bir qara pişih gəldi xəsdənin qıravatının altında yatdı. Üç gün o pişiyi neyniyiflər, yerinnən tərpənmiyif. Kişi də elə bil böyünə-səhərə öləsiydi də. Üçüncü günü qapı açılanda pişih çıxıf gedif. Elə bil o qadasını-balasını pişih götürdü getdi. Onnan sora kişi əyağa durdu, yeddi-səkgiz il yaşadı. Pişih evin ağırrığını özüynən aparır.

### III mətn

Təzə evə birinci pişik buraxallar ki, evi-binəni gəzsin, nəzəri götürsün.

### IV mətn

Bizm evə pişih gələndə səhərisi gün ölürdü. Bir gün atam getdi Güləbürd kəndində seyid vardı, onun yanına. Ona baxdırmışdı. Demişdi ki, sizin eviniz ojax yeridi, pişihdə peyğəmbər tükü var. Onun da ikisi bir yerə düşmür. Nə vaxt gətirsəniz o pişih öləjəhdi. Evə gətirmiyin, tay da o qan-qarğışdı. Biz onnan sora bir də evimizə pişih gətirmədik. Yeddi dəfə gətirdih, yeddisində də öldü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 3. CANAVAR HAQQINDA

Ən qəddar heyvan canavardı. Canavar çox xayin heyvandı. Bax, itnən canavarın tafotu ondadı kı, it iy bilir, canavar bilmir. Canavar iy bilsə, heş bir heyvan qalmaz, hamısını qırar. Deməli, iydən bilər ki, orda bir heyvan var də, amma onu bilmir, gedir onun böyründən ötüf gedir, iy bilmir də. Bizlərdə Şahbılağı dağı var. Canavar orda balalamışımış. Aşağıdan da yol gedir dağa, qoyun sürüsü gedir də. Canavarın balası deyir:

– Ana, olar heylə çoxdular, biz niyə çox döyülük.

Deyir:

– Biz o qədir paxılıx kı, biz artmarıx.

Görürsən, canavar bir sürünün içinə düşəndə birini götürmür, başdıyır hamısını qırmağa.

## 4. İLAN HAQQINDA

### I mətn

…Dam deyilən yerrəri vardı. Bir gün ora bir ilan gəlir. Qadın toyuğu kürt basdırır. Toyuğu səhər-səhər bıraxır ki, getsin, bir az dənnənsin, gəlsin. Gəlir evə, görür ki, toyuğun yumurtasının üsdündə ilan kövələnib yatıfdı. Arvad gəlir evə, yoldaşına deyir ki, – onun da gözdəri tutulu olur, ancax kişi dünyagir adam olur, – bə toyuğu rahlamışam, ilan gəlif yumurtanın üsdündə yatıfdı. Mən ona neynim ki, ilan çıxıf getsin? Deyir ki, get ilana deynən ki, səni and verirəm bu duza, bu çörəyə, çörəh-duz qoy qavağına. İlan onun üsdünnən çıxıf gedəjək, sana dəymiyəjək. O toyux özü gəlif öz yumurtasının üsdündə yatajeh. Arvad gedir qapının ağzında durur dua deyir, ilan sivrilif gəlif, qapıdan çıxıf gedir. Toyux gəlif yumurtasının üsdündə yatır.

### II mətn

İlan ıldız görməsə ölməz. İlanı yerə basdırıllar, quyruğunu torpaxdan üsdə saxlıyıllar. Gecə quyruğu ıldızı görür, sora tamam ölür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyillər ekiz uşağa qalan qadın iki ilanın arasınnan keşsə, onun əli şəfalı olar. Mənim anamın iki ekiz uşağı oluf. Uşax boyunda olan vaxtı görüf ki, iki ilan dalaşır. İlanları ayırıf ortasınnan keçif. Odur ki, anamın əli şəfalıydı. Əlini kimin boğazına basırdısa, onun boğazı qayıdırdı.

### III mətn

Danışırdılar ki, əgər bir insan qızıl taparsa, onu mundarramalıdı ki, o qızıl ona qismət olsun. Bını bizə söhpət eliyiplər, deyiplər. Rəhmətdih İmleyla bibimdən də mən onu eşitmişəm. Adam var ki, sevincinnən onu qucaxlıyır, amma o pay ona qismət olmur ha. Bıllar həqiqətdi. O ilanın da qızıl ətrafında olmasının genə də deyir bir hökmü var. İlan, deyir, xəzinəni sevəndi. Onu da genə rəhmətdih İmleyla bibim deyirdi ki, o yerdə ki, ilannar bol yatıllar, orda mütlək yatar var. O sirrəri biz aça bilmərih.

## 5. BƏYQUŞ HAQQINDA

### I mətn

Biz hamımız bəyquşu bəduğur heyvan kimi tanıyırıx da. Amma bəyquş bəduğur döyül. Bəyquş İmam Hüseyn qətlə yetirilincə insanın süfrəsinin qırağında oturarmuş, insannan çörəh yeyirmiş. Elə ki, insannarda vəfasızlığı gördü ki, İmam Hüseyni qətlə yetirdilər, onnan sora bəyquş çəkildi. Bütün günü İmam Hüseyn üçün ağlıyır.

Bir dəfə yataxda getdih gördüh ki, – bəyquş iki dənə yumurta qoyar, – gördüm ki, biri yatıf yumurtanın üsdündə, biri də zarıyır. Gündüzdər İmam Hüseyn üçün ağlıyır, gejələr də düşür ruzusunun dalına. Amma biz bəduğur heyvan hesab eliyirih. Onnan uğurlu heyvan yoxdu.

### II mətn

Süleyman peyğəmbər şahlarnan ova gedəndə görür ki, bir bayquş orda danışır. Süleyman peyğəmbər ayağ saxlıyır buna cavab verir. Bu paççah Süleyman peyğəmbərə deyir ki, nə deyir o, nə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

danışırsan onnan? Deyir ki, vallah, harda abad yer görürəm, kənd görürəm, oranı qarğıyıram ki, xarabalığ olsun. Bu bayquşun cinsi xarabalıxda qalmağdı.

İlan üstünə gəlsə, Süleyman peyğəmbərin adını çəksən, ilan orda qıvrılıb qalar. Süleyman peyğəmbərin adını çəksən, üsdünə ayı gəlsə, o da qayıtmalıdı, canavar gəlsə, o da qayıtmalıdı. Allah-tala Süleyman peyğəmbəri yaradanda bütün insin-cinsin hamısının dilini ona verib.

**III mətn**

Bayquşu çörəynən, duznan, bir də Süleyman peyğəmbərin adıynan qovmax olar. Olar şər vaxdı çıxar, günbatannan sora. Duz-çörəh götür, çıx qabağına, and ver duza-çörəyə ki, çıx get.

## 6. SAĞSAĞAN HAQQINDA

Saxsağan xəvər verir. Gəlir evin qarşısında evə yaxın bir ağacın budağına qonur, başdıyır qırıldamağa. Əyər sən saxsağana deyirsən ki, saxsağan, mənim istədiyim adam gəlsin, sənin ət payını verəjəm, bəlkə də o munu hiss eliyir. Elə olurdu üst-üstə tüşürdü, istədiyin adam gəlirdi. Saxsağan genə gəlirdi, məsələn, toyux kəsirsənsə, toyuğun o içərisini atırsan, həqqi də aparır. Gəlirdi Tamaşa nənəmgilin tut ağaşlarına qonurdu. Deyirdilər:

– Saxsağan, saxsağan, xeyir xəbər. – Qızı Bənövşə Gəncədə olurdu. – Bənövşə gəlsin, qoyunun bağırsaxlarını atajam sana.

Axşam çağı olan kimi baxırdın istədiyin adam gəldi. Heylə bir deyim varıydı, deyirdilər: "Saxsağan kimi xəbər gətdin ha". Saxsağan xəbər quşudu. Bax, adicə qara qarqa yoxdu, qara qarqa o qapıya gələndə qırıldıyanda onu daşdıyıp qavırdılar ki, uje bı bəd xəbərə gəlipdi. Bayquş da xeyir xəbər gətirmir. Hansı qapıya gəlirdi, başdıyırdı bannamağa. Bax, onu daşdıyıp qavırdılar ki, pisdi. O hansı qapıya təkraran gəlip bannasa, deməh o evə yas düşəjəh, ölü öləjəh.

## 7. ÇİNAR AĞACI

Cinar ağacı müqəddəs ağaşdı ki, üş yüz il yaşıyır. Ən uzun ömürrü ağaşdı. Onu kəsməh günahdı. Ona görə deyillər ki, çinar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ojaxdı. Bax, bizdə bir nəfər oluf, bu meşədəki çinarrarın çoxunun kökünü o kəsifdi. Axırda da yıxıldı, beli-buxunu hamısı qırıldı, elə kəstilnən zulum çəkdi. Həmən çinar öz-özünə yanır. Baxırsan ki, öz-özünə qafqara kömür olur gedir. Çinar ağacının divində züryət olmaz. Mənim dayılarımın bircəciyinin qapısında yoxuydu, bir qızı oldu. Beşinin də qapısında çinar vardı, beşi də helə, sonsuz öldü.

## 8. ÇÖRƏK HAQQINDA

### I mətn

Qavaxca gərəh çörəyi itə atasan. Birinci çörəyi uşaxlara vermək olmaz. İlk arvadı ölər. Deyilənə görə, təndirdən çıxan çörək var ey, onun iyi o qədər xoş olur ki, adi həyətdə pitən güllər var ey, güllər ona boyun əyir. O qədər təravətdi olur ki, güllər çörəyin iyi gələn səmtə əyilir. Çörəyi təndirdən çıxardıf qutaranda axırda koğanı hərriyirsən təndirin içində közün başına, deyirsən ki, cinnərə, fəriştələrə pay götürürəm. Cin, şəyitin, fəriştələr çörəyin iyinə, təndirin başına toplaşır də. Onda deyirsən ki, alın çörək kəsin.

### II mətn

Çörəyi təhnəyə cüt qoyullar. Deyillər: "Mənnən hərəkət, canım saa qurvan, ay Allah, sənnən də bərəkət".

## 9. RƏQƏMLƏ BAĞLI İNAM

Toyux basdıranda yumurtaları altına təh-təh yığırdılar: ya on bir, ya on üç, ya on beş. Təh rəqəmin həmişə müqəddəs biliblər. Tək olmağı yaxşıdı də. Allahın adı da təhdi. Özü də qoyanda deyirdik ki, mənim öz əlimlə yox, Fatma ananın əliynən qoyuram. "Pismillah" – deyirdi, yığırdı toyuğun altına. Biri də lax olmurdu, hamısı çıxırdı.

## 10. AĞACI QORXUTMAQ

Rəhmətlih İslam babamgilin yekə armut ağaşları varıydı, amma meyvə vermirdi, yekə ağacıydı. Rəhmətdik Fizzə nənəm deyirdi: "Ay kişi, dur baltanı götür, gedəh ağacın divinə. Sən deynən bı ağacı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bı saat kəsəjəm, mən də deyəjəm a kişi, sən Allah, kəsmə, gələn il yəqin bar verəjəh, kəsmə". Həqqətən, hədələdi, gələn il bar verdi. Bax, Quran haqqı. Bir də gilas ağaşdarı vardı, o da heylə gej bar verirdi. Heylə elədilər, qorxuzdular ağacı, ağaş bar verdi.

## 11. TƏZƏ DOĞULAN UŞAQ HAQQINDA

### I mətn

Uşax dünyaya gələndə oğlan uşağının böyrünə puçax qoyallar, xənçər qoyallar ki, iyid olsun, vuran-tutan olsun, qoçu olsun. Qızın da böyrünə qayçı, iynə, sap qoyallar ki, evdar olsun, götürən-qoyan olsun.

### II mətn

Afşarrarın bir xəsiyyəti var. Uşax ki, gəldi dünyaya, onu yeddi qapıya gəzdirməlidilər, bir günnüh çağanı gejə də olsa, qucağında dayna.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# IV
# YASAQLAR

1. Çörəh pişirirdih, birincisini kəsmirdih ki, aaz, birincini kəsmiyin, birinci çörəh kəsiləndə adamın əri ölür. İkinci, üçüncü çıxanda kəsilirdi. Küt gedirdi, getmiyəndə də birini kəsirdih, itə, pişiyə verirdih.

2. Evdən axşamçağı olanda qatıx verməə, süd verməə, urzan gedir. Onnan sorasına axşamçağı hayatdan su aparmazdar, bərəkətin gedir. Un aldın, gətdin, ilkini verməzsən, urzuyun ilkini heş kəsə verməzsən.

3. Axşamüsdü kiminsə suyu yoxdu, gəlib məhlələrdən su aparır, o, günahdı. O, sağlamlıx aparır. Məjbur olanda, suyu gərəh tökəsən yerə, həyətinə həmən adamın. Həyətinnən su apardığın adamın bərəkətini aparma.

4. Axşam damazdıx verməzdər, xamıra verməzdər, duzdu, çaydı, qətdi, əsas qətdi, onnan sora qatıxdı, süddü, bınnarı çıxartmax olmaz.

5. İl başında lap çox pay verməh lazımdı. Allah-tala o gejə ruzu verir.

6. Axşam qara yaylıx qatdamıllar, dırnax tutmullar, beli bir-birinə yaxın, ikisini-üçünü bir yerə qoymullar. Nənəm deyərdi, uşağıdıx, az, o beli ordan götürün, ayrı-ayrı qoyun, guya, uzağ olsun, adam ölər.

7. Dırnağı da tutanda gərəh yerə basdırasan. O dünyada sorğu-sual alanda qavaxcan soruşajaxlar dırnağı tutuf neynəmisən?

8. Başın tükünü tullamazdar, büküf bir yerə qoyursan.

9. Yerə qaynar su atanda deyillər "pismillah, pismillah, pismillah". Mənim kimisi yerə su töküf, sərişdələrin balaları yanıfdı. Deyir, sən balamı yandırmısan, balamın ilini ver, sənnən əl çəkim, ehsan ver mənim balamın adına, sənnən əl çəkim.

10. Ölü öləndə birinci halva çalıf verəsən gərəh, yuxaynan halva verillər, ona "ağız ajılığı" deyillər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

11. İncil ağacı beş barmaxdı, onu kəsməh günahdı. Onun dalında bir gəlinmi, qızmı gizdənifdi. İncilin yarpağını say, beş barmaxdı. Deyir, ona putalanıfdı, onda gizdənif, onu kəsməh günahdı. Düşmanı varmış, əri döyübmüşsə, bilmirəm, nəyə görasa onu söhbət elədi yas yerində. Ojax deyillər.

12. Nənəm deyərdi, nəhlət şərə, qapılar gərəh qış-yay açıx olsun. Şər vaxdı gərəh qapını açaydın, nəhlət şərə. Urza paylıyır məleykələr şər vaxdı, axşamçağı.

13. Kosalar üş cürdü. Bir xeyrə bannıyan kosalar, bir şərə bannıyan kosalar, bir də var elə-belə orta kosalar.

14. Bax, dağdağan, incir, zoğal, tut – bu yeddi ağacı kəsməh günahdı. Məcbur oluf kəssən, yerinə çörəh qoyasan. Deyillər inciri yandırmazlar. İnciri kişi xeylağı kəsməz, qadın kəsməlidi.

15. Zahı arvadı haldan qorumax üçün cızığa salırdılar. Qəzil çatını cızıxlıyırdılar, ordan bəri heç kim keçmirdi, bircə zahı keçirdi. Üş gün onun qabını yumurdular. Yeyirdi, əli bılaşıxlı üsdünü örtürdülər, qalırdı orda. Cin-zad onun qabına dəyməsin deyə.

16. Deyillər ki, şər vaxdı qapı ağzında oturmazdar, çünki cinnərin əl-ayağa dolaşan vaxdarıdı.

17. Bir də  ki, çayı istəkana yarımçıq töhməzdər. Cinnər ora ayağını sallıyıllar.

18. Gecə bağa təh girməzdər, lənətullahlar bağda gəzir.

19. Axşamüstü saat beş-altıda yatmazdar, heyvanın gələn vaxtıdı. Onda insana ağırrıx gəlir.

20. Məhsul bol olsun deyə bostanın ilkinə qayğanax bişirillər.

21. Paltarını çıxardırsan, onu oandına çıxart. Tərsinə çıxardan kimi gəlif sənə qarğış eliyir, çöyürür oandına geyir paltarını həmin cinnər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# V
# NAĞILLAR

## 1. ON İKİ QARDAŞIN NAĞILI

Biri varıdı, biri yoxudu, bir patşah varıdı. Bu padşahın on iki oğlu varıdı. Bu patşahın on iki oğlunun böyüyü Məlik Məmməd, o biri Məlik Əhməd, Məlik Cümşüd və kiçik oğlunun adı isə Kamalı Sahip idi. Bu patşahın oğlannarının heç biri evlənməmişdi. Günnərin bir günündə Kamalı Sahip dedi:

– Qardaşdar, bu atamız nə fikirləşir? Bizi evləndirmək firkində yoxdurmu?

Dedilər:

– Niyə evləndirmir ki? Atamız bizi nə vaxt evləndirsə, onda da evlənərik.

Kamalı Sahip dedi:

– Xeyir, elə deyil. Hərə öz yaşına görə bir qarpız alıp göndərməlidi.

Kamalı Sahibin dediyi kimi, on iki qardaş hərəsi öz yaşına uyğun bir qarpızı qoydular xonçuya, göndərdilər patşaha. Patşah, vəzir, vəkil oturmuşdu. Gördülər ki, qulluxçular budu, on iki dənə xonça gətdi. Aşdılar, gördülər on iki qarpızdı. Patşah dedi:

– Vəzir, vəkil, indi biz neyniyəcəyik? Bı qarpızın çox olsa birisini, ikisini yeyəsiyik, bəs qalanını neyniyəsiyih?

Vəzir dedi:

– Şah sağ olsun, bınnar sənin oğlannarındı. Oğlannarın evlənmək isdiyir.

– Gətirin qarpızları kəsəh.

Böyük oğlun qarpızını kəsdilər. Gördülər ki, qarpızın yeməlisi qalmayıb, içi hamısı tökülüpdü. Dedi:

– Bı sənin böyük oğlundu, onun evlənmək vaxtı çoxdan keçipdi.

İkinci oğlu belə, üçüncü oğlu belə, bir sözlə on bir qarpızı kəsdilər, gördülər yeməli dəyil, hamısının vaxtı çoxdan keçipdi. Kamalı Sahibin qarpızını kəsəndə gördülər əsl vaxtıdı. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bax, əsil vaxtıdı, evlənməli vaxtıdı, Kamalı Sahibindi.

Belə olanda patşah böyük oğlunı çağırıp dedi:

– Oğlum, get hazırraş, üç günnən sora vəzirin qızını sənə alacam.

Bəli, böyük qardaş gəldi. Kamalı Sahip xəbər aldı:

– Qardaş, nə oldu?

– Atam mənə dedi get hazırraş, üç günnən sora vəzirin qızını səə alacam.

Kamalı Sahip dedi:

– Yox qardaş, elə şey ola bilməz. Mən gedip atama diyəcəm. Ya biz on iki bacını almalıyıx, ya da heç birimiz evlənmiyəciyih.

Bəli, Kamalı Sahip gəldi atasının yanına. Baş əyib ədəb-ərkanla ona dedi:

– Ey mehriban ata, on iki oğul sənə verən Allah əlbət ki, bir nəfərə də on iki qız veripdi. Biz on iki qardaş gedip on iki bacını almalıyıq. Belə olduqda biz evlənəsiyih, olmadıxda isə biz daha evlənmiyəciyih. Ömrümüzün axırına qədər subay qalacıyıx.

Patşahın çarəsi qırıldı, dedi:

– Yaxşı, oğul. Onda gedin səfərə hazırraşın, on iki bacını tapın.

Belə olduqda Kamalı Sahip gəlip böyüh qardaşına dedi:

– Qardaş, gedirsən atama deyirsən ki, hər qardaşın adına on iki üzüh düzəltdirsin zərgərə.

Bəli, böyüh qardaş gəlir patşaha deyir ki, ata, bizim hərəmizin adına on iki üzüh düzəltdirginən. Şah da qaldı məətdəl ki, axı bir üzüh lazımdı, on ikisini neyniyirsən?

Dedi:

– Bilmirəm, Kamalı Sahibin əmri belədi.

Patşah Kamalı Sahibin xətrini çox isdiyirdi. Ona görə də hər qardaşın adına on iki üzüh düzəltdirir. Bınnar səfər tədarükü görüp yola düşüllər. Bir müddət gələnnən sora Kamalı Sahip dedi:

– Qardaşdar, indi üzühləri gətirin bura.

Dedilər:

– Qardaş, biz bir nəfərih, bı on iki üzüh nəyə lazımdı?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, elə dəyil. İndi mən hər qardaşa bir üzüyü paylıyacam. Siz də hərəniz bir üzüh mənə verərsiz. Ola bilər ki, biz gedərih on iki bacını taparıx, birimiz gedər tapar. Onda hər kəs öz yaşına görə, yəni böyüh qardaş böyüh bacını, onnan kiçiyi onu, ən axırda xırda qız da mənim, Kamalı Sahibin olması şərtilə nişannanarıx.

Bəli, qardaşdar üzühləri bölüşdülər. Hər qardaşın hər qardaşda üzüyü oldu. Beləlihnən, yola düşdülər. Yola düşəndə Kamalı Sahip dedi:

– Qardaşdar, biz gedirih, indi bı gecə harda düşərgə salsax, yatsax, böyüh qardaş orda qaravul çəkəcək.

Razılaşdılar. Getdilər, birinci böyüh qardaş qaroul çəkdi. Beləlihnən on bir gecə yol getdilər, on ikinci gecə Kamalı Sahibə çatdı nööbə. Onu da deyim ki, o vaxtları belə şərt kəsmişdilər ki, kim olursa-olsun, öz yatan qardaşdarını oyatmamalıdı. Özü təkbaşına o işi görməlidi. Nööbə gəlip çatdı Kamalı Sahibə. Kamalı Sahip sübh vaxtı dedi:

– Durum ocax qalıyım, qardaşdarıma yeməh hazırrıyım ki, duranda yesinnər.

Durdu gördü ki, kibriti yoxdu. O biri qardaşdarını oyatmadı. Gördü uzaxdan bir işıx gəlir. Atı minip getdi ora. Gedən kimi orda gördü bir qarı var, divin anasıdı. Dedi:

– Kamalı Sahip, mən səni çoxdan gözdüyürdüm. Sən yaxşı ki, gəldin.

Dedi:

– Sən məni hardan tanıyırsan?

Dedi:

– Mən səni çoxdan bilirdim. Tilsimlərə baxmışdım ki, Çin patşahının on iki qızı var. Ancax onnarı sən gətirəssən. Mənim yeddi oğlum var. Neçə ildi düşüplər onnarın eşqinə, heş cür gətirə bilmirlər. Gecə-gündüz çöldədilər.

Qarı bınnarı deyəndə bı vaxtı devin uşaxları gəldi. Gələn kimi devlərin anası bı Kamalı Sahibi iynə eliyip taxdı yaxasına. Devlər gəldi. Dedilər:

– Adam-badam iysi gəlir, yağlı badam iysi gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Çöllərdə o qədər gəzmisiz ki, adam iysi burnunuzdan çəkilməyip. Olseydi, özüm acınnan ölürəm, yeyərdim.

Dedilər:

– Yox, vallah, ana, bırdan adam iyi gəlir.

Dedi:

– Yaxşı fikirrəşin, adam iysi-zadı yoxdu bırda. Baxın, evdə adam varsa, deyin.

Sora bı oğlannarını başına yığıp başdadı danışmağa. Dedi:

– Oğlum, mən vaxtilə bəni-adama getmişdim. Onnan mənim bir oğlum olmuşdu. İndi o gəlip çıxıb bura. Deyin görüm, ona bir şey eliyərsiz?

And içdilər ki, ana, sənin südün bizə haram olsun ki, biz ona – qardaşımıza heç bir şey eləmərik. Onda qarı durdu Kamalı Sahibi genə Kamalı Sahip elədi. Bınnar başdadı Kamalı Sahibi o qədər öpdülər ki, o qədər sıxdılar ki, axırı devlərin anası dedi:

– Oğul o, bəni-insandı. O, sizin quvvanıza tab gətirməz.

Dedi:

– Bı gedip o qızdarı alıp gətirəcəh.

Belə olanda dedilər:

– Gedəh.

Dedi:

– Yox, qarı nənə, mənim atımı, on bir qardaşımı, on bir atı, ordakı əşyaların hamısını tilsimə sal, daş elə, sora mən gedim. Mənim qardaşdarım oyanıp məni axtaracaxlar, tapbazdar.

Bəli. Devlərin anası Kamalı Sahibin atını, on bir qardaşı da olduxları yerdə tilsimə saldı. Devlər gedəndə Kamalı Sahip güldü. Dedi:

– Niyə gülürsən?

Dedi:

– Olar devdi, getdilər, mən nə bilim ollar hara getdi.

Belə olduxda devin anası böyük oğlunu çağırdı, Kamalı Sahibi mindirdi onun belinə. Bınnar gəlip Çin patşahının torpağına yetişdilər. Çin patşahının torpağına yetişəndə bir hasara iras gəldi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lər. Dedilər ki, bəs bı qızdar bı hasarın içindədi. Qızdar hasarın içindədi deyəndə Kamalı Sahip dedi:

– Məni qaldırın, divarın üsdünnən baxım, sora.

Kamalı Sahibi çıxartdılar divarın üsdünə. Divarın üsdündə dayandı. Böyüh qardaşa dedi ki, gəl. Böyüh qardaş gələn kimi qılıncnan başını vurdu, bədəninnən elədi, saldı hasarın o üzünə. Beləlihnən yeddi qardaşın yeddisini də cəhənnəmə vasil elədi. Sora düşüp devlərin burnunu, qulağını kəsib bir dəsmala yığıb bağladı böyrünə. Getdi gəzdi, gördü, doğrudan da, on iki qızdı. On ikisi də yatıpdı. Böyüh qardaşın üzüyünü böyüh bacıya, kiçih qardaşın üzüyünü kiçih bacının barmağına taxdı. Beləlihnən, on bir bacının üzüyünü taxannan sora gəldi ən kiçih qızın yanına. Gördü bı kiçih qız o qədər gözəldi ki, ta mümkün dəyil baxmax bına. Gətdi üzüyü bı qızın da barmağına salannan sora qızın o üz bu üzünnən öpüş alıp, çıxdı gəldi.

Kamalı Sahip gəlməhdə olsun, sizə deyim Çin patşahınnan. Çin patşah durdu gördü ki, bunun düşmənnəri ki, yeddi qardaş devdi, hamısının leşi divarın divində. Car çəkdi ki, kim bı devləri öldürüp, gəlsin nə isdəsə verəcəm ona. Bı tərəfdə də qızdar səsə oyandı. Qızın biri durup barmağına baxdı. Böyüh bacı dedi ki, bəs nişannanmışam. Mənim nişannımın adı Məlik Cümşütdü. İkinci durdu ki, mənimki Məlik Əhmətdi. Beləlihnən gəldi kiçik qıza. Kiçik qıza gələndə kiçik qız dedi:

– Mənim də nişannımın adı Kamalı Sahipdi.

Belə deyəndə qızdar güldü. Dedi:

– Nəyə gülürsüz?

Dedi:

– Get güzgüdə bax, sora.

Getdi güzgüyə baxanda gördü üzündə ləkə var. Kamalı Sahip qızı öpəndə qızın üzündə ləkə qalıp. Dedi:

– Ey Kamalı Sahip, on iki bacının içində ki məni xar eləmisən, on iki qardaşın içində səni mən xar eliyəcəm.

Hər kəs ki gəldi bını mən eləmişəm, sübut olmadı. Bınnar bırda qalsın, sana deyim Kamalı Sahipdən. Kamalı Sahip Çin patşahının torpağınnan çıxıp yavaş-yavaş üz qoydu devlərin anasının



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yanına. O vaxt gəlip yetişdi ki, artıx gecə yarıdan keçmişdi. Kamalı Sahibi görəndə devlərin anası dedi:

– Bəs mənim oğlannarım hanı?

Dedi ki, sənın oğlannarın vəşi kimi bir şeydi, əzab-əziyətnən qızdarı alıp verənnən sora hərəsi birini götürüp bir tərəfə getdi, məni də qoydular orda. Mən də bir müsibətnən gəlip çıxmışam. Tez ol mənim öz atımı, on bir qardaşımı, on bir atı, nə ki tilsimə saldığın vardı onnarın hamısını tilsimnən azad elə. Qarı bınnarın hamısını tilsimnən azad eliyənnən sora dedi:

– İndi öz əlinnən mana od ver, gedim qardaşdarıma yeməh bişirim.

Qarı əyildi ki, ocaxdan od götürsün, qarının başınnan bir qılınc vurdu, qarının başı getdi düşdü ocağın içinə. Qarını da burda cəhənnəmə vasil eliyip üz qoydu qardaşdarının yanına. Gəlip ocax qalıyıp xörəyi bişirdi. Səhər açılanda qardaşdar dedi:

– Qardaş, bura nə yaman otduxdu, ot gəlip alıp hər yeri.

Dedi:

– Qardaş, biz gecə düşənnən elə otduxmuş, görməmişih.

Bəli... Bunnar yeyib-içib sabahısı günü düşdülər yola. Yola düşəndə Kamalı Sahip deyir ki, qardaşdar, gəlin bı tərəfə gedəh.

Az getdilər, çox getdilər, gəlip Çin patşahının torpağına yetişdilər. Bınnar Çin patşahının torpağına çatanda eşidillər ki, Çin patşahının on iki qızı var. Beləlihnən böyük qardaş gedir elçi daşının üsdündə oturur. Elçi daşının üsdündə oturanda patşaha xəbər getdi ki, elçi daşının üsdündə bir nəfər oturub. Patşah oğlanı qəbul elədi. Oğlan dedi:

– Biz on iki qardaşıx. Eşitmişik ki, sənin on iki qızın var. Biz gəlmişik o qızdardan ötrü.

Patşah dedi ki, mənim düşmənnərim vardı. Düşmənnərimi kim öldürüfsə, qızdarın on ikisini də o isdəsə, ona verərəm. Mən düşmənnərimi öldürəni tapmıyınca qızdarımı heç kimə vermiyəcəm. Böyüh qardaş gəldi Kamalı Sahipin yanına. Dedi ki, gəlmişih bıra, bı da deyir ki, mənim düşmənnərimi kim öldürüf qızdarımı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ona verəcəm. Bəlkə də, başqa yerə getsəydih orda tapardıx. Belə olduxda Kamalı Sahip dedi:

– Mən gedərəm şahın hüzuruna.

Kamalı Sahip gəldi patşahın hüzuruna. Ədəb-ərkanla salam verib dedi:

– Patşah sağ olsun, biz on iki qardaş on iki bacını almax niyətilə filan yerdən gəlmişih bura. Ona görə də gərəh sən bı işə irazılıx verəsən.

Patşah dedi ki, mənim düşmənnərimi öldürən var, öldürənnəri tapmayınca qızdarı heç kəsə verə bilmərəm. Belə deyəndə Kamalı Sahip dedi ki, yeddi divi mən öldürmüşəm.

Dedi:

– Sübut.

Sübut deyəndə Kamalı Sahip dəsmala bağladığı divlərin burun-qulağını töhdü yerə. Patşah o saat şad olup Kamalı Sahibi bağrına basdı. Əmr elədi ki, bu günnən böyüh qızdan ta kiçih qızın toyuna qədər toya başdasınnar.

Böyüh qardaşa böyüh qızı, onnan kiçiyinə kiçih bacını, beləlihnən on gün toy olur. On bacı, on qardaş evləndi. Beləlihnən, nööbə gəlib çatdı kiçih qıza. Kiçih qıza çatanda qara geyinib otdu otaxda. Dedi:

– Mən Kamalı Sahibə getmərəm.

Patşah çox dedi, o az eşitdi. Çox minnətdən sora qız dedi:

– Əgər Kamalı Sahip gedip dərya qıratını gətirsə, onda ona ərə gedərəm.

Patşah da Kamalı Sahibin xətrini çox isdiyirdi. Kamalı Sahip dedi:

– Mən gedirəm.

Gəldi. Gələndə gördü bir ağ quşdu, oturup yolun üsdə. Dedi:

– Ey Kamalı Sahip, bu cür sən dərya qıratını gətirə bilməzsən. Get patşahdan qırx tulux şərap, qırx qəlib keçə al. Filan yerdə bir bulağın qırx gözü var. Həmən qəliblərnən o bulağın gözünü tut, sora da şərabları töh həmin bulağın hovuzuna. Ordan qaç bir quyu qaz, gizdən. Elə yerdə gizdən ki, dərya qıratı səni görməsin. O gəlip



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

suyu içip sərxoş olan kimi hopbulup min atın belinə. Hara qaçsa, buraxma. O vaxta kimi ki, nə vaxt desə ki, anamın südü maa haram olsun sənin sözünnən sıxsam, onnan sora düş, alnının tərini sil.

Kamalı Sahip bu sözdəri eşidənnən sora qayıtdı patşahın hüzuruna. Patşaha dedi:

– Mana qırx tulux şərap, qırx qəlib keçə verərsən.

Bunu patşah o sahatı hazır elədi. Kamalı Sahip keçələri və şərapları götürüp gəldi həmən ağ quş deyən yerdə o bulağı tapdı. Onun gözdərini tutdu. Navçası vardı, nava da gətdi bu şərabı töhdü. Sora da quyu qazıb gizdəndi. Günorta vaxtına qədər gözdədi, gözdədi, gördü dəryadan, doğrudan da, bir at çıxdı, yəhəri-yüyəni hamısı üsdündədi. Gəldi elə su hesab elədi, şərabı içib yuxuluyan kimi Kamalı Sahip fürsəti əldən vermədi. Tez tullanıf mindi atın belinə. At dəryaya girdi, hara qaçdısa Kamalı Sahip atdan bərk-bərk yapışıf buraxmadı. Axırı at yoruluf əldən düşənnən sora dedi:

– Ey Kamalı Sahip, sən minmisən məni, mənim sahibimsən. Anamın südü maa haram olsun, sənin sözünnən sıxsam.

Kamalı Sahip atdan düşdü. Atın alnının tərini dəsmalıynan silənnən sora dedi:

– Ey qırat, sən mənə özünnən başqa iyirmi dörd qırat da gətirməlisən.

Kamalı Sahip bu sözü deyəndə qırat getdi düzənniyə. Bir müddət keçənnən sora gördü özüynən iyirmi dörd dərya qıratı gətirip. Dərya qıratının yəhəri-yüyəni, hamısının hər şeyi öz yerindədi. Kamalı Sahip öz atını mindi. İyirmi üç at da gəldi onun arxasınca saraya. Şaha muştuluxcu getdi ki, şah sağ olsun siz bir qırat demişdiniz, Kamalı Sahip bıdı, iyirmi dörd dəniz qıratı gətirib.

Bu vaxtları patşahın kiçih qızı bəzənip oturdu otaxda, dedi:

– Mən indi Kamalı Sahibə getməyə razıyam. Ata, toyu elə.

Patşah gətdi Kamalı Sahibə qırx gün, qırx gecə toy elədi. Toy eliyənnən sora Kamalı Sahip dedi:

– Patşah sağ olsun, indi mənim atamın gözü yoldadı. Biz gərəh öz yerimizdə də toyumuzu eliyəh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Patşah irazı oldu. Bınnara yol xərcliyi nə qədər lazımdırsa, verib yola saldı. Bınnar yolnan gələndə iki yolayrıcına çatdılar. Həmən ağ quş çıxdı, dedi:

– Ey Kamalı Sahip, bu yol qorxuludu. Bu yolnan getməyin, bu biri yolnan gedin.

Kamalı Sahip atını irəli sürdü, dedi:

– Qardaş, bu yol qorxuludu, bu biri yolnan gedəh.

– Ə, sənin böyühlüyün qaldı atamın yanında, – böyüh qardaş dedi, – biz hardan isdəsəh, ordan gedəciyih.

Düşdülər o qorxulu yola, getdilər. Qorxulu yolnan gedəndə gəldilər gördülər ki, göy çəməndə yeməhlər bişib, hər şey qaydasında, elə yerdi ki, adam isdəmir bırdan keçə. Böyüh qardaş dedi:

– Bırda düşün, çadırrarımızı qurax.

Kamalı Sahip nəkqədir elədi ki, bura qorxuludu, olmaz. Dedi:

– Yox, bı gecə bırda qalacıyıx.

Əlacı kəsildi, gəldilər çadırrarı qurdular. Yeyib-içənnən sora axşam Kamalı Sahip dedi:

– Qardaş, şərtimizi bilirsən də, bı gecə sənin nööbəndi. Sən nööbə çəkəssən.

Böyüh qardaş irazı oldu. Kamalı Sahip amma yatmırdı, gözdüyürdü. Gördü ki, qardaşı bir az çöldə oturdu, sora getdi girdi çadırına. Bı çadırına girənnən sora Kamalı Sahip qılıncını bağlıyıp durdu qaravulda. Gördü sübh vaxtı bir gurultu, nərilti gəlir ki, nətəri. Dedi:

– Ey, sən, gəlib mənim yeməyimi yeyip özün də mənim yerimdə düşərgə salıpsan. Gör sənin başına nə oyun açacağam.

Başdadı Kamalı Sahipnən güləşməyə. Okqədir güləşdi ki, sübh vaxtı “Allah, Məhəmməd, ya Əli”, – deyip nətər devi qılıncnan vırdısa, devi cəhənnəmə vasil elədi. Götdü devin leşini, sürüyüp saldı bir tərəfə. Əlini-üzünü yudu, gəldi.

Çay-çörəh yeyib-içənnən sora yola düzəldilər. Gəldilər gördülər o siftə gördüyünnən də gözəl bir yer var. Orda da xörəhlər bişib, hazırdı. Genə böyüh qardaş dedi:

– Gəlin bırda dincələh.

Kamalı Sahip nəkqədir elədi, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, sən dünən də deyirdin qorxuludu. Gördün, noldu, heç bişey olmadı. Bırda düşəsiyih.

Bəli, bırda da düşdülər, çadırrarı qurdular. Yeyib-içənnən sora Kamalı Sahip ikinci qardaşına dedi:

– İndi sən nööbədə olmalısan.

İkinci qardaş da böyüh qardaşı kimi bir az durdu, sora getdi girdi çadıra. Genə Kamalı Sahip durdu nööbədə. Bir vaxt gördü gecə yarıdan sora bir gurultu, nərilti gəlir ki, nətəhər. Dedi:

– Ey Kamalı Sahip, sən mənim qardaşımı öldürüf indi də gəlmisən mənim qoruğuma düşmüsən. Gör sənin başaa nə oyun açacam.

Kamalı Sahipnən dev güləşdi. O vaxta kimi ki, süp vaxtında Kamalı Sahip bı devi də cəhənnəmə vasil elədi. Bı devi cəhənnəmə vasil eliyənnən sora getdi əlini-üzünü yudu. Devin leşini də kənara atdı ki, qardaşdarı görməsin. İşıxlandı. Qardaşdar oyandı. Oturup süfrə açıb yemək yeyənnən sora yola düzəldilər. Yola düzəlip gəldilər. Gördülər ki, o göy çəməndə ki düşərgə salmışdılar, bı, onnan da çox gözəldi. Baxırsan deyirsən elə bil cənnətdi. Burda da xörəhlər bişib, hər şey hazırdı. Genə böyüh qardaş dedi:

– Bırda düşəciyih.

Kamalı Sahip nə qədir elədisə, dedi:

– Yox, olmaz, bırda düşəciyih.

Axırı genə burda düşdülər, yeyib-içib yatan vaxtı üçüncü qardaş da o biri qardaşdarı kimi bir az gözdədi, gördü ki, qardaşdarı yatıp, getdi yatdı. Yatanda genə Kamalı Sahip durdu qaravulda. Gördü gecəyarı bir gurultu gəldi. Dedi:

– Ey Kamalı Sahip, mənim iki qardaşımı öldürüb mənim qoruğuma düşmüsən, mənim xörəyimi yemisən, mənə Haş-haş dev deyəllər, mənə ölüm yoxdu. Səni elə eliyəcəm ki, day nətəhər. Nə qədər çalışsan da məni öldürə bilməzsən.

Bunu deyip Haş-haş devlə Kamalı Sahip döyüşə girişdi. Nə qədər başını kəsdi, tulladı, alnının tərini siləndə gördü dev duruf, bıdı, qarşısında. Dedi:

– Ey Kamalı Sahip, mən sənə dedim ki, mənə ölüm yoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu minvalnan o qədər döyüşdülər ki, hava işıxlandı. Qardaşdar durdu gördü ki, Kamalı Sahip devnən əlləşir. Qardaşdar durdu qıraxdan tamaşa etməyə. Axırda Kamalı Sahip bir də bunu iki parça eliyip yerə atdı. Alnının tərini siləndə bu bir də durup, dedi:

– Ey Kamalı Sahip, mən sənə dedim ki, mənə ölüm yoxdu. Məni heç cür sən öldürə bilməzsən. İndi ki, belədi, sana izn verirəm, qardaşdarınnan get. Ancax o yerdə gördün ki, at bir addım irəli atır iki addım geri qayıdır, onda bil ki, mənim torpağımnan çıxırsan. Onda geri qayıt. Geri qayıtmasan öküzün buynuzunda da gedip gizdənsən səni tapıb məhv eliyəcəm.

Kamalı Sahip irazılaşdı. Qardaşdarıynan yola düşdülər. Bir müddət gələnnən sora Kamalı Sahip gördü ki, at bir addım irəli atıf, iki addım geri qayıdır. Onda dedi:

– Qardaşdar, mən geri qayıtmalıyam. Alın mənim də yoldaşımı, aparın.

Kamalı Sahip qardaşdarını yola saldı. Özü isə Haş-haş devin yanına qayıtmalı oldu.

Bu vaxtları Kamalı Sahip devin yanına qayıtmaxda olsun, sizə deyim on bir qardaşdan. On bir qardaş gəldi çıxdı öz şəhərlərinə. Atası pişvazlarına çıxdı. Bunnarı yaxşı qarşıladı. Dedi:

– Bəs Kamalı Sahip hanı?

Dedilər:

– Kamalı Sahipi dev apardı.

Onda atası dedi ki, vaxtda ki, on bir qardaşın içində bir Kamalı Sahibi devə veribsiz, onu müdafiə eləməmisiz, mən sizə oğul deməqrəm.

Qardaşdarın hamısını – on birini də saldı zindana. Qızdarın isə on ikisini də götdü çıxartdı yüksək bir yerə, orda hərəsinə bir ev verdi. Orda qızdar kefində, qardaşdar zindanda olsun, sizə kimnən deyim, Kamalı Sahipdən. Kamalı Sahip gəldi Haş-haş devin yanına. Dedi:

– Ey Kamalı Sahip, əgər göyün yeddinci qatından Mədinələr Mədinəsinin qızını mənə gətirsən, onnan sora səni azad edəcəm. Yox əgər gətirməsən, harda olsan səni məhv eliyəcəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, Kamalı Sahip üz qoydu yol getməyə. Beləlihnən gəldi gördü ki, bir arx gedir. Qarışqalar gəlir bı arxın üsdünnən keçəndə hamısı tökülür suya. Durdu bir ağaş kəsdi, gətdi körpü qoydu bı arxın üsdünnən. Qarışqalar irahat getdi. Getdi özü bir ağacın divində yatdı. Gördü o qarışqalar gəlip bını incidir. Dedi:

– Ay Allahın heyvanı, qoyun, bir az yatım dincəlim.

Biri dil açıp dedi:

– Ey Kamalı Sahip, səni bizim qarışqalar patşahı çağırır.

Kamalı Sahip durdu getdi qarışqalar patşahının yanına. Dedi:

– Ey Kamalı Sahip, sən mənim millətimi bir belə ki, ölümnən qutarmısan, dünyada mənnən nə isdiyirsən.

Dedi:

– Sənin sağlığını. Sənin heç bir şeyin lazım deyil mənə.

Qarışqalar patşahı qanadının birini qoparıb verdi ona. Dedi:

– İşdi, dara düşsən bı qanadı yandır. Harda olsam gəlip sənin köməyinə çatacam.

Bəli, Kamalı Sahip qarışqalar patşahı ilə xudafizləşip yoluna düzəldi. Gəldi gördü bir dev qurşağa qədər suyun içindədi, deyir "yandım". Belə deyəndə Kamalı Sahip deyir:

– Onsuz da mən ölümə gedirəm, yazıxdı, susuz qalmasın.

Getdi bir ovuc su verdi. Bir içəndə qurşağa qədəriydi su, dizə qədər sudan qalxdı yuxarı, ikinci ovucda topuğa qədər, üçüncü ovuş sudan sora dev çıxdı qırağa. Dedi:

– Sən ki, mənə belə yaxşılıxlar elədin, de görüm bı yaxşılığın əvəzində mənnən nə isdiyirsən?

Dedi:

– Sənin sağlığın, mənə heş bir yaxşılıx lazım deyil.

Bı vaxları dev öz tükünnən birini verdi, dedi:

– Əgər dara düşsən bı tükü yandırarsan, harda olsam gəlip sənin imdadına çataram.

Kamalı Sahip devdən aralanıb başdadı yol getməyə. Gəldi gördü ki, üş dağdı, gəlip bir-birinə dəyib qayıdır. Bu vaxları Kamalı Sahip gəlib qayaya çatanda gördü bılar üç devdi. Bı üş dev dava



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

edillər. Gördülər ki, bəni-insan Kamalı Sahip gəlir. Dedilər bizim şərtimizi kəssin, sora da onu yeyərih.

Kamalı Sahip ora yetişəndə devlərdən biri dedi:

– Ey Kamalı Sahip, biz üş dənə əşya tapbışıx. Onun üsdündə dava eliyirix. Bu, Süleyman peyğəmbərin xalçasıdı. Onun üsdündə oturup Süleyman peyğəmbərin eşqinə hara desən, aparar. Bu da Süleyman peyğəmbərin papağıdı. Başına qoysan, səni heç kəs görə bilməz. Bu da Süleyman peyğəmbərin süfrəsidi. Əgər belinnən açıf hansı neməti desən, o süfrədə tapılar, onu yeyərsən.

İndi bının üsdündə biz dava eliyirih. Ona görə də sən bizim şərtimizi kəsməlisən. Belə deyəndə Kamalı Sahip üş dənə ox atır. Deyir ki, bı oxlardan birincini gətirənə süfrəni, ikincini gətirənə papağı, üçüncünü gətirənə isə xalçanı verəcəm.

Beləlihnən, üç ox atır. Atanda devlər onun dalınca gedillər. Oxun dalınca gedənnən sora Kamalı Sahip oturur xalçanın üsdündə, süfrəni bağlıyır belinə, papağı qoyur başına. Deyir:

– Ya Süleyman peyğəmbərin xalçası, məni Süleyman peyğəmbərin eşqinə, apar göyün yeddinci qatında Mədinələr Mədinəsinin qızının bağına.

Bəli, Kamalı Sahip gedir orda düşür. Düşənnən sora papağı qoyur başına, xalçanı vırdı qoltuğuna, süfrəni də bağladı belinə. Getdi Mədinələr Mədinəsinin qızının otağına. Gördü Mədinələr Mədinəsinin qızına yeməh gəlif. Kamalı Sahip də bərk acıdı. Gəldi oturdu qızın yanında, başdadı bı da qıznan barabar yeməyə. Amma papağı başına qoyanda onu heş kəs görmür. Qız baxdı ki, yeməh qutardı, ancax heş doymadı. Bı, qulluxçunu çağırdı, dedi:

– Sən mənə niyə bu gün az yeməh gətirmisən?

Dedi:

– Xanım, gündə gətdiyim qədər yeməh gətirmişəm.

Dedi:

– Mən bu gün doymadım, genə gətir.

Qız genə gətirdi. Kamalı Sahip başdadı genə qıznan barabar yeməyə. Burda yeməh qutarannan sora qız getdi yatmağa. Kamalı Sahip də durup əl-üzünü yudu, ağzını gülabla yaxaladı, getdi qızın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yanına. Gördü qız yatıf. O üz, bu üzünnən bir öpüş alıp genə çıxdı getdi bağda bir yer tapıb orda gecələməyə.

Kamalı Sahip gecələdi, genə hər gün gəldi qız yeməh yeyəndə onnan baravar yedi, gecə də gedip yatanda qızın hər iki üzünnən öpüş alıb getdi yerinə.

Beləlihnən, qız bir gün güzgüyə baxanda gördü üzündə xallar var. Bildi ki, bırda nəysə bir sirr var. Dedi:

– Yaxşı, indi mən səni güdüp tutaram.

Bı dəfə gəldi yeməyi yeyən kimi qulluxçuları azad elədi. Dedi:

– Bu gün yorğunam, tez yatacam.

Getdi özünü yuxuluğa vuranda gördü bir nəfər getdi əl-üzünü yudu, yavaşcadan ağzını gulapnan yaxaladı, gəlip üzünnən öpəndə tutdu biləyinnən.

Dedi:

– Ə, sən kimsən? Neçə gündü yeməyimi yeyirsən, özü də məni öpüb gedirsən.

Kamalı Sahip bütün əhvalatı nağılladı. Dedi:

– Sən sabah ged, otur mənim elçi daşımın üsdündə. Atamın sənə üş dənə sualı olacax. O sualları yerinə yetirsən atam məni sənə verəcəh. Əgər yerinə yetirməsən, heş vaxt mənim üzümü görmüyəcəhsən.

Bəli, səhər açıldı, Kamalı Sahip getdi otdu elçi daşının üsdündə. Elçi daşının üsdündə oturannan sora şaha xəbər getdi ki, bəs, bir nəfər gəlip elçi daşının üsdündə oturupdu. Gəlib Kamalı Sahibi apardılar şahın hüzuruna. Şah xəbər aldı:

– Nəyə görə gəlmisən?

Dedi:

– Şah sağ olsun, mən sizin qızınızdan ötrü gəlmişəm.

Şah dedi:

– Mənim üş dənə şərtim var. Əgər o şərtdəri yerinə yetirsən, mən qızımı sənə verəcəm, əgər yerinə yetirməsən, sənin boynunu vurduracam.

Kamalı Sahip irazı oldu. Beləlihnən, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Birinci şərtim budu: yeddi şakqa əti, yeddi qazan da düyünün aşını bax, bı gecə yeyəssən.

Yeddi şakqa əti, yeddi qazan da düyünü bişirib qoydular ortaya, qapını bagladılar. Kamalı Sahip bir tikə, iki tikə yedi, baxdı gördü ki, heç iyirmi adam da ola, bunu yeyip qutara bilməz. Ona görə qaldı məhətdəl. Birdən dev yadına düşdü. Dedi:

– Bu dev mənə demişdi.

Devin tükünü yandıranda gördü dev gəldi durdu qapıda:

– Mənə görə nə qulluğ?

Dedi:

– Bıdı ha, bı yeməhləri yeməh.

Dedi:

– Yaxşı, bınnan narahat olma.

Dev bir tilsim oxuyup qapının deşiyinnən girdi içəri. Dedi:

– Bıdı?

Dedi:

– Hə.

Dedi:

– Onnan hasat iş yoxdu. Sən get yat.

Gəldi bı yeddi şakqa əti, yeddi qazan da düyünü yeyib kutarannan sora dedi:

– Day nə qulluğ?

Dedi:

– Qazanı bir balaca əy, qoy qapının ağzına.

Bı qazanı bir balaca əydi, qoydu qapının dalına. Özü də çıxdı getdi.

Səhər açıldı. İndi ha gözdədilər, gördülər Kamalı Sahip gəlmədi. Getdilər qapını aşdılar, gördülər açılmır. Birtəhər qapını aşdılar, gördülər Kamalı Sahip şirin yuxudadı.

Nə ət var, nə düyü. Hamısı yeyilib, qazanın da birini əyip qoyup qapının dalına. Hə, Kamalı Sahipi apardılar şahın hüzuruna. Dedi:

– Sən birinci şərti yerinə yetirdin. İndi ikinci şərtimiz odur ki, yeddi put darını, yeddi put buğdanı bir-birinə qarışdıracıyıx. Bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gecədə gərəh o buğdaynan darını elə ayırasan ki, birinin içində bir dənəsi qalmasın.

Kamalı Sahip genə də irazılaşdı. Gətdilər yeddi put darıynan, yeddi put buğdanı bir-birinə qarışdırdılar. Orda saldılar Kamalı Sahipi bir otağa, ağzını bağladılar, qaldı orda. Kamalı Sahip nə qədər elədi, gördü heç bir kilo buğda seçə bilmiyəcəh. Çox fikirrəşdi, elədi. Birdən qarışqalar patşahının qanadı yadına düşdü. Qarışqalar patşahının qanadını yandıranda qarışqalar patşahı gəldi.

– Nə qulluğ?

Dedi:

– Belə-belə.

Dedi:

– Sən orda yıxıl yat, işin yoxdu, mən düzəldərəm.

O vaxtlar pud on altı kiloqram sayılırdı. Bir pud on altı kiloqram idi. Hə, qarışqalar gəldi bir qruppası darını seşdi, yığdı evin bir güncünə, bir qruppası da buğdanı seşdi, yığdı evin bir güncünə. Kamalı Sahip də yatdı.

Səhər gəldi. Qapını aşdılar, baxdılar gördülər darı bir yerdədi, buğda da bir yerdə. Patşaha xəbər getdi ki, bəs nə buğdanın içində bir darı var, nə də darının içində bir buğda var. Hamısı seçilib yığılıbdı.

Bəli, Kamalı Sahipə gətdilər yaxşı yemək, işmək verdilər. Dedilər:

– Ye, iç, üç günnən sora sən üçüncü şərtimizi yerinə yetirməlisən.

Gəldi, Kamalı Sahip qızın yanına. Dedi:

– Noldu?

Dedi:

– İki şərti yerinə yetirdim, amma üçüncü şərtdən qorxuram.

Dedi:

– Atam sənə bir qab su verəcəh. O suyu hündür ağacın başına elə çıxardıb, elə yendirməlisən ki, o sudan bir damcı yerə düşməsin. Əgər o şərti yerinə yetirsən, üçüncü şərti də yerinə yetirmiş olursan. Sora mən sənin qulluğunda hazıram. Amma yetirməsən, atam sənin boynunu vurduracax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız başınnan bir dənə tük verdi, dedi ki, həmən ağacın divinə gələndə o tükü salırsan suyun içinə, su olacax bir şüşə. Elə ki, çıxdın ağacın başına, ağacdan yenəndə gənə tükü götür, olacax su.

Bəli, üş günnən sora şah Kamalı Sahipi çağırdı. Dedi ki, sənnən üçüncü şərtimiz budu, gərəh bı bir qab suyu o ağacın başına elə çıxardıb, elə yendirəsən ki, o sudan bir damcı yerə düşməsin. Kamalı Sahip irazı oldu. Qabı aldı əlinə, gəldi həmin ağacın divində qız verən tükü saldı suyun içinə. Suyun içinə salan kimi su oldu şüşə. Kamalı Sahip camı qoydu qoynuna, çıxdı ağacın başına. Ağac o qədər yüksək imiş ki, o, ordan çıxıb baxanda öz atasının vilayətini görür. Görəndə özünü saxlıya bilmir, ağlıyır. Ağlıyanda bir damcı gözünün yaşı yerə düşür. Deyillər ki, bəli, sudan bir damcı düşüb yerə.

Kamalı Sahipi ağacdan düşür yerə, genə tükü götürür. Həmən su camı gətirir şahın hüzuruna. Bəs xəbər gəlir ki, yox, bir damcı su düşüb yerə. Deyir:

– Yox, su düşmüyüb, mən orda ağlamışam o mənim göz yaşımdı.

Sora həqiqətən yoxluyub görüllər ki, su duzdudu. Suda duz yoxdu, amma göz yaşında duzlulux var. Bununnan da həqiqətən təsdiq eliyiflər ki, bı göz yaşıdı, su deyil. Onnan sora Mədinələr Mədinəsinin qızını Kamalı Sahipə verir, toyunu eliyillər. Kamalı Sahip Mədinələr Mədinəsinin qızını götürüb oturdu Süleyman peyğəmbərin xalçasının üsdünə. Deyir ki, Süleyman peyğəmbərin xalçası, bizi Haş-haş devin mağarasının ağzında yerə qoy. Bəli, Süleyman peyğəmbərin xalçası Haş-haş devin mağarasının ağzında buları qoyanda deyir:

– Mən gətirdim qızı.

Haş-haş dev deyir ki, day sən azadsan, get. Mədinələr Mədinəsinin qızı deyir ki, ey Kamalı Sahip, desəydin ki, sən məni bu devə gətirirsən, səni orda tikə-tikə doğradardım. Deyir ki, ey gözəl, sən qəm yemə, səni ordan bıra gətirən adam, səni bırdan da xilas edəcək. Mən heç yerə gedən deyiləm. Deyir:

– Çıx get.

Kamalı Sahip gedir bir yerdə gizdənir. O vaxta qədər ki, dev gedir səfərə. Gəlir qızın yanına. Qıza deyir ki, dev gələndə bekaf



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

otur. Desə nədi. Denən ki, sən gedirsən, gəlirsən, mən tək-tənha qalmışam. Canıı yerin sən deynən maa, mən heç olmasa sənin canınnan oynuyum. Kamalı Sahip qıznan bir az söhbət eliyənnən sora görür ki, devin gələn vaxtıdı. Genə gedib öz yerində gizdənir. Dev gələndə görür qız çox bekafdı. Deyir:

– Ay qız, niyə bekafsan?

Deyir ki, bəs sən gedif gəzirsən, gəlirsən, mən tək-tənha burda qalıram. Heç olmasa öz canıı yerin denən, mən də sənin canınnan burda günümü keçirim, əylənim.

Deyir:

– Ay qız, mənim canım o dee, süpürgədədi, – deyib çıxıb gedir. Gedənnən sora Kamalı Sahip gəlir deyir:

– Nə dedi?

Qız deyir ki, dedi mənim canım süpürgədədi. Deyir:

– Yalan deyir. Evdə nə ki zinyət şey var gət, yığ süpürgənin üsdünə. Desə ki, niyə belə eliyirsən? Denən dedim ki, sənin canın süpürgədədi. Sənin canınnan mən yer süpürə bilmərəm. Ona görə qoy ev zibilli qalsın, amma sənin canın irahat olsun, sənin canın inciməsin.

Dev gəldi gördü ki, qız nə evi süpürüp, heş bir şey eləmiyip, elə süpürgəynən oynuyur. Evdə nə ki qiymətdi şeylər var, hamısını yığıb süpürgənin üsdünə. Dedi:

– Ay qız, sən neyniyirsən?

Deyir ki, bəs sən görmürsən sənin canınnan əylənirəm. Sən dedin canım süpürgədədi, mən də o süpürgəynən əylənirəm, onnan günümü keçirirəm.

Deyir:

– Evi niyə süpürmürsən?

Deyir:

– Bəs sənin canınla ev süpürərəm mən? Sənin canın inciyər. Mən o süpürgəynən heş vaxt ev süpürmərəm.

Hə, belə deyəndə dev gülüb dedi:

– Ay qız, mənim canım süpürgədə deyil, mənim canım yanar oddadı, – deyib gedir. Gedənnən sora Kamalı Sahip gəlir, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nə dedi?

Dedi ki, mənim canım o yanar oddadı. Kamalı Sahip dedi ki, genə yalan deyib. Ona görə də sən pal-paltarı yığ, hamısını yandırginən. Odnan oynaginən. Dev gəlib deyəndə ki, sən niyə belə eliyirsən? Denən ki, sən dedin ki, mənim canım o yanar oddadı, isdiyirəm özümü atam o odun içində yanam, sənin canınnan bir yerdə olam. Onda həqiqəti deyəcək o. Kamalı Sahip gördü ki, devin gələn vaxtıdı, genə gedib öz yerində gizdənir. Bı vaxtları div gəlir. Gəlir görür qızın pal-paltarının hamısı yanıb, özü də odnan oynuyur. Dedi:

– Ay qız, sən neyniyirsən?

Deyir:

– Necə yəni neyniyirəm? Sən dedin mənim canım yanar oddadı. Mənim sənnən savayı kimim var ki bırda. Mən sənin canınnan oynuyuram bırda.

Dev güldü, dedi:

– Ay qız, mənim canım nə süpürgədədi, nə də yanar oddadı. Mənim canım Boz dağda boz öküzün qəfəsində bir göyərçindi. Heç mən özüm onun yaxınına gedə bilmirəm, – deyib çıxıb gedir. Gedənnən sora Kamalı Sahip gəlir. Gələndə deyir ki, qız, nə dedi?

Deyir:

– Dedi ki, boz dağda boz öküzün qəfəsində bir göyərçindi mənim canım. Bu öküz mənim heş özümü də yaxına bıraxmır.

Belə deyənnən sora Kamalı Sahip deyir ki, hə, indi düz deyir. Kamalı Sahip çıxdı çölə, süfrəni bağladı belinə, papağı qoydu başına, otdu Süleyman peyğəmbərin xalçasının üsdünə. Dedi:

– Ya Süleyman peyğəmbərin xalçası, məni Boz dağda boz öküzdən iyirmi metr aralı qoy yerə.

Bəli, Kamalı Sahip Boz dağda boz öküzdən iyirmi metr aralı düşəndə baxdı gördü ki, bı elə bir zəhmli öküzdü ki, adam gennən baxanda onnan qorxur. Kamalı Sahip bir ox qoydu kamana, öküzün alnınnan bir ox vırdı, öküz yıxılan kimi xəncərini çıxardıb öküzün qəfəsini yardı. Göyərçin isdədi qaça, tez tutdu. Göyərçini tutanda Haş-haş dev gəldi. Dedi ki, ey Kamalı Sahip, o göyərçini öldürmə, bırax. Dünyada nə deyirsən sənə verirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Yox, keçəl suya getməz.

Xəncəri çəkib göyərçinin başını üzdü. Göyərçinin başını üzənnən sora Haş-haş dev yıxılıb öldü. Ordan xalçaya minip gəldi qızın yanına. Qıznan görüşüp eliyənnən sora devin nə ki qiymətdi əşyaları varıdı, hamısını yığıp düzəldilər yola. Kamalı Sahip yola düzəlip gəldi. Öz atasının vilayətinə çatanda muştuluxçu getdi ki, bəs şah sag olsun, Kamalı Sahip gəlif. Şah bu xəbəri eşidəndə şəhəri bəzədi, qoşunnan, tanınmış adamlarnan çıxdı Kamalı Sahipin pişvazna. Ordan Kamalı Sahipi götürdülər gəldilər saraya. Saraya gələnnən sora on bir qardaşı da zindandan çıxardılar, gətdilər onnarın hərəsinə bir gün toy eliyir, hər küşdə* öz nişannısını alır. Kamalı Sahipə isə qırx gün qırx gecə toy eliyillər, Mədinələr Mədinəsinin qızı ilə, öz arvadı ilə kəbinini kəsib, yeyib-içib muradına çatır. Siz də öz muradınıza catasınız.

## 2. BALIĞI AT DƏRYAYA, BALIQ BİLMƏSƏ DƏ, XALIQ BİLƏR

Bir patcahın gözü tutulur. Patcah əmr eliyir ki, kim mənim gözümün dərmanını tapsa, onu dünya malınnan biqayid** eliyəjəm. Axırı biliciləri, münəccimləri, baxıcıları yığır, deyir:

– Mənim gözümün dərmanını deyin.

Bir nəfər deyir ki, sənin gözuun dərmanı şəhərimizin kənarında axan çaydadı. Bir balıxdadı, çox gözəl balıxdı. Patcah bunu eşidən kimi əmr eliyir ki, bütün adamlar getsin balıx tutmağa. Kim həmən balığı tutdu, tutdu. Kim tutmadısa, hər ora gedənə axşam bir qızıl verəjəm. Belə-belə hamı gedir balıx tutmağa.

Patcahın bir oğlu varmış. Baxır görür xəzinədə pul qalmadı, amma hələ də balıx tutulmuyup. Durur atını minir, gəlir ki, baxsın görsün camaat balıx tuturmu, neyniyir? Gedir çıxır çayın qırağına, görür hamı balıx tutur. Ancağ aralıda bir adam var. Bu oğlan gedir onun yanına.

---

* hər küşdə – hər kəs

** biqayid eləmək – qane etmək, təmin etmək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu kişi bir qoja kişiydi, patcahın oğlu ora çatanda qırmax tərpənir. Baxıllar görüllər ki, həmin balıxdı. Qoja sevinir ki, həmən balıxdı, dünya malınnan biqayid olajam. Bu vaxdı patcahın oğlu görür gözəl balıxdı. Deyir:

– Ver maa görüm.

Baxır görür o qədir gözəl balıxdı? Heyfi gəlir balığı öldürməyə, onu buraxır çaya. Bu heyində qoca başına, dizinə vıra-vıra gəlir şahın divanına. Deyir:

– Şah sağ olsun, mən həmin balığı tutmuşdum, oğlun aldı buraxdı suya.

Şah əmr eliyir ki, oğlumu dar ağacınnan asın. Vəzir, vəkil yığışıp deyillər ki, a kişi, bir oğlun var, öldürmə, sürgün elə, getsin. Buna pul-zad vermədən sürgün eliyir, çıxır gedir. Bu yolnan başqa məmləkətə gedir. Bir yolayrıcına çatanda görür kü, arxadan, uzaxdan bir qaraltı gəlir. Bu qaraltı o qədir uzaxdadı ki, heş görünmür. Güjnən qaraltısı gəlir. Elə başını aşağı əyən kimi görür həmin adam yel kimi gəldi keşdi bunnan qabağa. Arxadan çağırıp deyir ki, ə qardaş, dayan görüm sən kimsən? O da buna deyir:

– Sən kimsən?

Deyir:

– Məni atam sürgün eliyip başqa məmləkətə – deyəndə bu da deyir:

– Məni də atam sürgün eliyip.

Deyillər:

– Ə, bura gəl, yoldaş olax.

Deyir:

– Ə, hara gedəh, neyniyəh?

Heş birisi bilmillər hara gedələr. Deyir:

– Onda gəl qardaş olax, gedəh qərip şəhərrərdə dolanax da.

Bu təzə gələn oğlan deyir ki, sənnən o şərtnən qardaş ola bilərəm ki, mənim şərtdərim var, onu qəbul eliyəsən.

Deyir:

– Nə şərtdi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Biz gedirih gəzməyə. Əlimizə nə keşsə, qismət olsa, bu yerdə hamısını yarı böləjih.

Oğlan deyir:

– Mən buna tam razıyam, gedəh.

Beləlihnən, bular şəhərbəşəhər gəzir, bir şəhərdə dayanıllar. Deyillər: "Bura qəşəh şəhərdi". Bir arvat tapıllar, deyillər:

– Qarı nənə, biz yad adamlarıx bu şəhərdə. Biz qazanax, gətirəh, sən də bizim çayımızı, çörəyimizi qayır.

Qarı deyir:

– Mənim gözüm üsdə.

Belə danışannan sora patcahın oğlu gedir şəhərin bir tərəfinə, o biri oğlan da gedir bir tərəfinə. Həmişə də qarının əvinə gələndə bir-birrərinnən soruşullar, nə gördün, nə götdün şəhərdə.

Bir gün patcahın oğlu deyir:

– Qardaş, mən bir şey gördüm.

Deyir:

– Nə gördün?

– Bir qız şəkliydi, altından yazılıp: "Qız danışmır, amma lal deyil. Bu qız patcah qızıdı, kim bunu üş dəfə dindirsə, qızı ona verəjəhlər. Kim də dindirə bilməsə boynu vurulajax".

Bu təzə gələn oğlan deyir:

– Mən səni örgədərəm, gedip qızı alarsan.

Deyir:

– Örgət.

Deyir:

– Get. Saa bir rəvayət örgədəjəm. Patcahın adamlarının qabağına bir əşya qoyup əşyaynan söhbət eliyərsən.

Deyir:

– Yaxşı.

Bu oğlan durup gedir patcahın yanına. Deyir:

– Patcah sağ olsun, mən sənin qızıı danışdıraram, amma gəl müqavilə bağlıyax.

Şah deyir:

– Baş üsdə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunnar müqavilə bağlıyannan sora deyir:

– Patcah, arvadıı, oğluu, qızıı, vəzirii, vəkilii – hamısını yığıp gətirirsən bura. Sora mən deyəjəm.

Hamısı burda oturannan sora oğlan gətirir qabağa bir məcməyi qoyur. Tay heş kimə bir söz demir, ancax məcməyiynən danışır. Deyir:

– Ey məcməyi! Dünyada çox adamlar görmüsən, çox adamların qabağına yeməh aparmısan. Mənim başıma belə bir iş gəlip. Bəlkə, onu saa nağıl eləsəm, sən bir əlac taparsan.

Məcməyi onsuz da dinmiyəjəh. Bu camaatı nəzərdə tutur. Deyir:

– Ey məcməyi! Bir günnərisi bir dülgər, bir dərzi, bir də bir molla yol gedirmişdər. Gedillər bir qarannıx yerdə – meşədə bunnar gecələməli oldular. Bunnar belə qərara gəlillər ki, ikisi yatsın, biri qaroul çəksin.

Birinci qaroul çəkməh dülgərə düşür. Dülgər fikirrəşir ki, darıxajax. Gedir meşədən bir ağac tapır gətirir. Bir qadın heykəli yonur, düzəldir. Bu, fiqur düzəldənnən sora yoldaşdarını oyadır, deyir:

– Durun əyağa, indi mən yatım.

Dərzinin nööbəsiydi. Dərzi durur, görür bir adam dik durup burda. Gedir əlini vurur, görür bu taxdadandı. Bilir ki, bu, dülgərin işidi. Bu da fikirrəşir ki, bəs mən niyə durmuşam? Tez bir paltar tikir geyindirir bu qadın fiquruna. Bu olur əməlli-başdı qadın.

Sora bu yatır, mollanı ayıldır. Məcməyi, bu molla ayılır, görür burda bir qadın durup. "Pismillah, pismillah" eliyir, görür bu qadın cannı döyül. Deyir:

– Hə, bu dülgərnən dərzinin işidi. Day mən niyə durmuşam.

Molla üzünü tutur Allah-tala tərəfə. Üç rükət namaz qılır, üzünü çevirir Allah-tala tərəfə, deyir:

– Ay Allah, buna can ver.

Bu cana gəlir, olur qadın. İndi, a məcməyi, sən maa de görüm, bu qız kimə, bunnarın hansına çatır? Bunnar bunun üsdündə dalaşıllar.

Vəzir deyir:

– Dülgərə çatır. Çünki bünövrəsini o qoyup.

Oğlan deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Niyə?

Vəzir suala cavap vermir. Vəkil deyir:

– Dərziyə çatır.

Deyir:

– Niyə?

Vəkil cavab verə bilmir. Axırda qız dillənir. Qız deyir:

– Bağışdıyın, mollaya düşür.

Gənə oğlan deyir:

– Niyə?

Qız deyir:

– Molla deyər, dülgər, ağaş yonmusan. Bu sənin ağacıı pulu. Di get. Dərzi, bu sənin parçan, bu da əlhakqın. Sən də get. Əgər yox, isdiyirsizsə, mən geri çəkilim, mənim canımı verin. Canı da kı qaytarmax olmaz.

Qız belə deyəndə qapı vurulur. Deməh, molluya düşür. Belə-lihnən, oğlan qızı bir dəfə danışdırır. Bu oğlan axşam gəlir evə. Evdəki dosdu soruşur, danışdırdınmı? Deyir:

– Dindirdim, çox sağ ol, dindirdim. Amma hələ iki dəfə də dindirməliyəm.

Deyir:

– Qorxma, sabah da ikisini örgədəjəm. Onu gedip danışdırarsan.

Sora ona bir dənə də hekayə danışıp yola salır. Amma tapşırır kı, bu səfər də bir lampıya söhbət eliyərsən.

Genə də ikinci gün patcahın vəziri, vəkili, qızı, arvadı, sarayın qojası, cavanı yığışır. Bu vaxt ortuya bir lampa gətirillər. Oğlan başdıyır.

– Lampa, mənim başıma bir hadisə gəlip. Bunu çox yerdə de-mişəm. Amma fikirrəşirəm ki, ancax sən buna cavap verə bilərsən. Çünki sən bütün bilihli adamların üzünə işıx salmısan. Deyir, gün-nərin bir günü bir qızı üş dənə oğlan isdiyirmiş. Qızın oğlannarın üçünə də bərabər surətdə qonulu varıymış*. Qız fikirrəşir ki, oğlan-narın hansısa birinə söz versəm, o biri oğlannar onu öldürəjəh. Mən

* qonulu varıymış – könülü varmış



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

neyniyim ki, bunnar bir-birrərini öldürməsin? Qız belə fikirə gəlir ki, lampa, kim bahalı şey gətirsə, qız ona getsin. Oğlannarın üçünü də qız çağırır. Deyir:

– Gedin, hansınız bahalı hədiyə alsaz, ona gedəjəm.

Oğlannar gedillər, bir yol ayrıcında dönüllər bir şəhərə. Özü də getməmişdən əvvəl belə bir şərt qoyullar ki, birinci qızın yanına getdi yoxdu. Kim nə tapsa, gəlip bu yolayrıcında o birilərini gözdüyəjəh. Üçümüz də bir yerdə gedəjiyih qızın yanına. Bunnan da razılaşıllar. Oğlannarın hərəsi bir şəhərə gedir.

Birinci oğlan gedir bir şəhərə, görür burda çoxlu xəli satıllar – yekə keçə. Amma bir xəlidi, çox balacadı. O yekə-yekə gəvələri verillər üş minə, bunu verillər irmi min tümənə. Oğlan deyir:

– Bu xəlini niyə belə baha verirsən?

Deyir:

– Bu xəli elə bir xəlidi ki, onun üsdünə minip desən, ey Süleyman peyğəmbərin xəlisi, məni filan yerə apar, o səni əlbəəl o yerə aparajax. Ona görə də bu xəli bahalıdı.

Deyir:

– Çox yaxşı.

Xəlinin pulunu verip alır.

İkinci oğlan gedir, görür kü, yekə-yekə aynalardı, güzgülərdi. Birini on manıta verillər, birini beş manıta verillər. Balaca bir güzgünü verillər yüz manıta. Deyir:

– A qardaş, bu balaca güzgünü sən niyə belə baha verirsən?

Deyir:

– Bu güzgü elə bir güzgüdü, kimi ürəyaa gətirsən, güzgü də o saadı onu görkəzəcəh.

Oğlan deyir:

– Onda bu güzgünü də mən alım.

Güzgünü də bu alır.

Üçüncü oğlan gedir, görür kü, şəhərdə almanı vedraynan satıllar. Vedrasını bir tümənə, iki tümənə. Bir yerdə bir adam bircəcə almanı qoyup qabağına yüz tümən deyir. Oğlan deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, almanın vedrası beş tümən, üş tüməndi. Sən bunu niyə belə baha verirsən?

Kişi deyir:

– Yox, bu saa gösdərilən almadan döyül. Bu alma o almadı kı, ölüm halında olan adam yisə, əvvəl dirilər.

Bu oğlan da bu almanı alır. Üçü də qayıdır həmən yolayrıcına. Bunnar burda fikirrəşillər ki, uzun müddətdi evdən çıxmışıx, yol da uzundu. Nejə eliyəh, qızın vəziyətini örgənəh. Güzgü yiyəsi deyir:

– Bu saat deyim qız nətəhərdi.

Güzgünü çıxardır, baxır ki, budee, qız yataxda ölüm halındadı. Bunnar: "Bir onu görə bilseydih" – deyəndə xalça yiyəsi deyir:

– Bu saat sizi aparıf ora çatdırım.

Oturullar, qız ölməmiş çatıllar onun yanına. Bunnar ona dərman axdaran vaxt alma yiyəsi deyir:

– Onun dərmanı məndə.

Almanı kəsir verir qıza, qız yeyən kimi sağalır.

– İndi, a lampa, de görüm qız güzgü yiyəsinə düşür, alma yiyəsinə düşür, yoxsa gəvə yiyəsinə düşür.

Gənə də yerdən biri deyir güzgü yiyəsinə düşür, biri deyir gəvə yiyəsinə düşür. Hərə bir söz deyir. Oğlan deyir:

– Niyə?

Bunnar cavap verə bilmillər. Qız deyir:

– Bu qız alma yiyəsinə çatır.

Oğlan deyir:

– Niyə?

Qız deyir:

– Alma yiyəsi deyər: "Al bu sənin güzgün, bu da onun xidmətinin pulu". Xəli yiyəsinə də deyər: "Bala, elə bil məni filan yerdən bura gətirip çıxarmısan, eləmisən. Bu sənin xəlin, bu da hakqı. Rədd olun mənim başımnan. Əgər isdiyirsızsa, mən gedim, onda mənim diricə almamı verin, gedim". Almanı qız yeyip. Qaytara bilmiyəjəhlər. Deməh, qız alma yiyəsinə düşür.

Hamı çapı vurur. Beləlihnən, oğlan ikinci dəfə də qızı dindirir. Oğlan gəlir evə axşam. Axşam qardaşı soruşur:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, dindidin qızı?

Deyir:

– Hə. İkinci dəfə də qızı dindidim.

Oğlan deyir:

– Bir dənə də hekayə örgədəjəm. Get gənə qızı dindi.

Hekayəni örgədir və deyir:

– Bu dəfə gedərsən, bunu qabağa sərilən surfıya danışarsan.

Üçüncü gün genə oğlan gedir, camahatı çağırdı, yığdı meydana. Genə də şah, vəzir, vəkil, arvadı, oğlu, bir də qızı gəldi. Oğlan surfa gətirtdirip sərdi ortalığa. Deyir:

– Surfa, mən bir sualnan qarşılaşmışam, heş kim ona cavap vermiyip. Buna ancax sən cavap verərsən. Sən cavanın da, qocanın da, varrının da, kasıbın da, yaxşının da, pisin də qabağına getmisən, bütün üzdəri görmüsən. Surfa, bir günnəri bir gəlin əriynən, qardaşıynan yol gedirmiş. Bunnar gedir, bir meşədə quldurrar düşür bunnarın üsdünə, bunun ərini də öldürür, qardaşını da. Nələri var, alıp aparıllar. Arvad olduğuna görə gəlinə dəymillər. Gəlin oturur iki başı kəsili meyidin ortasında, "ərim vay, qardaşım vay" deyip qalır buların arasında. Bir müddət keçənnən sora arvat gördü kü, bir siçoul o tərəfdən çıxdı, bir siçoul bu tərəfdən çıxdı. Gəldilər siçoullar güləşdi. Biri o birinin boğazını qırdı, tulladı. Bu gəlin də baxırdı. Gördü bu diri siçoul getdi o yannan bir ot gətdi, bu ölü siçoulun boğazına vurdu, başını da qoydu üsdünə. O saatı siçoul dirildi getdi. Belə olanda arvat dedi: "Ay dadi-bidad, bu otdan vursam mənim qardaşım, ərim dirilər". Bu gedir həmin otdan gətirir sevinə-sevinə, qardaşının da, ərinin də başına, boğazına vurur. Amma sevindiyinnən başdarı tərs qoyur. Ərinin başını qardaşının başının yerinə, qardaşının başını ərinin başının yerinə qoyur. İndi, ay surfa, bunun başı əridi, bədəni qardaşıdı, onun da bədəni əridi, başı qardaşıdı. Sən maa de görüm, qadın kimə düşür.

Yerdən biri deyir başı əri olana, biri deyir bədəni əri olana çatır. Bu vaxt qız ordan deyir:

– Dayanın! Yadınızda qalsın, insan həmişə üznən tanınar, başnan fikirrəşər. Ərinin başı hansı meyitdəysə, qız ona düşər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hamı çapı vırır. Oğlan deyir:
– Patcah, qızıı üş dəfə dindidim?
Patcah dedi:
– Hə.
– Müqaviləmiz var?
– Hə.
– Onda lap yaxşı. Qızı ver, aparım.
Patcah deyir:
– Get, sabah gələrsən, qızı apararsan.
Oğlan evə gəlir. Qardaşı soruşur:
– Qardaş, dindidinmi?
Deyir:
– Hə, çox sağ ol.

Sabah oğlan gedir saraya. Patcah yeddi gün, yeddi gecə toy eliyip qızı verir bu oğlana. Bir müddət burada qalıllar. Bir müddət qalannan sora bunnar gəlillər patcahın yanına, deyillər:
– Patcah!
Deyir:
– Hə.
Deyillər:
– Bizim atamız var, anamız var. Bəlkə də onnar ölmüyüplər, durullar. İcazə ver, biz gəlnimizi də götürəh gedəh.

Amma onu da deyim ki, qız üş dəfə danışannan sora gənə danışmırdı. Nəysə, patcah gətirir üç at. Birini gəlinnən əri, birini də onun dosdu minir. Bir də bir xurcun qızıl verir. Deyir:
– Sizə yaxşı yol, gedin.

Bu yolnan gedillər. Gedillər o yerə çatıllar kı, burda şərtnən qardaş olmuşdular. Demişdilər ki, nə tapsax yarı böləjiyih. Bu söz patcahın oğlunun yadınnan çıxmışdı. Amma onun dosdu deyir:
– Qardaş, dayan burda. Yadındadımı biz şərt kəsmişdih ki, nə tapsax, burda yarı böləjiyih.
Deyir:
– Hə, düzdü.
Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Onda atdan düş.

Bu soradan gələn oğlan xurcunu ortadan kəsir. Deyir:

– Qardaş, bu göz sənin, bu göz mənim. Bu at sənin, bu at mənim, düzdü?

Deyir:

– Hə.

– Qaldı ortada biri. Onu da ortadan böləh.

Deyir:

– O atın pulunu birimiz verəh o birimizə, kutarsın getsin.

Deyir:

– Yox, heylə şərtdəşməmişih. Ortadan bölməliyih.

Qılıncı çəkir qorxuzmax üçün atı ortadan bölür. Deyir:

– Bu pay mənim, o pay sənin. Qaldı qız. Onu da böləjiyih. Parası sənin olajax, parası mənim.

Bu qılıncı götürüp qızın üsdünə cumur ku, kəssin. Qız qışqırır ki, mən neynəmişəm, nağarmışam, deyəndə ağzınnan qurt düşür. Qız başdıyır tir-tir əsməyə. Sora oğlan deyir:

– Qardaş, onsuz da mən qızı öldürmüyəjeydim. Bu qızıllar da sənin, atdar da sənin olsun. Bu barmağımnan da bir az qan götü, apar sürt dədaa gözünə, sağalsın. Əgər bilməh isdəsən mən kiməm, bil və agah ol. Mən o balıxçının əlinnən alıp suya atdığın balığam. Get dünyada hamıya denən ki, balığı at dəryaya, balıx bilməsə də, xalıx biləjəh.

## 3. SEYFƏLMÜLKÜN NAĞILI

Bir dənə patcah olur. Yaxşı varrı-hallı, irəhimdar patcah olur. Bunun bir dənə oğlu olur. Bu, oğlunu yekəldip, boya-başa çıxardır. Məhdəb vaxdı olur. Bunu aparır vəzirin, vəkilin oğluynan qoyur məhdəbə. Bu, məhdəbi oxuyur, məhdəbi başa çatdırır. Bunnar məhdəbi qutarannan sorasına gəlir atalarının hüzuruna kı, ata, biz məhdəbi qutardıx, çatdırdıx başa.

Deyir ki, yaxşı, saa ənam verəjəm. Vəzirin oğlu gedir öz atasının otağına, vəkilin oğlu gedir öz atasının otağına. İndi bunnar nə verəjəhlər özdəri bilər. Patcah gətirir Seyfəlmülühə bükülü bir don verir. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Saa bunu ənam verirəm mən.

İndi padarka deyillər, onda ənam deyirdilər. Patcahın oğlu götürür bunu aparır öz otağına. Gedir, patcahın oğlu bu ənamı açır, görür burda bir dənə surət var. Bu o qədər gözəldi ki, patcahın oğlu bunu görəndə ürəyi gedir, qəşş eliyir yıxılır. Yıxılanda patcaha xəbər gedir ki, patcah sağ olsun, sənin oğluu ürəyi gedip yıxılıf. Patcah gəlir görür, pahoo, – patcah bilirmiş nədi bu, – iki əli olur, bir təpəsi. Deyir: "Vay əvi yıxılan canım, mən bu donu niyə verdim bına?"

Nəysə, bını ayıldıllar. Ayıldannan sora deyir:

– Ay oğul, niyə belə eliyirsən, sənin niyə gedir ürəyin? Niyə belə olmusan sən?

Deyir ki, ata, mən bu surətin dalınca gedəcəm. Deyir:

– Ay bala, sən onu gedip tapa bilməzsən. Bilmirsən hardadı, uzaxdı, nə təərdi.

Deyir:

– Yox.

Surət demə, can de,
Canan onun yanında yalandı.
Hər kəs görsə o şahzadanı,
Əl atdı yıxasına, dedi amandı.

Əl atdı Seyfəlmülüh yaxasını cırdı, genə ürəyi getdi, yıxıldı yerə. Yıxılanda patcah dedi:

– Vay əvi yıxılan canım, mən necə özüm öz əlimnən başıma daş saldım ee. Mən munu niyə verdim muna?

Nəysə, munu ayıldıllar, nə qədir yığışdılar, öyüt-nəsihət verdilər. Dedi:

– Ola bilməz, mən gərəh gedəm o surətin dalınca.

– Ay oğul, sən tapa bilməzsən onu. Sən nə təər gedip taparsan onu? Bilmirsən hardadı o.

Hamma patcah bilirdi ha o nədi. O, yerdə dəyil, göydədi. Axırda patcah məjbur oldu, gördü bunnan başarmır. Apardı saldı zindana. Bir nəğədə zindanda qalannan sora yığışır bunun vəziri, vəkili, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Patcah sağ olsun, sən zindanda niyə çürüdürsən oğlunu. Onsuz da o çürüyəjəh orda, boşda qoy getsin. Allaha pənah, nə olajax, olajax.

Patcah bunnarın sözünə baxır, oğlunu çıxardır. Deyir:

– Yaxşı, ay oğul, gəl, qoşum səni vəzirin, vəkilin oğluna, tədarükü görüm, get, Allaha pənah. Qayıdıp gələrsən, məni taparsan, taparsan, tapbazsan da, day nağayrım. O çox uzax əsabədədi, uzax yerrərdədi.

Seyfəlmülüh hazırraşır, düşür vəzirin, vəkilin oğluynan yola, gedir. Çox gedir, çox dolanır, dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, yolları seyr eliyə-eliyə gedir. Gedir çıxır bir vilayətə. Bir patcahın vilayətinə çıxır. Patcaha deyillər ki, üş dənə şəxsi gəlip sənin ölkənə, hamma heş buraların adamına oxşamır. Patcah deyir:

– Hardan gəlirsiz, ay şəxsilər, hara gedirsız?

Deyir:

– Biz yol adamıyıx, bəs fılan yerə gedirih.

Deyir:

– Pahoo, siz gedip oranı tapa bilməzsiz, ora sizin yeriniz dəyil, getmə. Gəlin qalın bizim ölkədə.

Deyir:

– Yox, biz bu niyətə gedirih.

Deyir:

– Pahoo, Seyfəlmülüh, mənim ölkəmdə qal, saa yaxşı şərayit düzəldim. Burdan da yaxşı bir qız al, heş getmə.

Deyir:

– Ola bilməz.

Gənə bunnar gedillər, davam eliyillər. Çox gedir, az gedir, bunnar gənə bir şəhərin küncündə gecəliyillər. Qalanda bunnarı yuxu aparır, yuxu aparanda vəzirin oğluynan vəkilin oğlu yuxuya gedir, Seyfəlmülüh də yatır. Yuxusunda görür kü, o dağdan nəysə yendi, kimsə bunnarı apardı (vəzir ilə vəkilin oğlanlarını – top.) "hənh" eliyir ayılır, görür nə vəzirin oğlu var, nə vəkilin oğlu var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunu gəlip nə aparırsa, aparıp, yoxdu. Deyir: "Ay əvi yıxılan canım, qaldım təhcəjə e".

Deyir:

– Gənə davam eliyəjəm, gedəjəm.

Gedir çıxır bir ölküyə. Nəysə, bu ölkədən gedir, çıxır patcahın hüzuruna. Patcah gənə buna təklif eliyir, bunun təklifini də qəbul eləmir.

Nağıl atı yüyrəy olur. Nəysə, patcah deyir ki, sən qalammırsan, onda səni salajam zindana. Niyə qalmırsan mənim ölkəmdə? Bunu salır zindana, ağzına da qoyur bir dəyirman daşı.

Bu burda bir az qalmaxda olsun, patcahın yaxşı bir irəhmdar qızı varımış. Bu duyux düşür. Deyir ki, mənim atam çox qəzəpkardı, o cahıl yazıxdı, orda qalıp öləjəh. Xəlvətcə gedir bu oğlanı çıxardır. Deyir:

– Oğlan, mənim atam çox qəzəpkar patcahdı. Heş sən mənim atama görühmə, sənə yazığım gəlir, səni zindannan çıxardaram, çıx get.

Gənə düşür bu yola. Az gedir, çox gedir, gənə gedir çıxır bir ölküyə. Bu ölkədə nəysə getməyə yer olmur. Gedir ağacın divində əylənir. Bir az, deyir, dincəlim. Oturur. Donu da elə özündə hərriyir, don da elə özündədi. Oturub özü belə fikrə dalmışmış. Bir də görür kü, ağacın başına üş-dört quş gəldi qondu. Seyfəlmülüh quşdarın dilini bilirdi, oxuyanda keşmişdilər buna. Gördü kü, bu quşdar deyir:

– Bacı, bacı, can bacı.

O biri deyir:

– Nədi bacı?

Deyir:

– Görürsən o oğlanı? O donun surətinin dalıncax gedir, bilirəm mən. Hamma o donun surəti patcahlar patcahı, pərilər patcahının qızının donudu. O, ildə bir dəfə gəlir. Onu heş vaxdı tapa bilmiyəjəh. Bəlkə, bir ildən sora filan çayda çiməndə gələ, xəlvətcə onun paltarını oğurruya, onnan sora o qızı tuta bilər o. Yoxsa onu tuta bilməz.

Seyfəlmülüh bunu eşidip görür kü, bu, bir il burda qalmalıdı. Durur Seyfəlmülüh gedir, çox əzab-əziyətinən bir dənə şəxsinin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

evində qalır. Bu kişi bunu götürür oğulluğa. Deyir ki, bəs qalmağa yerim yoxdu, bu kişi bunu saxlıyır.

Bir il gözdüyür, bir il tamam olanda çıxır çayın qırağına. Çayın qırağında gizdəndi, gördü bir dəsdə quş gəldi, hamısı belə çırpındı, yendi yerə. Yendi, onnar hamısı oldular qız. Bu donun surətinnən tanıyır də, bilir bunu. Bunnar soyundu, özdərini verdilər çaya, başdadılar çimməyə. Çiməndə Seyfəlmülüh çıxdı yavaçca şaxın dalınnan, həmən qızın paltarını oğurradı. Oğurradı gizdədi. Gizdiyəndə çıxdı qızdar, paltarrarını geyinəndə, bu donun yiyəsi qaldı burda. Bu qızdar gördü kü, bunun paltarı yoxdu. Uşdular qondular bir ağacın başına. Bu qaldı burda, bu oğlan da çıxdı zuhura. Dedi:

– Ay qız, sənin paltarın məndədi, səni aparajam. Bax, bax, sənin dalınca gəlmişəm. Bu surət səninkidi.

Qız dedi ki, məni aparsan da saxlıya bilmiyəssən. Deyir:

– Saxlıyaram, patcah oğluyam.

Deyir:

– Yox, heş vaxdı saxlıya bilməzsən.

Bir ayrı paltar verir, bu geyir, Seyfəlmülüh qızı götürür gəlir. Nəysə, çox əzabınan, əziyətinən gətirip çıxardır öz vilayatdarına. Salamat gəlir çıxır dədəsinin hüzuruna. Çıxannan sora bunnarın özünün mənzili varıdı, yaşıyıllar ayrı. Başdıyıllar yaşamağa.

Bir günnəri bu qız əvdə olmuyan vaxdı Seyfəlmülüh gətirir divarı söhdürür, paltarı hördürür divara. Deyir ki, tapbasın da, bunu geysə, uçajax da, bilirəm. Nəysə, bu da bilənimiş. Pərilər patcahının qızıdı, zarafat dəyil. Nəysə, bu, ev paltarıynan fırranır bir müddət. Hamma bu qız bilir ki, bunun paltarı burdadı.

Oğlan səfərə çıxmışımış, Seyfəlmülüh səfərə gedəndə bir usda gətirir. Pərilər pərisi deyir:

– Bura mənim xoşuma gəlmir. Buranı sök.

Buranı söhdürür, paltarı çıxardır. Bir də hördürür, paltarı gizdiyir. Paltarı gizdiyir. Seyfəlmülüh gəlir əvə, gələnnən sorasına bu qəfildən paltarını geyinir, deyir:

– Seyfəlmülüh, mən saa dedim ki, sən məni saxlıyammiyəssən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pırr eliyir üçür göyə. Uçur, çıxır gedir. Seyfəlmülühün bir başı olur, iki də əli.

## 4. BİŞİBİTDƏNİN NAĞILI

Biri varıymış, biri yoxuymuş, bir məmləkətdə bir qoca ana və bir qoca ata var idi. Onnarın ahıl vaxdarında bir oğlannarı olur. Kiçik olduğuna görə adını Bişibitdən qoyullar. Bişibitdən həmişə fikirrəşirmiş ki, mən neynəyim ki, atamnan anam cavannaşsın, tay-tuşdarımın ata-anası kimi olsun. Bir günnəri onun qarşısına bir dərviş çıxır və deyir:

– Oğul, mən sənin dərdini bilirəm. Sən isdiyirsən atan-anan cavannaşsın, gərəh gedip yeraltı dünyadan öküzün belindəki almanı gətirəsən. Sənin atan-anan o almadan yeyə, cavannaşa.

Bişibitdən bu sözdən həm sevinir, həm də kədərrənir. Sevinir ona görə ki, onun ata-anasının cavannaşmasının dərmanı var. Məyus olur ona görə ki, yeraltı səltənətə getməh üçün o hara getsin, dərdini kimə desin. Buna baxmıyarax, o fikrində qəti idi. Nə yolnan olur olsun, gedib qızıl almanı gətirməlidi. Odu ki, durup gəlir ana-atasının yanına, uzax səfərə çıxacağı barədə xəbər verir. Ata-anası ona belə deyir:

– Ay bala, hara gedirsən, bizim bir ayağımız burda, bir ayağımız gordadı. Gəl sən bu fikirdən əl çək. Bizim ocağımızı söndürmə, bala.

Bişibitdən bunnarın sözünə qulağ asmıyarax bir dəmir çarıx düzəltdirir, bir xurcun götürüb, içinə quru çörəhdən doldurup düzəlir yola. Az gedir, üz gedir, dərə-təpə düz gedir. Sıldırım qayalardan, başı qarlı dağlardan keçir, qırx gün, qırx gecə yol getdihdən sora gəlip bir yerə çatır ki, buranın dünyada tayı-bərabəri yox idi. Bir tərəfdə şəlalə, bir tərəfdə gül-bülbülü, bülbül-gülü çağırır. Birdən orada bir kişinin öküz sürüsü otardığını görən Bişibitdən ona tərəf yaxınnaşır. Dərdini ona danışır. Qoca nurani kişi ona deyir:

– Oğul, düz yerə gəlip çıxmısan. O öküz mənimdi. Mənə qulluğ edərsən, qulluğunnan razı qalsam, onu sənə verərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onnar axşam vaxdı öküz sürüsünü bir dərəyə gətirillər. Öküz sürüsünün sahibi bir tilsim oxuyur. Yer aralanır, əvvəl heyvannar, sora sürü sahibi və axırda Bişibitdən daxil olur. Sürü sahibi bir tilsim oxuyur, qapı bağlanır. Onnar mənzilə çatmax üçün bina edillər. Bişibitdən yolda gələndə görür ki, bir quşu dilinnən asıplar. Onu açıp buraxır. Quş ona bir ləlyəh verir, deyir:

– Saxla, sənə lazım olaram. Nə vaxt lazım oldum, bu ləlyəyi yandır. Gəlib sənə köməh olaram.

Bişibitdən ləlyəyi kefsiz alıp qəyişinin altına qoyur. Bir qədər getdihdən sora bir atın quyruğunnan bağlandığını görür. Atı quyruğunnan açıp buraxır. Onnar, nəhayət, qırx günnən sora gəlip evə çatıllar. Evin sahibi hər şeyin yerini Bişibitdənə sınat verir. O başdıyır can-başnan qulluğ eləməyə. Beləlihnən, illər illəri əvəz eliyir. Bişibitdən boylu-buxunnu pəhlivan kimi bir oğlana çevrilir. Malikanə sahibi onun qulluğunnan razı qalır. Onun üçün də Bişibitdəni qulluğa götürür.

Artıx ağa qocalmışdı. Bişibitdən ona da qulluğ eliyirdi. Bir gün Bişibitdəni ev yiyəsi yanına çağırıp deyir:

– Oğul, artıx mən qocalmışam. Dünyada sənnən başqa heş kimim yoxdu. Dünyada mənim kimi varrı-hallı adam da tapbax olmaz.

O, bu sözdəri deyir. Yasdığının altınnan qırx haçar götürür.

– Bunnarın içində sənə nə lazımdı, var. Ancax nə badə qırxıncı otağı açasan. Ordan sənə xeyir gəlməz. Munu mən saa vəsiyyət eliyirəm. Mənim belə evlatsız olmağımın səbəbi o otaxdı.

Elə munu demişdi ki, nəfəsi ağzınnan çıxdı. Munu ləaxlı basdıran Bişibitdən evə qayıdır. Bişibitdən birinci otağı açdı, burda qızıl-gümüş, ikinci otaxda ləl-cavahirat, üçüncü otaxda şərab içkiləri, beşdə bəzəhli quşdar, altıda dünyanın bütün təamları, yeddincini açanda burda öküz sürüsü görür. Bunnarın içərisində biri o birilərdən fərqlənirdi. Qarannığ otaxda gözdərinnən işıx gəlirdi. Bişibitdən ona yaxınnaşır. Görür kü, buna lazım olan alma burdadı. Çox sevinir. Yaxınnaşır o qızıl almanı kəsip götürür. Öküz yıxılıb ölür. Beləlihnən, o, qırxıncı otağa çatır. Öz-özünə deyir: "Burda mana nə lazımdısa götürdüm. İndi çıxım gedim". Bu vaxt görür burdan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxmağın sirrini bilmir. Bişibitdən fikirrəşir: "Onsuz da burda ölüp qalacağam. Qoy elə qırxıncı otağı da açım, görüm orada nə var". Yaxınnaşıb qızıl haçarnan qırxıncı otağı açır. Görür kü, burda bir gözəl qız saçınnan asılıp. Yaxınnaşıp onu saçınnan aşmağ isdiyir. Bu zaman vay-qışqırıx düşür. Divardan divlər çıxıp Bişibitdənin üsdünə hüjum eliyillər. Bişibitdən onnarnan vuruşub əldən düşür. Bilmir neyləsin. Bu vaxt yadına atın verdiyi tüh düşür. Tez tükü yandırır, at yanında peyda olur. Bişibitdən qızı götürüp, ata minip qaçır. Bura gəlməsinin səbəbini qıza danışır. Deyir:

– Sirri bilmirəm, ona görə də burdan çıxa bilmiyəjəm.

Qız deyir:

– İşıxlı dünyanın yolunu dilinnən asılmış quş bilir. Onu da bu məmləkətin sahıbı dilinnən asıp. Ona görə ki, burdan çıxmağın yolunu təhcənə o bilirdi. Atı da quyruğunnan ona görə asmışdılar kı, bu otaxdan çıxmağın yolunu təhcə o bilir. Mənim saçımnan asılmağımın səbəbi çox uzun məsələdi. Vaxdıynan mənim babam bu yeraltı dünyanı tilsimiynən ofsunnayıp cəhənnəmə döndərmişdi. Bu tilsimi malikanə sahibi qıra bildi. Təhcə bu otağı saxladı. Babamın hayıfını mənnən almaxdan ötəri məni bu tilsimli otağa salıp saçımnan asıp. Bu tilsimi qırdığına görə malikanə sahibinin övladı olmadı.

Bu vaxt Bişibitdən tokqasının altınnan quşun lələyini çıxardır. Onu yandırıb üfürür. O dəyqa Zümrüt quşu onun yanında peyda olur. Onnar quşun belinə minib işıxlı dünyaya gəlillər. Bişibitdən gəlib evlərinin qapısını döyür. İçəridən səs gəlir:

– Sizə kim lazımdı? Bizim bir övladımız varıydı. O da bir neçə il munnan qabax öldü.

Bişibitdən özünün sağ olduğunu onnara deyir. Onnar gözdərinə inanmıllar. Bişibitdən gətirdiyi almanın yarısını atasına, yarısını da anasına verir. Onnar cavannaşıllar. Bişibitdən qarannıx dünyadan gətirdiyi nemətdəri yerbəyer eliyip gətirdiyi qıznan evlənir. Onnar ömürlərinin axırına qədər kef-damağnan yaşıyıllar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 5. GUDULUN NAĞILI

Biri varıymış, biri yoxuymuş, bir arvat, bir də bir oğlu varıymış. Anası deyip:

– Bala, biz gedəh başqa yerə düşəh, burda dolana bilmirih.

Gedillər. Oğlan bir gün gəlip deyir:

– Ana, gedirəm ov ovluyam, quş quşduyam.

Anası deyir:

– Bala, sən get. Mən evdəyəm, bərk naxoşdamışam.

Oğlan gəlip deyir:

– Ana, bu ovladığımnan maa yeməh düzəlt, yeyim.

Anası deyir:

– Burda deyillər, quyu var. Amma mən tanımıram.

Oğlu aparıp quyunu gösdərir. Anası səhər gedir həmin quyudan su çəkməh isdiyir. Bu vaxt bir Gudul vedranı bərk-bərk tutur. Oğlanın anası nə qədər dartır, vedra çıxmır. Arvat bu vaxt çığırır kın, ay aman, ay dad, bu vedra niyə çıxmır? Gudul çır-çır çığırır kı, mənəm, bura düşmüşəm. Məni çıxart, sənə lazım olaram. Arvat Gudulu da çıxardır. Arvad onnan soruşur:

– Sən bura niyə girmisən?

O deyir:

– Məni gətirib atıplar bura.

Gudul deyir:

– Sənin yoldaşın, ərin var?

Arvad deyir:

– Yox.

Gudul deyir:

– Məni aparıb öza yoldaş eliyərsən?

Arvad deyir:

– Mənim oğlum məni öldürər. Səni aparmıram. Oğlumnan qorxuram.

Gudul deyir:

– Sənin oğlun gələndə gizdənərəm, oğlun gedəndə bir yaşıyarıx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvadın oğlu gəlib evə. Kişi gedip yükün dalında gizdənip. Oğlu anasına deyir:

– Ana, nətərsən?

Anası deyir:

– Bala, azarramışam, ölürəm.

Oğlu deyir:

– Ana, saa həkim gətirəh?

Anası deyir:

– Oğul, mən həkimə getmişdim. Maa dedilər ki, Saratovda yaxşı, qızıl ağaşdarda qızıl alma var. Onnarı maa gətirsən, sağalaram.

Oğlu deyir:

– Ana, mən onu sənə gətirərəm. Təki sən sağal.

Oğlan səhər durub az gedip, üz gedip, dərə-təpə düz gedip, qabağına bir qoca, nurani kişi çıxır. Oğlan o adama deyir:

– Ay baba, mənə Saratov şəhəri lazımdı.

Qoca deyir:

– Oğul, mən sənin ora getməya razı deyiləm. Çünki ora həddinnən artıx qorxulu yerdi. Onnarı gətirməh üçün qırx harambaşı* var, gərəh onnara qırx kilo qır alasan. Onnar ağzını ayırdıxca qırı atasan, qılışnan vurasan.

Bu oğlan çox çətinnihnən o harambaşıları qırıp keçib, uzax yol gedip, gəlib çatır Saratov şəhərinə. Girir bağa. Görür kü, burda o qədir meyvə var. Meyvənin də yanında qızıl öküz var. Oğlan meyvələri yığdığına görə qızıl öküz ona hüjum eliyir. Oğlan qılıncını çəkip qızıl öküzü vurub öldürür. Meyvələrin hamısını yığıp, yükünü tutup gəlir. Yolda genə qırx batman qır alıp harambaşıların ağzına doldurur. Qılıncı hərriyip, vura-vura gəlip çıxır anasının yanına. Oğlu deyir:

– Ana, çətinnihnən tapdım meyvələri, gətdim, görəh saa bu xeyir eliyəcəh.

Anası üç günnən sora oğluna deyir:

– Bala, get sən həmin meyvələrdən genə gətir.

Oğlu deyir:

---

* harambaşı – hərami başı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ana, çox çətin yollardı. Amma mən gedərəm. Təki sən sağal.

Oğlan yola düşüb az gedir, üz gedir, dərə-təpə düz gedir, genə də bəyaxki qoca kişiyə ras gəlir. Qoca kişi bunnan soruşur:

– Bala, sən genə hara gedirsən?

Oğlan deyir:

– Anam sağalmadı. Genə Saratov şəhərinə gedirəm, qızıl öküzün yanınnan qızıl meyvə gətirəm.

Nurani qoca deyir:

– Oğul, səni o anan alladır. Onun aşnası var. Əməli düz ana səni belə yerə göndərməz. Sən qayıt onnarı güd. Onun müşdərisi var. Görəcəhsən. Onnarı bir yerdə görəcəhsən.

Oğlan nurani kişinin sözünə baxır, geri qayıdır. Oğlan gələndə Gudul onu görür. Arvada deyir:

– Oğul doğduğun yerdə qarnın yırtıleydi. Oğlun budu de, gəlir.

Oğul görür ki, bu kişi və anası da bir yerdədi. Oğul anasının hiyləsini başa düşür. Gudulu da, anasını da doğruyur. O peyğəmbərsifət kişiyə çoxlu alqış eliyir.

## 6. QARAÇUXASINI AXTARAN OĞLAN

Kasıflıx əl vermir oğlana, oğlan deyir ki, gedim qaraçuxamı durğuzum. Oğlan düşür yola, gedir-gedir, bir ayrı vilayətdə bir dənə şəxs çıxır bunun qabağına. Deyir ki, hara gedirsən?

Deyir:

– Gedirəm qaraçuxamı durğuzmağa.

Deyir:

– Onda mənim də qaraçuxamı durğuz. Bağmanam, neçə ildi bağım bar vermir. Bəs mən nəynən dolana bilərəm?

Deyir:

– Yaxşı.

Burdan keçir, nəysə, bir xeylax yol gedənnən sora bir dənə qız patcahın vilayətinə ras gəlir, onun ölkəsinə daxil olur. Patcahın ölkəsində bu birəz qalmaxda olur. Deyir ki, bəs yaxşı, hara gedirsən? Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gedirəm qaraçuxamı durğuzmağa.

Deyir:

– Saa qurban olum, onda mənim də taleyimi danış, orda deynən ki, filan ölkənin patcahı var, qızdı. Mənim camahatım maa biyət eləmir. Bəs mənim qaraçuxam dursun, bəlkə mənim adamlarım maa biyət eləsin.

Deyir:

– Yaxşı.

Gedir, gedir, genə bir meşənin küncünnən keçəndə Tühsüzağa bına ürcah gəlir. Deyir ki, hara gedirsən?

Deyir:

– Qaraçuxamı durğuzmağa.

Deyir:

– Bəs mənim də ərzi-bəndəliyimi elə. Mən yeddi ildi tühsüzəm, mən çox əzap çəkirəm. Mənim qaraçuxam dursun, bədənimə tük gəlsin.

Deyir:

– Yaxşı.

Gedir, nəysə, qaraçuxanı tapır. Nejə mən danışdığım kimi qaraçuxasına danışır. Deyir:

– Bağmana deynən ki, yaxşı bir siyapərdə qızı var, versin bir yaxşı oğlana. O, bağmançı olsun, o da otursun əvdə, ağsakqal kişidi də, gessin bağına, gəzsin görsün necə bar gətirir.

Sora deyir:

– Get o ayıya deginən ki, ağılsız adam beyni yesin, tühlənəjəh.

Hə… Deyir:

– Yaxşı.

Gəlir əyənnən bəri, bu bağmanın sözünü danışır. Bağman deyir ki, gəl qal mənim ölkəmdə, qızımı verim saa, ol bağmançı, kefnən yaşa.

Deyir:

– E-e, qaraçuxamı oyatmışam, maa heş-zad lazım döyül.

– Yaxşı, get.

Gedir. Gedir çıxır patcahın ölkəsinə. Qız patcahı deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Noldu?

Deyir:

– Sənin qaraçuxaa durğuzmuşam. Dedi ki, lap gədə olsun, pis olsun, gessin bir şəxsiyə ərə, qoysun onu öz yerində patcah, özü də onun xanımı olsun. Görsün adamları ona nejə biyət eliyəjəh.

Deyir:

– Onda gəl elə sən məni al, mənim yerimdə patcah ol. Mən də olum sənin xanımın.

Deyir:

– E-e, qaraçuxamı durğuzmuşam. Maa sənin patcahlığın lazım dəyil.

Nəysə, gedir, gedir, çıxır ayının yanına. Ayı deyir ki, nooldu? Deyir ki, sənin qaraçuxan dedi ki... Deyir:

– Nə gördün, nə eşitdin?

Bu, əyənnən bəri mən danışdığım kimi danışa-danışa gəlir. Filan bağman maa belə dedi, filan patcah maa belə dedi. Hamısını danışır. Bu da eşidir. Deyir:

– Bəs maa nə dedi?

– Dedi ayıya deynən bir ağılsız adam beynini yesin, onnan sora tühlənəjəh, yaxşı tühlənəjəh.

Ayı bir yerə baxır, bir göyə baxır, deyir:

– Sənnən sıvayı ağılsız tapbıyacam mən.

Atılır bını yeyir. Ayının tükü gəlir. Görür kü, bir belə şeyə yiyə durmuyup dana, bunun qaraçuxası durmuşdu. Bu oğlan da belə gedir.

## 7. OVÇU OĞLANLA MƏLEYKƏ

### I mətn

Bir oğlan ovçuluğnan aylesini dolandırırmış. Bir gün tüfəngi götürür, gedir meşiyə. Gəzir dolanır, əlinə hessad gəlmir. Çıxır meşənin dal tərəfinə dağlara. Ora-bura gəzir, nə isə əli gətimir, bir şey tapbır. Qayıdıf deyir neynək, meşədə böyüh ağacın divində bulax var, yuyunum eliyim, su da içim, gedim. Olmadı, olmadı. Gələndə belə baxır, görür bulağın başında metir yarımlığında gözəl ağ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ilandı, bir də bir gödək qara nüfuz ilandı*. Ağacın dalında gizdənir, bunnara baxır. Görür kü, ağ ilan qaşmağ isdiyir, bu nüfuz qara ilan buna imkan vermir. Dolanır ortasına, qabağını kəsir. Bu, bir xeylax pusur-pusur, görür yox, budu, yoruldu, əldən düşdü. Bu, özünü topluyur, gözdüyür, gözdüyür, ağ ilan bunun əlinnən qutarıf aralananda qara ilanı vırır. Qara ilanı vıranda ağ ilan atılır olur bir qız. Atılır tutur oğlanın burasınnan, deyir:

– Mənim nişannımı niyə öldürdün?

Qəfl oldu, bir dəyqədə olan işdi, oğlanın gözü çıxır kəlləsinə. Məhətdəl qalır ki, burda qız nə gəzer, ilanıdı bu. Deyir:

– Sən nə danışırsan, nişannı nədi, qara pis ilanıdı, qoymurdu bu ağ ilan hərəkət eliyə.

Deyir:

– O, mənim nişannım idi, gəzməyə çıxmışdıx, gəzirdih. Sən onu niyə öldürdün? Düş qabağıma, gedək. Nişannımı öldürdün, indi sən məni alajaxsan.

Gedirih deyəndə bu oğlan hələ ayılmıyıf, özünü ələ ala bilmir ki, bu nə deməhdi. Deyir:

– Amma mən nə iş görsəm, mənnən heş vaxt hessad soruşmuyassan. Neynədim, nağardım, mənnən bir kəlmə söz soruşmuyassan. Düş qabağıma, gedək.

Oğlan yeriyə bilmir, ölüf, götürən yoxdu. Gəlif meşənin içinnən keçəndə görüllər bir kəsilmiş ağac var, onun kötüyünün böyründə ağ un kimi topa bir şey tökülüf yerə. Oğlana dedi ki, dəsmaldan, torbadan nəyin var, sər yerə, onnan bir iki avuş götür. Oğlan qorxa-qorxa dəsmalı çıxatdı, sərdi yerə, üsdünə bir az unnan yığdı bir-iki avuş, bağladı, vurdu qoltuğuna, götdü gəldi evlərinə. Dedi:

– Tök.

Siz görməzsiz, biz balajeydih. Bunnan qabax evin ortasında dirəh olardı. Deyir:

– Tök dirəyin divinə. Çörəh pişirəndə həmişə ordan götürün, əliyin, bişirin, qutarmıyajax.

* nüfuz ilanı – çirkin ilan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, uzun sözün gödəyi, yaşadılar. Heş kəs onnardan hes zad soruşmur. Buların bir oğlu oldu. Aradan beş gün keçif, on gün keçif. Bir gün oğlanın anası, – qojadı dana, – xəsdələndi. Oğlanın anası yatır, camaat yığılıf arvadın böyründə oturur. Birdən uşaxlar çığrışdı, hay düşdü ki, canavar gəlif kəndə. O çəpərdən bura tullanır, bu çəpərdən ora tullanır. Hamı qarışdı bir-birinə. Gəlin əlini atdı, yüyürdü uşağı tulladı canavarın qabağına. Canavar götdü, çıxdı getdi. Hamı bir-birinə baxdı: – "Bu nağayrır ə, bu niyə dinmir ə?" Oğlan dinə bilməz axı. Birdən arvad qolaydı*, ağırraşıf ölür. Gəlin tullandı oturdu yükün üsdündə, qakqıldadı güldü. Kəndin arvatdarı, – siz görməmisiz aa, üzlərini kəfən görsün, – dəydi bir-birinə ki, bəs bu nəyə gülür. Oğlan dimmir. Gəldi nə isə kəfin-dəfin elədilər. Bu arvadı darvazadan çölə çıxaranda əlini əlinə vurdu gəlin, genə şakqıldadı güldü. Kişili-arvatdı hamı döndü gəlinə baxdı, oğlana baxdı. Oğlana hamı tənə elədi, hərə bir söz dedi. Apardılar arvadı basdırdılar, gəldilər. Oğlan tutdu qızın yaxasınnan, dedi:

– Aaz, oğlumu atdın, canavara verdin, dimmədim. Nənəm öləndə böyründə oturmaxdan, bir şey verməhdən, əlini tutmaxdan, tullandın çıxdın ora, qakqıldadın güldün. Elin içində mənim dilimi gödəh elədin. İndi də əlini əlinə vuruf cənazənin qabağında şakqıldıyıb gülürsən. Məni niyə biyabır eliyirsən, bu nə deməhdi? – deyəndə qız dedi ki, mən saa deməmişdim ki, mənnən heş zad soruşmaa? Canavar dediyin mənim xalamdı. Mən bilirdim ki, arvad ölür, uşağa baxan olmuyajax, korrux çəkəjeh. Xalamıdı gəlmişdi, atdım ki apara, aparıb saxlıyajaxdı, vaxtında gətirəjeydi. Azreyil anaan başını kəsəndə qan çırtıldadı, o başda oturan arvad gülməli şəklə düşmüşdü, qan dağılmışdı bura (burnunun üsdünü göstərir – top.) damcılıyırdı, düşürdü arvadın dodağına, buralarına. Ona güldüm, gülməyim tutdu. Elə sən də gülərdin. Onuncün qaqqıldadım güldüm. Sora da işıxlı dünyada nənən bir heylə yaşıyıf, heş kəsə əl tutmuyuf, heş nə vermiyif. Bir kötüh süpürgə, bir də bir ayakqabı

* qolaydı – ölüm ayağındadır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tayı qoşuluf bir-birinə cənazənin qabağıynan oynuya-oynuya gedirdilər. Ona güldüm.

Oğlan belə baxır ki, yoxdu. Məleykə imiş, uçuf gedif, yoxdu.

**II mətn**

Biri varmış, biri yoxmuş, bir ananın bir oğlu varmış. Bu oğlan dünyaya gələndə bunun gözü kor olur. Gözü kor olduğu üçün səbri bir yerdə qərar tutmur. Gedir bir ağacın divində oturur, söyüd ağacının divində. Oturanda bı çox gileyli-güzarlı olur orda. Bu vaxt görür ki, iki göyərçin gəlib qonub bu söyüdün başına. Bular dil olub dillənir. Deyir:

– Ay oğlan, niyə narahatsan, niyə gileylisən?

Deyir ki, dünyada işıq üzünə həsrətəm. Bular qanadınnan salır, oğlan əlini ora-bura vurur, ancax əlinə bir şey gəlmir. Göyərçinnər düşüllər yerə. Bunun biri qanadının birinnən qırır, sürtür onun gözdərinə, gözdəri açılır. Quşun biri uçur göyə, o biri qalır, olur bir dənə gəlin. Deyir ki, ay oğlan, sənə nə olub ki, belə olmusan? Oğlan deyir ki, mən elə anadangəlmə belə koram. Deyir ki, gözdərimi aşdım səni gördüm, day sən mənimsən.

Deyir:

– Heç ola bilməz, mənim sirrərim çoxdu. Sən mənim sirrərimi saxlıya bilməzsən.

Deyir:

– Vallah saxlıyaram, gəlginən mənnən ayrılmaginən.

Deyir:

– Yox e, heç ola bilməz. Mən sənə and verəcəm, anda yəə dursan, mən sənnən aylə quraram.

Deyir:

– Səni and verirəm səni yaradan üsdəki o bir Allaha, mənim sirrərimi dağıtmaginən, mən mələyəm. Allah-tala səni bıdı, neçə illərdi kor qoyub, bu tərəfdən də məni gətirib sənə bəxşeyiş eliyib. İndi mən sənə and verirəm ki, mənim sirrərim heş kəsə demiyəsən.

Deyir:

– Yaxşı, mənim gözüm üstə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Götürüb bunu aparır evlərinə. Evə gələndə oğlanın anası görür ki, bu, bir dənə də qız gətirib. Deyir:

– Ay bala, bu kimdi, bunu hardan tapdın?

Deyir:

– Allah tərəfinnən bu mənə bəxşiş olunmuş bir mələkdi. Bunun sirrərini day soruşma.

Bunnan sora ay ötür, il dolanır, vaxt gəlir. Bir il keçənnən sora bunnarın bir uşağı olur. Uşax dünyaya gələnnən sora bu oğlana genə deyir ki, səni and verirəm Allaha, mənnən heş bir şey soruşma.

Deyir:

– Yaxşı, heş bir şey xəbər almaram.

İllər keçir, bu oğlanın anası qocalır, rəhmətə gedir. Ölüm zamanı, onun başının üsdündə Əzrayıl durub başını kəsən vaxtı arvadın qanı hər yerə səpələnir. Bu qız mələh olduğuna görə bunu görüb sıçrayıb çıxır taxçaya. Taxçada oturanda oğlan bunu görür, deyir:

– O nəyidi ki, sən çıxdın taxçada oturdun?

Deyir:

– Mən sənə demişəm ki, mənnən heş zad xəbər alma.

Hə, bunu məzara yola salanda bunun cənazəsinin dalınca bir tay çarıx gedir. Mələk cənazənin dalınca gedəndə bu bir tay çarığı görür. Gülümsünəndə oğlanın ürəyində şək qalır ki, axı bu öləndə sıçradı taxçanın üsdünə, yola düşəndə gülümsündü. Oğlan dedi: "Bırda bir sirr var da yəqin. Mən bınnan agah olmalıyam".

Gedib bunu məzara qoyub rahatdıyannan sora evə gəlillər. Deyir:

– Ay qız, səni and verirəm səni yaradana, de görüm bu nə sirdi, heş kəsə demiyəcəm, sənnən mənim aramda qalacax.

Deyir:

– Yox, heç ola bilməz. Bir balamız var, xayiş eliyirəm gəl onu bizdən ayırmaginən. Demiyim, desəm mən uçub gedəsiyəm.

Deyir:

– Uçub getsən də, gərək məni bu sirdən halı eliyəsən.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yaxşı, vaxtaş ki sən məni vadar elədin, mən deməliyəm. Sənin anan ölən vaxtı, Əzrayıl başını kəsəndə yanındakılar görmürdülər, mən onu görürdüm. Onun qanı çiləndi, hər yanı qannan doldu. Mən mələyəm axı, onun qanına bulaşmamalıyam. Ona görə sıçrıyıb taxçada oturdum. Qaldı ki, məzara yollananda, qonşuya bir tay çarıx veribdi, o, onun cənazəsinin dalınca gedirdi. Mən onu gördüm, ona görə gülümsündüm. O qədər xəsis olubdu ki, bını cüt də vermiyif, tay verifdi. Bu dünyada heş kimə xeyir vermiyifdi. Allah tərəfinnən mən sənə bəxş olundum. İndi də sən hər sirrimi bilmək isdiyirsən. Ona görə də əlvida, mən getməli oldum. Day mən uçuf gedirəm.

Hə... Onnan sora bı, uçur göylərə, çıxır gedir.

## 8. QIZIL AXTARAN MƏHƏMMƏD

Bir gün bir malını yeməz kişi varmış. Saa deyim ki, pul xaşdıyan döyülmüş. Nəysə, qızılı, qəpiyi bir-birinin üsdünə topluyup aparır bağda basdırır. Heş kəsə də yerini demir. Nəysə, ölür gedir. Ölənnən sora camahat bunun oğluna deyir ki, bəs sənin ataa vardööləti varıdı. Bu da gəlir anasına deyir:

– Ana, nətər ola, mənim atamın varı ola, mənim onnan xəbərim olmuya.

Anası and-aman eliyir ki, bilmirəm. Deyir:

– Ana, mən neyliyim onu tapım?

Deyir:

– Burda heş kəs onun yerini bilmir. Get kəs Musa peyğəmbərin yolunu. O gedəjəh Allahnan kəlmələşməyə. Örgənsin yerini, gəlsin saa desin.

Deyir:

– Yaxşı.

Gedir kəsir Musa peyğəmbərin yolunu. Görür Musa gəlir. Deyir:

– Ya Musa, saa fəda olum, mənim atam varrı olup. Amma varının yerini nə anam bilir, nə də mən. Allahnan kəlmələşəndə örgən o qızılın yerini, gəl bizə de. Acınnan batıp qırılırıx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Musa deyir:

– Yaxşı.

Nəysə, gedir, danışır, qutarannan sora deyir:

– Ya Xalik, saa agahdı da, mən nə deyəjəm. Bunun sirrini de, mən də ona deyim.

Deyir:

– Get ona de ki, mən onu ancax o dünyaya göndərə bilərəm, dədəsi deyə bilər onun yerini. Mən deyə bilmərəm onun yerini.

Gəlir Musa da belə, olduğu kimi deyir. Bu da deyir:

– Yaxşı, gedirəm.

Deyir:

– Onda get altı qavır say, yeddinciyə gir.

Nəysə, bu gedir. Məhəmməd imiş gədənin adı. Altı qavır sayır, yeddinciyə düşür. Görür, ə, burda bir böyüh şəhərdi, filan. Cənnətdi, nə bilim cəhənnəmdi. Geciyə düşür burda bunun qavağı. Birinci qapını döyür. Deyir:

– A qardaş, Allah qonağı qəbul eliyərsənmi?

Deyir:

– Ə, Allaha da qurban olum, qonağına da. Əyin var, yatmağa mitil yoxdu.

İkinci qapıya gedir, deyir:

– Allah qonağı, a qardaş.

Deyir:

– Ə, Allaha da qurban olum, qonağına da. Mitilim var, əyin yoxdu.

Üçüncü qapıya gedir. Qapını döyüp deyir:

– Qonax, Allah qonağı.

Deyir:

– Ə, Allaha da qurban olum, qonağına da. Gəl.

Gedir girir içəri, görür əv yiyəsi bircə adamdı. Deyir:

– Qardaş, adın nədi?

Deyir:

– Məhəmmətdi.

Bının da adı Məhəmmətdi. Deyir ki, sən hardan gəlirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Mən gəlmişəm dədəmnən qızılın yerini örgənəm.

Bu əv yiyəsi gülür, deyir:

– İndi dədaa gösdərəjəm, dayan.

Sora çörəh-zad gətirir. Ancax nə qədir eliyirsə, qonax bı ev yiyəsinin gətdiyi yeməyə əlini vurmur. Məhəmmət deyir ki, ə, əv yiyəsi sənsən, sən çörəh kəs, mən də kəsim dana.

Deyir:

– Yox e, mən kəsmirəm.

Deyir:

– Sən kəsmirsənsə, onda mən də kəsmirəm.

Nəysə, bu əv yiyəsi Məhəmmət bir loxma kəsip ağzına qoymax isdiyəndə göydən bir ilan gəlir bunun dilinin ucunnan vurur, bu olur torpax, tökülür yerə. Soradan yavaş-yavaş qabarır yenidən olur adam.

Bu qonax Məhəmmət deyir ki, qardaş, sənin çörəyii yemərəm. Deynən görüm, bu nə hadisədi sənin başaa gəlip. Bu nədi ki, sən ağzaa çörəh qoyanda o tərəfdən ilan gəlir dilii ucunnan vurur?

Deyir:

– Soruşmasan yaxşıdı.

Deyir:

– Yox, canın üçün, deməsən çörəyı kəsmiyəjəm. De görüm, bu nə hadisədi başaa gəlip.

Deyir:

– Qardaş, dilimin bəlasına düşmüşəm.

Deyir:

– Nədi?

Deyir:

– Odu ku, dünyada Fatma adında mənim bir əmimqızım varıdı. Mən onu sevirdim. Niyəsə o maa gəlmək isdəmədi. Mən ona şər atdım. İndi o, o dünyada qalıp, həştat yaşı var. Ona gora da indi onu heş kəs almıyıp. Hər gejə odu ku, gəlir mənim dilimin ucunnan ilan vurur, oluram torpax, yenidən adam oluram. Mənim başıma gələn budu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Qardaş, gedəjəm nətər olur-olsun səni kutaram gərək. Sənin bu hak-hesabaa dözmək mümkün dəyil.

Deyir:

– Nə bilim day, əlaş qalıp saa.

Deyir:

– Yaxşı, gedəh dədəmin yerini gösdər maa.

Deyir:

– Yaxşı.

Aparır gösdərir. Görür dədəsi sarı qıllı itdi, bağlanıp ora. Bu it az qalır oğlunu burda parçalıya. Deyir:

– Dədə, səni onnan da betər olasan, heş sənnən də o qızılı isdəmirəm.

Qayıdır çıxır gəlir. Gedir Musanın yanına çatan kimi, deyir:

– Ya Musa, saa fəda olum, mənim sənnən birinci xayışım budu ku, Məhəmmədin günahınnan keç.

Deyir ki, bala, mən onu eliyə bilmərəm. Qoy Allahnan kəlmələşim sora. Allah da buna səda göndərir ki, özün həll elə. Musa da bu Məhəmmədə deyir ki, onun günahınnan ancax Fatma keçə bilər. Fatma keşməsə, mən  keçə bilmərəm.

Deyir:

– O Fatma hardadı?

Deyir:

– Filan şəhərdə olur, özü də onun həştat yaşı var, beli bükülü.

Məhəmmət öz dərdini qoyur burda, aj qarına başdıyır Fatma gəzməyə. Bura Fatma, ora Fatma, axırı tapır, deyir:

– Fatma.

Deyir:

– Ha.

Deyir:

– Mən saa qonax gəlmişəm, sənnən bir xayışım var.

Deyir:

– Nədi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Fatma, sənnən xayış eliyirəm ki, əmin oğlu Məhəmmədin günahınnan keç. Onun vəziyəti belədi.

Deyir ki, bala, sən gəlmisən bura, amma mən onun günahınnan keşmərəm. Ona görə ki, mən həştad yaşımda heş bir şey, barsız ağaş kimi yaşamışam. Mən hələ isdiyirəm onnan da betər olsun. Deyir:

– Fatma, onda səni buraxan deyiləm. Səni götürüp aparajam Musa peyğəmbərin hüzuruna. Orda danışax, görəh vəziyət nətər olur.

Bunu ordan qolunnan tutur düz gətirir Musanın hüzuruna. Musa deyir:

– Fatma, sən əmin oğlu Məhəmmədin günahınnan keç. Sən onun günahınnan keşsən yenidən on beş yaşında qız olarsan.

Deyir:

– Yaxşı.

Sora deyir:

– Ey yerin, göyün xaliqi, mən onun günahınnan keçirəm, sən də keç.

Bunu deyənnən sora Allah-tala onu on beş yaşında qız eliyir. Eliyənnən sora Musa peyğəmbər deyir:

– Fatma, indi kimi sevirsən, sənin kəbinı ona kəsim?

Deyir:

– Ya peyğəmbər, saa agahdı ki, mən bir belə ki, həştad il yaşamışam, mənim üsdümnən bir erkək milçək addamıyıp. Hamba, bu oğlanın əli mənim qoluma dəyip. Çünkü mənim qolumnan tutup, sənin hüzuraa gətirip. Mənim kəbinimi buna kəs.

Bunun kəbinini kəsillər Məhəmmədə – qızıl axtaran Məhəmmədə. Kəbini kəsənnən sora Allah-talıya xoş gedir. Allah-tala deyir ki, ya Musa, o getsin bağa, qiblə tərəfdən altı ağaş var, saysın, yeddincinin divini qazsın. Qızıllar ordadı.

Ordan gəlir altı ağac sayır, yeddincinin divini qazır. Qızılı tapır. Onnan sora onnar şad-şalayın dolanıllar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 9. DƏMİRÇİNİN ƏLİ NİYƏ ODDA YANMIR?

Bir şəxsi olur, həmişə əkin əkirmiş. Dəmirçiymiş, əkin də əkirmiş. Bu dəmirçinin toxumu olmur bir il yer əkməyə. Qalır belə məhətdəl. Öküzü varımış, toxumu yoxumuş. Deyir: "Mən nağayrım, toxumu nəynən alım?" Arvad deyir ki, gəl saa bir məslahat verim.

Deyir:

– Nədi?

Deyir:

– Gəl öküzün birini satax, verəh toxuma. Qonşuya deyəh, qonşunun öküzüynən cütdəşdirəh, o da getsin yerini şumlasın, biz də. Toxum səpəh yerə, qalmıyax məhətdəl.

Kişi gətirir öküzü satır, toxumu alır yığır əvə. Sora qonşuya deyir, qonşu öküzünü cütdəşdirməyə buna vermir. Kişi qalır məhətdəl. Dəmirçi qalır məhətdəl. Arvadı deyir ki, ay kişi, gə gejə götürək, gejeynən get toxumu səp yerə. Bir tərəfinə məni qoş, bir tərəfinə də öküzü qoş. Bir tay öküzü var dayna. İşıxlanatan, hərriyək, səpəh gələk.

Kişi deyir:

– Ay arvad, səni mən nətər qoşum?

Deyir:

– Heş-zad olmaz. Nolajax? Heş kəs də görməz. Gejeynən gedəjiyih, gələjiyih.

Nəysə, dəmirçi arvadın sözünə baxır. Gejeynən götürür toxumu, gedir sahəsinə. Səpir, bir tərəfinə arvadı qoşur, bir tərəfinə öküzü qoşur. Şumluyur, səpir, hərriyir gəlir.

Nəysə, axırıncı günü toxum çox olur. Nəysə, hərriyincən, kutarıncan işıxlanır. İşıxlananda deyir ki, toxumu yerdə qoyup gedə bilmərik. Nolajax, olajax, qoy hərriyəh kutarsın.

Bunnar bunu hərriyənəjən görür kü, bir oğlannan bir gəlin gedir. Bu gəlin baxır onnara, qayıdır gülür. Deyir ki, onnara bax e. Onnar da bizim kimi aylədi, arvadı qoşup öküzə. Deyir, gəlin şakqıldıyır gülür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu çox təsir eliyir bunnara. Allah-talıya da təsir eliyir. Nəysə, Allah-tala elə eliyir ki, o ili onun taxılını heş yığıp-yığışdırmax olmur. Hər yanı qurudur, bir damcı taxıl olmur o ölkədə. Bircə dənə bu dəmirçinin taxılı nəğədə anbarrara tökür, tutmur. Millət gəlir bunnan alır, aparır camahat hamısı. Day heş kəsdə yoxdu bunnan sıvayı.

Bu gülən arvadın kişisi deyir ki, gedim mən də taxıl alım, onun yaman taxılı var. Hamıya taxıl verir, yühlüyür, gedir. Gəlir deyir ki, mən də taxıl almağa gəlmişəm.

Deyir:

– Mən saa taxıl vermirəm.

Tanıyır dayna onu. Deyir:

– Niyə?

Deyir:

– Nəysə, vermirəm dayna, kefim isdiyir, vermirəm.

Bu çox deyənnən sora deyir:

– Get onda arvadı göndər.

Kişi qayıdıp gəlip deyir ki, bəs maa belə dedi. Bunnar gənə – Allah heş kafar bəndəni ajdıx eləməsin, ajdıx pis şeydi, – çox korrux çəkillər. Axırı kişi deyir ki, ay arvat, kim biləjəh, dur get dayna. Məjbur olur, arvad heylə yolun qulu dəyilmiş, arvat durur gəlir.

Deməli, dəmirçi işdiyəndə bir oğlan gəlip söykənip qapıya, baxıp görür kü, bu dəmirçi əliynən iş görür. Nə çəkici var, nə zindanı var. Qızardır, əliynən döyür. Durur orda baxır, baxır. Axşam düşəndə dəmirçi oğlana deyir ki, sən təzə gəlmisən bu şəhərə? Yerin yoxdu qalasan?

Deyir:

– Yoxdu.

Oğlan bunu örgənmək isdiyir. Deyir:

– Onda gəl gedək bizə.

Bu dəmirçi oğlanı gətirir əvinə. Gətirəndə bu hadisəni muna söhbət eliyir. Deyir:

– Sən əlinnan qızmar dəmiri belə götürürsən, belə vurursan, belə döyürsən, çəkişsiz, zindansız.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qoy, deyəjəm saa. Gəlin gəldi, dedi: “Gəlmişəm taxıl almağa. Hamma səni ant verirəm Allaha, məni elə yerə apar heş kəs görməsin məni, bilməsin”. Deyir, dedim ki, arxayın ol. Deyir, bunu bu əvdən o əvə, o əvdən bu əvə keçirdim, bir dənə yalqız əvə apardım bu gəlini. Deyir, dedi ki, bəs saa dedim məni elə yerə apar, heş kəs görməsin. Mən də heylə yolun qulu dəyiləm. Hamma munu imtaana çəkirdim. Allah da bilir ki, mən o yolun qulu dəyiləm. Deyir, gəlin dedi ki, bəs mən demişəm, məni elə yerə apar ki, heş kəs olmasın. Deyir, dedim ki, kim var burda? Deyir, dedi ki, burda yeddi göz baxır. Yeddi adamın gözü var. Dedim hanı? Dedi ki, iki məleykə – biri mənim bu çiynimdə, biri bu çiynimdə, biri də mənim özüm – bu üç. İki məleykənin biri sənin bu çiynində, biri də o çiynində, biri gözdərin – altı. Yuxarıdan Allah baxır, bu da yeddi. Yeddi gözün qabağında iş görmək olar? Deyir, çəkdim dedim ki, sən mənim axirət günümə qədər bajımsan. Mən səni sınağa çəkirdim. Mən heylə yolun qulu dəyiləm. Civimnən siyahını çıxartdım, gətdim, deyir, siyğə oxudum, bajı-qardaş möhürü vurdum. Dedim, alarsan, apararsan, verərsən munu ərina. Sən saat neçədə, saat neçədə mənim bajımsan. Bu möhürü vurmuşan muna. Deyir, bunu taxılnan yüklədim, çıxdı getdi. Getdi, gəldim yatdım. Yatdım, onda gördüm qapımı döyüllər. Qapımı döyəndə qalxdım ki, qapını açam. Aşdım qapını, gördüm neçə adam kəsdirip qapımı. Maa deyillər ki, tez ol patcahın əmridi, gərək sən min dənə mıx, min dənə nal düzəldəsən, patcahın qoşunu davıya gedir. Tez ol, tez ol gəl, məni tələsdirdilər. Deyir, gəldim gördüm tükanın qapısı açıxdı. Bıy, Allah, bu niyə açıxdı görən? Girdim içəri, dalımca girdilər: "Tez tərpən, tez tərpən". Əl atdım, gördüm kəlpətinim yoxdu, əl atdım, çəkicim yoxdu, gördüm kürəm yanır elə. Maa dedilər: "Tez ol". Tutdular əlimnən, soxdular kürüyə. Tutdular biləyimnən, soxdular kürüyə. Soxdular kürüyə, gördüm əlim yanmır.

– Qoy dəmiri qızarsın.

Dəmiri qoydum qızardı. Götdüm nalı əlimnən, gördüm maa heş-zad eləmir. Qoydum zindanın üsdünə, yumruğumnan belə-belə əzdim, tulladım. Deyir, maa dedilər ki, sən bu dünyada da cəhənnəm odunnan kənarsan, o dünyada da. Sən orda o işi tutmusan, Allaha xoş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedip də. Sən onu göyərtmisən orda, səni də göyərtdi burda, axırda aydınnıx oldu. Sən indi oğulbaoğul cəhənnəm odunnan kənarsan, burda işdiyessən. İndi mən odu ku, əlimnən işdiyirəm, qardaş, deyir.

## 10. ALLAH XOFU

İmam Hüseyinnən Allah-tala kəlmələşmişdi. Allah-tala İmam Hüseyinə demişdi ki, üç kəlmə sənnən danışıram. Birini de, birini desən də olar, deməsən də, birini demə safsim.

Adam göndərirdilər quyudan su çıxartmağa. Gedip quyuya yendihcə baş gedirdi, bədən qalırdı. Bir günnəri Cənab Əmir qeyzdəndi ki, mən gedip quyudan su çıxardajam. Getdi yendi quyuya. Dedi ki, mən desəm ki, yandım, çəkin, çəkmiyin haa, yendirin aşağı.

Cənab Əmir yendi quyunun divinə, çığırsa da çəkmədilər. İmam Hüseyinin qulluxçusu vardı. Dedi ki, durarsan quyunun ağzında, hər kəs gəlip maa Cənab Əmirin salamat çıxdığını desə, dünyada nə isdəsə, verəjəm. Nəysə, qulluxçusu da durup orda gözdüyür. Cənab Əmir yendi, getdi yerin təkinə, yerin altında gördü kü, burda cin qoşunu var. Cənab Əmir qılıncı çəkdi, düşdü bu qoşuna. Sağa, sola çala-çala yerin altıynan gedirdi. Namazı olanda çızığı çəkirdi, cızığın içində namazı qılırdı, heş kəs yaxın gələ bilmirdi. Bir də kutarannan sora çalırdı qılıncı. O qədər qırdı ki, getdi çıxdı quyunun altında cin patcahı varıdı, cin patcahının hüzuruna. Cin patcahı dedi ki, bizim camahatı niyə qırırsan?

Dedi:

– Sizin millət niyə tabe olmur?

Dedi:

– Siz nə möcüzə gösdərirsiz ki, sizə tabe olax?

– Nə möcüzə isdiyirsən, – Cənab Əmir dedi.

Dedi:

– Durduğun yer dünyanın harasıdı?

Dedi:

– Durduğum yer – yerin altındadı ha, – dünyanın ortasıdı, Kəbənin evidi, Kəbənin evinin altıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:
– Hə.
Cin patcahı dedi:
– Arvad çoxdu, kişi?
Dedi:
– Arvat.
– Niyə?
Dedi:
– Arvat belə çoxdu ki, arvat arvatdı, arvadın yolunca gedən kişi də arvatdı.
Dedi:
– Saa fəda olax. Nə deyirsən biz eliyək, saa biyət eliyək. Mənim övladım yoxdu.
Cənab Əmir civinnən alma çıxardıp dedi:
– Adın nədi?
Dedi:
– Adım Cəfərdi.
Dedi:
– Yarısını özün ye, yarısını ver arvadın yesin. Bir övladın olajax, adını qoydum Səfər.
Burda razılaşdı, Cənab Əmir su da götürüp çıxdı yuxarı. Dedi:
– Məni çəkin.
Quyunun ağzında duran qaroulçu yüyürə-yüyürə getdi İmam Hüseynin üsdünə ki, müjdəmi bu saat ver, Cənab Əmir gəlir. Dedi:
– Nə verim? Mal verim, pul verim?
Dedi:
– Yox, heş şey isdəmirəm.
Dedi:
– Bəs nə verim?
Dedi:
– O, Allah-talaynan üş kəlmə danışmısan haa. Allah-tala saa deyip ki, birini de, birini desən də olar, deməsən də, birini heş demə. Bax, o demə dediyini gərək maa deyəsən, – deyəndə qaldı İmam Hüseyin aciz. Allah-taladan səda gəldi ki, ya İmam Hüseyin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dediyaa əməl elə. Mən icazə verirəm, de. Dedi ki, Allah-tala deyir ki, kimin ürəyində bir xaşxaşın dənəsincən mənim xofum olsa, o, cəhənnəm odunnan kənardı – deyəndə başdadı bu süzdü əynə, süzdü bəynə ki, mən elə siznən yaşıyıram, onda mən heş cəhənnəm odu görmüyəjəm.

## 11. HƏZRƏT ƏLİ

Bir gün imam Əli girir su suarmağa. Belinə bir şivrim bağlıyır, su suarır. Vəzir, vəkil çıxmışmış ova. Deyir ki, əmi can, işin irəli. Bırda niyə su suarırsan?

Deyir:

– Mən qulam da. Bir adam yoxdu ki, məni apara işdədə.

Deyif:

– Gə gedəh bizim ağamızın yanında işdə, bizə nökər lazımdı.

Gətirif deyir:

– Patşahi-aləm sağ olsun, yolda bir dənə kişi vardı, belində şivirim. Gətirmişəm ki, bizdə tavla-zad altı təmizdəsin da, nökər.

Deyir:

– Xoş gəlmisən oğul, əlinnən nə gəlir?

Deyir:

– Əlimnən hər şey gəlir, bir tavla təmizdəməh gəlmir.

Deyir:

– Yox, nökərsən, təmizdəməlisən.

Baxır ki, hər yer kol-kosdu. Yatır, üzünü tutur Allaha, bacılarını çağırır. Bacıları deyir:

– İmam Əliyə bir iş tapşırılıf, gedəh o tavlanı təmizdiyəh.

Tezdən duruf görür nə? Tavla elə bil çiçəh, od tutuf yanır. Bı nətər yatıf, heylə də duruf, amma tavlıya baxırsan çiçək kimi təmiz. Deyif:

– A qulum, sənnən bir söz soruşum.

Deyif:

– Soruş.

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bı ağajdarı sən qəşəh təmizdiyə bilərsənmi? Orda mənim dörd dənə pəhlivanım var, gələ bırda sənnən oynuyə. Oynuyə bilərsənmi?

Deyif:

– Oynuyaram.

Üzünü tutuf Allaha, bacılarını çağırıf. Deyif:

– Bı ağaşdarı götürürsən, yerinə gül əkirsən.

Bu da yatır. Patşahın da gözü bundadı. Vəzir, vəkil baxçıya baxır, gedir deyir ki, patşahi-aləm sağ olsun, həyət od tutuf yanır. Get bax, çiçəh-çiçəyi, bülbül-bülbülü çağırır. Hər şey öz qaydasında gedir. Hər yer çiçəhdi. Deyir:

– Təmizdəməya bir söz demirəm. Mən bı sirdən baş aça bilmirəm. Mənim pəhlivannarım gələ bilərmi?

Deyir:

– Gəlsin.

Pəhlivanın biri xoruzdanır, deyir:

– Patşahi-aləm, bının nə canı var? Mən bına əl atsam, beli qırılajax.

Deyir:

– Qırılar, canın sağ olsun. Qırılsın da.

Oynuyullar. Bı nə qədər eliyir bunu yerinnən tərpədə bilmir. Qul deyir:

– Patşahi-aləm sağ olsun, izin ver, mən bı pəhlivanı tərpədim yerinnən.

Deyir:

– İzn verirəm.

Bu barmağını salır, bir dəfə fırrıyıf tulluyur. Bacıları çığırıf deyir:

– Onu Əli yola salıf. Vurun başına, qayıtsın.

Uje yavaş-yavaş yenəndə əlini atır, göydə tutuf qoyur yerə. Bı bilmədi. O biri pəhləvan gəlir, onu da həylə. O birsi gəlir, onu da gənə tulluyur. Daa uzun danışmıram. Bu da buna lağ eliyif ki, bunun civrimi var. Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Neyniyəh, qırılar, qırılar da. Mən qulam onsuz da. Sizdən pul almamışam, bir şey eləməmişəm.

Genə şaha deyir:

– Patşahi-aləm sağ olsun, izin ver, bını da tulluyum.

Deyir:

– Tulla görüm.

Bir dəfə hərriyir belə, bir dəfə hərriyir belə, bını da tulluyur. Genə də deyillər bunu Əli yolluyuf, vurun başına qayıtsın. Göydə əlini salır qayışına, tutur qoyur yerə. Buların dördünü də məğlub eliyir. Axırıncı gəlir. Deyir:

– Patşahi-aləm sağ olsun, izin ver, mən bını isdollu-zaddı tulluyum.

Deyir:

– Tulla.

Nə qədər eliyir nə isdol tərpənir, nə qurban olduğumu tərpədə bilir. Qurban olduğum da cır-cında paltarın içindədi. Deyir:

– İcazə ver, indi mən tulluyum onu.

Tulluyur, onu da tutuf qoyur yerə. Deyir:

– Qulum, buların məşqlərini çıxdıx, indi sən mənnən nə isdiyirsən?

Deyir:

– Mən sənnən heş nə isdəmirəm.

Vəzir-vəkil ayannan qayıdır ki, patşahi-aləm sağ olsun, bının cındasınnan mal tavlasının iyi gəlir, bını nəyə saxlıyırsan. Bı nökər sənin kimi patşaha layığ dəyil. Bını başına qax, çıxsın getsin. Bına agahdı axı. Üz tutur göyə, bacılarına deyir ki, o kolu-kosu gətirin qoyun yerinə. Baxıllar ki, bağdan əsər-əlamət yoxdu. Hamısı palıtdı, civirdi*, nədi, nədi. Baxır görür ki, tavla bombolom boşdu. Elə bircə dəfə deyir ki, əynə baxın, adamız gəlir. Bular o tərəfə çörüləndə bu qeybə çəkilir. Gədə gənə həmən yerdə, şıvırım belində su suarır. Şah vəzirə baxır, vəzir vəkilə baxır. Deyir, bı nə sirrdi?

Deyif:

---

* civir – kol-kos



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qurvan olduxlarımız düşüf əlimizə, biz onu qul kimi işdətmişih, tavla təmizdətmişih, amma qurvan olduğumuz olduğunu bilməmişik.

## 12. XƏNCƏRİN ŞAHİDLİYİ

### I mətn

Bir patşah varmış, bir öz oğlunu saxlıyırmış, bir də qardaşı oğlunu. Günnərin bir günündə bunnar yekəlif boylu-buxunnu oğlan olullar. Amma bunnarın ikisi də bir qız isdiyir. Patşah bu qızı öz oğluna alır. Toy axşamı oğlan gəlinin yanına gedəndə qapıda finkaynan* vuruf öldürüllər. Xəbər gedir patşaha ki, qibleyi-aləm sağ olsun, oğluu öldürüflər.

Bunnan qəzəflənən patşah deyir:

– Məmləkətimdə nə qədir adam var, qırın!

Vəzir deyir:

– Qibleyi-aləm sağ olsun, bunu bir adam eliyif, hamı eləmiyif ki.

Deyir:

– Onda, vəzir, ya mənim oğlumu öldürəni tap, ya da sənin boynu vurajam.

Vəzir deyir:

– İş ki belə oldu, qibleyi-aləm sağ olsun, bu yaxınnarda murat hasil olan bir şəhər var. Maa bir böyüh qoşun ver, gedəh o şəhərə. O şəhərə Məkkə deyillər. Ora getsəh murat hasil olar. Mən gedim örgənim bunu.

Patşah böyüh bir qoşun düzəldif verdi vəzirə. Meyidi də götürüllər, qoşun yol alır Məkkə şəhərinə.

Məkkə şəhərinə çatanda bunnarın qabağına Abıbakir çıxır. Bular deyillər ki, bura murat hasil olan şəhərdi. Bizim bir müşkül işimiz var, buna çarə. Abıbakir çarə tapa bilmədi. Ona görə də vəzir bunu tutup əl-qolunu bağladı. Sora bu Yezidnən qarşılaşdı. Yezid də buna cavaf vermiyənnən sora vəzir deyir:

---

* finka – fin bıçağı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu şəhəri dağıtmalıyam. Ya mənim muradım hasil olmalıdı, ya da bu camaatı niyə alladırsız.

Bu vaxt Salmani-Fars böyürdən çıxıf deyir:

– Bu camaatın əlini-qolunu bağlama. Bu şəhərin bir yiyəsi var.

Sora da Əli olan evi gösdərir. Deyir:

– Sən get, ancax o sənin suala cavaf verə bilər.

Vəzir qoşunu da götürüf gedir Əli olan binaya girir. Əli Məhəmmədin vəsiyyətiynən iyirmi dörd ildən sora taxta çıxacıymış. Vəzir gedir Əlinin yanına. Deyir ki, bizim bir müşkül işimiz var, onu həll eləməlisən. Mənim patşahımın oğlunu öldürüflər. İndi onu öldürən tapılmalıdı. Əli deyir, qoy baxım. Hesaflıyır, görür iyirmi dörd ili tamam olur. Deyir, indi deyə bilərəm. Qoşun gəlsin bura. Baxır, deyir ki, bu adamı öldürən qoşunuzun içindədi. Patşahın qardaşı oğludu. Bu belə deyəndə patşahın qardaşı oğlu qoşunun içinnən çıxır, deyir:

– Əli, sən yalan deyirsən. Həylə şey yoxdu.

Əli deyir:

– İş ki belə oldu, sən onu öldürən vaxtı qapının üsdündə bir cüt göyərçin varıdı. Allahın əmriynən, ay göyərçin, gəl bura.

Göyərçin uçuf gəlir, Əlinin qolunun üsdünə qonur. Əli deyir:

– Ey göyərçin, Allahın əmriynən dil aç, deynən bu oğlanı kim öldürüf.

Göyərçin dil açıf deyir ki, onu öz əmisi oğlu vurdu. Gənə patşahın qardaşı oğlu deyir: “Şər deyirsən. Sən sehirkar Əlisən”. Bu vax Əli oğlanın kürəyinə saplanan pıçağı çıxardıf stolun üsdünə qoymalarını əmr eliyir. Əli pıçağa deyir:

– Ey pıçax, dil aç Allahın əmiriynən, de görüm, bu oğlanın kürəyinə niyə girmisən?

Pıçax dil açır, deyir:

– Ya Əli, məni kim əlində tutuf hara vurursa, ora girməliyəm. Məni patşahın qardaşı oğlu vurdu ona. Mən də girdim öldürdüm.

Gənə də patşahın qardaşı oğlu deyir:

– Sən sehirkarsan. Pıçax dil aşmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə olanda Əli yeddi rükət namaz qılıf Allahdan oğlana can isdiyir. Bu ölən oğlanın adı Novruzumuş. Novruz dirilir. Əli Novruza deyir:

– İndi deynən görüm səni kim vurdu?

Novruz deyir:

– Ya Əli, məni vuran əmim oğludu, budu.

Bunu deyəndə hamı isdiyir Novruzu öldürəni öldürsünnər. Əli deyir:

– Bura Məkkə şəhəridi, qan tökmüyün, burdan aparın.

Bu gün mənim taxta çıxmağımın iyirmi dördüncü ili tamam oldu. Novruz da dirildi. Mənim taxta çıxmağımı hamı bayram eliyəjəh innən belə. Mən də həmin bayramın adını bu oğlanın adıynan Novruz qoyuram. Bunnan da Novruz bayramı yarandı.

**II mətn**

Bu bayrama həm Novruz bayramı, həm də Əli bayramı deyillər. Mən yanımda danışılanı deyirəm. Yəqin ki, bu Əfqanıstan olar da, əfqan patşahı oluf. Əfqan patşahının oğlu Novruz oluf. Bı Əfqan patşahın qoşununun içində bir dənə qara qul olur. Bu Novruzu toy gecəsi Qara qul öldürüf. [Əfqan padşahı] deyif ki, mən özüm şah olam, patşah olam, oğlumu kim öldürüf bilmiyəm, tapmıyam? Bına deyillər ki, sən get Ərəbistana, orda saa oğlunun ölümünü deyəcəhlər. Bı durur gecava tutur, meyidi qoyur gecavaya, qoşun götürür gedir. Ərəbistana adam göndərir, casus göndərir ki, icazə versin şəhərə daxil olum. Bına icazə verillər, bı şəhərə daxil olur. Deyir ki, maa buranın vəsini gösdərin. Vəs deyirmişdər da, böyüyünü.

Bından əvvəl Məhəmməd peyğəmbər öləndə Əliyə vəsiyət eliyir ki, Əli, sən pəhləvansan, güclüsən və qüvvənə arxalanıb Ömər, Osmannan bəhs eləmə. Sən təhsən, arxasızsan. Əli qüvvətdi pəhlivan oluf, həm də biliciymiş, hər şeyi bilirmiş. Heç irişmə də onnara. Əli bı taxtda oturası imiş. Məhəmməd peyğəmbər rəhmətə gedənnən sora Ömərnən Osman zorrulux eliyif taxta bullar çıxıf.

Bı da (Əfqan padşah – top.) vəsi yerini örgənif bıra gələndə bına yetmiş iki dildə salam verif. Bının salamını ala bilmiyif. Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bı mənim salamımı ala bilmir, mənim oğlumun ölümünü hardan bilif deyəjəh. Bıranın vəsi, bilicisi kimdi onu mana deyin.

Bına deyillər ki, sən cənab Əlini gətirtdir. Əlini gətirtdirir. Yetmiş iki dildə salam verir, yetmiş ikisini də Əli alır. Deyir:

– Hə, bınnan vəs olar.

Bına sula verir ki, gəcavədəki nədi? Deyir:

– O sənin oğlun Novruzun meyididi.

Deyir:

– Kim öldürüf?

Deyir:

– Sənin qoşununun içindəki Qara qul öldürüf.

Qara qul çıxır, deyir:

– Yalan deyir, mən öldürməmişəm.

Deyir:

– Xəncəl, dillən!

Xəncəl Qara qulun belinnən qınınnan çıxır, dəyir yerə. Dillənir, deyir ki, Qara qul vırdı, mən də kəsdim. Qara qul deyir ki, o sehirkardı, mən ona inanmıram da, yalan danışır. Bu Əli canım qurvan olmuş, Allaha üz tutur ki, sana agahdı hər şey. Allah-tala tərəfinnən Əliyə səda gəlir ki, ya Əli, meyidi tut suya, ağzının lıqavınnan cəh yarasına. Meyidi tutur suya, ağzının lıqavınnan çəkir, meyit axsırır qalxır. Bu dəfə cənab Əli qoymur Qara qulu Əfqan padşahı öldürsün. Deyir ki, mən sənin oğlunu diriltdim, sən də onu bağışda mana. Qoşunun içinnən çıxart, qoy çıxsın getsin. Həmən Əfqan patşahı Ömər Osmanı götürür taxtdan tulluyur, Əlini qırmızı geydirir çıxardır taxta. Əli olur vəs, böyüh da. Onnan sora həm Novruz dirilir, həm də Əli taxta çıxır. Ona görə də bı həm Novruz bayramı oluf, həm də Əli bayramı oluf. İkisi bir günə düşüf, bir vaxta. Əlinin qırmızı geyinif taxta çıxan günü. Niyə qapıya qırmızı bağlıyıllar? Əlini qırmızı geydirir çıxardır taxta, Novruz da dirilir toyunu eliyir. Onnan sora bu bayramın adı mən belə bilirəm ki, həm Əli bayramı qalıf, həm də Novruz bayramı.

*Söyləyici nağılı qayınatasından eşidib.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 13. ALTI ŞAHILIQ RUZU

### I mətn

Bir dənə şəxsi olur, bir oğlan. Onun məşkulatı oyumuş ku, kəndirini götürürmüş, baltasını götürürmüş, gedirmiş meşədən bir şələ odun yığırmış, gətirip satırmış. Eşitmisən munu? (söyləyici sualı toplayıcıya verir – top.). Satır altı şaaya, gətirir verir çörəyə, yeyir. Bir günnəri deyir:

– Ə, mən nə vaxdatan günümü çürüdəjəm belə? Bir şələ odun gətirirəm, verirəm altı şaaya, yeyirəm.

Çıxır durur yolun qırağında. Görür kü, Allah-talaynan danışan varımış dana, icazə alır, gedir Allah-talaynan söhpət eləməyə. Deyir:

– Sən allah, mənim ərzi-bəndəliyimi Allaha elə, görüm mən nə vaxdatan bu kəndirnən, balteynən dolanajam. Altı şaaya verirəm, altısını da gətirirəm verirəm çörəyə, yeyirəm.

Gedir Cəbreyil Allah-talaynan danışanda deyir ki, oğlanın şikayəti saa agahdı dana. Deyir mən nə vaxdatan altı şaheynən dolanajam. Bunnan artıx maa bir dolanışıx var, yoxdu?

Deyir:

– Yox, onun taleyinə altı şaa yazılıp. Onnan artıx onun taleyində yoxdu.

Belə deyənnən sora Cəbreyil gəlif deyir ki, Allah-tala deyir onun taleyinə yazılan altı şaadı. Deyir:

– Altı şaadı, altı şaadı, heş oduna da getmiyəjəm, bəlkə Allah-tala yetirəjəh burda.

Oğlan yatır, durur. Nəysə, axşam düşür, durur döşəhcənin orasını, burasını qurtdalıyır. Görür heş altı şaa gətirip ora qoymuyuplar. Altı şaa yerində yoxdu. Qalır məhətdəl. Səhərdən yatıp axı, ajdı. Oğlan durur gərnəşə-gərnəşə çıxır küçüyə, baxır, görür bevaxdı. Qalır aj, altı şaadı yoxdu. Qalır belə.

Bunun qonşuluğunda bir qazı varımış. Bu qazı bütün qazıları qonax çağırır, bu axşam çağırıfmış. Deyir ki, ay arvat, bir şey bişirmisən, düzəltmisən? Qazılar gələjəh bu saatı. Arvad deyir ki, bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adam tapseydin, bir az odun yarardı. Darvazadan çıxır çölə, görür – bu oğlan həmişə odun daşıyandı dana – bala-bala bura gəlir. Deyir:

– Gəl birəz odun yar maa, hakqı da verəjəm.

Bunun da canınnandı bu. Gəlir odunu-zadı yarır, tökür bəridən əynə. Deyir ki, ay arvat, beyjə bizə bir əl buyruxçusu lazımdı, qonaxların əlinə su gəzdirə, su verə. Nağayrax?

Deyir:

– Elə bizim ayrı adamımız yoxdu da hərrənə. Bunun əynini-başını geyindirəh, beyjəlih bizə burda qullux eləsin, bu gələnnərə.

Nəysə, deyir:

– Get üzuu-gözuu qırxdır.

Nəysə, qırxdırır oğlanın üzünü-gözünü. Birəz də paltar verir müvəkqəti, deyir:

– Bunu geyin əynə. Mənim qonaxlarım gələjəh, su gəzdir onnarın əlinə. Təmiz olsun əyin-başın.

Oğlan geyinir, olur bir şukarnı* oğlan. Qazılar gəlir, oturur, başdıyıllar söhpət eləməyə. Nəysə, bunun böyüh yoldaşdarı, mollalar, qazılar bu əv yiyəsinə deyir:

– Qazı, bu hərrənən kimdi?

Day bu utandığınnan deyir ki, qardaşım oğludu.

– Qardaşın oğludu?

Deyir:

– Hə.

Deyir:

– Bilirik ki, sənin siyapərdə** bir dənə qızın var. De görək o qızıı buna adaxlı eləmisən, yoxsa yox.

Deyir ki, yox. Deyir:

– Pahoo, sən düz eləməmisən – qazılar deyir buna. Sən düz eləməmisən. Bəs yaxşı, sənin gül kimi qardaşın oğlu burda hərrənir, sən niyə munu adaxlı eləməmisən? Biz heş sənin çörəyii də yemirih.

---

* şukarnı – yaraşıqlı
** siyapərdə – gizlində saxlanılan, adam içinə çıxmayan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qazı qalır məhətdəl. Görür kü, bunnar durup getsə olmuyacax. Qazılar deyir ki, biz indi bunnarı göndərəciyik kəbin məclisinə, kəbin kəsəciyik bunnara. Kişi qalır aciz. Deyirlər ki, kimdi qız tərəfdən vəkil. Kişi deyir:

– Özüməm.

Yaxşı, oğlan tərəfdən kimdi? Deyir:

– Özüməm vəkil, heş kəs dəyil – oğlan tez deyir. Oğlan özü olur vəkil. Kəbini qeyd eliyillər. Eliyənnən sorasına bunnara qulluğunu bitirir. Aşağı-yuxarı, nəysə, suyunu paylıyır, eliyir. Bunnar yeyillər, içillər. Deyillər mübarəhdi, durup çıxıllar.

Çıxannan sorasına qazı deyir:

– Bala, gedirəm həmən pulu verəm, sıyğanı geri oxutduram. Çıx get əvına.

Deyir:

– Əşi, sən arvadını boşa, mən də boşuyum, niyə boşuyuram? Vəkil özüm olmuşam, mən icazə vermirəm.

Qazı qalır məhətdəl.

– Əgər mənim yerimə vəkil varsa, o icazə versin, mən icazə vermirəm. Sən arvadını boşa, mən də boşuyum.

Kişi qalır məhətdəl. Deyir:

– Ə, mən nejə əngələ keşdim e, mən nağayrım?

Kişi deyir:

– İrast kı belədi, – heş qızını muna görkəzmir, – gə tükan açım, səni qoyum tükana.

Gedir, nəysə, bir tükan açır, butğa açır, qoyur içinə, deyir:

– Satış elə.

Bu oğlan da adamları çağırır, deyir:

– Ə, bura gəlin, sizə şey verəjəm.

Onu çağırır, halva verir, bunu çağırır filan şey verir. Kişi gəlir, baxır, daxılı çəkir bəri, görür qəpih də yoxdu. Deyir:

– Bəs pulu neyləmisən?

Deyir:

– Allah hakqı, satdım birdəfəlik qutardım da malın hamısını.

– Bəs hanı pulu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Əşi, pul nədi, verdim uşaxlara, yedi getdi.

Deyir:

– Nəhlət şeytana, nə pis əngələ düşmüşəm – kişi deyir e.

Kişi bir gün eşidir ki, tacirrər yığışır, hamısı gedir alverə, uzax şəhərrərə. Deyir ki, bala, gəlsənə səni də qoşax tacirrərə dana, bizə bir xeyir gətirəsən. Oğlan qalır ələşsiz dana. Deyir:

– Gedərəm.

Deyir:

– Onnar mal alıp, burdan aparıp orda satır, ordan gətirip burda satır. Saa biz nə alax verəh?

Deyir:

– Mana iyirimi qatır, otuz qatır yükü çörəh bişirtdir yığ çuallara.

Deyir:

– Neynirsən?

Deyir:

– Nə işaa qalıp. Mən də çörəh aparajam.

Nəysə, kişi deyir, arvat deyir:

– Neynək, olmasın bir anbarın taxılı.

Nəysə, çağırır qonşudan arvatdarı yığır. Bişirtdirir yığır çuallara. Tacirlər yola düşəndə qonşular çualları qatırlara yüklüyüllər. Bunnar çox gedir, az gedir, xeylax getmiş bir dəryanın qırağında bu oğlan deyir:

– Mən burda qalajam, getmiyəjəm.

Bunnardan ayrılır, qalır dənizin qırağında. Bunnar çıxır gedir, hamısı gülüşür. Deyir:

– Hə, filan qazının yeznəsi yaxşı alver eliyəjəh. Çörəh gətirip, neyliyəjəh bu çörəyi?

Bir dəryanın qırağında bu tərəf kəntdi, bu tərəf dəryadı. Nəysə, burda yükünü açır, qoyur yerə, burda qalır. Hər səər tezdənnən durur, çualın birinin ağzını açır, çörəyi silkəliyir dəryaya. Dəryada balıxlar yeyir, kefləri sazdaşır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xəbər gedir balıxlar patcahına kı, bir dənə şəxsi var, çörəynən sirab eliyip[*]. Gündə nağədə bizə çörəh verir. Yeyirik, əməlli başdı olmuşux. Balıxların patcahı deyir ki, siz də dənizdən həməniz bir dənə ləl-cəvahir tulluyun qırağa, oğlan götüsün.

Oğlan səhər-ertə durur görür, vallah, orda nəysə işım-işım işıldıyır. Gün düşür, şafakı yanır. Bunu gedir götürür, görür qızıldı. Mən bunu neyliyim, hara yığım? Kəndin uşaxları yığışır bunun başına, deyir:

– Əmi, sən niyə düşmüsən bura, əmi nağayrısan, neyliyirsən?

Deyir:

– Bala, sizə pul verəjəm. Heyvan saxlıyırsınız?

Deyir:

– Hə.

Deyir:

– Gedin onun, ayıb olmasın, peyininnən yığın, gətirin bura, yapba qayırajam. Günün qabağına qoyup qurudajam.

Uşaxlar, puldu də, pulun ujunnan gedillər, yığıllar, gətirillər bedirə-bedirə. Bu gətirir bu qızılları qoyur bu peyinin içinə, tolpalıyır qoyur günün qabağına, quruyur. Quruyur, yığır çuala. Neçə gün qalır burda. Heylə bu qatırları yığır, yükünü düzəldir, bir dənə qatırın yükünə qızıl qoymur. Elə-belə qurudurmuş, anırı qoyup qatırı yüklüyür. Bir də görür kü, bunun bu zəvvar yoldaşı gəldi. Gələndə deyir:

– Nağardın, a qazının yeznəsi? A qazının alverçisi, neyləmisən?

Deyir:

– Vallah, bu dee, mən də gətdim çörəyi, yaxşı yappa qurutmuşam. Aparram qazıya.

Gülüşüllər. Düşüllər yola, gəlillər. Gələndə yolda bir çouğun başdıyır. Çouğun başdıyanda gülüşə-gülüşə bir yerdə səhman tapıllar. Deyir:

– Ə, çouğuna düşəjiyih, ojax qalıyax, birəz özümüzü isidəh. Nə qalıyax, nağayrax?

Deyir:

---

[*] sirab eliyip – savab eləyib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, nolajax, bir qatırın yükünü ver, yandırax dana. Çox olar, gedərih qazının yanında hakqını verərih, – deyəndə bu axı bilir ki, bir qatırın yükü elə-belədi, – deyir:

– Yaxşı, mən burda heş ona qiymət qoymuyajam. Gedərih ağamın yanına, siz də yığışıp gələrsiz, ağamın yanında nə qiymət qoyar onu verərsiz.

Gətirir bu içində qızıl qoymadığını verir, bunnar tökür yandırır. Yandırıllar, qızışıllar, nağayrıllar, duruf yühlənillər. Gəlillər, hərkəsdən dağılışır öz evinə. Gəlir çatır evinə. Qazı görür kü, səni, oğlan gəldi çıxdı. Deyir:

– Ay arvat, qapını aş, qatırrarımızın bağı qırılar, hayıfdı.

Nəysə, bunnar danışıllar. Deyir ki, bəs bunnarı hara yığım?

– Əşi, apar yığ kuma* dana, apar yığ kuma.

Deyir ki, yox, yox, yaxşı yerə yığmax lazımdı. Yağış yağar, isdadar. Aparır yığır bir tilin** altına, ağzını qayırır, gəlir.

Gəlir bunun yoldaşdarı, kəndin bəzi adamları kı, o malını batırdı, gedək dil-ağız eləməyə. Deyir ki, həm də biz bu işə gəlmişik ki, sənin adamının bir dənə yükünü yandırmışıx yolda. Onu qiymət elə, qayıdax çıxax gedək. Deyir ki, əşi, bu da bunun on maatı. Deyir:

– Yox, nə maa beş maat lazımdı, nə on maat. Onun bir dənəsini gətirəh salax suya, əridəh. Ağalarım nə qiymət qoysa, onu verin.

Bir əz də gülüşüllər. Nəysə, arvada deyir ki, get maa bir bedrə qaynar su gətir. Arvad gedir bir bedrə qaynar su gətirir. Bir əz də gülüşüllər. Gətirir bu suyu qoyur ora, gətirir o kökənin birini salır onun içinə. Salanda görüllər nəə, axçalanır***, adamın gözü qamaşır, par-par parıldıyır. Deyir ki, hə, mən verdiyim yük bunnandı, nə qiymat qoyursuz verin. Baxıllar, deyillər ki, biz atımızı da, qatırımızı da versəh, heş bunu ödəmiyəjəh, bunun hələ bir kökəsini. Qalıllar məhətdəl. [Qazı] tez oğlanı yannıyır, deyir:

– Bala, hamısı bunnandı?

---

* kum – anbar
** tilin – tikili
*** axçalanır – bərq vurur, parıldayır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Əşi, dayan hələ.

Nəysə, bunu qiymat eliyillər, durup gedillər. Kişi deyir buna ki, dur bala, dur get hamama hamamlan, üzünü-gözünü qırxdır. Neçə vaxdı yoldaşınnan nakamsan. Bəs zad elə, gəl yoldaşınnan birrəş.

Deyir:

– Yox, gedirəm sıyğanı geri oxutduram.

Deyir:

– Ay oğlan, Allaha bax, tanrıya bax, nə danışırsan sən? Get-ginən hamamlan gəl ayləən yanına.

Nəysə, bu birəz naz satır, gedir. Yuyunur eliyir, bunnar uje kəbinnidi dana, birrəşillər. Bu yaxşı varranır, gətirip dana, hər şey gətirip.

Bir günnəri gənə gedir çıxır yolun ağzına, deyir:

– Ya Cəbreyil, Allah-talıya deynən ki, bəs maa deyir ki, kişsi-nin* altı şaaddı. Bəs niyə, mən belə varranmışam.

Allah-tala deyir:

– Get o şəxsiyə deynən ki, gejə yerini ayrı salsın. O qismət, o talee qızınkıdı. Elə onun baxtında, taleyində altı şaa var. O gəlininki gətirip ha, kəbin olannan sora gətirdiyi var-döölət onunkudu. Yerini ayrı salsın, ayrı yatsın, görəjəh.

Gejə yerini ayrı salır, görür həmən kəndirdi, həmən düsərdi** göydən asılıp. Deyir:

– Vay, əvi yıxılan canım, onun taleyinəymiş bu gəlirin hamısı.

Hə, indi, ay bala, bu belə getdi.

### II mətn

Bir kişi olur. Bunun bir arvadı olur. Bu kişi gileylənir. Allah-dan gileylənir ki, mən nəkqədər tikan qırıram, odun şələsi gətirirəm, balacasını da gətirəm, yekəsini də gətirəm, bir abbasıya verirəm. Qurban olduğum Musa peyğəmbər gedəndə bunun qabağını kəsir. Deyir ki, Allahnan kəlmələşəndə mənim də arzumu deynən ona. Qurban olum Allaha.

---

* kişsi – gəlir, qazanc

** düsər – külüng



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi oların məsləhətdəşmə yeri var. Allah-tala bunun görükür gözünə. Məsləhətdəşəndə dediyini deyir, demədiyni demir. Qayıdanda deyir ki, axı sən gələndə bir adam bir amanat demişdi sana, niyə demirsən.

Deyir:

– Qurban olum, bağışdaginən. Bəs belə-belə.

Deyif ki, get ona deynən ki, elə onun urzası odu, onnan artığ ola bilməz.

Bu qayıdır gəlir. Yoldan keçəndə gözdüyürmüş dana kişi də. Gəlib deyir ki, noldu, nə dedi Allah?

Musa peyğəmbər dedi:

– Dedi ki, vallah onun urzası odu.

Qayıdır gəlir. Arvadına deyir ki, uşaxları da götür, çıxağ gedək. Bu vilayətdə mən qalmıram, buranın Allahı bizə kömək eləmir. Arvat da hamilə imiş. Bu arvadı da götürüf çıxıb gedillər. Gedillər, məsələn, gedib Tehranda yerləşillər. Arvad deyir:

– Evin tikilsin, civində bir maatın yox, mən də hamilə, uşağ dünyaya gətirəcəm. Bəs nağarağ, yeməyimiz-işməyimiz.

Görür üş-dört adamdı darvazanın ağzına yığışıflar. Gedif ora. Deyir:

– Nə danışıxdı, nədi?

Deyir:

– Bu mülkün yiyəsi satır buranı.

Deyir:

– Neçiyə satır?

Deyir:

– Beş yüz tümənə.

Deyir:

– Qardaş, get, səhər bu vaxtı gələrsən, beş yüz tüməni mənnən alarsan. Mən aldım sənin mülkünü.

Bular dağılır, bu ev yiyəsi də çıxıb gedir. Arvadı da götürür, gedir içəri. Deyir:

– Evin yıxılmasın, civində bir köpük yox. Səhər, günorta gələcək də bu adam, bəs sən buna nə verəssən? Dur heç olmasa onun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qapısındakı ağaşların divini qazıginan, gələndə görsün ki, səriştən var, işdiyirsən, bir gün, iki gün artırar da vaxtını.

Deyir:

– Düz deyirsən, arvat.

Durur lapatkanı götürür. Birinin divini qazır, ikincinin, üçüncü-nün, dördüncüdə görür ki, lapatkaya nəysə dəyir. Görür ki, bir küp qızıldı. Küpü götürür, gəlir içəri. Səhər bu mülkün yiyəsi gəlir. Deyir:

– Qardaş, gəlmisən?

Deyir:

– Hə.

Deyir:

– Neçə tümənə demişdin?

Deyir:

– Beş yüz tümən.

Çıxarır şapbaşap beş yüz tümənini verir, gedir. İndi həmən peyğəmbər gedəndə genə deyir ki, mənnən Allah-talaya salam dey-nən ki, deyirdi axı sənin günruzan elə bir abbasıdı. Bu Allahın mən-nən xoşu gəlir, mənim bərəkətimi artırdı. Bu gedir deyir. Deyir:

– Ona deynən ki, verdiyim urzu var haa, onun deyil. Ananın bətnindən uşağ gəldi dünyaya, onundu. O uşağındı urzu.

Orda qalseydi o uşağ o urzunu görəceydi? Allah onu gətirif ey bura.

Gəlif bunnan görüşəndə deyir ki, Allah nə dedi? Axı bu buna demişdi ki, o biri Allah mənnən düz dolanmırdı, bu Allah yaxşıdı. Elə bilir ki, hər şəhərin öz Allahı var. Deyib:

– Ə, o ruzu sənin deyil. Nə sənindi, nə arvadın, o körpənin ruzusudu. Onu Allah ona verib.

## 14. ALLAHA PƏNAH

Musa peyğəmbər Allahın sıfarışını aparıf verəndə görür ki, bir nəfər üç ləzgini çubuxnan döyür. Bullar deyir ki, ya peyğəmbər, bəs sən Allahın yanına gedirsən, soruş görəh nə vaxt kutarajeyih bı dərtdən. Musa peyğəmbər gedir deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ey Allah, elçinəm, gəlmişəm. Üş nəfər hər gün üş dəfə çubuxlanıllar. Onnar nə vax azad olajaxdı mana de, mən gedim deyim.

Deyir:

– Ya Musa, olar çox döyüləjəh hələ.

Musa peyğəmbər gəlif bılların yanınnan keçir deyillər:

– Nə dedi Allah?

Deyir:

– Mən Allahın elçisiyəm, yalan danışa bilmərəm. Allah dedi ollar hələ çox döyüləjəh.

Bu da deyip "Allaha pənah", o da deyif "Allaha pənah", o biri də deyif "Allaha pənah". Üçü də deyif Allaha pənah. Bılların üçü də Allaha pənah diyən kimi bu çubuxluyan həmən günü ölüp, ömrü tamamlanıf. Bullar deyiflər:

– Musa peyğəmbər bizi aldatdı, bıdey döyülən öldü.

Gəlif deyillər ki, ya peyğəmbər, bizi niyə allatdın, bizi döyən öldü ey, biz yaşadıx. Deyir ki, ey Allah, bəs elçinəm, məni niyə belə yalançı elədin olların yanında. Dedin axı ollar çox döyüləjəh.

Deyir:

– Ya Musa, onnar hələ bir dəfə də olsun dillərinə Allaha pənah sözü almamışdar, ona görə onlar çox döyüləjeydi. Bəs olların üçü də o gün mana pənahlandı. – Həmməşə bir işiniz olanda deyin "Allah pənah". – Onnar o günə kimi döyülürdülər, amma Allah kəlməsini dillərinə gətirmirdilər. Mən yaratmışam da səni, bir dəfə de "Allah, sana pənah, məni azad eylə". Demirsən axı. Onnarın halı mənə agah idi. Mən döydürürdüm da onnarı. Onnarın üçü də mənə pənahlandıxları üçün o döyənin ömrünü tamamladım, döyülənnəri azad eylədim. İnnən belə ollar Allahı tanıyajax, biləjəh Allah kimdi.

Bax, Allah belə Allahdı.

## 15. BAĞIŞLANMAZ GÜNAHKAR

Belə bir əfsanə gəzir ki, bir nəfər adam öz atını minirmiş, bir də bir tüfəngi varmış. Dəliliyi tutan vaxtı adam öldürürmüş. Bu adam sayır görür ki, bunun öldürdüyü adamların sayı doxsan doqquza çatıfdı. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən nə qədər adam öldürmüşəm, Allah-tala mənim bu günahımı nətər eliyəjək? Mənnən nətər hesab çəkəjək?

Yolnan getdiyi yerdə görür bir kişi gəlir.

– Salam-əleyküm, ağsakqal.

Ağsakqal deyir:

– Əleyküm-salam.

Yolçu soruşur:

– Sən kimsən? Hara gedirsən?

Ağsakqal deyir:

– Mən Musa peyğəmbərəm, gedirəm Allah-talaynan danışmağa.

– Ey gözəl peyğəmbər, sənə bir söz deyim. Allah-talaynan danışanda denən bir nəfərnən filan yerdə görüşdüm, o da mana bir dərdini danışdı. Allah-tala məni bağışdıyarmı, bax, mən belə bir işdər görmüşəm.

Ağsakqal deyir:

– Deyərəm, oğlum.

Nəysə, bu gözdüyür. Hər gün bu görüşdüyü yerdə onu gözdüyür. Bir gün görür peyğəmbər gəlir. Peyğəmbərdən soşurur:

– De görüm, Allah-talaynan görüşə bildinmi?

– Bəli.

– Mənim hakqımda da bir söz dedinmi?

– Bəli.

– Allah nə dedi? Məni bağışdıyajaxmı?

Ağsakqal deyir:

– Allah-tala deyir ki, o oturduğu yerdən aralı getsin, bir dənə qara daş var. O qara daş ha vaxt göyərsə, onun günahları bağışda-najax.

Peyğəmbər yolnan çıxır gedir, bu da atını minir, gedir həmin qara daşı tapır. Hər gün gedir qara daşın yanında oturur, deyir:

– Görəsən bu qara daş havaxt göyərəjək, mənim Allah-tala günahlarımı bağışdıyajax?

Gedir qayıdır, gedir qayıdır, görür boş söhbətdi. Bir də görür ki, atdı adam gəlir. Bu deyir ki, doxsan doqquz olmasın, olsun yüzüncü. Götürür tüfəngini, bu adama bir güllə. Bu adam yıxılır yerə. Yıxılanda baxır ki, qara daş göyərdi. Allah-talaya yalvarır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay Allah-tala, bəs mən genə də qan töhdüm. Bəs bu qara daş indiyə kimi göyərmirdi, genə bir qan tökən kimi qara daş göyərdi.

Kişi Musa peyğəmbərnən havaxtsa bir də qabaxlaşanda dərdini ona deyir. Deyir ki, ağsakqal, o qədər gözdədim, səbrim tükəndi. Bir nəfər də aralıdan gedirdi atını çapa-çapa. Götdüm gülləni yüzüncünü öldürdüm. Qara daş da göyərdi. Musa peyğəmbər deyir:

– Hə, oğlum, mən genə gedirəm Allahnan danışmağa, deyərəm ona.

Kişi Musa peyğəmbəri gözdüyür. Bir müddətdən sora peyğəmbər gəlir. Kişi soruşur:

– Görüşdünmü?

Peyğəmbər deyir:

– Bəli.

Kişi soruşur:

– Allah nə dedi?

Musa peyğəmbər dedi:

– Allah dedi ki, qara daş ona görə göyərdi ki, onun günahları bağışlandı. O atlı bir xanın məktubunu aparırdı. Məktubda yüz nəfərin boynunun vurulması haqqında fərman yazılmışdı. Cəllad da hamısının boynunu vuraceydi. O, atı vurubdu, xəbər ona çatmıyıbdı. Yüz nəfərin də başı kəsilməyib. Ona görə də onun günahları bağışdandı.

## 16. QALAQLIQDA YEYİLƏN EHSAN

Bir gəlin vardı. Bu gəlinin düşdüyü yer yaxşı olsa da, qaynanası ona çox zulum verirdi. Qaynatası, əri, baldızları nə qədər eliyirdilərsə, qaynanasının ürəyində gəlinə qarşı mərhəmət oyanmırdı ki, oyanmırdı. Gəlin sübh tezdən durar, bulaxdan su gətirər, yuyar, yığışdırar, silər, süpürər, surfa salar, külfətə yemək qoyardı. Külfət yeyənnən sora yığışdırar, günortanın yeməyini hazırlardı. Beləcə günnərnən işdiyir, qollarını kösöv, saçını süpürgə edirdi. Amma azazıl qaynananın qorxusunnan qarnına düz-əməlli çörək yeyəmmirdi.

Nəysə, beləcə vaxt keçir, zaman dolanır. Gəlinin boyuna uşax tüşür. Qaynananın zülmü azalmır ki, azalmır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hal-qəziyə elə gətirir ki, əvlərdən uzax, bunnarda yas tüşür. Gəlinin qaynatası Allah rəhmətinə gedir. Cəməhət yığışıb gəlir. Ağlaş-şivən qopur. Gəlin genə zulum çəkir. Zulumu, işi birə-beş artır. Gələnin-gedənin qulluğunda durur, yemək bişirir, yuyur, yığır, əlqərəz, genə öz işiynən olur. Qaynana da ərinə yaxşı ehsan verir. Erkəklər kəsdirir, plovlar dəmlətdirir, lavaş bişirtdirir, halva çaldırır, gələn qonağı bolluca yedirdir ki, afsanata keşsin, ərinin urufu şad olsun. Gəlinin isə dilinin altınnan bir tikə belə keşməmişdi. Yasın birinci günü beləcə keçir.

Gecə arvad yatır, yuxuda görür ki, əri ona deyir:

– Maa heş-zad çatmadı, yaman ajam.

Arvad diksinir. Yuxudan ayılıb fikirrəşir ki, yəqin qonum-qonşuda ac olan var ki, bu ehsan afsanata keşməyib, kişi gileylənir.

Səhər açılar-açılmaz təzdən pişirtdirir, payladır. Qonum-qonşuda nə qədər xəsdə, imkansız var, hamısına yemək göndərir. Amma gəlini yedirtmək heş yadına düşmür. Axşam düşür, genə külfət yatışır. Arvat başını yasdığa atar-atmaz yuxuya gedir. Genə yuxuda görür ki, əri gileyli-gileyli ona deyir.

– İki gündü acınnan ölürəm, dizdərimdə təpər, taqət qalmıyıp. Nolar, maa bircə tikə çörək verin.

Arvad dəli kimi oyanır. Yata bilmir. Fikirrəşir ki, genə görən qonum-qonşuda  ehsannan yeməyən kim qalıb ki, bu kişi belə deyir.

Səhəri dirigözdü açan arvat genə əlinə gələnnən tökür qazana, qaynathaqaynat, pişirhapişir. Qoyma haraynan genə ehsan verir. Bu dəfə qapını açıx qoyur ki, yolnan keçəni görup yedirsin, bəlkə, afsanata keçə, kişi yuxusunnan çıxa. Arvad elə də eliyir. Yolnan kim keçirsə, içəri çəkib doyurur. Amma genə gəlini ajdı-toxdu heş maraxlanmır. Gəlin yazıx da ortada aj-susuz dolanır, gücü çatan işin qulpunnan yapşır.

Genə gecə düşür. Arvad arxeyin-arxeyin yerinə girir ki, kişi bu dəfə irazılıx eliyəcək. Genə yuxuya gedən kimi kişi gəlib durur arvadın qabağında:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənə bir tikə çörək vermədin. Genə ajınnan ölürəm, – deyir. Arvadın tükü ürpənir. Hirsi yuxuya güj gəlir. Oyanır, şəhərə kimi ilan vuran yatır, arvat yatmır.

Səhər açılır. Arvat durup külfətnən çay-çörəh eliyir. Amma heş kimə bir söz demir. Qaş-qabaxlı dolanır. Əli-qolu boşalır, ta yemək pişirip ehsan paylamır.

Sizə kimnən deyim, gəlinnən. Axı gəlin üş gündü ki ajıydı. Hamının da başı elə qarışmışdı ki, gəlinin çörək yeyib-yemədiyini soruşmurdular. Gəlin görür ta ajınnan ölür, deyir:

– Ey Allah, mən heç, axı bu qarnımdakı da ajdı. Özüm birtəhər dözərəm, amma balamın ölümünə irazı olmaram. Qaynanamnan gizdin də olsa, qazannan yemək götürup yeyəcəm.

Gəlin elə də edir. Bir cam götürup oğrun-oğrun qazana yaxınnaşıp qapağı qaldırır, tələm-tələsik bir-neçə tikə ət götürup ordan uzaxlaşır. Fikirrəşir ki, indi bunu harda yeyim ki, qaynanam görməsin? Hə, tapdım deyir, gedip bunu qalaxlıxda* yeyəcəm. Yazıx gəlin fikirrəşdiyi kimi də eliyir. Yeməyi götürüp damın dalına keçir, qalaxlığın ortasındakı boşduxda oturur. Camı dizinin üsdünə qoyub işdahnan yeməyi yeyir. Gəlinin gözünə işıx, dizinə təpər, qoluna quvvat gəlir. Hiss eliyir ki, qarnındakı uşax da doyub.

Nəysə, gəlin nətər ki oğurrux yeməyi aparmışdı, elə də camı yuyup yerinə qoyur.

Axşam olur, caməhət surfuya oturur, yeyillər, içillər, yatıllar. Qaynana qorxa-qorxa yerinə girir. Deyir ki, bu dəfə də kişi ajdığınnan gileylənsə dəli olaram. Arvad elə yenicə yuxuya gedir ki, kişi genə yuxusuna gəlir. Kişi bu dəfə irazılıx eliyir:

– Yaman yedim, qarnım doydu. İndiyədək verdiyin çörəyin heş biri yox, təhcə qalaxlıxda yeyilən maa çatdı.

Arvat oyanır, dəli olur ki, bu nədi, qalaxlıxda yeyilən yemək nədi? Birtəhər səhəri açır. Səhər açılan kimi külfəti başına yığıp

---

* qalaxlıx – təzək yığılan yer



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yuxuda gördüyünü əzəldən axıra kimi danışır. Sora üzünü evin adamına tutup deyir:

– Deyin görüm, bu qalaxlıx məsələsi nə olan şeydi?

Külfət məətdəl-məətdəl bir-birinə baxır. Təhcə gəlin əsir, dili-dodağı quruyur. İrəli çıxıp nalaşdıxdan dünən qazannan gizdin yemək götürüp yediyini deyir.

Hamı içini çəkir. Qaynana elədiyi hərəkətə, gəlinə verdiyi zulumlara görə peşman olur. Onun üsdünə tüşən ağır yükün gəlin tərəfinnən götürüldüyünü fikirləşir, urufu dincəlir. Elə ordaca gəlini bağışdıyır, hamının yanında gəlini incitməyəcəyinə söz verir.

İndi odu ki, atalarımız "hər yeyilən afsanata keçməz" deyillər.

## 17. NAXIRÇININ NAĞILI

Peyğəmbər zamanında bir naxırçı varmış. Bu naxırçı hər səhər gün işarannan naxıra gedir, toran çalanda evinə dönürmüş. Naxırçı hər örüşə gedəndə görür ki, bəs burda iki qardaş var, Qardaşdar da çox kasıfdılar. Naxırçının uşaxlara yazığı gəldiyinnən hər gün heybəsinə çörək qoyuf gətirif bunnara verərmiş.

Günnərin bir günü naxırçı gəlif görür ki, qardaşdar çılpaxdı. Soyuxlu havada üşüməsinnər deyə kürək-kürəyə yapışıp oturuflar. Naxırçı yaxın gələndə baxır ki, səni, uşaxlar o qədər kürək-kürəyə oturuflar ki, onnarın kürəkləri bir-birinə yapışıf. Kişi nəxərtən eliyir ki, qardaşdarı aralasın, olmur ki, olmur. Bunnara yazığı gələn naxırçı bir molla yanına gedir ki, Quran aşdırıf görsün ki, bu nə məsələdi, bu uşaxlar niyə aralaşmır, bunnarı nəynən aralamax olar. Quranda görükür ki, hər kimin ki oğlu təkdi, onun başını kəsif qanını bu qardaşdarın kürəyinə töksə, bunnar azad olallar.

Naxırçını dərt götürür. Ürəyində fikirrəşir ki, neyniyim, mənim aman-zaman bir oğlum var. Onun başını kəsif bunnarı necə azad edim? Çox götür-qoydan sora üzünü göyə tutub deyir:

– Ey ilahi, mənə qəzəbin tutmasın, mən bu uşaxlara görə aman-zaman oğlumun başını kəsif qanını onnarın kürəyinə tökəcəm. Qoy onnar ayrılsınnar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sözünü qutarıf oğlunun başını kəsir, qannarını uşaxların kürəyinə tökür. O dəyqə uşaxlar ayrılır. Elə bu zaman Allah-taladan sada gəlir, naxırçının oğlu dirilir, bu uşaxlara qarışır. Deyir:

– Bayaxdan biriydim, indi oldum üç qardaşdan biri.

Beləcənə, o iki qardaş da naxırçıya oğul oluf onnan qalır.

## 18. ALLAH GÖRÜR

Deyilənnərə görə, bir mollanın qırx şəyirdi olur. Hər gün bu şəyirdlərə dərs keçir, örgədir ki, bunnar gələcəkdə çörək sahibi olsunnar. Bir gün molla bu şəyirtdəri sınağa çəkmək isdiyir. Bu məqsədnən də qırx xoruz gətirir, hər bir xoruzu ayrı-ayrılıqda bir uşağa verir, deyir:

– Bala, apar bu xoruzu elə yerdə kəs gətir ki, sənin xoruz kəsdiyini heç kəs görməsin.

Uşaxlar da "baş üstə" deyib gedillər. Az keçmir biri gəlir ki, bəs kəsdim. Molla deyir:

– Görən olmadı?

Şəyird cavab verir ki, yox mirzə, damın üsdə kəsdim. Molla onun əlinnən başı üzülmüş xoruzu alıb deyir:

– Sən get.

Genə bir az keçmiş bir şəyird də bir əlində xoruz cəmdəyini, o birisində də başını tutub gəlir. Molla soruşur:

– Bala, sən harda kəsdin?

Şəyird sevincək:

– Mən elə yerdə kəsdim ki, onu heç kəs görməz. Çünkü, suyu qurumuş quyuda mənnən başqa bir nəfər də yoxuydu.

Molla deyir:

– Sən də get, ay bala.

Belə-belə şəyirtdərin hamısını molla yola salır, qırxıncı şəyirtdən başqa. Axşamçağı qırxıncı şəyird kor-peşman əlində xoruz, qəməlti gəlir. Molla soruşur:

– Bala sən niyə xoruzu kəsmədin?

Uşax cavab verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hayana getdim kimsəsiz yer görmədim. Ha daldalığa girdim ki, kəsim, gördüm bəndə də olmasa, Allah görür.

Molla başını qaldırıb deyir:

– Bala, sən çörək tapacaxsan...

## 19. İKİ YOLÇUYNAN DƏRVİŞ

Rəvayətə görə, bir gün kasıblıqdan əziyət çəkən iki nəfər qazanc dalınca başqa diyara getməli olur. Bunnar xeyli yol gedillər. Sora bir obuya rast gəlillər. Yorğunnuxdan və ajdıxdan əziyət çəkən yolçular qərara gəlillər ki, biri obanın ayağınnan, biri də başınnan düşüb oba əhlinnən yeməyə bir şey alsınnar. Onnar dedihləri kimi də eliyillər. Hərəsi bir tərəfdən obanın içinə girillər.

Axşam düşdü, yolçulardan biri əlində bir qurud, o biri də bir ovuc buğda obadan qayıdıb sözləşdikləri yerdə görüşüllər. Yolçulardan biri buğdanı qaynatmax üçün təzək yığmağa gedir. O biri də başını aşağı salıb qurudu əzir ki, yoldaşı təzəyi gətirənnən sora buğdanı qaynadıb üsdünə qurudu töküb yesinnər ki, ürəklərində durum olsun, təzdən yollarına davam eləsinnər.

Elə bu zaman təzək yığan yanında bir dərviş görür. Dərviş onnan salam-kalamnan sora nə elədiyini soruşdu. Yolçu başına gələnnəri ona danışır:

– Hə qardaş, kasıblıx əlinnən bezmişəm, ona görə də çıxmışıx görək başımıza nə gəlir, hardan nə qazanc əldə eliyirik.

Dərviş deyir:

– Mən səni dünya malınnan qane eləsəm, sən mənim bir şərtimnən irazı olarsanmı?

– Şərtin nədi? – deyə təzəkyığan yolçu dərvişdən soruşur.

Dərviş cavab verir:

– Sənin üç oğlun olacax. Onun birini mənə verərsən. Mənim hər şeyim var, oğul-uşaxdan başqa.

Təzəkyığanın gözdəri işıldıyır. Tez irazı olur və elə irazı olan kimi də gözünü açıb özünü şahlıx təxdində görür. Bir yanında qul-qaravaş, o biri yanında da vəzir-vəkili.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunnar burda qalsınnar, sizə kimdən deyim, qurud əzən yolçudan. Bu da qəmli-qəmli dünyanın dərd-sərini ürəyində götür-qoy eliyə-eliyə qurud əzdiyi yerdə başını qaldırır ki, bir dərviş düz onun qənşərində durub. Dərviş bu yolçudan da burda durmağının, nə elədiyinin səbəbini soruşur. Qurud əzən başına gələni dərvişə söylüyür, çarəsiz qaldığını, onçun da uzax yola çıxıb qazanc axtarmağa getdiyini danışır. Dərviş onnan soruşur:

– Sən dedin, mən inandım. İndi de görüm, səni bir hökmdara vəzir eləsəm, dünya malınnan səni qane eləsəm, sənə pul, qızıl, oğul-uşax versəm, sora sən uşağının birini mənə verərsənmi?

Yolçunun gözü işıxlanır. Ürəyində deyir: "Hansı axmax bu işə razı olmaz?" Elə bu fikir başınnan keçər-keçməz irazılaşır. Elə uzaxlaşan kimi də, dərviş neyniyir-neynəmirsə, yolçunu cah-cəlal yeyəsi eliyir. Qurud əzən özünü qüdrətli bir sarayın baş vəziri görür.

İllər keçir, vəzir də, şah da bəxdəvərriyin hər üzünü görür, dünyanın hər nemətini dadmaxla barabar, oğul-uşax sahibi də olullar. Bir gün şaha xəbər gəlir ki, şah sağ olsun, bəs həyətdə elçi daşının üsdündə bir dərviş oturub, siznən görüşmək isdiyir.

Şah deyir:

– Gedin ona dünya malınnan nə isdiyirsə verin, qoy getsin.

Nökər-nayıb gedir. Az keçmiş qayıdıllar:

– Şah sağ olsun, dərviş deyir mənə dünya malı yox, şahla görüşmək lazımdı.

Şah əmr eliyir ki, o kimdisə, ona deyin gəlsin. Çox keşmir qapı açılır, dərviş içəri girir. Salam-kalamnan sora şah dərvişdən gəlişinin səbəbini soruşur. Dərviş deyir:

– Şah sağ olsun, mən sənnən söz danışıb, şərt kəsmişdik ki, sənə dünya malı, övlad verim, sən də övladlarının birini mənə verəsən. İndi də həmən mətləbə gəlmişəm.

Şah özünnən çıxır:

– A kişi, dəlisən-nəsən?! Övlatdan da pay olar?! Çox da demişəm!

Dərviş ayağa qalxıb hasasını yerə vurub qəzəblə deyir:

– Ədə, get təzəyini yığ!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah gözünü açıb görür ki, genə həmən obanın kənarında, köhnə libasında təzək yığır.

Bunnan sora dərviş vəzirin həyətinə gəlib elçi daşının üsdündə oturur. Vəzirə xəbər gəlir ki, bəs bir dərviş oturub elçi daşının üsdündə. Nə də veririk getmir ki, məni vəzirnən görüşdürün. Vəzir əmir eliyir ki, o kimdisə, yanıma gətirin. Bir azdan qapı açılır, dərviş içəri girib baş əyir. Vəzir hövsələdən çıxıb deyir:

– Ey Allah bəndəsi, sən kimsən, mənnən nə isdiyirsən?

Dərviş təmkinlə cavab verir:

– Mən neçə il bunnan qabax filan obanın kənarında sənnən irasdaşan dərvişəm. Sən o zaman mənə söz verdin ki, məni var-döölət, oğul-uşax sahibi eləsən, mən övlatdarımnan birini sənə verəcəm.

Vəzir qeyizdənib dərvişi qapıdan qovur:

– Nə boş-boş danışırsan? Mən övlad böyüdüb bu həddə çatdırmışam ki, onu yoldan keçənin birinə verim?

Dərviş qapının ağzında ayax saxlayır, üzünü vəzirə tutub cavab verir:

– Ədə, get qurudunu əz!

Vəzir bir də gözünü açanda görür ki, genə həmən obanın qırağında, dərtdi-dərtdi qurut əzir.

İndi odu ki, biri hörmət eliyib çörək verdiyi adamnan naxələflik görəndə "ədə, get təzəyini yığ!" və yaxud "ədə, get qurudunu əz" deyir.

## 20. SÜLEYMAN VƏ QOCA DÜNYA

Süleyman peyğəmbər bir günnəri deyir ki, gərək mən dünyanın axırına gedəm çıxam, axırını görəm. Düşür yola, gedir. Gedir, gedir, çox gedənnən sora görür kü, bir dənə qəşəh qız oturup gülzarrıxda. Bu qıza baxır, xoşu gəlir Süleyman peyğəmbərin. Gətirir bir dənə üzüyü varımış Süleyman peyğəmbərin adına yazılmış, bunu verir qıza. Deyir ki, bunu saa verirəm, gedirəm dünyanın axırını görəm, qayıdanda səni götürəjəm. Deyir:

– Süleyman, nahax yerə getmə, sən dünyanın axırını tapa bilməzsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Amma Süleyman peyğəmbər onun sözünə qulax asmıyıp. Üş yüz il gəzip dünyanın axırını tapa bilmiyip, qayıdıp boş gəlip. Gəlir görür kü, yolda bir dənə qoca arvat oturup. Qoca qarı deyip ki, kimi axtarırsan? Deyir ki, mən burda bir dənə qıza üzük vermişəm, o qızı axtarıram.

Deyir:

– Aç o sandığı, üzük sandıxdadı, tap.

Sandığı qaldırır kı, burda yüz dənə Süleyman adına üzük var. Deyir:

– Vallah, burda yüz dənə Süleyman adına üzük var, nə bilim hənkisidi. Bəs mən qıza bir dənə vermişdim.

Deyir:

– Yüz dənə Süleyman bu dünyaya gəlip gedip, axırıncı sənsən. Qız da mənəm. Yazda oluram qız, qışda oluram bu dee belə qarı. Dünya mənəm.

Süleyman əlini üzüp qayıdıp geri.

## 21. YAZIYA POZU YOXDUR

### I mətn

Şah Abbas vəzir Allahverdi xannan ildə bir dəfə gedərmiş vilayəti gəzərmiş ki, görüm nə təhər dolanır camaat. Olar gedib gəzib gələndə bir ilə gəlib çıxırmışdar. Bunlar gedəndə görüblər ki, – onda da belə təmtərağ yoxmuş, yerdən qazma damlarda-zadda olurmuşdar, – bir damnan işıx gəlir. Bu, vəzirə deyir ki, vəzir, çönək görək gecənin bu aləmində bu nə işıxdı, nə hikmət var burda? Elə bular qapının cəftəsinə çatanda görüllər ki, əmmaməli, nurrı bir kişi qapıdan çıxdı. Çıxanda yapışıllar tutullar qolunnan ki, sən kimsən, gecənin bu vaxtı nə gəzirsən? Deyir ki, mən baxt-tale yazanam. Bu (ev yiyəsi – top.) çobandı, camaatın naxırını otarır. Bunın yeddi qızı vardı, oğul evladı yoxıdı. İndi bının bir oğlu olub, onun talehin yazdım.

Deer:

– Onun talehinə nə yazdın?

Deer:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yazdım ki, bu çobanın oğlu Şah oğlu Şah Abbasın qızını alacağ.

Şah Abbas əl atır yapışır bının yaxasınnan ki, əyə, sən dəli olmusan? Gədənin biri mənim qızımı alsın? Mən Şah oğlu Şah Abbasam. Mənim dərviş libasında olduğuma baxma. Poz!

Deer:

– Qardaş, yaxamı burax. Da burda nə var ki, poz deyirsən. Yoldaşınnan da məsləhət elə, məsləhətdi, pozum.

Bının yaxasını bıraxır, çönür deer:

– Vəzir, düz deerəmmi?

Deer:

– Gözəl deyirsən.

Çönür görür, bıy, qeyb oldı, yoxdı.

– Ayə, bı nə iş idi başımıza gəldi? Nə məsələ idi, nə qayrağ? – deyəndə, vəzir deer ki, ayə, nə var ki, kasıf adamdılar, çoban adamdı. Girək bir az qızıldan-puldan verək, uşağı buların əlinnən alağ, aparağ gedək, o dərənin birində başına bir daş vurağ, ölsün, çıxsın getsin işinə. Heç sənin qızını da ala bilməsin.

Deer:

– Ay səni sağ ol! Sənin dədən dədəmə ölüncə vəzirik eliyib, özün də özümə eliyirsən, heç belə ağıllı söz eşitməmişdim.

Girdilər içəri, röziyə diyə-diyə. Hə, bəs dərviş babayıx, sonsuzux, övladımız yoxdu, özü ağırrığında qızıl verək, bını ver bizə. Allah kasıbçılığın evini yıxsın. Belə deyəndə qadın kişinin üzünə baxır, kişi qadının üzünə baxır. [Arvad]  deyir:

– Əşi, Allah genə verər. Gəlsən, elə kasıblığın daşını atax.

Uşağı satıllar bulara.

Gedillər kənara. Şah Abbas vəzirə deyir ki, daş tap gətir. Deyəndə vəzir deyir:

– Əə, başın xarabdı. Daşı vırağ başına, qanı üsdümüzə sıçrasın, üsdümüzü bılasın? Onnansa, gedək çıxax o dey, misal üçün, Himalay dağının başına, dağın başınnan atağ, düşsün yerə, para-para olsun. Heç nə səsini eşidək, nə qanı üsdümüzə çıtdasın.

Şah Abbas dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Afərin, sana. Getdik.

Getdilər çıxdılar hündür bir dağın başına, uşağı ordan atdılar. Allah-tala Cənabi Cəbrayıla hökm elədi ki, aç şapərizlərini, al qənədinin üsdünə, qoyma düşsün. Çünki bının taleyini mən yazdırmışam. [Cənabi Cəbrayıl] uşağı aldı qanadının üsdünə.

Allah-tala dedi:

– Filan meşədə, filan cəzirədə bir maral quzuluyub, apar qoy maralın quzularının yanına.

Vəhy gəldi ki, ya Süleyman, sən bütün heyvanatın dilini bilirsən, cannının, cinninin dilini bilirsən. Marala de ki, balalarından çox ona qulluğ eləsin, onu əmizdirsin.

İndi, deyəllər ki, nağıl ayağı yüyrək olur. Bu uşağ yekəldi, cüürlərnən gəzdi. Bir gün Ovçı Pirim çıxdı ova. Belə bir meşənin talasına çıxanda gördü orda bir dəsdə cüür var. İçində bir bəni-insan da var. Cüürrər bını yalıyır, bı cüürrərin boynunu qucaxlıyır, oynaşıllar. Dedi:

– Bıra güllə atmağ olmaz. Bu nə insandı, bu nə hikmətdi, bilmirəm. Bıra bir kəmənd qurax, o uşağı kəməndinən tutax.

O uşağı kəməndinən tutdu. Uşağ elə bir uşağ idi ki, ilahi-pərvərdigara özünün ürəyinin isdədiyi vaxtda onu xəlq eləmişdi. O qədər şəxsiyətdi, o qədər gözəl, o qədər hikmətdi bir uşağ idi. Götdü apardı evinə, bını savatdandırdı, oxutdurdu, o yan-bu yan.

Tacirrər gedirdi alverə. Bırdan keçəndə karvannan, gördü ki, Ovçu Pirimin qapısında bir uşax var, elə bil gün belədən doğub, işıx salır. Soruşdu ki, bu uşağ Ovçu Primindi?

Dedi:

– Yox, bını meşədən tapıb.

Dedi:

– Əə, evladı deyil, bir şeyi deyil, canı yana. Gedim elə bı ovçuya pıldan-zaddan verim, bı uşağı alım. Aparıb bını mağazada qoyum, satıcı olsun. Elə bının gözəlliyinə bənd olub gələnnər hərə bir ispışqa alsa, hərə bir kilo qənd alsa, mənim bəsimdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Apardı getdi bını mağazaya. Bı elə bir gözəl oğlan idi ki, indi, məsələn, mən ordan bir kilo qənd alsam doymurdum, qayıdıb gedirdim onu bir də görmək üçün bir şeyi mahna* edib.

Genə bir gün Şah Abbas vəzir Allahverdi xannan çıxmışdı gəzməyə ölkəyə ki, görüm vəziyyət nə təhərdi. Gördü ki, bir kəntdə oçeret var bir mağazanın qabağında. Dedi:

– A qardaş, orda nə satıllar?

Dedi:

– Vallah, orda heç zad satmıllar. Orda bir oğlan var, satıcıdı, elə onun gözəlliyini görməyin dərdinnən hərə bir şeyi mahna eliyib gedir.

Dedi:

– Əə, gedək görək.

Getdi Şah Abbas, belə baxanda çöndü vəzirə dedi:

– Əə, vəzir!

Vəzir dedi:

– Bəli?

Dedi:

– Əə, bı naxırçının oğludu.

Dedi:

– Əə, naxırçının oğlu çoxdan öldü, çıxdı getdi.

Dedi:

– Əə, mən Şah oğlu Şah Abbasam, mən şahlar şahıyam. Mənim gözüm Aşıx Cununun gözünnən sərrafdı. Gejə mən o qarannıxda ayın işığında uşağın gözünə baxmışdım. Həmən gözdərdi.

Dedi:

– Hə, nə edək, nə qayrağ?

Dedi:

– Çarası var.

[Şah Abbas] çağırdı taciri, dedi:

– Bu oğlan gündə neçə manatdığ alver eliyir?

Dedi:

---

* mahna – bəhanə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Beş abbası.

Dedi:

– Mən sənə on beş abbası verirəm. Dərviş babayam, təsbehim yadımnan çıxıb, qalıb ceynamazın, möhürün yanında. Bir məktub yazım verim, gedib evimizdən onu götürsün gəlsin.

Tacir tayfası tamahgir olur. Dedi ki, əə, nə gözəl dərvişdi bu. Gündə belə müşdəridən çox ola.

Nə isə, məktuba yazdı ki, indi farscan yazdı, ərəbcən yazdı, hankı dildəsə, filan cəllad, filan evdə filan vəzir, vəkil, filankəs, bu, ora çatan kimi, munı iki şaqqa vurursunuz, bir şaqqasını mənim bələdimin* bir yanınnan asırsınız, bir şaqqasını bir yanınnan.Verdi məktubu. Oğlan daban aldı getdi. Axşama çatdıra bilmədi, qarannıx oldu, hər tərəfdə qapılar cəftələnmişdi. Fırrandı ordan-bırdan, barıdan aşdı, padşahın qızının çarhoozının başında, cavan uşağ idi, yuxu tutdı, bı yatdı. Səhər tezdən padşahın qızı qırx incəbel qıznan çıxmışdı çarhoozun başına seyrə. Gördü, əə, bırda bir oğlan yatıb, deəsən elə bının xətti-xalına, gül camalına tamaşa eliyim. Bu nə gözəldi. Gördü böörünə bir məktub düşüb. Götdü oxıdı, gördü atası belə yazıb. Dedi:

– Qələmin sınsın, bına adam qıyar, belə canı əldən bıraxallar.

Götdü atasının dəsdi-xəttiynən yazdı ki, filan vəzir, filan vəkil, filan cəllad, bı ora çatan kimi filan qazını, filan mollanı çağırın, mənim qızımın kəbinini kəsdirin bına. Qırx gün-qırx gecə toy eliyin. Kejavanı bəziyin, mən gələndə pişvaza qabağıma çıxın ki, əmrinə müntəzir olmuşuq.

Oğlan isdədi gedə məktubu verənnən sora. Qız dedi:

– Haraya gedirsən əə, sən buralısan.

Belə də elədilər. Ha eləyib onlar gəlincə, bir ilə gələrdilər, bıların bir oğlu da oldu. Kejavəni bəzədilər, gözdədilər ki, indi şah gələr. Bir də gördülər ki, atın ayağının altından toz qopur, budaha vəzirnən şah gəlir.

Kejavəynən çıxdılar qabağına ki, şah, əmrinə müntəzirik. Bu sənin qızın, bu sənin yeznən, bu sənin nəvən.

---

* bələd – qapı, darvaza



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah Abbas dedi:

– Ə, siz səfehsiniz-nəsiniz. Mən demişəm bını doğruyun.

Dedilər, bı sənin möhürün, bı sənin qolun, bı sənin məktubun.

Belə deyəndə Şah oğlu Şah Abbas dedi ki, yazıya pozu olmaz, tədbirə təqdir olmaz. Bınnan da iş bitdi.

**II mətn**

Bir patşah olur, çox zulumkar olur. Elə bil kimə cəza verirmiş deyirmiş ki, boynunu vırın. Patşah bir gün deyir ki, gəlin çıxağın ova. Patşah ayda bir dəfə çıxarmış ova, ceyran ovluyarmış. Gedif düzdərdə ceyran ovluyuf, kavaf bişirif, yeyif-içif gəzərmişdər. Çıxıllar ova, qavaxları düşür qarannığa. Atdanıf gələndə deyillər gedəh gejə bı kəntdə qalax, sabah gedərih. Deyir:

– İşıx yanan yerə gedəh, it hürən yerə?

Deyir:

– Yox, elə üzümüzü tutax o işıx yanan yerə, gedəh o qapıya.

Gəlif çıxıllar o qapıya. Şahın Allahverdi xan adında vəziri varmış. Vəzir qapını döyür. Deyir:

– Ay ev yiyəsi, Allah qonağı isdiyərsən?

Deyir:

– Gəlin, başınıza dönüm, gəlin. Allaha da qurban olum, Allahın qonağına da.

Atdan düşüllər, qonaxlara yer görsədir, keçillər içəri. Patşah baxır görür ə, dədə vay, bı nədi ə, bı çox kasıf bir evdi. Bının da yoldaşı, da bağışda, üzr isdiyirəm, hamiləymiş, boylu. Day ayı, vaxdı, günü keçif, dəyqa qalıf ki, uşağı gətsin dünyaya. Yeyillər-içillər. Gətirir bəənki otaxda bılara yer salır. Bəənki otaxda da kadınnan kişi qalır. Bının da üş-dörd uşağı olur. Gecə vəzir görür ki, bı kadının uşağı oldu, oğlu oldu. Patşahın da yeganə bir qızı varmış. Gejə bıları bir-birinə qismət elədi. Bəs bı naxırçı oğlu yekəlsin bı qızı alsın. Bizim sağ çiynimizdə bir maleykə var, sol çiynimizdə bir maleykə. Hahax deyəni bı yazır, hax deyəni bı yazır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xülaseyin, səhər durullar, oturullar sırfada. Onda isdol-zad yox imiş, belənçih stolarımış. Bı Vəzir Allahverdi xan şakka çəkir gülür. Deyir:

– Vəzir, bı nə məsələdi, bı nə işdi?

Deyir:

– Heç ey, şah sağ olsun, bir şöz düşdü yadıma, odu ki, gülürəm.

Deyir:

– Yox, deməsən bırdan ayağa durmuyacam.

Ev yiyəsi çıxıf gedənnən sora deyir ki, şah sağ olsun, bı gecə naxırçının arvadı bir oğlan gətdi dünyaya, o uşağı Allah-tala sənin qızına yazdı müşdəri. Bı hirsdənir, qışqırır. Vəzir deyir ki, qışqırma, qışqırmağın heş bir mənası yoxdu. Belə bir variant var, gəl belə eliyəh. Kişini də, arvadı da çağırax içəri, uşağı qızılnan alax. Qoysun tərəziyə uşağı, bir kilodu, iki kilodu, neçə kilodu çəhsin, onun ağırına dörd dəfə qızıl verəcəm.

Bı sözü vəzir bılara deyir. Kişi deyir ki, ay arvad, bir sürü uşağımız var, altı-yeddi uşağımız var, dolandıra bilmirih, gəl bını verəh bı götsün getsin. Qızılımızı alax, biz də bir varranax da, dolanax. Deyir ki, yaxşı.

Gətirif uşağı qoyullar tərəziyə, uşax gəlir iki kilo. Bına gətirif on kilo, on iki kilo qızıl verir. Şah deyir:

– Uşağı bələyə bük, möhkəm bağla, atı min, al qucağına, dalımca sür.

Uşağı bağlıyır bələyə, minir ata, alır qucağına. Patşah düşür qabağa. Kətdən çıxır, aralanıllar. Gedif bir dağa ras gəlillər. Patşah gedif çıxır dağın başına. Baxıf görür ki, bırdan uşağı tullasa, uşax qarışacax torpağa. Deyir ki, vəzir, uşağın tut bələyinnən, bıla, bıla, bıla, tulla, getsin düşsün yerə, cəhənnəmə vasil olsun.

Deyir:

– Şah sağ olsun, bu iş onsuz da baş tutmuyacax. Ancax eliyim da, şah əmr eliyif.

Vəzir uşağın tutur bələyinnən, dağın başınnan bılıyır, bılıyır, bılıyır, tulluyur. Deyir:

– İndi gəl. Görürsən mən neylədim?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Minillər ata, gəlillər. Gəlillər öz evlərinə.

Bı vəzirnən, şah qalsın bırda, indi saa kimnən deyim uşaxdan. Uşağı tullamadılar? Qurban olum, göydə malakalar uşağı tutur. Təzəcə bir ceyran doğmuşumuş. Ceyrana tapşırıx verillər ki, bı uşağı gündə uş dəfə, dörd dəfə əmizdirirsən, yekəldirsən. Ceyranın da iki əmcəyi var da. Birini balasına verir, birini də bına. Allah ohqədər bına urza verir ki, südü aşıf-daşır. Bir əmcəh bının ikisinə də bəs edir. Bu uşax babatıyıf irilənəndə ceyran qoyıf gedir.

Bir kişi atını götürür, baltasını götürür gedir həmən meşiyə odun yığmağa. Odunu qırır, yığır, hazırrıyır. Görür ki, bir daşın divində bir uşağ ağlıyır. Belə birəz yaxınnaşır, görür ki, daşın divində bir çala var, orda bir çıkqılı uşaxdı, insan uşağıdı. Gedir bı uşağı alır qucağına götürüf gəlir. Pencəyini çıxardır, uşağı bürüyür, qoyur odunun arasına, atır belinə, gətirir əvə. Gətirir deyir:

– Ay arvad, bəs başın sağ olsun, sana bir oğul tapmışam.

Bı uşağı bırda beçərillər, yekəlir, həddi-buluğa çatır. Həddi-buluğa çatanda deyir ki, ata, maa icazə ver, gedim özümə bir iş tapım, işdiyim. Deyillər:

– Ay bala, bırda sən nə işdiyəssən, axı.

Deyir:

– Yox ey, mən bekar qala bilmərəm.

Deyir:

– Yaxşı, bala, odaha, orda bir çəhməçi var. Get onun yanına, gör, səni şagird götürər özünə.

Gedir yanaşır çəhməçiyə. Deyir:

– Əmi.

Deyir:

– Bəli.

Deyir:

– Əmi, məni özünə şagird götürərsən?

Çəhməçi baxır ki, uşax, doğrudan da, bir dəfə baxırsan elə bil çırax yanır, heylə gözəl uşaxdı. Deyir:

– Bala, niyə götürmürəm?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Götürür uşağı, uşax başdıyır orda işdəməyə. Bı qalsın orda işdəməhdə, patşahnan vəzir bir gün atdanıllar ki, genə getsinnər ova. Elə yolları düşür həmən uşax işdədiyi butkanın qapısınnan keçəndə vəzir belə dönür, görür ə, bu həmənki uşaxdı. Birəz gedir irəli, şakka çəkir gülür. Patşah dönür geri, deyir:

– Vəzir, indi noldu, nəyə gülürsən?

Deyir:

– Heş, yeri gedəh.

Deyir:

– Yox ey, illaf olmaz. Bı məsələni maa deməlisən.

Deyir:

– Şah sağ olsun, bilirsən niyə güldüm? Bı çəhməçi qızılnan, pulnan aldıx ha, apardıx dağdan atdıx ha, həmən uşaxdı.

Patşah dönür geri baxır, qalır məhətdəl. Deyir:

– Ə, doğrudan bı həmənki uşaxdı? Ay vəzir, öldüm, partdadım, çatdadım, maa bir məsləhət.

Deyir:

– Məsləhəti yoxdu. Gətir bına bir namə yaz. – Bı patşahın da qızı kətdən aralı bir dənə zdaniya tikir, bağı, gülü, çiçəyi, içində hovuzu, nəyi, nəyi. – Gətir bir namə yaz, peçatını da qoy üsdünə. Yaz ki, cəllat, bı uşax gətirif bı məytubu saa verən kimi, oxuyan kimi iki şakka elə, bir şakkasını as darvazanın bı tərəfinnən, bir şakkasını as bı tərəfinnən. Mən qayıdan baş gəlim oları görüm.

Bu uşax məytubu alır qoyur çiyinə, düşür yola. Gedir çıxır həmən xanımın – patşahın qızının sarayının qarşısına. Baxır görür qaroulçu yoxdu, aşır darvazadan girir bağın içinə. Görür bir hovuz var güzgü kimi adamı görsədir. Bunnan əlini-üzünü yuyur. Uşaxdı da çox gəzif yoruluf, bını yuxu tutur, yatır. Belə arxası qatda havızın böyründə uzanır ki, bir az dincəlim. Sora durum gedim, çıxım elçi daşının üsdünə, məytubu verim. Belənçih uzanır, bını yuxu tutur.

Həmən xanım kənizdərinə deyir ki, çıxax bağı gəzməyə, həvsələm darıxır. Çıxıllar bağa gəzəməyə. Kənizdərin biri baxır ki, hovuzun içinə bir şikil düşüf, elə bil nozənbillah gün parasıdı. Yüyürür xanımın yanına ki, ay xanım, bəs belə. Xanım gəlir baxır, elə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir könüldən, min könülə vırılır bı oğlana. Axı Allah-tala yazıf yazısını. Baxır görür ki, oğlanın civində kağız var. Yavaşca kağızı açır götürür, dədəsinin dəsdi-xəttidi, onun peçatıdı. Oxuyur, görür ki, yazıf ki, cəllad, bı məytubu alıf oxuyan kimi bı uşağı iki bölürsən, yarı şakkasını ayna, yarısını bayna asdırırsan, mən gələndə görüm. Götürüf bı kağızı cırıf tökür yerə, ibışkanı vırıf yandırır. Ayrıdan bir məytub yazır ki, vəzir, vəkil, bı oğlan ora çatan kimi aparırsan hamama, üzünü qırxırsan, hamamlandırırsan, bəy libası geydirirsən, toy vırırsan, nağara vırırsan, neynirsən, qızı verirsən bı oğlana. Kağızı qoyuf oğlanın civinə, qaçıf gedillər. Oğlan yuxudan ayılır, görür bay, vaxt keçif. Baxır görür kağız bunun civində. Bilmir ki, bunu dəyişdiriflər. Gedir çıxır elçi daşının üsdünə. Vəzirə xəbər gedir ki, bəs elçi daşının üsdündə bir adam oturuf. Deyif:

– Ə, get tut gətir bura.

Gedif tutuf gətirillər. Civindəki kağızı çıxardıf oxuyuf, görüllər paay. Srazı oğlanı aparıllar hamama, üzünü qırxıllar, başını qırxıllar, bəy libasını geydirillər. Toyçu gəlir, erkək kəsillər, düyü artdanır, toy vırdırır.

Bular burda qalsın, vəzirnən, şah da ceyran ovundadı, xəbərləri yoxdu. Qızı verillər bı oğlana. Qızın boyuna bir cüt oğul düşür. Elə bil ki, bir cüt almadı. Bı uşaxlar gəlir dünyaya. Şahnan vəzir şəhərə qayıdanda hamı çıxarmış onun görüşünə. Vəzir, vəkil oğlana deyir ki, qaynatan gəlir. Yoldaşın bu uşağın əlinnən tutsun, sən də bu əlinnən, üçüz də gedin durun darvazanın qapısında. Babanız gəlir.

Babası oyannan bəri gələndə vəzir arxadan baxır, oğlanı tanıyır. Görür baa, qız verlif bına, bının iki uşağı oluf. Orda şakka çəkir gülür. Güləndə şah deyir:

– Genə nəyə güldün?

Deyir:

– Şah sağ olsun, odaha, qapıda durannar, o sənin qızındı, o sənin giyavındı*, o ikisi sənin nəvələrindi.

---

* giyav – kürəkən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onnan sora Şah Abbas düşür gəlir. Bı uşaxları öpür, alır qucağına. Onnan sora Şah Abbas zulumkarlığını tərgidir. Deyir:

– Bı yazını ki, mən pozammadım, bınnan sora mən olacam sülh dööləti.

Deyir ki, vəzir, indi sən bırdan Kalbaya qədər min dənə tikili tihdir. İnsannarın yeri ayrı, ulaxların yeri ayrı, içində suyu, yeyib-işməyi. Onda da maşın-zad yox imiş. Atnan, ulağnan gedif gələrmişdər. Atına, ulaxlara ayrıca yer, hər şeyi hazır. Bı vəzir dünyagörmüş vəzir idi. Deyir:

– Şah sağ olsun, min bir dəfə ağızdan çıxır. Amma gəl belə eliyəh. Birini kəsax dokquz yüz doxsan dokquz dənə tikili tihdirəh. Gör neçə dəfə artır. Üş dəfə. Amma mini, bir dəfə deyirsən. Bırda deyəcəhlər ki, Şah Abbas bırdan Kalbaya dokquz yüz doxsan dokquz dənə tikili tihdirif.

Şah Abbas deyir:

– Vəzir, sağ ol, bınnan sora ölüncə sən mənim vəzirimsən, mən də sənin şahın.

**III mətn**

Şah Abbas Allahverdi xannan – Allahverdi xan onun vəziridi – səfərə çıxır. Deyir bir çıxax görək nə var, nə yox, camaat nətərdi? Gəlillər gün batan çağı bir qapını dööllər. Bir zənən çıxır qapıya. Vəzir Allahverdi xan deyir ki, bajı, beyjəlik Allah qonağı isdiyirsən? Bilmillər ki, bu Şah Abbas, bu da bunun vəziridi. Arvad deyir:

– Niyə isdəmirəm, Allaha da qurvan olum, qonağına da.

Bu da naxırçının əvləridi. Gün batan çağı naxır gəlir. Arvad tez gedir ərinin qabağını kəsir ki, ay kişi, sənnən icazəsiz bir iş görmüşəm axı.

Deyir:

– Nə iş, ay arvad?

Deyir:

– Vallah, iki nurani kişi gəlmişdi, Allah qonağı isdədi, mən də onnarı qonax elədim.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yaxşı eləmisən, ay arvad. Allah qonağını qapıdan qaytarmax olmaz.

Naxırçı da gəlir, görüşür eliyir. Bir heyvan kəsir. Bunnar yeer-içir. Yer qayırıllar. İçəri evdə bu Şah Abbasnan vəzirinə yer qayırıllar. Bu naxırçının da arvadı hamilə imiş. Hə... Gecənin yarısı arvadın ağrısı tutur. Şah Abbas yatır, amma vəzir Allahverdi xan uyaxdı. Naxırçı girir içəri, deyir ki, yatmısız? Vəzir deyir:

– Xeyr, yatmamışıx.

Deyir:

– Xayiş eliyirəm, inciməyin, sizin yeri götürüm qapıya, bizim arvad naxoşdu, onun yeri bura gələ.

Deyir:

– Nolar.

Şah Abbası da durquzur. Buların yerini çıxardıllar qapıya, yay vaxtıdı. Arvadı köçürüllər içəri evə. Arvad gecə yarısı bəri-həmlini qoyur yerə. Allah-tala bulara bir oğul baxş eliyir. Elə ki, gejənin bir yarısında bir ağ əmmamalı kişi gəlir bu qonaxların böyrünnən sivrilib girir içəri. Girir içəri, bir azdan çıxır. Vəzir Allahverdi xan yatmıyıf hələ, uyaxdı. Kişinin qolunnan tutur, deyir:

– Ay kişi, sən kimsən, nəçisən, bu zahının yanına nəyə getmişdin?

Deyir:

– Mən taleh yazanam.

Deyir:

– Nətər taleh yazan?

Deyir:

– Beyjə Şah Abbasın arvadının bir qızı oluf, naxırçının da bir oğlu oluf, onnarın taleyini bir yazmışam.

Səhər açılır, yeyif-içif yola düşəndə bu Vəzir Allahverdi xan bərkdən qahqanax çəkif gülür. Şah Abbas Vəzir Allahverdi xanın xasiyətinə bələtdi, bilir ki, bir iş oluf ki, gülür. Deyir:

– Vəzir, de görüm nəyə güldün?

Deyir:

– Şahım, heç, elə-belə, bekara.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Dinim hakkı, dedin dedin, demədin qayıdanda boynuu vurdurajam.

Deyir:

– Şahım sağ olsun, boynumu vurdurma. Beyjə bu naxırçının arvadının bir oğlu oluf, sənin də arvadının bir qızı. Onnarın talehin bir yazıflar, gejə talehyazan gəlmişdi.

Dedi:

– O talehi mən pozaram.

Şah Abbas deyir ki, tərəzinin bir gözünə qızıl tökün, uşax beyjə ana bətninnən yenib, anası onu mayalandırsın, qoysun tərəzinin gözünə, qızılnan barabar o uşağı alıram. Naxırçı deyir:

– Vallah, bilmərəm, amma anası irazı olmaz.

Gedir anasına deyir. Deyir ki, iki ağırrığı qızıl verələr, mən balamı vermərəm. Axırı kişi arvadı yola gətirir, deyir:

– Ay arvad, o uşax qalsa da, biz onun xeyrini görmərih, gəl verəh getsin.

Arvad yuyur, mayalandırır, uşağı verir bıllara. Gətirir bir sıldırım qaya varmış, dağ. Şah Abbas əmr eliyir ki, çıxart bu uşağı qayanın başına, ordan tulla. Vəzir deyir.

– Şahım sağ olsun, bu nə günah eliyif, beyjə ana bətninnən yerə düşüf. Barı bir günah işdədə. Allaha ağır gedər. Allah bizi qəzəbə salar, qəzəbi tutar bizə.

Deyir:

– Saa nə əmr eliyirəm, elə.

Bu vəzir Allahverdi xan baxır görür bu uşağın sol qaşının üsdündə bir qara xalı var. Bunu mənşirriyir da. Uşağı götürüf dağın başınnan tulluyur. Bu vədə Allah-tala Cəbrayıla əmr eliyir ki, məleykələri göndər o uşağı göydə tutsun. Bu körpəni göydə tutullar. Orda o sıldırım dağın döşündə bir kaha varmış. Orda da bir qaya keçisi balalamışmış. Məleykələr aparıf uşağı qoyullar orda. Allah-talanın izniynən, dayağıynan keçi əmcəyinin birini uşağa əmizdirir, birini də öz balasına. Uşax böyüyür, yekəlir, böləyi-zadı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cırır, yumalana-yumalana gəlir düşür dağın divinə. Az qalıb ki, bir yaşı tamam ola.

Bir çoban qoyun otarırmış, bunun da övladı yoxmuş. Görür qoyun ürkdü, həmən dağın divində. Qabağa gəlir, görür cırın-çındırın içində bir körpə oğlan uşağıdı. Səvinir, bunun övladı yoxmuş. Deyir:

– Allah-tala yox yerdən bizə bir övlad yetirdi. Şükür böyühluğa, birriyə.

Çəmbərəsi vardı, uşağı tez qoyur çəmbərəsinə. Axşam heyvanı gün batar-batmaz tökür obuya. Səvinə-səvinə gəlir. Deyir:

– Ay arvad, Allah-tala yox yerdən bizə bir dənə övlad baxş etdi.

Arvad da səvinir. Bu uşağı yuyur, təmizdiyir, yaxalığınnan keçirir, bu körpə olur naxırçının oğlu. Bəli, bu uşax böyüyür, yekəlir, olur on altı-on yeddi yaşında. Buların evi də el yolunun qırağındeymiş. Şah Abbas, vəzir Allahverdi xannan üç illik səyahətə, gəzməyə çıxır. Gör bu Vəzir Allahverdi xanın zehninə bax. Bu uşağı görəndə tanıyır, görür həmən naxırçının oğludu. Qahqanax çalıf gülür. Şah deyir:

– Vəzir, nəyə güldün?

Deyir:

– Şahım sağ olsun, elə güldüm dayna.

Deyir:

– Yox, de görüm, nəyə güldün? Sən boş yerə gülməzsən.

Deyir:

– Bu həmən qayadan atdığımız naxırçının oğludu.

Tez gətirir bir nama yazır, Şah Abbasın bir Qara Pəhləvanı varmış, onun üsdünə ki, bu məktubu saa verən oğlanın boynunu vırırsan, iki sakka eliyif birini qapının bı tərəfinnən asırsan, bir sakkasını da bı tərəfinnən. Genə vəzir Allahverdi xan deyir ki, şahım sağ olsun, Allaha ağır gedər, bunun nə günahı var?

Deyir:

– Saa nə deyirəm, onu elə.

Şah Abbas öz dəsdi-xəttiynən Qara Pəhləvanın üsdə bir nama yazır. Deyir ki, bu oğlan ora çatan kimi boynun vırırsan. Oğlan isdiyir məktubu apara vermiyə. Atası deyif ki, oğul, şahın qəzəbinə keçərih. Uzax deyil ha, apar ver, gəl.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan məktubu götürür, qulaxlı papağı varmış, məktubu bükür qoyur qulağının divinə. Gedir. Gün qızmışmış, günorta vaxdıymış, bir baxçaya çatır. Baxça sən demə şahın qızının baxçasıymış. Girir orda çarhovuz varıymış, əlini yuyur, yuxu bunu aparır, yatır. Bu dəhqədə qız da öz başının kənizdəriynən çıxır baxçaya gəzməyə. Görür bir gözəl-göhçəh oğlan yatıb, amma papağının qulağında bir kağız var. Alır kağızı oxuyur, görür ki, atası dəsdixəttiynən yazır ki, Qara Pəhləvan, bu oğlan ora çatan kimi boynunu vurursan. Tez qız məktubu cırır, atır. Atasının dəsdi-xəttiynən yazır ki, Qara Pəhlivan, bu oğlan ora çatan kimi yeddi gün, yeddi gejə toy eliyif mənim qızımı bu oğlana verirsən.

Qız həmən kağızı genə oğlanın papağının böyrünə qoyur, öz yoldaşdarını götürüf baxçadan çıxır. Bu dəhqədə oğlan ayılır görür ki, sərin düşüfdü. Durur sorahlıya-sorahlıya gəlir, kağızı çıxardır verir Qara Pəhləvana.

Qara Pəhləvan car çəkdirir ki, savaxdan bu oğlanın toyunu eliyin. Şah Abbasın qızını bu oğlana veririk. Naxırçının oğlu deyir ki, ağa, mənim atam-anam var. Deyir:

– Sənin ata-ananı da gətizdirəjeyik bura.

Bunlara üşmərtəbəli bir otax tikdirir. Oğlanın atasını, anasını da gətizdirir ora. Yeddi gün, yeddi gejə toy eliyir, qızı verir bu oğlana.

İndi Şah Abbas vəzir Allahverdi xannan üç ildən sora gəzməhdən qayıdır. Hamı çıxır, bir kilometir uzunnuğunda o tərəf, bu tərəfə düzülür. Bu şəhər əhli, şaha baş əyillər dana, şah gəlir. Oğlanın da üç yaşı var. Şah Abbasın qızı deyir ki, uşağın əlinnən tut, çıx atamın pişvazına. Elə çıxır durur qapının ağzında.

Şah Abbas gəldihcə hamı baş əyir, salamlarını verir. Vəzir Allahverdi xan genə əlini-əlinə vuruf gülür. Deyir:

– Vəzir, nəyə güldün?

Deyir:

– Şahım sağ olsun, o sənin yeznəndi, o da nəvəndi, saa dedimmi, taleh yazanın talehini pozmax olmaz. Bu qızın əridi, bu da sənin nəvəndi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah Abbas deyir ki, düz deyirsən vəzir, taleh yazanın talehini pozmax olmaz. Atılır attan düşür, yeznəsinin alnınnan öpür, nəvəsini də alır qucağına. Nağıl burda başa çatır.

## 22. BƏHLUL DANƏNDƏNİN QARDAŞLIĞI

Padşah çıxmışmış dərya kənarında gəzməyə. Görüf Bahlul Danəndə gəlir. Deyir:

– Bahlul Danəndə, burdan gəl.

Gəlir.

– Salam-məlöyküm.

– Əleykim-səlam.

Şah deyir:

– Bahlul Danəndə, de görüm bu dünyada sən yaxşı kef çəkib ömür sürüfsən, ya mən?

Bahlul Danəndə gülür. Padşah deyif:

– Mən sənnən söz soruşuram, niyə gülürsən?

Deyir:

– Padşahi-aləm, sənin sözünün mənası yoxdu, bekara sözdü.

Deyir:

– Nəyə görə?

Deyir:

– Ona görə ki, mən sənnən yaxşı ömür də sürrürəm, kef də çəkirəm.

Deyir:

– Nəyə görə?

Deyir:

– Bax, sən çıxmısan dərya kənarına, bu atı minif gəzirsən. Ya bu at yıxılıf ölür, ya çərriyif ölür. Dübarə civinnən pul çıxardıf verirsən. Mən də bu qarqu atı minirəm, nə arpa isdəmir, nə saman isdəmir. Hara gessəm, kefim hara isdəsə, ora sürürəm.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Padşah sağ olsun, sənin varınnan mənim devlətimin arasında on qəpihlih fərq var. Sənin varın-devlətin mənimkinnən on qəpih yuxarıdı.

Padşah qalır məətdəl. Nejə yəni, bütün şəhərin varı-yoxu hamısı mənim, xəzinəm-zadım. Nətər olur ki, bunun varınnan-devlətinnən mənim varım-devlətim on qəpih yuxarı olur? Deyir:

– Bahlul Danəndə, bunu nədən bilirsən?

Deyir:

– Onnan bilirəm ki, sən bir elin padşahısan. Axşam yatanda deyirsən, ay Allah, görəm şəhərdən kənara kim gəldi, kim gəldi girdi? Və yaxud da şəhərdən kim çıxdı getdi? Bının fikrini çəkirsən. Amma mən axşamnan Allah verənnən yeyirəm, kəlləmi atıram yerə, yatıram. Səhər dururam öz işimin dalıncan gedirəm, tay bilmirəm şəhərə kim gəldi, kim getdi, kim nə iş gördü. Sən dünyanı dəyişəndə iyirmi köpühlük humay ağınnan alıf, səni büküf, aparıf dəfn edəjəhlər, amma mən dünyamı dəyişəndə on köpühlük yetim ağınnan alıf, məni büküf, aparıf dəfn edəjəhlər. Ona görə də səən varın-döölətin mənimkinnən on qəpih yuxarıdı.

– Əstafrullah, ayə, bı nə danışır?

Deyir:

– Bahlul Danəndə, mən sənnən qardaş olmax isdiyirəm.

Deyir:

– Padşah sağ olsun, sən bir elin padşahı. Sənnən mənim qardaşdığım tutmaz.

Deyir:

– Yox, qardaş oluram.

Deyir:

– Onda civinnən bir kağız çıxart, daqavor yaz. Daqavor yaz ki, mən filan padşah Bahlul Danəndəynən qardaş oluram. O, nə desə onun sözünnən çıxmıyacam. Doqovoru iki surət yaz. Bir surətini sən qoy civa, bir surətini mən. Olum sənnən qardaş.

Padşah heylə də eliyir. Deyir:

– İnnən belə mən saa padşah demiyəjəm, qardaş deyəjəm. İndi, qardaş, dur gedəh sənin evaa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Durullar gəlillər padşahın imaratına. Qapıda nökər-nayıf var. Birini çaarıf deyir:

– Get, şəhər qazısını çağır, gəlsin bıra.

Padşah dinmir. Gedif qazını çağırıllar, gəlir. Deyir:

– Qazı ağa, xayiş eliyirəm, mənim bı qardaşımın arvadının sığasını geri oxut, arvadı boşatdırıram mən.

Qazı ağa arvadın sığasını geri oxuyur. Padşah dinmir. Bahlul xəznədarı çağırtdırır, deyir:

– Bu xəznəni yarı böl.

Yarısını verir arvada, deyir:

– Bajı, anaan südü kimi halalın olsun, apar.

Yarısını da nə bilim özü bilən, tanıyan adama paylıyır. Onnan sora padşaha deyir ki, dur, dalımcan gəl. Padşahın da iki oğlu varmış. Deyir ki, oğlannarı da götü, dalımcan gəl. Oğlannarını da götürüf düşüllər yola. Yolun yarısında bir əjdaha çıxır bınnarın qabağına. Oğlunun birini atır bı əjdahanın ağzına. Dinmir. Gedir, bir əjdaha da peydah olur, o biri oğlunu da onun ağzına atır. Gedillər çıxıllar bir quyunun başına. Bahlul Danəndə əyilif quyuya baxır. Deyir ki, qardaş, gəl gör bu quyuda su görükür. Padşahı da itəliyir salır bı quyunun içinə. Bahlul Danəndə bınnan qardaş olanda təxminən qırx beş yaşı vardı. Bu indi donunu dəyişir, olur doxsan yaşında ağsakqal kişi, sakqal bırdan. Bı da yenir quyuya. Cənnətə gedillər ey, qızım. Gedir quyunun divinə. Burda Leninin otağı kimi bir otax varmış, bir-iki qalın kitaf. Bahlul Danəndə gedir oturur orda. Day ağsakqal kişidi. Padşah bir az qalır orda. Huşu başına gələndə görür ki, quyunun divinnən bir cığır gedir. Durur yola düşür, gəlif qapını açır, görür bir nurani ağsakqal kişidi oturub orda.

– Salam-məleykim.

– Əleykim-salam.

Deyir:

– Oğul, kimsən, nəçisən, nəyə görə gəlmisən bura?

Deyir:

– Ağa, mən Bahlul Danəndəyəm.

Özünü Bahlul Danəndə kimi qələmə verir. Axı bilmir ki, bu ağsakqal kişi Bahlul Danəndənin özüdü. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, xoş gəlmisən, beş gəlmisən. Bıralar saa peşgahdı. O dey, o qapını aş, orda böyüh şəhər var. Get o şəhərdə gəz.

Padşah gedir qapını açır, görür əyə, bura güllü-çiçəhli gözəl şəhərdi. Gözəl-gözəl qızdar, gəlinnər. Bının civində pulu olmur. Deyir:

– Qayıdajam o ağsakqal, nurani kişinin yanına, görüm bırda yeməh-işməh nətərdi?

Gəlir. Ajmışmış. Baxır görür ki, civində bir qəpih pulu yoxdu. Gəlir o nurani kişinin yanına, Bahlul Danəndənin yanına. Deyir:

– Ağa, de görüm, bırda yeməh-işməh nətərdi? Mənim pulum yoxdu, gedim yeyim.

Deyir:

– Oğul, burda yeməh-işməyi pulnan vermillər. Gedif oturursan, aşbaz gəlir, deyir ki, qardaş, saa nə qədər xörəh gətirim. Denən bir salavatın onda bir hissəsini. O da gətirif stolun üstə Allah-tala nə nazi-nemət yaradıf düzəjəh ora. Yiyəssən, duruf bir salavat çəkif çıxassan. Sənin pulun o olajax.

Gəlir oturur, ajmışmış. Aşbaz gəlir:

– Qardaş, nə qədərə xörəh gətirim saa?

Dedi:

– Yarım salavatdıx.

– Boy, ə qardaş, ordun var?

– Yox.

– Qoşunun var?

– Yox.

– Bəs yarım salavatdıx xörəyi bizim bu şəhər əhli bir gün yeyir, qurtarmır. Nəyə lazımdı?

Deyir:

– Bəs nə deyim?

Deyir:

– Denən, məsələn, bir salavatın onda bir hissəsini ver.

– Yaxşı, salavatın onda bir hissəsini gətir.

Yeyir-içir, salavat çəkir, çıxır. Bu minvalla beş-on gün belə dolaşır. Görür, gözəl-gözəl cuanazəninnər var. Bu evlənməh eşqinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

düşür. Deyir, gedəjəm həmən nurani kişinin yanına, görüm bu evlənməh məsələsi nətərdi? Evlənim.

Gəlir, deyir:

– Ağa, bağışda, sənnən bir söz xəvər alım.

Deyir:

– Buyur, oğul, buyur, Allah bağışdasın.

Deyir:

– Mən isdiyirəm həyat quram, evlənəm. Burda evlənməyin təhrin-tührün bilmirəm dana.

Deyir:

– Burda hamam var, hər cuma günü bütün cuanazəninnər, qadınnar cavanınnan tutmuş qojasına qədər gəlir o hamamda hamamlanır. O hamamın qabağında bir qara daş var, o daşın üsdündə oturarsan, əl dəsmalı çıxarıf belə alarsan əlaa. Gözəl-gözəl qızdar gəlif ordan dəsdə-dəsdə keçəjəhlər hamama. Bax, qızdarın hansını bəyənsən dəsmalı belə elə qolına vır. O qız sıradan çıxıf gələjəh səən yanaa. Deyəjəh mən sənin oldum həyat yoldaşın, gedəh qazıya kəbinimizi kəsdirəh. Gedəssiz qazının yanına, qazı da yarım salavata, yaxud da bir salavata kəbinizi kəsəjəh, olassız ər-arvad.

Helə də eliyir, eliyənnən sora bir gün padşah deyir:

– Ay arvad, üsdən gedir axı, üsdünə gəlmir.

Deyir:

– Nətər yanı a kişi, üsdən gedir, üsdünə gəlmir?

Deyir:

– Elə bir ujdan tutuf yeyirih, heş qazanıf üsdə qoymurux. Belə getsə qutarannan sora aj qalajağıx.

Deyir:

– Ay kişi, heylə şeyləri sən bırda xəbər alma. Bırda tükənməzdi. Nə ölüm var, nə itim. Dünya durduxca ye, yaşa.

Deyir:

– Yox, mən bir işnən məşğul olmalıyam.

Deyir:

– Nə işnən?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nə bilim?

Deyir:

– Əlinnən nə iş gəlir?

Deyir:

– Nə bilim, qəssaflıx gəlir, zad gəlir.

Deyir:

– O deey, o kəndi görürsən? Gedərsən o kəndə, ordan bir mal alıf gətirərsən, kəsərsən, nəfin çıxardarsan. Nəfin yeyərih, mayasın da çıxardarsan.

Sora arvad deyir ki, yox, sən bu yerə nabalədsən, ikimiz də gedəjiyih. Durullar hərəsi bir at minir, gedillər kəndə. Ə, mal alan, mal satan kimdi. Hərrənillər, qayıdanda göy gurulduyur, möhkəm yağış başdıyır. Bu arvada deyir ki, ay arvad, atı tez sür, yağış bizi isdatmasın, özümüzü salax evə də. Arvadın bına qəzəbi tutur. Deyir:

– A kişi, sən bı yerin adamınnan dəyilsən? Sən hardan gəlif çıxmısan bura? O göydən yağan Allahın nurudu, sən onun altınnan niyə qaçırsan? İsdanarıx, gedərih paltarımızı dəyişərih. Allahın nurunun altınnan qaşmax olmaz. Göydən nur tökülür.

Arvad çox hirsdənir. Deyir:

– O deey, o dağı görürsən.

Padşah belə yönünü çəvirib dağa baxanda bını nətər tulluyullarsa, gedir düşür Bahlul Danəndənin onu itəliyif saldığı quyunun başına. Baxır görür, Bahlul Danəndə qarqu at altında gülə-gülə gəlir. Deyir:

– Padşah sağ olsun, mən saa dedimmi ki, sənnən məəm qardaşdığım tutmaz. Mən səni çarıxlı-patavalı apardım saldım cənnətə. Sən orda da var-döölət axtardın. İndi dur gə bəri.

Durur gəlir. Oğluun biri çıxır qavağına. Padşaha təər-töhmət eliyir ki, ay ata, səni belə olasan, belə kef çəkif ömür sürürdüh (olar da cənnətə düşmüşümüş). Gəlir o biri oğlu da çıxır. O da atasına bir az təər-töhmət eliyir. Gəlir çıxır imaratına. Şəhər qazısını çağırtdırır, arvadı çağırtdırır, kəbinini, sığasını geri oxutdurur. Onnan sora xəzinənin yarısını arvad aparmışmış, o gətirir, payladığı xəzinəni-zadı da yığır bir yerə, tofluyur qoyur. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə padşah, sən padşahsan, mən Bahlul Danəndə. Dedim ki, əvvəldən sənnən məəm qardaşdığım tutmaz. Bu sənin arvadın, bu sənin xəzinən, bu da sənin balaların. Otu taxtında padşahlığını elə. Sənnən mənim qardaşdığım olmaz. Ona görə ki, genə təkrar edirəm, mən səni aparıf cənnətə saldım, sən orda da var-döölət axtardın.

Bu nağıl da bırda bitir...

## 23. QİSMƏTDƏN QAÇMAQ OLMAZ

Bir də o vaxtlar bir adam Musa peyqəmbərə deyir ki, mənim qismətimi de, mən nə yeyəjəm? Deyir kətəməz yeyəjəhsən. Dəəndə deyir ki, a kişi, sən nə danışırsan, mən bu yaşa gəlmişəm, kətəməz yeməmişəm. Musa peyqəmbər deyir ki, ta sən qismətini istədin, mən də dedim. Özün bilərsən.

Hə, bu örüşdən evə gəlmir. Deyir: “Günorta evə getmiyəjəm, bir də axşam gedəjəm. Görüm, bu maa qismət olur, yoxsa yox”.

Hə, bu gününü keçirirmiş. Bir çoban da qoyun otarırmış, bircə dənə bunun heyvanı varıymış özünün. Bu heyvanın doğmağına az qalmışımış. Əvvəldən də deyifmiş ki, Allah-tala mənim bu qoyunumnan maa bir bala versin, and olsun pərvərdigara, onun kətəməzini dodağıma vurmuyajam. Onun kətəməzini yolnan keçənə verəjəm.

Hə, bu gəlif bunun yanınnan keçir. [Çoban] deyir ki, qağa, hara gedirsən?

Deyir:

– Evə gedirəm?

Deyir:

– Ə, heç hara getmə, gəl bəri, mən Allahnan əhdi-peyman bağlamışdım ki, qoyunum doğsun, onun kətəməzini yolnan gedənə verəjəm.

Deyir:

– Ə, get, işinnən-peşənnən məşqul ol. Mən hələ anadan olannan ağzıma kətəməz vurmamışam.

Çoban qəzəblənir. Deyir ki, helə şey olar? Mən Allahnan əhdi-peyman bağlamışam, səni hara boşduyuram? Bu deyir, yemi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yəjəm, o deyir, yeyəssən. Çoban ağacı hərriyir ki, bunun kürəyinə bir ağac çəkə. Ağacı göydə tutur, deyir ki, ə, bir kətəməzə görə məni öldürəjəksən, qoy yeyim. Deyir ki, xudavəndi aləm, şükür sənin böyüklüyünə. Deyir, demək qisməti qəbul eliyən eliyir, eləmiyəni məjbur elətdirillər.

## 24. ŞAH ABBAS VƏ NAXIRÇI QIZI

Şah Abbas öz vəkilini götürüf gedir çıxır öz vilayətinə gəzməyə ki, görək camaatımız nətərdi. Gün batabatda bir komaya gedif çıxıf. Görüf bir qadındı. Deyif ki, qonax isdiyərsiz, Allah qonağı. Deyif:

– Allaha da qurban, qonağına da.

– Bəs, – deyib, – ev sahibi hanı, yoldaşın?

Deyif:

– Naxırdadı, camaatın naxırını otarır. İndi çörəyə gedif, bu saatı gəlif tökəcəh nahırı kəndə, uje şər qarışır dana, gün batır.

Bu dəkgədə də kişi gəlir. Bulara yerdən palaz atır, döşəh qoyur. Kişi də gəlir, salamlaşıllar, filan-bəsməkan, azdan-çoxdan, çaydan-çörəkdən. Arvad da hamilə imiş. Bulara çay-çörək qoyuf addıyıf o biri otağa. O biri otağa addıyanda arvadın ağrısı tutuf, aradan üş dəyqə, beş dəyqə keçənnən sonra o Şah Abbasın böyründə oturan vəzir gülür. Güləndə deyir:

– Ə, nəyə gülürsən?

Deyir:

– Ə vallah, siz görmədiz, mən gördüm ey. Taleh yazan getdi, o uşağın talehini yazmağa getdi.

Bular başdadılar çörəh yeməyə, bir də gülür bu. Deyir:

– İndi nəyə güldün?

Dedi:

– O taleh yazan qayıtdı. Dedi ki, bu qız uşağıdı. Bunun talehini yazdım Şah Abbasın filan vilayətdə oğlu oldu, ona yazdım.

Deyir:

– Bu taleh yazan olsun, mən də Şah Abbas olum. Bunun talehini mən pozaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tezdənnən durullar, çay-çörək yeyillər. Bu kişiyə deyir neçə övaldın var. Deyir ki, altı qızım var, biri də oldu yeddi. Deyir gəl sən bunu ver maa, qızılnan bərabər sənnən alıram. O tərəzinin bir gözünə bunu qoyacam, bir gözünə qızıl, verəcəm saa. Deyir:

– Qoy arvadıma bir gəyişim.

Gəlir arvadına deyir ki, bəs hal-qəziyə belə-belə. Deyir:

– Booy, əşi, ayağıı ətini yeyirsən, yediyimiz canımıza yatmır. Ver dana.

Bunu tərəziyə qoyur, qızı bunnan alır, götürür gedir. Bir az ayana gedənnən sora vilayətin, bu qəsəbənin paççahın çağırır. Deyir ki, əyə, iki dənə maa cəllad gətirginən. İki dənə atdı cəllad gətirir. Bu bilmir e, bu Şah Abbasdı. Bu çağanı verir buna, deyir:

– Bını torpağızdan çıxardırsız, qətl eliyif atırsız, çıxıf gedir.

Bular deyillər ki, baş üstə, baş üstə. Körpəni verillər, bular tərpənir. Orda gedir, bırda gedir, orda gedir, bırda gedir. Öz torpaxlarınnan çıxannan sora görür ki, vallah, çinar ağacının divində yaşıl bulaxlığ, göy çəmənnik, filan. Bular atdarı örüklüyüllər bura, özdəri düşüllər çayda, suda-zadda yuyunuf eliyillər, duruf atı minillər, çağa qalır yerdə. Çağa qalır yerdə, bular tərpənir. Bu vilayətdə də bir dənə tacir varmış, bının uşağı olmurmuş. Anadangəlmə uşağı-zadı yoxuymuş. Bu, qəflə-qatırnan gəlif gedirmiş İrana-Turana alverə. Hamıdan qabağ gəlif görüf ki, bir uşağ ağlıyır. Uşağı götürüf qayıdır, öz camaatına deyir ki, qayıdın geri, tay getmirəm alverə.

– Ə, nə danışırsan?

– Yox, qayıdın.

Qayıdır, çaparax atnan gəlir evinə. Arvadını çağırır:

– Arvad, arvad.

Deyir:

– Nədi?

Deyir:

– Allah bizə bir uşağ verif.

– Əşi, ə danışırsan, hardan verdi, nətər verdi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hal-qəziyə belə-belə. Vallah, getdim bulağın üsdünə, ordan tapdım.

Bu uşağı götürüb burda saxlıyıllar. Əməlli-başdı uşağ böyüyür, qız böyüyür. Şah Abbasın da oğlu burda böyüyür. Amma taleh yazan kişiyə deyifdi ki, o qız ona gedəcək, bir yerdə olacaxlar, amma əli dəyməyəcək əlinə. Çırağ hiss bağlıyacağ, çırağa belə bir çırtma vuracağ, o çırtmadan düşən kül bir canavar oluf onu parçalıyacağ. Onun əli ələ dəymiyəcək. Şah Abbas bunu da fikirləşib. Qırx dənə otağ tikif hamısı da dəmirdən, ağzı da qıfıldan. Bu oğlanı böyüdüf, böyüdüf, on yeddi-on səkgiz yaşına çatanda atı verif deyif:

– Get özüvə şikar axtar.

Oğlan bırda gedir, orda gedir, bir dəfə gedir, hərrənir gəlir. Deyir:

– Yox, ata, tapmadım.

İkinci səfər həmən vilayətə gedəndə görür ki, bir bulağın üsdündə bir qız çiynində su aparır. Deyir:

– O suyunnan maa verərsən bir iskan.

Töküb verəndə elə göz-gözə dəyəndə, – həmən qızdı ey, taleh yazan ha, yadında qalsın, – qıza burda vırılır. Qayıdır gəlir. Qızdan soruşur ki, kimsən, kimin nəyisən? Deyir ki, mən fılan tacirin qızı-yam. Qayıdır gəlir atasıynan görüşür, eliyir. Deyir:

– Ata, bəs mən şikarımı tapmışam.

Deyir:

– Harda?

Deyir:

– Filan vilayətdə.

– Ə, kimin qızıdı?

Deyir ki, filan tacirin qızı. O saatdarı Şah Abbas vəzirdən, vəkildən göndərir gedir ora. Deyir:

– Ə, onun nə həddi var atkaz eliyə.

Deyir:

– Əşi, qurbandı. O nə deyən sözdü.

Təşkil eliyir, bının toyunu eliyir, xeyriynən, şəriynən götürüf gəlillər. Gəlillər bu dəmir qapılardan bir-bir, bir-bir, bir-bir aça-aça



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aparıf qoyur qırxıncı otağa. Qəşəhcənə bular qalıllar burda. Qapıları kilitdiyə-kilitdiyə, kilitdiyə-kilitdiyə gəlir haçarı götürür, gedir evə. Gəlir girir evə. Səhər tezdənnən duruf gələndə görür nə? Görür oğlu al qan içində ölüf, qız da bürüşüf duruf orda gərdəhdə.

– Hal-qaziyə nədi bala, bu nə hakk hesabdı?

Deyir:

– Hal-qaziyə belə-belə. Çırağ bir az qurum bağladı, oğlun belə əliynən vırdı, o qurumun biri düşdü yerə canavar oldu, oğlanı parçaladı, sora da qəhətə çıxdı.

Barmağını dişdiyir, deyir:

– Örgənin görün bu qız kimdi?

Şah Abbas durur əmr verir. Deyir:

– Təcili taciri gətirin bura.

Tacirin arvadını gətirillər. Deyir:

– Qızı havaxt doğmusan, havaxt anadan olub, hangi tarixdə, hangi vaxtda.

Deyir:

– Mən bunu doğmamışam. Ərim filan ayın filan tarixində filan yerdən gətirif.

Həmən vilayətdən danışır, həmən dediyi toçkadan danışır. Paççah onda barmağını dişdiyir ki, deməli mən talehi pozmamışam. Talehi yazan yazır, Allahın əmridi bu, Allahın əmrini mən poza bilərəm. Burda bunu dəqiqləşdirir, həmən iki cəllad vardı, o cəllatdarı çağırtdırır. Deyir:

– Neynədız, filan tarixdə sizə belə bir çağa verdik.

Deyir:

– Şah sağ olsun, vallah, getdik orda yedik, işdik, əlmizi-zadı yuduğ. Elə gözəl yer idi, elə bil cənnətdeydik. Uşax da yadımızdan çıxıb qalıf orda, çıxdıx gəldik.

Şah Abbas onnan sora inanıfdı ki, Allaha inanan adamdı, Allah yazanı bəndə poza bilməz. Deməli, heylə bir taleh yazan olufdu. İndi kimin qismətini Allah yazıfsa bala, onu nə ata, nə ana, nə xala, nə bibi, nə dayı, nə əmi – heş kim poza bilməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 25. ƏCƏLDƏN QAÇMAQ OLMAZ

### I mətn

Bir qadın, bir də İsa peyğəmbər olur. Bu qadının üç qızı olur. Qadın həmişə arzuluyur ki, ilahi-pərvərdigarə, məəm bir oğlum olsun. Bir gün qadın yuxuda görür ki, Allah mına deyir ki, sənin bir oğlun olejehdi, amma on dokquz yaşına çatan günü mən onu sənin əlinnən alajam. Qadın razı olur, təki el töhmətinnən qurtarsın. – Köhnə vaxtı kəntdə-kəsəhdə çox qızı olana sonsuz deyərdilər, arxan yoxdu deyərdilər. – Qadın deyir, ona razıyam, kaş məəm bir oğlum olsun, təki on dokquz il desinnər onun oğlu var da.

Bir gün gəlir bı qadının bir oğlu olur. Bı yekəlir, böyüyür, on dokquz yaşına günnər qalır, sahatdar qalır. Qadın gəlir peyğəmbərin yanına, yalvarır, düşür ayağına, sürünür.

– İlahi, mana belə bir səda gəlifdi, mənim uşağımı on dokquz yaşına çatan kimi məəm əlimnən alajehlər. Sən mana kömək elə.

Peyğəmbər bının sızıltısına, bının ahına, naləsinə dözə bilmir, deyir:

– Ay xanım, mən səən uşağını saxlıyajam, sən uşağını gəti, qoy məəm yanımda dursun.

Bı uşağını – oğlunu gətirir bının yanında saxlıyır. Nəysə, oğlanın on dokquz yaşı tamam olan gün olur. Axşamçağı olur. Görür ki, göy gurulduyur, ildırım çaxır. Peyğəmbər elə təsəvvür eliyir ki, yəqin bını ildırım vurajehdi. Tez bı oğlanı çağırır gətirir, basır qavağına, iki əlli bı uşağı qucaxlıyıf saxlıyır. Qəfil sel gəlir. Camaatın yarsı selin bir üzündə qalır, peyğəmbərnən uşax bir üzündə qalır. Uşağı peyğəmbər qucağında sıxıf saxlıyır. Sıxıf saxlıyır, elə bilir ki, qucağında saxlıyıfdı. Sel yatır. Sora arvat yüyürüf gəlir. Deyir ki, bə məəm uşağımı saxlıya bildinmi?

Peyğəmbər deyir:

– Hə, saxlamışam.

Axı, paltar qucağındadı kişinin. Deyir:

– Di ver.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Peyğəmbər əl atır ki, paltarı qalıf qucağında, uşağ özü yoxdu, sel aparıfdı. Deyir:

– Ey peyğəmbər, bəs sən mana söz verdin ki, sənin balanı saxlıyajem. Bəs noldu?

Deyir:

– Sən gör ki, paltarı qucağımdadı, amma uşağın özünü sel aparıf. Demək, yazıya, pozu yoxdu. Sənin balanı Allah aldı apardı, mən onu nətər saxlıya bilərdim.

## II mətn

Bir qadın olub, onun bircə uşağı oluf, özü də sevimli uşağı oluf. Neçə dəfələrnən oğlu anadan olub ölüb, biri qalıb. Azreyilə Allah-talla tərəfinnən əmr gəlib ki, o uşağın canını al. Azreyil deyir ki, qurban olum, neçə ildir mən sənə qulluğ eliyirəm, amma mən onu ala bilmərəm. O aylənin elə bil çırağı sönə-sönə, sönə-sönə gəlif, burda indi şamdı yandırmışdı. İndi sən deyirsən onu söndür, mən onu ala bilmərəm.

Deyib:

– Ə, ağlın olsun. Mən deyirəm, Allahın əmridi, amma elə eliyəcəm ki, səndə olmuyacax günah.

Kişi də bir dənə dana saxlıyırmış qapısında. O qədər gözəl heyvanmış, yaraşıxlı. Uşax da bir yaşına, iki yaşına keçibmiş. Bu dananın yanında hərrənirmiş ayna-bayna. Uşağı götürüf qoyur dananın üsdünə ki, həvəsdənsin dana. Dana nətər tullanıb-düşürsə, uşax yerə düşən kimi canını tapşırır. Allah Azeriyilə deyir ki, gördün, günahı səndə görmədi. Onnan sora müsibətə bax dana. Kişi özünü öldürür, arvad, uşax. Mən niyə götdüm qoydum dananın üsdünə. Fikir verirsən, Allahın verdiyi əmri heş kim geri qaytara bilməz, qurban olum Allaha. Onun hökmü elə hökmdü ki, ağlın paççahlara, şahlara getməsin. Olar böyün verdiyi fərmanı səhər geri oxuyullar.

## III mətn

Məşəd Kərim kişi var idi, o danışırdı ki, Əmirəlmöminin Əleyhüssəlam bir gün bir ərəbin evində qonağ oldu, gejəni qaldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Amma ərəb bilmədi ki, bu Əmirəlmömininindi. Dedi ki, gejə bu evdə bir oğlan dünyaya gəldi. Allahın məlaikəsi getdi bunun taleyini yazdı, qayıdıf gələndə Əmirəlmöminin bunun ətəyinnən tutdu. Dedi ki, nəyə gəlmişdin bura? Dedi ki, ya Əli, bəs, bu evdə bir uşağ dünyaya gəldi.

Dedi:

– Onun taleyini nejə yazmısan?

Dedi:

– O uşağın taleyini yazmışam ki, həddi-buluğa çatıf toy günündə o uşağ dünyasını dəyişib sükuta qərq olajaxdı.

Əmirəlmöminin buna heş nə demir. Səhər açılır, olannan, olmazdan yeyillər, içillər. Deyir ki, bu gejə sizin evinizdə bir şadyanalığ varıydı, ərəb qardaş, o nə şadyanalığıydı? Deyir ki, bu gejə mənim bir oğul uşağım dünyaya gəlifdi. Deyər ki, çox gözəl, çox mübarək. Amma sənnən bir təvəqqəm var mənim. Bu uşağ böyüsün, həddi-buluğa çatsın, evlənən vaxtı məni o uşağın toyuna dəvət eliyərsən.

Deyir:

– Ərəb qardaş, mən sənin ünvanını tanımıram, bilmirəm harda olursan, ünvanını bilmirəm, səni mən nə təər çağıra bilərəm?

Deyir ki, bir dəfə çıxarsan bir təpənin üsdünə, deyərsən "ya Əli, ədrəxnə"*.

Hə, bu uşağ böyüyür, həddi-buluğa çatır. Bu kişi bunu evləndirməh məqamında, günorta olmuşumuş, keçirmiş. Hə, bullar gedillər bəy dostlarınnan gəlinin pişvazına. Bu adamın ayləsi deyir ki, bəs sən bir adamnan əhdi-peyman bağlamışdın ki, onu toya dəvət eliyəsən. Niyə dəvət eləmirsən?

Deyir:

– Ay sağ olmuş, nə biləh o, hardadı, ünvanını bilmirih, çağırmağnan eşidəjəh, gələjəh, gəlmiyəjəh.

Dedi ki, yox, əhdi-peyman bağlamısan, söz vermisən, əhdini yerinə yetirməlisən. Bir dəfə çağır, gələr gələr, gəlməz gəlməz.

Deyir:

---

* Ya Əli, ədrəxnə – Ya Əli, imdada yetiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ya Əli, ədrəxni, ya Əli, ədrəxni, ya Əli, ədrəxni.

Aradan bir xeyli vaxt keçir. Əmirəlmöminin Düldülə süvar oldu gəldi. Soruşdu ki, bəs bəy hanı, niyə məclisə gəlmədi? Dedilər ki, bəy gedib gəlinin pişvazına dostlarınnan. Deyir ki, hansı tərəfə? Səmtini deyillər. Ata suvar olub bu da gedir. Gedir ki, bəyin dostları çox pəjmürdə gəlillər. Dedi ki, nə olufdu, nə hadisə üz verif? Dedilər ki, bəs bəyi sel apardı. Atı sürür, Düldülü sürür çaya ki, çayın üzüynən bu oğlanı su aparır. Atı sürdü, bu uşağı əlinə götürəndə baxdı ki, bu uşağ döyül balıxdı. Atdı suya. Suya atan kimi, balıx aralaşır, baxır ki, insandı, həmən oğlandı. Üçüncü dəfə əl atır ki, bu uşağı götürsün. İlahidən – Allah-tala tərəfinnən səda gəldi ki, ya Əli, sən mənim yazımı poza bilməzsən. Çünki Allah-tala buyurufdu ku, mənim hər şeyə güjüm, qüdrətim çatır, bircə mən yazdığım yazını poza bilmirəm.

## 26. İNSANIN TAMAHI

Dünyada tamahdan mundar şey yoxdu. İnsanın başını alçax eliyif, insanı camaat içində öldürüf yerə salan tamahdı.

Günnərin bir günü paççah vəzirini çağırır, deyir:

– Vəzir, mundarın mundarını tapginən, gəl maa de. Qırx gün də saa möhlət verirəm. Tap gətir.

Bu gedir arvadınnan oturuf fikirrəşir. Ağıllarına gələn, başdarına gələn şeyi gəlif padşaha deyir. Deyir ki, yox.

Deyir:

– Arvad, onsuz da boynumu vurdurajax. Bir az çörəhdən, sudan qayır, mən gedim.

Bir sumka çörək-su götürüf düşür yola. O dərə mənim, bu təpə sənin. Bir gün vaxdı qalır. Gəlir ki, bir dağın döşündə çoban qoyun otarır. Gərməşov ağacınnan qəşəh təsbeh düzəldir. – Özümüz də düzəldirdih. Yağda qızardırdıx, çox gözəl görükürdü. Tökürdüh yağın içinə, qoyurduh qızarırdı. Yaxşı da əldə oynuyur. – Oturur, deyir:

– Çoban, mənə bir az çörəhdən-sudan tap ver, yeyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Verərəm.

Bir dolça süd sağır, verir. Bunnan irəli quruşqalar misdən olurdu. Bunu doldurur südnən, bunu da içir. Deyir:

– Qardaş, yaman fikirrisən.

Deyir:

– Savah boynum vurulajax.

Deyif:

– Niyə?

Çoban təsbehi əlində oynadır ha. Vəzirin göz düşüf təsbehə. Deyir ki, o təsbehi maa verə bilərsənmi?

Deyir:

– Yox. Mən bunu zulumnan düzəltmişəm, bu qiymətdi şeydi. Mən bunu əldən vermərəm axı. Günümü bunnan keçirirəm.

Deyir:

– Nə versəm onu maa verərsən?

Deyir:

– Nə versən də, vermərəm.

Var da civində. Əlini saldı civinə, bir xışma qızıl çıxardır. Deyir:

– Bunu verim, təsbehi ver maa.

Deyir:

– Yox, yox, heç beş o qədər də versən, vermərəm.

Deyir:

– Çoban, mən dünyada mundarın mundarını gəzirəm. O təsbehi ver, aparım verim.

Deyir:

– Mundarın mundarı nə şeydi ki, onu gəzirsən. Mən on saniyəyə deyərəm, nə var onda.

Deyir:

– Əşi, nə danışırsan, alimlər tökülüf onu tapmıyıf. Sən hardan tapassan?

Deyir:

– O nə sözdü ki, onu bilmiyən adam ola.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– Yaxşı, onda təsbehi ver maa.

Təsbeh vəzirin yadınnan çıxmır ey. Hələ boynuun vurulmağı yadına düşmür. Deyir:

– Gəl saa bir məslahat eliyim. Burda heş kim yoxdu. Ordan bir yer qazım, bir qavca süd sağım töküm oraya, mənim bu iki itim, bir də sən – üçünüz də orda onu yala, bu təsbehi verim saa. Yazıx vəzir o yana, bu yana baxır. Bu dağda adam yox, bir şey yox, bunu kim görəcəh. Deyir ki, nolar. Sağıf gətirif töküf oraya. İki it bir tərəfdən, bu da bu tərəfdən başını salıf oraya, o itin dilini yalıyıf, bu itin dilini yalıyıf. Torpağı da yalıyıf qutarıllar. Duruf deyir:

– Təsbehi ver.

Deyif:

– Vermiyəjəm.

Deyif:

– Bəs sən deyirdin verəjəm.

Deyif:

– Bilirsən nəyə vermirəm? Get paççahına denən ki, dünayada mundarın mundarı tamahdı.

Deyir ki, təsbehi vermirsən? Deyif:

– Yox.

Bu gəlif deyir:

– Arvat, filan dağın döşündə savatsız çoban vardı. Maa bir söz deyif, gedif padşaha onu deyəjəm. Onsuz da boynum vurulajax. Hallaşax, bu gün gedəjəm. Halallaşır, görüşüf gedir.

Deyir:

– Paççahı-aləm sağ olsun. Bütün eli-obanı gəzdim, heş bir şey tapa bilmədim. Mənə çoban bir söz deyif. Bilmirəm yalandı, gerçəhdi, demək ola, olmuya.

Deyif:

– Denən.

Deyif:

– Paççahı-aləm sağ olsun, çoban dedi ki, dünyada mundarın ən mundarı tamahdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– O, çox ağıllı adamdı. O hardadı, tapın gətirin bura.

Ay dədə, evi yıxıldı bu yazığın. Burdan duruf yığışıf gedir çobanın yanına. Deyir:

– Sənin öyünü Allah tiksin, məni balaya salmısan. Bəs paççah deyir onu götür gəl bura.

Çoban duruf düşür böyrünə. Gedir oturur. Deyir:

– Çoban qardaş, sən nə bildin dünyada mundarın mundarı tamahdı.

Deyir:

– Bəy sağ olsun, o təsbehi gərməşov ağacınnan düzəltmişəm. O heş zaddı. Çöllərdə bitən ağacdı. İntaası onu yağda qızartmışam, o qızaranda çox gözəl görünür. Dedi ki, onu ver maa. Bir ovuş qızıl çıxartdı, vermədim. Dedi gəl nə isdiyirsən verim, çobançılıxdan qutarım. Vermədim. Tamah onu nətər allatdısa, getdi mənim iki köpəyimlə süd yaladı. Mən fikirrəşdim ki, dünayada mundarın mundarı tamahdı.

Deyir:

– Vəzir, sən çobanın yerinə çoban, çoban mənim yanımda vəzir işdiyir.

O çoban da orda kasıfçılığın daşını atır, ağ günə çıxır.

*Söyləyici bu nağılı anasınnan eşidib.*

## 27. KASIB OĞLAN

Biri varıydı, biri yoxuydu, bir ana-bala varıydı. Ana-bala kasıblıxla birtəhər başlarını girriyirdilər*. Elə ki, oğlan boy-buxuna dolub həddi-buluğa çatdı, anası ona dedi:

– Oğul, daha əl-ayağın yer tutur, get padşahın qoyun-quzusuna çobannıx elə, bir parça çörəyimiz olsun.

Oğlan anasının dediyi kimi də elədi. Padşahın sürüsünü otarıb əvəzində gündə bir çörəh aldı. İndi eşit padşahın qızınnan. Padşahın qızı çöldə gəzəndə oğlanı görüb onnan xoşu gəlmişdi. Odu ku,

* girrəyirdilər – dolandırırdılar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xəlvətcə hər gün bir çörəh gətirib çobana verirdi. Ana-bala bu çörəyi yeyib şükrannıx eliyirdilər. Bir gün oğlan ha gözlədisə qız gəlib çıxmadı. Axşam tək bir çörəhlə evə qayıdıb qızın gəlmədiyini anasına söylədi. Anası əlini dizinə vurub yanıxlı-yanıxlı dedi:

– Eh, ay bala, şahın qızı yoxdu, qəfildən ölüb.

Oğlan hal-vəziyətdən agah olub gözlədi, gecə yarı olanda xəlvətcə durub getdi qəbirstannığa. Axtarıb qızın qəbrini tapdı, qəbri yarıb, qızın meyidini çıxarıb gətirdi evə. Ana-bala onu ortalığa qoyub ağlamağa başladılar.

İndi xəbər tut ayrı bir xəbərdən. Deyir "yara sağalacax olsa, təbib qənşər gələr". İndi də eyzən* elə oldu. Qız naxoşlayanda padşah uzax məmləkətdən loğman çağırmışdı, amma loğman gecikib vaxdında özünü yetirə bilməmişdi. Gəldiyi elə indi idi. Loğman şəhərə varid olub yolla gedirdi ki, birdən qulağına bir daxmadan ağlaşma səsi gəldi. Fikirrəşdi ki, bəlkə bir köməyim dəydi, qoy gedim görüm nə müsibətdi belə. Loğman şəhərə varid olub yolla gedirdi. Loğman yaxınnaşıb qapını asdadan tıkqıldatdı. Anaynan oğul gecənin yarısı qapının döyüldüyünnən bərk qorxuya düşdü. Dedilər yəqin padşahın adamlarıdı, işdən duyux düşüblər, indi gəlib ikimizi də öldürəcəhlər. Oğlan cəld qızı kilimə büküb taxtın altına soxdu. Sora ürəyi uçuna-uçuna gedib qapının cəfdəsini qaldırdı. Baxdı ki, qapıda ağ saçlı, ağ sakqallı nurani bir adam durub.

– Oğul, uzax yerdən gəlmiş qərib bir qocayam. Mümkün varsa, məni bu gecəliyə qonax saxla.

Oğlan bir az ürəklənən kimi oldu.

– Yerim var, gəl içəri, kasıb olsax da, ürəyimiz genişdi.

Loğman baxdı ki, bu bir yaxşı oğlandı, ürəyinnən keçirdi ki, müşkülü varsa, gərəh asan eləyim. Bir qurtum çay içib bir tikə çörəh kəsənnən sora loğman üz tutub oğlannan soruşdu:

– Oğul, mən sizin evin yanınnan keçəndə içəridən ağlaşma səsi gəlirdi. De görüm, nə müsibətiniz var. Mənnən çəkinmə. Mən müşkülləri asan eliyən loğmanam, de dərdini.

---

* eyzən – tamam, başdan-ayağa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan bir az o yana baxdı, bir az bu yana baxdı, baxdı, öz-özünə dedi ki, ölməh ölməhdi, xırıldamax nə deməhdi, gəl aç dərdini de, bəlkə çarə qıldı. Oğlan əlini sinəsinə çarpazlayıb köks ötürdü:

– Ey loğman ata! Mənim başıma bir qəziyə gəlib. Eşit gör nə müsibətə düşmüşəm.

Beləcə əhvalatı necə mən sizə nəql eləmişdimsə həmən qaydaynan başdan hamısını loğmana danışdı. Loğman dedi:

– Oğul, tez ol qızın cəsədini gətir ortalığa.

Oğlan durub taxtın altında gizlətdiyi cəsədi gətirdi. Loğman dikqətnən qıza baxıb dedi:

– Padşah da elə məni bu qızdan ötəri çağırtdırıb. Gecikib vaxdında yetişə bilməmişəm. Amma bu qız ölməyib. Sətəlcəmnən quruyub. Ona görə də ölüyə oxşuyur. İndi mən nə buyursam, sən əməl elə, tədbirini qılıb dirildəh. Belə elə, iri bir çən gətir, içini suynan doldur.

Oğlan çəni gətirdi, ana-bala isdi su düzəldib çəni doldurdular. Loğman qızı isdi suyla ovuşdurmağa başladı. Ovuşdurduxca da bildiyi dava-dərəmanı yerli-yerində məlhəmə döndərib qızın bədəninə sürtdü. Yarım saatmı deyim, bir saatmı deyim, qərəz nə qədərsə vaxt ötdü, hannan-hana qız asqırıb durdu ayağa. Ana-bala, bir də qız loğmanın bu möcuzatına mat qalıb ona dil-ağız elədilər, əl-ayağınnan öpdülər.

Səhər açıldı, cəmi səhərlər üzünüzə xeyirriyə açılsın. Loğman daha padşahın sarayına getməyib üz qoydu öz məmləkətinə.

İndi eşit şah qızıynan ana-balanın bunnan belə başına gələnnərdən. Bunnar üçlühdə oturub fikirrəşdilər ki, neyləsinnər, neyləməsinnər. Şah qızı dedi:

– Mənim dirilməyimin xəbərini hələ atama yetirməh olmaz. O saat ürəyi partdıyar.

Bəli, bunnar xəbəri bir kimsəyə yaymayıb genə də kasıbçılıxlarında oldular. Bir gün qonşularındakı sövdəgər oğlanı yanına çağırdı:

– Baxıram ki, çox halal adamsan, gəl mənə mal aparıb gətirməhdə köməh elə. Muzdunu da halal isdəsən bir abbası, haram isdəsən bir tümən verərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan bir abbasıyla razılaşdı. Bunnar yük götürüp başqa bir şəhərə yollandılar. Oğlan mənzil başında muzdunu alıb fikirə getmişdi ki, sövdəgər soruşdu:

– Oğul, nə xəyala getmisən?

Oğlan dedi:

– Fikirrəşirəm ki, bu abbasıyla nə alım ki, Allaha xoş getsin.

Sövdəgər ona bir yol salğadı*:

– Bax, bu yolnan gedərsən. Gedib bir qoca kişiyə rast gələcəhsən. Görəcəhsən ki, qabağına üç nar qoyub satır. Üçünü bir abbasıya verəcəh. Alıb gələrsən.

Oğlan sövdəgər deyən kimi elədi, narlar əlində qayıdıb gəldi. İsdədi narın birini kəssin ki, yeyələr, sövdəgər dedi:

– Saxla, evə qayıdanda kəsib nənənlə yeyərsən.

Qərəz, sövdəgər alış-veriş eləyib oğlanla geri qayıtdı. Oğlan narları da, pulu da gətirib anasının qabağına qoydu. Dedi:

– Ana, bu pulu xərclik eləyib dolanın, narları da kəsib qıznan yeyin.

Belə deyib genə sövdəgərlə səfərə yollandı. Bu getməyində olsun, eşit evdəkilərdən. Elə ki, oğlan anasıyla vidalaşdı getdi, qız narın birini kəsdi, baxıb gördülər, bay-bay, narın içi tamam ləl-cəvahir məkanıdı! Tez ləl-cəvahiri yığıb gizlətdilər ki, neyləsinnər. Axırda bu qərara gəldilər ki, ev tikdirsinnər. Usda çağırıb ev binəsi qoydurdular. Ev də nə ev, yar-yaraşıx, cah-cəlalı şahlara yaraşan ev.

Bunnar burda mülk tikməhdə olsunnar, indi kimdən xəbər verəh, oğlannan. Oğlan bu dəfə də sövdəgərlə oturub fikirrəşməyə başladı ki, bir abbasıya nə alsın, nə almasın? Sövdəgər məsləhət elədi ki:

– Bax, bu yolnan get, üçüncü döngəyə çatanda görəcəhsən ki, bir qoca kişi üç pişih satır. Həmən pişihləri alıb geri qayıt.

Oğlan isdədi deyə ki, a kişi, mən bir parça çörəyə möhtac adamam, pişiyi-zadı neynirəm. Amma bir söz deməyib bu dəfə də sövdəgər deyəni elədi. Alış-verişi qurtarıb təzədən üz qoydular geriyə. Yolda sövdəgər dedi:

---

* salğadı – göstərdi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gəlsənə, bir dayanıb dincimizi alax. Bu yaxınnıxda mənim bir dosdum var, gedəh onun mülkünə.

Yollandılar sövdəgər deyən yerə. Dosdu sövdəgəri xoş-beşlə qarşıladı. Yeyib-işməh məclisi quruldu. Bunnar süfrə başında əyləşəndə baxdılar ki, dörd yanlarında əli ağaclı çoban adamlar düzülüb. Sövdəgər təəccüblə soruşdu:

– Bu nə işdi belə?

Dosdu dedi:

– Əşi, siçannarın əlinnən göz aça bilmirih. İmkan tapsalar süfrədə nə var hamısını talan eliyəllər. Əli ağaclı oğlannar onnarı qovmax üçün düzülüflər.

Sövdəgər güldü:

– Dərd təki siçan dərdi olsun. Ona əncam eləməh mənim əlimdə.

Belə deyib oğlana işarə elədi ki, get zəmbildəki pişihləri gətir. Oğlan gətirib pişihləri buraxdı. Bir göz qırpımında pişihlər siçannarın axırına çatdı. Ev yiyəsi sevincəh dilləndi:

– Bunun müqabilində mən də sizə bir dəvə yükü qızıl peşkəş eliyirəm.

Bəli, gecəni qalıb sübh tezdən oğlannan sövdəgər öz məmləkətlərinə yola düşdülər. Mənzil başında sövdəgər qızıl yüklü dəvəni oğlana bağışdadı. Oğlan gəlib evlərinə çatanda baxdı ki, uçux-sökük daxmaları yoxdu. Onun yerində bir imarət ucaldıblar ki, deyərsən şah sarayıdı. Elə bildi yolu çaşıb, isdədi geri qayıtsın. Anasıynan şah qızı akuşkadan əl eləyib onu çağırdılar. Oğlan gəlib məsələni örgəndi. Bir dəvə yükü qızılı da yerbəyer elədi. Başladılar kef-damax içində yaşamağa. Oğlanın anası molla çağırıp qızla oğlunun kəbinini kəsdirdi. Şad-xürrəm ömür sürüllər.

Beş-altı ildən sora bunnarın bir bölüh çolma-cocuğu oldu. Bir gün qız dedi:

– Gəl atamı qonax çağırax.

Bəli, şah, başında da əyan-əşrəfi oğlangilə qonax gəldi. Uşaxları görən kimi şahın onnara qanı qaynadı. Başdadı onnarı öpüb-oxşamağa. Oğlan açıb əhvalatı şaha danışdı. Şah baxdı ki, qızının



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

evinə qonax gəlib, çox xoşhal oldu. Öz qızını çağırıb bağrına basdı. Şah da qırx gün, qırx gecə toy vurdurdu. Mən də həmin toydaydım. Yedim, işdim, yolla geri qayıdanda bir də baxdım ki, budu ha, göydən üç alma gəlir. Almanın biri mənim, biri özümün, biri də nağıl danışanın. Siz sağ, mən salamat.

## 28. ALLAHDAN İSTƏYƏN QIZ

Bir padşahın üç qızı varmış. Padşah bir gün çıxır gedir. Deyir:

– Bir qoy qızdarımı yoxluyum, görüm halları nejədi.

Qızdarın da hərəsi bir imaratda yaşıyır. Şah qızdarıdı, padşah qızdarıdı. Qavaxja gəlir böyüh qızın yanına. Deyir.

– Qızım, nətərsən, halın-kefin nejədi?

Deyir:

– Atayi-mehriban, niyə, sənin döölətinnən, şükür Allaha, yaxşıyam.

Bının bir iskan çayını içir, gedir ortancıl qızının yanına. Deyir:

– Qızım, sən nətərsən, nejəsən?

Bı da deyir ki, atayi-mehriban, sənin döölətinnən, malınnan yaxşıyam, pis dəyiləm.

Bının da bir iskan çayını içir, çıxır gedir xırda qızın yanına. Xırda qızın yanına gedir, deyir ki, nətərsən, nejəsən? Deyir:

– Niyə atayı-mehriban, Allahın döölətinnən yaxşıyam.

Bına padşahın ajığı tutur:

– Niyə bı iki qızdar mənim döölətimnən desin, bu qız Allahın döölətinnən desin?

Gəlir vəzirə-vəkilə əmr eliyir ki, bı qızı aparарsan harda kasıf-lələviş adam var, ona verərsən ərə. Götürüf qızı gəzillər. Görüllər bir kəndin qırağında bir daxma var. Gəlillər daxmanın qapısına, açıllar, görüllər ki, bir qoja arvatdı cəhrə əyirir. Bir də bir oğlandı bərdən-əynə uzanıf yatıf. Qonaxlar içəri girdi, heş bı tərpənmədi də. Deyir:

– Ay ana, bı oğlan sənin nəyindi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A başa dönüm, bı mənim oğlumdu. Anadangəlmə tənbəldi. Heş bir işnən məşğul dəəl. Mən qazaş elirəm, onu saxlıyıram.

Hə, vəzir-vəkil deyir:

– Yaxşıdı, elə padşahın qızını gətirif verəh bına.

Gətirillər padşahın qızını qapıdan salıllar içəri, deyillər.

– Bax, bu tənbəl sənin ərin, bu da qaynanan.

Qız durur çörəh salır. Qaynanasına deyir:

– Ana, xayiş eliyirəm, mən neynəsəm sən onnan injimə, tənbəl haqqında neynəsəm sən bikef olma.

Çörəyi salır, yüh var, bunnan əvvəl yüh deyərdilər, qoyur onun üsdünə. Tənbəl deyir:

– Ay ajınnan öldüm, patdadım, ay maa çörəh verin, dura bilmirəm, əlajım yoxdu.

Qız deyir:

– Odey, çörəh yükün başında, zəhmət çək dur, get al, ye.

Qız əlləşir ki, tənbəl əyağa dursun. Olmur. Tənbəl iməhliyə-iməhliyə gedir, kilim varmış, onu çəkir, çörəh-təhnə düşür bının üsdünə. Tənbəl əənə-bəənə eşələnir, çörəyi tapır, yeyir, elə orda da yatır. Bir belə, beş belə. Nağıl yüyrəh olar. Bir gün nəsə bı tənbəl durur əyağa. Deyir ki, mən gedəjəm bazara.

Qız deyir:

– Bəs pılın var bazarrığ etməyə?

Deyir:

– Yox.

Çıxardır yüz maat verir qız. Deyir ki, al bı yüz maatı get bazara, ürəyin nə isdərsə alarsan.

Gedir, bazarın girəcəyində görür bir qoja kişidi, üş topa torpağ həbilə topalıyıf satır.

– Ay torpax alan, ay torpax alan.

Təmbəl deyir:

– Ay ata, bu ki adi torpaxdı, bının nəyini satırsan, nəyə lazımdı? Bir ovuş torpaxdı.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, bı torpağın hərəsinin bir sözü var, torpağı satmıram, o sözdəri satıram.

Deyir:

– Hə, biri neçəyədi?

Deyir:

– Biri bir maatdı.

Torpağın birini alır. Deyir:

– Bının adı nədi?

Deyir:

– Oğul, dünyada sənnən soruşsalar nə sevgili olar, deynən goul sevən sevgili olar. Bir adamın ki, goulu, gözü bir şeyi tutdu, onnan gözəl şey ola bilməz.

İkinci torpağı alır. Deyir ki, bu nədi? Deyir:

– Oğul, dünyada sənnən soruşsalar nəyin tapbıltısı bərh çıxar. Deynən at irəddinin. At tapbıltısı bərhdi.

Üçüncü torpağı alır. Deyir:

– Oğul, sənnən soruşsalar ki, dünyada nə yüyrəh olar. Deynən ki, xiyaldı. Oturan bırda, xiyalı Füzulini hərrənir gəlir. Xiyaldan yüyrəh heş nə yoxdu.

Bı tənbəlgilin yolu el yolu varmış, onun qırağındaydı. Tənbəl çıxmışmış ora. Bir tacirbaşı görür ki, bı bazdıburuttu oğlandı. Deyir:

– İsdiyirsən, ölüm, səni özümüzə köməhçi götürəh. Bəri baş-dan da saa iki yüz maat pul verirəm, irazı olarsansa gedəh. Yük düşüf eliyəndə bizə köməh eliyərsən.

Deyir:

– Anam var, gedim ona deyim, irazı olsa gəlim, gedəh.

Gəlir əvə, anasına deyir:

– Bəs belə-belə. Bu tacirrər gedir başqa şəərə alverə, maa iki yüz maat pul verillər, deyillər gəl səni köməhçi götürəh. Yük düşüf-eliyəndə köməh eliyəm. İrazısan gedim?

Anası da irazı olur, arvadı da irazı olur.

– Nolar, get.

Bı, iki yüz maatı verir anasına. Düzəlillər yola, gedillər. Bir quyu varmış. Bu quyuya girən çıxmırmış. Karvan gəlir, quyunun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

başında əylənir. Vedrəni belə salıyıllar, adam olmasa vedrə boş çı-xır, su dolmur vedriyə. Gərəh adam sallıyalar, vedrəni doldura verə, doldura verə. Hamı su alannan sora, qəflə-qatır sulanannan sora ipi salıllar həmən su verən adamı dartıf çıxarıllar. Bu quyuya da girən çıxmırmış. Tacirlər bələdimiş dayna. Deyillər: "Ə, gəlin bı tənbəli sallıyax quyuya, adı elə tənbəldi, qəflə-qatırı sulasın".

Deyir:

– Oğul, gəl səni sallıyax quyuya, bı sudan ver, sora da səni çıxardax da.

Girir quyuya, başdıyır sudan belə verir. İndi ipi salıyıllar ki, təmbəli çıxardalar, quyunun böyrünnən bir qapı açılır, bir oğlan çıxır. Deyir:

– Təmbəl, getmə, gəl bura, sənnən üş söz soruşajam. Bildin, bildin. Bilmədin, – aparır zirzəmini gösdərir, – başın burda olajax, leşin orda.

Deyir:

– Nə olar.

Görür, bir mejmaha var, qızıl mejmaha, onun da içində su, suda bir qurbağa var, bir də bir gözəl-göyçəh cüvənazənindi, qadındı da. Qız qurbağaya baxır, oğlana baxır, oğlan da qurbağaynan o mejmahıya baxır. Bir-birinə baxmıllar. Oğlan deyir:

– Adın nədi?

Deyir:

– Təmbəl.

Deyir:

– Təmbəl, maa de görüm, dünyada nə sevgili olar?

Deyir:

– Goul sevən sevgili olar.

Deyir:

– Ay sağ ol. Qaldı ikisi. Deyir, dünyada nəyin tapbıltısı bərh çıxar?

– Atın tapbıltısı.

– Ay sağ ol, yaxşı tapdın. Bəs, dünyada nə yüyrəh olar?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ağa, dünyada xiyal yüyrəh olar.

Əlini vırır belinə, deyir:

– Üçünü də tapdın, sağ ol.

Gətirir üş nar verir təmbələ. Deyir ki, harda dara düşdün, yandır, yanındayam.

Elə bı dəhqədə tacirbaşı yüklənif yola düşəndə dedi:

– Ə, bı təmbəl Allah adamıdı, əməli-saleh adama oxşuyur. Qayıdıf bir də çağırax. Bəlkə, Allah irazı oldu, işini avand elədi, çıxdı dana.

Qayıdıf çağırıllar:

– Təmbəl, təmbəl.

– İpi sallıyın, burdayam, çıxım.

İpi sallıyır, təmbəl çıxır. Onnarın kəndinə üş nəfər adam gedirmiş. Oğlan təmbələ üş nar vermişmiş. Bı narın üçünü də verir onnara. Deyir ki, bını aparın verin məəm anama.

Bu qəflə-qatır gedir çıxır bir şəərə. Bı padşahın qızı baxır, bı daxma xoşuna gəlmir dana. İsdiyir palçıx qatıf iki yüz maata bir otax düzəltsin. Öz şaanına sıxışdırmır da. Axı, padşah qızıdı. Qız palçığı özü qatır. Qızın usdaya ürəyi yanır, deyir:

– Gedəjəm o təmbəl göndərən narın birini kəsəjəm.

Narın birini kəsir, görür içinnən qızıl “şağğ” elədi töküldü. O birini kəsir, elə. O birini kəsir, belə. Gəlir tez usdalara deyir ki, əl dayandırın, əl dayandırın. Bu şəərdə neçə usda varsa, hamısını çağırın yığın bura. Atasının evinin çertyojunu çəkir, deyir:

– Bax, bu formu maa imarət yapırsız.

Helə də eliyillər. İndi bılar bırda məşğul olsun, saa mən təmbəldən xəbər verim. Görəh təmbəlin işi noldu. Gedillər çıxıllar bir şəərə. Orda bı təmbələ deyillər ki, sən də get, orda bir iş tap işdə, biz də malı-zadı satıf qutarannan sora qayıdarıx əvə. Təmbəl çıxır şəərə. Görür ki, bir kişi deyir ay günü yüz maata nökər. Boy... Təmbəl yaxınnaşır ona. Deyir:

– Ağa, günü yüz maata yox, iyirmi maata da mən saa nökər ollam.

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, oğul, elə yüz maata.

Gəlir yüz maatı verir təmbələ. Gəlillər, yeyillər, içillər. Günortuya yaxınnaşırmış. Deyir:

– Oğul, indi dalımca gəl.

Görür bir böyüh inəhdi. Deyir:

– Oğul, bu inəyin başına bir çatı sal, çatını ver mənim əlimə, sən də dalımca sür gəlsin.

Çatını inəyin başına salır, dalınca sürüf gedir. Gəllər bir sıldırım dağın divinə. O dağ ki, heş yerdən bıra yol yoxdu. O dağın divində ağası təmbələ deyir ki, bı inəyi kəs, çılğır soy.

– Ay Allah, bını çılğır soymax olar? Qoyun dəəl, keçi dəəl.

Qoyunun dərisini bitəv çıxardıllar, qol-qanadı üsdə qalır, ona çılğır deyillər. Arvatdar onnan tuluğ qayırır.

Təmbəl inəyi çılğır kimi soyur. Ağası deyir:

– Təmbəl, sən gəl gir indi bu çılğırın içinə.

Girir içinə. Ağası tez bu çılğırın ağzını bağlıyır, çəkilir qırağa. Bir qara quş gəlir bu çılğırı qaldırır qoyur dağın təpəsinə. Təmbəl baxır görür ki, bırda o qədər insan qırılıf ki… Dağdan yer tapmır düşməyə. Qəlbi dağdı. Qurd-quş, qarğa-quzğun yeyəjəh sümühlərini. Biri də can verir. Deyir:

– Ay zalım oğlu, sən hardan gəlif çıxdın bura. Bı dağdan düşməh mümkün dəəl.

Axırı təmbəl qalır bırda. Birdən yatmışmış, elə bil oyanır. Deyir:

– Axı, o quyudakı oğlan maa çilpəh* vermişdi.

Səhərə yaxın çilpəhi yandırır, tutuşdurur. Oğlan gəlir. Bir qara quş gəlir təmbəli alır qıynağına, qoyur qayanın divinə.

Genə çıxır bazara, görür həmin kişi qışqırır:

– Ay yüz maata maa nökər.

Özü paltarını dəəşir, nə bilim köhnə, cır-cındır yığır-yamaşdırır eliyir, yarısı qəliv, yarısı parça, dəri, yarısı şal, paltar düzəldir özünə. Başına da bir cındır papax geydirir. Ağası heş bını day

---

* çilpəh – lələk



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tanımır ha. Bir az da axmaxlığa vırır özünü. Axsıya-axsıya gəlir ora. Görür ağası genə deyir:

– Ay günü yüz maata maa nökər.

Bırda yarımçıx qalır e. Bı qəflə-qatırnan o dağın yanına gedəndə dağın başında o qədər qızıl-gümüş varmış ki. [Ağası] deyif, o qızıl-gümüşdən süpür tök bəri, sora yolu dəərəm düşərsən. Dağın başı teha ləl, cəvahir, qızıl, gümüş. Ona görə də ağası aparıf orda adamları qırdırırmış, qəflə-qatırı götürüf gedirmiş.

İndi kəsə deyirəm. Aparır genə, inəyi götürüf gedillər. Dağın divində təmbələ – bı oğlana deyir ki, bala, bını çılğır soy. Deyir:

– Ay ağa, məəm qolum tərpənmir, əyridi, sən soy, özün soy.

Ağası inəyi kəsir, çılğır soyannan sora deyir:

– Oğul, gəl gir bı çılğırın içinə.

Deyir:

– Ay ağa, mən ora girə bilmirəm, sən gir, mən örgənim, sora sən çıx, mən girim.

Ağası örgədir, bax belə gir, belə elə, helə elə. Təmbəl tez çılğırın ağzını bağlıyır, çəkilir kənara. Qara quş gəlif bını alır qıynağına, götürür dağın başına. Hə, ağası baxır görür bırda o qədərənə adam ölüf. Hamısını bı öldürdüf e. Özü də dağın başı anbardı – qızıl, gümüş, ləl, cəvahir, ta o qədərdi ki. Təmbəl donunu dəyişir, paltarını soyunur. Deyir:

– Ağa, məni tanıyırsan?

Deyir:

– Oğul, tanıyıram, dünənki nökərimə oxşuyursan.

Deyir:

– İndi sən zəhmət çəh, o qızıldan, gümüşdən kürü tök bəri, sora mən düşən yerdən yolu dəərəm, düşərsən.

Qızıldan, gümüşdən kürüyür tökür. Bunun da qəflə-qatırı varmış. Yühlüyür hamısını. Bına da nökər-nayib tutur. Deyir:

– Ağa, orda azına bir yüz nəfər adam ölüf. Allah-tala onların ujbatınnan səən günahınnan keşmiyəjəh, amma bir səən ölümünnən məəm günahımnan keçər. İndi sən də öl, qal onların yanında, sağ ol.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təmbəl bırda qəflə-qatırnan yühlənir, gəlir. Özünə nökər-nayif tutur, bılar yola düşüf gəlir. Qayıdır gəlir vətənə. Bı təmbəl nə qədərnə düz adamdı ki, həmin quyuya çatanda nökərlərdən biri isdiyir girə quyuya. Deyir:

– Siz girmiyin, mən girəjəm.

Nökərrər deyir:

– Ağa, ayıfdı, biz girəh.

Nökərə deyir ki, ipi salla quyuya, mən girəjəm. Girir quyuya, qəflə-qatırı suvarannan sora oğlan çıxır. Deyir:

– Xoş gəlmisən, ay təmbəl.

Deyir:

– Qəflə-qatırı suvarırdım.

Gətirir genə bına iki nar verir. Gəlir quyunun başına. Deyir:

– İpi sallıyın, çıxım.

İpi sallıyıllar çıxır.

Muştuluxçu gedir. Qız atasının imaratı kimi ev yapmışmış, həddi-hüdudu yox, hasar çəhmişmiş. Xəvər gedir çıxır qıza, anasına ki, bəs təmbəl gəlir qəflə-qatırnan tacir kimi. Qız qəlbidən – üşmərtəbəli otağın başında balkonnan baxır ki, aydın görükür də, təmbəl ata minif qavaxda gəlir. Kəndin qırağında üş nəfər adam danışırmış. Deyir:

– Əyər təmbəl dönüf bu üş nəfər adamnan görüşdü sora gəldi, billəm ki, həqqi halal adamdı, yaxşı adamdı. Yox, elə pryomoy gəldi qapıya, halal dəyil.

Elə bil bı təmbəlin ürəyinə dammışmış. Bu üş nəfər kişiynən görüşənnən sora düşür qəflə-qatırın, nökər-nayibin qabağına gəlir. Darvazanı açıllar. Qız əmr eliyir nökərlərinə ki, gedin kömək eliyin, adamlar gəlsin içəri. Gəlillər girillər içəri, otaxları-zadı gəzillər. Bırda təmbəlin fikri dolanır. Axşam yatanda xançalı var, xançalı sivirib çıxardır, qoyur böyrünə. Deyir:

– Sən mana de görüm, sən bu dəmdəsgahı nəynən düzəltmisən? Deməsən, səni öldürəjəm.

Deyir:

– Neynirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– İmam, pir hakkı, düzünü dedin dedin, demədin səni öldürəjəm.

Axırda deyir ki, təmbəl, o göndərdiyin nardan gətirifsən, varındı? Deyir:

– Hə, ikisini də gətirmişəm.

Deyir:

– İndi o narın birin ver maa.

Narın birini verir. Narı kəsir, qızıl-gümüş "çağğ" eliyir tökülür yerə. Deyir:

– Bax, bı qızılnan atamın evinin çertyojunda özümüzə ev tihmişəm.

Bir gün padşah vəzir-vəkilə deyir ki, mənim hirsim tutdu o qıza, apardıx atdıx təmbəlin üsdə. Bilmədih öldü, qaldı. Gedəh görəh onun vəziyəti nətərdi. Gəlillər, soraxlıyıllar. Padşah görür ki, əyə, bının evi öz evinnən də yaxşıdı. Adam göndərir ki, balam, vəzir-vəkil gəlir, olları qarşılayın. Ərinə deyir, olların peşvazına çıxıllar. Gəzillər, yeyif-içillər. Sora durur qızıl ambarrarını-zadını atasına görkəzir. Deyir, belə oldu, elə oldu. Padşah əlini vurur qızın kürəyinə, deyir:

– Düz deyirsən qızım, məəm saa qəzəbim tutdu. Var-dööləti adama Allah-tala verir. Quyuya su töhməhlə quyuda su olmaz. Var-dööləti adama Allah-tala baxş eliyir. Sən dedin ki, Allahın devlətidi.

Bırda nağıl başa çatır.

## 29. ÜÇ BACI

### I mətn

Bir kişinin üç qızı olur. Arvadı ölür, gedir birini gətirir. Yaddı, ögəydi. Deyir:

– Ay kişi, bı qızdarı apar ya azdı, ya da neynirsən elə.

Deyir:

– Yaxşı.

Kişi qızdarın üçün də götürür, deyir:

– Gedəyin meşədən cəviz çırpbağa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızdarın üçünü də qoyır cəvizin divinə, üsdünə də palazı örtür. Deyir:

– Mən düşmüyüncən aşmıyın başızı. Mən çıxıram cəviz çırpmağa.

Çıxır qarğını bağlıyır, çarığı bağlıyır ağaca, düşür qaçır. Bıllar deyir: “Dədəmizin bir harayı çıxmadı axı”. Baxıllar görüllər qarannıxdı. Ayıdı, çakqaldı, canavardı. Çıxıllar ağaca. Deyillər:

– Ay bacı biz neyniyəh? Dədəmiz bizi azdıdı. Nətəər eliyəh?

Deyir:

– Bacı, mənim başımı bitdiyin, mən də yeri qazım, nə çıxacaxsa, siz də yeyin, mən də yeyim. Acınnan bırda qalmıyacayıx ki.

Daa orasını demirəm. Qazır, qazır, görüllər bir baca çıxdı. Patşahın at tööləsinin bacasıdı. Deyir:

– Bacı, burda üç atdı. Biri arpa yeyir, biri sümüh yeyir, biri kişmiş yeyir. Şallarınızı bağlıyın mənin belimə, sallıyın, mən düşüm ollardan götürüm gəlim, yeyəh, dolanax.

Bir gün belə, beş gün belə. Bir gün şahın vəzir-vəkili deyir ki, patşahi-aləm sağ olsun, atların arıxlıyıf. Patşah deyir:

– Bı nə deməkdi? Sizi qıracam. Pusun!

Pusullar, görüllər bir qız bacadan düşdü, elə bil ceyrandı. Bı qızı tutullar. Deyir:

– Sən kimsən, niyə belə eliyirsən?

Deyir:

– Bəs atamız bizi azdırıf, biz də vadarıx belə eliyəh. Əlacımız yoxdu.

Bıların üçünü də çağırır patşah. Deyir:

– Qızım, niyə belə eliyirsiz?

Bı, dediyim kimi nağıl eliyir. Patşah deyir:

– Əlizdən nə gəlir?

Böyüh qız deyir:

– Mən bir yumurtadan yeməh pişirərəm millətin yığılar, – duzdu eliyər dayna, – barmağını batırar, hamı çəkilər.

Ortancıl qız deyir:

– Mən bir gəvə toxuyaram, hamı oturar, durar gedər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O da tikan qoyar. Xırda qız da deyir:

– Mən bir oğul doğaram bir birçəyi qızıl, bir birçəyi gümüş.

Patşah bı qızı alır, o biri bacıları da hərəsini birinə verir. Vaxt gəlir, vədə gəlir, bı hamilə olur, yatmağa hazırraşır. Bacıları deyir ki, bu oğul doğsa, biz öləceyih. Gəlin, qonşuda it var, doğuf. Onun balasını qoyax bının altına.

Bu doğan uşağı götürüllər, büküllər cındaya, qoyullar sandığa, atıllar dəyirmanın arxına. Patşaha xəvər gedir ki, patşahi-aləm sağ olsun, arvadın it küçüyü doğuf. Patşah əmr eliyir, bının gözünü çıxardıllar, sağ gözünü sol əlinə, sol gözünü sağ əlinə qoyuf əvdən çıxardıllar.

Dəyirmancı da dən üyüdürmüş. Görür ki, dəyirman yatdı. Baxır görür ki, dəyirmanın boğazında bir dənə sandıx var. Sandığı açır, görür bir uşaxdı, bir birçəyi qızıl, bir birçəyi gümüşdü. Bunu götürür gəlir evə. Deyir:

– Ay arvad, bir uşax tapmışam.

Arvad deyir:

– A kişi, məəm döşüm var, başım var? Məəm nəyim var bını gətirmisən? Mən nətər saxlıyım?

Kişi deyir:

– Yox, bını bıraxmağ olmaz.

Bir gün dəyirmançı bir arvad görür. Görür ki, oturuf sızıldıyır, ağlıyır. Onu götürüf gəlir əvinə. Deyir:

– A bacı, noluf saa?

Saa nağıl elədiyim kimi danışır. Deyir vəziyət belə. Dəyirmançı deyir:

– Bir uşax tapmışam, ala verim, saxla.

Deyir:

– Qadaa alım, ver.

Uşağı salır döşünə, əmizdirir. Dəyirmançı deyir ki, patşah bilsə bizi öldürəcəh. Bını aparır bir çayın qırağında qoyur, uşağı da qucağında. Qurban olum, mələhlər gəlir, deyir:

– Noluf, nəyə ağlıyırsan?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Sağ gözüm sol avcımda, sol gözüm sağ avcımda. Qucağımda uşağı görə bilmirəm mən, saxlıyam.

Deyir:

– Qorxma, gözü düz qoy, liqavımızdan salaceyih, gözaa çəkərsən, gözün açılacax.

Liqab salıllar, sağ gözü sol gözündədi, sol gözü sağ gözündədi. Gözünü açır. Uşağı açır, bölüyür, alır qucağına diyarbadiyar gəzir. Meşənin divində bir qalaça – otax var. Deyir, ölsəm də girəcəm bıra, qalsam da. Gəlir bıra. Axşam olanda görür mallar, heyvannar gəlir. Dev də gəlir. Dev deyir:

– Adam-badam iysi gəlir, bırdan adam iysi gəlir. Yemirsən, yeyərsən, yeməmisən hamuşam.

Allah-tala uşağa gör nə qədər hiss verif ki, mıkkıldamıyıf da, yükün dalında gizdəniflər. At dillənif deyir:

– Ay dev qardaş, bırda nə var kı. Sən başıı qoy ora yat. Bura kim gələr?

– Dev nədən yesin?

– Al quymac quymaxdan yesin, eşşəh palanda yatsın.

Bir gün belə, iki gün belə. Arvad bir gün durur qır vardı, əridir, yaxır palana, təndiri də qızdırır. Genə axşam dev gəlir, genə heylə dediyi kimi deyir. Palana bürünüf yatanda, bunu itəliyif salır təndirə. Bı bırda yanır. At dillənir deyir:

– Ay xanım, çox sağ ol, sən bizi bı yalavın əlinnən qurtardın. İndi ağlın olsun. Bir sürü malı mən otaracam. Qırx dənə otaxdı, qırxı da qızıldı. Uşağı da saxla, bizi də burda saxla. Becər, südümüzü, yağımızı, qaymağımızı yeyin.

Uşax yekəlir, day bavat olur. Patşah hər gün ava gedirmiş. Arvat oğluna deyir ki, patşahi-aləm sağ olsun, bu gejə bizə qonaxsan. Deyif yaxşı.

Patşah ovdan qayıdanda deyir patşahi-aləm sağ olsun, savah günorta bizə qonax ol. Patşah deyir:

– Ay uşax, sən kimsən?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hər kiməm, mən səni əvə təhlif eliyirəm. Savah günorta bizə qonaxsan.

Deyir:

– Baş üsdə, gələrəm.

Vəzir-vəkil də deyir:

– Patşahi-aləm sağ olsun, gedəh görəh bı nə sirrdi.

Bılar gəlir qonax. Arvat yeməh bişirir, bir bulutda oğlunnan yolluyur. Deyir:

– Oğlum, ala bu qaşığı qoy civa. Aş veriləndə denən aşım, aş ye. O deyəcəh, oğlum, aşı aş yeməz, adam özü yeyər. Sən də denən ki, patşahi-aləm sağ olsun, ana it küçüyü doğmaz. Onda başa düşəcəh özü.

Gəlillər. Salam-məlöyküm, əlöykümət-salam. Patşah uşaxnan görüşür. Arvat gözə görükmür. Qəşəh buluda aşı çəkir, üsdündə də əti, aparır uşax qoyur qabağa, çayı aparır qoyur, əlinə gələni qoyur, mer-meyvə. Patşah deyir:

– Oğlum, sən də gəl ye.

Uşax deyir:

– Yox, mən ayrı yeyəcəm.

Deyir:

– Aşım, aş ye.

Patşah deyir:

– Ay oğul, aşı aş yeməz e, qadası, adam özü yeyər.

Uşağın da başında papağı, özü götürmür. Bir də deyir:

– Aşım, sən də aş ye.

Patşah bir də deyir:

– Ay oğul, aşı aş yeməz, adam özü yeyər.

Bir deyir, iki deyir, uşax deyir:

– Patşahi-aləm sağ olsun, ana it küçüyü doğarmı? Mən bu ananın oğluyam. Məni atdılar, bu vəziyyətə düşdüm, anam da ayrı vəziyyətə.

Anasın çağırır. Görür gözünün biri ayrıdı. Deyir:

– Səni aparacam.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən saa getmirəm. Bırda qalıf uşağımı saxlıyacam. Buranı becərsəm maa bəsdi.

Patşah gəlir o evi verir ona, qırx gün özünə toy vurdurur, o qızı alır. Yedi-işdi, hamı şaddığa gedir.

**II mətn**

Üş bajı varmış, üəy nənələri varmış. Arvad kişini məjbur edif ki, buları apar azdır. Kişi də götürüf aparıf bağa. Bir toxmax da aparıf asıf. Deyif ki, bı toxmax havax takqıldasa, onda gələrsiz. Bıllar da gözdüyüf, gözdüyüf, gözdüyüf, kişi çağırmıyıf dayna. Küləh əsif qarannıxda, axşam çağı. Küləh əsəndə toxmax takkıldıyıf. Deyiflər ki, hə, atamız çağırır, gedəh. Gəlif görüflər ki, hamısı köçüf qaçıf, heş-zad yoxdu. Oranı gəziflər, buranı gəziflər, birinin əvinin ojağınnan bir kömbə tapıflar, birinnən birəz yağ tapıflar. Öz əvləri̇ndə də heş-zad qoymuyuf arvat. Hə, bını yeyiflər. Yeyif-içənnən sora deyiflər ki, gedəh çıxax bir döşə, işiyəh görəh kiminki gödəh olsa onu yiyək. Balacanınkı gödək oluf. Deyif:

– Məni yemiyin, gedim sizə yeməh tapım gətirim.

Bir vəzirin də atını bir qulluxçu saxlıyırmış. Kişmiş verirmiş ki, bu at kökəlsin dayna. Bir gün vaxt oluf kişi deyif ki, atı çıxart, gəlsin görəh at nə haldadı. Bı qız da gündə gedif abışkadan girif ətəyinə yığıf çıxırmış, heç at yemirmiş, ata çatmırmış. Atı çıxardıf. Deyif:

– Ə, bı nədi? Bəs kişmişi neynəmisən ki, at bı avırdadı.

Oğlan şübhələnir. Gəlir atı gənə bağlıyır, kişmişi tökür, gizdənir. Elə bı qız gəlif kişmişi yığıf çıxanda tutur. Deyir:

– Sən kimsən, nəçisən? Bax, bırdan kişmişi niyə oğurruyuf aparırsan?

Deyif:

– Həbilə-həbilə dayna, yetim uşağıx, üş bajıyıx, qalmışıx aj. Onçun da gəlif bırdan onu oğurruyuf aparıram, yeyirih.

Deyif:

– Get, bajıları da götür gəl.

Hə… Bajılarını da götürüf gəlif. Böyüyünə deyiflər ki, sən nə iş görə bilirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– Bir qazan aş bişirirəm, yarsın yeyillər, yarsı qalır.

Ortancıla deyillər:

– Sən nə iş görə bilirsən?

Deyir:

– Bir gəvə toxuyuram, yarsında oturullar, yarsı qalır.

Bı qıza deyiflər, balacıya:

– Sən nə iş görə bilirsən?

Deyir:

– Mən bir oğlan doğuram, bir birçəyi qızıl, bir birçəyi gümüş.

Hə, belə olur üç qardaş üş bajını alıllar. O bir qazan aş bişirən duzdan tökür, ağzına vuran çıxır gedir, yeyə bilmir. O da gəvənin yarsına iynə-sancax sancır, yarsında oturullar, yarsı qalır. İndi qaldı bu doğana. Doğan da gəlir doğur. Doğanda bajıları götürür uşağı, aparır atır kolun divinə, sora küçüh qoyullar yanına. Əri gəlif görür ki, bir küçüh var. Bəs bu oğlan doğurdu? Bının gözdərini çıxardır. Sol gözünü sol əlinə qoyur, sağ gözünü sağ əlinə qoyur. Aparır qoyur bir ağacın dibinə. Bir quş gəlir. Deyir ki, bir ləlıh atajam, sol əlindəkini qoy sol gözaa, sağ əlindəkini qoy sağ gözaa, sora da bı lələyi çəh, gözün görsün. Həbilə olur. Hə, bir keçi də qarınnıymış. Gündə gəlirmiş mıkkıldıya-mıkkıldıya o uşağı əmizdirif gedirmiş. Bir gün qarı çıxıf camaata deyir ki, mənim keçimi sağırsız. Onnar da and-aman eliyillər ki, biz görməmişih, sağmırıx. İndi keçinin dalına düşür səhər. Qarabaqara gedif görür ki, keçi getdi bir kolun divində mıkıldıya-mıkıldıya bir uşax əmizdirirdi. Bu uşağı da götürür, keçini də götürür gəlir. Həmən gəlini də gətirir bı arvat. Gəlin nağıl eləmişimiş ki, mənim başıma belə oyun gətirdilər. Bajılarım uşağı götürdü, yerinə küçüh qoydu. Uşax da eşidif. Bir gün deyif:

– Qarı nənə, getginan bir qazan aş bişir, o kişini qonax çağırginan.

Bu da deyif ki, bala, mənim nəyim var, nə bişirəm. Deyif:

– Qızıl da verəjəm, gümüş də verəjəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızıl da verif, gümüş də verif. Aparıf. Aş bişirif. Gəlir. Sırfa salıllar, qabağa qoyullar. O, uşax deyir ki, "çomağım, çomağım, aş ye". Kişi deyir ki, əyə, çomağ aş yeyər?

Deyif:

– Bəs arvad küçüh doğar?

Bir də deyif:

– Çomağım, çomağım, aş ye.

Deyif:

– A bala, çomağ aş yeməz ey.

Deyif:

– Heş arvad da küçüh doğmaz.

Heylə kişi başa düşür ki, bı bının uşağıdı, bı da arvadıdı, onçun belə deyillər. Onnan sora götürüf gedir əvinə.

## 30. QARAÇUXA VƏ AĞILLI QIZ

Günnərin bir günündə bir kişi bir gəlin gətirir – hamının gəlini yaxşı ola heylə. Gəlin gələndə deyir ki, – qaynı varmış, qaynatası varmış, – deyir ki, sizə mənim sözüm budu ku, evə gələndə heş vaxt əliboş gəlməyin. Bir şey tapsanız da, tapbasanız da, lap bir quru daş olsa da, götürün gəlin evə.

Bir gün bir qayın gələndə daş gətirir, tulluyur qapıya. Bir gün o biri qayın daş gətirir, atır qapıya. Heylə-heylə bir günnəri qaynının biri gələndə heş nə tapbır. Görür kü, qarouş* bir şey dartışdırır, leşdi guya. Day deyir boş gedəjəm, əlini ilişdirir, bunu gətirir, tulluyur daşın üsdünə.

Daşın üsdünə tulluyanda patcahın qızı çayda çimirmiş. Tacını qoymuşmuş yerə, çimirmiş. Qarouş şahın qızının tacını götürür gəlir, elə bilir leşdi. Gəlir qonur daşın üsdünə səki** bunu dimdihliyə. Görür bu tacdı, leş də bırdeymiş. Başdıyır leşi yeməyə. Leşi yeyir, tacı da tulluyur bura qarouş.

---

* qarouş – çalağan
** səki – sanki



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız çıxır qapıya, görür daşın üsdündə nəysə parıldıyır. Qız gedir götürür, görür kü, patcahın qızının tacıdı. Gətirir qoyur əvə, gizdiyir. Patcah elan vurur ki, mənim qızımın tacını qarouş aparıpdı. Kim mənim qızımın tacını tapsa, onu dünya malınnan qane eliyəjəm. Nəysə, şəhər əhlinə bu patcah elan vurur. Tac da qızdadı daa, gəlindədi. Hamma əvləri bilmir. Gəlin deyir ki, patcaha gedip deyin ki, üş gejə qarannıx eləsin şəhər əhlini, onun qızının tacı tapılajax. Deyillər nə təhər tapılajax?

Deyir:

– Siz deyin, nə işizaa qalıp.

Gedip bunun əri patcaha deyir ki, patcah sağ olsun, şəhər əhlini üş gejə qarannıx elə, bəlkə sənin qızının tacı tapıla.

Patcahın əlindeydi, nə şeydi ki, bı? Patcah elan vurur ku, bütün mənim şəhər əhlimdə bir dənə də işıx yanmasın. Hamı işığı keçirir. Bir həmən gəlin cəhrəni qoyur böyrünə, lampanı qurur, oturur, başdıyır cəhrə əyirməyə. Hamı da yatır. Yatanda bir də görür kü, bir dənə şəxsi girdi qapıdan. Deyir ki, gəlmisən? Qız nə başdı qızımış gör. Deyir ki, inanmıram, qayıdır gedir. Nəysə, qız gənə oturur cəhrəni əyirir. Axı üş gejə demişdi. Sabah, nəysə, bı şəxsi gənə gəlir, gedir. Nəysə. Üçüncü gejədə qız gətirir yanına duz qoyur, un qoyur. Genə hamı yatır, qız başdıyır cəhrə əyirməyə. Bir də görür qapıdan girdi. Deyir ki, gəlmisən?

Deyir:

– Getmiyəjəm.

Deyir:

– Getmiyəjəhsən?

Deyir:

– Yox.

Deyir:

– Onda gəl and iç.

Bı evin qarçuxasıdı – fikir ver haa. Hər yer qarannıxdı axı, gəlir duza, una and içir ki, gəlmişəm, getmiyəjəm. Deyir:

– Onda get, xilas elədim səni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fikir ver e, bu evin qaraçuxası durdu e! Səhər elan vurur ki, gərəh patcahın qızının tacı tapıla. Üçüncü gündü uje. Gətirir verir yoldaşınamı, qaynatasınamı ki, aparın verin şahın qızının tacını. Day onsuz da bizim qaraçuxamız durup da. Allah onsuz da verəjəh bizə. Aparır verir.

Patcah deyir ki, sənin ənamı verəjəm. Patcah ənam verənnən sora da Allah bunnarı elə qalxızır, elə gün-güzaran verir ki, urzu bunnarın başınnan tökülür. Qaraçuxası durduğuna görə urzu bunnarın başınnan tökülür.

## 31. HƏR İŞİN BAŞI SƏBRDİR

Biri evlənir – bir oğlan dayna, hayat qurur. Ayləsiynən bir ay yaşıyannan sora deyir:

– Ay arvad!

Deyir:

– Nədi, a kişi?

Deyir:

– Mən gedəjəm alimlih oxumağa, alim olmağa.

Deyir:

– Bəs məni bırda tək-tənha qoyuf hara gedirsən? Neçə il oxuyajaxsan?

Deyir:

– İyirmi beş il oxuyajam, alimlih deplomumu alıf çivimə qoyuf gələjəm.

Görür ki, yox, kişi dediyinnən dönmüyəjəh, irazılıx verir, gedir.

Gedir çıxır Hələf şərinə. Orda alimliyi oxuyur. İyirmi beş il oxuyur, deplom alır. Qayıdır indi vətənə. Yolda bir çovana rasdaşır. Deyir:

– Atalardan bir məsəldi, yoruldun karvana, ajdın çovanın yanına get. İndi ajdığım var. Nəyin var, maa bir şey ver, yeyim.

Çovan gətirir böyüh qavlamasını, bir-iki qara qoyunun südünü sağır, bir az da quru yuxası varmış, avalıyır tökür südün içinə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qaşıxnan qarışdırır, qoyur bı alimin qavağına. Alim yeyif doyannan sora halallaşıf yola düşəndə çovan bına sual verir:

– A qonağ, axı sən demədin hardan gəlif hara gedirsən?

Deyir:

– Mən aliməm, iyirmi beş il alimlih oxumuşam, indi qayıdıram vətənə, evimə.

Çovan bına sual verir. Deyir:

– Alimsən?

Deyir:

– Bəli, alimən.

Deyir:

– Onda de görüm, alimliyin baş hərfi nədi?

– Boy, alimliyin nə baş hərfi olar?

Deyir:

– Yox, əgər alimsənsə de görüm alimliyin baş hərfi nədi? Əgər bilmirsənsə, bir il məəm qoyunumu otar, mən alimliyin baş hərfini saa deyim, get.

Alim deyir ki, a rəhmətdiyin oğlu, iyirmi beş ildi evimnən kənar olmuşam. İndi saa da bir il qoyun otarım bırda? Halallaşıf yola düşəndə bir iyirmi metir gedir, fikir alimi götürür: "Ayə, bı nə sözdü, alimliyin baş hərfi nədi? Eey, qayıdıf çovanın bir il qoyununu otarajam, onu da örgənif gedəjəm".

Qayıdır geri. Deyir:

– Çovan qardaş, mən sənnən irazılaşıram. Bir il qoyunuu otarajam. Amma elə o günü vaxtım tamam oldu, alimliyin baş hərfini maa de, gedim.

Dedi:

– Hə, ona arxeyin ol.

Nağılda vaxt yüyrəh olar. Bı oxuyur, qurtarır. Vaxt tamam olur. [Alim] deyir:

– Hə, indi çovan qardaş, maa de görüm, alimliyin baş hərfini.

Deyir:

– Alimliyin baş hərfi səbirdi.

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nə, səbir?

Durur halallaşır, sağollaşır, qayıdır gəlir. Nə gejə dəyil, nə səər dəyil, qapını döyür. Arvat deyir:

– Kimsən?

– Ay arvad, mən gəlmişəm, dur qapını aç.

Bı gedəndə arvadın bir oğlu olur. Boyluymuş dayna. İndi oğlunun iyirmi iki yaşı var. Qapını açır. Bıy, görür arvadının böyründə iyirmi iki-iyirmi üç yaşında bir cavan oğlan yatıf. Alimi fikir götürür. İsdiyir xançalı çəkə arvadı da vıra, oğlanı da doğruya. Birdən barmağını dişdiyir:

– Ey dili-qafil, axı mən çovana bir il oxumuşam, səbr örgənmişəm. Qoy səbr eliyim, görüm, bı işin axırı nədi.

Arvad əriynən görüşənnən sora qayıdır deyir:

– Dur, oğul, dur. Atan gəldi.

Orda sevinillər. Arvad oğlunu da durğuzur, atasınan görüşüf, öpüşüllər. Bıların bı hekayəsi bırda başa çatır, əziz balam.

## 32. KOR KİŞİNİN NAĞILI

Bir kor kişinin iki oğlu varmış. Böyüh oğlu evliymiş, kiçih oğlu da ərgənimiş. Evdəki işin hamısını kiçih oğlan görərmiş. Hə, bir gün kiçih oğlan görür ki, qardaşı gəlir durur onun yanında. Deyir ki, qardaş, xeyir ola? Deyir ki, qardaş, bəs gəl ayrılax.

Deyir:

– Ayrılax?

Qardaşı deyir:

– Hə.

Deyir:

– Onda atamız bir paydı, nə qədər var-döölətimiz var, o da bir paydı. Hansını isdiyirsən götür.

Böyüh qardaş deyir:

– Qardaş, icazə ver, onda gedim evə, məsləhətdəşim.

Nəsə, gedir. Səhər gəlir deyir ki, bəs biz vara yiyə dururux.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Onda arvadaa deginən bizə birəz çörəh versin.

Bir beş metir, altı metir parça götürür, kişini alır qucağına, çörəyi-zadı da uşax kimi qoyur qavağına. Sora “Allah, Məhəmməd, ya Əli”, – deyif düşür yola. Kişi də çoxbilmiş adamımış ee, ta dünyanı elə-belə boşuna vermiyif. Elə soruşur:

– Ay bala, bura indi haradı?

Deyir:

– Ata, bura filan yerdi.

Deyir:

– Ay bala, az qala sən bu padşahın diyarınnan çıxasan. Bala, çörəh ver.

Baxır ki, çörəh yoxdu. Deyir:

– Ata, darıxma, – işığ axı uzaxdan baxanda gözə yaxın görünür, – bı sahat çörəh gətirəjəm.

Kişini qoyur yerə, gedir ora. Heş demiynən bıra da bı tərəkəmə – qoyun-zat saxlıyan çoban-çolux yeriymiş. Gəlir bıra. Bıra gələndə tez bını qarşılıyıllar. Qardaş, xoş gəlmisən, beş gəlmisən. Deyir:

– Qardaş, xoş günuza gəlmişəm, amba xayış eliyirəm sizdən, məni tez yola salın.

Deyir:

– Nəyə ehtiyacın var?

Deyir:

– Bəs bir kor atam var. Yolun qırağında qoyuf gəlmişəm. Nə versaaz, verin. Yol adamıyıx.

Tez qazanı töküllər, çörəyin arasına qoyullar. Qoçax aparır atasına yemək-zad verir. Genə şəlliyir dalına, yeməyi qoyur genə qabağına, bir müddət gedənnən sohra deyir:

– Bala, indi haradı?

Deyir:

– Filan yerdi.

Deyir:

– Ay bala, ta hara gedək? O patşahın vilayətinnən çıxdıx bu patşahın vilayətinə gəlmişik.

Oğlan deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nətəri deyirsən, nə məsləhət görürsən?

Deyir:

– Bıralarda bir yer tap, bırda dolanax daa biz.

Hə, bırda bir yer tapır, bir daxma kimi düzəldir. Gündüz gedir işdiyir, axşam da nə qazansa, gətirir, yeyillər, içillər. Bir müddət belə gedir. Gedəndə bir gün bı kişi nəysə əllərini salır civinə. Kişi də dünyagörmüş kişiymiş da. Görür ki, bir daş var. Bı daşı gözünə sarı eliyəndə işıldıyır. Axşam gələndə deyir:

– Bala, mənim gözüm açılmır yuxudan, nə müddətdi mənim gözüm kordu. Bu daş nəysə çox qiymətdi daşdı.

Deyir:

– Neynim?

Deyir:

– Apar patşaha, dəllalların yanına, soruş gör bının qiyməti nədi? Qiymətini alarsan, gətirərsən da.

Nəysə, bı patşaha aparır, o patşaha aparır, olmur. Dedilər, onda şahlar şahı varmış, aparıllar onun yanına. Baxır deyir ki, ay bala, bı daşın qiyməti qırx qatır yükü qızıldı. Verirsən?

Deyir:

– Yox.

Bir də ordan qayıdır gəlir atasının yanına. Deyir:

– Ata, sənin o daşının qiyməti qırx qatır yükü qızıldı. Verim, vermiyim?

Deyir:

– Bala, niyə vermirsən ki? Ver!

Qırx qatır yükü qızılı verir, gətirir tökür bu xosmanın böyrünə. Bu, xosmadan qəlbi olur. Üsdünü örtür. Deyir ki, indi, ata, nə iş görüm, nağayrım? Deyir ki, bala, əvvala bu puldan götür, bu şəhərin içində hamıya hörmət elə. Görəndə ki, sən aralıdan gələndə deyillər filankəs bıdı gəldi ha, onda sən qorxma, [o puldan] ver, getsin. Bu, o qədər bı şəhərdə hörmət qazanır, elə əənnən gələndə camahat belə çəkilir qırağa, deyir gəl. Deyir:

– Ata.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, nədi?

Deyir ki, ata, sən dəənnən də birəz artıx hörmətim var xalqın içində. Deyir:

– Bala, onda bu puldan ver, bu ölkədə yaxşı bir patşahyana ev tikginən, hamamı, stalovısı, çayı, nə bilim nə lazımdı tikdir.

Deyir:

– Baş üsdə.

Bı bırda ev – patşahyana bir ev tihdirir. Onnan sohra stalovısı, hər bir şeyi içərisində. Camahat gəlir, yeyir-içir. Amma qısırqalanmır. Deyillər:

– A kişi, sən nağarırsan? Çınqıllıx da olsa, bı qutarajaxdı da. Gəl özaa bir adam tap, sənin yeraa bını aparsın dana. O da hesabı götürsün, sənin puluun üsdünə pul gəlsin da. Genə baha qiymətə yox, ucuz qiymətdərə ver da.

Nəysə, bı razılaşır. Bir nəfər tapır. Bir müddət bıllar bırda qalıllar bu vəziyyətdə. Bir gün bu oğlan gəlir deyir ki, ata, filankəs deyir gedək evə, mən də getmirəm. Deyir:

– Yox, bala, çağırıllar səni, get.

Gedir. Hə, mının da bir qızı varmış. O vaxdı qız örtühdə olurmuş. Deyir ki, açıx danışax da, qızım var. Sən də tək oğlansan, mən isdiyirəm ki, sən o qızı alasan. Biz elə bir aylə kimi yaşıyax. Deyir ki, alaram, amma bu şərtlə ki, gərək o, mənim kor atam nə desə, ona “hə” deyə. Elə bıllar deməmişdən qız pərdənin dalınnan deyir ki, ölümə buyura ha, yox demiyəjəm.

Deyir:

– Yaxşı.

Söz yox ki, bu özü eləmiyəjəh, əlinin altda olan qulluxçulara elətdirəjəh. Bıllar bırda bu minvalnan yaxşı toy-zad ehtiyatı görəllər. Toy qutarannan sohra bıllar bırda yaşamağa başdıyıllar.

İndi gələh bı tərəfə – o var-dööləti güdən qardaşın yanına. Bırda Allah bir tufan elədi, bırda bir qırğın olur, həmən o qardaş təhcə bir taxdanın üsdündə gəlir çıxır patşahın vilayətinə. Başdıyır bırda yığı yığmağa. Bına kim nə versə, onun olır, dilənçi kimi da.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hə... Bir müddət gəlib keçənnən sohra bı oğlan gəlir görür ki, çırtma vursan, kişinin qanı çıxar. Arvadına deyir:

– Ağız!

Deyir:

– Hə.

– Kişiyə kim nə deyifdi? Sən nə demisən?

Deyir:

– Vallah, mən heş zad deməmişəm.

[Atası] deyir ki, bala, gəlin günahkar dəyil. Sənin ölmüş qardaşın gəlmişdi, orda – aşağıda zarıyanda səsinnən tanıdım. Gəlinə dedim ki, get bir dəst paltar ver, hamamlansın. Bir qab da yemək verin yesin, işsin. Bir balaca tənbəki kisəsiynən bir də qızıl verin, gessin, dolansın.

– Əşi, nejoldu?

Deyir:

– Mən nə bilim, gəldi, getdi daa.

– A, nə irəng paltar vermişdin? Rəngi nəydi? Nə tərəfə getdi?

Deyir:

– Belə getdi.

Bı oğlan dəli kimi çıxır ki, ayə, bı rəngdə, bı fasonda belə bir adam getdi. Deyillər, ayə, bax, bırdan dee belə getdi.

İndi hamıya hay düşüb ki, əyə, filankəsin qardaşı gəlib çıxıb. Qardaşını tapır, öpür o üzünnən, bu üzünnən. Deyir:

– Ə qardaş, Allah xətrinə, mənim qardaşım-zadım yoxdu. Ala verdiyin bı pulu-zadı, paltarı – hamısını çıxardım verim.

Deyir:

– Yox e, gedəh, saa subut gösdərəjəm. Görəssən ki, həqiqi mən sənin qardaşınam.

Nəysə, nağıl dilidi. Gəlir çıxıllar ikinci mərtəbəyə. Görüllər ki, bir kişi oturub. Bu kişini görəndə o, qapıdan iməhliyə-iməhliyə gəlir onun əlinnən öpür:

– Ata, məni bağışda, bir səfdi eləmişəm.

Deyir:

– Allah üzüü qara eləsin, nəyii bağışdıyım? Dur, get.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi o qızıl vardı ee, o, hardan gəlmişdi? O ki çörəyi qutarmışdı, getdi çobannarın yanında, kişi onda iki daş götürüb bir-birinə vurur ki, yəni qurd-quş gələndə bilsin də. Həmən o daşı o vəziyətinə görə, ürəyinə görə Allah qızıl eliyir.

## 33. TÜLKÜDƏN QORXAN ƏHMƏDİN NAĞILI

Biri varımış, biri yoxumuş, bir kətdə bir qarı varımış. Bunun Əhməd addı bir oğlu varmış. Bu oğlan yaman tənbəl imiş. Anası bunu ha buyurarmış oduna get, suya get, ocağın o qırağınnan durup bu qırağında oturarmış. Anaya həddən artıx əziyət verərmiş. Bu çox həddinnən artıx tənbəliymiş. Günün birində anası ev yığışdırıp süpürürmüş. Nə qədə eliyip, get ocağın o biri başında otur, o tərəfə keç, keşmir. Ana bunu döyür, kötəhliyir, atır çölə, qapını da daldan vurur. Əhməd ağlıya-ağlıya deyir:

– Ana, aş qapını, ana, qorxuram.

Ana bunun fəryadına baxmır. Deyir:

– Bezdirmisən məni. Çıx get bırdan.

Əhmədin əlacı kəsilir, düzəlir yola. Hara getsin, nağayırsın, bilmir. Yolnan getdiyi yerdə görür yolun içində bir bildirçin hoppunup düşür. Bu çox qorxur. Qaçıp girir bir ağacın dalına. Bir təhər sürünə-sürünə gəlip baxıp görür kü, balaja bir bildirçin balasıdı. Götürür munu, qoyur qoynuna.

Bir az getmiş imiş, görür yolda uzun bir şey var. Elə bilir ilandı. Zəndnən baxannan sora görür kü, bir çatı qırığıdı. Götürür bu çatını, qoyur o biri qoltuğuna.

Gedir, gedir, kətdən, obadan aralanır. Aralı bir yerdə çölü-biyabanda böyüh bir tikili var. Deyir:

– Nə yaxşı oldu. Girim bu tikilinin içində gejəliyim. Görüm sora başıma nə iş gəlir.

Tikilinin içinə girəndə, bahoo, burda böyüh bir dev əyləşip. Bu dev tülküdən qorxan Əhmədi görəndə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Adam, badam iysi gəlir, yağlı gödəm iysi gəlir. Burdan adam iysi gəlir. Bı kimdi, nəçidi, mənim sərhətdimi keçif, yaxın gəl görüm.

Əhməd tülküdən qorxurdu, qaldı ki, devdən. Başdıyır tir-tir əsməyə. Gəlir devin qabağında əyləşir. Deyir:

– Dev qardaş, mənəm, Əhmədəm, gəl yoldaş olax, dosd olax, belə, filan.

Deyir:

– Yox! Sənnən dosdux, yoldaşdıx eləməh üçün mənim şərtim var. Üş dənə şərt kəsəcəm. Bı şərti görəh kim udajax. Əgər udsan, onda sən qalib olassan. Onda səni yemiyəcəm. Yox, uduzdun, mən səni yeməliyəm.

Əhməd irazılaşır. Oturullar. Dev deyir:

– Görəh kimin qoltuğunnan yekə bit çıxır.

Dev əlini salır qoltuğuna, o tərəfinə fırradır, bı tərəfinə fırradır, bir yekə bit çıxardır qoyur ortalığa. Əhmədin gözü kəlləsinə çıxır. Əlini salır qoltuğuna, ora-bura. Yoldan bir bildirçin balası tapmışdı. Onu çıxardır, qoyur ortalığa. Dev məhətdəl qalır. Deyir:

– Əhməd qardaş, onda görəh kimin qoltuğunun altında tük uzundu.

Ah, ah deyir, bir tük dartıp çıxardır, qoyur ortalığa. Əhməd görür işin orası dəyil, əlini salır qoltuğuna, ayan-bayan bir az fırradır, yoldan tapdığı çatı qırığını çıxardır, qoyur ortalığa. Dev görür kü, Əhməd bu şərtdə də qalib gəldi. Deyir:

– Yaxşı Əhməd, birimiz çıxajıyıx bu damın üsdünə. Damın bacasınnan bir çubux sallıyax. Birimiz damda əyləşəjəyih. O çubux, o adamı tərpətsə, deməli, o adam qalib gəlib. Yox, tərpətməsə, deməli, uduzub.

Deyir:

– Nolar, mən irazı.

Dev çıxır damın başına, ordan çubuğu uzadır Əhmədə, belə eliyir, aynə eliyir, buyana eliyir, Əhməd yerinnən tərpənmir. Əhməd də evdən gələndə qapıdan bir çomax götürmüşdü, axı o tülküdən qorxurdu. Dev deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əhməd qardaş, tək səni yıxa bilmədim. İndi mən oturum, sən məni tərpət.

Əhməd bacadan çıxanda çomağıynan devin başınnan o tərəfdən vurur, bu tərəfdən vurur. Dev tullanır düşür. Hə, dev görür uduzdu, qaşmağa başdıyır. Damdan düşəndə bının qıçı əzilir, axsıyır. Deyir:

– Ay aman, bu insan kimdi, deyəsən məni öldürəjəh. Yaxşısı budu qaçım canımı qurtarım.

Əhməd durur, görür bura doludu hər şeynən – qızıl, pul, mal-döölət. Küpələr doludu yağnan, balnan, o qədər burda yaxşı şeylər var. Durur çıxır, görür tövlələr var. Burda çoxlu mal-heyvan var. Bir araba qoşur, iki öküz gətirir bu var-döylətdən bu araba tutanacan doldurur. Özü də oturur bu qızılın üsdündə. Yavaş-yavaş qayıdır kəndə. Gəlir evlərinin qabağına, qapını döyür. Deyir:

– Ana, aş qapını.

Deyir:

– Açmıram.

– Ana, pencərədən bir bax, gör sənə nə gətirmişəm. Sən elə bilirdin mən tənbələm. Gör mən nələr gətirmişəm.

Anası qapını açır, görür, baho, araba doludu qızılnan, ləl-cəvahir. Küpələrdə yağ, bal. Ana sevinir. Çal-çağır qurullar.

Dev də gedir qırx dev qardaşına şikayət eliyir. Deyir:

– Bir bəni-adəm var, məni bu vəziyətə qoydu. Məni məğlub elədi. Gəlin yığışax, gedəh həmin adamı öldürəh.

Bular yığışıllar, bir-birinin quyruğuna bağlanıllar. Ən axırda da bu axsax dev gəlir. Bular yavaş-yavaş gəlillər kəndə sarı. Bı vax Əhməd də çıxıp oturup damın üsdündə, əlində də bir pıçax çubux yontalıyırmış. Devlər bunu görəndə deyillər:

– Əhməd, orda nağayrırsan?

Deyir:

– Çubux yonturam.

– Çubuğu neynirsən?

– Topal devin gözünü çıxartmalıyam. Bu çubuğu onnan ötrü düzəldirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə diyəndə topal dev nətəhər qorxursa, dartır bu devlərin hamısını yıxır. Devlər qaçıb gedillər. Əhmədnən anası o günnən bu varın, döylətin içində xoş-firavan yaşıyıllar. Nağıl burda bitərinə, yetərinə çatır. Siz də yeyin göyə çatın. Göydən də üç alma düşdü. Biri mənim, biri sənin, biri də gendə durub "isdəmirəm" deyənin.

## 34. ZƏHMƏTİN QƏDRİ

Bir müsülman kəndində bir yahudi yaşayırmış. Onun üş-dört dənə uşağı varmış. Bu yahudi babat dolanırmış. Heş nəyə ehtiyacı-zadı yoxmuş. Amma burda yaşayan müsülmanlar yaman korrux çəkərmişdər. Ona görə də yahudinin paxıllığını edərmişlər. Müsülmannar deyir ki, ə, nətər oldu, bizim içimizdə bu yahudi bizdən yaxşı dolanır. O təh, biz çox. O dolanır, biz yox.

Vaxtı çatanda peyğəmbər gedif həmişə Allahnan görüşərmiş, bəndələrin giley-güzarını ona çatdırırmış. Bir gün müsülmannar peyğəmbərə deyillər ki, o qurban olduğumuza bizim ərzimizi çatdır. De ki, bu nə məsələdi, bir belə müsülmanın içində bir yahudi dolanır, amma bizdər korrux çəkirik. Niyə biz dolanammırıx? Bizim bu xayışımızı Allah-talaya yetir.

Peyğəmbər gedif Allahnan görüşüf müsülmannarın giley-güzarını birjə-birjə Allah-talaya deyir. Allah peyğəmbəri eşidif deyir ki, mən burdan hər şeyi görürəm. O yahudi həm yaxşı qazanır, həm də ki qazancının qədrini bilir. Onun hərəkətində pis bir şey hiss etmirəm ki, bir az çörəyini kəsim. Mən bəndələrimin hamısına bir göznən baxıram. O ki qaldı fərasətdərinə, hərədə bir cür olur. Sora Allah peyğəmbərə deyir ki, sən get o yahudiyə de ki, buyünnən çörəhlərini ayağüsdə yesinnər. Bəlkə o vax çörəyin qırıx-quruğunnan bir-ikisi yerə düşər, onda mahna tapıf bir az onnarın çörəyinnən kəsif müsülmannara verərəm.

Peyğəmbər gəlif Allahın sözdərini yahudiyə çatdırır. Yahudi deyir ki, noolar, buyrux Allahdandırsa, bizim qabulumuzdu. Biz onun sözünnən çıxa bilmərik. Qoy müsülmannar sırfada oturuf yesinnər, biz ayax üstə də keçinərik. Yahudi külfətini başına tofluyuf



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyir ki, bəs Allahdan buyrux gəlif ki, biz buyünnən sora çörəyi, yeməyi ayaxüstdə yeyəjəyik. Arvad, adama bir döşdüh tik, asax boynumuza, yeməh yeyəndə çörəh nə üsdümüzə düşsün, nə də ayaxlarımızın altına. Yahudinin arvadı döşdüyü tikif verir onnara. Oturuf yeyəndə hərəsi özünkünü taxır boyunnarına, doyunca yeyillər. Bir qırıx belə yerə düşmür.

Müsülmannar gənə gileylənif peyğəmbəri Allahın yanına göndərirlər. Peyğəmbər yerdə gördüklərini gedif Allaha danışır. Allah deyir ki, mən hər şeyi burdan görürəm. İsdədim ki, bir az yahudinin qazancınnan kəsif müsülmannara verim. Amma görürsən mümkün deyil. Ollar zəhmətdərinin qədrini bilillər. Gördün ku, bir qırığı belə çölə atmıllar. İndi get müsülmannara de ki, nə qədər öz zəhmətlərinin qədrini bilmiyəjəklər, onda həmşə qaraöyünnü* korrux çəkəjəklər. Urzaları da daşdan, kömürdən çıxajax.

## 35. ALLAH YETİRSİN

Rəvayətə görə, şah oğlu Şah Abbas tez-tez çıxıf vilayəti gəzərmiş, camahatın giley-güzarını örgənərmiş. Günnərin birində Şah Abbas vəziri Allaverdi xannan birrikdə gejə çıxıllar gəzməyə ki, görələr kim yatıf, kim oyaxdı, şəhərdə nə var, nə yox. Baxıf görüllər ki, sakitlikdi, amma şəhərin qırağındakı bir evdən işıx gəlir. Yavaşcadan gəlillər işıx gələn tərəfə. Gəlif görüllər ki, işıx gələn evdə üç dənə dərviş oturuf dərtdəşillər. Başdıyır bu dərvişdəri pusmağa görsün ki, bullar nədən danışıllar. Birinci dərviş deyir ki, Allahın altında Şah Abbas maa bir at və bir az cib xəşdiyi versəydi, gedif ağalarımızı ziyarət eliyərdim, dərdim-zadım qalmazdı. İkinci dərviş də deyir ki, Allahın altında Şah Abbas öz qızını maa versəydi, onda dərdim-zadım qalmazdı. Üçüncü dərviş də deyir ki, mənim heş bir dərdim-zadım yoxdu. Gorbagor olsun Şah Abbas da, hələm desən vəziri Allahverdi xan da. Mənimkini Allah yetirsin, urzamı Allah versin.

---

* qaraöyünnü - qaragünnü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah Abbas bu sözdəri vəziriynən eşidif geri qayıdır. Savax açılan kimi Şah Abbas taxta çıxıf həmənki dərvişdəri hüzuruna çağırtdırır. Aradan çox keçmir dərvişdər gəlif durullar onun hüzurunda. Şah Abbas üzünü ollara tutuf deyir ki, dünən gejə danışdıxlarınızı öz qulağımnan eşitmişəm. İndi burda o sözdəri bir də deyin. Kim düz desə, heş nə eləmiyəjəm, arzusuna çatajax, yalan deyənin boynunu vurdurajam. Birinci dərviş deyir ki, şah sağ olsun, mən dedim ki, Allahın altında Şah Abbas maa bir at, bir az cib xəşdiyi versəydi, gedərdim ağalarımızı ziyarət eliyərdim, onda heş dərdim-filanım qalmazdı. Şah Abbasın əmriynən gətirif ona at və yol xəşdiyi verif yola salıllar. İkinci dərviş də deyir ki, şah sağ olsun, mən dedim ki, Allahın altında Şah Abbas öz qızını maa versəydi, onda mənim də dərdim olmazdı. Şah Abbas öz qızını buna verif yola salır. Üçüncü dərviş də deyir ki, şah sağ olsun, mən də dedim ki, mənim heş bir dərdim-sərim yoxdu. Gorbagor olsun Şah Abbas da, hələm üsdəlik vəziri Allahverdi xan da. Mənimkini Allah yetirsin, bəndə nədi ki, verdiyi bir şey ola. Şah Abbas ona qulax asıf deyir ki, noolar, qoy səninkini Allah versin, çıx get.

Bu dərvişdərdən birinin yolu başqa səmtəymiş. İkinci və üçüncü dərvişdərin yolu bir tərəfəymiş. Üçüncü dərviş gəlif bir çaya çatır. Görür ki, Şah Abbasın qızı da burdadı. Dərviş soruşur ki, hanı ərin. O da deyir ki, bəs çaya düşüf axdı. Bu dərvişdər də bir-birinə çox oxşayırlarmış. Qız yapışır bu dərvişdən ki, məni də özünnən apar. Dərviş deyir ki, ay bala, səni atan başqa adama verif. Xeyri olmur. Deyir ki, mən kasıf adamam, nə dirəyim var, nə də küncüm. Ağaşdarın dibində yatıram. Sən hara, mən hara? Qız deyir ki, qorxma, evdən çıxanda atam maa çoxlu qızıl verif. Götür olsun sənin. Kişisənsə bir ev tik, yaşıyax. Dərviş əlajsız qalıf qızı özüynən götürüf gedir.

Az gedif, çox gedif gəlif bir səfalı yerə çatıllar. Bura dərvişin də, qızın da xoşuna gəlir. Başdıyıllar burda yekə bir imarət tihdirirlər. Qırx otağın qırxı da hazır olur. Evin qırağına isə qəlbi hasar çəkillər. Dərviş evi tihdirif qurtarır, amma qıza əl vurmur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün bu dərviş köhnə dərviş paltarını geyif genə gedir Şah Abbasın sarayına. Hər qapıdan keçəndə buna dilənçi kimi bir manat pul verillər. Dərviş deyir ki, mən bir yer billəm, orda hər qapıdan keçəndə adama onnux qızıl verillər. Şah Abbas bunu eşidif təəccüflənir. Şah Abbas vəziri Allahverdi xanı da götürüf bir baş gəlir həmən dərviş gösdərən yerə. Onnarı yaxşı qarşılıyıf hər qapıdan keçəndə hərəsinə bir onnux qızıl verillər. Qırxıncı qapıda bullara deyillər ki, qalıf qonağımız olun. Ollar razı oluf qalıllar. Sora dərviş bura gəlif başdıyır bullarnan söhbət eləməyə. Dərviş deyir ki, şah sağ olsun, siz gejə pusuf danışığımızı eşitdiniz. Birinci dərviş at və cib xəşdiyi isdədi. Razı saldınız. İkinci dərviş qızınızı isdədi. Onu da razı edif yola saldınız. Mən də dedim ki, mənimkini Allah yetirsin. Maa dediniz ki, get, qoy saa Allah versin. Sarayınızdan çıxıf getdim. Gəlif gördüm ki, qızınızı verdiyiniz dərviş suya düşüf axıf. Qızınız boynumdan yapışıf yaxamnan əl çəkmədi. Dedi ki, məni də özünnən apar. Əlajsız qalıf apardım. Gəlif bura çıxdıx. Köməhləşif bax bu gördüyün imarəti tihdirdik Allahın köməyinnən. Bax, bunu da maa Allah yetirdi. Amma qızınıza əl vurmamışam. Əyər razı olsanız onda kəvin kəsdirif yaşıyarıx.

Dərviş Şah Abbasın xoşuna gəlir. Ollara əməlli-başlı toy eləyir. Sora dərvişi özünə vəzir edif deyir ki, doğurdan da səninkini Allah yetirdi.

## 36. ŞAH ABBASLA DƏRVİŞLƏR

Üş dərviş olır, qalmağa yeri olmır. Günüzdər qəsidə deyillər, gecə də Şah Abbasın karvansarasında gejəliyillər dayna. Hava da soyuxdu. Bir gün Şah Abbas çıxır şəhərə. Deyir ki, bir baxım görüm bu şəhərə kim gəlir, kim gedir, nə var, nə yox. Görür karvansarasınnan işıx gəlir. Gəlir görür kü, orda üş dərviş var. Küləşdən-zaddan odduyuf özdərini oda verillər dayna, hava da soyuxdu.

– Salam-məleyküm.

– Əleykümət-salam, dərviş qardaşdar.

Şah Abbas da paltarını dəyişif ey, şah paltarında dəyil. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bizim günüz yerimiz olmur, qəsidə deyirih, gejə bu karvansarada gejəliyirih. Yerimiz yoxdu qalmağa.

Deyir:

– Heş bir sənətız yoxdu?

Deyir:

– Var.

Deyir:

– Nədi sənətız?

Biri deyir ki, ayın qarannığında gördüyüm bir adamı, günüz yüz adamın içinnən tanıyıram.

– O birsinin sənəti nədi?

Deyir:

– Məəm də sənətim, hansı qapıya getsəm, qıfıllı olsa, o qıfılın duası var, oxuyuram, qıfıl öz-özünə şakkaşak açılır.

Deyir:

– Bunun da özü böyük sənətdi.

Onnan sora gedir üçüncüsünü soruşur. Deyir ki, məəm də sənətim odu ku, hansı qapıya getsəm, nə qədər sərt it ola, hürə, duası var, oxuyuram, it səsini kəsir.

– Oo, böyük sənətdərdi ki, bullar. Niyə dərvişdih eliyirsiz? Mən Şah Abbasın xəznəsinin yerini billəm. Gəlin gedəh onu yarax. Siz payızı götürüf gəlin, mən də siznən payımı götürüf gələjəm.

– Dərviş qardaş, sənin ağzınnan qan iyi gəlir. Şah Abbas bilər, bizi qıyma-qıyma doğratdırar cəllatdara.

Deyir:

– Yox, elə eliyəjəm bilinməsin.

Xülasey, duruf gəlillər qapıya, it başdıyır hürməyə. O itin dilini biləni qabağa ötürür. O, bir dua oxuyur, it səsini kəsir. Gedillər indi xəzinənin qapısına. Həmin o qıfılın dilini bilən adam duasını oxuyur, şakkaşak qıfıl öz-özünə açılır. İndi hərəsi birəz qızıl götürür, bir torba dayna. Gəlillər karvansarıya, həmən yerə. Birəz söhbət eliyillər. Şah Abbas görür kü, işıx-işığadı dayna, tay səhərə yaxınnaşır. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən də payımı qoyuram bura, sizin yanızda. Gəldim, öz payıma özüm yiyə durajam, gəlmədim, ananızın südü kimi halalız olsun. Bağışdıyıram sizə.

Şah Abbas gəlir tezdən çıxır taxta. Xəzinədar saçını yola-yola gəlir ki, şah sağ olsun, xəznəni beyjə yarıflar.

– Nə danışırsan?

– Hə, xəznəni yarıflar.

Deyir:

– Şəhəri gəzin, görün burda yad adam kim var?

Gəzillər əni-bəni, gedillər xəbər verillər şaha ki, şah sağ olsun, karvansarada üş dərviş var, olardan başqa heş kəs yoxdu. Deyir:

– Gedin olların üçünü də gətirin bura.

Bu adam (dərvişləri aparan – top.) deyir ki, şahın hüzuruna gedirih. Şahın xəzinəsi beyjə yarılıf. Gəlillər. Qavaxcan qıfılın ağzını açanı salıllar içəri. Bu and-aman eliyir ki, şah sağ olsun, bizim heylə şeynən aramız yoxdu. Allah eləməsin, biz xəzinəni yarax. Özünü yeyir-tökür. Axırda şah deyir ki, bını çıxardın çölə. İtin duasını oxuyanı da salıllar içəri. O da and-aman eliyir ki, şah, bizim xəvərimiz yoxdu. Biz dərviş babayıx, gündə qəsidə deyif karvansarada gejəliyirih. Axırı adam tanıyanı salıllar içəri – ayın qaranni-ğında gejə kimi görsə, günüz min adamın içinnən onu tanıyanı. Bu adam içəri girən kimi dodağı qaçır, gülür. Şahı tanıyır, Şah Abbası tanıyır. Deyir:

– Ə, nə gülürsən, həmi xəznəni yarmısız, həmi də gülürsən. Üçüzün də boynun vırdırram.

Deyir:

– Şahım sağ olsun, ədalata güj eləmə. Sənin kimsinin felifırıldağına düşdüh, apardıx xəznəni yardırdın bizə. Biz neyniyəh, bizdə nə günah var?

[Şah] ordan xəznədarı çağırır, deyir:

– Bılların hərəsinə bir az qızıl verin, salın yola, getsinnər.

Hə, bu, şahnan dərvişdərin nağılıydı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 37. KİMİN YALANI UZUN OLAR?

Bir sarısakqal, göy göz kişi varmış, bı çox nainsafmış. Bunun üç dəyirmanı var. Bir kişinin oğlu dən üyütməyə gedir. Deyir:

– Ay dəyirmançı, ay dəyirmançı.

Sarısaqqal, göy göz kişi çıxır. Deyir:

– Bala, gəl. Bir tay dən var, onu üyüdüf qurtarannan sora sənkini başdıyaram.

Deyir:

– Yox, atam deyif ki, sarısakqal, göy göz dəyirmançı nainsaf olar, onun dəərmanına getmə.

Bu ulağı sürür, ikinci dəyirmanın yanına gedəndə genə də görür burda da haman sarısakqal, göy göz kişidi. Deyir:

– Ay dəyirmançı, ay dəyirmançı.

Deyir:

– A bala, gəl, bir yük dən var. O dən üyünüf çıxannan sora sənkini üyüdərəm.

Əstafirillah. Onnan sora gedir üçüncü dəyirmana. Bı kişi bir də gedir ora. Deyir:

– Bala, üş tay dən var, o üş tay dəni üyüdənnən sora sənin dəni üyüdərəm, gəl.

Deyir:

– Bının üçü də sarısakqal, göy göz kişidi, elə o savax getdiyim dəyirmana gedim, dəni üyüdüm, çıxıf gedim.

Qayıdar həmən sarısakqal, göy göz kişinin dəyirmanına. Başdıyır dəni üyüdür. Bı dəyirmançı deyir ki, oğul, çıx navın başınnan bir vedrə su gətir, kökə salax – kömbə. Oğlan gedir bir vedrə su gətirir. Bu nainsaf dəərmançı bir vedrə suyu tökür təknəyə. Bir tay unun hamısını xamır eliyir, fətir salır. Deyir ki, oğul, indi hərəmiz bir yalan danışajıyıx. Kimin yalanı uzun oldu, kömbələr də onun olsun. Başdıyır, oğlan deyir:

– Əmi, söz böyüyün olar, qavaxcan sən de.

Deyir, oğul, məəm bir rəhmətdih atam vardı. O dey, o dağı görürsən? O dağı dağıdarmış, yerində bir dəyirman tikərmiş, gələn



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dənçilərin dənini üyüdərmiş, yola salarmış, səhərə yaxın dağı düzəldərmiş yerinə. Bir də mənim atam dəryanın qırağında bir bostan əkif, bir tağ qarpız qol ata-ata gedif dəryanın ortasında bir qarpız salıf. Mən də qarpızın tağının üsdüynən getdim, qarpızı nişanladım ki, görüm dəyif-dəymiyif. Pıçağım düşdü içinə. Bunu dəyirmançı deyir. Deyir, gördüm yolnan bir-iki adam gedir. Dedilər:

– Əşi, orda nə axtarırsan?

Dedim:

– Pıçağım düşüf.

Deyir:

– Əvi tikilənin oğlu, o qarpızın içində mənim bir qatar dəvəm itif.

Mənim yalanım bıdı, oğul. İndi sən nağıl elə.

Deyir:

– Dəyirmançı qardaş, olar ki, mənim yalanım inşallah ki, səninkinnən uzun olar.

İndi oğlan başdıyır. Deyir:

– Əmi, bizim çoxlu cücələrimiz, toyuxlarımız olardı. Bı toyuxlar kolda-kosda yumurtdarmış, bının yumurtasını bir yerə yığıf qutarammazdıx. İri səbətdər olur, onnarı səbətdərə yığıf töküf xırmana başdadıx üsdünə vəl qoşmağa. Yumurtanı vəlnən döydük, atam bını şanıynan savırdı, xoruzu bir yana çıxdı, cücəsi bir yana. Xoruzu bir yana çıxdı, cücəsi bir yana. Axırda atam bı xoruzun içinnən bir xoruz tutdu, qırxa bağladı*. Bağlıyannan sora, axırda bı xoruza bir yük dən yüklədi, apardı dərmana. Aparıf dəyirmana dənini üyüdüf qayıdannan sora atam dedi:

– Get, xoruzun belinin palanın al gətir.

Gördüm xoruzun belini üş yerdən palan vuruf, alıx verif da, yaralıyıf. Atama dedim. Dedi, get, onnarın hərəsinin yerinə bir çinar yarpağı qoy. Dəərmançı qardaş, mən də gətdim hər yaranın üsdə bir çinar yarpağı qoydum. Səhər durdux gördük xoruzun belinnən üş çinar ağacı çıxıb göyün yeddinci qatına. Dəərmançı qardaş, bı çina-

---

* qırxa bağladı – bəslədi, saxladı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rın birinə çıxan bir ildən sora düşərmiş, ikincisinə çıxan iki ildən sora düşərmiş, üçüncüsünə çıxan üç ildən sora düşərmiş. Mənim yalanım bıdı. İndi mənim yalanım uzun oldu, yoxsa sənin?

Deyir:

– Oğul, əlbətdə, sənin yalanın uzun oldu.

İndi bı oğlan kökəni yığır xaşalara, çuallara. Dəərmançı deyir:

– Bala, maa vermirsən?

Deyir:

– Yox, vermiyəcəm.

Deyir:

– Heş olmasa bir bisdih ver də. – Bişdih də yüz qrama deyillər. – Üş günnən sora gələrsən, kökə verərəm.

Oğlan yühlüyür, bına da əl boyda kökə verif gedir. İndi üş günnən sora gəlir dəyirmançıdan kökəsini almağa. Dəyirmançı bilirmiş da vaxtı. Gəlir arvada deyir ki, ay arvad, dur o başdannan hay sal ki, dəyirmançı ölüfdü. Məni gəlif bir cavan oğlan axtarajax, ona deyərsən ki, dəyirmançı baba ölüfdü. Bir bisti kökədən ötrü. Oğlan üş günnən sora gedir dəyirmançının evinə. Soraxlıyır kəndi ki, dəərmançının evi hardadı? Gəlir dəyirmançının evinin qapısına çıxır. Arvadı çağırıllar ki, bir cavan oğlan gəlif dəyirmançını soruşur. Arvad çıxıf deyir ki, bala, başa dönüm, dəyirmançı ölüfdü.

Deyir:

– Ay ana, Allah ona irəhmət eləsin. Üş gün bunnan qavax dəyirmanına gəlmişdim, maa vəsi elədi ki, mən öləndə sən gərəh məni yuasan. İndi onu mən yuajam.

Deyir:

– Nolar, madam ki, vəsi eliyif, sən yu.

İndi bı dəyirmançını götürüllər yuata. Biri su tökür, oğlan da yuyur. İsdi su tökür, soyux su tökəndə əlində çarıx bizi varmış, soxur kişinin buduna. Kişi gözünü açır. Deyir:

– Bisdimi ver.

Kişi bərh-bərh gözünü yumur. Bir də belə-belə, bını deşih-deşih eliyir. Deyir ki, Allah bu kişiyə irəhmət eləsin, maa bir də vəsi eləmişdi ki, üş gün kümbəzdə mənim qaroulumu sən çəkərsən. İndi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bını aparıf qoyullar kümbəzə. Bı da kişini aparıf basdıranda kümbəzin bööründə uçux qabır varmış, girir ora. Görüllər ki, gecənin bir aləmində üş-dört nəfər quldur şəhəri, evi yarıf, gətirif bırda bölüllər. Arada bir gorda qalır. Gorda da xançala deyilir. Deyir:

– Kim bu xançalı bir dəfiyə bı meyidin ortasınnan keçirsə, xançal onun olsun.

Biri qolunu çərmiyir, dizini qoyur yerə, xançalı belə qaldırıf yendirim deyəndə kişi qalxır:

– Ölülər gəlin, dirilər qaşdı.

Bı keçəl də qabırdan səs verir ki, əyə, qoyma, gəldim. Bı quldurrar qorxularınnan qaçır. Bir az gedənnən sora deyir:

– Ə, bəlkə bizi qara basırmış, qayıdax gedəh, birimiz baxsın görsün doğrudan belə şeydi?

İndi bı keçəlnən dəyirmançı malı bölür. Böləndə genə bı keçəl deyir:

– Mənim bisdimi ver.

Ayana baxır, bayana baxır, keçəl də elə “bisdimi ver” – deyif durur. Dərmançı gördü ki, kümbəzin balaca qapısı var. Bir buxara papax kişi gəlif ordan baxır. Bı quldurrarın yoldaşıdı. Bı oğlan “bisdimi ver” – deyəndə dəyirmançı hopbulur onun başındakı papağı alır, vırır bı keçəlin başına, deyir:

– Ala, bı da sən bisdin, sox gözaa.

Quldurbaşı gedir hay salır yoldaşdarına ki, əyə, qaçın canızı qurtarın. Bisdi-bisdi bölmüşdülər, birinə də pay düşməmişdi, mənim papağımı götürdülər.

Hə, bala, nağıl bırda başa çatdı. Olar yesin şişə çatsın, biz də yeyəh-içəh öz muradımıza çatax.

## 38. DANA, KEÇİ VƏ TOĞLU

Biri varıymış, biri yoxumuş. Bir dana, bir toğlu, bir keçi varımış. Bunnar üçü qardaşıymışdar. Bir-biriynən möhkəm dosduymuşdar. Bir kəndin qırağında meşədə otduyurmuşdar. Günnərin bir günündə bunnar otduya-otduya gedillər meşənin dərinniyinə. Meşə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nin dərinniyində bir də baxıllar ki, qarannıx düşüf. Bunnar yolu azıflar. Deyillər, elə burda gejəliyəh. Səhər açılar, hər yer işıxlanar, yavaş-yavaş qayıdarıx kəndə. Oturuşup söhbət eliyirmişdər. Keçi baxır kı, qalyanın odu qutarır. Səbri yaman tükənip. Neynəsin, nağayırsın, baxır ora-bura, görür uzaxdan bir işıx gəlir. Danıya deyir:

– Get ordan bir od gətir, bu qalyanımı yandırım.

Dana durur, quyruğunu atır belinə. Ha burda, ha orda, gedir işıx gələn tərəfə çatır. Bir də görür kü, bahoo! Altı canavar əyləşip, onnarın gözünün işığıdı bu ətrafı bürüyən. Canavarrar dananı görəndə deyir:

– Dana qardaş, adda başa. Nə əcəb, yaxşı qonağımız gəlib. Dana qardaş, adda başa. Dana qardaş, adda başa.

Dana keçir əyləşir başda.

Keçi çox gözdüyür, dana gəlmir. Toğluya deyir ki, toğlu qardaş, get o işıx gələnnən mana bir od gətir, gör o dana kəsilmiş harda qaldı? Mənim qalyanımın odu qutarıp, səbrim lap tükənip. Toğlu durup irtməyini* atır belinə, ha bırda, ha orda, gedir işıx gələnə çatanda görür burda canavarrar əyləşip, buların gözünün işığı ətrafı bürüyüp. Dana da başda əyləşip. Canavarrar toğlunu görəndə deyillər:

– Toğlu qardaş, sənnən nə əcəp, xoş gəlmisən, beş gəlmisən. Gözümün üsdündə yerin var. Toğlu qardaş, adda başa, həmişə sən gələsən.

Toğlu qorxa-qorxa keçip əyləşir başdan. Keçi bir az da gözdüyür, görür toğlu da gəlmədi. Səbri lap tükənir, özü durur irtməyini atır belinə, gəlir işıx gələnə. Gəlir, görür kü, burda altı canavar əyləşip, gözünün işığı ətrafı bürüyüp. Toğluynan dana da yuxarı başda əyləşip. Deyir: "Bu nə pis oldu. Mən öz yoldaşlarımı canavarrara qurban verdim". Canavarrar keçini görəndə deyillər:

– Nə yaxşı gəlmisən. Keçi qardaş, adda başa, həmişə sən gələsən, əziz qonağımızsan.

Keçi deyir:

– Mənə elə bırda bir döşəh verin, qıraxda oturacam.

---

* irtməyini – quyruğunu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Keçi qıraxda əyləşip deyir:

– Ordan bir od verin, qalyanımı yandırım. Yaman qalyan çəkənəm. Səbrim lap tükənip.

Keçi qalyanını yandırır. Canavarrarın böyüyü deyir:

– Mən yaxşı saz çalanam. Ordan o sazı gətirin mana, bir yaxşı hava çalım.

Canavarrar gətirib sazı verillər başçılarına. Bu başdıyır çalmağa. Deyir:

Sazım dınqır, dınqır, dınqır,
Dana qardaş axşamımızın,
Toğlu qardaş səhər ertəmizin,
Sazım dınqır, dınqır, dınqır.
Keçi qardaş günortamızın,
Sazım dınqır, dınqır, dınqır.

Belə deyəndə keçi deyir:

– Sən heş saz çalmağı bajarmırsan. O sazı ver mana, gör mən nətəhər çalıram.

Keçi alır sazı, basır sinəsinə, başdıyır çalmağa. Deyir:

Sazım dınqır, dınqır, dınqır,
Atam öləndə mənə demişdi,
Özaa yeddi canavar dərisinnən kürk tikdirərsən.
Altısını mən özüm tapmışam,
Birini də sən özün yetir, ey xaliq,
Sazım dınqır, dınqır, dınqır.

Canavarrar ürküşüp bir-birinin üzünə baxıllar. Bunu görən keçi deyir:

– Dana qardaş, tut gəldim. Toğlu qardaş, tut gəldim, ədə, tut gəldim.

Canavarrar tökülüp qaçışıllar. Keçi deyir:

– Olar gedip o tərəfdə fikir eliyip gəlip bizi yeyəjəhlər.

Gəlillər qaça-qaça, orda-burda, baxıp görüllər ki, ayaxlarının izdəri düşür. Canavarrar gəlip bu izdərnən bıları tapajaxlar, yeyəjəhlər. Keçi görür kü, böyüh bir ağaş var. Keçi deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gəlin çıxax bu ağaca. Olar gəlip bizi tapbıyajaxlar, çıxıp gedəjəhlər. Sora biz də düşüp çıxıp gedərik.

Bəli, dana çıxa bilmirmiş. Keçiynən toğlu bunu dırmaşdırır ağaca. Keçi də birtəhər çıxır, toğlu da çıxır. Oturullar ağaşda. Canavarrar gedir o tərəfdə fikir eliyir, deyir: "Bizim axşamacan yediyimiz toğludu, danadı, keçidi. Bizə noldu, qorxup qaşdıx. Gəlin gedip oları tapıp yeyəyin". Canavarrar qayıdıllar izə düşə-düşə, axdara-axdara gəlip bir ağacın altında izi itirillər. Deyillər:

– Bular burdan o tərəfə getmiyiplər. Görəsən bular hara getdi?

Bular oturup ağacın altında belə fikirrəşəndə, dana da canavarrarı görəndə canına vəlvələ düşür. Başdıyır əsməyə. Birdən ağacın budağı qırılır, tapbıltıynan düşür yerə. Bını görən keçi qardaş deyir:

– Dana qardaş, tut gəldim. Dana qardaş, bərk tut, gəldim. Toğlu qardaş, tut gəldim.

Canavarrar ürküşüp qaçıllar. Toğluynan keçi ağaşdan düşüp, gəlip görüllər dana ölüp. Ağlıya-ağlıya bir yer qazıllar, dananı basdırıllar. Yavaş, yavaş isdiyillər qayıdıp gələlər evlərinə.

Canavarrar gedip o tərəfdə deyillər: "Ayə, dana məni öldürmüşdü, az qala belimi qırmışdı". Biri deyir: "Ayə, sən nə danışırsan, dananın quyruğu boğazıma keşmişdi, güjnən çıxardıp qutardım". Biri deyir: "Dananın irtməyi boynuma keşmişdi, canımı güjnən qurtardım". Beləlihnən, canavarrar ordan qaçıp uzaxlaşıllar. Keçiynən toğlu da gəlib çıxıllar evlərinə.

Nağıl bu yerdə sona çatır. Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də gendə durup “isdəmirəm” deyənin.

## 39. DƏVƏ, XORUZ VƏ EŞŞƏYİN NAĞILI

Biri varımış, biri yoxumuş, bir dəvə varımış, bir xoruz, bir də eşşəh. El dağa köçmüşmüş. Bınnar qalmışmış yurtda. Arıx olduğuna görə nə dəvəni aparıbmışdar, nə də eşşəyi. Xoruz da elə bir küşdə bürüşüb qalmışmış. El köçür dağa, qalır hər yer yəəsiz, bınnar üçü otlaxdarda otduyullar, şellənillər, yaxşı kökəlişillər, əmələ gəlillər, yaxşılaşıllar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Günnərin bir günündə bırdan elat gedirmiş. Bı tapbıltını eşidəndə eşşəh deyir ki, mənim anqırmağım gəlir. Xoruz deyir:

– Mənim bannamağım gəlir.

Dəvə deyir:

– Nə sən anqırma, nə də bannama. Bannıyajaxsan, gəlip bizi tutub aparajaxlar. Səni kəsip yeyəjəhlər, bizi də yüklüyəjəhlər. Belə bu cür də sakit yaşıyax.

Eşşəh dəvənin sözünə baxmır, anqırır, xoruz bannıyır. Yoldan keçən elat deyir: "Deyəsən, bırda el, oba var". Baxıp görüllər bir dəvədi, bir eşşəhdi, bir də xoruz. Tez xoruzu tutup kəsillər, eşşəyi də, dəvəni də yüklüyüllər, düşüllər yola. Gedillər, gedillər yolun bir aləmində eşşəh yorulur. Eşşəyin yükünü də açıp dəviyə yüklüyüllər, eşşəyin özünü də yüklüyüllər dəviyə. Bir az gedənnən sora dəvə lap əldən düşür. Bir az da gedənnən sora gəlip çıxıllar bir yoxuşa. Bı yoxuşa çıxanda dəvə deyir:

– Oynamağım gəlir.

Eşşəh deyir:

– Dəvə qardaş, gəl sən belə eləmə. Dağın başına çıxmışıx. Məni burdan salarsan yerə, mən ölərəm. Bəs elə şey olar?

Dəvə deyir:

– Sən mənim sözümə qulağ asmadın. Belimizin yağırı güjnən düzəlmişdi, indi-indi əmələ gəlmişdih. Sana dedim anqırma, xoruza dedim bannama. Siz məni eşitmədiz, indi də mən səni eşitmiyəcəm – belə deyir. Dəvə başdıyır oynamağa. Dəvə oynuyanda eşşəh dəvənin belinnən düşür tapbıltıynan, ölür.

O yedi, yerə keşdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü. Biri sənin, biri mənim, biri də gendə durup "isdəmirəm" deyənin.

## 40. TÜLKÜ, TISBAĞA VƏ DƏVƏ

Biri varımış, biri yoxumuş, bir tısbağa, bir tülkü, bir də bir dəvə varımış. Günnərin bir günündə bunnar yolnan gedirmişdər. Qabaxlarına böyüh bir könbə çıxır. Könbəni görəndə, tülkü həmişə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bij olur, isdiyir bir bijdih işdətsin, bu könbəni təhcə yesin. Deyir ki, gəlin görəh yaşda kim çox böyühdü, könbəni o yesin. Razılaşdılar.

Tülkü deyir ki, Nuhu taxtda görmüşəm, Şah İsmayılı qundaxda. Elə həmin tülküyəm ki, dururam. Tısbağa da deyir ki, Nuhun gəmisi dəryada qərğ olanda elə belə tısbağeydim, elə həmin tısbağayam ki, dururam. Dəvə baxıp görür kü, iki böyüh tarixi irəqəm varıdı, ikisini də bınnar dedi. Əyilir könbəni götürür. Göydə gəvəliyip yeyə-yeyə deyir: "Onda belə çıxır ki, dəvə qardaşınız o vaxt uşağıymış".

## 41. TÜLKÜ VƏ CANAVAR

Bir tülkü varmış, bu acınnan ölürmüş. Bir gün yolun qırağında uzanır, görür yolnan toy gəlir. Deyir:

– Özümü vuracam ölülüyə, qoy toy yiyəsi gəlsin məni aparsın, toyda bağırsağdan-zaddan yeyim da. Acınnan tay nəfəsim kəsilif.

Toy atdısı gəlir. Bınnan əzəli toyu atnan eliyirdilər. Görüllər tülkü uzanıf yolun qırağında. O bir təpik vurur: – “A kopolunun tülküsü”. Bu bir təpik vırır: – “A kopolunun tülküsü”. Deyillər ki, bını atın gəlinin tərkinə, aparax orda dərisini soyax, leşini atax əyənə. Atıllar gəlinin tərkinə, yol uzundu, gedillər. Yolda birdən gəlin əldən qoyur. Tülkü deyir ki, indi hamıya yayacam. Gəlin deyir ki, tülkü baba, amanın günüdü, heç kəsə demə.

Deyir:

– Maa nə verəssən?

Gəlindi də, üsdündə pulu, qızılı, mıncığı, sırğası, üzüyü. Gəlin deyir:

– Bax, bu boynumdakı boyunbağını verəcəm saa, amma heç kəsə demə.

Deyir:

– Yaxşı.

Bir az gedənnən sora deyir:

– Tez ol ver, yoxsa deyəcəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlajı kəsilir, biyabır olmamax üçün boyunbağını açır verir bına. Allah bilir neçə min manatdıx imiş. Bı atdan hopbanır düşür, yenə də deyir:

– Cırt, gəlin o….du.

Gəlin də biyabır olur, bu da çıxır gedir. Gedir, qabağına bir canavar çıxır. Canavar görür kü, tülkü mıncıx asıf boynunnan. Deyir:

–A tülkü qardaş, onu hardan almısan?

Deyir:

– Getmişəm, elə bil qırx gün, qırx gecə quyruğumu qoymuşam Qaramanın qara gölünə, – qara göldə lıkka oluf, camışdar gedif orda yatırdı, – torpaxlı gölə.

Deyir:

– Onda mən də gedim qoyum, mənim də mıncığım olsun.

Deyir:

– Get qoy.

Canavar gəlir quyruğunu qırx gün qoyur o Qaramana. Qırxıncı günü çəkəndə quyruğu qopur qalır orda. Deyir:

– Kopolunun tülküsü, tapsam səni öldürəcəm. Sən mənim başıma nə oyun aşdın?

Görür, tülkü gəlir. Deyir:

– Ay tülkü qardaş, bı nə işdi başıma gətdin?

Deyir:

– Sən düz eləməmisən, ona görə belədi.

Görür tülkü çarıx toxuyur. Canavar deyir ki, onda əlaş yoxdu, o carıx tikməhdən maa da örgət.

Deyir:

– Onnan hasant nə var? Dili qoy daşın üsdünə, bı bizi mən vırım dila, onnan da örgənəssən.

Canavar dilini çıxardır qoyur böyük bir sal daşın üsdünə. Bı da mismarı, bizi vırır. Bunun dili qalır bizdə, bı qaçır. Tülkü gənə də bını alladır. Dili də qopur, quyruğu da qopur. Gəlir deyir ki, kopolunun tülküsü, maa cəvaran hörməsən bu səfər səni öldürəcəm. Gəlir görür ki, tülkü səbət toxuyur. Deyir:

– A kopolunun tülküsü, sən mənim başıma bu oyunu aşdın?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Sən düz eləməmisən. Mən saa qaydasını dedim.

Deyir:

– Onda cəhənnəm olsun, səbət toxumaxdan maa da örgət.

Səbəti də o vaxdar hörürdülər adam boyda, içinə tavlanın gərməsini yığırdılar. Deyir:

– Onda gəl gir səbətin içinə. Mən toxuyum qutarım, sən örgən.

Canavarı salır səbətin içinə. Toxuyur, toxuyur, səbətin altını qəyirir. Sora çəvirillər bı biri üsdə, ağzını düzəldir. Beləcə ağzını da bağlıyır, canavarı qoyur səbətin içində. Üsdünnən də mal p…nu yığır, guya bal səbətidi. Alır çiyninə. – Sözə bax ey, tülkü canavarlı çiyninə ala bilər? – Deyir:

– Ay bal alan, ay bal alan.

Tülkü görür ki, bir çoban qoyun otarır.

– Salam-məleyküm.

– Əleyki-salam.

Deyir:

– Bı baldı, mən satıram.

Deyir:

– Neçiyə verərsən?

Deyir ki, üş-dört qoyuna verərəm. Bı da deyir:

– Onda üş-dört qoyun yox, elə iki qoyun verim, bir də bir toğlu verim, bını ver maa.

Deyir:

– Nə deyirəm.

İki toğlu, bir qoyun verir, səbəti alıf aparır. Canavarı da aparıf qoyullar tavlıya. Əv yiyəsinin qardaşı gəlmişmiş bura. Uşağa deyir ki, bala, get ordan bir az bal çıxart gətir, dayın yesin. Qız gedir əlini salır səbətin içinə, görür kü, əlini nəysə cırmaxladı, həm də əli üzdən irax, p..a bılaşıf. Gəlir beyir ki, bəs, nənə, hal-qəziyə belə? Arvad deyir ki, sən başarmırsan. Gedir özü. Özü də görür həqqi belədi. Sora axşam əri gəlir. Deyir ki, belə, sən allanmısan. Kişi gedif açır, canavar da çıxıf gedir. Canavar bu səfər deyir ki, gedif bı səfər tülkünün dərsini gərəh verəm. Gedir tülkünün yanına. Tülkü buna deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Maa dərs-zad vermə, səni satdım, verdim bıdaha, iki qoyun, bir toğlu aldım. Bulları bəsdəmişəm, kəsəh, yığah küpələrə, aparax bir yerdə basdırax. Qışda bını bala-bala yeyəh.

Deyir:

– Ta əlaş yoxdu, neyniyəh?

Belə edillər, kəsillər, qavırıllar, yığıllar bir dənə küpəyə, aparıf bir uzax yerdə basdırıllar. Qış müddəti gələndə, bı ikisi bir yerdə qalır, tülkü çıxır:

– Hey, hey.

– Nədi, nə isdiyirsən? Hə, gəlirəm.

Gələndə canavar deyir:

– O nə idi?

Deyir:

– Bacımın qızı yatır, naxoşdu, uşax gətirəjəh. Məni ora çağırıllar.

Deyir:

– Onda get.

Gedir, qəşəh küpənin üsdünü eşir, yeyir gətirir qulpuna. Üsdünü genə basdırır, gəlir əvə. Canavar deyir:

– Noldu?

Deyir:

– Hə dana, bacımın qızı yatdı, qızı oldu, yaxşıdı.

Deyir:

– Adını nə qoydunuz?

Deyir:

– Qoydux Qulpunaz.

On günnən sora qalır, bir də çıxır:

– Hey, hey.

– Nədi?

– Qardaşımın qızı naxoşdu, gedirəm onun yanına.

Hə, gedir, genə küpəni açır, yeyir, gətirir küpənin ortasına, göbəyinə. Gəlir əvə.

– Hə noldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaşımın qızı bir uşax dünyaya gətdi. Adını qoydux Göbəhnaz.

Hə, bir də gedir yekunnaşdırır, hamısını yeyir. Gəlir, bına deer ki, hə, uşax oldu, onun da adını qoydux Qurtunaz. Bılar belə bir müddət bir yerdə yaşıyıllar.

Bir gün bı bij tülkü deyir ki, gedəh o ətin üsdünü açax yeyəh. Gedif açıllar ətin üsdün, görüllər ət nə gəzir, boş küpədi. Canavar bına deyir ki, bı sənin əməlindi. Tülkü də bına deyir ki, bı, sənin əməlindi. O deyir sən yemisən, bı deyir sən yemisən. Beləlihnən bı nağıl da bırda başa çatdı.

## 42. CANAVAR, QOYUN VƏ AT

Bir canavar ajımış. Bir qoyun gəlif yanına. Qoyuna deyif:

– Hə, yaxşı oldu, mən səni yəəjəm.

Qoyun deyif:

– Hə, bilirəm yəəsən. Qoy bir oyunum var, onu oynuyum sora yenən.

Hə, bir belə gedif, bir belə gedif. Qəfildən qoyun sıçrıyıf qaçıf. Qoyun qaçıf, canavar qovuf. Qoyun gedif çovana iras gəlif. Tay canavar gedə bilmiyif. Qayıdıf gəlif, görüf ki, bir at var yolda. Deyif, elə bu atı yəərəm. At deyif, bilirəm yəərsən, dal əyağımda şakalad var, qavaxcan get onu yenən, onnan sora gəl məni yenən. Axı atın da əyağına nal vırıllar. Elə addıyanda canavar onun ağzının üsdünnən təpiynən vurur. Canavarın ağzı para-para olur. İndi canavar yıxılıf yerə, deyir ki:

Getdin gördün qoyun,
Ye qalsın quru boyun,
Neynirsən oyun-moyun.
Getdin gördün at,
Ye, yanında yat.
Neynirsən şakalat-makalat?

Bu da belə gedir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 43. KİM ÇOX OT YEYƏR?

Atnan qoyun spor eliyif. At deyif mən çox yeyərəm, qoyun deyif mən yeyərəm. At deyif:

– Sənin nə boyun var? Bu boyda boyun var, mənnən çox yeyə bilməzsən.

Deyif:

– Yeyərəm.

At da çox yeyər. İntaası qoyun fırıldaxdı da. At otu yeyif, yeyif, yeyif, qoyun da bunun böyründə yeyif. Qoyun elə qığlıyır ki, görünmür. Quyrux qaldırmır, bir şey eləmir. Yedihcə quyruğunun altınnan az-az buraxır. At deyif ki, nağarırsan? Deyir:

– Hələ mən az yemişəm.

Yazıx at orda partdıyıf ölüf, amma qoyun yeyə-yeyə gedif.

## 44. ƏYRİ TUT AĞACI

Bir kişi varmış, üç qızı varmış. Oğlu-zadı yoxmuş. Bı gedif işdiyif gələndə deyif:

– Ay bala, dilim aazımda yanır, qaş get su gətir.

Deyir, bıların da çeşmələrində bir dənə ağaş var, əyri tutdu. Qız gələr bı tutun divində oturar, dədəsinə su aparan qız, ağlıyar ki, mən yekələcəm, ərə gedəcəm, bir qızım olacax, gəlif bı tutdan yeyif, yıxılıf öləcək. Bı bırda qalır. Kişi gözdüyür, gözdüyür, qız gəlmir axı. O biri qıza deyir:

– A yanasan, get gör bacın nooldu? Mənim axı dilim ağzımda yanır. Əvdə bir qaşıx su yoxdu içəm.

Gəlif deyir:

– A bacı, dədəm susuzduxdan ölür. Sən niyə gəlmirsən?

Deyir:

– Baxtavər başaa, mən yekələcəm, ərə gedəcəm, bir qızım olacax, gəlif bı tutdan yeef yıxılıf öləcəh.

Bı da bırda oturur ağlıyır, əvlərinə getmir. Axrıncı qız gəlir. Gəlir deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bacı, zəlil qalasız. Bax, niyə gəlmirsız, atam susuzduxdan ölür.

Deyir:

– Əşi, sən Allah, sən də maa kef vermə. Mən gedəcəm ərə, qızım olacax, gəlif bı tutdan yeyəcəh, yıxılıf öləcəh.

Bu da belə getdi. Kişi gözdüyür, bı qız da gəlmir. Üçü də qalır çeşmədə. Arvat gəlir. Deyir:

– A yanasız, noluf sizə ağlaşma qurmusuz? Axı kişi susuzdan ölür, əvdə su yoxdu.

Deyir:

– Ay nənə, nə var ki ey saa. Mən gedəcəm ərə, qızım olacax, gəlif bı tutdan yeyəcəh, yıxılıf öləcəh.

Avamçılığa bax ey! Arvat da yapışır qalır bırda. Kişi gəlir. Gəlir görür, üş qız, bir də arvat ağlıyıllar. Gəlir bir doyuncan su içir kişi. Susuyuf axı. Deyir:

– Niyə gəlmirsiz?

Deyir:

– Ata, nə var ki, ey sana. Sənin qızdarın oluf, salamatdı. Mən gedəcəm ərə, qızım olacax, bıdaha əyridi bı tut. Çıxacax bı əyri tutdan yeyəcəh, yıxılıf öləcəh.

Kişi sakkalını yola-yola gəlir. Bircə dənə erkəh danaları varmış. Heş qızı ərə də getmiyif ey. Qızının qızına ehsan verir.

## 45. SİÇAN QOZ OĞURLAMAĞA GEDİR

Bir siçan yol gedirmiş. Qabağına bir toxmax çıxır. Deyir:

– Hara gedirsən?

Deyir:

– Gedirəm babamgildən qoz oğurramağa.

Gedir, gedir, qavağına bir qıyıx çıxır. Deyir:

– Hara gedirsən?

Deyir:

– Gedirəm babamgildən qoz oğurramağa.

Gedir, gedir, qavağına bir xoruz çıxır. Xoruz deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Siçan, hara gedirsən?

Deyif:

– Gedirəm babamgildən qoz oğurramağa.

Az gedillər, üz gedillər, dərə-təpə düz gedillər, çatıllar babasıgilə. Xoruza deyir:

– Sən ojağın başında ol, onnar tərpənəndə atıl, gözdərinə kül töh.

Qıyığa deyir:

– Tərpənəndə yanına batginan.

Toxmağı da asır qapının ağzınnan. Deyir:

– Çıxanda başdarına dəyginən çıxa bilməsinnər.

Xülasey ki, belə... – Siçanı yansın, bir qoz götürəjəh dayna. – Siçan gedir heylə qurğunu qurur. Bir qoz oğurruyur, götürüf qaçır. Qoyma ha qoyma, qoyma ha qoyma. Heylə kişi qalxanda xoruz gözdərini tökür, toxmax başdarını yarır, qıyıx yanına batır. Xulasey ki, bı da bir qoz götürüf qayıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VI
# LƏTİFƏLƏR

## MOLLA NƏSRƏDDİN HAQQINDA

### 1. BİR YANA ÇIXARIQ

Mollanın bir inəyi varmış, çıxardır satmağa. Bı dəllallar yığışır, deyillər:

– Molla əmi, bı keçini neçiyə verirsən?

Deyir:

– Ay oğul, bı keçi dəəl, inəhdi.

O biri dəllal gəlir. Deyir:

– Molla əmi, bı çəpişi neçiyə verirsən?

Deyir:

– A bala, bı çəpiş dəəl e, inəhdi.

Molla gördü ki, müftə yerə inəh əlinnən çıxajax, çəpiş qıymatına inəyi satır. İndi gəlir əvə. O gün də əvinə qaymax satan gəlmişimiş. Arvat qaymax alır, qaymax ağır olmaxdan ötəri, qızıl qol bilərziyi varmış, açır qoyur tərəzinin daş olan gözünə ki, qaymağı ağır çəhsin dayna. O da qaymağ alır. Qaymax satan da tərəzini də, bilərziyi də götürür, qoyur heyvəsinə. İndi molla əvə gəlir. Arvat deyir:

– A kişi, neynədin?

Deyir:

– Ay arvat, neyniyəjəm, inəyi çəpiş qıymatına satdım gəldim.

Deyir:

– Ay kişi, mən də bilərziyimi qoydum qaymax satanın tərəzisinin üsdə. Qaymax satan da bilərziyimi götdü getdi.

Molla deyir:

– Ay arvad, əvdən sən belə qazansan, çöldən də mən, bir yana çıxarıx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 2. EŞŞƏK ELƏ SƏNİN EŞŞƏYİNDİ

Molla bir gün gedir dəyirmana, dən üyütməyə dayna. Arvadı da deyir ki, a kişi, huşumnan çıxıf, dəni savırmamışam. Dəyirmançıdan palaz al, dəyirmanın qavağında dəni savır, sora töh təhniyə. Zibilli töhmə da bir söznən. Deyif ki, yaxşı.

Duruf molla gedir. Bı arvadın dediyi söz huşunnan çıxır. Dəni üyüdür. Bir qara ulağı varmış. Gəlir bir yelli təpədə arvadın sözü yadına düşür. Deyir:

– Arvad maa demişdi ki, dəni savırıf töhsün.

Bırda açır, unu savırır. Eşşəh də alt tərəfdə durufmuş, eşşəh olur ağappax. Durur əyağa, deyir:

– Ə, bı məəm eşşəyim dəyil. Eşşəh hardan gəldi çıxdı bıraya.

Gəlir deyir:

– Ay arvad, bəs belə.

Deyir:

– Başın batmasın, unu savırmısan, eşşəyi ağartmısan. Eşşəh elə sənin eşşayındı.

## 3. APAR ULAĞI SUVAR

Molla arvadınnan şərt kəsir. Kim qavaxcan dillənsə ulağı aparıf suarıf gətirəjəh çaydan. Arvad qismi bir az dilavar olur dayna. Özünü saxlıya bilmir, durur gedir qonşuya. Qonşu gətirir xörəh bişirir. Deyir:

– Bajı, sən Allah, o molla tərs adamdı – ərini deyir e, – ajdı, bir az bı şorbadan verəh o uşağa, aparsın versin ona.

Bı şorbadan yığır. Uşax götürür gəlir. Deyir:

– Molla əmi, saa şorva gətirmişəm, ala ye.

Molla belə başını hərriyir, uşax başa düşmür. Nəysə, bir də hərriyir. Uşax elə başa düşür ki, molla deyir gəti töh başıma. Horranı tökür mollanın başına. Mollanın üz-gözü tamam horra olur. Uşağ gülə-gülə gedir əvə. Arvada xəvər verir ki, bəs apardım şorbanı, molla əmi dedi töh başıma, töhdüm başına, gəldim. Tez arvad durur özünü salır əvə. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A kişi, bı nə hax-hesafdı?

Deyir:

– Hələ apar ulağı suvar, sora gəl nağıl eliyim.

### 4. ÖLÜ HALVA YEYƏR?

Bir gün Molla Nəsrəddin özünü ölülüyə qoyur. Deyir qoy görək, ölmək nətəri olur.

Camaat yığışıb, Molla Nəsrəddini aparıllar qəbirsannığa ki, basdırsınnar. Görürlər ki, yox Molla ölməyib. Yalannan özünü ölülüyə qoyub, eləcə uzanıb. Deyillər ki, bunu burda qoymax olmaz. Mollanı qaytarıb evə gətirillər. Onu yerə uzadıllar. Bu zaman da, Mollanın arvadı qəşəh halva çalmışıymış. Halvanı qoyur Mollanın böyrünə. Molla gözünün ucuynan halvaya baxır. Xəlvətcə əlini uzadıf bir ovuc halva götürüf yeyir. Bunu görən oğlu qışqırır:

– Ana, ana! Atam əlini uzadıb halva götürdü.

Ana, oğluna deyir ki, kəs, səsini. Atan ayıx oldu halva yemədi, olü halında halva yeyəcək?

## BƏHLUL DANƏNDƏ HAQQINDA

### 5. EŞŞƏK, SƏNƏ DEYİRƏM, QONAQ, SƏN EŞİT

Bağdadın xəlifəsi Bahlul Danəndənin qardaşı idi. Hər yerdən padşaha qonax gəlir da, böyüh adamdı. Bu Bahlul Danəndəni də çağırıllar. Padşah deyir ki, bu qardaşım məni hər yerdə biyabır eliyir. İndi qərara gəlir ki, Bahlul Danəndəni aparıf azdıra. Götürür gedir bir şəhərə. Gejə bulax üsdə düşüf çay-çörəh yeyillər. Bağdadi Xəlifə yatır. Yatanda Bahlul Danəndə cildən biçir bu ata qırx metr hörüh düzəldir. Hərəsinin bir atı var dayna. Bahlul Danəndə qarqu atı var, onu minir. Adi at dəyil onunki.

Padşah ayılanda görür ki, Bahlul Danəndə qırx metr boyunda sijim hörüb. Deyir:

– Bunu neynirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, atımızı hörühlüyəjeyih, gəl mənim atımı minək. Padşah sözünü salmır da yerə. Deyir, onsuz da aparıram uzaxda azdıram. Qoy elə sözünnən çıxmıyım.

Burda Bahlul Danəndə deyir ki, ilahi, bu atı saa qırx günnüh zamın verrəm. Deyir:

– Padşahım, gəl, sən də məəm atımın tərkinə min.

Minir, qarqu ata bir şallax, qarqu qalxur göyə. Uçur, gedir düz şəhərin qulağında düşür yerə. Görür bir qoja kişi var yüz yaşında.

– Salam-məleyküm.

– Əleyküm-salam.

Bağdad Xəlifə padşah deyir ki, qoja, de görüm, Bağdad Xəlifə adında padşah eşidifsən?

Deyir:

– Xeyr oğul, eşitməmişəm, amma məəm bir qardaşım var, yüz iyirmi yaşı var, get onnan soruş. Bəlkə o, eşitmiş olar.

Gedir onnan da xəbər alır. – Bını kəsə derəm. – O da deyir ki, yox, eşitməmişəm. Padşah deyir:

– Ayə, bu dəli məni hara gətdi saldı. Mənim kimi addı-sannı padşahın adı gəlif bu şəərə çatmıyıf.

Qoja deyir ki, mənim yüz əlli yaşında bir qardaşım var, şəhərin o biri tərəfində yaşıyır, gedin onnan xəvər alın.

Gedillər onnan xəvər alanda deyir:

– Hə, oğul, eşitmişəm. Onun da Bahlul Danəndə adında bir qardaşı var. Hər cuma gəlir məscitdə əzan çağırır, hər cumadan cumaya. Ordan yığılan pulları şilə, kora-zada paylıyır, çıxır gedir. Hər cuma gəlir.

Padşah sevinir. Deyir:

– Allah saa şükür, Allah saa şükür.

Görür cuma günü qardaşı gəldi, şəhər əhli hamısı məscidə gedir. Camaat tökülür gedir. Bı əzan çəkir. Şah bir cuma gəlir, iki cuma gəlir, üçüncü gejə padşah ağlıyır. Deyir:

– Amanın bir günüdü, məni apar, qardaş, qoyma qalam.

İkinci cuma da ağlıyanda deyir:

– Hələ vaxda var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çıxardır üş maat buna verir. Deyir:

– Xaşdığın yoxsa, ala xaşda.

Üçüncü gün, dördüncü gün çıxanda mını da götürür, qardaşını götürüf gəlir. Gəlif görüllər ki, at o qədər yeyif, kökəlif. Allaha zamın verif da. Heş bı tapır yerrəşmir ki, yəhəri bərkidə. Birtəər bərkidir. Qarqı atını özü minir, padşah da öz atını, gəlif çıxıllar şəhərə. İndi hər məclisə Bahlul Danəndəni çağırırmış.

Bir gün Bahlul Danəndənin bir qonağı gəlir. Padşah adam göndərir, get Bahlul Danəndəni çağır. Bahlul həmin adama deyir ki, get padşaha dennən ki, Bahlulun qonağı var, gələmmijəh.

Deyir:

– Get denən qonağını da götsün gəlsin.

Qonağa deyir ki, gedirik, qonax qardaş, dindisələr din, dindiməsələr dinmə. Məclisə girəndə yerii bil – harda oturmağı, harda durmağı.

Girillər içəri, qonax gedif başda oturanda Bahlul Danəndə deyir:

– Ə, bu kişi işi indidən korradı.

Yeyif içənnən sora aralığa qarpız gəlir, qovun gəlir dana. Bu deyir kimin pıçağı var, o deyir kimin pıçağı var. Bı qonğın da qızıl saflı pıçağı varmış. Çıxardır deyir ki, padşah, pıçax məndə. Gətirir qavını-qarpızı kəsir. Padşah deyir ki, filan vaxtı məəm xəzinəmi yarıflar, bu pıçax mənim xəznəmdə idi. Onu oğrular aparıf. Bahlul Danəndəyə deyir ki, bunu qonağa deyirsən de, demirsən səni dar ağajına çəhdirəjəh. Bahlul Danəndə dəli olur. Deyir:

– Qardaş, bı gejəliyə qonağı maa təhfil ver, savah gətirim, boynunu da vır, başını da kəs, özün bilərsən, məsləhət sənindi.

Deyir ki, aparıf örgədəssən. Deyir ki, babamızın çıkkası hakqı, örgətmiyəjəm. Deyir:

– Yaxşı, apar.

Aparır. Bahlul Danəndənin qanı qaradı. Bir az aradan keçəndə durur əyağa. Axı, qardaşına söz verif ki, örgətmiyəjəm daha. Durur bir ulağı varmış pəyədə, bir ağaş alır əlinə. Qonağı da dümsühlüyür, amma dindirmir, danışdırmır. Eşşəyin qulağınnan tutur, eşşəyə bir ağaş. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ey eşşəh, qulağı aç, yaxşı eşit. Mən səhər səni aparajam padşaha təhvil verməyə. Padşah səni dar ağajına çəhdirəndə sənnən söz soruşajah, pıçax məsələsini. Soruşsa dəərsən ki, mənim atamın böyüh zəmisi vardı, eşşəyə bir ağaş, o zəmini gejə gedif suaranda quldurrar gəlif atamı öldürüf, bu qızıl saflı pıçağı da atamın ürəyinə sancıf gediflər. İndi bu pıçağı mən civimə qoyuf hər məclisdə çıxardıram ki, görüm mənim atamın düşmanı kimdi, – deyif eşşəyə bir ağaş vurur.

Səhər qonağı götürür gedir. Padşah bına deyir ki, indi de görüm, axır sözün nədi, səni dar ağajına çəhdirrəm. Deyir:

– Padşahı-aləm sağ olsun, icazə ver deyim. Mənim atamın çoxlu zəmisi vardı. Zəmini gejə aydınnıxda suaranda onun düşmanı vardı, gəlif atamı öldürüf bu pıçağı da sancıb ürəyinin başına gedif. Mən də bu pıçağı civimə qoyuf hər məclisdə çıxardıram ki, görüm kim yiyə dursa, deməh atamın düşmanı odu. Görünür ki, atamın düşmanı sənsən.

Şah hirsdənir, deyir:

– Məni düşman elədin?

Bına bir şapalax vurur. Deyir ki, bını götürün gedin, məni düşman tutur.

Bu nağıl da bırda bitir.

## 6. DƏRYADAN ÇIXAN ƏL

### I mətn

Dəryadan bir əl çıxıf. Şah Abbas əmr eliyir ox atıllar, top-tüfəh atıllar, əl çəkilmir. Bəhlulu Danəndəni çağırıllar. Bəhlul Danəndə üç barmağını gösdərif, əl çəkilif. Şah Abbas onnan soruşuf ki, sən nə dedin əl çəkildi.

Deyir:

– Dəryadan çıxan əl deyir ki, dünya beş gündü. Mən də üç barmağımı göstərdim ki, üç gündü. Biri doğulduğun gündü, biri öldüyün gündü. Qalır bir günü. Get yaxşılıx elə. Mən heylə dedim, o getdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Deyir Qayım Salavatıllağın əli dəryadan çıxırmış. Bunu yay-oxnan atıllar, əl çəkilmir. Bir oxumuş deyir ki, mən onu çəkərəm. O, Qayım Salavatıllaxdı. Zöhr eliyif çıxır ki, beş adamın sözü birdisə, çıxım içizə. Bu da barmağının ikisini gösdərif deyir:

– Allah evini tiksin, sən beşini deyirsən, heç ikisinin sözü bir yerə düşmür. Onnan əl çəkilir.

## 7. BƏHLUL EVLƏNMƏK İSTƏMİR

Bəhlulnan Xəlifə qardaşmış. Bir günnəri deyir ki, gəlginən Bəhlulu evləndirəh. Deyir ki, Bəhlul, o qızı alajam sənə. Qarğını minir gedir, qulağını diriyir qızın qarnına. Bir az durur, durur. Qarğıya bir qamçı vurur, qaçır. Deyir:

– Ə, niyə heylə elədin?

Deyir:

– Ə, sizin xəbəriniz yoxdu ey. Qızın qarnında vəlvələ var. Biri çörək isdiyir, biri paltar isdiyir, biri ayakqabı isdiyir. Mən bunun hansını çatdırajam.

## 8. ÖZLƏRİ ÖZ ƏMƏLLƏRİNƏ TUŞ OLDU

Bəhlul Danəndəni o qədər gözü götürməyən olur ki... Bir dənə qadın isdiyir ki, Bəhlul Danəndəni zəhərriyə. Qadını da örgədillər e. Yanı götürək aradan Bəhlul Danəndəni də. Hər şeyi bilirmiş. Arvat gətirir şirin çörək pişirir. Bir dənəsini ayrı yoğurur. İçinə şirni də qatır, zəhər də qatır ki, dağılanda bilməsin də bu nədi. Gətirir. Bəhlul Danəndə harasa getmiş imiş. Gəlir görür ki, Bəhlul Danəndənin qapısı açıxdı. Sırfanı salır ora. Fətir imiş e, qəşəh, bəzəkli. Qoyur ora ki, Bəhlul Danəndə gələndə bunu yesin, o ölsün. Heş bilməsinnər ki, Bəhlul Danəndəni kim öldürdü. Təsadüfən Bəhlul Danəndə hasısa səfərdən bura gejikir. Üş nəfər adam gəlif Bəhlul Danəndənin evinin qavağınnan keçəndə görür ki, qəşəh ağ sırfa salınıf, üsdə bir qəşəh isdi fətir var. Tamahları gəlif deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəhlul Danəndə bizə nağarajax? Ajınnan yol gedə bilmirik. Gedək onu yeyək.

Gedif bular üçü də yeyillər. Aradan az keçmiş üçü də ölür. Zəhər güjdüymüş. Hay salıllar ki, Bəhlul Danəndənin qapısında kimsə fətir, çörək yiyif ölüf. Camaat tökülür, Bəhlul Danəndə də gəlir. Biri arvadın oğluymuş, biri əri, biri də qardaşı. Bəhlul Danəndə deyir ki, bu plan maa qurulmuşdu. Maa sataşan xeyir aparmaz. Gör Allah-tala nə təhər eliyif ki, mən səfərdən gej gəldim. Öz elədikləri əmələ özdəri tuş oldu.

## ABDAL QASIM HAQQINDA

### 9. QOYUNLAR MÜSEYİBİN PƏYƏSİNDƏ OLACAQ

Avdal Qasım ermənінin səkgiz, dokquz heyvanını oğurruyuf gətirif. Bilirmiş ki, səhər heyvanın irəddini tutuf bının arxasınca gələjəhlər, öz töölәsinə yox, Museyif varmış, mollaymış yazıx, aparıf onun töölәsinə salırmış, ağzını da bağlıyırmış. Yayın günüdü dana, daa töölәdən istifadə eləmir ha yazıx kişi, molla adamdı. Ermənilər heyvanın irəddinnən gəliflər. Deyiflər:

– Qasım, heyvanın irəddərini gətirmişih, bı kəndə girif, bı kəntdə də sənnən başqa oğru yoxdu. Heyvanı gətir, gedəh.

Məçid qavağına yığışıfmış camahat. Deyir:

– Ay erməni, bax, o Allahın evi məçid haqqı, o məəm pəyəmdə döyül, Müseyibin pəyəsində olajax. Gedin Müseyibin pəyəsinnən çıxardın heyvanızı, aparın.

Erməni deyirmiş ki, elə bizim birjə inandığımız Museyifdi, o oğurrux eləməz. Allah saa lənət eləsin. Ermənilər çıxıf gedənnən sora deyirmişdər ki, Qasım, niyə helə ant içirsən? Ayıf döyül, Müseyif axı ağsakqal kişidi, oğru döyül. Deyirmiş ki, gözdüyün. Gedif pəyəni açıf Müseyifin pəyəsinnən heyvannarı çıxardırmış, deyirmiş:

– Ay camahat, bı Müseyifin pəyəsi döyül?

Sora həmən Müseyifin qızını Qasımın oğlu alıfdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 10. MӘN BU VAXTA QALAN DÖYÜLDÜM

Gedirmiş ermәninin qavağını kәsirmiş, hara getsә, әlindә nә varsa alırmış. Bir gün böyüh qardaşı deyir ki, ә, yekә kişisәn, sәn dә camahat kimi zәhmәtә qatdaş, әh-biş, nә qәdәr sәn bı ermәnini soyuf kәsif dolanassan. Qasım gejә durur hazırraşır ki, getsin. Mına tәpinir ki, ә, yat yerindә. Yazıx namaz qılan, oruş tutan bir kişiydi onun böyüh qardaşı. Bir dәfә, iki dәfә ona tәpinir ki, yat yerindә. Ta süph namazı vaxdı fikirrәşir ki, innәn belә heş hara getmәz dә. Namazı qılır, arxeyin yatır ki, ta savaxdı, gedә bilmәz. Qasım durur gәnә gedir. Bizdә Qaradaş bağları deyillәr, kәtdәn bir әz aralıdı. Ermәni dә gözdüyür, tezdәn gedir ki, soyulmasın. Ermәninin qavağını kәsir, onun yükünü alır әlinnәn. Deyir ki, ay Qasım, vallah, savah deyini adam soymazdar.

Deyir:

– Ә, bilirәm, vallah, mәn bı vaxda qalan oğul döyüldüm, mәni bı vaxda Calal qoydu. Axşamnan işimi görüf indi çıxıf getmişdim.

## 11. BӘY KİMİ YAL YALAYIR

Bilmirәm, o hansı bәy oluv e, gәlir. Qasım çöldә odun yarırmış, qışın günüdü dә. Odun indi qaz döyül ki, ispişqanı çәkif atasan. Odundu, yarır ki, yandırmağa. Bu tәrәfdә dә itә yal pişirif qoyuflar, it yal yalıyır. Bәy gәlif belә keçir, Qasıma da sataşır. Deyir ki, ә, bu kәtçinin dә, bu rәiyәtin dә günü itin günüdü. Deyir:

– Ay bәy, itә nә var, dee, it orda bәy kimi yal yalıyır. Mәәm fikrimi çәh, vay mәәm halıma.

Hәddinnәn artıx hazırcavabıydı.

## 12. QASIMIN ANDI

Deyir, ermәninin bir cöngәsi olufdu, bına gözü düşüfdü, bını yemәh lazımdı. Nәtәәr elәsin? Ermәninin dә bir yava iti var, açır, boşduyur hayata, bu itin әlinnәn hayata girmәk mümkün döyül.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fikirrəşir ki, neyliyim ə, bını yeməh lazımdı axı, iki illih cöngədi. Ağac olur yaxınnıxda, elə bil, hasarın böyründə də. Bir dənə heyvan kəsir, çıxır ağaca. Deyir ki, bir dənə qoyunun para şakqasın bına qurban verməh olar, qoyur səbətin içinə, böyüh tayça deyillər, səbəti də ağaşdan sallıyır. İt gəlir tayçaan içinə, ətə, iyinə gəlir da. Girən kimi çəkir kəndirnən, yuxarıdan bağlıyır, it qalır göydə. Tullanası döyül ki. Arxayın tüşür ordan, qapının bağını açır, cöngəən açır, götürür, gedir. Ev yəəsi bilir ki, bını anjax Qasım eliyə bilər. İndi durur gəlir Qasımın üsdünə. Qasım artıx bını kəsip, ət də yeyildi ortalıxda. Gəlif deyir ki, Qasım, mənim heyvanımı sən oğurramısan. Deyir ki, ə kişi, mənnən nə işin? Deyir ki, yox, məəm cöngəmi sən oğurramısan, örkən bırda, kəndirrər, əti bırda. Heylə döyülsə, onda and içəssən. Deyir ki, and içim də:

And içim,
Arpa biçim,
Bu çulu, bu örkəni,
Cızıldar ojaxda yağı cöngənin.

Kabap pişirillər orda. Deyir:

– Yox e, bu and olmadı, gedəh məçitdə and iç.

Gəlir məçidin qavağına. Deyir ki, ay Allahın öyü məçit, əgər mən bu erməninin cöngəsini oğurramışam, oğurramışam, oğurramamışamsa, sən onun tufağını dağıt.

Deyir:

– Qasım, gəl gedəh bı yana, məçidə, anda toxunma.

Deməli, oğurrasam da mıa qənim olsun, oğurramasam da.

## 13. NƏ BİLİM SƏNİN AĞAN QAMIŞLIQDA GİZLƏNİB?

Bir dəfə Qasım Zərdava gedif faytonnan. Orda hardasa bataxlıx yerdi, fayton batır. Nə illah eliyir, çiynini verir, ya Əli, ya Əli, köməh elə, at da batır, dartıf çıxarda bilmir. Sünnünün biri gəlir, zərdaflılar sünnüdü axı. Deyir ki, indi bəyaxdan sən ağanı çağırırsan, köməh eləmədi, indi mən ağamı çağırajam, köməh eləsin. Bı faytona çiynini verir, deyir:

– Hı, ya Ömər, köməh elə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qamışdıxdan qavan çıxır, xortulduyur, at hürküf dartıf fayto-nu çıxarıf. Deyir:

– Göörsən, məəm ağam köməh elədi.

Deyir:

– Ə, mən nə bilim səən ağan gəlif qamışdıxda gizdənif.

## 14. BU MƏNİM EŞŞƏYİMƏ OXŞAYIR

Avdal Qasımın qonşularının, – erməniydi də qonşuları, – bir eşşəyi olur. Abdal Qasımın da bınnan xoşu gəlir ki, yaxşı yük daşıyır. Deyir: "Mən nətər eliyim, mən bını mıın əlinnən çıxardım". Hər gün bı erməni də eşşəyi yedəyinə alıp gedirmiş meşiyə oduna. Gedif yühlüyüf, gətirif satırmış. Bir günnəri gedəndə, meşənin ortasında Abdal Qasım bı erməniyə deyir ki, əyə, sənin bı eşşəyin axırda xoza-man oluf səni yeəjək. Deyir, ara, Qasım, nə xozaman? Deyir ki, yox, canın üçun, yeyəjəh səni. Bı bir gün də meşiyə gedəndə Avdal Qasım kəfrəm yorqana bürünür, bürünmür e, qoltuğuna vırır, aparır. Gedir orda, meşənin yarısında, bı gedəjəyi yerin yarısında yorqana bürünür, eşşəyin kəndirini kəsir ordan, noxtasını öz əlinə alır. Da bı geri baxıb eləmirmiş, həmməşə eşşəy özbaşına gedirmiş. Bir xeylax gedir, ge-dənnən sora Avdal Qasım əyağını diriyir yerə. Erməni məhətdəl qalır ki, bı eşşəh niyə getmir. Deyir, ku eliyir, mını çəkir, bir əz də gedir. Bir əz getmiş bir də əyağını diriyir. Erməni çönüp geri baxanda görür ki, nəsə bir şey ağa bürünüf, kəfrəmə, bının yedəyindəki bıdı. Bunu qoyur, bağıra-bağıra elə qaçır ki, daa nə eşşək yadına tüşür, nə bir şey. Avdal Qasım hərrənir belədən, eşşəyi götürür. Hər gün bını ermənin gözü qabağında aparıf işdədirmiş. Erməni də baxırmış, deyirmiş ki, ara, Qasım, vallah, elə bı mənim eşşaqıma oxşuyur.

Deyir:

– Ə, qurumsax, sənin eşşəyin xozaman oluf səni yemirdi?

Deyir:

– Vallah, yeyirdi, qaşdım güjnən kutardım.

Deyir:

– Ə, get tap dana, eşşəyin xozamandı.

Bı erməniyə o dağı basır, onun eşşəyini işdədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 15. MAT QALMIŞAM

Avdal Qasım həmişə erməniləri çıxılmaz, gülüş vəziyətində qoyuf. Bir gün Avdal Qasım baxır ki, bir erməni meşənin içindəki talada bir cüt öküznən yer şumluyur. Avdal Qasımın ayrı bir oğru yoldaşı oluf da. Dostuna deyir ki, sən getginən o şumun baş tərəfində dur, öküz ora çatanda mən hər şeyi həll eliyəjəm özüm. Durur şumun ayax tərəfinə yaxınnaşır, Avdal Qasım təmiz soyunur paltarını, elə-belə çılpax vəziyətdə, şumun içində başdıyır qol götürür oynamağa:

– Mən bı işə mat qalmışam, mən bı işə mat qalmışam, – deyir, oynuyur, oxuyur, hərəkətdər eliyir.

Erməni baxır ki, ə, Avdal Qasım, bının kirvəsi, çılpax şumun əyağında oynuyur. Deyir ki, sən öləsən, deyəsən, kişinin başına hava gəlib, belə, helə. Erməni öküzü, xışı qoyur şumun baş tərəfində, ordan tərpənir, cumur aşağı tərəfinə ki, görsün Avdal Qasım nə işə mat qalıfdı? Görən başına hava gəlifdi, nətər. Qujaxlıyır:

– Ara, kirvə, sən nə işə mat qalıfsan?

O vaxda qədər də artıx o birsi adam öz işin görür, öküzün birin açıv aparır. Deyir:

– Mən o işə mat qalmışam ki, sən indi bir öküznən nətər yer şumluyursan?

## 16. ARAMIZDAN İKİ EŞŞƏK ARABASI KEÇƏR

Deyilənnərə görə, Avdal Qasım ağaca çıxıf ora-bura baxırmış. Bir də görür ku, Aşot arvadıynan hardansa gəlir. Avdal Qasım deyir ki, sən öl, Aşot, bu dəyqə sənin başına elə bir oyun açım ki, gəl görəsən. Avdal Qasım başdıyır qışqırmağa ki, ay Aşot, heş ölüf qutarmırsan, adam da günün günorta çağı belə iş tutar. Aşot da deyir ki, ara, nağayrıram ki, gedirik də. Qasım deyir ki, canına azar eliyirsən, bu nə hoqqadır çıxarırsan, çölün düzündə. Heş utanmırsan, camahatın gözünün qavağında arvadını qucaxlayıf öpürsən. Aşot da qayıdır ki, ara, Qasım, başın xaraf olmasın, nə danışırsan? Görmürsən gendə durmuşux, aramızdan yühlü arava keçər. Avdal



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qasım da deyir ki, inanmırsan, gəl çıx bax. Aşot fikirrəşir ki, ara, bu nətəhər işdi. Tez dırmaşır həmən ağaca. Avdal Qasım da tez düşüf Aşotun arvadını basır altına. Girəvəni buraxmıyıf o ki var başdıyır onu öpməyə. Aşot ağaşdan baxıf görür ki, Avdal Qasım onun arvadını basıf altına, süpürrəşir. Başdıyır qışqırmağa ki, ara Qasım, nağayrırsan, arvadımı niyə basıf öpürsən. Heş belə də yoldaşdıx olar. Avdal Qasım ayağa duruf:

– Ara Aşot, nə danışırsan. Nə varsa, bax o ağaşdadı. Heylə də iş olar. Saa dedim ki, o ağaşdan baxanda heylə görürük. Mən hara, sənin arvadın hara. Aramızdan iki eşşəh aravası keçər.

## 17. DİŞDƏK-DİŞDƏK EDİB

Bir gün Avdal Qasım Aşotnan məşdəşir ki, bəs mən gejə gəlif sənin arvadının alt paltarlarını çıxardıf apararam. Aşot deyir ki, ay Qasım, mən çox sərvaxt yatanam, gejə yatanda ditdilinin vızıltısını da eşidirəm. Nəysə, ollar məşdəşillər. Avdal Qasım gedif təzə soyulmuş bir qoyun dərisi tapır. Bu dərini götürüf aparır kətdəki ən bitdi-birəli itin qavağına atır. İt dərini ora-bura dartışdırır, birəsi, biti daraşır bu dəriyə. Axşam Avdal Qasım gəlif dərini torbaya salıf yollanır Aşotun evi tərəfə.

Yay vaxtıymış. Camahat həyəttə-bajada yatıllarmış. Qasım gəlif görüf ki, Aşotgil yerrərini çöldən salıflar. Arvad yatıf, Aşot da ona qarolçulux eliyir. Avdal Qasım bir az gözdüyür ku, Aşot da yatsın, amma Aşot gözdərini bərəldif ora-bura baxır. Avdal Qasım bir uzun qarğı tapıf, dərini onun ujuna bağlıyıf Aşotun arvadına sarı sallayır. Bittər-birələr dəridən çıxıf Aşotun kök arvadına darışıllar. Bit-birələr arvadı yedihcə, arvat da başdıyır isdilənməyə. Bu vax Aşot da yuxuya gedir. Arvad isdilənif başdıyır üsdündəkiləri təpihləməyə. Sora əynindəkiləri bir-bir çıxarıf atır. Axırda qalır lüm-lüt. Avdal Qasım bütün paltarları torvasına salıf, dərini də götürüf gedir. Aşot səhər duruf görür kü, arvadı lüm-lüt yatıf, özü də bədəni yumru-yumru qıfqırmızı. Deyir ki, evin yıxılsın fələh, Avdal Qasım gejə arvadı soyunduruf, bədənini də dişdəh-dişdəh edif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BİC QƏNBƏR HAQQINDA

### 18. ÖMÜRLÜK KÖKLƏNİB

Bir gün Kəlbəcərdən bir nəfər əlində saz Tərtərə gəlir. Şəmşi addı bir kişidən soruşur:

– Bu sazı kim köhlüyə bilər?

Şəmşi deyir:

– Rayonda ən yaxşı saz köhlüyən Bij Qənbərdi.

Bij Qənbər də nöyüt satır. Həmin adam gəlir Bij Qənbərin yanına. Deyir:

– Əmi, eşitmişəm rayonda ən yaxşı saz köhlüyən sənsən. Bu sazı köhlüyə bilərsənmi?

Bij Qənbər deyir:

– Qadan alım, vacib işim var. Qoy bını qutarım, axşam gələrsən.

Həmin adam deyir:

– Yox, ay əmi, məclisim var, tələsirəm, bunu köhlə.

Bij Qənbər sazı alıb nöyüt boşkasına basır:

– Qadan alım, get, ömürrük köhləndi daa bı.

### 19. SAMOVARDA GİZLƏDİLMİŞ PUL

Bij Qənbərin oğlu Rafiq pulu yığır evə. Fikirrəşir ki, ay Allah, bunu hara qoyum ki, arvad bilməsin. Birdən yadına düşür ki, arvad bir cehiz simavar gətirifdi, qırxı ildə hələ bını qalıyıf-yandırmıyıf. Elə bının odduğuna qoyum. On iki min manat pul olur. Bir-iki ay pulu gətirif qoyur simavarın odduğuna.

Bir gün görür ki, arvad kömür töküf simavarı yandırır. Tez cumur arvadın üsdünə:

– Aaz, neynirsən?

Arvad deyir:

– Qardaşım gəlif, ona simavar çayı dəmliyirəm.

– Aaz, səən dədaan gorunu belə-belə eliyim. Bəs qırx ildi maa arvaddıx eliyirsən, heş kömürnən çay dəmləmiyifsən.

Baxır görür ki, on iki min manatın hamısı yanıf gedif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HACI ŞİRİN HAQQINDA

### 20. HAZIRCAVAB HACI ŞİRİN

Bizim meşələrdə ayı oluf da, indi olar daha çox Qarabax tərəfdən gəlif. Tərtərdə daşqın vaxdı bir ayı selə düşür, gəlir Qarabağda sudan çıxır üzə. Bu məsəli Hajı Şirinə yazıflar. O da Kəlbəjərridi, biznən əmioğludu. Bırdan götürüf məhtuf yazıllar ki, bir dənə meydiniz gəlif çıxıf bura, onu nə cür dəfn eliyəh? Ordan Hajı Şirin götürür məhdubun cavabını yazır ki, ən əziz ölülərinizi nə cür dəfn eliyırsınızsa, onu da həylə dəfn eliyin. Yanı, belə kişilər oluf. Bı, az söz deyil.

### 21. SİZİN YERİN QANQALI, BİZİM YERİN ARMUDUNDAN ÇOXDUR

Hajı Şirin gəlir Qarabağa dosdunun evinə. Biz tərəfdə meşəlih-di dana. Meşələrimizdə hər meyvə olur: armud, alça, alma, zoğal, əzgil. Nə yoxdu, can dərmanı, haasın sadalıyasan? Dosdu deyif:

– Hajı, dəəsən, bı il dağda armıt çoxdu?

Biz dağ rayonu olduğumuza görə da. Hajı Şirin belə o tərəfə, bı tərəfə baxıf, deyif:

– Dəəsən sizin yerin qanqalı, bizim yerin armıdından çoxdu.

Axı, qanqalı eşşəh yeyir, armudu da ayı yeyir. Orda onun cavabını verif.

## MÜXTƏLİF MÖVZULU LƏTİFƏLƏR

### 22. NADİR TAPINTI

Şah bir gün vəziriynən gəzməyə çıxır. Deyir, gedim görüm, bu camaatım nejə yaşıyır də. Çox gedir, gedir, gedir, nəhayət gəlif bir kəndə çıxır. Kətdə acıllar. Deyir ki, bala, bala, yeməyə nəyiz var? Bir kənarda nəysə bir yeməh yeri varmış də. Deyir ki, yumur-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tamız var. Gətirir nəysə üş-dört yumurta qaynadır. Vəzirnən yeyillər-içillər. Axırda hesafı deyir. Deyir:

– Məəm saa nəğədər borcum var?

Bu elə qiymət deyir ki, bu iki-üş toyuğın qiymətinnən artıx olur. Şah deyir ki, bala, yumurta sizin tərəflərdə belə nadir tapıntıdı? Deyir ki, əzizim, yumurta belə nadir tapıntı dööl e, şah nadir tapıntıdı ki, bir dəfə gəlif.

## 23. ŞAH ABBAS ANASI KİMİ ZARIMA

Bir gün Şah Abbasın anası xəsdələnir. Gecə-gündüz yataxda zarıyır. Şah Abbas onun üsdünə loğman gətirdir. Loğman görür ki, qadının heş bir xəsdəliyi yoxdu. Loğman Şah Abbasa deyir ki, anan ər kürrüyü eliyir, onu ərə vermək lazımdı.

Şah Abbas qəzəplənir, isdiyir ki, loğmanın başını vurdursun. Bu zaman anası tez yataxdan tikəlip deyir:

– Oğul, əl saxla. Loğman çox bilir, yoxsa sən?

Bunu deyip arvat genə yatağa yıxılıp zarımağa başdıyır.

Elə o vaxdan da ər kürrüyü eliyənə el arasında belə deyillər.

– Şah Abbasın anası kimi zarıma.

## 24. HEÇ MƏNİMKİ DƏ AĞILLI DEYİL

Bir arvadın səy oğlu varmış. Bını evləndirirmiş. Nəysə, gedir qızı alır gətirir. Heş demə qız da onnan geri qalmırmış. İndi toy olur, başdıyıllar oynamağa. Hər ikisi sevinir – oğlun anası da, qızın anası da. Bu burda çalıf oynuyurmuş. Dermiş:

– Zır dəlimi evləndirdim.

Qızın anası da deyir:

– Heş mənimki də ağıllı dəyildi.

## 25. GƏZƏYƏN ARVAD

Kəndlərin birində bir gəzəyən arvad olur. Səhər açılannan axşama kimi qonşuları gəzər, evdə heş bir iş görməzmiş. Evdə olanda da yalnız iki-üç dəfə nehrəni oyan-buyana çalxalıyar, ancaq baxıb



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görərmiş ki, yağ alınmır. Hər dəfə belə edər, hövsələsi daralar, qonşuya qaçarmış. Bu minvalla günnəri ötürər, hər gün yağı ayranda batırarmış. Xarab olmuş ayranı da itdərə, pişiklərə tökərmiş. Əri də hər gün bunu danlıyarmış ki, bəs niyə hamının nehrəsi yağ gətirir, sənin nehrən isə yağ batırır. Arvad da bu tənələrdən bezərək mollanın yanına gedir. Mollanın otağına girib salamlaşdıxdan sora deyir:

– Ay molla, mənə bir pitik yaz, nehrədə yağım alınmır.

Molla arvada baxıb deyir:

– A bala, get sənin işin mənnən deyil.

Arvad genə molladan pitik yazmağı xayiş edir. Molla arvadın xayişini dəfələrlə rədd etsə də, arvad əl çəkmir. Axırda molla əlacsız qalıb pitik yazmağa razı olur. Bir kağıza bu sözdəri yazıb arvada verir:

Ay gəzəyən Xanımağa,
Pitik neynəsin yağa?
Yanını qoy yerə,
Güc ver çalxalamağa.

## 26. ALTI DAŞ, ÜSDÜ AŞ, GENƏ DƏ OĞUL YAXŞIDIR

Bir arvad olur. Bunun bir oğlu, bir də bir qızı olur. Yazıx dul arvat zulumnan uşaxları saxlıyır. Günüz çöldə, gecə evdə işdiyə-işdiyə balalarını böyüdür. Ay keçir, il dolanır, uşaxlar toy vəxtinə çatır. Qıza elçi gəlillər. Pis-yaxşı qızı verip ona toy eliyip, gəlin köçürdür.

Sora da özünün haldan-heydən tüşdüyünü görüp oğlu üçün elçi gedir. Oğluna da gücü çatan qədir toy eliyir. Sevinə-sevinə gəlin gətirir. Ev-eşiyi, damı-daşı, xurəyi, çömçəni gəlinə verir ki, ta mən sakitcə bir küncə çəkilip qalan ömrümü şadyanalıxla başa vuraram.

Toyun səhəri arvat yazıx surfanın başında oturur ki, gəlin gəlip ona bir tikə çörək versin. Gəlin gəlir, özünə, ərinə xurək qoyur. Qaynasına da qaş-qabaxnan yemək qoyur. Oğul soruşanda nolub, deyir:

– Başım ağrıyır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yazıx qaynana da dilləmmir ki, evə söz tüşər. Günorta gəlin yaxşıca bozbaş pişirir. Genə özünə, ərinə xörəkdən çəkip gətirir. Gəlin görür ki, əri ona tərs-tərs baxır. Tez qaçır qazanın başına, arvada da yarımcam yemək çəkir, içinə gizdincə su tökür ki, çox görünsün. Özü də yalannan dizinə-başına döyə-döyə deyir:

– Allah məni öldürsün, təmiz yadımnan çıxmışdı.

Oğul genə inanır. Anasının xurəyinə baxır. Görür ki, arvadı camı yeməklə doldurup. Ürəyi yerinə tüşür.

Qaynana çörəyi yeməyə batırıp ağzına qoyur. Məsələnin nə yerdə olduğunu annıyır. Ama genə susur.

Axşam olur. Gəlin bir plov dəmliyir ki, gəl görəsən... Genə surfa başına yığışıllar. Gəlin həyətdən bir daş götürüp qaynnasının camına qoyur. Üsdünnən də aşdan çəkir ki, yemək çox görünsün. Hamıdan qabax arvadın camını gətirip surfuya qoyur. Əri baxır ki, arvadı bu dəfə anasının xurəyini birinci çəkdi, sevinir. Gəlin özünün ərinin xurəyini də gətirir. Hamı yeməyə başdıyır. Çarasız qaynana görür ki, aşın hamısını yesə, daşı oğlu görər. Odu ki, bir az yeyip sora dayanır ki, bəs işdahım yoxdu.

Gecə olur, hamı yatır. Yazıx qaynananın gözünə yuxu getmir. Səhərə kimi aranı dağa çəkir, dağı arana. Fikirrəşir ki, belə olmaz. Bir gün işin üsdü açılar oğluynan gəlinin arası dəyər, oğlu gəlini boşuyar. Yaxşısı budu durum gedim qızımın əvinə. Hər nə də olsa, qızım öz qarnımnan çıxıp. Mənə belə baxmaz.

Səhər açılır, arvat bur-buxçasını yığanda oğlu gəlip soruşur:

– Xeyir ola, ay ana, hara belə, yoxsa xətrinə dəyən var?

– Yox, ay bala, kim dəyəcək. Heş nə olmuyup. Elə-belə bir az da qızımın əvində qalacam.

Oğlu heş nə demir. Anasını yola salır. Arvat nahara kimi qızının əvinə çatır. Qapını döyür, qızı gülə-gülə qapını açır, anasını yuxarı başda oturdur. Ama, arvat görür ki, kürəkəni bunu görənnən üz-gözü turşuyub, eyni açılmır ki, açılmır.

Qızı anasına yaxşı qulluğ eliyir. Ordan oturma, burdan otur, burdan oturma ordan otur. Nəysə, axşam olur. Şam yeməyinin vəxtində hamı surfuya oturur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızı yemək gətirir. Kürəkənə birinci, anasına sora xurək çəkir. Arvat görür ki, yeznəsi genə qaşdı-qabaxlı oturup. Hiss eliyir ki, qızı ona yeməyi ərinnən çəkinə-çəkinə verir, çayı qabağına sıxıla-sıxıla qoyur. Hə... Arvat da, dünya görmüş arvad olur. Vəziyəti annıyıp səhər mütləq oğlunun yanına qayıtmağı plannaşdırır. Yaxşı-yaman bir tikə çörəyini yeyip yatır. Səhər o başdan ac-susuz başmaxlarını cütdüyüp geyinəndə qızı görür:

– Ay ana, qurban olum, hara belə?

– Ta gedim, qızım, darıxırdım, gəldim səni gördüm, irahatdandım, indi gedirəm.

Qızı əl çəkmir:

– Ana, nə olar getmə, hələ indi gəlmişdin ki...

– Yox, ay qızım, hər elə öz obası, hər quşa öz yuvası, sizi də narahat eləmiyim.

Altı daş, üsdü aş,<br>
Genə də oğul yaxşıdır.

Qızı susur. Məsələnin nə yerdə olduğunu annıyır. Kor-peşman başını aşağı sallıyıp gözünün yaşını silir. Dili gödək olduğunu annıyır.

İndi odu ki, hamı oğul qoltuğunda ölməyi, yeznə qapısında qalmaxdan üsdün tutullar...

## 27. SAQQIZSATAN, QIRSATAN, BİR DƏ RƏHMƏTLİK SƏNİN ATAN

Bir gün bir uşax ordan-burdan eşidir ki, onun anası çox ərə gedip. Dözəmmiyip anasınnan soruşur:

– Ana, deyillər sən çox ərə getmisən, düzdü?

Anası deyir:

– Yox, ay bala, elə də sən deyən kimi çox ərdə olmamışam. Nədi ki:

Əli, Vəli, Pirvəli,<br>
On ikisi onnan irəli.<br>
Saqqızsatan, qırsatan,<br>
Bir də irəhmətdik sənin atan...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 28. NƏ BAŞ YARMISAN, NƏ BAŞIN YARILIB

Kişilər divar dibinə yığılıp söhpət edirmişlər. Bir nəfər də öz sahəsinə su açırmış. Kişilərdən biri deyir:

– Ayə, ay başınıza dönüm, mən bu adama lap məəttəl qalmışam. Bu kişinin bir adamla işi yoxdu. Bu yaşa çatıb nə biriylə dalaşıp, nə söyüp, nə söyülüp, nə döyüb, nə döyülüp. Heş belə bir dəfə başı yarılmıyıb da. Hələ baş yarmağı qalsın bir yana.

Divar dibində oturan kişilər də onun sözünü təsdiqlədilər. Kişi genə sözə başladı:

– Mən bu işi belə qoymaram. Elə bu dəyqə gedip onu cırnadacam.

Bir başqası deyir:

– Yox, cırnada bilməzsən.

Kişi hirsdənir:

– Heş elə şey yoxdu. Mərc gələk, mən bu sahat gedip onu elə cırnadaram ki, əsəbinnən dalaşar, hələ o yana da keçər.

Kişilər razılaşır. İşin nətər kutaracağını gözdüyüllər. Mərc gələn kişi sözünü kurtarar-kurtarmaz bir bel götürüp öz sahəsini suluyan kişinin yanınnan keçip lap dəhnənin dibinə gedir. Çır-çınqılla, daş kəsəklə suyu xırb kəsib o yana ötürür, guya öz məhləsini suluyacax. Bunu görən kişi sakitcə onun suyunu kəsənin yanına gəlip:

– Salam-məleyküm, yorulmuyasan, sahənin bəhrəsini görəsən! Görürəm çox tələsirsən. Eybi yox, sən sula kutar, sora suyu biz tərəfə ötürərsən, – deyip gedir. Mərci uduzan kişiyə bu sözdər yaman toxunur. Öz hərəkətinə pərt olur, onu geri çağırır və deyir:

– Ay qardaş, sən Allah, bağışla, mənə su gərək döyüldü. Səni yoxluyurdum. Sən belə imişsən. Ona görə də nə baş yarmısan, nə başın yarılıp.

## 29. ALTDAN QURU, ÜSTƏN YAŞ

Bu əhvalatı nənəm Fatmasoltan Hüseyn qızının dilinnən eşitmişəm. Əhvalat Dərəlyəz mahalının axundu Cəfərqulu ağanın başına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlip. Soradan eldən-elə, dildən-dilə tüşüp. İndi ocağı yandırammıyan arvatdara bu bir bənt şeiri misal çəkillər.

Bir qadın mollanın (Cəfərqulu ağanın – top.) yanına gəlip yalvarır ki, ölmüşəm, məni yerdən götür. Nə qədər eliyirəmsə, ocağı yandırammıram. Ta evdə başı qaxaşdı, üzü toxaşdı olmuşam. Dillənən kimi kişi deyir ki, sus, bir ocağı da yandırammırsan.

Molla deyir:

– Ay anam, ay bacım, mən dua yazmıram. Get kim yazır ona yazdır.

Qadın əl çəkmir:

– Yox ey, ay qardaş, səni deyip gəlmişəm, gör neynirsən. Bu işi birtəhər yoluna qoy.

Molla görür ki, neynəsə də qadın əl çəkmiyəcək. Odu ki deyir:

– Gedərsən evə. Mənə bir toyuğun döşünü yaxşıca qızardıp gətirərsən. Sora sənə dua yazaram.

Qadın sevincək razılaşır. Dərhal durup evə qaçır. Mollanın dediyi kimi eliyir. Bir toyuğu tutup kəsdirir. Əlbəhəl onu təmizdiyip bölür, döşünü qızardıp mollanın yanına gətirir. Molla əti yeyir, sümüyün üsdünə ağlına gələni yazıp qadına verir, deyir:

– Apar bunu həyətdə basdır.

Əlavə də bir kağıza bu sözdəri yazıp onu da qadına verir:

Molluya verdim bir döş,
Xətri oldu sənnən xoş.
Altdan quru, üsdən yaş,
Yammıyanda gözünü eş.

Diliynən də başa salır:

– Altdan quru çır-çırpı qoy, üsdünnən yaşdarı. Bu duanı da ocağın gözünə qoyup yandır. Ocağın çırthaçırtla yanacax.

Arvad mollanın dediyi kimi eliyir. İki-üş günnən sora gəlip deyir:

– Ağa, qələminə qurban olum, ocağım elə yanır, elə yanır.... Allah sənnən razı olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 30. ÇALIN, ZURNAÇILARIM, ÇALIN

Bir gün üç nəfər Allah bəndəsi uzax səfərə çıxır. Bir xeyli yol gedənnən sora axşam düşür. Bunnarın yol azuqəsi kutarır, özdəri də heydən-taqətdən düşüllər. Fikirrəşillər ki, bir ev olsa, bir az dincəlif təzdən yollarına davam eliyərdilər. Elə bu niyətlə gəlirdilər ki, birdən qabaxdan işıx gələn bir ev görüllər. Yaxınnaşıp qapını döyüllər. Ev yiyəsi deyir:

– Kimsən?

– Allah qonağı isdəmirsiz?

– Allaha da qurban olum, onun qonağına da. Niyə isdəmirik, gəlin.

Ev yiyəsi arvadına işarə verir. Arvadı eyhamı anlayır. Cəld su gətirip qonaxların əlinə tökür. Sora surfa açır, evdə nə varsa tökür surfanın üsdünə. Ev yiyəsi qonaxları surfuya dəvət eliyir, deyir:

– Yeyin, canavarrarım, yeyin!

Qonaxlar bir-birinin üzünə baxıllar. Heş nə başa tüşmüllər. Amma ələş nədi, ajdılar axı! Çar-naçar qalıp yeyillər. Yeməhdən sora ev yiyəsinin arvadı qonaxlara yatmağa yaxşıca yer salır. İsdi ev, ocax yanır, qarın tox, yumşax, təmiz, qu tüku kimi yatacax. Ev yiyəsi qonaxlara deyir:

– Yatın, quzularım, yatın!

Qonaxlar genə mat-məhətdəl bir-birinin üzünə baxıllar. Ürəhlərində deyillər ki, ay balam, bu nədi, bu kişi niyə belə deyir?

Nə isə, genə dinip-danışmıllar. Sakitcə yerrərinə girip yatıllar. Səhər tezdən yuxudan zorla durullar. Genə ev yiyəsi bunnara yaxşı hörmət eliyir. Çay-çörək yedirip yola salır. Qonaxlar sağollaşıp getmək isdiyəndə ev yiyəsi deyir:

– Çalın, zurnaçılarım, çalın!

Bunu eşidən qonaxlar genə bir-birinə baxdılar. Bunnardan biri ta dözməyip sual verir:

– Ay qardaş, bir bizi başa sal, görək, bu nə deməkdi? Gah bizi canavar elədin, gah quzu elədin. İndi də zurnaçı elədin. Axı sən bizə yaxşı hörmət elədin. O hörmət nədi, bu sözdər nədi?

Ev yiyəsi deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hə, qardaş, elə ki yol gəlmişdiz, bildim ki, ajsız. Uzax yoldan gələn canavar kimi acır. Ona görə dedim ki, yeyin, canavarrarım, yeyin. Sora yatmax isdədiz, dedim yatın, quzularım, yatın. Axı yol gəlip yorulan quzu kimi yatır. İndi də gedirsiz, deyirəm ki, çalın, zurnaçılarım, çalın. Qonax gəlir, adamın evində sakit durur, amma altdan-altdan hər şeyə göz qoyur, fikir verir. Orda dillənməsə də, elə evi tərk eliyənnən başdıyır qonax olduğu evin əyri-əysiklərini zurna kimi çalmağa. Ona görə də siz gedəndə dedim ki, çalın, zurnaçılarım, çalın.

## 31. UZADERSAN, UZAT DA!

Bir gün bir vergi yığan uzax dağ kəntdərinə vergi yığmağa gedir. Gərgin işdən sora axşamüsdü çantası pulla dolu bir təhlənin* qonağı olur. Burda toqqasının altını bəkidib yola düzəlmək isdiyir ki, bu təhlə də hörmət əlaməti olarax qonağı ötürmək üçün dinməz-söyləməz onun yanına düşür. Yazıx qonağın ürəyinə xof düşür ki, səni, tünbətün olmuş çantadakı pula şirnikib yolda məni öldürəcək.

Nəysə, bir az gedillər ki, təhlə yavaş səslə qonağa deyir:

– Uzademmi?

Kişinin bədəninnən cərəyan keçir, dizdəri əsir ki, səni, evi yıxılmış məni öldürüb yerə uzatmax isdiyir ki. Dili qıfıllanır, bir kəlmə söz demədən bir qədər də irəliləyillər. Dar, qarannıx cığıra çatanda təhlə bir də soruşur:

– A kişi uzademmi?

Qonax ürəyində deyir:

– Vaxşey, evi yıxılmış elə məni bu dar cığırdaca vurub uzadacax, – deyərək təhləyə bir cavab vermir. Təhlə meşənin kənarında bir də soruşur:

– A kişi, sənnən döyüləm, uzademmi?

Səbri tükənmiş, canı boğazına yığılmış qonax:

– Əşi, ta uzadersan uzat da! – deyir. Elə sözü ağzınnan kutarar-kutarmaz təhlə sakitcə geri dönür.

Sən demə, tərəkəmələr yola salmağa "uzatmax" deyirmişlər.

---

* təhlə - təklə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 32. XƏLƏFŞƏ ARMUDU

Qozdu çay bı Qarabağın ən gözəl yerrərinnəndi. Bı çayın yanındakı meşəlihlər, bağ-bağat adıynan məşhurdu. Qozdu çayın yanında dağ kəndi Xələfşədə də bağ-bağat çoxdu.

Bir gün Xələfşəli Feyzi kişi bağın meyvələrinnən bişirdiyi tut bəhməzini bidonnara yığıf bazara gətirir. Tərəkəmə camaatı yığışır kişinin başına ki, bəs bəhməz alsınnar. Feyzi kişi bidonnarı açır, başdıyır malını təriflməyə dayna:

– Ay bəhməz alan, ay tut bəhməzi alan. Gəlin qalmadı, min dərdin dərmanıdı.

Camaat yığışır Feyzi kişinin başına. Başdıllar bəhməznən maraxlanmağa. Feyzi kişi həvəsnən taxda qaşığı bəhməzə batırıf-çıxardanda diksinir, təəccüblənir. Qaşığın üsdə ölmüş siçan balası olur. Demə, siçan balası hardansa qaçıf düşüf bəhməzin içinə, elə ordaca boğuluf ölüf. Feyzi kişi qalır məəttəl. Qorxur ki, camaat bını görsə day bir də heş vax onnan bəhməz almıyajax. Tez siçanı təpir ağzına. Deyir:

– Xələfşə armıdıdı ey, Xələfşə.

Hə.. beləjə siçan balasını udur. Elə o vaxdan camaat “Xələfşə armıdıdı” məsəlini işdədirlər. Bax beləjə...

## 33. BƏSDİ, ŞİRİN ÇAY ELƏDİN

Dellər müharibə vaxtıydı. Camaat çətin yaşıyırdı. Qət, çay o vaxdar tapılmırdı. Camaat yayda qurutduğu meyvəynən, onnan bəhməznən çayını içərdi. Gejələr bı cavannar yığışar samovarın, ojağın qırağında dövrələmə oturuf bı quru meyvəynən çay içəllər. Böyüh çovan evdə qalan sonuncu qət tikəsini də damdan asıf ki, işdihləri çay day da ləzzətdi olsun. Bı evin kiçih oğlu da cavanımış, çayını içə-içə, heş söhbətə baxmırmış, tez-tez çönüf damda asılan qəndə baxır. Bı dəmdə atası hirsdənir uşağın başına bərhdən bir qapaz vırır:

– Küçüh, bəsdi, şirin çay elədin. Qənayət elə...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 34. DEYƏSƏN, KOL TƏRPƏNDİ

Bir kişi yaman gofçuymuş. Səhər örüşə gedif, axşam qayıdanda başına gəlif, gəlmiyənnəri uyduruf camaata danışarmış. Bir gün genə bı örüşdən gəlir. Camaat yığışır başına. Deyir ki, zulumnan gəldim bu yolu. Yolun qırağında qırx çakqal yığışmıdı, güjnən canımı qurtardım. Deellər:

– A kişi, bir kolun divinə qırx çakqal yığışa bilməz. Bir az aşağı yen.

Deyir:

– Yaxşı, iyirmi-otuz olsun.

Deellər:

– Ay kişi, bu kəttə heş bı qədər çakqal yoxdu.

Deyir:

– Yəqin on-on beş olardı, dəqiq saya bilmədim.

Deellər:

– Kişi, bu qədər çakqal bir yerdə olmaz axı.

Deyir:

– Üş-beşə nə sözüz?

Deellər:

– Ay kişi, bı da olmaz, çakqal təh olur, ağ eləmə.

Kişi özünü itirmir. Deyir:

– Nə isdirsiz mənnən? Deyəsən, kol tərpənirdi dayna. Di əl çəkin.

## 35. ARVAD, ŞİLƏN DURUDUR

Bir kişi olur. Bı kişi arvadınnan yaman qorxur. Bir gün arvadı bına şilə bişirir. Kişi şiləni yeyir. Amma bir söz deməyə qorxur. Çıxır çöldə gizlincə deyir:

– Arvad, şilən durudu, durudan da durudu.

Elə bını deyəndə arvad eşidir. Deyir:

– Get ay köpoğlu, evə gələndə gör sənə neyniyəcəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi tez qarıxax durur gedir oduna. Oduna gedəndə evdən tələsiy çıxdığınnan balta əvəzinə çömçə götürür. Yolda gedəndə kişi deyir:

–Ya Qara Seyidin cəddi, sənə bir çanax darı nəzir deyirəm. Elə elə ki, mən evə qəyidəndə arvad məni döyməsin.

Kişi gəlir meşəyə, isdiyir baltanı götürsün odun qırsın. Əl atır çömçəni ağaca vıranda çömçənin çanağı sınır düşür yerə. Deyir:

– Ə, vallah, bı seyidə bax ee, heş evə çatmamışam.

## 36. YEDİLƏR, İÇDİLƏR, DAĞILIŞDIQ

Bir gün bir qarabağlı uzax bir qohumunun oğlunun kiçik toyuna gedir. Gəlib oturur isdolun başında. Əlini çörəyə uzadar-uzatmaz biri gəlir ki, bəs dur, ev yiyəsi səni çağırır. Kişi durup gedir. Yarım sahatdan sora təzdən gəlip oturur isdolun başında. Görür ki, kabap kurtarıp, bozbaş qalıp. "Nəysə" – deyip, bozbaşı çəkir qavağına. Elə bu heyn tamada bunu çağırır.

Yazıx bu dəfə də durup tamadanın yanına gəlir. Genə də yarım sahat keçir, kişi gəlir yerinə. Görür ki, isdol yoldaşları öz paylarını da, bunun payını da yeyiplər. Qarabağlı dillənmir. Sakitcə çayın gəlişini gözdüyür. Birəz keçir, çay gəlir. Elə əlini çaya uzadar-uzatmaz dosdunun oğlu gəlir ki, bəs qağam səni çağırır. Çaydan da əlini üzən qarabağlı nəmərini yazdırıb hamı kimi mağardan çıxır. Çağıranın yanına dəyip ordan da üz tutur evə. Yolda bir dəsdə yerrisi onun qabağını kəsip soruşur:

– Ayə, hardan gəlirsən belə?

– Filankəsin oğlunun kiçik toyunnan.

– Nətər oldu, yeyiv-işmək, çalıv-oynamax nətəriydi?

Qarabağlı boş qarnını sığallıya-sığallıya deyir:

– Heş nə. Yedilər, işdilər, dağılışdıx...

## 37. BUNDAN BAŞQA DOQQUZCAĞI QALIB

Bir qadının ürəyinnən ərə getmək keçir. Oğlu onu qınıyır ki, ayıpdı, el bizə nə deyər, bu yaşda ərə getmək isdiyirsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvat oğluynan razılaşmır, deyir:

– Mənə nolup, qırğı kimiyəm.

Söhbətin bu yerində oğlu buna deyir:

– Sənə on dənə qoz verəcəm. Səhər açılana qədər onu dişində sındıra bilsən, səni ərə verəcəm, yoxsa yox.

Arvat razılaşır. Səhər olur, oğlu gəlip soruşur:

– Ana, qozdarı sındırdınmı?

Qadın deyir:

– Az qalıb oğlum, ağzımdakınnan başqa doqquzcacığı qalıp.

## 38. KİŞİ AĞZINDA QIZIL XIRDALAYIR

Qədim zamannarda iki qonşu olur. Bunnardan biri çox cığal olur. Hey o biri qonşunun bosdanına girip talan eliyir, əlinə keçəni, kalı-dəymişi yığıp doldurur xurcununa. Yazıx fağır qonşu nə illah eliyir bu qonşu əməlinnən əl çəkmir ki, çəkmir. Hara gedir, kimə deyir, talançı qonşunun qabağına çıxan, ona nəsə söz deyə bilən bir adam tapbır. Axırı bir nəfər ona deyir ki, get dərdini qazıya de. Eləsə-eləsə dərdinə o əlaş tapar. Yoxsa uşaxlarım o əbləhin əlinnən aj-yalavaj qalar.

Bu məsləhət kişinin ağlına batır. Durup lal-dinməz qazının yanına gedir. Yolda yadına düşür ki, qazıya bir bəxşiş verməlidi ki, qazı işi onun xeyrinə həll etsin. Tez geri qayıdıp qapıdan bir qaz götürüp xurcuna basır, təzdən yola düşür. Bunu görən qonşu da tez evə girip bir kisə qızıl götürüp düşür yolun ağına. İkisi də gəlip çatır qazının yanına. Qazı bunnardan soruşur:

– A kişilər, nolup?

Fağır qonşu irəli çıxıp xurcunun ağzını açır. Qaz ordan qazıya sarı boylanır. Sora kişi sözə başdıyır:

– Qazı ağa, mən yetimin balası il boyu əkip-piçirəm ki, bir çətən külfətimi saxlıyım. Əlqərəz, işdiyip məhsulu ərsiyə gətirirəm. Onda görürəm ki, bir qonşum girip bosdanı yarımməhsul eliyip.

Qazı qazı görəndə ağzı sulanır. Xiyalınnan onu nətər pişirip yemək keçir. Elə işin vacehinə varmamış, məsələni qaz gətirənin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xeyrinə həll eləmək isdiyir ki, günahkar qonşu kisədəki qızılları çingildədə-çingildədə qabağa gəlip deyir:

– Qazı ağa sağ olsun, heç elə də şey olar?! Mən elə vijdansızam ki, fağır-füğaranın urzasını yeyim?! Bu kişi gözünün içinə kimi yalan deyir, böhtan atır.

Bosdanı talanan kasıp qonşunun gözdəri kəlləsinə çıxır:

– A kişi, sən nə utanmaz adamsan. Məhsulumu yarımməhsul elədiyin bəs döyül, hələ mənə böhtançı, yalançı da deyirsən?! Heş sənin abır-həyan yoxuymuş ki!

Qazı məsələnin nə yerdə olduğunu annasa da, günahkar qonşunun əlindəki qızıl kisəsini görəndə gözdəri işıldayır. Tamah ona güj gəlir. Üzünü bosdanı talanan kişiyə çöndərip qışqırır:

– A kişi, sən nə qaz kimi boğazını uzadırsan?! Görmürsən kişi ağzında qızıl xırdalıyır?!

## 39. HACI BİLƏR, HƏLƏ DİNMƏZ

Bir arvadın Hacı addı əri olur. Əri qazanc dalınca səfərə çıxır. Arvadı da başdıyır avara-avara gəzməyə. Bir gün Hacı gəlir. Arvadı çox vurnuxur ki, görəsən ərimin qulağına nəsə bir söz çatmıyıb? Ərinə deyir ki, a kişi, itimiz balalıyıp, gəl gedək ona ad qoyax. Əri razı olur. Arvat küçüyün birini qulağınnan tutup qaldırır və deyir:

– Mən bunun adını qoyuram, “Hacı bilməz”.

Əri o biri küçüyün qulağınnan tutup qaldırır və deyir:

– Mən də bunun adını qoyuram “Hacı bilər, hələ dinməz”.

## 40. ATIN ZÜY TUTANI

Gəncədə bir balamançı vardı. Adına Yolbasan Hüseyn deyirdilər. Yüz qırx kilo çəkisi vardı. Bir aşıxnan Daşkəsən tərəfdən toydan gəlir. O vaxtı maşın-zad yoxuydu. At arabaları varıydı. Bir at arabası gəlir. Bular əl qaldırır. Araba saxlıyır. Aşıxnan balamançı birtəhər qalxıllar arabanın içinə. Baxıllar ki, arabanı sürən kadındı. Aşıx balamançıya deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Sakit dur, yaman hazırcavab olur buranın camaatı. Sən sakit dur, qoy gedək mənzil başına.

Bir az gedəndə balamançı Hüseyn kişi baxır görür ki, at arabasının yanına bir eşşək də qoşuflar.

Balamançı Hüseyn kişi deyir:

– A bajı, bu at arabasıdı, bu eşşəyi niyə qoşmusuz bunun yanına?

Qadın deyir:

– Qardaş, o da aşığın yanında balamançı kimi bir şeydi.

Aşıx balamançıya deyir:

– Ə, sənə demədim sakit dur, bu yerin adamları hazırcavab-dılar?!

## 41. HƏR KƏS ÖZ BALASINI APARDI

Bir gün Ələmdargilə bir nəfər qonax gəlir. Ələmdarın da dörd dənə oğlu var. Balaca oğlu da qarayanız olur. Bunnar tərəfə oxşamır dana. Qonax deyir:

– Ay Ələmdar, bu uşaxların üçü elə bil ki gözəldilər, siz tərəfə oxşıyıblar. Amma bu bir dənəsi bədnöysətdi. Bu niyə belədi?

Ələmdar deyir:

– Nə bilim, Allah verən paydı da.

Qonax deyir:

– Ay Ələmdar, mən bir anekdot eşitmişəm.

Ələmdar deyir:

– Nə eşitmisən?

Qonax deyir:

– Gürcüstanda bir nəfər adam olur. Qəzetdə elan verillər ki, dörd oğlu olan kişiyə maşın padarka verilir.

Bu da qəzeti götürüb qaça-qaça gəlir evə. Arvadına deyir:

– Ay arvad, döölət tərəfinnən belə bir gözəl elan verilib.

Arvad deyir:

– Nə elandı?

Kişi deyir:

– Dörd oğlu olana bir maşın verillər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad deyir:

– Ay kişi, bizim də üç oğlumuz var dana. Axı dördüncü oğlumuz yoxdu maşın alasan.

Kişi deyir:

– Arvad, əgər xətrinə dəyməzsə, saa bir şey deyərdim.

Arvad deyir:

– Denən.

Kişi deyir:

– Ucqar kəntdə bir dəfə bir xata eləmişəm. Aylə qurmuşam, sənin xəbərin yoxdu. Bir oğlum da ordadı. İncimərsənsə, gedim onu götürüm gəlim, aparım dördünün də sənədini verim gəlim, maşını alax.

Arvad deyir:

– A kişi, niyə inciyirəm, get gətir.

Kişi çıxır gedir o biri kəndə. Sovetdikdən kağız alır ki, həqiqətən bu onun oğludu. Qayıdır meterkalarını da yığa, sənəddərini düzəldə, gedə maşını ala. Gəlir evə, görür ki, uşaxlar yoxdu evdə. Arvada deyir:

– Arvad, uşaxlar hanı?

Arvad deyir:

– A kişi, o elan çıxannan sora hər kəs gəldi öz uşağını apardı.

Deməli o üçü bunnan döyülmüş, elə o bədnösət bunnan imiş.

## 42. TOP ATSAM, HARA QAÇASSAN?

Şair Cavad bir aşıxnan gəlir bir qarıya qonaq olullar. Bu qarı simavar qaynadanda nətər olursa, qarıdan bir xəta çıxır. Şair Cavad görür ki, bu qarı utandı. Deyir:

– Aşıx, dur, sumavar qaynıyınca gedək qonşuda oturax.

Qarı da çayı-zadı qaynadır. Bir uşax göndərir ki, getsin desin ki, çay hazırdı. Nəyisə, Cavadgil bir az gec gələndə qarı deyir:

– Ay Cavad, ay Cavad, bir balaca piston çıkqıldatdım, qonşuya qaçdın, top atassam hara qaçassan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 43. DEYƏRDİM ELƏ MƏNİM ATIMDI

Bir dəfə arvad ərini dannıyıf ki, un yoxdu, sən nətər kişisən? Kişi gedir görür ki, bir erməni unu yüklüyüf, dəyirmannan gedir evinə. Arxadan gəlir, soyunur təmiz paltarını. O vaxtın kişiləri də ağ geyinirmişlər. Gəlir arxadan yavaşcana atın cilovunu çıxardır, keçirdir öz başına. Meşədə də su olan yer qarannıx olur. Qarannıxdan da qorxardılar. Gəlib ora çatanda bu kişi başını belə qaldırır, erməni qorxub çığırır, qaçır. Kişi atı aparır, unu da yeyillər.

Bir gün bu kişi erməninin atıynan ölü yerinə gəlir. Baxır ki, bu erməni atın o üzünə baxır, bu üzünə baxır, dişinə baxır. Kişi deyir:

– Kirvə, nə axtarırsan?

Erməni deyir:

– Ara, gözümün qabağında o at cinə dönməseydi, deyərdim elə bu at mənim atımdı.

## 44. ŞİR GƏLİR ASLAN ÜSTÜNƏ

Bir qadının üsdünə başqa bir günü gəlir. Köhnə qadın ona belə bir sifariş göndərir:

Gün gülüsdan üsdünə,  
Gön gəlir bosdan üsdünə.  
Gedin deyin o tülküyə  
Gəlməsin aslan üsdünə.

Bu sözləri təzə gələn günüyə çatdırıllar. O da cavabında deyir:

Gedin deyin ağlamasın,  
Başına qara bağlamasın,  
Aslan təki cağlamasın,  
Şir gəlir aslan üsdünə.

## 45. KÜRD QIZINA VURULAN OĞLAN

Deyilənnərə görə, əvvəllər bir oğlan bir kürt qızına vurulur. Geyinip bəzənir, paybaratdı qızın dalıca gedir. Gəlip çıxır qızın obasına. Bu qızı öz əmisi oğlu da isdiyirmiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızın adamları oğlanın niyətini annıyıllar. Onu möökəm döyürlər, pal-paltarını da soyundurup yola salıllar.

Oğlan sızıldaya-sızıldaya, göynüyə-göynüyə, kor-peşman geri qayıdır. Gəlip evinə çatanda tay-tuşdarı yığılır yazıx oğlanın başına. Hərəsi bir sual verir:

– Ədə, a başı xeyirri, bu nə gündü? Səni kim döyüp?

– Yaxşı, bəs paltarrarın hanı, onnarı neynəmisən?

Oğlan deyir:

Kürd evində yedim yuxa,
Kürdün evin Allah yıxa.
Əynimdəki mahut çuxa
Bağışdadım kürdə, gəldim.

Kürd evində asdım sacı,
Yığıldı kürtdərin acı.
Başımdakı qızıl tacı,
Bağışdadım kürdə, gəldim.

Kürd evində yedim balıx,
Kürdün evin yıxsın xalıx.
Əynimdəki çit arxalıx,
Bağışdadım kürdə, gəldim.

Kürd evində yedim omacı,
Tutdu məni qara sancı.
Belimdəki gümüş qılıncı,
Bağışdadım kürdə, gəldim.

Bir soruşun mənnən axı,
Neynədin apardığın baratı?
Altımdakı kəhər atı
Bağışdadım kürdə, gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 46. MƏN GƏLMİŞƏM ALI BƏYƏ BAŞ ÇƏKƏM

Biri gəlin gətirir. Gəlinə qaynənəsi bir-iki həftədən sora deyir ki, bala, gəl gedəh alax eliyəh. O vax alax eliyirmişdər. Soğan əkiflər, onun alağını eliyirmişdər. Nəysə, bir gün belə, iki gün belə, axırı gəlin dilə gəlir. Ərinin də adı Alıymış. Qaynanasına deyir:

Mən gəlmişəm aş bişirəm, aş çəkəm,
Mən gəlmişəm Alı bəyə baş çəkəm,
Gəlməmişəm çayır çəkəm çırtdadam.

Onnan sora qaynana deyir ki, bala, nə cür bilirsən elə elə. Çayır çəkmirsən, get özün əraa qullux elə.

## 47. SİZ SAĞ OLUN

Rəhmətdih mənim dayım sədr işdiyirdi. Deməк, rayonda deyiblər ki, Babış gələndə deyin ki, itin ölüf, başın sağ olsun. Biri də o yannan bına deyir ki, ayə, o hazırcavafdı, sizə elə cavaf verəjək, a yazıxlar, dəymişiniz dura-dura kalınız töküləjəh. Elə səhər-səhər, – mədəniyyət evi var, həmişə yığışırdılar orıya camaat tezdən, – görüllər ki, dayım gəldi. Dayım gələn kimi bı deyir:

– Ə Babış, bəs eşitmişik itin ölüb. Başın sağ olsun.

Deyif:

– Nə qədər ki, siz varsınız, elə bilərəm bir belə itim var. Siz sağ olun.

## 48. QIZILQUŞNAN QARĞA

Qızılquş qarğaya deyif ki, qardaş, neçə il yaşıyırsan? Qarğa deyif ki, üş yüz il. Qarğa deyif:

– Bəs sən neçə il?

Deyif:

– Üç il.

İkisi də göy üzündə uçurmuş. Görürlər ki, bir sərçə qondu bir kola. Kola qonanda bu qızılquş şığıyır kola ki, sərçəni tuta, qələm



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bunun ürəyinin üsdünnən batır, gedir kürəyinnən çıxır. Qarğa gəlif görür ki, qızılquş can verir. Deyif:

– Qardaş, bu ürəh ki səndədi, üç il də sənə çoxdu.

## 49. SÖZ YARASI

Maralı yaralıyıllar dağda. Dağın diviynən çay gedirmiş. Maral qaça-qaça özünü saldı suya da, yaralıdı. Bir tısbağa da cığırnan gedirmiş. Marala deyir ki, mənnən aralı get qanın üsdümə tökülməsin. Bu söz marala əsər eliyif. Deyif:

– Ay tısbağa, ovçunun bu yarası məni öldüməyəjeydi, amma sənin bu sözün məni öldürəjəh.

## 50. ÇATA BİLİRƏM, GÖRƏM KİMİNDİ?

Yaz açılanda təkəyə deyillər:

– Bu keçilər kimindi?

Deyir:

– Hamısı moon.

Payız gələndə əldən düşüf, qüvvədən düşüf, qəyəyə çıxa bilmirmiş də. Qalmışmış qəyənin divində. Deyif:

– A təkə qağa, bu keçilər kimindi, getdi?

Deyif:

– Çata bilirəm, görəm kimindi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VII
# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Ağaj səmtinə yıxılar.
2. Ajı danışan şirin söz eşitməz.
3. Ajıxnan itirərsən, səvirnən gətirərsən.
4. Aj-yalavaş qudurğan olar.
5. Arvad – pis kişini ər eylər,
   Ortababı – şir ürəhli nər eylər,
   Yaxşısı – əri dillərdə əzvər eylər.
6. At addımına görə yox, adamına görə tanınır.
7. At qaşdı, örkən getdi – aləm bir-birinə dəydi.
8. Ata çörəydi, ana ürəydi.
9. Ayağıı yorğana görə uzat.
10. Bağa bax, üzüm olsun,
    Yeməyə üzün olsun.
11. Bağına gavalı, evinə qalalı dadanmasın.
12. Bal olma ki, hamı səni yeyə, zəhər olma ki, hamı sənə tüfürə.
13. Balam balasını isdər, mən öz balamı.
14. Bığda çörəyinin bıynızı olar.
15. Biri ölməsə, biri dirilməz.
16. Dağ dağa qavışmaz, insan inasana qavışar.
17. Dana, buzovlu yurtda qalmaz.
18. Diş dur ki, başın salamat olsun.
19. Dos yaxşıdı ye-iç, əmba alış-veriş eləmə.
20. El var ki, deyillər get ordan bir ağlıkəm tap gəti, bu kətdən deyillər qarşaa kim çıxsa gəti.
21. Əli yanıx bilər əli yanığın dərdini.
22. Əzizim əziz, tərbiyəsi onnan əziz.
23. Gejə qara, cüjə qara.
24. Hər daş-kəsəvnən baş yarmazdar.
25. Hər kəntdə bir eşşəh öldürməsən, baytar olmazsan.
26. Hər kəsin bir dərdi var, heş kimə deməz, ağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

27. İlan hara əyri getsə də, öz yuvasına, ojağına düz gedər.
28. İlan vıran ala çatıdan qorxar.
29. İnəyi duznan aldadılar, insanı söznən.
30. İsdi çörəh təndirdən,
    Minnəti yox pendirdən.
31. Kim özünə xor baxar,
    Boynuna torva taxar.
32. İt qulağını kəsənnən qorxar.
33. İt deyir, yiyəmin yeddi oğlu olsun, maa çörək atsın, hərəsinin bir loxmasını yeyim, qarnım doysun. Pişik də deyir, yiyəmin yeddi qızı olsun, hamsı da kor olsun, təpəsinə vurum, çörəyi əlinnən alım yiyim. Gör pişik nə pis arzu eliyir. Kor olsun e, deyir.
34. İtdər ölüp, qurtdarın bayramıdı.
35. İyid ər eldən gələr, oğul beldən.
36. Kasıp evdən çıxanda elə bilir ki, ev varranıp.
37. Kəsilsin iki əlin ki, bir başı saxlamıya.
38. Koramal deyir: "Mən çalmaram, çalmaram. Çalanda da elə çalaram ki, qız südü, qısır əmən südü, day südü, daylax südü ona dərman olar".
39. Köçən yurdun qədrini qonan yurtdan bilələr.
40. Kül başaa küllülər, serçələr səni dimdihlər.
41. Mal gedər bir yerə, iman gedər min yerə.
42. Mal yiyəsinnən, inəh sahibinnən miqdar götürər.
43. Malı yaxşı saxla, qonşuu oğru tutma.
44. Mazlumun ahı – devirər şahı.
45. Mehribançılıx harda, çörəh orda.
46. Namıs asasdı, qazan qarası gedər, namıs qarası getməz.
47. Öküz əməyi – çörək.
48. Ölü yəəsi kiridi, yasa gələn kirimədi.
49. Ölüdən şeytan da əl çəkif.
50. Piyadanın qaydasıdı atdıya gülər.
51. Qartal yumurtasınnan qarğa çıxmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

52. Qəjir deyif ki, dayım humbay olmaseydi, qurulu kotanı öküz qarışıx götürüf gedərdim. Humbay heş bir zada baxan döylü. Yurtda qalmış sür-sümük gəzir. Qaldırıf göydən buraxır, qırılır, gedif parçasını yeyir. Ona görə deyif ki, yanında xəjələtliyəm.
53. Qonax payı əlində gətirər, qarnında aparar.
54. Qurban olum o qana ki, üsdünnən bircə gejə ötsün (yəni üsdünnən bir gün keçdisə, demək, itdi-getdi).
55. Qurt balası qurt olar.
56. Quş var ətin yəllər, quş var ət yedirdəllər.
57. Səvir ajıdır, meyvəsi şifşirin.
58. Seyid Əhməd əliynən ilan tutur, onu da yalan tutur.
59. Sirr açannan el qaçar.
60. Söz qılışdan itidir.
61. Söz var izi bitirər, söz var başı itirər.
62. Toyux toyuxdu, o da su içəndə Allaha baxar.
63. Ulu sözünə baxmıyan uluya-uluya qalar.
64. Yağ yağnan qaynıyıp,  yarma yavan olar.
65. Yamanca dur burda, yaxşını tapınca.
66. Yeddi bajanax yolnan gedirmiş. Birdən biri qaydır ki, bir kişi olseydi söhbət eliyərdih. Yəni bajanaxların arası olmur.
67. Yumurtdamadı, yumurtdamadı, bəs falı nətəər oldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VIII
# ALQIŞLAR, QARĞIŞLAR

1. Ağ günnü olasan.
2. Allah köməyin olsun.
3. Allah başınnan töhsün.
4. Allah əvəzin versin.
5. Allah hamıya xoş gün qismət eləsin, biz də onun içində.
6. Allah kölgəni qalın eləsin.
7. Allah qanadını üsdündən əskik etməsin.
8. Allah qapısını üzaa açığ eləsin.
9. Allah sana da yaxşı günnər qismət eləsin, talehini, yolunu açıx eləsin.
10. Allah səni çörəynən sınağa çəkməsin.
11. Allah səni nalla mıxın arasında saxlasın.
12. Allah səni bizə çox görməsin.
13. Allah səni min budax eləsin.
14. Allah sizə yaman gün gösdərməsin.
15. Atın yürəh, itin hürəh olsun.
16. Balan qucağında salamat olsun.
17. Balaların barını yeyəsən.
18. Bir qoyuf min götürəsən.
19. Bostanın tağlı olsun.
20. Bu vaxtın sahabı üzünə gülsün.
21. Çırağın uca yansın.
22. Dağın qarrı, bağın barrı olsun.
23. Dayaxsız Allah səni dayax saxlasın.
24. Dünya durduxca durasan.
25. Elə xoşbax olasan ki, neyniyim, nejeliyim demiyəsən.
26. Göy kimi dirəksiz dayanasan.
27. Həmişə Allah yaxşı gündə eləsin.
28. Həmişə çırağın şölə versin.
29. Həzrət Abbas köməyin olsun.
30. İşığın gəlsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

31. İtin hürsün, işığın yansın.
32. Mıxı mismar eliyən Allah, köməyin olsun.
33. Neynim, nejə elim demiyəsən.
34. Qapın qonax-qaralı olsun.
35. Qohumun-qəvlənin yanında həmişə şaxlı gəzəsən.
36. Samavarın həmişə qaynar olsun, pilavın həmişə buğlu olsun.
37. Səni görüm qucağa oğul sidiyi tökülsün.
38. Səni görüm şad xəbər olasan.
39. Səni üç oğullu, bir qızdı olasan.
40. Seyid Əşrəfin cəddi köməyin olsun.
41. Sinəndə ağ tüh bitsin.
42. Sırfan bol olsun.
43. Stolun qırmızı olsun.
44. Suyun həmişə axar olsun.
45. Suyun axarlı olsun.
46. Torpağı sanı yaşıyasan.
47. Yaradanın əli kürəyində dursun.
48. Yediyin noğul olsun,
Doğduğun oğul olsun.
49. Yel qanatdı olasan.
50. Yeməyin isdi olsun.

* * *

1. Adın dağlara (= qara daşdara) yazılsın.
2. Adu addara qoyum.
3. Ağ gün üzünə həsrət qalasan.
4. Ağac əkib barın yemiyəsən.
5. Allah başaa mənim boyda daş salsın.
6. Allah ocağıvu keçirtsin.
7. Allah sənə qotur versin, dırnax verməsin.
8. Allah sənin başıvı qatsın, bəlkə mən yaddan çıxam
9. Allah ömrünə balta çalsın.
10. Allah üsdünə kölgə salmasın.
11. Allahın bəlasına gələsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

12. Axır yeyişin olsun.
13. Ayaxların qurusun.
14. Bacannan heç görüm tüstü çıxmasın.
15. Bala deməhdən dilin ağzında yansın.
16. Balaların yetim qalsın.
17. Balalarun bəhri-barın görmüyəsən.
18. Başa əlləmə düşsün.
19. Başın qadada qalsın.
20. Başınnan dərd əysik olmasın.
21. Baxt üzünə gülməsin.
22. Bayramın qara gəlsin.
23. Belin qırılsın.
24. Bizdə, kəntdə Sarı yamac varıydı, Sarı yamacın arxasındaydı qəbirstannıx. Bizdə deyirdilər ki, ayıvıı, o Sarı yamac örtsün. Yanı ölsün, basdırsınnar, bir də eyvin olmasın.
25. Boğazın qara yara tutsun.
26. Boyaa xam ip tutum.
27. Boyaa qamış ölçüm.
28. Boyuna boz ip (= boz qatma) ölçüm.
29. Ciyarın tuluğa dönsün.
30. Ciyarına ala düşsün.
31. Ciyarın dağlansın.
32. Çörəyin boyat olsun.
33. Dalınca qara daş.
34. Dar köynəhdə qalasan.
35. Dədən-nənən qabağa döşənsin
36. Dərtdən çıxıb dərdə düşəsən.
37. Dilaa qara yara çıxsın.
38. Dilaa qıyıx batsın.
39. Dilin ağzında yansın (= qurusun).
40. Dilin-ağzın kilitdənsin.
41. Dilin söz tutmasın.
42. Dilin qara yara töhsün.
43. Diri-diri yanasan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

44. Dırnaxların göyərsin.
45. Dırnaxların qaralsın.
46. Doğduğun qız olsun,
Doğradığın bez olsun,
Qazandığın darı olsun,
Qoyduğun da səbət olsun.
47. Ellər kəfəni biçsin.
48. Evində bayquş ulasın.
49. Əkdiyin soğan olsun, yığdığın sarımsax.
50. Əl atdığın ətək kəsilsin.
51. Əl çatmaz, ünyetməzə gedəsən.
52. Əlçim-əlçim gedəsən.
53. Ələ baxan olasan.
54. Əli qabarrı, qəlbi qubarrı olasan.
55. Əli saa qənim olsun.
56. Əli gözdərii avca töhsün.
57. Əli dişdərii qarna töhsün.
58. Əli sinənnən vırsın.
59. Əlin çörəyə çatmasın.
60. Əlin ağzına şirinnik aparammasın.
61. Əlin bəy xonçası görməsin.
62. Əlin dalaa çatmasın.
63. Əlin dizində qalsın.
64. Əlin göydə qalsın.
65. Əlin pükülü qalsın.
66. Əlin sığal görməsin.
67. Əlin urza tanımasın.
68. Əlin xına görməsin.
69. Əlin yar düyməsi aşmasın.
70. Əlin yar əlinə həsrət qalsın.
71. Əlin yumurransın.
72. Ərün papağına birə düşsün.
73. Ərxəcində su dursun.
74. Əzizdərin qabağa döşənsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

75. Goruna qor dolsun.
76. Görüm heç eynin açılmasın.
77. Gözün avcaa düşsün.
78. Gözünə ağ damsın.
79. Günün günbatannan doğsun.
80. Günün göy əskiyə bükülsün.
81. Gözdəra qan gəlsin.
82. Güllüyün küllük olsun.
83. Gündüz başın ağrısın, gecə dişin.
84. Filankəs bir yerdə yatsın, min bir yerə iy versin.
85. Halallıx almamış öləsən.
86. Heş dərda dərman tapılmasın.
87. Heş görüm qabağınnan axar su axmasın.
88. Heş görüm "uxay" demiyəsən.
89. Heş qəbir də tapbıyasan.
90. Həzrət Abbas qənimin olsun.
91. Həzrət Əli belini qırsın.
92. Xəmirin küt getsin.
93. İki əlin olsun, bir başın.
94. İki gözünnən olasan
95. İldırım səni vursun.
96. İy deyənin qalmasın.
97. Keçalaa bit düşsün.
98. Kim kimə duzax* qurursa, qabağına çıxsın.
99. Kimsəsiz qalıp bayquşa dönəsən.
100. Küllüklərdə qalasan.
101. Meyidin yeddi yol ayrıcında qalsın.
102. Müsdər** olasan səni.
103. Nənən mələr qalsın.
104. Oğlun-qızın qırılsın.
105. Oğul üzünə həsrət qalasan.
106. Ömrün bıdansın, bala.

---

* Duzax – tələ
** Müsdər – şikəst



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

107. Öz dırnağın öz üzünü şırımlaşın.
108. Payın palçığa dönsün.
109. Pütöv çörəyə həsrət qalasan.
110. Qadam ürəyaa.
111. Qan qusasan.
112. Qapı-qapı gəzəsən.
113. Qapın bağlansın.
114. Qapuzda it ulasın.
115. Qara vurğunun qavağınca yüyür. = Qara vurğunun qavağınca dolaş qal.
116. Qara yerə sıvax olasan.
117. Qara yola, qara mənzilə gedəsən.
118. Qarnaa qara yara çıxsın.
119. Qarnaa şiş batsın.
120. Qazancın qar suyuna dönsün.
121. Qəbrin dar olsun.
122. Qəbrin tez qazılsın.
123. Qəbrinə su dolsun.
124. Qərə yer sənnən ucada dursun.
125. Qığmığın* kəsilsin.
126. Qılçaların qırılsın.
127. Qırın-qırtıya möhtac olasan.
128. Qırmızı güllə ürəyın ortasınnan dəysin.
129. Qol qaldırıp oynuyammıyasan.
130. Qolların qıfıllansın.
131. Qolların yana açılmasın.
132. Qollarınnan dəyirman daşı asılsın.
133. Quduruf çiynəə ağız atasan.
134. Qulağın alqışa həsrət qalsın.
135. Qulağın ancax qərğiş eşitsin.
136. Qulağına yuyucu barmağı girsin.
137. Saçın qırmızı xına görməsin.
138. Saçın süpürgə olsun.

---

* Qığmığın – nəslin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

139. Sağ əlinin harayına sol əlin çatmasın.
140. Səhərin açılmasın.
141. Səni görüm al olasan.
142. Səni görüm dünya işığına həsrət qalasan.
143. Səni görüm it ağzına düşəsən.
144. Səni görüm it dərdinə düşəsən.
145. Səni görüm mağmın olasan.
146. Səni görüm mil sayasan.
147. Səni görüm qız qalasan.
148. Səni görüm tikə-parça olasan.
149. Səni görüm uc ellərə düşəsən.
150. Səni görüm vurğun vursun.
151. Səni görüm yannarını qopardasan.
152. Səni incəlib iyniyə keçəsən.
153. Səni teylənəsən*.
154. Səni didihlənəsən.
155. Səni qara yel (= ağ yel) əysin.
156. Səni verən Allah sənə qənim olsun.
157. Sinəndə ağ tük bitməsin.
158. Suyun kəsilsin.
159. Sümüyün çattasın.
160. Şirin tikən acı olsun.
161. Tay-tuşuna xar olasan.
162. Təhlərin qırılsın.
163. Tək gəlib, tək gedəsən.
164. Ürəyi güllə dəlsin.
165. Üzaa tuman bağı (= şalvar bağı) açılmasın.
166. Üzaa daş yarası çıxsın.
167. Üzə qara yel dəysin (= yesin).
168. Üzü tüpürcəkli olasan.
169. Üzüü torpağ örtsün.
170. Üzün duvax görməsin.
171. Üz üsdə gedib, arxası qatda qayıdasan (= gələsən).

---

* Teylənmək – parça-parça olmaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

172. Vıran əlin olmasın.
173. Vırğın vursun.
174. Vırğının güjdü gəlsin.
175. Vurğun təpənnən vırsın.
176. Yanın yerdə qalsın.
177. Yannarın dəliy-dəliy olsun.
178. Yaran qaysax bağlamasın.
179. Yarıyıb heş ağ günə çıxmıyasan
180. Yasdığın daş, yorğanın kəfən olsun.
181. Yaxan əllərdə qalsın.
182. Yeddi il dilin tutulsun.
183. Yeddi yetimlə bir dərədə qalasan.
184. Yezid əlinə tüşəsən.
185. Yorğan-döşəh xəsdəsi olasan.
186. Yurdun xaraba (= kor) qalsın.
187. Yurdunda soğan, sarmsağ əkim.
188. Zəmin göy biçilsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# IX
# TAPMACALAR

1. Gedən leyli, gələn leyli,
Bir davan üsdə duran leyli.
**(qapı)**

2. Buxarı, ay buxarı,
Tüsdü çıxır yuxarı.
Cənnətdən bir oğlan gəlir,
Çiyni yaşıl çuxalı.
**(bənövşə)**

3. Bostanda bir arvad, tuman geyib qatbaqat.
**(kələm)**

4. Ləyəndə, ay ləyəndə,
Gül boyunu əyəndə.
Yeyəsən kal vaxtında,
Yeməy olmur dəyəndə.
**(xiyar)**

5. Püsdədi, ay püsdədi,
Meyvələrdən hansıdı
Dənəsi lap üsdədi?
**(çiyələk)**

6. Girdədi, ay girdədi,
Günəş kimi girdədi,
Göydə deyil yerdədi.
**(günəbaxan)**

7. İynəsi çoxdu, sap yeri yoxdu.
**(kirpi)**

8. Sarı-sarı sandıqlar, içi dolu fındıxlar.
**(boranı)**

9. Oyanı taxta, bu yanı taxta,
Şakqulu bəy otaxda.
**(fındıq)**

10. Ay lələ, durun gedək,
Karvanı sürün gedək.
Yüz otuz iki min qapıya
Bir qıfılı vurun gedək.
= Ay baba, dur gedək,
Karvanını sür gedək.
Səysən səkkiz qapıya
Bir qıfılı vur gedək.
**(qəbirstanlıq)**

11. Alaca məzəy
Suda oynar.
Dıpbılım çalar
Bir dənə oynar.
**(düyü)**

12. Altı daşdı, daş deyil,
Üsdü daşdı, daş deyil.
Heyvan kimi otlayır,
Heyvana yoldaş deyil.
**(tısbağa)**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

13. Bir güzgüm var iki qapaxlı,
Altı-üsdü saçaxlı.
**(göz)**

14. O nədi ki, səkkizi san darağı,
Doqquzu don darağı,
Dördü xas qırmızı,
İkisi mazan darağı.
**Açması: dördü inək məməsi, ikisi qoyunun məməsi, doqquzu donuzun, səkkizi də itin, canavarın.**

15. Atdım atana,
Dəydi kotana.
Deryada balığa,
Düzdə ceyrana.
**(ildırım).**

16. Dağdan gəlir dağ kimi,
Qolları budax kimi,
Əyilir su içməyə,
Böyürür oğlaq kimi.
**(sel)**

17. Tatı tatdan gördüm,
Əcəb sifətdən gördüm,
İyirmi dörd ulduzu,
Dord ayın altda gördüm.
**(atın ayağının nalı, mıxı)**

18. Təpənin üsdə küp, küpənin üsdə meşə, meşəni porsux eşə.
**(baş, saç, bit)**

19. Altı darı, üsdü sarı.
**(əncil)**

20. Lələm oturuf daş üsdə,
Qələm oynayır qaş üsdə.
Mən qabağın gətirim,
Ardın gətir baş üsdə.
**(bayatı)**

21. O nədi ki, göydən yerə sallanır?
O nədi ki, hər nə desən allanır?
O nədi ki, göbəyinnən nallanır?
O nədi ki, gəzir bütün cahanı?
**Açması: O uşaxdı hər nə desən allanır.**
**O yağışdı göydən yerə sallanır.**
**O günəşdi gəzir bütün cahanı.**
**O uşaxdı göbəyinnən nallanır.**

22. – Əyri-üyrü, hara gedirsən,
–Təpəsi dəlik, sən nə deyirsən?
**(tüstü)**

23. A ana, maa yağ göndər,
İnəyləri sağ göndər.
Doğmamış düyələrdən
Çaxlanmamış yağ göndər.
**(arı)**

24. Çil toyux, çiləmə toyux,
Başını kəsdim, qanı yox.
**(xalça)**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

25. Qara köpək qapıda yatar,
Əl vuranda şıllağ atar.
**(qıfıl)**

26. Tap-tapmaca,
Gül yapmaca,
Məməli xatın,
Dişləri yox.
**(toyuq)**

27. Əziziyəm, tut ağacı,
Qarmala, tut ağacı.
Bir yerdən ağzı var,
İki yerdən tutağacı.
**(sərnic*)**

28. İki ləyən qapa-qap,
Birin itir, birin tap.
**(Ay, Gün)**

29. Tap-tapmaca,
Gül yapmaca,
Dəvədən iraq,
Dəmir qulağ.
**(………)**

30. El yatdı, oba yatdı,
Eyvaz ayağın uzatdı.
**(qapının cəfdəsi)**

31. İlim-ilim qar,
Dizimətən qar.
Uşdu bir kəklik,
Qondu bir dilbar.
**(qar samandı, sovurduqca yarısı uçur, yerdə qalan buğdadı)**

32. O nədir ki, doğar əlsiz-ayaxsız,
Üç ay keçər, olar əlli-ayaxlı.
**(çömçəquyruq)**

33. Çıxdım təpiyə,
Düşdüm küpüyə.
**(uzunboğaz çəkmə)**

34. Derdim mən cavanıdım – ağsaqqal
Yaşdaşdım, oldum qırmızı saqqal
Qojaldım oldum qara saqqal.
**Açması: Böyürtkən – siftə çiçəhliyəndə ağ olur, bir əz da yetişənə yaxın qızarır, qojalanda da qaralır, dana.**

35. Gəl, ay qəssaflar başı,
Məni yolluyuf yüzbaşı.
Deyir maa bir zərf göndər
Nə erkəh olsun, nə dişi,
Nə yayı görsün, nə qışı.
**(dombalan)**

36. Çəpərə düşər şıkkıldamaz.
**(gün)**

* sərnic – mis qab



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

37. Uzun hokkar,
Sarı sakkal,
Onu tafmıyan
Olsun çakkal.

**(qamış)**

38. Mən baxıram, o qaçır.

**(qulaq)**

39. Dayım oğlu İsmayıl,
Şapalağa daim mayıl,
Qulağı dəmirdəndi,
Köynəyi dəridəndi.

**(dəf)**

40. Gedir, gedir, izi yox,
Kömbə salır, duzu yox.

**(………..)**

41. Yayda quruyur,
Qışda əriyir.

**(qurud)**

42. Halalar, ay halalar,
Çöldə dovşan balalar.
Ayağından su içər,
Dimdiyindən balalar.

**(sünbül)**

43. Uzun qızlar uzanır,
= Uzun-uzun uzanar,
Özünə köynək qazanır.

**(oxlov)**

44. Bir quşum var alaca,
Gedər qonar ağaca.
Özünə bir ev tikər,
Nə qapı qoyar, nə baca.

**(barama)**

45. O nədir ki, göydən düşər,
Özü pərsiz, budaxsız.
Onu gəlib bir quş eşər,
Yalar dilsiz, dodaqsız.

**(qar və gün)**

46. Bir ağacım var, on iki budağı,
Hər budağın otuz yarpağı,
Hər yarpağın bir üzü qara, bir üzü ağ.

**(il, aylar, günlər, gecə, gündüz)**

47. Ala qapı, zəncir sapı,
Beş budağı, bir yarpağı.

**(əl)**

48. Suya girər bir olar,
Sudan çıxar min olar.

**(saç)**

49. Bizim bir itimiz var,
Yetmiş yeddi dili var,
Ağzı yox, adam tutur.

**(gicitkən)**

50. Min bir oğul, bir ata,
Hamısı minib bir ata.

**(qarğıdalı)**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

51. Bu meşə gül meşəli,
Altı tər bənövşəli.
Bir kişinin min oğlu,
Hamısı bir peşəli.
**(bal arısı)**

52. Nə qolu var, nə pəri,
Nə gözü var, nə səri.
Dünən bir tikə yedim,
Üstü ət, içi dəri.
**(quş mədəsi)**

53. Birdən hər bir tərəfdən,
Parlaq şəfəq saçılır.
Səmanın yaxasında,
Sanki çiçək açılır.
**(atəşfəşanlıq)**

54. Yaraşıqlı çöhrəmə
Mən yeddi rəng vururam.
Yağışdan sora göydən,
Asılıram, dururam.
**(göy qurşağı)**

55. Birdən yanımda,
Bir çiçək bitdi.
Əyildim dərəm,
Uçaraq getdi.
**(kəpənək)**

56. Böyüyüb yavaş-yavaş,
Mən şirəyə doluram.
Payızın ilk anında,
Lap yeməli oluram.
**(əncir)**

57. Lap balaca fanaram,
Kibritsiz də yanaram.
**(lampa)**

58. Aşağı qoyanda dolur
Yuxarı tutanda boşalır.
**(papaq)**

59. Dağdan gəlir Banu xanım,
Əlləri xınalı xanım.
Dindirirsən farsı deyir
İndiki seyranı xanım.
**(qaranquş)**

60. Uçuf gəlir səhər-səhər
Bizə verir yazdan xəbər.
**(qaranquş)**

61. Biri deyir dur gedək,
Biri deyir haraya gedək?
Biri də başını buluyur.
***Açması:* Dur gedəh deyən sudu, haraya gedəh deyən qumdu, başını buluyan da qamış**.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# X
# BAYATILAR

1. Dəryada sijim gördüm,
Sijimin üjün gördüm.
Bel bağlama fələyə,
Fələyin güjün gördüm.

2. Dağların sinəsinə,
Qar yağıf sinəsinə.
Aləmə sığmıyən başım,
İndi sığıf sinəsinə.

3. Dağlarda lala yalqız,
Bitifdi lala yalqız.
Qorxuram qəriv öləm,
Meyidim qala yalqız.

4. Bu dağda maral azdı,
Ovçu çox, maral azdı.
Bir maralın dalıncən
Gör neçə maral azdı.

5. Dağına binə gəlləm,
Gedərəm, genə gəlləm.
Mən vətənə qayitsəm,
İmana, dinə gəlləm.

6. Çıxaram, ün dağlara,
Bağrı bütün dağlara.
Öz vətənimə qayitsəm,
Salaram ün dağlara.

7. Mən aşıx vətənim yox,
Bir qulam, satanım yox.
Düşmüşəm qərib ölkəyə,
Qolumnan tutanım yox.

8. Bu dağın o üzündə,
Qoyun otlar düzündə.
Mən yarımı tanıyıram
Qara xal var üzündə.

9. Bulax üstü toz olar,
Üstü dolu qız olar.
Nə deyirsən qıza de,
Gəlin hüllükbaz olar.

10. Bulax üstü pıtrax,
Döşək gətir oturax.
Birin sən de, birin mən,
Ağız, bəlkə sözü qurtarax.

11. Göynən gedən quba qazlar,
Laçın vırar, tükün tozlar,
Kəlbəcərdəki qızlar,
Mənim sizdə nəyim qaldı?

12. Əsmə Gəncəm, əsmə,
Əsərəm iki səncə.
Dumanım dumanınca,
Çiskinim iki səncə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

13. Nazdara bax, nazdara,
Yem tökürəm qazdara,
Qazdar yeyir doyunca
Kağız yazıram qızdara.

14. O qızın məməsin yeyim,
Sındırım giləsin yeyim.
Ağzım şirin olmasa,
Gözünün giləsin yeyim,

15. Xoruz ban verəndə gəl,
Sinəm (=yaram) qan verəndə gəl.
Sağlığımda (= sağ günümdə) gəlmədin,
Barı, can verəndə gəl.

16. Qərib öldü, götürün,
Dar küçədən ötürün.
Qəribi az bir vaxta,
Yiyəsinə yetirin.
= Qəribin vay xəbərin
El-obasına yetirin.

17. Ay elə sökülmüşəm,
Xəzan tək tökülmüşəm.
Toy paltarı istədim,
Kəfənə bükülmüşəm.

18. Əziziyəm, qar gəlir,
Boran gəlir, qar gəlir.
Qapı-baca açıxdı,
Giley mənə ar gəlir.

19. O taydan Bəhrəm gedir,
Əlində dəhrəm gedir.
Balasından xoşum gəlir,
Anasından zəhləm gedir.

20. Ələkdə var barama,
Əl vurmayın yarama.
Anam tutsun çırağı,
Bacım baxsın yarama.

21. Boyatının zilinnən,
Çağır gəlsin zilinnən.
Mən dağdan qar göndərim,
Sən dərginən gülünnən.

22. Kəlbəcərin ağaşdarı,
Bar vermir başdarı.
Bizi yurdumuzdan eləyənin
Qırılsın qardaşdarı.

23. Qızılgül qəhər oldu,
Pişmədən qəhər oldu.
Allah, bir loxma çörəy,
Bax, bizə zəhər oldu.

24. Bostanda tağım yandı,
Əl vurma yarpağım yandı.
Mən qərif olanda,
Bütün əndamım yandı.

25. Qardaşın kürən atı,
Meydana girən atı.
Heş bəndələr minməsin,
Qardaşım minən atı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

26. Lələyəm bu başdan mən,
Yemərəm hər aşdan mən.
Nə atam var, nə anam
Yaranmışam daşdan mən.

27. Kəkliyin sərti getdi,
Mana dərt əkdi, getdi.
Odunu, yalovunu,
Üsdümə tökdü, getdi.

28. Fələy, sənin dad əlinnən,
Dadı-bedad əlinnən.
Mən sana neyləmişdim,
Çəkirəm dad əlinnən.

29. Gülü dəsdə bağlaram,
Dərif dəsdə bağlaram.
Salaram balamı yadıma,
Asda-asda ağlaram.

30. O dağda dəvə damı,
Tikilif dəvə damı.
Nə nökər oldum, hakk aldım,
Nə oldum əv adamı.

31. Yoruldum, yolda qaldım,
Susadım, çöldə qaldım.
Nə dünyadan pay aldım,
Nə yarı yolda qaldım.

32. Alıfdı bu dərt məni,
Doğruyur bənt-bənt məni.
Balamı əlimnən alıf,
Gəzdirif kənt-kənt məni.

33. Dəryada çırax yanır,
Çırax nə irax yanır.
Bala şirin şərbətdi,
İşdikcən ürəy yanır.

34. Sənin ala gözlərin,
Qəm piyalə gözlərin.
Qorxuram tifar uça,
Atda qalar gözlərin.

35. Dağların lalasına,
Gül qoyun arasına.
Analar qurban olsun,
Balamın yarasına.

36. Qızılgül həşəm oldu,
Dərmədim, həşəm oldu.
Allah balamı əlimdən aldı,
Ağlamağ peşəm oldu.

37. Dağları qar alıfdı,
Yağıfdı, qar alıfdı.
Bir dağın kənarında
Bir butax saralıfdı.

38. Gedən boz atdı,
Getmə, yolun uzaxdı.
Özün yaxşı oğlansan,
Hayıf ki, ağlın azdı.
= Oğlan, atın bozdu sənin,
Oğlan, yükün qozdu sənin.
Özün şaxsiyyətli oğlansan,
Hayıf kin, ağlın azdı sənin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

39. Yük üstündə güllü xonça,
Kim dindirə, kim aça.
O yara qurban olum,
Dindirə, qəlbimi aça.

40. Hərsin-hərsin, ay nənə,
Gülün dərsin, ay nənə.
Qapıda duran oğlana
Yazığın gəlsin, ay nənə.

41. Gəncədən bir əz bəri,
Tikilmiş bir əz bəri.
Könlümün istəklisi,
Dilimin bir əzbəri.

42. Bucağında,
Od yanar ocağında.
Baş qoyum dizin üsdə,
Can verim qucağında.

43. Qardaşım qaladadı,
Yolu Karbaladadı.
Gözdədim qardaş gəlmədi,
Həlbət başı bir baladadı.

44. Ay dolanır, batmaz,
Dərtdi gejə yatmaz.
Sənin kimi cananı
Xudam bir də yaratmaz.

45. Əziziyəm xal-xala,
Qara bağrım xal-xala.
Qorxuram cavan öləm,
Sevdiyimi xalx ala.

46. Əzizinəm, yar dağı,
Külüng ilə yar dağı.
Getməz cannan acısı,
İllah ki, yar dağı.

47. Əzizim, yolum budu.
Dərt budu, zulum budu.
Mən ağlaram, yar gülər
Ölümlü günüm budu.

48. Aşiqəm, dili şirin,
Kəhliyin dili şirin.
Məni yarım dindirsin
Şəkərdən dili şirin.

49. Əzizim, dinməz, ağlar.
Döşəyim dinməz, ağlar.
Dedim, dost, himmət eylə,
Danışmaz, dinməz, ağlar.

50. Əzizim, gül yanağa,
Ağ buxax, gül yanağa.
Fələh də həsrət qoydu,
Yar deyə, gülyanağa.

51. Mən aşiq, göz dərmanı,
Təbibi göz dərmanı.
Yarıma canım qurban,
Yüz il də gözdər məni.

52. Əzizim, bala dağı,
Bağ dağı, bala dağı.
Hər dərtdən betər olar
Anaya bala dağı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

53. Əzizinəm, bir də qan,
Oxu dərsin, bir də qan.
Bu yaralı gözdərim,
Bir yaş tökər, bir də qan.

54. Əzizim, bala qaşdı.
Çeşminnən bala qaşdı.
Bulut tikən yuvadan
On iki bala qaşdı.

55. Eləmi, arxa gəlsin,
Su axsın, arxa gəlsin.
Mən təkəm, düşmənim çox,
Köməyə arxa gəlsin.

56. Əzizinəm, gül sənə,
Bülbül sənə, gül sənə.
Yarım, dağdan qar mənə,
Mən arannan gül sənə.

57. Bənövşəyəm, tütərəm,
Kol dibində bitərəm.
Gözətdərəm gəlməzsən,
Dizin-dizin gedərəm.
= Eşitsəm elim, yurdum alınıf
Boynu əyri bitərəm.

58. Qaladan biri gəlir,
Gözümün nuru gəlir.
Bı arxı kim çəkibdi,
Suyu nə duru gəlir.

59. Nərgizdər, ay nərgizdər,
Top-top bitən nərgizdər.
Qiyamat o gün qopar,
= Doyub səndən ata-ana
Torpax örtər, yer gizdər.

60. Cəbrayılın yasdı yolu,
Su gəldi, basdı yolu.
İsdiyirəm duram gələm,
Gavırrar kəsdi yolu.

61. Şıxım mənəm, şıxım mən.
Şıxın koulun yıxım mən.
Girdim dosdun bağına,
Nə dərmişəm, çıxım mən?

62. Arazı keçən də var,
Suyunu içən də var.
Tutmuyun vətən adın,
Ürəyi keçən də var.

63. Qondaran* dihdabandı,
Yerə qoyma, amandı.
Sevəsən, almıyasan,
Görəsən nə yamandı.

64. Göndərmişəm bir kisə,
Qorxuram bağrı bişə.
Sən özün bir iş işdə,
Yar üsdə kölgə düşə.

65. Gülü sanjdım divara,
Bülbül gələr suvara.
Qışımız belə keşdi,
Yazımız gəlir avara.

---

* qondaran – ayaqqabı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

66. Dəvə, dəvə, ya dəvə.
Karvan keçər, ya dəvə.
İsdərəm duram gedəm,
Evim oxşar yad evə.

67. Keşdi günüm, ağlaram,
Oldu zülüm, ağlaram.
Bir vədəsiz yel əsdi,
Töhdü gülüm, ağlaram.

68. Bağa su düşdü, neynim,
Bağ suyun işdi, neynim.
Qismət, bəxt paylananda
Mənə bu düşdü, neynim.

69. Bu yol Cavada gedər,
Aşar, Cavada gedər.
Uçuf könlümün quşu,
Gör nə havada gedər.

70. Əzizim, qazan ağlar,
Od vuran qazan ağlar.
Qürbətdikdə ölənin
Qəbrini qazan ağlar.

71. Nazbalış baş altdadı,
Qara göz qaş altdadı.
İsdiyirəm duram gələm,
Qollarım daş altdadı.

72. Ana yeri,
Əzizdi ana yeri.
Cənnətdən də şirindi,
Hər kəsə ana yeri.

73. Vətən ağlar,
Köynəyi kətan ağlar.
Dağ çəkdi elə düşmən,
Anam, ah vətən, ağlar.

74. Vətəndə,
İgid gərək vətəndə.
Elin sözü bir olsa,
Yağı qalmaz vətəndə.

75. Əzizim, gərdəyimə,
Girmədim gərdəyimə.
Vətən mənə tapşırıb,
Düşmənə boyun əymə.

76. Bişirim, aşım, səni,
Töküm göz yaşım, səni.
Hara götürüm qaçım
Bəlalı başım, səni.

77. Bayram bayramın olsun,
Ellər heyranın olsun.
Gedirsən get, tez qayıt,
Xalan qurbanın olsun.

78. Oturdum cejim üsdə,
Çəkməsi dizim üsdə.
Eşitsəm ki, gəlirsən,
Muşdulux gözüm üsdə.

79. Ay mağar pərri-pərri,
Qapısı qoşa nərri.
Gireydim yar qoynuna,
Çıxeydim tərri-tərri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

80. Qonşu qızı, bizə gəl,
Qırmızı gey, bizə gəl.
Məhlədən yol yox isə,
Bağdan hərrən bizə gəl.

81. Əzizim izlərimnən,
Ağrı gəlir dizlərimnən.
Bilseydim ayrılıxdı,
Öpərdim gözlərinnən.

82. Ay yolnan gedən bəndə,
Bir heyva gördüm səndə.
Heyva kimi saraldım,
Heş könlüm yoxdu səndə.

83. Armud o qoşa haça,
Əlim dolaşdı saça.
İgid ona deyərəm,
Sevgilisin ala, qaça.

84. Bu ayrılıx nədəndi?
Günüm qəmdi, kədərdi.
Nazın üzübdü məni,
Bu naz etmək nədəndi?

85. Ağız, kimin qızısan,
Almadan qırmızısan.
Dədən-nənən bəsdəmiş,
Axır genə bizimsən.

86. Ay oğlan, arxınan gə,
Çiməni çarxınan gə.
Mən səninəm, sən mənim,
Danışma, xalxınan gə.

87. O taydan od atdılar.
Dəsmalını tutdular.
On iki mixəh, bir darçın
Yara sovqat tutdular.

88. Afdafanı götdü yar,
Gör həənə getdi yar?
Ova tünnüh, boy alçax,
Aralıxdan itdi yar.

89. Getdiyin Məşəd olsun,
Sürmə çək, qəşəh olsun.
Mana əl çaldın,
Ürəyin nə gülsün, nə şad olsun.
Allah ürəyini şad etməsin fələyin.

90. Ağlıyan başdan ağlasın,
Kiprihdən, qaşdan ağlasın.
Oğlu ölən analar
Dursun o başdan ağlasın.

91. Su yoxdu, dəstəmaz alam,
Üz üsdə səjdədə qalam,
Ölüf əzan deyən balam,
Ciyər yanır, əzalıyam.

92. Çıxıf kamanı kinədən,
Dəyifdi ox bı sinədən,
Əl üzmüşəm Mədinədən,
Həmişə Kərbəlalıyam.

93. Dağlarda ahım qaldı,
Həsrətim, ahım qaldı.
Yurd addı, Vətən addı,
Sultanım, şahım qaldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

94. Əzizim, nə uzaxdı,
O dağlar nə uzaxdı.
Yurd həsrəti çəhməhdən,
Saşdarıma qar yağdı.

95. Anam, anam, öz anamı,
Ağlıyaram öz anamı.
Özgənin ağlamağı nə lazımdı,
Özüm ağlıyım öz anamı.

96. Güneylər, a güneylər,
Gün düşər, ey güneylər.
İki həsrət bir-birin görəndə
Bayramın o gün eylər.

97. Əzizinəm, odu keşdi,
Odu qoy, odu keşdi.
Gözlərin açıx olsun, ay Yaxşı,
Su sonalar odu, keşdi.

98. Əzizinəm, otdum gə,
Dos bağına düşdüm gə.
Yaxşı günümdə gəlmədin,
əzizim,
Yaman günə düşdüm, gə.

99. Məni görən ağlasın,
Yuxu verən ağlasın.
İndi görən tanımaz,
Əzəl görən ağlasın.
= Məni görən ağlasın,
Yıxıf hörən ağlasın.
İndi görən tanımaz,
Əvvəl görən ağlasın.

100. Mənim dərdim uludur,
Ulu dərtdən uludur.
Açıf dərdimi desəm,
Dərtdi dərdin unudur.

101. Haray, ellilər, haray!
Əli bellilər, haray.
Dəhnədən arxım uçub,
Əli bellilər haray.

102. Haray, elli neyləsin?
Əli belli neyləsin?
Dəhnədən uçan arxa,
Əli belli neyləsin?

103. Ay bu gələn kim ola?
Kim bilir ki, kim ola?
Açın qapını gəlsin,
Bəlkə bir həkim ola.

104. Bayquş mənəm,
Quşlardan say quş mənəm.
Yaram həddən bepay olub,
Sızıldaram yay, qış mən.

105. Qaranquşam, qaranquş,
Qənədim ayrış-ayrış.
Məni vıran bəy oğlu
Qan qussun ovuş-ovuş.

106. İlan, ilan, talx ilan,
Başın götür, qalx, ilan.
Canım, sənə fələy eyliyib,
Nə işin var xalxınan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

= Məni vurup tarxlar,
Başımı götürüb qalxıram.
Mənə fələk eliyip,
İşin yoxdu xalxnan.

107. Gəmim dəryada qaldı,
Sındı, dəryada qaldı.
Ölməyimə yanmıram,
Heyif, yar yada qaldı.

108. Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Qız gözümün qarasıdı,
Oğul ürək başıdı.

109. Gəl gedəh Daşbulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birin mən
Tökək qan-yaş bulağa.

110. Sinəmin yarası var,
İçində yarası var.
Al xəncəri, yar sinəmi,
Gör yanmıyan harası var?

111. Arazın üsdüncən gəl,
Altı yox, üsdüncən gəl.
Yığ başının dəsdəsin,
Özün də üsdüncə, gəl.

112. Arxalığın narışdı,
Boyun bircə qarışdı.
Mən burdayam, sən orda,
Bilmirəm, bu nə sıfarışdı.

113. Arxalığı yaşıl oğlan,
Əcəb yaraşır oğlan.
Gəlmə bizim məhliyə,
Anam dalaşır, oğlan.

114. Papirosun qəşəyi var,
Çəhməyə qəşəyi var.
Mən dedim, sən olasan,
Sənnən də qəşəyi var.

115. Haray, məni vurdu qəm,
Oturdu qəm, durdu qəm.
Şad ikən otduğum yerdə
Aşdı qapını, girdi qəm.

116. Bu dağı qaçan mən,
Qavan yoxdu qaçam mən.
Sinəm dərtdər dükanı.
Oxuyan yox, açam mən.

117. Ələm qara boyandı,
Üjü yerə dayandı.
Bir belə dərdinən, odunan,
ağrıynan, fikirnən
Daş olsa çatdardı
Bağrım torpaxdı, dayandı.
= Əzizim, dayanmışam,
Düm göyə boyanmışam.
Daş olsaydım ərirdim,
Torpağdı dayanmışam.

118. Dağları gəzdim gəldim,
Daşdarın düzdüm gəldim.
Səni elə etibarsız gördüm,
Əlimi üzdüm gəldim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

= Dağları gəzdim gəldim,
Daşdarın düzdüm gəldim.
Cabrayıl kimi vətənimnən
Əlimi üzdüm gəldim.

119. Köynəyi kətan oğlan,
Dam üsdə yatan oğlan,
Yarını aparıflar,
Bexəbər yatan oğlan.

120. Ay qız, adın Mirvari,
Danışmırsan, gül barı.
Evimizə gəlmirsən,
Qonşumuza gəl barı.

121. Ay qız, adın Yaməni,
Sıxmalıyam məməni.
Sıxarsan incidərsən
Oyadaram nənəmi.

122. Oğlan adın Yaqubdu,
Günlər ara olufdu.
Verdiyin qızıl üzük,
Barmağımı boğubdu.

123. Bu dağlar asan dağlar,
Sünbülü süsən dağlar.
Üsdünnən ağır elin köçüf.
Sən elə osan, dağlar.

124. Gəlin gəlir, haçan gəlir?
Sirr-sözümü açan gəlir.
Gecə yazıf, gündüz pozan.
Axura-uxura s.... gəlir.

125. Mən aşıx, dan yeridi,
Qızaran dan yeridi.
Ay qız, iki məman arası,
Yatmağa can yeridi.
= Qızaran dan yeridi.
Qarabağ xan yeridi.
İki döşün arası,
Yamanca can yeridi.

126. Ay bu gələn vaxdı,
Ay su gələn arxdı.
Dur çıxax balkona,
Yar gələn vaxdı.

127. Köynəyi sarı canım,
Çalıfdır arı canım.
Deyir, sən gedənnən bəri, a
zalım balası,
Qalmıyıf yarı canım.

128. Yük üsdə kilim yandı,
Od tutdu kilim yandı.
Ədə, a zalım balası, səni mən
diləməhdən,
Ağzımda dilim yandı.

129. Traktorun təkəri,
Sındırım yeyim şəkəri.
Aaz, İlahidən qısmatdı,
Oğlan qızın nökəri.

130. Samavarın səsinnən,
Ölürəm yar həvəsinnən.
Əl-aman eylərəm
O yarın gül nəfəsinnən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

131. Gəl məni dindir oğlan,
Üzümü güldür, oğlan.
Taxsırım olsa, oğlan,
Vur məni öldür, oğlan.

132. Dedim Əli adına,
Əli yetsin dadına.
Əli, Əli deyəndə
Məni də sal yadına.

133. Dərmanım pis günə,
Dən tökmüşəm üsdünə.
Ay arvad, sən öldün qurtardın,
Məni qoydun pis günə.

134. Qoyun otdar köşədə,
Otdar doyar köşədə.
Saa da qurban olaram,
Səni görən gözə də.

135. Aşıx, elə bir də gə,
Siyah telə bir də gə.
Əyər bizdən incisən,
Bizim elə bir də gə.

136. Gəlirdim yastı yolu,
Su gəldi basdı yolu,
İstədim gələm çıxam,
Erməni kəsdi yolu.
= Ağdamın yastı yolu,
Su gəlib basdı yolu.
Mən anama tələsirdim
Yağı düşmən kəsdi yolu.

137. Gəlişin yaza bənzər,
Boyun şahmara bənzər,
Eşitdim Mətanət qızım gəlif,
Qış günüm yaza bənzər.

138. Eləmi, ay Murova,
Murov düşüf qırova.
Hər dərdə dərman bulsam,
Bu dərdə yoxdu dava.

139. Bu oba, uzun oba,
Gəl yurda düzül oba.
Azalannar çoxaldı,
Azaldı bizim oba.

140. Əzizim, Göyçə mənim,
Zəngəzur, Göyçə mənim.
Sağalmayan dərdimdi
Zəngəzur, Göyçə mənim.

141. Əzizim, ipək yolu,
Çin yolu, ipək yolu.
Bu yol vətənə gedir,
Döşənib öpək yolu.

142. Buxarı qurum oldu,
Yandıxca qurum oldu.
Vətəndən ayrı düşdük,
Bizə bir zülüm oldu.

143. Dağların inci mənəm,
Yada yavançı mənəm.
Baş qoyub dizin üstə,
Can versəm, incimərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

144. Mən aşıq, bayat məni,
Ad versən, say at məni.
Baş qoyub dizin üstə,
Çox yatsam, oyat məni.

145. Su gələr, ellər gələr,
Dağlardan sellər gələr.
Vəfalı dostun olsa,
Dağları dələr gələr.

146. Mən aşıq, sən gələnə,
Sənət ver, sən gələnə.
Nə qədər ağır olsa,
Gözdərəm sən gələnə.

147. Şuşanın yolu fərman,
Torpağı gözə dərman.
Sənə bir məktub yazım
Yarı dərd, yarı dərman.

148. Mən aşıq yuxudadı,
Xumar göz yuxudadı.
Qəm yemə, dəli könlüm,
Mətləb verən xudadı.

149. Bu arxı kim qazıbdı?
Üsdə kimlər gəzibdi?
Heş kəsdə günah yoxdu,
Yazan belə yazıbdı.

150. Mən aşiq, bağda dara,
Başın yu, bağda dara.
Bülbülü güldən ötrü.
Çəkdilər bağda dara.

151. Gecə keçdi çaxmaxdan,
Sular doymur axmaxdan.
Gözümə sarı gəlib,
Yollarına baxmaxdan.

152. Çəpər çəpər oldu, gəl,
Çəpərə quşdar qondu, gəl.
Vədəsiz gedən oğlan,
Vədən tamam oldu, gəl.

153. Pəncərədən baxma, qız,
Başına gül taxma, qız.
Hər sevirəm deyənə,
Sən su kimi axma, qız.

154. Göynən gedən quşa bax,
Qanadı qırılmışa bax.
Hər yana yaz gələndə
Bizə gələn qışa bax.
= Göynən uçan quşa bax,
Qanadı sınmışa bax.
Ellərə toylu bayram,
Bizə gələn qışa bax.

155. Eləmi Ərzuruma,
Yol gedir Ərzuruma
Fələk bir dərd veribdi,
Biz dözdük hər zuluma.

156. İyitdər handa düşər,
And içər, anda düşər.
Özümü öldürərəm,
Üstünə qan da düşər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

157. Yağış yağır ellərə,
Duman düşər çöllərə.
Ay bala, tez yayıldı
Vay xəbərin ellərə.

158. Əzizim, sarı qardaş,
Qəlbimin yarı qardaş.
Aç belinin tokqasın,
Cənazəmə sarı, qardaş.

159. Əzizim, bu məni,
Qoy yumasın bu məni.
Əl dəsmalın kəfənim,
Göz yaşınla yu məni.

160. Yetiməm, atam yoxdu,
Bir quşam, butam yoxdu.
Düşmüşəm qəm gölünə,
Qolumnan tutan yoxdu.

161. Sən məni ağlar qoydun,
Sinəmi dağlar qoydun.
Yıxdın atam evini,
Qapısın bağlar qoydun.

162. Yaylığın ağ yeləni,
Gözüm görmür gələni.
Kim yuyar, kim götürər,
Qərib yerdə öləni?

163. Əzizinəm, bağ salam,
Bağban oluf bağ salam.
Virana bağlar görüf,
İsdəmirəm bağ salam.

164. Ata bax ey, ağ ata,
Ağ at qan-tərə bata.
Balamı aldı fələk,
Kim qovlaya, kim çata.

165. Çəkilə bax, çəkilə,
Çəkil yerə tökülə.
Vay olsun o günə ki,
İyin evdən çəkilə.

166. Ay başına döndüyüm,
Gün başına döndüyüm.
Sənin kimi ölənnən
Var, başına döndüyüm.

167. Əsgərənin dağı var,
Bağının bağmanı var.
Ora gedən qayıtmaz,
Orda yaman yağı var.

168. Oğlannar girib bağa,
Çiyni dəyər yarpağa.
Oğlannarda nə qaydadı
Vaxsız gedər torpağa.

169. Yaşım özümdə qaldı,
Axdı, üzümdə qaldı.
Çoxlu niyətdərim varıdı, diləh-
lərim varıdı,
Hamsı gözümdə qaldı.

170. Zalın dalında mən,
Əlçatmaz yerində mən.
Zəhmət çəhdim, bala böyütdüm,
Yemədim barın da mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

171. Əzizinəm, dan üzü,
Quşdar oxur dan üzü.
Ay balalarım, sizə bir nala
çəkərəm,
Sizə çatar dan üzü.

172. Mən əzdim, asda yeri,
Xəsdəsən, asda yeri.
Neçə gündü evin yuxarı başınnan
Yığılıf xəsdə yeri.

173. Mən bir ana isdərəm,
Yana-yana isdərəm.
Yadıma sən düşəndə, ay ana,
Ağlamağa xəlvətxana isdərəm.

174. Ağaşda badamı var,
Yeməyə adamı var.
Gəl, qapımda dur, ay qardaş,
= Gəl qapımnan girginən,
Desinnər adamı var.

175. Xoruzun ban səsinə,
Dan verər ban səsinə.
Ay qardaş, sən yatıf inildiyeydin
Mən deyəydim "can" səsinə.

176. Aşıx, mən görəndimi?
Zülfün mən hörəndimi?
Götür üsdünün ağır yükün,
Görüm mən görəndimi?

177. Başında ağ şalı var.
Ağ şalın göy xalı var.
Sənin belə ölümünün
Anana oxşarı var.

178. Arxalıx aldırmışam,
Yaxalıx saldırmışam.
Bir cüt qardaş itirənnən sora
Ürəyimi aldırmışam.

179. Gəlifdi yaralılar,
Köylülər, qaralılar.
Ağlasın dərdi olannar,
Dinşəsin yaralılar.

180. Eşq oduna qalannam,
Yar başına dolannam.
Vətənnən ayrı düşsəm,
Viran olup talannam.

181. Qəribəm, yoxdu arxam,
Qanadım yoxdu qalxam.
Çıxam qəlbi dağlara,
Bir vətən sarı baxam.

182. Zərliyəm, zərd olmuşam,
Qüssədən dərd olmuşam.
Qürbətə gələn günnən,
Biyan gərd olmuşam.

183. Dolannam, düzə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Qərib, qürbət ölkədən
Qurtulsam, sizə gəlləm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

184. Əzizim, dağı getməz,
Ayağın dağı getməz.
Düşmən etdiyi zülmün
Sinəmnən dağı getməz.

185. Nə yatmısan, oyan gül,
Bu yan bağça, o yan gül.
Mən qəribəm, rəhm eylə,
Bülbülünnən doyan gül.

186. Əzizim, bağı neynim,
Bağçanı, bağı neynim.
Vətənə gedən yolu,
Kəsifdi yağı, neynim?!

187. Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mən sənə göz tikmişəm
Neynirəm özgəsini.

188. Araz aşanda mələr,
Qum qaynaşanda mələr.
Ana, bala qədrini
Ayrı düşəndə bilər.

189. Arazın üstü cəgər,
Altı göy, üstü cəgər.
Yığ elini-obanı
Özün də üstüncə gəl.

190. Haray, haramı dağlar,
Həkim yaramı bağlar.
İstərəm duram gələm,
Kəsib aranı dağlar.

191. Eləmi halın, dağlar,
Düzəlsin halın, dağlar.
Sənnən imdat isdərəm,
Nədi xəyalın, dağlar?!

192. Əzizim, dağlar məni,
Yağar qar, bağlar məni.
Toysuz, xınasız ölsəm,
El-oba ağlar məni.

193. Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qəriblikdə qalanın
= Qonşuda qız sevənin
Ürəyində yağ olmaz.

194. Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Gözdərim yol gözdüyür,
Səndə duman yeri var.

195. Qəbirsannıx kənd oldu,
Gedən orda bənd oldu.
Yığdığım yada qaldı
Bizə yaman dərd oldu.

196. Əzizinəm, yad ollam,
Yaddan çıxıb yad ollam.
Tez-tez qəbrim üstə gəl,
Sən gələndə şad ollam.

197. Əzizim, anam gəlsin,
Yanıma sonam gəlsin.
Əlini yarama qoy,
Halıma yanan gəlsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

198. Məni anam ağlasın,
Qursun bardaş ağlasın.
Yığılsın elim-günüm,
Bütün dağ-daş ağlasın.

199. O da məni yandırır,
Bu da məni yandırır.
Özümü suya atıram
Su da məni yandırır.

200. Əzizim, ağlar məni,
Həftələr, aylar məni.
Elə dərdə düşmüşəm
Ağlasın çaylar məni.

201. Eləmi bala dağı,
Bürüyüb lala dağı.
Mən gördüm bala dağı,
Görməyin bala dağı.

202. Əzizim il gecələr,
Dağılar kül gecələr.
Balam getdi, gəlmədi,
Ağlaram il gecələr.

203. Göyər bostanım, göyər,
Su gələr, bəndə dəyər.
Yetim oldu köşüyüm,
Hər yetən onu döyər.

204. Xəstən mən, ay xəstən mən,
Bağçada gül dəstən mən.
Sən elə bir çiçəksən,
Hər görəndə məstəm mən.

205. Dərd əlindən dağ yanar,
Bağça yanar, bağ yanar.
Qardaş qapımdan girsə,
Evimdə çıraq yanar.

206. Əlimdə ələkdi,
Fələk işin kələkdi.
Qardaşa can yandıran
Yaman günə gərəkdi.

207. Maral çıxar təpiyə,
Özün yıxar təpiyə.
Oba sahipsiz qalsa,
Donuz çıxar təpiyə.

208. Gəzirəm düz dağları,
Bağlıyıp buz dağları.
Hər kəsə şirin olar,
Öz yeri, öz dağları.

209. Bir vecsiz daşdı dünya,
Çürük ağaşdı dünya.
Kimə deyim dərdimi?
Tamam qan-yaşdı dünya.

210. Gül əkdim dəstə-dəstə,
Kim olar mən həvəstə.
Ayrılığa tabım yox,
Necə dözüm mən xəstə?

211. Dəyirmanım püskürə,
Dəni atdım üsdünə.
Özün qaşdın qutardın,
Məni qoydun pis günə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

212. Xoş günüm yayda getdi,
Tor qurdum, çayda getdi.
Mən günləri sayırdım,
Tez gəldi, ay da getdi.

213. Əzizim, yada neylim,
Yad oğlu yada neylim.
Görür ahu-naləmi,
Gəlmir imdada, neylim?

214. Əzizim, hara yazım,
Tükəndi çara, yazım.
Günümün hər vərəqi
Dolubdu, hara yazım?

215. Gəl məni fağır ağla,
Kimsəm yox, sağır ağla.
Çıx dağların başına,
Adımı çağır, ağla.

216. Tənəkdə vardı qora,
Bilmədim, tüşdüm tora.
Bizi ayrı salanı
İrahat getməsin gora.

217. Bulağın başına mən,
Dibinin daşına sən.
Düyün qoydun, dağ çəkdin
Ürəyim başına sən.

218. Mən olmuşam biçarə,
Biçarəyə nə çarə?
Qapım haxdan bağlanıb,
Kimə gedim açarə.

219. Eləmi qovun dərdi,
Bostançı qovun dərdi.
Yığılın el-əğrəba,
Başımdan qavın dərdi.

220. Getmədin, qaldın fələk,
Xoş günüm aldın fələk.
Yanar odun içinə,
Bir məni saldın fələk.

221. Eləmi gözəl kimi,
Baxırsan gözəl kimi.
Dərtdən saraldı, düşdü
Ürəyim xəzəl kimi.

222. Dumanlı dağlar könlüm
Misgilli bağlar könlüm.
Nə açılmaz, nə gülməz,
Həmişə ağlar könlüm.

223. Nə desəm qanıram mən,
Səni el sanıram mən.
Mənə od nə gərəkdi,
Odsuz da yanıram mən.

224. Eləmi yaşa məni,
Geyinib yasaməni.
Mən nə deyim fələyə,
Batırıb yasa məni.

225. Mən aşıx belə bağlar,
Kəmərin belə bağlar.
Xəzəl töhmür, bar vermir,
Verənə belə bağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

226. Ördək göldə bir üzdü,
Bir çalxandı, bir üzdü.
Üz qoyum üzün üsdə,
Görən desin bir üzdü.

227. Əzizim, ağlamaram,
Sinəmi dağlamaram.
Məni dərdə salana
Daha bel bağlamaram.
= Yalandan dostam deyən
Düşmənə bel bağlamaram.

228. Əzizinəm, dağ uca,
Qaya uca, dağ uca.
Qeyrətli oğullarım
Başların tutsun uca.

229. Əzizim, belə qalmaz,
Haksızlıq belə qalmaz.
Çəkər bir gün cəzasın
Qatillər, belə qalmaz.

230. Əzizim, qurban sənə,
Mən özüm qurban sənə.
Şəhid oldum el yolunda,
Gözlərim qurban sənə.

231. Əzizinəm, haraylar,
Gözü yaşlı haraylar.
Ana tanklar altında
Qalan oğlun haraylar.

232. Əzizim, oyanıbdı,
Bağda gül oyanıbdı.
Yağıyla döyüşməyə
El hazır dayanıbdı.

233. Əzizim, yaş əymərəm,
Budağı yaş əymərəm.
Dünyada cavan ölləm,
Namərdə baş əymərəm.

234. Mən aşıq, qəmə sarı,
Köynək ağ, qəmə sarı.
İstəyirəm gün görəm,
Çəkirlər qəmə sarı.

235. Qardaş, bacı yaxşıdı,
Başda tacı yaxşıdı.
Elin sözün deməyə
Üş-dörd hacı yaxşıdı.

236. Əziziyəm, yar adı,
Bağrım başı yaradı.
Torpaq həsrəti qəlbdə
Açıq yara-yaradı.

237. Mən aşığam, obadan,
Gün aydındı, oba dan.
Candan ol, eldən olma,
Üz döndərmə obadan.

238. Mən aşiqəm dağlara,
Qar yağıbdı dağlara.
Sinəmi sipər etdim
Çalın-çarpaz dağlara.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

239. Mən aşiq, üzüm qara,
Bağlarda üzüm qara.
Dağlar, səndən enəni
El yanında üzüm qara.
= Bağında üzüm qara,
Yeməyə üzüm qara.
Gəldim səni görmədim
Yanında üzüm qara.

240. Qarabağa yol salın,
Boynuna da qol salın.
Ağac əkib bar dərin,
Budağından xol* salın.

241. Qarabağa gedərəm,
Bağrımı qan edərəm.
Vətənə olan borcu
Qanım ilə ödərəm.

242. Əzizim, nə şanədir,
Zülfün şanə şanədir.
Üzündəki göz izi
De, kimdən nişanədir?

243. Mən aşıq, vərən düzə,
Sən də gəl vərən düzə.
Dedilər kəkliy öldü
Yayıldı fərəm düzə.

244. Qarabağda talan var,
Zülfün üzə salan var.
Gedəsən, bala, tez qayıt,
Gözü yolda qalan var.

* xol – kiçik budaq

245. Sən gəldin otağa,
Nur doldu bağa.
Sən gələn yollara
Canım sadağa.

246. Göydə bulutdar sənin,
Sərəm qurudam səni.
Öləm tabuta girəm,
Bəlkə unudam səni.

247. Əyağım yalın idi,
Tikanım qalın idi.
Mən neyləyə biləm?
Cəlladım zalım idi.

248. Qollarımı burdular,
Dört yanımda durdular.
Cəlladım zalım idi,
Boynumu daldan vurdular.

249. Quzuçuyam, quzu məndə,
Quzum töküldü kəndə.
Ay ala gözlü gözəl,
Dəsmalın qaldı məndə.

250. Əziziyəm, səndə qalsın,
Sənət ver səndə qalsın.
Bu can məndə qərar tapmır,
Göndərim, səndə qalsın.

251. Dəmir könlüm, könlüm,
Gəldi hicran, qaş könlüm.
Açım dərdimi deyim,
Qəm dəftərin aş, könlüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

252. Əziziyəm birdanəsən,
Zirəsən, dürdanəsən.
Mən ölsəm, sana qurban,
Sən ölmə, bir danəsən.

253. Mən aşıx, el barabarı,
Şana var tel barabarı.
Mənim igid balam gedip
Tamam bir el barabarı.
= Ördək el barabarı
Ceyran çöl barabarı
Burdan bir ata köçüb,
= Burda bir iyid ölüf,
Tamam el barabarı

254. Mən aşıx aşıxlara,
Zülfü dolaşıxlara.
Əlimə bir saz allam
Qoşullam aşıxlara.

255. Biz belə qışdağıdıx,
Qışdağa muştağıdıx.
Elə yurdumuzu dağıtdılar,
Qədimi qışdağıdıx.

256. O tayda quzu gördüm,
Tükün qırmızı gördüm.
Açıldı cənnət qapısı,
Sevdiyim qızı gördüm.

257. Mən aşığ Qarqamışa,
Qar yağıp Qarqamışa.
Yüz min təbib neynəsin
Bir fələk qarqamışa.

258. Ərisin dağların qarı,
Tökülsün çaylara barı.
Çay aşağı, çay yuxarı
Desinnər Novruz hanı?

259. Arı şana, bu şana.
Arı qonmaz bu şana.
Yeddi evli Bultan durup
Yüz evli Arış hanı?

260. Göydə bulud üş keşdi,
Cavan ömrüm puş keşdi.
Şahid ol, qanlı fələk,
Hansı günüm xoş keşdi?

261. Lələnin çardağı var,
Gümüşdən bardağı var.
Lələ getdi gəlmədi,
Bəlkə yolda yağı var.

262. Əzizinəm, keşkəsən,
Min gəmiyə, keş gəl sən.
Gəldin dərdim artırdın,
Gəlmiyəydin keşgə sən.

263. Zeynəb ağlar, gül ağlar,
Bülbül ağlar, gül ağlar.
Qardaşı ölən bacılar,
Çəpər başına gülağlar.

264. Hüseyinəm, sınığam,
Gəl, hasarı sınığam.
Könlü şad olan gözüm,
Mən ha könlü sınığam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

265. Əzizim, Həsənsizəm,
Hüseysizəm, Həsənsizəm.
Yeddi qardaş bacısıyam,
Ölürəm, kəfənsizəm.

266. Canımın azarı var,
Sızıldar, azarı var.
Canım elə dərdə düşüb,
Nə dərdi, nə dərmanı var.

267. Əzizim, arabanı,
Bayquş gəzər xarabanı.
Həmişə sən minən canım,
İndi minər arabanı.

268. Qərənfil qutudadı,
Xumar göz yuxudadı.
Dəli könlüm, nə fikir edirsən?
Murad verən o bir xudadı.

269. Mən aşiqəm, ay mələr,
Bulud altdan ay mələr.
Qoç bir quzu doğubdu,
Süd deyibən, ay mələr.

270. Əzizinəm, sər olar,
Çin kəklik, sər ovlar.
Kül başına tülək tərlan,
Yurdunda sər olar.

271. Əzizinəm, al məndən,
Qara səndən, al məndən.
Ya dərdimə şərik ol,
Ya bu canı al məndən.

272. Əzizim, kimə gedim,
Kimim var, kimə gedim.
Aləmə dərman paylayan canım,
Dərmana mən kimə gedim?

273. Bülbüləm, yol üstə,
Yuvam var kol üstə.
Əzrayil, alma canımı,
Nişanlıyam toy üstə.

274. Maral aşdı o gəzdən,
Ovçusan, qoyma gözdən.
Xudam bir iş işləsin,
Çıxaydım görünməzdən.

275. Görünən qara qandı,
Əzgandı, qaraqandı.
Ovçu vurub balasın,
Tökülən qara qandı.

276. Könlüm sənin evindi,
Gəl könlümü sevindi.
Əlli yerdən yaram var,
Hərəsi bir ləvindi.

277. Göynən uçan quş mənəm,
Atlanmışam düşmənəm.
Hər quşun bir məkanı var,
Biməkanam, düşmərəm.

278. Çıxdım yazılar gördüm,
Qoyun-quzular gördüm.
Nənəsindən ayrılmış
Təzkin quzular gördüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

279. Bu kəndin keyxaları,
Qayımdı qovxaları.
Mən gəlmişəm görəm səni,
Neynirsən soyxaları.

280. Bu bağ üzüm ağacı,
Yola düzüm ağacı.
Bağa baltaçı girib,
Kəsib bizim ağacı.

281. Göydən bir gilə düşdü,
Salxımı yerə düşdü.
Biz dedik yasdan çıxax,
Genə zil-zilə düşdü.

282. Mən aşiqəm, hər aya,
Quranda var hər aya.
Hüseynin müsibətidi,
Əli gəlsin haraya.

283. Mən qorxuram qış evdən,
Qarqusu qalmış evdən.
İlan çıxmaz yuvadan,
Necə çıxım qış evdən?

284. İlan, ilan, üç ilan,
Yumurtası nur ilan.
Varmı ola biz kimi,
Zəmisi göy biçilən.

285. Evləri maş altdadı,
Qara göz qaş altdadı.
İstədim duram gələm,
Qollarım daş altdadı.

286. Leyli gülün başa düz,
Götür başdan-başa düz.
Fələk bir iş işləyib,
Ağlım gəlmir başa düz.

287. Götürün ağ yeləni,
Gözüm görsün gələni.
Dərdinə dərman yoxdu,
Bu dərdinən ölənin.

288. Biçinçi bafa dağlar,
Biçdikcə bafa bağlar.
Qərib igid, yad ölkə,
Kimlər ona vəfa bağlar?

289. Əziziyəm, Diri dağı,
Duman, gəl, bürü dağı.
Ölüm Allah əmridi,
Yamandı diri dağı.

290. Dağlara qar yağar,
Qar nə hamar yağar.
Qəbri qazan naşıymış,
Qəbrimi dar qazar.

291. Aşiqəm, dağda nə var?
El köçdü, dağda nə var?
Məcnun xəyallı könlüm,
Yarsız dağda nə var?

292. Gedən getmə, sənnən işim var,
Sərkərdə gümüşün var.
Ağzı bağlı otağında,
Gözü bağlı quşum var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

293. Papruzum yana-yana,
Yandı bağrım, döndü qana.
Ya məni götür bir yana,
Ya qulunam, azad eylə.

294. Dağların qarı mənəm,
Gün vurar, əriməram.
Yazıq anam, ağlama,
Cavanam, çürüməram.

295. Oğlan adın Alıdı,
Boyun qarğıdalıdı.
Verdiyin qızıl üzük,
Barmağımın malıdı.

296. Əzizinəm, Murov sənnən,
Ərimədi qar, qırov sənnən.
Çoxlu cəfa çəkdim,
Vurmadım bir ov sənnən.

297. Əzizinəm, tikə-tikə,
Cavan ömrüm tikə-tikə.
Qoy məni qardaş ağlasın,
Kəfənimi tikə-tikə.

298. Bu dağda gəzə bilmərəm,
Əhdim var, bəzənmərəm.
Ürəyim yaralıdı,
Çox dərdə dözə bilmərəm.

299. Əzizinəm, yaza nə qaldı,
Qış çıxdı, yaza nə qaldı.
Taqsır qələmdədi,
Mürvət yazana qaldı.

300. Apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm qurquşun yüküdü,
Yordu bu taylar məni.

301. Eləmi, naçar ağlama,
Gündüz keçər, ağlama.
Fələk bağlayan qapını,
Bir gün açar, ağlama.

302. Yandım-yandım, su varmı?
Xəstə sudan doyarmı?
On iki imam eşqinə,
Bir qədrə su olarmı?

303. Qara bağın meşəsi,
Sındı könlüm şüşəsi.
Mən yarıma neylədim,
Ağlamaxdı peşəsi.

304. Bu dağlar sulu dağlar,
Çeşməsi sulu dağlar.
Mən dərdimi söyləsəm,
Dərdim dərdin unudar.

305. Qızıl gülsən, butasan,
Dostunu əziz tutasan.
Mən o güldən deyiləm,
İylərsən, atasan.

306. Qızıl gül açılanda,
Açılıb saçılanda.
Könlüm səni istər,
Hər səhər açılanda.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

307. Mən ölürəm çiçəkdən,
Üzümü örtün milçəkdən.
Yad ağlar, yalan ağlar,
Anam ağlar gerçəkdən.

308. Dərədə quş durmaz,
Yaz gələndə qış durmaz.
Oğlan qız qoynunda,
Yüz and işsə, dinc durmaz.

309. Öldüm yola baxmaxdan,
Sağdan sola baxmaxdan.
Nə sən yoldan əksik ol,
Nə mən yola baxmaxdan.

310. Əzizinəm, qala yerdə,
Ot bitməz qala yerdə.
Qorxuram cavan öləm,
Cinazam qala yerdə.

311. Əzizinəm, çeşmə məndən,
Çay məndən, çeşmə məndən.
İnanma yad sözünə,
Qəribəm, keçmə məndən.

312. Əzizinəm, qaranı yaz,
Ağ üstündən qaranı yaz.
Əzəl dəftər başından,
Mən bəxti qaranı yaz.

313. Arxalığın badamı,
Yoldan eylər adamı.
Əzəlcən özün qurban,
Sora kəndin adamı.

314. Arxalığın hana qoy,
Dara telin, xına qoy.
Mən özümə yar tapdım,
Sən özünə bina qoy.

315. Sən düşübsən sorağa,
Telin gəlir darağa.
Mənim yarım körpədi,
Örgətməyin arağa.

316. Stol üstə vaz nədi?
Yanında kağız nədi?
Sən məni sevirsənsə,
Yanındakı qız nədi?

317. Arxalığım saldı yar,
Dərdin məni aldı yar.
İkimizin sirr sözümüz,
Qiyamata qaldı yar.

318. Bu dərt məni dəng edər,
Vurar başa, dəng edər.
Nə öldürər, nə diriltməz,
Saraldıb bədrəng edər.

319. Ağaşda var nazılar,
Könlüm səni arzular.
Əyil üzündən öpüm,
Qoy baxsın tamarzılar.

320. Qızılgüləm, dəstəyəm,
Bülbüləm, qəfəsdəyəm.
Gedin o qıza deyin,
Ölməmişəm, xəstəyəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

321. Gedirdim qırax ilə,
Gül bişdim orax ilə.
İtirmişəm incəbeli,
Gəzirəm sorax ilə.

322. Bu yola yol olaydı,
Karvana qol olaydı.
Öləydi qızlar anası,
Bizə də yol olaydı.

323. Əslim qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Nə gələn var, nə gedən,
Deyəsən yollar bağlıdı.

324. Mən aşiqəm, oyan gül,
Oyan bülbül, oyan gül.
Tez açılıf, tez solan,
Məni mağmun qoyan gül.

325. Əzizim, ellər ayrısı,
Bülbül, güllər ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.

326. Mən səni el bilirdim,
Başımda tel bilirdim.
Uca dağlar başında
Qurumaz göl bilirdim.

327. Arı şana, bu şana,
Arı qonmaz bu şana.
Anaya oğul gərək,
Qızdan olmaz nişana.

328. Əzizim, elimizdən,
Nə gələr əlimizdən.
Yaşılbaş ördəy oluf
Uçaram gölünüzdən.

329. Əlin xına tutmasın,
Çölün günə tutmasın.
Sənə kimlər qarğadı,
Evin bina tutmasın.

330. Kərkədanam kərkədan,
Yoxdu məni örgədən.
Sənə kimlər qarğadı
Boynun çıxdı çərkədən?

331. Ay doğdu, aydın oldu,
Doğduxcan aydın oldu.
Mən hələ burduyam, bala,
Gözdərin aydın oldu.

332. Bilmədim yaz olduğun,
Güllər beyvaz olduğun.
Nə sən bildin, nə də mən
Ömrümün az olduğun.

333. Əzizim, bu məni,
Neynir çağırıb bu məni.
Əl dəsmalım kəfənim olsun,
Göz yaşımla yu məni.

334. Bağa su düşdü, neynim,
Bülbül su işdi, neynim.
Aləmə pay paylandı,
Mənə bu düşdü, neynim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

335. Gedərəm, gedən olsa,
Yolu örgədən olsa.
Kağız yazaram yollaram,
Yanına gedən olsa.

336. Ay dağlar, qəmbər göndərim,
Yoluu bəri döndərim.
Gəlirsən özün gəl,
Mən saa kimi göndərim?

337. Qardaş, gəl, gərəyimsən,
Gücümsən, dayağımsan.
Həm lazımım olmusan,
Həm də ki gərəyimsən.

338. Köynəyi ağ saxlaram,
Yuyaram ağ saxlaram.
Qardaş gəlib qapıdan girsə,
Yüz il qonax saxlaram.

339. Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirməyin qəmliyəm,
Yaman çağımdı mənim.

340. Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Bu dünyadan nə kam aldım,
Nə də bir nişanam qaldı.

341. Saxsağan ala deyilmi?
Qənədi qara deyilmi?
Sizin əlinizdən, ay balam,
Mənim günüm qara deyilmi?

342. Əlində sazın nədi?
Söhbətin-sazın nədi?
İrast ki, köçürsən, bala,
De, görüm, sözün nədi?

343. Anan da mən oleydim,
Bajın da mən oleydim.
Axır köçün olanda, bala,
Yanında mən oleydim.

344. Günüm o gün oleydı,
Yaram düyün oleydı.
Sənnən keçirdiyim gün, bala,
Biri bu gün oleydı.

345. Əzizim, ana yeri,
Sal bala, ana yeri.
Min təbib, loğman gəlsə,
Heç biri verməz ana yeri.

346. Mən aşiqəm, qoşa dağlar,
Verif baş-başa dağlar.
Yol verin anam gəlsin,
Dönməyin daşa, dağlar.

347. Əzizim, anam ağlar,
Oduma yanan ağlar.
Mən ölsəm yad ağlamaz,
Yenə öz anam ağlar.

348. Əzizim, atdı getdi,
Əbədi yatdı getdi.
Dünyam zülmat içindədi,
Günəşim batdı getdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

349. Mağar qurulu qaldı,
Quruluf qurulu qaldı.
Cənavı Zeynaf deyir
Qasımın toyu qaldı.

350. Bırdan bir maya getdi,
Sallanıb çaya getdi.
Can çəhdim, cafa çəhdim,
Mal töhdüm, pul töhdüm,
Əməyim də zaya getdi.

351. Yük üzündə pərdə mən,
Qəfil düşdüm dərdə mən.
Mənim canım yaralıdı,
Nejə yatım quru yerdə mən?

352. Bağda bitər boyana,
Bağın yolu hayana?
Hərə bir layla çalsın,
Bəlkə gəlin oyana.

353. Anam, otu yanımda,
Bajım, otu yanımda,
Birin sən de, birin mən,
Dərt qalmasın canımda.

354. Gələn bılağa gəlsin,
Suya, bılağa gəlsin.
Gəlsin mənə, layla çalsın,
Səsi də qulağa gəlsin.
= Gəlsin anam ağlasın,
Səsi qulağa gəlsin.

355. Yetiməm, atam yoxdu,
Qol attım, tutan yoxdu.
Düşmüşəm dərin-dərin dəryalara,
Qolumnan tutan yoxdu.

356. Sizə yaralı qurban,
Köylü qaralı qurban.
Bostanın dolu döymüş
Tacı yaralı qurban.

357. Gəldi, haradan gəldi?
Göydən, qaradan gəldi.
Göydə bulud yox idi,
Bu sel haradan gəldi?

358. Gələn qapıma gəlsin,
Qadan başıma gəlsin.
Kimin atası, anası qaçıb
Dursun yanıma gəlsin.

359. Bağında var ağ alma,
Böyrü çürük ağ alma.
Sənə kimlər qarqadı,
Bir dərdə düş, saqalma.

360. Bağında var boyana,
Bağın yolu hayana?
Hərə bir layla çalsın,
Oğlan yatıb, oyana.

361. Bülbül oxur gülüncə,
Bir-birinin dilincə.
Qoy sənə laylay deyim,
Öz ananın dilincə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

362. Yağış yağıb ellərə,
Su yığılıb göllərə.
Burdan bir ata, qardaş keçib,
Xəbər getsin ellərə.

363. Anan da mən olaydım,
Bacın da mən olaydım.
Azreyil sinənə çökəndə
Aranda mən oleydim.

364. Getdi günüm, ağlaram,
Oldu zülüm, ağlaram.
Bir vədəsiz yel əsdi,
Töhdü gülüm, ağlaram.

365. Boz atın oynağandı,
Çək başın, oynağandı.
Qardaşım öləndən bəri
Qollarım oynağandı.

366. Apar bazara məni,
Saldın azara məni.
Aç belinin qurşağın,
Salla məzara məni.

367. Layla demədimi?
İllallah demədimi?
Sənə gələn qadanı
Mən alım, demədimi?

368. Apardılar qoydular,
Ağladılar, doydular.
Mərmər sinən üstünə
Ağır daşlar qoydular.

369. Sən gözümün birisən
Arazısan, Kürüsən.
Ölüb sənin atan-anan,
Yorulmusan, kiri sən.

370. Ələkdə var barama,
Baramanı sanama.
Bacım tutsun çırağı,
Anam baxsın yarama.

371. Bu yolun karvanı yox,
Dəvənin sarvanı yox.
Yaran ölü yarası,
Həkimin dərmanı yox.

372. Mən aşiq, hara gəlsin?
Taleyi qara gəlsin.
Günümü qaraldanın
Günləri qara gəlsin.

373. Laylanın qaydası var,
Çalmağa qaydası var.
Biz demirik ölməginən,
Ölməyin qaydası var.

374. Ay mənim, gün də mənim,
Qoynunda kündə mənim.
Burnumdan elə gəldi
Gördüyüm gün də mənim.

375. Dağdan aşıb gələnin,
Qanı coşub gələnin.
Xoş o kəsin halına
Halallaşıb ölənin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

376. Atasızam, atasız,
Heç qul olmaz xatasız.
Biz fələyə neylədik,
Bizi qoydu atasız.

377. Bacın deyir, ay qardaş,
Qaşın ucu yay qardaş.
Ölsə bacılar ölsün,
Heç deməsin, vay qardaş.

378. Sandıq üstə şingilə,
Şingiləni kim bilə.
On iki söz qoşaram
Sənin kimi yüngülə.

379. Sandığın üstü bəzək,
İçi, həm üsdü bəzək.
Oğlan, verək əl-ələ
Bizim elləri gəzək.

380. Sandığın ağzı açıx,
Kilidsiz ağzı açıx.
Yarın uca boyuna
Qalıblar ağzı açıx.

381. Mən aşıx, qara baxdım.
Göy geydi qara baxdım.
Quzeydə lala dərdim,
Güneydə qara baxdım.

382. Mən aşığam, al mənnən,
Sarı mənnən, al mənnən.
Mən bu cana borcluyam,
Məni nahax yerə gejikdirdin,
Gəl bu canı al mənnən.

383. Mən aşıx, belə neylər,
Yel əsər, belə neylər.
Çarxı çönmüş fələy
Adamın axırın beləmi eylər?

384. Kağızın ağına bax,
Baxdıxcan ağına bax.
Əgər yadına düşsəm,
Çöyür kağızın arxasına bax.

385. Dərədən yendim ancax,
Başıma saşdım sancax.
Nə qız oluf, nə gəlin oldum
Oddara yandım ancax.

386. Sarı çiçək əlimdə,
Sahatım biləyimdə.
Allah, məni öldürmə
Arzum var ürəyimdə.

387. Xoruzun ban səsinə
Bannıyar ban səsinə.
Allah, səni öldürməsin
Mən deyim can səsinə.

388. Buxarı qurum olar,
Od yanar, qurum olar.
Oğlu ölən anaya
Çox yaman zulum olar.

389. Əzizinəm, nələr keçər,
Ahular mələr keçər.
Oğulsuz anaların
Qəlbinnən nələr keçər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

390. Mən aşıx, gülərdim,
Ağlamazdım, gülərdim.
Cəbrayıl kimi elim, obam olsa,
Heş vaxt mən qəm çəkməzdim, gülərdim.

391. Corabın ağına bax,
Dəsdələ bağına bax.
Cəbrayıl yadına düşsə,
Çıx Ziyaratın dağına bax.

392. Mən aşığam, arxa var,
Belini götür, arxa var.
Qəm yemə, dəli könül,
Həzrət Əli kimi arxa var.

393. Mən aşğam, ha sanı,
Kətan köynək ha sanı.
Qəmnən əv tikən gonlum,
Ətdən çəhdim hasarı.

394. Mən aşıx, Qarqadanam,
Qır-qırıldar qarqadanam.
Uzax yerin xəbərin
Bir atı yorqadan al.

395. Xəcər nənənin bir qızı ölüf. Deyif:
Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığıma gələmdin, ay dədəm oğlannarı,
Barı can verəndə gəl.

396. Mən aşığam, hər aya,
Quranda var hər ayə.
Vətənin dar günündə
Əli yetsin haraya.

397. Bərgüşad başa qala,
Getdihcən başa qala.
Bu dünya Süleyman mülküdü,
Bunnan kimlər başa qala?

398. Bülbül bağdadı, bağda.
Oxur, bağdadı, bağda.
Demə qardaşım itif,
Deyin dardadı, darda.

399. Bülbül bağda nə gəzir?
Oxur, bağda nə gəzir?
Sənin qardaşın ölüf,
Qardaşın dağda nə gəzir?

400. Çobanın qoynuna,
Babalım boynuna,
Ya məni əvləndir,
Ya da salginan qoynına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XI
# DEYİŞMƏLƏR

**Qız:**
Budu, gəlir elçisi,
Altında yüyənçisi.
Mən ki sənə getmirəm,
Ay itlər irgənçisi.

**Oğlan:**
Budu gəlir saşdı qız,
Mərciməyi daşdı qız.
Mən səni heç almıram,
Sirkə-yumax, bitdi qız.

**Oğlan:**
Bulax üstə duran gözəl,
Bir xəbər ver ellərinnən.
Susuzmuşam, su isdərəm,
Tər xınalı əllərindən.

**Qız:**
Bizdər su verməriz yada,
İlqar, iman gedər bada.
Əslin kürttü Ömərzada,
(= Haramzada)
Su iç qalma yollarınnan.

**Oğlan:**
Kürdəm, kürtdüyümü danmaram,
Eşqin odun yanmaram,
Belə sulardan qammaram,
Şərbət içəx, əllərinnən

**Qız:**
Mənim adım Maşaxatın,
Ağırımca qızıl atın.
Sən bir kürtsən, mən bir xatın,
Elçi göndər ellərinnən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XII
# BAĞLAMALAR

1. Mən aşıx boğazdadı,
Dad, ləzzət boğazdadı.
Axşamdan öküz öldü,
Sabahdan boğazdadı.

2. Mən aşığam, ay mələr,
Bulut altdan ay mələr.
Həzirədə göl gördüm.
Mənə deyib ay, mələr.

3. Mən aşığam, ay mələr,
Bulud mələr, ay mələr.
Doğmamış qoyun gördüm.
Quzu deyib ay mələr.

4. Mən aşığam, bu göldə,
Yeddi can bu göldə.
Uçuf göyə çəkildi,
Dördü qaldı bu göldə.

5. Ana, mənə nar göndər,
Yoxu bilmə, var göndər.
Salınmamış tingədən
Üzülməmiş nar göndər.

6. Yox, ay aşıx, o daşdan,
O kərpişdən, o daşdan.
Aşıx sənə deyirəm,
Mən don tikim o daşdan.

7. Mən aşığam, o daşdan,
O kərpişdən, o daşdan.
Sən o qumdan qum əyir,
Mən don tikim o daşdan.

8. Aşıx bənək-bənəkdi,
Xalın bənək-bənəkdi.
Sənnən sordum, ay aşıx,
Araz neçə sənəkdi?

9. Aşıx bənək-bənəkdi,
Xalın bənək-bənəkdi.
Çağır, Araz dayansın
Sayım neçə sənəkdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XIII
# SAYAÇI SÖZLƏR

1. Nənəm, qoyunun ağı,
Gedər dolanar dağı.
Qızdara cehiz ağı,
Uşağa bələk bağı,
Gəlin yeyər qaymağı.

2. Qoyunun özü gəldi,
Dolandı düzü gəldi.
Çobanın qucağında
Bircə cüt quzu gəldi.

3. Quzu-quzu, çal quzu,
Dili-dodağı bal, quzu.
Duman gəldi, itirdim,
Duman qaşdı, gəl, quzu.

4. Canım, ay qoyunun ağı,
Dolandı gəldi dağı.
Qarılar bişirər qaymağı,
Gəlinnər yeyər quymağı.

5. Nənəm, a qıllı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında,
Tutupdu yallı keçi.

6. Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun.
Sağdım, tez küsüf getdin,
Gəl mənnən barış, qoyun.

7. Qoyunnar dərədədi,
Sütdəri bərədədi.
Keçilər uzaqlaşıb
Hərə bir dərədədi.

8. Nənəm, qoyun qaradı,
Yununu kol daradı.
Ağlına gəlmədi,
Kim qoyunu aradı?

9. Ala keçi sütdüdü.
Dələməsi daddıdı.
O tayda bir qurt gördü,
Tez bu yana addadı.

10. Nənəm, qoyun qaradı,
Yununu kol daradı.
Ağlına gəlmədi,
Kim qoyunu aradı?

11. Saya, saya, sayadan,
Qoyun gəlir qayadan.
Sayaçıya pay verin,
Damazlığı mayadan.

12. Fermanın gözü qoyun,
Dolan gəl düzü qoyun.
İldə bir əkiz gətir,
Sevindir bizi, qoyun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

13. Nənəm, a qəşəh qoyun,
Yunu bir döşəh qoyun.
Dağdan evə dönəndə,
Eyləyər göyşəh qoyun.

14. Qoyunun özü gəldi,
Dolandı düzü gəldi.
Çobanın qucağında,
Bir əkiz quzu gəldi.

15. Boyuna gedər
Axar, oyuna gedər.
Çobanın ağ ərkəci
Nişan toyuna gedər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XIV
# LAYLALAR, NAZLAMALAR

1. Laylay dedim həməşə,
Karvan gedər yenişə.
Döşəyində gül bitsin, ay qızım,
ay oğlum,
Yorğanında bənövşə.
Laylay , quzum, a laylay,
Laylay, balam a laylay.
= Laylay çalım həmişə,
Karvan gedər yenişə.
Yastığında gül bitər,
Yatağında bənövşə.

2. Laylay dedim, su gəlsin,
Balam yatsın, yuxusu gəlsin,
Uzax-uzax ellərdən,
Qərib-qərib yollardan,
Balamın əmisi gəlsin, dayısı
gəlsin.
= Laylay deyərəm su gələr,
Yatar balamın yuxusu gələr.
Uzax-uzax yollardan
Balamın atası, əmisi gələr.
Laylay, balam, a laylay,
Laylay, gülüm, a laylay.

3. Laylay çalım ucadan,
Səsin çıxsın bacadan.
Bala, Allah səni saxlasın
Çiçəhdən, qızılcadan.
= Laylay çallam ucadan,
Səsim çıxar bacadan.
Balamı çağıranda.
Haray verər ucadan.

4. Laylay dedim yatasan,
Çiçəklərə batasan.
Çiçəklər sənin olsun,
Kölgəsində yatasan.
= Laylay dedim, yatasan.
Qızıl gülə batasan.
Qızıl gülün içində
Şirin yuxu tapasan.
= Laylay deyim, yatasan,
Gül-çiçəyə batasan.
Yuxun yaxşı gəlsin,
Səhəri tez açasan.

5. Balam yatıf beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat, yuxun alginan,
Nənən duruf keşikdə.

6. Laylay deyim yatınca,
Gözlərəm ay batınca.
Sənə bir laylay çalaram,
Sən laylama yatınca.

7. Bağçamızda boyana,
Bağın yolu hayana.
Sana bir layla çalım,
Şirin yuxu tapınca.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

8. Layla çalım yatınca,
Yastığa baş atınca.
Sən yat, yuxun alıynan,
Məksədinə çatıynan.

9. Laylay deyirəm adına,
Əli yetsin dadına.
İmam köməyin olsun,
Xalıx yetsin dadına.

10. Layla dedim yatıncan,
Gözdərəm ay batıncan.
Canım zinhara gəldi,
Sən hasilə çatıncan.

11. Bir bölüh qazdar,
Tükün tarazdar,
Cehizsiz qızdar
Bu balama qurvan.

12. Dağda darılar,
Sünbülü sarılar,
Qoca qarılar
Bu balama qurvan.

13. A dağdağannar,
Bülbül boğannar,
Oğul doğannar
Bu balama qurvan.

14. Ermənilər, harsınnar,
Yığışsınnar gəlsinnər
Bu balama qurvan olsunnar.

15. Səni verənə qurvan,
Könül görənə qurvan,
Hamı dedi fərədi,
Xoruz verənə qurvan.

16. Bir bölüh atdar,
Çəməndə otdar.
Ərsiz arvatdar
Bu balama qurvan.

17. Göynən gedən sonalar,
Bir-birini yan alar.
Balama qurban olsun,
Balası ölmüş analar

18. Balam, balam, balası,
Balam quşdar balası.
Arvadının qaynanası
Əlinə düşsə neylərsən?

19. Balamın balası balam.
Dalımın şələsi balam.
Əlimin yemişi balam,
Cibimin kişmişi balam.

20. Dil dodağı bal quzu,
Əli ayağı xal quzu.
Noğul balam, qənd balam,
Əl-əyağı bal balam.

21. Buzovlar, ay buzovlar,
Sənə qurban buzovlar.
Mənim bu toppuş balam,
Görən nə vaxt düz oynar?

22. Atım-tutum mən səni.
Qəndə (=şəkərə) qatım mən səni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Acığım belə tutanda
Göydən atım mən səni.
= Elə ki, məni hirsdəndirsən,
Eyvannan atım mən səni.

23. Həsən, gəl ay, Həsən, gəl.
Həsən, gəl, ay, Həsən, gəl.
Ya mən gəlim, ya sən gəl.
Ürəyim getdi, qarqa maa qoz sal,
Ürəyim getdi, balamı əlimə
tez sal.

24. Balam gəlir ellərdən,
Ətəyi dolu güllərdən.
Xudam, sən balamı saxla,
Yaman-yaman gözlərdən,
Yaman-yaman dillərdən.

25. Mən çalım, oyna,
Qurvan boyuna.
Ellər yığılıb gəlsin
Balamın toyuna.

26. Başına dönüm, döndərim,
Səni məhtəbə göndərim.

27. Sən məhtəpdən gəlincə
Özümü daşa döndərim.

28. Balama qurvan quzular,
Balam nə vaxt düz oynar?

29. Balama qurvan alçalar,
Balam nə vaxt əl çalar?

30. Balama qurban inəklər,
Balam nə vaxt iməklər?

31. Balama qurban qayinnər,
Balam nə vaxt oyniyər?

32. Balama qurban ozannı,
Üsdü pilov qazannı.

33. Balama qurban havalı,
Təhnəsi qurbağalı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XV
# NƏĞMƏLƏR, MƏRSİYƏLƏR

## HAXIŞTALAR

O tay, bu tay bərxana, haxışta
Getmərəm mən yad xana, haxışta.
Əhməd xanın qoşunu, haxışta
Kəsib bulax başını, haxışta.

Adlı üzük, can barmax, haxışta
Keşdi sinəmə qarmax, haxışta
O qızı yaddar apardı, haxışta
Mənə qaldı yad almax, haxışta

Oğlan, adın Talıbdı, haxışta
Gün dağları alıpdı, haxışta.
Verdiyin qızıl üzük, haxışta
Barmağımda qalıbdı, haxışta.

Ağ alma, qızıl alma, haxışta
Nimçəyə düzül alma, haxışta.
Çirkin al əsli olsun, haxışta
Bədəsil gözəl alma, haxışta.

İrəvanın yolu haça, haxışta
Sığal çəkdim ipək saça, haxışta.
Qurban olum mən yara, haxışta
O gəlir qaça-qaça, haxışta.

İrəvanın yolunda, haxışta
Gül açaydı qolunda, haxışta.
Qızıl sahat olaydım, haxışta
Mən yarımın qolunda, haxışta.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O tayda quzu gördüm, haxışta
Tükü qırmızı gördüm, haxışta.
Açıb cənnət qapısın, haxışta
Sevdiyim qızı gördüm, haxışta.

O taydan ox atdılar, haxışta
Yaylığınnan tutdular, haxışta.
On iki tüfəy, bir alma, haxışta
Yara sapand tutdular, haxışta.

Ağdır üzüyün qaşı, haxışta
Yandı ürəyim başı, haxışta.
Adını deyə bilmərəm, haxışta
Cahannarın yoldaşı, haxışta.

## YA MƏNİM SƏBRİMİ VER, YA DA SEVGİMİ

Dərya qırağında tihdirdim hamam,
Oxudum sözümü, elədim tamam.
Adın qurbanıyam, on iki imam,
Ya mənim səbrimi ver, ya da sevgimi.

Dərya qırağında tihdirdim kümbəz,
Adımı qoydular, vallah, genə də bilməz.
Adın qurbanıyam, gözə görünməz,
Mənim səbrimi ver, ya da sevgimi.

## BİR OTAQ TİKDİRDİM, TAMAMI KAŞI

Bir otax tihdidim,
Tamamı kaşı.
Bir usda gətidim,
Olufdu naşı.
Bir oğlan səvmişəm,
Sevda yar başı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir otax tihdidim,
Tamamı şüşə.
Bir usda gətidim,
Tuta gümüşə.
Bir oğlan səvmişəm,
Atdana-düşə.

Bir otax tihdidim,
Tamamı buxarı.
Bir usda gətidim,
Çəkə yuxarı.
Bir oğlan səvmişəm,
Qara çuxalı.

## KEÇƏÇİ NƏĞMƏSİ*

Bükmə-bükmə qoy dursun,
Keçəçi təpik vursun.
Hallac baxıf qudursun,
Toppuzu göydə vursun.

Hey, hey, hey,
Hey, hey, hey.

Kilim, gəbə yükdədi,
Gözlərin gədikdədi,
Dönüb geri baxsana,
Sevdiyin yar bizdədi.

Hey, hey, hey,
Hey, hey, hey.
Qarabağın nalçası,

---

* Bu nəğmə Cəbrayıl rayonu Dirili Qurbani məclisi nəzdində fəaliyyət göstərən "Tərəkəmə" folklor kollektivinin ifasından yazıya alınıb (kollektivin bədii rəhbəri Ağayev Sədaqət İsa oğlu). *Qeydə alan: E.Abbasov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Döşənibdi xalçası,
Bir gözəl qız sevmişəm,
Qızıl gülün xonçası.

Hey, hey, hey,
Hey, hey, hey.

## İMAMLAR HAQQINDA

Ərəb atdandı, qoç iyiddər meydanda,
Müxənnət sərinnən* tökülən qandı.
Birinci imamım Şahi-Mərdandı,
İkinci imamı xəbər al, deyim.

Atını minəndə yel kimi əsər,
Yetirib kafirin boynunu kəsər,
İkinci imamım İmami Həsən,
Üçüncü imamı xəbər al, deyim.

Oxudum Quranı, açıldı zehnim,
Yezitdər əlində dağıldı beynim.
Üçüncü imamım, ya İmam Söyün,
Dördüncü imamı xəbər al, deyim.

Bahar oldu, dağlar geyindi abidin,
Din içində bəslədik hami din.
Dördüncü imamım Zeynalı Abidin,
Beşinci imamı xəbər al, deyim.
= Addarı ağırdı, gözdəri mayıl,
Müşkülə düşmüsən, Mövlanı çağır.
Dördüncü imamım Zeynal Abidin,
Beşinci imamımı xəbər al, deyim.

---

* sərinnən – başından



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İmama gedən geyinər ağı,
İmamlar gəzər behişdi bağı.
Beşinci imamım Məhəmməd Bağır,
Altıncı imamı xəbər al, deyim.

Yedik, yedik dünya malın, bıdadıx,
Dadımıza yetə on iki imam, bir o xalıx.
Altıncı imamım Cəfəri Sadıx,
Yedinci imamı xəbər al, deyim.

Dilimdə əzbərimdi, könlümdə yazım,
Ola ki, ağa, biz də durax qabağında Mir Kazım.
Yeddinci imamım Museyi Kazım,
Səkkizinci imamı xəbər al, deyim.
= Davat qələm gətir, adını yazım,
Allahın adıdı həməşə Əzim.
Yeddinci imamım Müseyi Kazım,
Səkkizinci imamı xəbər al, deyim.

Namazı qıl, qoyma qala qəza,
Məşşər günü sənə verəllər cəza.
Səkgizinci imamım İmamı Rıza,
Dokquzuncu imamı xəbər al, deyim.

İmama gedən geyinər ağı,
İmamlar gəzər behişdi bağı.
Dokquzuncu imamım Məhəmmət Tağı,
Onuncu imamı xəbər al, deyim.

Müşgüllər üsdü, saqidi-saqi,
Çəkəndə Zülfüqarı dörd bölər dağı.
Onuncu imamım Əliyən Nağı,
On birinci imamı xəbər al, deyim.
= Şahi Mərdan kövsər üsdə saqidir,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onların gəzdiyi cənnət baqidir,
On birinci imamım Əliyən Naqidir,
On ikinci imamımı xəbər al, deyim.

Səhər-səhər əs barı,
Gözünü rağıb əvinnən kəs barı.
On birinci imamım Həsən Əsgəri,
On ikinci imamı xəbər al, deyim.
= Səhər-səhər, badi yellər, əs barı,
Sözüm budur ilahidən kəs barı.
Onuncu imamım Əbül Həsən Əsgarı,
On birinci imamımı xəbər al, deyim.

Dağların başına gəlibdi duman,
Misginin gözünnən getmədi duman.
Əzəli Şahi-Mərdandı, sonuncu Mehdi Sahibi-zaman,
Tay da varsa, xəbər al, deyim.
= Müsəmbə dağını bürüdü duman
Müşgülün yolunnan getməz heş güman.
On ikinci İmamım Mehdiyi-Sahibzaman.

On biri oğluydu, biri atası,
Nurnan dolu olur butası.
Mağrubnan maşruğa gedər sadası,
Dillərdə deyilir Mərd Murtuzəli.

* * *

Der, ərəb atımdı, Qoçəli meydanım,
Məhəmməd cövhərinnən tökülən qandı,
Birinci imamımızın adı Şahı-Mərdandı,
İkinci imamımızın adın xəvər alın, deyim.

Der, atını minəndə yel kimi əsər,
Tərpənəndə gavırın boynunu kəsər.
İkinci imamımızın adı İmami Həsəndi,
Üçüncü imamımızın adın xəvər alın, deyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Der, oxudum Quranı, açıldı zehnim,
..........................................................
Üçüncü imamımızın adı İmami Hüseyndi,
Dördüncü imamımızın adın xəvər alın, deyim.

Bağlar geyər qara abidin,
Din içində din bəslədi  abidin.
Dördüncü imamımızın adı İmami Zeynalabidin,
Beşinci imamımızın adın xəvər alın, deyim.

Der, qaşların aydı, gözdərin mayıf,
Müşgül işə düşdün o bir mevlamı çağır.
Beşinci imamımızın adı İmami Məmmədbağırdı,
Altıncı imamımızın adın xəvər alın, deyim.

Der, üsdünə yığılıf neçə min qazı,
Dünya malınnan qazanmısan azajıx.
Altıncı imammızın adı İmami Cəfəri Sadıx,
Yeddinci imammızın adın xəvər alın, deyim.

Der, Allahımızın min bir adı var,
Olardan biri ismi-əzəmdi,
Yeddinci imamımızın adı İmami Müseyi-Kazımdı,
Səkkizinci imamımızın adın xəvər alın, deyim.

Der, gülüm, namazını qıl, qoyma keşsin,
Bil ki, şəriyətdə verəllər cəzanı.
Səkkizinci imammızın adı İmami Qərib İmamrzadı,
Doqquzuncu imammızın adın xəvər alın, deyim.

Der, imama gedəndə deyərlər ağı,
Sinəmə çəkiflər düyünnən, dağı.
Doqquzuncu imamımızın adı İmami Məhəmməd Taqı,
Onuncu imamımızın adın xəvər alın, deyim.

Der, savah-savah badi-səba, əs barı,
Olların qolunda olan gumannarı kəs barı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onuncu imamımızın adı İmami Həsən Əsgarı,
On birinci imamımızın adın xəvər alın, deyim.

Der, müşəmbə dağların duman bürüyər,
Heş getməz qonlumnan gumanım.
On ikinci imamımızın adı İmami Mehdi Sahibi-zamandı,
Genə sozünüz varsa, xəvər alın, deyim.

## CƏNABİ ƏLİ-ƏKBƏRİN SİNƏDANI

Əli-Əkbər ölümlü vaxtında babasına yalvarır:

Yaralandı ey şahı-Kərbəla,
Ölürəm, harayıma gəl, baba.
Bu günün istisi, bu ciyər susuz,
Atəşim dəmadəm edər virud.
Bədənim yaralıdı, özüm susuz,
Ölürəm, harayıma gəl, baba.

Baba, eylə Əkbəri-nakərəm,
Yola göz dikib səni gözlərəm.
Başım üsdə gəlməsən, ölərəm,
Ölürəm, harayıma gəl, baba.

O gələn qədəmlərinə afadə,
Sənə çox yetif çox əziyyətim,
Odur çox vardır xəcalətim.
Ay baba, budur əvvəl-axır zəhmətim,
Ölürəm, harayıma gəl, baba.
O gələn qədəmlərinə fəda.

Görüb o əhli-kin, baba tək məni,
Yıxıf atdan öldürəcəh məni.
Gəl, amandı kölgə tək məni,
Ölürəm harayıma gəl, baba.
O gələn qədəmlərinə fəda.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XVI
# DÜZGÜLƏR

1. İynə-iynə,
Ucu düymə.
Mər-mərcan,
Mətir keçi.
Şam ağacı,
Şatır keçi.
Qoz ağacı,
Qotur keçi.
Haldur dedi,
Huldur dedi.
Əmim oğlu
Bir ağac atdı,
Yağnan qara,
Vur nağara,
Çıx qırağa.

2. Dam üsdə dana
cingildər,
Qaranlıq yerdə küçük
dingildər.
Bajadan baxdım işlan göz,
Birisi əyri, birisi düz.
Mindim düzüm boynuna,
Sürdüm Urum yoluna,
Urum yolu bağlıdı.
İçində meymun gəzər,
Meymuncağızı ürkütdüm,
Qulaqcığın qırpıtdım.
Meymuncağın anası
Məni görəndə ağladı,
Tumanına qığladı.
Tumanı dəlik-dəlik.
Qurbağa bölük-bölük
Qurbağanı hakladım,
Üseyn bəyə saxladım.

3. Bajadan baxdı işlan göz,
Birisi əyri, birisi boz.
Mindim bozun boynuna,
Sürdüm Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymuncağı ürkütdüm,
Qulaxların qıpırtdım.
Meymuncağın anası
Məni gördü ağladı,
Tumanına qığladı.
Tumanı bölük-bölük,
Qurbağa çilik-çilik.
Üseyn bəyin boz atı
Dərədəcə ölüfdü.
Üseyn bəyə nə gərək?
Quyruğ üsdə quş gərək.
Quşu vurdum uçurtdum,
Əlli dərə keçirtdim.

4. Beş keçi,
Hanı bının erkəçi?
Erkəç qaya başında,
Hehələdim gəlmədi,
Çiyit tökdüm yemədi.
Çiyid qazanda qaynar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəmbər bucaxda oynar.
Qəmbər getdi oyuna,
Qarğı batdı buduna.
Qarğı deyil, qamışdı,
Beş barmağı gümüşdü.
Gümüşü verdim tata,
Tat mana darı verdi.
Darını verdim quşa,
Quş mana qanat verdi.
Qanatdandım uşmağa,
Hakk qapısın aşmağa.
Qapıçı qapı toxuyur,
İçində bülbül oxuyur.
Mənnən kiçik qardaşım
Allahın kalamın oxuyur.

5. Mindim dəvə boynuna,
Sürdüm Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymuncağın anası
Məni gördü ağladı,
Tumanına qığladı.
Tumanı dəlik-dəlik,
Qurbağa bölük-bölük.
Qurbağanı haxladım,
Üseyn bəyə saxladım.
Üseyn bəyə nə gərək?
Quyruğ üsdə quş gərək.
Quşu vurdum uçurdum,
Hakk qapısın açırtdım.
Qapıçı qapılıx toxuyur,
Mənnən kiçiy qardaşım
Allahın bülbülün oxuyur.

6. Əkil-bəkil quş idi,
Divara qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi.
Oturmuşdum divanda,
Birdən qapı döyüldü.
Elə bildim atamdı,
Aşdım gördüm ilandı.
İlana sillə vurdum
Getdi dəydi divara.
Divardan bir qız çıxdı,
Adın qoydum Tamara.
Tamara, Tamara tat qızı,
Erməni soldat qızı.
Tamara getdi beş günə,
Gəlmədi on beş günə.

7. Motala-motal,
Hil atar,
Qaymax qatar.
Ağ quşum ağarçınım,
Göy quşum göyərçinim.
Əzmə tikan Əmir qulu,
Vur buraya, çıx qırağa.

8. Ayıl-mayıl İsmayıl.
Yuxudan ayıl, İsmayıl,
Qızdar çıxıf məhliyə,
Qızdara daş at, İsmayıl.

9. A testi-testi, teşti,
Virdım Gilanı keşdi.
İki xoruz əlləşdi,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çaydan göyərçinin uşdu
Məni gördü ağladı.

10. Bir, iki – bildirki,
Üç-dörd – qapını ört,
Beş-altı – daş altı,
Yeddi-səkkiz – Firəngiz,
Doqquz-on – qırmızı don.

11. Ay pota-pota,
Gəl gedəh ota.
Ot qırıldı,
Pota yıxıldı.

12. Çilmə-çilik,
Yeddi milik,
Saray səkkiz,
Qarğa doqquz,
Oğlan gəldi,
Qız, qaç.

13. Kəkilli fərə,
Çıxma çəpərə,
Səni görəllər,
Ərə verəllər.
= Kəkilli fərə,
Çıxdı çəpərə,
Hamı getdi ərə,
Balam qaldı belə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XVII
# UŞAQ OYUNLARI

## DƏLƏDƏSMAL OYUNU

Uşaxlar halay qurup oturullar. Bir uşax da əlində dəsmal bu uşaxların arxa tərəfiynən dövrə vurur. Dövrə vura-vura gəzdihcə dəsmalı uşaxlardan birinin arxa tərəfinə atır. Uşaxların heş biri arxasına dönüp baxmamalıdı. Arxasına dəsmal atılan uşax arxıya dönmədən dəsmalın onun dalına atıldığını tapıb bəyan eləsə, dəsmal gəzdirənnən nə isdəsə, şeir, tapbaca, mahnı oynamax və s. dəsmalgəzdirən halayın içində eləməlidi. Yox, əyər, dalına dəsmal atılan, dəsmalın onun arxasına atıldığını tapbasa, dəsmal gəzdirən uşax o uşaxdan şeyir isdəsə, o uşax halayın içində şeyir deyər, mahnı isdəsə, mahnı oxuyar, oynamax isdəsə oynuyar. Oyun bu minvalla davam eliyər.

* * *

Uşaxların əllərini oynadıb deyərdilər:

Baş barmax,
Başala barmax,
Uzun hacı,
Qan turacı,
Çıkkılı bacı.

* * *

Uşağın ovcunu əl ilə qıdıxlıyıf deyillər:

Burdan bir dovşan qaşdı,
Bu gördü (baş barmax),
Bu tutdu (II barmax),
Bu bişidi (III barmax),
Bu aşıdı (IV barmax),
Çuppuluya qalmadı (çəçələ barmax).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Uşaxlar ayaxlarını bir yerə qoyur, bir-birinə vuruf oxuyullar:

Araz gəlir, lil gəlir,
İçi dolu gül gəlir.
O gülün birin üzeydim,
Saç bağıma düzeydim.
Balamın toyunda
Bir doyunca süzeydim.

Axıra qalan oyunnan çıxırdı.

* * *

Kiçik uşaxları alardılar qucaxlarına, qılçasını o üzə, bu üzə qaytarırdılar, idman formasıydı, nəydi, deyirdilər:

Sınıx qıç, hay sınıx qıç,
Aş bişiməz sınıx qıç.
Su gətiməz sınıx qıç,
Elə ki, qonşudan pay gələndə,
Şöppənəh durar sınıx qıç.

Uşağın iki qılçasını qaldırardılar yuxarı. Bını təkrar bir neçə dəfə deyif uşaxı səvərdilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XVIII
# MÜXTƏLİF ŞEİRLƏR

## MƏZAHİR DAŞQINNAN ŞAİR HACI

O vaxtı Məzahir Daşqın plennikdən Stalinin hökmüynən, Səməd Vurğunun köməkliyi ilə azad oluf Azərbaycana qayıdanda Qazaxlı şair Hacıynan türmə yoldaşı olublar. Altıncı kolonda bir yatıblar. Şair Hacı eşidir ki, Daşqın azadlığa gəlir, ona bir məktub yazır. Özü də şeirnən yazır:

Təxəllüsü Daşqın, adı Məzahir,
Mənim bu naməmi almamış olma.
Beynamus qohuma, yaltax dostlara,
Həcv, hədyan deyib yazmamış olma.

Məzahir Daşqın məktubu alır görür Şair Hacıdı yazan. Şeirə cavab yazır:

Aldım məktubunu, ay Şair Hacı,
Ürək ağlıyarkən gülmək çətindi.
Hər şairin dərdi elin dərdidi,
Bu sonsuz dəryanı bölmək çətindi.

Məzahir Daşqını Stalin ömürrük azaddıxdan məhrum eləmişdi. Bəzi şeylər qulağına çatmışdı Şair Hacının. Şair Hacı yazır:

Keçirdin ömrünü qürbətdə xeyli,
Odur ki, naməni yazdım gileyli.
Sənə xain çıxıf vəfasız Leyli,
Məhəbbəti qannan silməmiş olma.

Məzahir Daşqın yazır ki:

Sən mənim Leylimə demə vəfasız,
Əşqin məcarəsi olmaz vəfasız.
Bir dərdə düşmüşəm, dərdsiz, dəvasız,
Məhəbbəti qannan silmək çətindi.

Şair Hacı yazır ki:

Möhtərəm qardaşım, kamil ustadım,
Qazaxdı mahalım, Hacıdı adım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəlkə öldüm, sən gələnə qalmadım,
Ölsəm, məzarıma gəlməmiş olma.

Məzahir Daşqın deyir ki:

Uğursuz illərin keşsə də mini,
Daşqın hər an görə bəxtəvər səni.
Allah göstərməsin dost matəmini,
Dostun matəminə gəlmək çətindi.

## QƏMKEŞ ALLAHVERDİ

Qəmkeş Allahverdi, qardaşı İdris müəllim, bir neçə nəfərnən gedillər ova. İdris məllim bərədə duruf, sürəçi də gərək ovu gətirsin sürəhləndirsin ki, ov bəriyə gələndə dayanan adam atmalıdı. Ov gəlib çatanda görür ki, qardaşı heç atmax istəmir. İstiyir tüfəyi tuşdasın, görür ki, altında balası əmir. Qəmkeş Allahverdi deyir:

Bərədə durmusan nə yaman ovçu,
Odur oylağına bir maral gəlir.
Sanki elə bilir boşdu bərələr,
Gör necə ahəstə, irəvan gəlir.

Qardaşı deyir:

Cığırda durmuşam, yol yoxdu,
Deməyə sözüm var, atım, atmıyım?
Başını qaldırıb baxır üzümə,
Gözündə gözüm var, atım, atmıyım?

Qəmkeş Allhaverdi deyir:

Bax odur dayanıb sənnən aralı,
Nədənsə tükənib səbri-qəralı.
Yazıx ya xəstədi, ya da yaralı,
Nə bilim, qəlbimə min güman gəlir.

Qəmkeş deyir, ov bərədən keçəcək,
Kim bilir ki, nə məkana yetəcək.
Ovlamasax, vallah gedib itəjək,
Bax, odu dağlara çən, duman gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İdris məllim deyir:

İdrisəm, yetişdim belə bir vaxtda,
Barmağım tətikdə, döşüm qundaxda.
Bir anlıx düşündüm evdə, otaxda,
Oğlum var, qızım var, atım, atmıyım.

## ŞIXLI QURBANLA ŞAİR BƏHMƏN

Qazaxdan Şıxlı Qurban məllim İstisuya gəlir, Kəlbəcərin Cavanşir qəzasının yaxşı vaxtında. Ordan-burdan xəbər alır ki, dərdin alım, o şair Bəhmən vardı, bəlkə onu görəsiniz. Deyillər ki, ay qağa, Bəhmən məllimi indi tapbax çətin olar.

Şıxlı Qurban deyir:

– A qardaş, niyə?

Deyillər:

– İndi ot biçini vaxtıdı Kəlbəcərdə, Bəhmən məllimin başı ot biçininə qarışar, çətin olar onun tapbax.

Şıxlı Qurban deyir:

– Ə, qardaşoğlu, o kətdənsən?

Deyir:

– Bəli.

Şıxlı Qurban deyir:

– Ona kağız versəm, verərsənmi?

– Əmi, niyə vermirəm?

Üç bənd şeir yazır. Yazır verir oğlana. Oğlan gəlir Seyitdər kəndinə, Bəhmən məllimi tapır, məktubu ona verir. Məktub Bəhmənə yetişəndə Bəhmən deyir:

– Ə, a bala, yavaş görüm, bunu hardan gətirmisən genə qara xəbər kimi?

O vaxtı o Sovet hökumətinin vaxtında dedi görən bu şikayət ərizəsidi, nədi? Açanda belə baxdı ki, üş bənd şeir yazılıb:

Təbinə bələdəm, ay şair Bəhmən,
Özünü görməyin marağındayam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoca abdal kimi yollar üstündə,
Vəfalı dostların sorağındayam.

– A bala, otur, dəftər-qələmini çıxart. Mən gedənə qədər o kişinin ürəyi partdıyar. Şeirin cavabını apar.

Cavabında şair Bəhmən yazır:

Şirin ülfətinə qurban, a Qurban,
Qədir bilənlərin dodağındayam.
Məni tapbax elə müşkül iş deyil,
Qocaman Murovun qucağındayam.

– İkincisini oxu, görüm.

İkinci bəndində Qurban məllim yazır ki:

Ömür, gün keçdikcə can tapır qada,
Ləzzəti, nəşəni verirsən bada.
Loğman İstisuda dönüb fəryada,
Dağların gözünün qabağındayam.

Demək istiyir ki, mən hal-hazırda İstisudayam. Bəhmən məllim bu şeirə də cavab yazır:

Bir də ələ düşməz ömrün keçəni,
Dolanım başına, kövrəltmə məni,
Şirin sözlərinnən tanıdım səni,
Həsrətin, hicranın fərağındayam.

Qurban məllim şeirin axırında yazır ki:

Qurbanam, Qazaxda Şıxlıdı obam,
Xram, Kür birləşən yerdədir yuvam,
Vidadi, Vaqifdi, Salikdi babam,
Vurğunun, Mehdinin torpağındayam.

Bəhmən məllim sözün təxəllüsünə belə cavab verir:

Bəhmənəm, sakini cənnət-məkanım,
Körpə balasıyam Azərbaycanın.
Dədə Ələsgərin, şair Qurbanın,
Şəmşirin müqəddəs ocağındayam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AŞIQ MƏHƏRRƏMLƏ SALAHLI PAŞA

1970-ci illərdə Bərdə rayonunda Qeroy Həsən Kərimov toy eliyir. Bu toy eliyəndə Aşıq İmran, mənim ustadım Aşıq Məhərrəm, mən də kiçik yaşdarımda bunnarın yanında örgənən vaxtı bunlar toya gəldi. Salahlı prokuror Paşa da toyun tamadası idi. Paşa məllim dedi:

– Aşıx Məhərrəm, bir belə şagird yetirmisən, sana bir söz deyəjəm, gərək bu məclisdə ona cavab verəsən. Sənə qıfılbənd, təcnis, təxmis, dildönməz, dodaxdəyməz demiyəjəm, sənə bir gəraylı deyəjəm.

– A Paşa məllim, buyurun.

Paşa məllim deyir:

Söylə, insan qocalarmı,
Günü yaxşı keçən yerdə?
Könül əbəs dolanarmı,
Özü oylax seçən yerdə?

Dedi, gərək bu sözə bir ustad kimi cavab verəsən.

Məhərrəm dedi:

– A Paşa məllim, dərdin alım, deyirsən deyim.

Kamil ustad yada düşdü,
Şirin söhbət açan yerdə.
Cavanlığım tez ötüşdü
Təzə meydan açan yerdə.

Yer üzündə gəzən bəşər,
Gəl atma bir-birinə şər.
Quyu qazan özü düşər
Düz yol bilib keçən yerdə.

Sev xalqını Salahlı tək,
Vətən üçün vursun ürək.
Hərə bir iz qoysun gərək,
Bu dünyadan köçən yerdə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıx Məhərrəm deyir:

Ədalətsən kanı-kərəm,
Namərdə boyun əymərəm.
Ağbulaxlı Məhərrəməm,
Doğru sözü seçən yerdə.

## AŞIQ ŞƏMŞİR

Bir gün Kəlbəcər aşıxları Aşıx Şəmşirin yanına gəlillər. Deyillər, ay Dədə, bizi Laçına çağırıflar. Aşıx Şəmşir deyir:

– A bala, nə aparırsınız?

Deyillər, əşi, xanəndə, kəndirbaz, aşıx, saz, balaman, tar, qaval.

Aşıx Şəmşir deyir:

– A bala, ora düzdü, aparırsınız, siz Laçına gedirsiniz. Ora söz lazımdı.

Deyillər:

– Ay Dədə, nə söz?

Aşıx Şəmşir deyir:

– Qələm-dəftər çıxardın, gedəndə o səhnədə oxuyarsınız.

Nəbiyə səngərdi, Eldara yaylax,
Bu ad qaldı bir yadigar Laçına.
Murov, Keydi, Lilpər, Qoşqar, Dəlidağ,
Bir torpaxdan axar, baxar Laçına.

Xalqımızın qəlbi vurur bir hamı,
Çöküfdü torapağa qüdrətin kamı.
Kəlbəcər xalqının qardaş salamı,
Unudulmaz həmişə var, Laçına.

İsti su əmirik ana südü tək,
Gül kimi təmizdi bizdəki ürək.
Aşıxlar əlində aparsın çiçək,
Dəlidağ veribdi, apar Laçına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əzəldən qazanıb ləkəsiz bir ad,
Dünyaya səs salıb Həkəri, Bərgüşad.
Qarğa qona bilməz, sar çalmaz qanad,
Şahin, şonqar, laçın qonar Laçına.

Nə vaxtı o yerin mən sorağında,
Gedək məclis qurax Turş bulağında.
Bu Dədə Şəmşirin qoca çağında,
Könlü bir quş kimi uçar Laçına.

## ALTI QIZA TƏRİF

Altı qızın biri Bəsdi,
Gümüş kəmər belimi kəsdi.
Altı qızlar, nazlı qızlar
Altısı da yolumu gözlər.

Altı qızın biri Yetər,
Zülfü dabanından ötər.
Altı qızlar, nazlı qızlar
Altısı da yolumu gözlər.

Altı qızın biri Sona,
Yaman vurulmuşam ona.
Altı qızlar, nazlı qızlar
Altısı da yolumu gözlər.

Altı qızın biri Solmaz,
Onu əldən vermək olmaz.
Altı qızlar, nazlı qızlar,
Altısı da yolumu gözlər.

Altı qızın biri Banu,
Olum gözlərin qurbanı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Altı qızlar, nazlı qızlar
Altısı da yolumu gözlər.

## GƏLİN-QAYINANA SÖZLƏRİ

1. Qaynana, qaynana, zalım qaynana!
Oğlu ipək, özü yaman qaynana!
Qaynanama Quran qismət olaydı,
Qaynanama Quran qənim olaydı.

Damda dirəkdir qaynana,
Qönçə çiçəkdir qaynana.
Oğlu evə gələndə,
Məndən zirəkdir qaynana.

Baldızımı çöldə ilan çalaydı,
Qaynana, qaynana, zalım qaynana.
Qaynatama canım qurban olaydı,
Hamıdan da zalım, yaman qaynana.

2. Oğul-oğul qaynana,
Doğdu oğul qaynana.
Oğluu aldım əlindən,
Çatda, boğul, qaynana.

Aşı süz qoy, qaynana,
Qaba düz qoy, qaynana
Oğluu aldım əlindən,
Başına buz qoy, qaynana.

## GİLİYƏ

Cəbrayılın Böyük Mərcanlı kəndində Gilə addı bir gəlin olub. Onun əri ölüb. Yaxşı var-dövlət qalıb ərindən. Bunu çox adam istəyib. Heş kimə getməyib. Onda başlayıblar bunun adına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cürbəcür söz çıxartmağa. Kənddə də bir aşıq olub, bunu eşidib Giliyə bir şeir qoşub. O şeir çox uzun olub. Söyləyicinin yadında isə aşağıdakı parça qalıb.

Giliyə, xan Giliyə,
Qoş, quzu qurban Giliyə.
Sarı, qanavız köynəyin,
Pul düzüfdü yaxasına.
Başında Herat yaylığı,
Bəndər göllər sonasıdı.
Nəhlət o şəxsin zatına,
Söylüyə böhtan Giliyə.
Həm bu dünyada bajım,
Həm qiyamətin günü.
Nəhlət o şəxsin zatına,
Söylüyə böhtan Giliyə.

## DURNAM

Durnam gəlir düzüm-düzüm,
Qanadı boynundan uzun,
Durnam mənim iki gözüm.
Sən haralısan, haralı, durnam,
Ovçu əlindən yaralı durnam.

Durnam gəlir qatar-qatar,
Qanadı boynundan ötər,
Mənim ahım səni tutar.
Sən haralısan, haralı, durnam,
Ovçu əlindən yaralı durnam.

Durnam gəlir Quş-Kəşana,
Quşa döşənə-döşənə,
Yaylığımı apar nişana.
Sən haralısan, haralı, durnam,
Ovçu əlindən yaralı durnam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## YAR GƏLƏ

Torpağa verrəm yanımı,
Halal eyləməm qanımı,
Əzrayıl, alma canımı,
Bəlkə yar gələ, yar gələ.

Torpağa qoydum üzümü,
Haqqa söylədim sözümü,
Ana, bağlama gözümü,
Bəlkə yar gələ, yar gələ.

Eşitmişəm aşıxlardan,
Nə atam var, nə də anam.
Qəmgin gəzmə, ay sevgilim,
Bu dünyada mən ki varam.

## GÖRDÜNMÜ*

Sadət, gördünmü, oldunmu heyran,
O xoş yerdə xoş məqamı gördünmü?
Ziyarət etdinmi Nəcəf əşrəfi,
Kərbəlada müsəlləmi gördünmü?

De görüm getdinmi o xeymənaya?
Nəzirə yazılıf nuri-binaya.
Bir nəzər qıldınmı şiri-əzbaya,
Şivan edən o heyvanı gördünmü?

Hüsöyün də bada etdi iltimas,
Gələn balalardan kim oldu xilas?
Hünəri Mürtəza, tuğü qiyas,
Valeh kimi növcavanı gördünmü?

---

* Aşıx Valehin şeiri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BAZAR TƏRİFLƏRİ

Müştəri, a müştəri,
Qızıldandı dişləri.
Altı kabab, bir arax,
Əlli minliy düş bəri.

## DİGƏR ŞEİR PARÇALARI

1. Dəmir üsdə döydürrəm darı,
Od tutsun yansın Qafarı.
Kərim bəy oğlu Mehdəri,
Mehdər bəy oğlu Salmanı.
Yıxdım Arazın bəndini,
Gətirin sıfranın qəndini.
Qafanın on beş kəndini,
Əhməyə kotanım ola.

2. Ərisin dağların qarı,
Tökülsün çaylara barı.
Ey Səfdərin nazlı yarı,
Süzməyi kimnən örgəndin?
Bu məhdəbin qabağında
Oturmağı kimnən örgəndin?

3. Savalandı gədiyimiz,
Təndirdə bişir hədiyimiz.
Bircə saatdı gəldiyimiz
Nə deyəh gedəh babamgilə?
Biz durax gedəh babamgilə.

4. Bu dünyanı puç bilirəm,
Gülüm sənin qucağında.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qoy lal olsun batsın dilim
Ölüm sənin qucağında.

5. Bir ev tikiflər, bacası yoxdu,
Bir köynəh tikiflər, yaxası yoxdu.
Bu dünyaya etibar eləmə,
Bu dünyanın vəfası yoxdu.

6. Yeddi atım, yeddi itim,
Yeddi qoyun, yeddi quzum,
Səfəralı sərfanımız
Yüz başı çovanım oleydı.

7. Bılağ üstə bir qız gördüm,
Qız pətəhdə bala bənzər.
Yanında bir gəlin gördüm,
Kəsilməmiş nara bənzər.

8. Mövlam, açılsın kamalın,
Günəş üzündür mah camalın.
Bağçamızda top-top otlar
Tarlamızda kəhər atlar.
Ay oğlan, dur, savah oldu,
Yandı bağrım kavab oldu.

9. Koroğlunun köçün gördüm
İçində bir laçın gördüm.
Dörd bir yana, beş bir yana,
Doqquz hörük saçın gördüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Abbasov Rəşid Əli oğlu, Tərtər rayonunun Hacallı kəndi, 1957-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətn: Kişi ağzında qızıl xırdalayır. *Toplayan: S.Hüseynova*

Abdullayev Cabbar Əziz oğlu, Laçın rayonu, 1936-cı il təvəllüdlü, orta təhsilli. Hazırda Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Vaxtilə bənna işləyib. Söylədiyi mətnlər: Gəldim qayası. *Toplayanlar. İ.Rüstəmzadə, Q.Qubadov.*

Abdullayev İldırım Vəli oğlu, Tərtər rayonunun Əskipara kəndi, 1929-cu il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətn: Aşıq Valeh (II mətn). *Toplayanlar: Q.Sayılov, V.Abıyev*

Adıgözəlova Firək Abbasəli qızı, Cəbrayıl rayonunun Qovşudlu kəndi, 74 yaşlı. Söylədiyi bayatılar: 274-290. *Toplayan: R.Xəlilov*

Ağakişiyev Elxan Firid oğlu, Qubadlı rayonunun Qubadlı kəndi, 1952-ci il təvəllüdü, ali təhsilli. Söylədiyi tapmacalar: 30-33. *Toplayan: E.Əmirli*

Ağakişiyev Yermak Firid oğlu, Qubadlı rayonunun Qubadlı kəndi, 1942-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətn: Mir Sədi ağa (III mətn). *Toplayan: E.Əmirli*

Ağaməmmədova Şəfiqə Zəkəra qızı, Ağdam rayonunun Saraclı kəndi, 1937-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Gəlinin arzusu; Bədnəzər haqqında (IV və VI mətnlər); Axır çərşənbə (I mətn); Ovçu oğlanla məleykə (I mətn). *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağayeva Hicran, Cəbrayıl rayonu, 54 yaşında, təhsilsiz. Türkəçarəliklə məşğul olur. Bakı şəhəri Xətai rayonu 224 saylı baxçada məskunlaşıb. Söylədiyi mətnlər: Körpə uşağın qırxının tökülməsi; Göbəyin düşürülməsi; Uşağın dil açması; Gec yeriyən uşağın çiləsinin kəsilməsi (I mətn); Həmzatlı qadın (I mətn); Sağsağan haqqında. *Toplayanlar: F.Qasımova, G.Canməmmədova*

Allahverdiyev Allahyar İsa oğlu, Tərtər rayonunun Əskipara kəndi. Söylədiyi mətnlər: Kimin zəhəri güclüdür?; Bağışlanmaz günahkar; Hər kəs öz balasını apardı. *Toplayanlar: Q.Sayılov, V.Abıyev*

Allahverdiyeva Məryəm Mikayıl qızı, Zəngilan rayonu, 1942-ci il təvəllüdlü, orta təhsilli. Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanasında məskunlaşıb. Söylədiyi nağıllar: Həzrət Əli; Üç bacı (I mətn). *Toplayan: M.Abbasova*

Allahverdiyeva Tərlan Mikayıl qızı, Zəngilan rayonunun Məlikli kəndi, 1934-cü il təvəllüdlü, orta təhsilli. Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanasında məskunlaşıb. Söylədiyi nağıl: Əyri tut ağacı. *Toplayan: M.Abbasova*

Allahverdiyeva Zeynəb, Ağdam rayonunun Sarıcalı kəndi. Söylədiyi mətn: İlan haqqında (II mətn). *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva*

Allahverdiyeva Zümrüd Nəcəfqulu qızı, Cəbrayıl rayonunun Sirik kəndi, 1935-ci il təvəllüdlü, orta təhsilli. Vaxtilə kitabxanaçı işləyib. Hazırda İmişli rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: Hacı Qaraman (II-III mətnlər); Hacı Qasım Çələbi (VI-VII mətnlər); Yasin Çələbi (I mətn); Seyid Həmzə Nigari (I mətn). *Toplayanlar: İ.Rüstəmzadə, Q.Qubadov.*

Aslanova Nəzakət Əvəz qızı, Füzuli rayonunun Yuxarı Seyid Əhmədli kəndi, 1954-cü il təvəllüdlü, təhsilsiz. Füzuli rayonunun Örənqala qəsəbəsində məskunlaşıb. Söylədiyi bayatılar: 90-92. *Toplayan: M.Abbasova*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Atakişiyeva Səkinə Sabir qızı, Zəngilan rayonunun Vəliqulubəyli kəndi, 1962-ci il təvəllüdlü, orta təhsilli. Sabirabad rayonundakı qaçqın şəhərciyində məskunlaşıb**.** Söylədiyi mətnlər: Hal (VIII mətn); Milçək süfrəyə niyə tez gəlir?; Peyğəmbər və qızı; Bədnəzər haqqında (II mətn). *Toplayan: M.Abbasova*

Babayev Aydın Şirin oğlu, Şuşa rayonunun Xanallar (İmanqulular) kəndi, təvəllüdü 1932, təhsilsiz. Hazırda Cəlilabad rayonunun Uzuntəpə kəndində məskunlaşıb. Söylədiyi mətnlər: Ülkər ulduzu (II mətn); Yeddilər; Karvanqıran ağac; Quyruq dondu (II mətn); Yazın qırxbeşi; Alı qazan gəzdirən kimi nə gəzdirirsən; Aşıq Abbas (I-II mətnlər). *Toplayan: E.Abbasov*

Babayev Məhəmməd, Ağdam rayonunun Üçoğlan kəndi. Söylədiyi bayatılar: 259-271. *Toplayan: R.Xəlilov*

Babayev Tofiq Atakişi oğlu, Ağdam rayonunun Xındırıstan kəndi, 1934-cü il təvəllüdlü, orta ixtisas təhsilli. Söylədiyi mətn: Yedilər, içdilər, dağılışdıq. *Toplayan: S.Hüseynova*

Babayeva Sahilə Tofiq qızı, Ağdam rayonu, 1961-ci il təvəllüdlü, orta-ixtisas təhsilli. Söylədiyi mətn: Dələdəsmal oyunu. Toplayan: S.Hüseynova

Baxşəliyeva Gülənbər, Qubadlı rayonu, təvəllüdü 1948. Söylədiyi mətnlər: Mir Sədi ağa (I-II mətnlər); Oğlan-qız dərəsi. **Bayatılar:** 151-164. *Toplayan: E.Əmirli*

Cəfərova Flora Bahadır qızı, Ağdam rayonunun Xındırıstan kəndi, 62 yaş, orta təhsilli. Söylədiyi mətnlər: **Bayatılar:** 340-347. **Nəğmələr, mərsiyələr:** Cənabi Əli-Əkbərin sinədanı. *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəfərova Siranuş, Ağdam rayonunun Poladlı kəndi, təvəllüdü 1927, evdar qadın. Söylədiyi mətnlər: Heyvanların padşahı; Söyüd niyə utanır? *Toplayan: İ.Qasımov*

Əhmədova Müzəyyə, Cəbrayıl rayonu. İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində məskunlaşıb. Söylədiyi bayatılar: 64-70. *Toplayanlar: S.Qarayev, H.Quliyev*

Əliyev Aydın Həsən oğlu, Tərtər rayonu, 1933-cü il təvəllüdlü. Söylədiyi mətnlər: Bic Qənbər haqqında lətifələr. *Toplayanlar: Q.Sayılov, V.Abıyev*

Əliyev Baxşeyiş Süleyman oğlu, Tərtər rayonunun Evoğlu kəndi, 63 yaş. Söylədiyi mətn: Seyid Məmməd ağa. *Toplayanlar: L.Süleymanova, T.Orucov*

Əliyev Xasay, Şuşa rayonunun Xanallar (İmanqulular) kəndi, 1939-cu il təvəllüdlü, orta ixtisas təhsilli. Cəlilabad rayonunun Uzuntəpə kəndində məskunlaşıb. Söylədiyi mətn: Siz sağ olun. *Toplayan: E.Abbasov*

Əliyev Sabir İslam oğlu, Tərtər rayonunun Təzəkənd kəndi, 1957-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətn: Gəzəyən arvad. *Toplayan: S.Hüseynova*

Əliyev Vəliqulu, Zəngilan rayonunun Məşədismayıllı kəndi, 1936-cı il təvəllüdlü. Bakıxanov qəsəbəsində 4 saylı yataqxanada məskunlaşıb. Söylədiyi mətn: On iki qardaşın nağılı; Kasıb oğlan. *Toplayanlar: S.Qarayev, H.Quliyev.*

Əliyeva Güllər, Cəbrayıl rayonu. İmişli rayonunun Bəhramtəpə qəsəbəsində məskunlaşıb. Söylədiyi bayatılar: 57-63. *Toplayanlar: S.Qarayev, H.Quliyev.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əliyeva Kəmalə Köçəri qızı, Tərtər rayonunun Evoğlu kəndi, 1970-ci il təvəllüdlü, evdar qadın. Söylədiyi mətnlər: **Mərasimlər, ovsunlar:** Axır çərşənbə (IV mətn). **İnamlar:** Çinar ağacı; Çörək haqqında (I-II mətnlər). **Yasaqlar:** 21-23. **Bayatılar:** 383-388. *Toplayanlar: L.Süleymanova, T.Orucov*

Əliyeva Səriyyə, Ağdam rayonunun Abdal-Gülablı kəndi, 78 yaşında, təhsilsiz. Hazırda Quzanlı qəsəbəsindəki qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: Əli bulağı və narlıq meşəsi (III mətn); Axır çərşənbə (III mətn). *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva.*

Əliyeva Şəhla Mustafa qızı, Cəbrayıl rayonunun Şükürbəyli kəndi, 62 yaşında, evdar qadın. Hazırda Xətai rayonu, Gəncə prospekti 224 saylı baxçada məskunlaşıb. Söylədiyi mətnlər: **İnamlar:** Rəqəmlə bağlı inam; Ağacı qorxutmaq. **Düzgülər:** 13. *Toplayanlar: F.Qasımova, G.Canməmmədova*

Əliyeva Həvva, Şuşa rayonunun Xanallar (İmanqulular) kəndi, 45 yaşlı, orta təhsilli. Cəlilabad rayonunun Uzuntəpə kəndində məskunlaşıb. Söylədiyi mətn: Seyid Xəlil ocağı. *Toplayan: E.Abbasov*

Əsgərov Arif, Tərtər rayonu, 1950-ci il təvəllüdlü. Söylədiyi mətnlər: Atın züy tutanı; Top atsam, hara qaçassan? **Müxtəlif şeirlər:** Məzahir Daşqınnan Şair Hacı; Qəmkeş Allahverdi; Şıxlı Qurbanla Şair Bəhmən; Aşıq Məhərrəmlə Salahlı Paşa; Aşıq Şəmşir. *Toplayanlar: Q.Sayıov, V.Abıyev*

Əsgərov Həşim Güləli oğlu, Ağdam rayonunun Abdal-Gülablı kəndi, 60 yaşında, orta təhsilli. Hazırda Quzanlı qəsəbəsindəki qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Cin haqqında (VII mətn); Damcı bulaq; Abdal Qasımın qoçaqlığı; Qasımın atıcılığı; Aşıq Valeh (I mətn). **Lətifələr:**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəy kimi yal yalıyır; Qasımın andı; Nə bilim sənin ağan qamışlıqda gizlənib. *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva*

Əsgərov Köçəri Güləli oğlu, Ağdam rayonunun Abdal-Gülablı kəndi, 57 yaşında, orta təhsilli. Hazırda Quzanlı qəsəbəsindəki qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Əli bulağı və narlıq meşəsi (II mətn); Abdal kəndi; Erməni-müsəlman müharibəsində Abdal Qasımın fəaliyyəti; Qasım necə olur oğurluq edir; Qara Qasım. **Lətifələr:** Qoyunlar Müseyibin pəyəsində olacaq; Mən bu vaxta qalan döyüldüm. *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva*

Əzizbəyov Arif, Tərtər rayonu. Söylədiyi mətn: Deyərdim, elə mənim atımdı. *Toplayanlar: Q.Sayılov, V.Abıyev*

Fərzalıyev Həsrət Qulu oğlu, Zəngilan rayonunun Əmirxanlı kəndi, 1936-cı il təvəllüdlü, orta təhsilli. Sabirabad rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi nətnlər: Kəblə İsmayıl; Qız qalası (II mətn); Yazıya pozu yoxdur (II mətn). *Toplayan: M.Abbasova*

Fərzalıyeva Şövkət Qulu qızı, Zəngilan rayonunun Əmirxanlı kəndi, 1926-cı il təvəllüdlü, orta təhsilli. Vaxtilə fermada sağıcı işləyib. Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanasında məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Kəblə Fərzalı; Qız qalası (I mətn); Qaçaq Nəbi (I mətn); **Mərasimlər, ovsunlar:** Yas adətləri (V mətn). **Bayatılar:** 118-124. *Toplayan: M.Abbasova*

Hacıyev Şakir, Cəbrayıl rayonu, 67 yaşında. Söylədiyi mətn: Hacı Arab ziyaratgahı. *Toplayanlar: F.Qasımova, G.Canməmmədova*

Həsənov Halay Xanlar oğlu, Laçın rayon sakini, təvəllüdü 1932. Hazırda Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: Seyid Həmzə Nigari (II mətn); İlan qayası;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Soltan bəy Andranikin dəstəsini necə mühasirəyə salır? (I mətn); Dəryadan çıxan əl (II mətn); Bəhlul evlənmək istəmir. *Toplayanlar: İ.Rüstəmzadə, Q.Qubadov*.

Həsənov Yaqub Xəlil oğlu, Ağdam rayonunun Sayıbalı kəndi, 1939-cu il təvəllüdlü, natamam orta təhsilli. Hazırda Cəlilabad rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Fatma ananın hanası; Karvanqıran ulduzu (II mətn). **Nağıllar:** Yazıya pozu yoxdur (I mətn). *Toplayan: E.Abbasov.*

Həsənova Elba Həsən qızı, Füzuli rayonunun Horadiz kəndi, 1945-ci il təvəllüdlü, təhsilsiz. Füzuli rayonunun "Qayıdış" qəsəbəsində məskunlaşıb. Söylədiyi mətnlər: **Bayatılar:** 93-95. **Laylalar, nazlamalar:** 11. **Düzgülər:** 13. *Toplayan: M.Abbasova*

Həsənova Hürü Balaca qızı, Zəngilan rayonunun Sobu kəndi, 63 yaşında. Xətayi rayonu Zığ şossesindəki 14 saylı yataqxanada məskunlaşıb. Söylədiyi mətnlər: Qurd donuna girən qadın (I mətn); Ovun insana dönməsi; Şeytan (II mətn); Ovçu oğlanla mələykə (II mətn); Arvad, şilən durudu. *Toplayanlar: S.Qarayev, H.Quliyev*

Həsənova Nübar, Cəbrayıl rayonunun Çərəkən kəndi, 1926-cı il təvəllüdlü, təhsilsiz. Hacıqabul rayonunun Nəvahi qəsəbəsində məskunlaşıb. **Bayatılar:** 99-105. *Toplayan: M.Abbasova*

Həsənova Səlbinaz Təhməz qızı, Kəlbəcər rayonunun Əsrik kəndi, 1976-cı il təvəllüdlü, evdar qadın. Şamaxı rayonunun Çuxuryurd kəndində məskunlaşıb. Söylədiyi bayatılar: 7-14. *Toplayan: Bakı Avrasiya Universitetinin tələbəsi G.Həsənova*

Həsənova Yaxşı, Füzuli rayonunun Arışanlı kəndi, 1933-cü il təvəllüdlü. Beyləqandakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: **Nağıl:** Allaha pənah. **Bayatılar:** 240-258. **Laylalar, nazlamalar:** 8. *Toplayanlar: F.Qasımova, G.Canməmmədova*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həşimov Mir Səlim Mir Ələkbər oğlu, Qubadlı rayonu, təvəllüdü 1935. Söylədiyi mətnlər: Cin haqqında (II mətn); Süleyman peyğəmbərin üzüyü; İmamzadə piri (I-III mətnlər); Məmmədli ocağı; Seyid Məhəmməd bulağı; İlan haqqında (III mətn); *Toplayan: E.Əmirli*

Hümbətov Hümbət Əbdülkərim oğlu, Cəbrayıl rayonunun Çərəkən kəndi, 1924-cü il təvəllüdlü. Vaxtilə dəmiryolunda çalışıb. Hazırda Hacıqabul rayonunun Nəvahi qəsəbəsində məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Məhəmməd peyğəmbərin ölümü; Həzrət Əli və Yezid. **Nağıllar:** Yazıya pozu yoxdur (III mətn); Bəhlul Danəndənin qardaşlığı; Allahdan istəyən qız; Hər işin başı səbrdir; Şah Abbasla dərvişlər; Kimin yalanı uzun olar? **Lətifələr:** Bir yana çıxarıq; Eşşək elə sənin eşşəyindi; Apar ulağı suvar; Eşşək, sənə deyirəm, qonaq, sən eşit; Söz yarası. **Tapmacalar:** 34-39. **Bayatılar:** 96-98. **Laylalar, nazlamalar:** 27-32. **Düzgülər:** 10-12. **Nəğmələr, mərsiyələr:** İmamlar haqqında. *Toplayan: M.Abbasova*

Hümbətova Teyfə Zal qızı, Tərtər rayonunun İrəvanlı kəndi, 1936-ci il təvəllüdlü. 1948-cu ildə Vedi rayonunun Gilənnar kəndindən departasiya olunub. Söylədiyi mətnlər. **Bayatılar:** 178-197. **Nəğmələr, mərisyələr:** Haxışta. **Müxtəlif şeirlər:** Yar gələ. *Toplayan: S.Hüseynova.*

Hüseynov Alkərəm Fərrux oğlu, Cəbrayıl rayonu, Sirih kəndi, 1940, orta təhsilli, sürücü işləyib. Hazırda İmişli rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: Bismillahsız açılan süfrə; Hacı Qaraman (IV-V mətnlər); Hacı Qasım Çələbi (I-V mətnlər); Alı Çələbi (I mətn); Yasin Çələbi (II mətn); Həvəzə Çələbi; Düldül piri. *Toplayanlar: İ.Rüstəmzadə, Q.Qubadov.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hüseynov Hatəm İsmayıl oğlu, Tərtər rayonunun İrəvanlı kəndi, 71 yaşında, Orta ixtisas təhsilli. Söylədiyi mətn: Toyuq niyə uça bilmir? *Toplayan: S.Hüseynova*

Hüseynov Güləhməd Bayram oğlu, Füzuli rayonunun Mahmudlu kəndi, 74 yaş. Söylədiyi mətn: Bəsdi, şirin çay elədin. *Toplayan: M.Abbasova*

Hüseynov Vaqif Paşa oğlu, Tərtər rayonunun İrəvanlı kəndi, 1946-cı il təvəllüdlü. Söylədiyi mətn: Sarıcalı kəndi. *Toplayan: S.Hüseyova*

Hüseynova Mədinə Bayram qızı, Füzuli rayonunun Mahmudlu kəndi, 1926-cı il təvəllüdlü, təhsilsiz. Hazırda Füzuli rayonunun Əhmədbəyli kəndində məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətn:** İtə dönmüş insanlar. **Mərasimlər, ovsunlar:** Qorxunu götürmək (V mətn). **Yasaqlar:**14, 15, 16, 17, 18, 19, 20. **Nağıllar:** Üç bacı (II mətn); Canavar, qoyun və at; Tülkü və canavar; Siçan qoz oğurlamağa gedir. **Lətifələr:** Nadir tapıntı; Heş mənimki də ağıllı deyil; Mən gəlmişəm Alı bəyə baş çəkəm. **Bayatılar:** 109-116. **Laylalar, nazlamalar:** 11-16. **Düzgülər:** 7, 8. *Toplayan: M.Abbasova*

Hüseynova Minarə Məhəmməd qızı, Tərtər rayonunun İrəvanlı kəndi, 1948-ci il təvəllüdlü. 1959-cu ildə Vedi rayonunun Ağkənd kəndindən departasiya olunub. Söylədiyi mətnlər: **Tapmacalar.** 40-45. **Laylalar, nazlamalar:** 4, 18-21. **Müxtəlif şeirlər:** Gəlin-qayınana sözləri: 1, 2. *Toplayan: S.Hüseynova*

Hüseynova Zərifə Göyüş qızı, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi, təvəllüdü 1937. Hazırda Biləsuvar rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: Nuhun tufanı; Süleyman və Bilqeyis; İsa peyğəmbər; İsmayıl peyğəmbər; Veysəl Qərani; Hacı Qaraman (I mətn). *Toplayan: Bakı Avrasiya Universitetinin tələbəsi E.Nəcəfov.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İbadov Qabil Alı oğlu, Laçın rayonunun Kürdhacılı kəndi, təvəllüdü 1933. Vaxtilə kolxozda işləyib. Hazırda Şəki rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: İsgəndər (II mətn); Nadir şah; Aşıq Ələsgər; Qaçaq Nəbi (II mətn); Ala inək. *Toplayan: L.Süleymanova*

İbadova Pakizə Cavanşir qızı, Laçın rayonunun Kürdhacılı kəndi, təvəllüdü 1936. Hazırda Şəki rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: Cin haqqında (V-VI mətnlər); Tas qurma (I mətn). **Bayatılar:** 1-6. *Toplayan: L.Süleymanova*

İbrahimova Minayə Məhəmməd qızı, Kəlbəcər rayonu, 1936-cı il təvəllüdlü, orta təhsilli. Hazırda Füzuli rayonunun Zobucuq qəsəbəsində məskunlaşıb. Söylədiyi mətnlər: Hal (VII mətn); Peyğəmbərin meraca getməsi; Şıx Həsən (I-IV mətnlər); Qurdağzı bağlama (II mətn); Günəşi çağırmaq (I-II mətnlər); Xəncərin şahidliyi (II mətn); Hacı Şirin haqqında lətifələr. *Toplayan: M.Abbasova*

İmanova Qızbəs Kərim qızı, Füzuli rayonunun Horadiz kəndi, 1958-ci il təvəllüdlü, təhsilsiz. Daşdurunda məskunlaşıb. Söylədiyi mətn: Xan kəhrizi. *Toplayan: M.Abbasova*

İsfəndiyarova Nazənin, Zəngilan rayonunun Əmircanlı kəndi, 1932-ci il təvəllüdlü, orta təhsilli. Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanasında məskunlaşıb. Söylədiyi bayatılar: 125-136. **Laylalar, nazlamalar:** 1, 2, 3. *Toplayan: M.Abbasova*

İsgəndərova Elmira Rasim qızı, Zəngilan rayonunun Qızılca kəndi, 1974-cü il təvəllüdlü, orta təhsilli. Bakı şəhəri 39 saylı məktəbin yardımçı binasında məskunlaşıb. Söylədiyi mətnlər: Goreşən; Sarı Aşıq. **Mərasimlər, ovsunlar:** Həmzatlı qadın (II-III mətnlər); Qurdağzı bağlama (I mətn); Dumanı qovma; Bədnəzər haqqında (I mətn); Qorxunu götürmək (I mətn); Ruh tutma (I mətn); Yas adətləri (I-IV mətnlər); Toy adətləri (I mətn); Axır çərşənbə (II mətn). **İnamlar:** Pişiklə bağlı inamlar (I-IV mətnlər). **Nağıl:** Əcəldən qaçmaq olmaz (I mətn). *Toplayan: M.Abbasova*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İsmayılova Dəstəgül Abdulla qızı, Füzuli rayonunun Alıxanlı kəndi. Hazırda Cəlilabad rayonunun Ocaqlı kəndində məskunlaşıb. Söylədiyi bayatılar: 233-239. *Toplayanlar. B.Hüseynov, E.Abbasov*

İsmayılova Xanımnaz Həsən qızı, Tərtər rayonunun İrəvanlı kəndi, 1950-ci il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: Toy adətləri (II mətn); Şah Abbasın anası kimi zarıma; Nə baş yarmısan, nə başın yarılıb; Bundan başqa doqquzcağı qalıb; Hacı bilər, hələ dinməz; Şir gəlir aslan üstünə. **Bayatılar:** 201-214. *Toplayan: S.Hüseynova*

Kalbalıyev Musa İsmayıl oğlu, Laçın rayonunun Sadınlar kəndi, təvəllüdü 1954, orta təhslilli. Vaxtilə çoban olub. Hazırda Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Qaraçuxa (I mətn); Qoyun, qarnınız doymasın (I mətn); Peyğəmbərin iti və tütəyi; Əli bulağı; Xoçaz qayası; Qoç Navır; Soltan bəy Andranikin dəstəsini necə mühasirəyə salır? (II mətn); Paqarat ermənisi. **Mərasim və ovsunlar:** Tüfəngin çiləyə düşməsi. **Nağıllar:** İnsanın tamahı; Kim çox yeyər? **Lətifələr:** Çata bilirəm görəm kimindi? *Toplayanlar: İ.Rüstəmzadə, Q.Qubadov.*

Kamalova Salatın, Tərtər rayonunun İrəvanlı kəndi, 79 yaş. Söylədiyi mətn: Naxırçının nağılı. *Toplayan: S.Hüseynova*

Kərimova Səfurə Paşa qızı, Tərtər rayonunun Qapanlı kəndi, təvəllüdü 1935. Söylədiyi bayatılar: 198-200. *Toplayan: S.Hüseynova*

Mamedova Abuzəndə Bəhman qızı, Kəlbəcər rayonu, 1933-cü il təvəllüdlü, evdar qadın. Buzovna qəsəbəsində məskunlaşıb. Söylədiyi bayatılar: 15-28. *Toplayan: G.Həsənova*

Mehbalıyev Nizaməddin Dəsgirəli oğlu, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi, təvəllüdü 1952, orta təhsilli. Hazırda Biləsuvar rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: Ülkər ulduzu (I mətn); Sağmal ulduzu; Quyruq dondu (I mətn). *Toplayan: E.Abbasov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məmmədov Allahverdi, Ağdam rayonunun Zəngişallı kəndi, 58 yaşında, ali təhsilli. Söylədiyi mətnlər: Sofu Rüstəm piri; Eşq-Abdal piri; Mat qalmışam. *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva.*

Məmmədov Ələsgər Əsgərxan oglu, Kəlbəcər rayonunun Əsrik kəndi, 1970-ci il təvəllüdlü. Hazırda Buzovna qəsəbəsində məskunlaşıb. **Söylədiyi tapmacalar:** 22-29. **Bayatılar:** 41-45. *Toplayan: G.Həsənova*

Məmmədov Oruc Cümşüd oğlu, Cəbrayıl rayonunun Çapat kəndi, 1932-ci il təvəllüdlü. **Söylədiyi nağıllar:** Balığı at dəryaya, balıq bilməsə, xalıq bilər; Qızıl axtaran Məhəmməd; Xəncərin şahidliyi (I mətn). *Toplayanlar: S.Qarayev, H.Quliyev*

Məmmədov Camal İnqilab oğlu, Tərtər rayonu, 54 yaş. Söylədiyi mətnlər: Bədnəzər haqqında (IX mətn). *Toplayanlar: L.Süleymanova, T.Orucov*

Məmmədova Ağıcı İsgəndər qızı, Kəlbəcər rayonunun Əsrik kəndi, təvəllüdü 1929, evdar qadın. Hazırda Buzovna qəsəbəsində məskunlaşıb. Söylədiyi bayatılar: 29-40. *Toplayan: G. Həsənova*

Məmmədova Tamam Hüseyn qızı, 1930-cu ildə Vedi rayonunun Yenicə kəndində anadan olub, təhsilsiz. 1953-cü ildə Ermənistandan deportasiya olunub. Hazırda Tərtər rayonunun İrəvanlı kəndində məskunlaşıb. Söylədiyi mətnlər: Bədnəzər haqqında (III mətn); Kürd qızına vurulan oğlan. **Bayatılar:** 215-222. **Müxtəlif şeirlər:** Altı qıza tərif. *Toplayan: S.Hüseynova*

Məmmədova Zərnigar İmaməli qızı, Ağdam rayonunun Yusifcanlı kəndi, təvəllüdü 1918. Söylədiyi bayatılar: 80-89. *Toplayanlar: S.Qarayev, H.Quliyev.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonunun Dağ Tumas kəndi, 1930-cu il təvəllüdlü, yeddi illik təhsil, evdar qadın. Hazırda İmişli rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Qurd donuna girən qadın (II mətn); Zəmzəm suyu; Balığın qarnı niyə qaradır? Fatma nənə. **Əfsanə və rəvayətlər:** Alı Çələbi (II-III mətnlər); Tumas ata (I-II mətnlər); Dərviş Pirim; Aşıq qəbri; Devlər sarayı. **İnamlar:** Cin dəyişəyi. **Bayatılar:** 390-397. *Toplayanlar: İ.Rüstəmzadə, Q.Qubadov.*

Mirzəyev Əyyub Lətif oğlu, Ağdam rayonunun Keşdaz kəndi, 85 yaşında. Vaxtilə ferma müdiri işləyib. Hazırda Xətai rayonu, Gəncə prospekti 224 saylı baxçada məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Qabartdı çayı; Muradbəyli kəndi; Eyvazxanbəyli kəndi; Pənah xan. **İnamlar:** Canavar haqqında. *Toplayanlar: F.Qasımova, G.Canməmmədova*

Nəsirova Əfiqə Hilal qızı, Ağdam rayonunun Əfədli kənd, 56 yaşında, orta ixtisas təhsilli. Söylədiyi bayatılar: 353-374. *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva*

Novruzov Şahsuvar İslam oğlu, Qubadlı rayonu, təvəllüdü 1929. Söylədiyi mətnlər: Süleyman peyğəmbərin ölümü; İbrahim peyğəmbər. *Toplayan: E.Əmirli*

Orucova Raya İslam qızı, Tərtər rayonunun Evoğlu kəndi, təvəllüdü 1942. Söylədiyi mətnlər: **Mərasimlər, ovsunlar:** Gec yeriyən uşağın çiləsinin kəsilməsi (II mətn); Yağışı kəsdirmək. **Bayatılar:** 165-177. *Toplayanlar: L.Süleymanova, T.Orucov*

Orucova Mənsurə Çərkəz qızı, Tərtər rayonunun Evoğlu kəndi, 1936-cı il təvəllüdlü. Söylədiyi mətnlər: **Lətifələr:** Özləri öz əməllərinə tuş oldu. **Tapmacalar:** 58-60. *Toplayanlar: L.Süleymanova, T.Orucov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Paşayeva Əsli Kazım qızı, Ağdam rayonunun Çəmənli kəndi, 80 yaşlı. Söylədiyi tapmacalar: 46-57. *Toplayan: R.Xəlilov*

Qarayev Pənah Balaxan oğlu, Füzuli rayonunun Zərgər kəndi, 55 yaşında. Söylədiyi mətn: Bişibitdənin nağılı. *Toplayanlar: S.Qarayev, H.Quliyev.*

Qarayeva Mehriban Balaxan qızı, Füzuli rayonunun Zərgər kəndi, 62 yaşında. Söylədiyi mətnlər: Tülküdən qorxan Əhmədin nağılı; Dana, keçi və toğlu; Dəvə, xoruz və eşşəyin nağılı; Tülkü, tısbağa və dəvə. *Toplayanlar: S.Qarayev, H.Quliyev.*

Qarayeva Məxmər Mürşüd qızı, Füzuli rayonunun Zərgər kəndi, 67 yaşında. Bakıxanov qəsəbəsindəki 5 saylı yataqxanada məskunlaşıb. Söylədiyi mətnlər. **Nağıllar:** Gudulun nağılı. **Bayatılar:** 46-56, 71-79. *Toplayanlar: S.Qarayev, H.Quliyev.*

Qasımov Şirin Oruc oğlu, Cəbrayıl rayonunun Əmirvarlı kəndi, təvəllüdü 1950, orta təhsilli. Hazırda Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: Hal (III-IV mətnlər); Ülkər ulduzu (III mətn); Çoban ulduzu; Karvanqıran ulduzu (I mətn); Qoyun, qarnınız doymasın (II mətn); Hacı Qaraman (VI mətn); Hacı Qasım Çələbi (VIII mətn); Əmirvarlı; Dəvə kəsən Məmmədli; Pəhlivanlar haqqında (I-III mətnlər). İlan tutan seyidlər (I mətn); Bəyquş haqqında (I mətn); Dəryadan çıxan əl (I mətn). *Toplayanlar. İ.Rüstəmzadə, Q.Qubadov.*

Qədimov Paşa Hüseyn oğlu, Tərtər rayonunun Hacallı kəndi, 91 yaşında. Söylədiyi mətnlər: **Lətifələr:** Çalın, zurnaçılarım, çalın; Uzadersan, uzat da. **Müxtəlif şeirlər:** Durnam. *Toplayan: S.Hüseynova*

Qədimova Bənövşə Mürsəl qızı, Tərtər rayonunun Hacallı kəndi, 85 yaşında, orta təhsilli. 1948-ci ildə Vedi rayonunun Yellicə kəndindən deportasiya olunub. Söylədiyi mətnlər: **Nağıllar:** Qalaqlıqda yeyilən ehsan. **Lətifələr:** Altı daş, üsdü aş, yenə də oğul yaxşıdır; Saqqız satan, qırsatan, bir də rəhmətlik sənin atan. *Toplayan: S.Hüseynova*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quliyeva Əntiqə, Ağdam rayonunun Əfəddi kəndi, 78 yaşında, orta təhsilli. Söylədiyi mətnlər: **Yasaqlar:** 12. **Bayatılar:** 348-352. *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva.*

Quliyev Məmməd Zülfüqar oğlu, Ağdam rayonunun Zəngişallı kəndi, 1935-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Qızların özünü öldürməsinin qarşısı necə alınır?; Bu mənim eşşəyimə oxşayır. *Toplayanları: S.Qaybalıyeva, T.Əliyeva.*

Qurbanov Əliqulu, Ağdam rayonunun Poladlı kəndi, 1925-ci il təvəllüdlü. Söylədiyi mətnlər: Abdal Qasım əmisi oğlunun qisasını alır; Zəhmətin qədri; Allah yetirsin; Aramızdan iki eşşək arabası keçər; Dişdək-dişdək edib. *Toplayan: İ.Qasımov*

Qurbanova Diləfruz, Ağdam rayonunun Poladlı kəndi, təvəllüdü 1931, təhsilsiz. **Söylədiyi bayatılar:** 319-328. *Toplayan: İ.Qasımov*

Sadıqov Güloğlan İbrahim oğlu, Tərtər rayonu, 1968-ci il təvəllüdlü. Yas mərasimlərini aparır. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Məhəmməd peyğəmbər və Əzrayıl; Ən şərafətli insan; Seyid Əzizə ağa (I-III mətnlər), Süleyman və kirpi; İsgəndər (I mətn); Qismətdən qaçmaq olmaz; Əcəldən qaçmaq olmaz (III mətn); *Toplayanlar: L.Süleymanova, T.Orucov*

Seyid Sərxan, Ağdam rayonunun Əfəddi kəndi, 58 yaş, orta təhsilli. Söylədiyi mətnlər: Qara daşın içindəki qurt; Peyğəmbər və çoban; Yas adətləri (VI-VIII mətnlər). *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva.*

Səfərova Gözəl, Ağdam rayonunun Qaradağlı kəndi, təvəllüdü 1918, evdar qadın. Söylədiyi mətnlər: Ən şirin qadın; Çinar niyə ucadı?; Ölmüş itə bir təpik. **Bayatılar:** 316-318. *Toplayan: İ.Qasımov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səmədov Mürsəl Əhməd oğlu, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi, 1934-cü il təvəllüdlü. Söylədiyi mətn: Hal (XI mətn), Kor kişinin nağılı. *Toplayan: E.Nəcəfov.*

Süleymanov Telman Qara oğlu, Cəbrayıl rayonunun Karxulu kəndi, təvəllüdü 1939, orta təhsilli. Hazırda Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** İnsanın yaranması; Qaraçuxa (II mətn); Şeytan (I mətn); Hal (V mətn); Cin haqqında (III mətn); Lələ haqqında (I-III mətnlər); Maymaan çinarı. **İnamlar:** Bəyquş haqqında (II mətn); **Nağıllar:** Altı şahılıq ruzu (II mətn); Şah Abbas və naxırçı qızı; Əcəldən qaçmaq olmaz (II mətn). *Toplayanlar. İ.Rüstəmzadə, Q.Qubadov.*

Süleymanova Xanım Salman qızı, Ağdam rayonunun Güllücə kəndi, təvəllüdü 1958. Bayatıları atasından eşidib. Hazırda Bakı şəhərində yaşayır. Söylədiyi bayatılar: 225-231. *Toplayanlar: B. Hüseynov, E.Abbasov*

Şahbazov Əliəşrəf Xəlil oğlu, Tərtər rayonunun İrəvanlı kəndi, 90 yaşında. Söylədiyi nağıl: İki yolçuynan dərviş. *Toplayan: S.Hüseynova*

Şahbazova Südabə Əliəşrəf qızı, Tərtər rayonunun İrəvanlı kəndi, 1961-ci il təvəllüdlü. Söylədiyi nağıl: Allah görür. *Toplayan: S.Hüseynova*

Şəmilova Dursun, Tərtər rayonunun Borsulu kəndi, 80 yaşında. Söylədiyi bayatılar: 290-315. *Toplayan: R.Xəlilov*

Şükürova Firuzə Hətəm qızı, Kəlbəcər rayonu, 1942-ci il təvəllüdlü, orta təhsilli. Beyləqan rayonunun Dünyamalılar kəndində məskunlaşıb. Söylədiyi mətnlər: Hal (IX-X mətnlər); Şıx Həsən (V-VIII mətnlər). *Toplayan: M.Abbasova*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Verdiyeva Simuzər Məhəmməd qızı, Kəlbəcər rayonunun Əsrik kəndi, təvəlldü 1934. Şamaxı rayonunun Çuxuryurd kəndində məskunlaşıb. Söylədiyi mətnlər: **Tapmacalar:** 1-21. **Düzgülər:** 1-5. *Toplayan: G.Həsənova*

Xanalıyev Əlyar Xanalı oğlu, Füzuli rayonunun Mahmudlu kəndi, 1942-ci il təvəllüdlü. Vaxtilə kolxozda çalıb. Füzuli rayonunun "Qayıdış" qəsəbəsində məskunlaşıb. Söylədiyi mətnlər: Şeşə buynuzlar bizi yeyəcək; Xələfşə armudu. *Toplayan: M.Abbasova*

Xudiyeva Filyar Hüseyn qızı, Ağdam rayonunun İsmayılbəyli kəndi, 1926-cı il təvəllüdlü. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Əli bulağı və narlıq meşəsi; Hal (I-II mətnlər); Cin (I mətn). İlan tutan seyidlər (II mətn); Tas qurma (II mətn). **Nağıllar:** Seyfəlmülkün nağılı; Qaraçuxasını axtaran oğlan; Dəmirçinin əli niyə odda yanmır?; Allah xofu; Altı şahılıq ruzu (I mətn); Qaraçuxa və ağıllı qız; Süleyman və qoca dünya. *Toplayanlar: S.Qarayev, H.Quliyev.*

Yadigarov Namaz Əyyub oğlu, Füzuli rayonunun Horadiz kəndi, 1959-cu il təvəllüdlü, orta təhsilli. Hazırda Füzuli rayonunun Zobucuq qəsəbəsində məskunlaşıb. Söylədiyi mətnlər: İmamzadə; Göyzəlli adam. *Toplayan: M.Abbasova*

Zeynalova Səfura Cəfər qızı, Ağdam rayonunun Xındırıstan kəndi, 79 yaşında, orta təhsilli. Söylədiyi mətn: Həmzatlı qadın (IV mətn); Suyun mələkləri. **Laylalar, nazlamalar:** 12. *Toplayanlar: S.Qaybalıyeva, T.Əliyeva.*

Ziyadova Sərfinaz Əhmədxan qızı, Füzuli rayonunun Gecəgözlü kəndi, 1950-ci il təvəllüdlü, orta təhsilli. Beyləqan rayonunun Milabad üzümçülük savxozunda məskunlaşıb. Söylədiyi mətnlər: Cin haqqında (IV mətn); Yağış yağdırmaq (IV mətn); Ruh tutma (II mətn); İlan haqqında (I mətn). **Bayatılar:** 106-108. *Toplayan: M.Abbasova*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BAŞLIQLAR

**Tərtibçidən**.......................................................................3
**I MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**......5
İnsanın yaranması.......................................................5
Qaraçuxa.....................................................................5
Fatma ananın hanası...................................................7
Qurd donuna girən qadın............................................7
Ovun insana dönməsi..................................................9
İtə dönmüş insanlar...................................................10
Şeytan........................................................................11
Hal haqqında.............................................................13
Cin haqqında.............................................................19
Goreşən.....................................................................23
Suyun mələkləri........................................................23
Ülkər ulduzu.............................................................23
Çoban ulduzu............................................................24
Sağmal ulduzu...........................................................24
Yeddilər.....................................................................25
Karvanqıran ulduzu...................................................25
Karvanqıran ağacı.....................................................26
Quyruq dondu...........................................................26
Yazın qırxbeşi...........................................................27
Zəmzəm suyu............................................................27
Milçək süfrəyə niyə tez gəlir?...................................27
Balığın qarnı niyə qaradır?.......................................28
Kimin zəhəri güclüdür?............................................29
Heyvanların padşahı..................................................29
Ən şirin qadın............................................................30
Söyüd niyə utanır?....................................................30
Çinar niyə ucadı?......................................................31
Qızların özünü öldürməsinin qarşısı necə alınır?.......31
Toyuq niyə uça bilmir?.............................................32
**Peyğəmbərlər və dini şəxsiyyətlər haqqında**.................33



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Adəmin oğlanları ....................................................................33
Nuhun tufanı ........................................................................34
Qara daşın içindəki qurt .......................................................36
Peyğəmbər və çoban .............................................................36
Qoyun, qarnınız doymasın ....................................................37
Süleyman və Bilqeyis ............................................................38
Süleyman peyğəmbərin ölümü ..............................................39
Süleyman peyğəmbərin üzüyü ...............................................39
Süleyman və kirpi ..................................................................41
İbrahim peyğəmbər ................................................................42
İsmayıl peyğəmbər .................................................................44
İsa peyğəmbər ........................................................................46
Məhəmməd peyğəmbərin ölümü ............................................46
Peyğəmbərin meraca getməsi .................................................47
Peyğəmbər və qızı ..................................................................48
Peyğəmbərin iti və tütəyi .......................................................49
Məhəmməd peyğəmbər və Əzrayıl ........................................49
Həzrət Əli və Yezid ................................................................49
Ən şərafətli insan ...................................................................50
Fatma nənə ............................................................................52
Veysəl Qərani .........................................................................52
Bismillahsiz açılan süfrə ........................................................53
**Pirlər və ocaqlar haqqında ..................................................54**
Hacı Qaraman ........................................................................54
Hacı Qasım Çələbi .................................................................58
Alı Çələbi ...............................................................................63
Yasin Çələbi ...........................................................................66
Həvəzə Çələbi ........................................................................67
Seyid Həmzə Nigari ...............................................................68
Lələ haqqında ........................................................................68
Mir Sədi Ağa ..........................................................................69
Tumas ata ...............................................................................70
Dərviş Pirim ...........................................................................71
Düldül piri ..............................................................................72



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq qəbri ...........................................................................72
İmamzadə piri......................................................................73
Məmmədli ocağı...................................................................75
Seyid Məhəmməd bulağı......................................................76
Şıx Həsən.............................................................................76
Kəblə İsmayıl ......................................................................80
Kəblə Fərzalı .......................................................................81
Əli bulağı və narlıq meşəsi ..................................................83
Sofu Rüstəm piri..................................................................84
Eşq Abdal piri......................................................................85
Damcı bulaq ........................................................................85
Gəldim qayası......................................................................85
Qayb ocağı ..........................................................................86
Əli bulağı.............................................................................86
Xoçaz qayası........................................................................87
Maymaan çinarı...................................................................87
İmamzadə ............................................................................88
Hacı Arab ziyarətgahı..........................................................88
Seyid Məmməd ağa .............................................................89
Seyid Əzizə ağa ...................................................................89
Seyid Xəlil ocağı .................................................................91
**Yer adları, kənd və qalalar haqqında ...................................91**
Qız qalası.............................................................................91
Qoç navır .............................................................................94
Əmirvarlı .............................................................................95
Dəvə kəsən Məmmədli.........................................................95
İlan qayası............................................................................96
Devlər sarayı........................................................................96
Oğlan-qız dərəsi ..................................................................96
Xan kəhrizi .........................................................................96
Qabartdı çayı .......................................................................97
Muradbəyli kəndi ................................................................98
Eyvazxanbəyli kəndi ...........................................................98
Sarıcalı kəndi.......................................................................99



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Abdal kəndi ....................................................................100
**Tarixi şəxsiyyətlər haqqında..............................................100**
İsgəndər ........................................................................100
Nadir şah.........................................................................102
Pənah xan ......................................................................104
**Qarabağın tanınmış adamları haqqında ............................105**
Soltan bəy Andranikin dəstəsini necə mühasirəyə salır? ..105
Paqarat ermənisi .............................................................106
Abdal Qasım əmisi oğlunun qisasını alır .........................107
Abdal Qasımın qoçaqlığı.................................................107
Erməni-müsəlman müharibəsində Abdal Qasımın fəaliyyəti.........................................................................110
Qasımın atıcılığı .............................................................110
Qasım necə olur oğurluq edir? ........................................111
Qara Qasım.....................................................................112
Sarı Aşıq .........................................................................113
Aşıq Valeh.......................................................................114
Aşıq Ələsgər ...................................................................115
Aşıq Abbas .....................................................................119
Qaçaq Nəbi.....................................................................120
**Müxtəlif mövzulu rəvayətlər...............................................125**
Alı qazan gəzdirən kimi nə gəzdirirsən? ..........................125
Şeşə buynuzlar bizi yeyəcək............................................126
Ölmüş itə bir təpik..........................................................127
Göyzəlli adam.................................................................127
Gəlinin arzusu.................................................................128
Ala inək ..........................................................................129
Pəhlivanlar haqqında .......................................................131

**II MƏRASİMLƏR, OVSUNLAR ..........................................133**
Tasqurma ........................................................................133
Körpə uşağın qırxının tökülməsi .....................................135
Göbəyin düşürülməsi.......................................................136
Uşağın dil açması ...........................................................136



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gec yeriyən uşağın çiləsinin kəsilməsi ............................137
Həmzatlı qadın ...............................................................138
Qorxunu götürmək .........................................................140
Boğaz ağrısı....................................................................141
Qurdağzı bağlama..........................................................141
Tüfəngin çiləyə düşməsi................................................142
Dumanı qovma ...............................................................142
Yağış yağdırmaq............................................................142
Yağışı kəsdirmək...........................................................143
Günəşi çağırmaq............................................................143
Bədnəzər haqqında ........................................................144
Ruh tutma ......................................................................146
Yas adətləri.....................................................................147
Toy adətləri.....................................................................149
Axır çərşənbə..................................................................150
İlan tutan seyidlər ..........................................................152

**III İNAMLAR ...........................................................154**
Cin dəyişəyi ...................................................................154
Pişiklə bağlı inamlar......................................................155
Canavar haqqında ..........................................................156
İlan haqqında .................................................................156
Bəyquş haqqında ...........................................................157
Sağsağan haqqında ........................................................158
Çinar ağacı.....................................................................158
Çörək haqqında..............................................................159
Rəqəmlə bağlı inam.......................................................159
Ağacı qorxutmaq ...........................................................159
Təzə doğulan uşaq haqqında ..........................................160

**IV YASAQLAR ..........................................................161**
**V NAĞILLAR..............................................................163**
On iki qardaşın nağılı .....................................................163
Balığı at dəryaya, balıq bilməsə də, Xalıq bilər ...............182



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Seyfəlmülkün nağılı ........................................................191
Bişibitdənin nağılı ..........................................................196
Gudulun  nağılı................................................................199
Qaraçuxasını axtaran oğlan ..............................................201
Ovçu oğlanla məleykə......................................................203
Qızıl axtaran Məhəmməd..................................................208
Dəmirçinin əli niyə odda yanmır?...................................213
Allah xofu.........................................................................216
Həzrət Əli .........................................................................218
Xəncərin şahidliyi............................................................221
Altı şahılıq ruzu ...............................................................225
Allaha pənah.....................................................................233
Bağışlanmaz günahkar .....................................................234
Qalaqlıqda yeyilən ehsan..................................................236
Naxırçının nağılı...............................................................239
Allah görür .......................................................................240
İki yolçuynan dərviş .........................................................241
Süleyman və qoca dünya..................................................243
Yazıya pozu yoxdur..........................................................244
Bəhlul Danəndənin qardaşlığı ..........................................259
Qismətdən qaçmaq olmaz ................................................265
Şah Abbas və naxırçı qızı.................................................266
Əcəldən qaçmaq olmaz ....................................................270
İnsanın tamahı .................................................................273
Kasıb oğlan.......................................................................276
Allahdan istəyən qız ........................................................281
Üç bacı.............................................................................289
Qaraçuxa və ağıllı qız.......................................................296
Hər işin başı səbrdir.........................................................298
Kor kişinin nağılı..............................................................300
Tülküdən qorxan Əhmədin nağılı ....................................305
Zəhmətin qədri ................................................................308
Allah yetirsin ...................................................................309
Şah Abbasla dərvişlər......................................................311



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kimin yalanı uzun olar ......314
Dana, keçi və toğlu ......317
Dəvə, xoruz və eşşəyin nağılı ......320
Tülkü, tısbağa və dəvə ......321
Tülkü və canavar ......322
Canavar, qoyun və at ......326
Kim çox ot yeyər? ......327
Əyri tut ağacı ......327
Siçan qoz oğurlamağa gedir ......328

**VI LƏTİFƏLƏR ......330**
**Molla Nəsrəddin haqqında ......330**
Bir yana çıxarıq ......330
Eşşək elə sənin eşşəyindi ......331
Apar ulağı suvar ......331
Ölü halva yeyər? ......332
**Bəhlul Danəndə haqqında ......332**
Eşşək, sənə deyirəm, qonaq, sən eşit ......332
Dəryadan çıxan əl ......335
Bəhlul evlənmək istəmir ......336
Özləri öz əməllərinə tuş oldu ......336
**Abdal Qasım haqqında ......337**
Qoyunlar Müseyibin pəyəsində olacaq ......337
Mən bu vaxta qalan döyüldüm ......338
Bəy kimi yal yalayır ......338
Qasımın andı ......338
Nə bilim sənin ağan qamışlıqda gizlənib? ......339
Bu mənim eşşəyimə oxşayır ......340
Mat qalmışam ......341
Aramızdan iki eşşək arabası keçər ......341
Dişdək-dişdək edib ......342
**Bic Qənbər haqqında ......343**
Ömürlük köklənib ......343
Samovarda gizlədilmiş pul ......343



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Haci Şirin haqqında** ............................................................ 344
Hazırcavab Hacı Şirin ..................................................... 344
Sizin yerin qanqalı, bizim yerin armudundan çoxdur ....... 344
**Müxtəlif mövzulu lətifələr** ..................................................... 344
Nadir tapıntı ........................................................................ 344
Şah Abbasın anası kimi zarıma ........................................ 345
Heç mənimki də ağıllı deyil ............................................. 345
Gəzəyən arvad ..................................................................... 345
Altı daş, üsdü aş, genə də oğul yaxşıdır ........................... 346
Saqqızsatan, qırsatan, bir də rəhmətlik sənin atan ............ 348
Nə baş yarmısan, nə başın yarılıb ..................................... 349
Altdan quru, üstən yaş ....................................................... 349
Çalın, zurnaçılarım, çalın ................................................. 351
Uzadersan, uzat da! .......................................................... 352
Xələfşə armudu ................................................................. 353
Bəsdi, şirin çay elədin ..................................................... 353
Deyəsən, kol tərpəndi ...................................................... 354
Arvad, şilən durudur ........................................................ 354
Yedilər, içdilər, dağılışdıq ................................................ 355
Bundan başqa doqquzcağı qalıb ....................................... 355
Kişi ağzında qızıl xırdalayır ............................................. 356
Hacı bilər, hələ dinməz ..................................................... 357
Atın züy tutanı ................................................................... 357
Hər kəs öz balasını apardı ................................................ 358
Top atsam, hara qaçassan? ............................................... 359
Deyərdim elə mənim atımdı ............................................. 360
Şir gəlir aslan üstünə ......................................................... 360
Kürd qızına vurulan oğlan ................................................. 360
Mən gəlmişəm Alı bəyə baş çəkəm .................................. 362
Siz sağ olun ....................................................................... 362
Qızıl quşnan qarğa ............................................................ 362
Söz yarası .......................................................................... 363
Çata bilirəm, görəm kimindi? ........................................... 363



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**VII ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR...................................364**
**VIII ALQIŞLAR, QARĞIŞLAR..............................................367**
**IX TAPMACALAR...................................................................375**
**X BAYATILAR .........................................................................380**
**XI DEYİŞMƏLƏR ....................................................................410**
**XII BAĞLAMALAR....................................................................411**
**XIII SAYAÇI SÖZLƏR...............................................................412**
**XIV LAYLALAR, NAZLAMALAR .........................................414**
**XV NƏĞMƏLƏR, MƏRSİYƏLƏR...........................................417**
Haxıştalar.........................................................................417
Ya mənim səbrimi ver, ya da sevgimi..............................418
Bir otax tikdirdim, tamamı kaşı.......................................418
Keçəçi nəğməsi.................................................................419
İmamlar haqqında............................................................420
Cənabi Əli-Əkbərin sinədanı............................................424
**XVI DÜZGÜLƏR ...................................................................425**
**XVII UŞAQ OYUNLARI........................................................428**
Dəlsdəsmal oyunu ...........................................................428
**XVIII MÜXTƏLİF ŞEİRLƏR ..............................................430**
Məzahir Daşqınnan Şair Hacı..........................................430
Qəmkeş Allahverdi...........................................................431
Şıxlı Qurbanla Şair Bəhmən.............................................432
Aşıq Məhərrəmlə Salahlı Paşa ........................................434
Aşiq Şəmşir .....................................................................435
Altı qıza tərif ...................................................................436
Gəlin-qayınana sözləri......................................................437
Giliyə ................................................................................437
Durnam..............................................................................438
Yar gələ .............................................................................439
Gördünmü..........................................................................439
Bazar tərifləri.....................................................................440
**Digər şeir parçaları...............................................................440**
**Söyləyicilər haqqında məlmat.................................................442**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qarabağ: folklor da bir tarixdir, III kitab**
**(Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri)**. Bakı, "Elm və təhsil", 2012.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Elçin Abbasov**

Kompyuterdə yığan:
**Səfa Əliyeva**

Korrektor:
**Könül Əliyeva**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 39 ç/v
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, "Elm və təhsil" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com